**Azərbaycan Universiteti**

# HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI

## Beynəlxalq elmi konfransı

**12 may 2023-cü il**

# International conference on

# HEYDAR ALIYEV AND TURKIC WORLD

**12 May, 2023**

**Baku | AZERBAIJAN**

## Organizing Committee

**CHAIRMAN**

**Saadat Aliyeva,** Rector, Azerbaijan University

**MEMBERS**

**Yusif Gasimov,** Azerbaijan University

**Yagub Mahmudov,** Active Member of ANAS, Baku State University

**Nizami Jafarov,** Active Member of ANAS, Ataturk Center in Azerbaijan

**Ismayil Hajiyev,** Active Member of ANAS, Nakhchivan branch of ANAS

**Gabil Aliyev,** Azerbaijan University

**Anar Iskandarov,** Baku State University

**Nushaba Guliyeva,** Azerbaijan University

**Bekzodç Toshpulatov,** Karshi State University, Karshi, Uzbekistan

**Ulviyya Rahimova,** Azerbaijan University

**Jasurbek Eshtemirov,** Karshi Regional Branch of the Academy of Public Administration under the President of the Republic of Uzbekistan, Karshi, Uzbekistan

**Baha Ahmet Yilmaz,** Ege University, Turkiye

**Irada Huseynova,** Baku State University

**Bilgehan Gultekin,** Ege University, Türkiye

**Latifa Aghamaliyeva,** Azerbaijan University

**Safar Mammadov,** Azerbaijan University

**Tunzala Verdiyeva,** Azerbaijan University

**Samira Mammadova,** Azerbaijan University

**Nariman Boyukkishi,** Azerbaijan University

**Elvin Talishinsky,** Azerbaijan University

**Tural Gojayev,** Azerbaijan University

**CONTENTS**


**PLENARY TALKS**

**Ярметов Жуманазар**.......................................................................................... 10
Гейдар Алиев – символ дружбы

**Cəfərov Nizami**.................................................................................................. 13
Siyasətin ziyalılığı... və ziyalı siyasəti

**Hacıyev İsmayıl**................................................................................................. 16
Heydər Əliyevin siyasi fəaliyyətində türk dünyası məsələləri

**Hüseynova İradə**............................................................................................... 21
Heydər Əliyevin siyasi fəaliyyətinin hər bir dövrü Azərbaycan dövlətçiliyinin inkişafına yönəlmişdir

**Əliyev Qabil**...................................................................................................... 33
Heydər Əliyev və Cənubi Qafqaz respublikaları – Müstəqil Dövlətlər Birliyi münasibətləri

**SECTION TALKS**

**Аббасова Эллада**.............................................................................................. 41
Гейдар Алиев – ваятель культурного облика страны

**Abidova Səriyyə**................................................................................................ 43
Heydər Əliyevin Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli istiqamətində fəaliyyəti

**Ağayev Ceyhun**................................................................................................. 46
Büdcə daxilolmalarının formalaşmasının təməl prinsipləri Heydər Əliyevin iqtisadi siyasəti ilə bağlıdir

**Aydınova Səkinə**............................................................................................... 49
Ümummilli Lider Heydər Əliyevin siyasi diskursunda "Qaçqın" konseptinin ifadə resursları haqqında

**Bağırzadə Cavid**................................................................................................ 51
Ulu öndər Heydər Əliyev və Gəncənin 1993-1995-ci illər ictimai-siyasi həyatı

**Baxışov Məmmədağa**........................................................................................ 54
Ulu öndər Heydər Əliyev: Dövlət müstəqilliyinin möhkəmləndirilməsində xarici siyasətin rolu

**Böyükkişi Nəriman**........................................................................................... 58
Heydər Əliyev və Azərbaycan-Türkiyə iqtisadi əlaqələri

**Bülbülzadə Aysu**............................................................................................... 60
Heydər Əliyev və Azərbaycan Respublikasında dövlət quruculuğu

**Джафарли Фарида**........................................................................................................ 62
Основные аспекты социальной политики в период руководства Гейдара Алиева

**Çerkezoğlu Nilay**........................................................................................................ 64
"One Nation Two States" Azerbaijan and Turkiye relations in the field of health from past to present

**Dilənova Lalə**........................................................................................................ 65
Azərbaycan və Türkiyənin qarşılıqlı ictimai diplomatiya fəaliyyətləri

**Əhmədli Fərid**........................................................................................................ 68
Heydər Əliyev və azərbaycançılıq, türkçülük məfkurəsi

**Əhmədov Namiq**........................................................................................................ 70
Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və "Şərq Qapısı" qəzeti

**Ələkbərova Xədicə**........................................................................................................ 71
Heydər Əliyevin rəhbərliyi dövründə sosial rifah dövlətin əsas prioritet sahəsi kimi

**Əliyeva Günay**........................................................................................................ 73
Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi əlaqələrinin inkişafında Heydər Əliyevin rolu

**Əliyeva Təhminə**........................................................................................................ 75
Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Özbəkistan əlaqələri

**Əliyeva Yeganə**........................................................................................................ 78
Ulu Öndər Heydər Əliyevin mənəvi mirasının Türkiyə və Mərkəzi Asiyanın türk respublikalarında qorunması və təbliği

**Əzizova Vəfa**........................................................................................................ 81
Heydər Əliyev və Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı

**Faxtiyev İsmayıl**........................................................................................................ 83
Ümummilli Lider Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin strateji inkişaf xətti

**Hacıyev Asif, Aslanlı Nigar**........................................................................................................ 86
Heydər Əliyev və Gürcüstan türkləri

**Hacıyev Qasım**........................................................................................................ 89
Heydər Əliyev və Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları məsələsi

**Hacıyeva Aliyə**........................................................................................................ 95
Heydər Əliyev və Azərbaycan-Özbəkistan əlaqələri: "Böyük Ipək Yolu" layihəsi

**Hakan Kaya**........................................................................................................ 98
Haydar Aliyev'den günümüze Azerbaycan'da beşeri sermaye ve inovasyonun gelişimi

**Hasanov Elnur**............................................................................................................ 103
Tolerance and multicultural strategy of Heydar Aliyev

**Hümmətova (Pəniyeva) Günel**.......................................................................... 104
Heydər Əliyev və folklor

**Huseynova Elnura**........................................................................................................ 106
"A country with a strong economy is capable of everything!"- Heydar Aliyev

**Hüseynov Novruz**.......................................................................................................... 109
Heydər Əliyevin sosial siyasətində maliyyə nəzarətinin yeri və rolu

**İbrahimov Fuad**............................................................................................................. 111
Aqrar –sənaye sahəsində innovasiya siyasəti Ümummilli Liderin ideyalarının davamıdır

**İbrahimova Nərgiz**........................................................................................................ 113
Azərbaycan mədəniyyətinə Heydər Əliyev təsiri

**İsayeva Gülanə**............................................................................................................... 116
Heydər Əliyev və vergi siyasəti

**İsayeva Ləman**................................................................................................................ 120
Heydər Əliyevin iqtisadi siyasətinin uğurları

**Исмаилзаде Али**............................................................................................................ 123
Гейдар Алиев и формирование институциональных основ рыночной
экономики в Азербайджане

**İsmayılova Günel**........................................................................................................... 125
Heydər Əliyev və "Əsrin Müqaviləsi". İqtisadi aspektin təhlili

**İsmayılova  Günel**.......................................................................................................... 126
Heydər Əliyev şəxsiyyəti və Türk dünyası

**Исмаилова Наиля**.......................................................................................................... 129
Роль Гейдара Алиева в популяризации культурного наследия
Азербайджана-Лянкяран

**İsmayılov Şahismayıl**.................................................................................................... 130
Heydər Əliyevin uğurlu neft strategiyası

**Jabbarova Aynur**............................................................................................................ 133
Heydar Aliyev is the founder of the strategy leading Azerbaijan to sustainable
economic development

**Kazımbəyli İbrahim**....................................................................................................... 135
Heydər Əliyevin siyasi ideoloji baxışlarında ümumtürk məsələləri

**Kazımov Asəf**.................................................................................................................. 138
Təhsil- insan resursları inkişafının innovativ texnologiyası kimi

**Kazımova Elnarə**............................................................................................................ 141
Ulu Öndər Heydər Əliyev siyasətində mədəni irsin inkişafı

**Kərimova Gülarə**........................................................................................................... 143
Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti mənəviyyat və əxlaq məktəbidir

**Мамедова Ирана**.......................................................................................................... 145
Идеология азербайджанства в наследии Гейдара Алирза оглу Алиева

**Mərdiyev Rəfael**............................................................................................................. 147
Azərbycanın iqtisadi inkişafında beynəlxalq maliyyə insitutlarının Azərbaycana cəlb edilməsində Heydər Əliyevin rolu

**Mədətov Fərhad**............................................................................................................. 149
Zamana siğmayan rəhbər – S. Vurğunun "İnsan" pyesində H. Əliyev obrazı

**Mehdiyeva Ziynat**.......................................................................................................... 152
Economic reforms of Heydar Aliyev

**Mehraliyeva Saida**......................................................................................................... 155
Expanding cultural relations with the Turkish World Heydar Aliyev personality

**Məlikzadə Xanımbacı**.................................................................................................... 157
Heydər Əliyev "Manas" dastanının 1000 illik yubiley tədbirində

**Məmmədəliyeva Leyla**.................................................................................................. 160
Elçinin "Baş" romanınında Mahmud obrazı Heydər Əliyev obrazının prototipi kimi

**Məmmədova Samirə, Ağaməmmədova Şəbnəm**......................................................... 164
Ümümmilli Lider Heydər Əliyevin Azərbaycan və Böyük Britaniya mədəni əlaqələrində rolu

**Məmmədov Çingiz**........................................................................................................ 167
Heydər Əliyev və Azərbaycan elektroenergetikasının inkişaf strategiyası

**Mirzəyev Emil**................................................................................................................ 169
Xarici iqtisadi siyasətin formalaşmasında Heydər Əliyevin rolu

**Musayev Etibar**.............................................................................................................. 171
Azərbaycan gəncliyində formalaşan müasir prinsiplər

**Musəvi Samirə**................................................................................................................ 173
Heydər Əliyevin siyasi diskursunda presedent onimlər – fon biliyinə xitab edən persuazivlik kateqoriyası vasitələri kimi

**Nadirov Afiq**.................................................................................................................... 175
Türkdilli dövlətlərin mədəni əlaqələrinin inkişafında Heydər Əliyevin rolu (1993-2003-cü illər)

**Nəcəfova Günel**.............................................................................................................. 178
Əbədiləşən şəxsiyyət

**Назрин Огуз**....................................................................................................... 180
Деятельность Гейдара Алиева для сохранения исторической личности Хуршидбану Натаван

**Paşayev Zöhrab**....................................................................................................... 182
Azərbaycanda vergi siyasətinin müəyyənləşdirilməsi istiqamətləri

**Qarabağlı Rizvan**....................................................................................................... 186
Azərbaycan memarlığı müstəqillik illərində

**Гараев Таир**....................................................................................................... 188
Гейдар Алиев и реформы в банковской системе: проблема рисков в банковском секторе

**Gasimli Laman**....................................................................................................... 190
Haydar Aliyev's significant role in the translation sphere

**Qəhrəmanova Ulduz**....................................................................................................... 191
Türk dünyasnda H. Əliyev fenomen şəxsiyyət kimi

**Qələndərli Nigar**....................................................................................................... 193
Milli mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu

**Qələndərli Sona**....................................................................................................... 206
Heydər Əliyevin nəzəri-təcrübi konsepsiyası və hüquqi dövlət quruculuğu

**Quliyeva Xanım, Əliyeva Rühəngiz**....................................................................................................... 217
Ümummili Lider Heydər Əliyevin Azərbaycanda insan kapitalının formalaşmasında rolu

**Quliyeva Növrəstə**....................................................................................................... 219
Müstəqillik illərində Azərbaycan-Qazaxıstan münasibətləri

**Кулиева Нушаба**....................................................................................................... 223
Образовательная политика Гейдара Алиева в Азербайджане (Краткий Обзор)

**Qurbanova Günel**....................................................................................................... 226
Heydər Əliyev və ümumtürk tarixi

**Qurbanova Mirvari**....................................................................................................... 228
Heydər Əliyevin yerli azərbaycanlılara qarşı erməni zorakılıqlarının dünyaya tanıdılması üçün apardığı siyasət

**Rəhimova Ülviyyə**....................................................................................................... 231
Heydər Əliyevin türk xalqları arasında milli-mənəvi, siyasi-ictimai əlaqələrin yaranmasında və inkişafında müstəsna rolu

**Rüstəmova Nərgiz**....................................................................................................... 234
Milli Öndər Heydər Əliyevin idiolektində psixosomatik və paralinqvistik şərtlənməli frazeologizmlərin üslubi-funksional reallaşması

**Rüstəmova Cəmilə**........................................................................................................... 236
Ümummilli Lider Heydər Əliyevin idiolektində mürəkkəb cümlə modellərinin eksplikatur və implikatur ifadə fərqliliyi haqqında

**Rüstəmova Xədicə**........................................................................................................... 238
Ulu Öndər Heydər Əliyevin təhsil siyasətinin ekzistensiallıqda önəmi

**Rüstəmov Fazil**........................................................................................................... 241
Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafına dair

**Rüstəmzadə Aygün**........................................................................................................... 243
Heydər Əliyev – Azərbaycan elitar diskursunun aparıcı "Konsept Yaradıcı" (Concept Maker) aktoru kimi

**Safarova Parvana, Javadova Aytac**........................................................................... 245
Azerbaijan - Turkey relations - Great Leader Heyder Aliyev

**Səfərova Günel**........................................................................................................... 247
Heydər Əliyevin hakimiyyət illərində Azərbaycan iqtisadiyyatında lizinq prosesi

**Səlimova Zərifə**........................................................................................................... 248
Xarici investorların Azərbaycana cəlb edilməsində Heydər Əliyevin rolu

**Şərifova Salidə**........................................................................................................... 250
İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin bədii obrazı haqqında

**Sərkarlı Əhməd**........................................................................................................... 257
Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının müasir iqtisadi əhəmiyyəti

**Seyidov Abbas**........................................................................................................... 259
Heydər Əliyev – 100: tarixi şərait, güclü lider, müstəqil, qüdrətli dövlət

**Şahgaldiyev Eldar, Farhadova (Koroglu) Saadat, Asadova Nurana**........................... 265
Heydar Aliyev and the balanced language policy in Azerbaijan

**Sultanova Lamiə**........................................................................................................... 267
Türkdilli dövlət başçılarının zirvə toplantıları və Heydər Əliyev

**Uzun Yilmaz Ulvi**........................................................................................................... 269
Haydar Aliyev'in türk dünyasındakı rolü ve Haydar Aliyev dönemi Azerbaycan ekonomisi

**Verdiyeva Ülviyyə**........................................................................................................... 274
Mədəniyyət və incəsənət abidələrində Heydər Əliyev obrazı

**Xaliqova Gülnar**........................................................................................................... 276
Heydər Əliyev və Azərbaycan nefti dünya siyasətində

**Xanoğlan Vəfa**........................................................................................................... 279
Heydər Əliyevin mədəniyyət siyasəti

**Yaqubəli Rəhimə**............................................................................................................ 292
Ulu Öndər Heydər Əliyevin mədəniyyət siyasətində Azərbaycan muzeylərinin inkişaf prioritetləri

**Baha Ahmet Yilmaz**........................................................................................................ 295
The concept of savior leadership in political communication: A qualitative research on Haydar Aliyev's perception of the turkic world

**Yusupov Qəhrəman**.......................................................................................................... 297
Azərbaycanda müasir turizmin inkişafında Heydər Əliyevin rolu

**Зейналов Хазар**.............................................................................................................. 299
Надгробный памятник Гейдару Алиеву в контексте идейно-нравственных ценностей и художественного анализа

# PLENARY TALKS

## ГЕЙДАР АЛИЕВ – СИМВОЛ ДРУЖБЫ

**Жуманазар Ярметов**
Ургенчский Государственный Педагогический Институт, Узбекистан
e-mail: jyarmetov@gmail.com

В последние годы во внешней политике Узбекистана начались реформы, основанные на взаимной солидарности, согласии и толерантности между странами и народами, которые призывают весь мир жить в мире и согласии.

Особенно начался новый этап установления дружественных дипломатических отношений и тесного, взаимовыгодного сотрудничества с тюркоязычными странами[1].

Это сильно наблюдаеться и на примере отношений между Республикой Узбекистан и Республикой Азербайджан. Например, увеличение объемов взаимной торговли между двумя странами, укрепление отношений сотрудничества на уровне предпринимателей и регионов, продвижение совместных инвестиционных проектов в различных отраслях экономики, эффективное использование возможностей в сфере транспорта и транзита, а также продолжение активных культурно-гуманитарных обменов.

Отношения между Узбекистаном и Азербайджаном имеют многолетнюю историю. Общенациональный лидер азербайджанского народа Гейдар Алиев всегда уделял особое внимание отношениям с братским Узбекистаном.

Гейдар Алиев, занимавший пост первого секретаря ЦК Коммунистической партии Азербайджанской ССР (1969-1982 гг.), поддерживал близкие дружеские отношения с Шарафом Рашидовым, занимавшим пост первого секретаря ЦК Коммунистической партии Узбекистана. 27 сентября 1983 года, будучи первым заместителем председателя Совета Министров Советского Союза, Гейдар Алиев посетил Узбекскую ССР и впервые встретился с Шарафом Рашидовым[2]. Он всегда с уважением относился к узбекскому народу. Именно он пришел к власти в 1993 году и посодействовал возрождению отношений стран Центральной Азии.

Отношения между Азербайджаном и Узбекистаном были холодными до прихода к власти Гейдара Алиева. Даже воздушное сообщение Баку-Ташкент было закрыто.

Усилия Гейдара Алиева были направлены на создание и развитие отношений между тюркскими народами, сложившихся исторически и основанных на нормах международного права. Страны Центральной Азии первыми установили дипломатические отношения с

---

[1] Газета “Yangi O‘zbekiston”, 27 марта 2023 года.
[2] Раззоқов Ф. Шароф Рашидов: ҳаёт ва мамот. – Ташкент: Ўзбекистон, 2020. – Б. 470.

Азербайджанской Республикой[3]. 2 октября 1995 года между Республикой Узбекистан и Азербайджанской Республикой установлены дипломатические отношения, т.е. есть это было осуществлено только после прихода к власти Г.Алиева.

27 мая 1996 года по приглашению Президента Азербайджана Гейдара Алиева с официальным визитом прибыла делегация во главе с Президентом Узбекистана Исламом Каримовым[4]. Этот визит стал важным событием в отношениях двух стран. До этого в отношениях между Азербайджаном и Узбекистаном не использовались широкие возможности и мощный потенциал обеих республик. В ходе визита лидеры двух стран проявили незаурядную политическую волю: были предприняты серьезные шаги по устранению пробелов в отношениях. Состоялись двусторонние азербайджано-узбекские переговоры. Тогда было подписано 19 документов, которые легли в политико-правовую основу отношений двух стран. Президент Ислам Каримов посетил Бакинский государственный университет и встретился с учеными и студентами. Здесь главе государства Узбекистан было присвоено звание почетного доктора вуза за заслуги в развитии экономической науки, образования, политических отношений, вклад в укрепление дружбы между народами[5].

Как свидетельствуют источники, у Первого Президента Республики Узбекистан Ислама Каримова были хорошие отношения с Президентом Азербайджанской Республики Гейдаром Алиевым. Отмечается, что на официальных встречах они понимали друг друга без переводчика. Покойный президент Азербайджана Гейдар Алиев об Исламе Каримове: «Знаменитое Хлопковое дело, узбекское дело было не чем иным, как преследованием целого народа и его геноцидом. Как член Политбюро я принимал участие в заседаниях, проходивших в узком кругу. Во многих случаях Горбачев приводил вновь открывшиеся примеры взяточничества и коррупции в Узбекистане и оглашал имена виновных. Секретарь ЦК Егор Лигачев всегда представлял список рядовых районных инструкторов и работников Исполкома из разных регионов России, которые рекомендовались на должности глав районов, городов и областей Узбекской ССР. Узбекистан был в таком сложном положении. Ислам Каримов был человеком, который проявил мужество, сопротивляясь подобной несправедливости еще во времена Советского Союза»,[6] – утверждал он.

В период президентства Ильхома Алиева и Шавката Мирзиёева отношения между Узбекистаном и Азербайджаном улучшились. 14-15 октября 2019 года Президент Республики Узбекистан Шавкат Мирзиёев, отправившийся в столицу Азербайджана Баку для участия в седьмом саммите Совета сотрудничества тюркоязычных государств,

[3] Qosimli (Gosimov) M. Ozarbayjon xalqaro munosabatlar tizimida (1991-1995). Baku, Ganjlik, 1996

[4] Ozarbayjon-o'zbek do'stligi abadiy yashaydi va mustahkamlanadi // Газета «Ozarbayjon», 30 мая 1996 года, № 101 (1370).

[5] Солнома. Ўзбекистон Республикаси Биринчи Президенти Ислом Абдуғаниевич Каримовнинг фаолияти хроникаси. – Тошкент: Ўзбекистон, 2018. – Б. 122.

[6] https://aniq.uz/yangiliklar/haydar-aliev-islom-karimov-haqida-nima-degan-edi-1

встретился с Президентом Азербайджанской Республики Ильхомом Алиевым. В ходе встречи остановился на дружеских взаимоотношениях видного государственного деятеля, лидера, долгие годы руководившего Узбекской ССР, писателя и поэта Шарафа Рашидовича Рашидова и Гейдара Алиева. «Мы всегда гордимся Гейдаром Алиевым, великим сыном азербайджанского народа. Его с уважением вспоминают в Узбекистане. У меня было много бесед с людьми, которые с ним работали. Гейдар Алиев много раз встречался с Шарафом Рашидовичем и вместе решали многие сложные вопросы. Те, кто живет сегодня, говорят, что Гейдар Алиев с уважением относился к Узбекистану и поддерживал его в любой ситуации. Он отметил, что «В трудные годы, когда в нашей стране сфабриковано «узбекское дело», Гейдар Алиев имел свое мнение об узбекском народе, непохожее на других».

В свою очередь Ильхом Алиев отметил, что его отец с большим уважением и любовью относился к узбекскому народу. «Когда я был подростком, я был свидетелем тесной дружбы моего отца с Шарафом Рашидовичем». Он отметил, что политика, проводимая некоторыми группами в годы перестройки, оказала на них сильное влияние.

По официальным данным, в Новом Узбекистане проживает около 40 тысяч граждан счастливой азербайджанской национальности[7]. Азербайджанцы из Узбекистана уважают традиции и обычаи народа и бережно их сохраняют. В 1989 году в Ташкенте был открыт первый азербайджанский национально-культурный центр «Гардашлык». Позже центры были открыты в Самарканде и Бухаре[8]. В 2003 году была создана Ассоциация национальных культурных центров Азербайджана[9]. В 2010 году при посольстве Азербайджана было сдано в эксплуатацию новое здание Азербайджанского культурного центра имени Гейдара Алиева[10].

21 июня 2022 года в Ташкенте одна улица была переименована в честь Гейдара Алиева, открыт памятник. В торжественном мероприятии приняли участие Президент Узбекистана Шавкат Мирзиёев и Президент Азербайджана Ильхом Алиев[11]. Это, безусловно, проявление огромного уважения узбекского народа к Гейдару Алиеву, настоящему архитектору восстановления политико-дипломатических отношений между Азербайджаном и тюркоязычными странами Центральной Азии. Два братских народа связывают язык, религия, общая культура и традиции.

## Литература

1. Газета “Yangi Oʻzbekiston”, 27 марта 2023 года.
2. Раззоқов Ф. Шароф Рашидов: ҳаёт ва мамот. – Ташкент: Ўзбекистон, 2020, – Б. 470.

---

[7] https://kun.uz/news/2022/06/21/toshkentda-haydar-aliyev-xotirasiga-bagishlab-barpo-etilgan-kocha-va-yodgorlik-ochildi
[8] https://interkomitet.uz/mita-a-ida/millij-madanij-markazlar/ozarbajzhon-millij-madanij-markazlari-ujushmasi/?lang=oz
[9] https://interkomitet.uz/mita-a-ida/millij-madanij-markazlar/ozarbajzhon-millij-madanij-markazlari-ujushmasi/?lang=oz
[10] https://uza.uz/uz/posts/toshkentda-haydar-aliev-sharafiga-nomlangan-kocha-ochildi_383280
[11] https://kun.uz/news/2022/06/21/toshkentda-haydar-aliyev-xotirasiga-bagishlab-barpo-etilgan-kocha-va-yodgorlik-ochildi

3. Qosimli (Gosimov) M. Ozarbayjon xalqaro munosabatlar tizimida (1991-1995), Baku, Ganjlik, 1996.
4. Ozarbayjon-o'zbek do'stligi abadiy yashaydi va mustahkamlanadi // Газета «Ozarbayjon», 30 мая 1996 года, № 101 (1370).
5. Солнома. Ўзбекистон Республикаси Биринчи Президенти Ислом Абдуғаниевич Каримовнинг фаолияти хроникаси. – Тошкент: Ўзбекистон, 2018. – Б. 122.
6. https://aniq.uz/yangiliklar/haydar-aliev-islom-karimov-haqida-nima-degan-edi-1
7. https://kun.uz/news/2022/06/21/toshkentda-haydar-aliyev-xotirasiga-bagishlab-barpo-etilgan-kocha-va-yodgorlik-ochildi
8. https://interkomitet.uz/mita-a-ida/millij-madanij-markazlar/ozarbajzhon-millij-madanij-markazlari-ujushmasi/?lang=oz
9. https://uza.uz/uz/posts/toshkentda-haydar-aliev-sharafiga-nomlangan-kocha-ochildi_383280
10. https://kun.uz/news/2022/06/21/toshkentda-haydar-aliyev-xotirasiga-bagishlab-barpo-etilgan-kocha-va-yodgorlik-ochildi

# SİYASƏTİN ZİYALILIĞI... VƏ ZİYALI SİYASƏTI

**Nizami Cəfərov**
Azərbaycan Atatürk Mərkəzi, Bakı, Azərbaycan

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi- ideoloji irsi Azərbaycan təfəkkür- düşüncə mədəniyyətinin zəngin xəzinəsi, gənc azərbaycanlı siyasətçilərin ən müxtəlif məsələlərlə bağlı vaxtaşırı müraciət etməli olduqları böyük bir siyasət akademiyasıdır. Sovet sosialist rejiminin nisbətən liberallaşdığı, Azərbaycanda milli dəyərlərə qayıdış hərəkatının başlandığı 60- cı illərdə Dövlət təhlükəsizlik orqanında yüksək vəzifə daşıyan, sovet sosialist ideologiyasının "mətbəx"inə bələd olan Heydər Əliyev həmin Komitənin rəhbəri təyin edildikdən sonra on illər boyu Azərbaycan ziyalılarının qənimi olan bu idarəni ziyalılığın, yeni mütərəqqi (və milli) düşüncənin müdafiəçisinə çevirdi. Millətçi mövqeyi ilə tanınan Bəxtiyar Vahabzadə xatırlayır ki, 60- cı illərdə hansısa gözəgörünməz güclü bir əl onu həbs olunmaqdan, təqiblərdən müdafiə edirdi. Eyni fikrə Anarın, X.R.Ulutürkün, N.Həsənzadənin xatirələrində də rast gəlmək mümkündür. Xalqın mənən, ruhən yüksəlişi üçün onun milli mədəniyyətini, mənəvi dəyərlərini yaradan şəxsiyyətləri qorumaq lazım gəldiyini yaxşı bilən Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk illərdən Azərbaycanda yaradıcı ziyalıların – alimlərin, yazıçıların, incəsənət xadimlərinin, müəllimlərin… nüfuzunu o zamana qədər görünməmiş bir miqyasda artırdı.

Azərbaycanın ədəbiyyat filosofu Yaşar Qarayev müasir Azərbaycan ədəbiyyatının inkişafında Heydər Əliyevin rolunu belə qiymətləndirir: "… Onun ifasında və icrasında siyasət də sənət, siyasətçi də sənətkar səviyyəsinə qalxa bilir. Daha doğrusu, siyasətçi də sənətkara çevrilir,

filosof təcəssümü, mütəfəkkir obrazı alim statusu ala bilər. Bütün bunlar Heydər Əliyevin fəaliyyətindən həm də bir sənət və sənəktkarlıq hadisəsi kimi danışmağa imkan verir…”

Ziyalılıq Heydər Əliyevin yürütdüyü idarəçilik siyasətinin mahiyyətində idi – 70- ci, 80- ci illərdə Azərbaycan yazıçılarının, bəstəkarlarının, rəssamlarının və s. elə bir qurultayı olmamışdı ki, respublika əhəmiyyətli elə bir məsələ yox idi ki, MK- nın Birinci Katibi mütəxəssislərlə məsləhətləşməsin. Təsərrüfat işlərindən başlamış ən mürəkkəb ideoloji problemlərin həllinə qədər Heydər Əliyev məhz elmi yanaşma tərəfdarı idi. Onun həyata keçirdiyi bütün tədbirlər həm də bir intellekt əsəri, gələcəyə hesablanmış təcrübə mənbəyi idi…Azərbaycanlı gənclərin SSRİ- nin mötəbər ali məktəblərində təhsil almasını təmin edəndə də, milli təhsilin keyfiyyətini yüksəltmək, miqyasını genişləndirmək, Elmlər Akademiyasının fəaliyyətini canlandırmağa çalışanda da, görkəmli fikir adamlarını respublikanın ictimai həyatında yaxından iştiraka cəlb edəndə də Azərbaycan ziyalılığının potensialını hərəkətə gətirir, yeni tipli ziyalı zümrəsinin formalaşmasının əsasını qoyurdu. Heydər Əliyev elə lik illərdən Moskvanın təyin etdiyi yüksək çinli məmur- icraçı imicini sındırdı; o, dövlət idarəedicisindən çox, millət qurucusu kimi fəaliyyət göstərməyə başladı ki, bunu ancaq yüksək səviyyəli ziyalı təfəkkürü ilə etmək olardı.

Heydər Əliyevin 70- ci, 80- ci illərdə həyata keçirdiyi siyasətin ziyalılıq səviyyəsi özünü aşağıdakı əlamətlərdə göstərirdi:

1) elmilik, intellektuallıq, erudisiya;
2) yüksək mədəniyyət, zövq, sözün geniş mənasında sənətkarlıq;
3) millilik;
4) novatorluq;
5) varislik,ardıcıllıq;
6) kollegiallıq  və s.

Heydər Əliyev respublikanın inkişafı üçün bu və ya digər işi görməyə başlayanda mövcud təcrübələri öyrənir, məsələnin mahiyyətinə (elminə!) nüfuz edir, ən xırda detalları da nəzərdən kənarda qoymurdu. Özünəməxsus intellektuallığı, erudisiyası ilə atılacaq hər addımı ölçüb- biçir, profesionalların məsləhətlərini diqqətlə dinləyirdi. Hətta yaxşı bildiyi məsələləri də dönə- dönə müzakirə etməkdən usanmırdı… Və hər iş yüksək mədəniyyətlə, zövqlə, peşəkarlıqla görülürdü. O, kimin harada cəmiyyət üçün daha faydalı olacağını, nəyi necə etdikdə effekt verəcəyini istedadla müəyyən edirdi.

Mənsub olduğu millətin mentalitetinin, mənəvi- mədəni dəyərlərinin bilavasitə daşıyıcısı olduğundan hər işdə milli atribusiyanı qoruyurdu. Və bilirdi ki, xalqın ruhunun qəbul edə bilməyəcəyi hər hansı addım, ilk baxışdan nə qədər zəruri görünsə belə, təqdir oluna, ümummilli dəyərə çevrilə bilməz. Odur ki, bugün böyük şəxsiyyətin 70- ci, 80- ci illərdə həyata keçirdiyi elə bir tədbiri, hadisəni təsəvvür etmək mümkün deyil ki, xalqın yaddaşında qalmasın, onun tarixinə düşməsin. Hara baxsan, onun əsərlərini görərsən…

Azərbaycanın dövlət başçısı öz siyasi- ideoloji fəaliyyətində milli olduğu qədər də novator idi. Moskvanın verdiyi imkanlar daxilində (bəzən qoyulmuş məhdudiyyəti belə aşaraq) yenilikçi düşüncəni nəinki müdafiə edən, eyni zamanda onun respublikaya axınının təşəbbüskarı olan Heydər Əliyev elə bir ictimai- siyasi, mənəvi şərait yaratmışdı ki, Azərbaycanda dissident, yaxud "sandıq

ədəbiyyatı" problemi olmamışdı. Alimlərin, yazıçıların, incəsənət xadimlərinin "anti- sovet" və ya "millətçi" əsərləri nəinki təqib, hətta çox hallarda təqdir edilir, gənc nəslin eksperimentlərinə qayğı ilə yanaşılırdı. "Qobustan", "Ulduz", "Azərbaycan" jurnalları, bir sıra elmi toplular, Azərbaycan xalqının etnogenezisinin müzakirə olunduğu konfranslar, cəmiyyətə açıq elmi- ideoloji lektoriyalar və s. yeni fikri yayır, yeni nəsil yetişdirirdi. Və Moskvanın respublikadakı xəfiyyələri, peşəkar danosçuları nə qədər canfəşanlıq etsələr də, respublika rəhbəri bütün təzyiqləri öz üzərinə götürərək, yaratdığı ictimai ovqatı – azadlıq əhvali- ruhiyyəsini təkidlə qoruyur, inkişaf etdirirdi.

Heydər Əliyev özündən əvvəlki birinci katiblərdən fərqli olaraq, idarəçilik, geniş mənada quruculuq fəaliyyətində təsadüflərin diqtəsi ilə deyil, gələcəyə hesablanmış strateji ardıcıllıqla hərəkət edir, gördüyü böyük işin varisliyinə çalışırdı. O bilirdi ki, "Azərbaycanda əbədidir"… Və bu əbədilik missiyası ona imkan verirdi (hətta təkid edirdi!) ki,Sovetlər Birliyinin hələ kifayət qədər güclü olduğu bir dövrdə belə xalqının mənafeyi üçün işləməkdən yorulmasın, elə bir milli mənəvi mühit yaratsın ki, millət özünün kimliyini dərk etsin.

Azərbaycanın lideri həyata keçirdiyi bütün tədbirlərdə cəmiyyətin, xüsusilə ziyalıların bilavasitə iştirakını təmin etməklə böyük mənada kollegiallıq göstərir, xalqı fəaliyyətə ruhlandırır, "fəal həyat tərzi"ni təbliğ edirdi. Azərbaycanlıları sosial- siyasi proseslərdən təcrid etmək, milləti passivləşdirmək "təcrübə"sini öz güclü iradəsi ilə məhz Heydər Əliyev aradan qaldırdı…

Bütün bunlar Heydər Əliyev siyasətinin ziyalılıq səviyyəsinin göstəricisi, mənsub olduğu xalqa böyük ziyalı xidməti idi. Milləti maarifləndirmək, mütəşəkkil etmək, dünyaya çıxarmaq… onu övlad məhəbbəti lə sevmək, gələcəyə gedən yolunu işıqlandırmaq və nəticə etibarilə, onun ziyalı liderinə çevrilmək Heydər Əliyevə qismət oldu… Elə ona görə də Azərbaycan xalqı milli azadlıq, dövlət müstəqilliyi əldə etdiyi ilk günlərdən, bütün təxribatlara baxmayaraq, öz liderini tapdı və məhz onun rəhbərliyi ilə dünya birliyinin layiqli üzvü oldu…

Heydər Əliyevin ziyalı siyasəti onun siyasətindəki ziyalılığın birbaşa davamı idi… Və Azərbaycan xalqının ümummilli lideri respublika rəhbərliyinə gəldikdən sonra
1) xalqın nüfuzlu ziyalılarını öz ətrafına topladı, onların intellektindən xalqın, respublikanın mənafeyi naminə istifadə etdi;
2) ziyalıların ictimai mövqeyini yüksəltdi, onlara dövlət qayğısı göstərdi;
3) Azərbaycanın elm, mədəniyyət xadimlərini İttifaq miqyasında tanıtdı;
4) ziyalılığın yeni nəslinin milli (müasir!) dəyərlər əsasında formalaşmasını təmin etdi;
5) ictimai həyatın hər bir sahəsində ziyalılığı əsas göstərici səviyyəsinə qaldırdı və s.

Azərbaycan tarixinin ən qaranlıq dövrlərindən milli ziyalı potensialını üzə çıxaran, millətin yaddaşını bərpa edən, Nizaminin, Əcəminin, Nəsiminin, Füzulinin, Vaqifin, C.Məmmədquluzadənin, N.Nərimanovun, H.Cavidin, C.Cabbarlının, S.Vurğunun şəxsində Azərbaycan ziyalılığına böyük bir abidə ucaldan Heydər Əliyev hələ müstəqillik dövrünə qədər Azərbaycanın ən böyük ziyalısı, idyea- fikir cəngavəri, gələcəkdə müstəqil Azərbaycanın dövlətini yaradacaq azərbaycançılıq ideologiyasının yaradıcısı idi…

# HEYDƏR ƏLİYEVİN SİYASİ FƏALİYYƏTİNDƏ TÜRK DÜNYASI MƏSƏLƏLƏRİ

**İsmayıl Hacıyev**
AMEA Naxçıvan Bölməsi, Naxçıvan, Azərbaycan

Türklərin tarix boyu dünya birliyi ilə fəal münasibətləri Yer üzünün bütün nöqtələrinə səpələnmiş bu əzəmətli xalqın nümayəndələri arasında böyük mütəfəkkirlərin, qüdrətli dövlət xadimlərinin yetişməsinə şərait yaratmışdır. Türk dünyasının fəxri olan ulu öndər Heydər Əliyev də XX əsrdə Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Heydər Əliyevi başqa tarixi şəxsiyyətlərdən fərqləndirən başlıca xüsusiyyətlər onun qeyri-adi zəka realizminə, yüksək təşkilatçılıq bacarığına, hadisələri müşahidə və təhlil etmək sahəsində unikal qabiliyyətə malik olmasıdır. Heydər Əliyev dühasının şöhrəti bir xalq, bir ölkə, bir qitə çərçivəsinə sığmayıb, bütün dünyaya yayılmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 34 illik siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmış və buna əsasən nail olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Bu dahi şəxsiyyətin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını, ümumən dünyanı əhatə edir. Təsadüfi deyildir ki, Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli lideridir.

Heydər Əliyevin hakimiyyətinin birinci mərhələsində türk və müsəlman dünyası istiqamətində siyasətini yeridərək sovet rəhbərliyi onun tövsiyyələrini dinləyir və nəzərə alırdı. Ulu öndərin baxışları və fəaliyyətində Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsi xüsusi yer tuturdu. Onun bu sahədəki mövqeyi Azərbaycan daxilindəki fəaliyyətdə, SSRI-nin türk xalqlarına münasibətdə, Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsində özünü büruzə verirdi [5, s.495]. O öz fəaliyyətində Türkiyəyə, türk və müsəlman dünyasına daha geniş baxaraq onları vəhdətdə görürdü. Heydər Əliyev bu məsələdə özünün mükəmməl nəzəri biliyi və nəhəng praktik fəaliyyəti ilə seçilirdi. Türk və müsəlman xalqları arasında mədəni əlaqələrin gücləndirilməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev bu istiqamətdə fəaliyyət göstərirdi.

Heydər Əliyev SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin yaranmasına çalışırdı. Nəticədə, Sovet rəhbərlərinin türk dünyasına, SSRİ-nin türk xalqlarına normal münasibəti yaranmışdı. Bunun nəticəsi kimi, Türkiyə prezidentinin, xarici işlər nazirinin, siyasi və dövlət xadimlərinin Azərbaycana səfərləri reallaşdı. Azərbaycanla Türkiyə arasındakı mədəni əlaqələr genişlənirdi.

XX əsrin 80-ci illərinin əvvəllərində ulu öndən Heydər Əliyev öz şəxsiyyəti ilə türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın ən ali iyerarxiyasına qədər gətirib çıxarmışdı. Təsadüfi deyil ki, SSRI rəhbərlərindən biri kimi Moskvada keçirdiyi illərdə dünya Heydər Əliyevi, əsasən, bir təqdimatla tanıyırdı: «Kremldə ucalan türk bayrağı».

Ümummilli liderin türk dünyasının problemləri ilə ardıcıl şəkildə məşğul olmağa başladığı mərhələ isə, əsasən, 1993-cü ildən xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonraya təsadüf edir. Heydər Əliyevin türk dünyasının gələcəyi ilə bağlı baxışlar sistemində müstəqil türk dövlətləri ilə əlaqələr mühüm yer tutur: türk dövlətlərinin müstəqilliyinin müdafiəsi, mövcud imkanlar çərçivəsində türk dünyasının birliyinin təmin olunması, bu birliyin narahat dünyamızda nizam yaradılması məqsədinə xidmət etməsi [1, 2010, 8 may], Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə edilməsi, türk dünyasının qüvvələrinin birləşdirilməsi və birgə hərəkətinin təmin edilməsi, türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsi və bunun üçün müstəqil türk dövlətlərinin imkanlarından istifadə edilməsi [2, s.235-236].

Əgər 1994-cü ilə qədər Heydər Əliyevin nitq və çıxışlarında daha çox dünya azərbaycanlılarının birliyi və həmrəyliyi məsələsi ön plana çəkilirdisə, sonralar Avrasiya məkanında məskunlaşan türkdilli xalqların birliyinə, yeni yaranmış türk dövlətlərinin yaxınlaşmasına yönəldilən çağırışlar da getdikcə daha inamla səslənirdi. Buna ulu öndərin 1994-cü il fevralın 9-da Türkiyə Böyük Millət Məclisindəki çıxışı parlaq misal ola bilər. Müstəqil Türkiyə Cümhuriyyətinin istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə əldə etdiyi müvəffəqiyyətlərə ürəkdən sevinən Heydər Əliyev eyni zamanda artıq Türkiyənin beynəlxalq meydanda tək olmadığını, SSRİ dağıldıqdan sonra müstəqil türk dövlətlərinin yarandığını böyük fərəhlə qeyd etmişdi. Öz çıxışında türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkün 1933-cü ildə dediyi fikirləri xatırlatmışdı. Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında belə demişdi: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kəs müəyyən edə bilməz. Bir vaxt bu dövlət də Osmanlı dövləti kimi, Avstriya-Macarıstan kimi parçalana, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır".

Heydər Əliyevin Türk dünyasının birliyi kimi mühüm məsələdə Atatürkə müraciət etməsi təsadüfi deyildi. Çünki bu məsələlər bütün ömrü boyu onu da düşündürmüşdü.

Heydər Əliyev bu məqsədlərin həyata keçirilməsində Türkiyə Cümhuriyyətinin rolunu həmişə yüksək qiymətləndirmişdir. Ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq münasibətləri əbədi və dönməz xarakter almışdır.

Tarixi-siyasi, dini, milli-mənəvi köklərə bağlı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə sürətli inkişafı Mustafa Kamal Atatürkün «Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir», Heydər Əliyev isə «Biz bir millət, iki dövlətik» tezislərinə əsaslanmışdır.

Müstəqilliklərini yenidən əldə etmiş türk dövlətlərinin qarşılıqlı əlaqələrində ikitərəfli münasibətlərlə yanaşı, dövlət başçılarının sammitləri də xüsusi yer tutur. Azərbaycan bu mötəbər tədbirlərdə həmişə intensiv iştirak etmiş, ümumtürk dəyərlərinin dirçəlməsi yönümündə xüsusi

fəallıq göstərmişdir. Ulu öndərimiz türk dövlət başçılarının zirvə toplantılarının əhəmiyyətindən bəhs edərək demişdir: «Şübhəsiz ki, zirvə toplantısı bizim xalqımızın (türk xalqlarının – İ.H.), müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti-bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır» [2, c.2, s.399].

Türkdilli dövlət başçılarının V zirvə görüşündə çıxış edən ulu öndər Heydər Əliyev türkdilli dövlət başçılarının diqqətini regional inteqrasiya prosesinə təkan verəcək layihələrin hazırlanmasına yönəltmişdi. Həqiqətən də, sonrakı illərdə dünyanın siyasi mənzərəsini dəyişən «Əsrin müqaviləsi», «Böyük ipək yolu», TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Türksoyun, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhəmməd Füzulinin 500, türk dünyasının ana kitablarından olan «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin YUNESKO səviyyəsində keçirilməsi, Azərbaycanın müstəqil türk dövləti kimi bütün dünyada tanınması, türk dövlətləri başçılarının zirvə görüşlərinin təşkili, türk dünyası üçün onlarla taleyüklü məsələlərin irəli sürülməsi və müzakirəsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyev dövlətçilik fəaliyyətində türk dünyasının böyük öndəri Atatürkün dövlət quruculuğu təcrübəsinə həmişə böyük əhəmiyyət vermiş, onun irsinin öyrənilməsi və təbliğini vacib hesab etmişdir. Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, Atatürk yalnız proqressiv ideyalar irəli sürməklə kifayətlənməmiş, bu ideyaları həyata keçirmiş, qurmuş olduğu dövləti möhkəmləndirmək üçün tarixi stimullar müəyyən etmiş, zəngin ideya qaynaqları aşkara çıxarmışdır. Ulu öndər qeyd etmişdir ki, Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır [3, s.381].

Görkəmli dövlət xadimi Heydər Əliyev Atatürkü XX əsrin ən böyük şəxsiyyətlərindən biri hesab etmiş, yüksək dəyərləndirmiş, onun müdrikliyini, dahiliyini, xalqına əvəzsiz xidmətlər göstərdiyini dəfələrlə qeyd etmişdir: «Mustafa Kamal Atatürk dünyada XX əsrin ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi. Ölümündən sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün, yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir»[4, s. 57].

Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı mübarizəyə görə beynəlxalq «Atatürk Sülh Mükafatı» təqdim olunması (1999) münasibətilə onun dediyi sözlər Atatürkün və Türkiyənin təcrübəsinin Azərbaycan üçün nə demək olduğunu çox aydın şəkildə göstərir: «Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün,

bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq qalacağam» [4, s.40-41].

Atatürkün irsini öyrənmək və təbliğ etmək üçün 2001-ci ildə Bakıda görkəmli dövlət xadimi Heydər Əliyevin sərəncamı ilə «Atatürk Mərkəzi» yaradıldı. Həmin mərkəzin açılışında çıxış edən Heydər Əliyev demişdir: «Atatürkün həyatını, fəaliyyətini daim öyrənmək lazımdır. Bizdəki Atatürk mərkəzi bu işləri görəcəkdir. Atatürkün indiyə qədər Azərbaycanla əlaqədar dediyi sözləri, gördüyü işləri, naməlum qalan cəhətləri aşkara çıxaracaqdır... Atatürkün ideyalarını yaymaq, təbliğ etmək və xalqımıza çatdırmaq, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəm. Bu, bir siyasi xadim, lider və Prezident kimi mənim fəaliyyətimdə çox böyük yer tutur» [6, s.112].

Görkəmli dövlət xadimi Heydər Əliyevi çox düşündürən problemlərdən biri də türk dövlətlərinin iqtisadi-mədəni yaxınlaşması, birliyi məsələləri, bu mühüm məsələlərin həyata keçirilməsi yollarının nəzəri əsaslarının işlənib hazırlanması olmuşdur. Bu məsələlər isə Heydər Əliyevin yeni dövr türk birliyi strategiyasının yalnız bir qismini təşkil edir.

O, 90-cı illərin əvvəllərində, xüsusən SSRİ dağıldıqdan sonra yaranmış beş yeni müstəqil türk dövlətinin arasındakı ictimai-siyasi əlaqələrin hətta qırılmaq səviyyəsinə gəlib çatdığını görür və bu məsələ onu ciddi narahat edirdi. Ulu öndər görürdü ki, bu dövlətlərdən hər biri öz problemlərini təklikdə həll etməyə çalışır, dil bir, din bir, qan bir qardaşlarının köməyinə müraciət etməyə, qardaş yardımından bəhrələnməyə nədənsə az meyl göstərirlər.

Belə bir şəraitdə türk dövlətlərindən hansısa biri təşəbbüsü ələ almalı, türk xalqlarını əməkdaşlığa, birliyə, birgə fəaliyyətə yönəltməli idi. Türkiyə böyük dövlət kimi yeni yaranmış türk dövlətləri ilə iqtisadi və mədəni əlaqələri genişləndirmək üçün cəhdlər göstərirdi. Lakin türk dövlətlərini və xalqlarını öz tarixi köklərinə istiqamətləndirmək kimi xeyirxah məqsəd güdən nisbətən məhdud miqyaslı işlərin özü belə, özünü keçmiş SSRİ-nın varisi sayan Rusiyada böyük qısqanclıqla qarşılanırdı. Eyni zamanda, Türkiyənin belə cəhdləri Avropa dövlətlərində və ABŞ-da birmənalı qarşılanmırdı. Digər tərəfdən, yeni müstəqilliyini qazanmış türk respublikalarının başçıları hələ Moskvanın adamı olaraq onlara xidmət edirdilər və bu adamların siyasi birliyə nail olmaq, tarixi soykökə qayıtmaq istiqamətində çalışmalarına ümid etmək doğru olmazdı. Çünki onlar psixoloji cəhətdən buna hələ hazır deyildilər. Odur ki, bu təşəbbüsü məhz yeni müstəqillik qazanmış türk dövlətlərindən biri öz üzərinə götürməli idi. Belə bir lider ömrünün çox hissəsini siyasətə və dövlət işlərinə həsr etmiş Heydər Əliyev ola bilərdi. Çünki onu bütün türk xalqları görkəmli dövlət xadimi, türk dünyasının böyük oğlu kimi tanıyırdı. Heydər Əliyev həm də türk dünyasının problemlərini, onları yaxınlaşdırmaq yollarını dərindən bilirdi. Ona görə də, ulu öndər hesab edirdi ki, türk xalqlarının yaxınlaşması zəruridir və müstəqil türk dövlətləri başçılarının toplantıları bu istiqamətdə əhəmiyyətli rol oynaya bilər və oynamalıdır.

Ümummilli lider türk xalqlarının yaxınlaşması zəruriliyindən bəhs edərək demişdir: «Mən bu gün həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost

olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik» [2, c.2, s.407].

Bu günədək türkdilli ölkələrin dövlət başçılarının doqquz zirvə görüşü keçirilmiş və bu görüşlərdə müzakirə olunan məsələlər və imzalanan «İstanbul bəyannaməsi», «Bakı bəyannaməsi», «Naxçıvan bəyannaməsi», «Səmərqənd bəyannaməsi» və başqaları türkdilli dövlətlərin iqtisadi və mədəni əlaqələrinin artırılması və birliyi istiqamətində irəliyə atılmış çox mühüm addımlardır və bu gün də davam edir.

Görkəmli dövlət xadimi Heydər Əliyev türk dövlətlərinin, ümumən türk dünyasının birliyinə heç zaman sadəcə etnik köklərin ümumiliyinə əsaslanan mədəni-etnoqrafik birlik kimi baxmaqla kifayətlənməmiş, bu birliyin siyasi perspektivlərinə xüsusi diqqət yetirmişdir.

Türk dünyası ərazi və əhali etibarilə çox genişdir. Bura Türküstan, Mərkəzi Asiya, Yakutiya, Sibir türkləri daxildir. Volqaboyu türkləri-tatarlar, başqırdlar, çuvaşlar daxildir; Çimali Qafqaz türkləri daxildir... Onların hamısı Sovet dövründən keçmişlər, indi isə Rusiyanın vətəndaşlarıdırlar. Ona görə də Heydər Əliyev Azərbaycanla, eləcə də digər türk dövlətləriylə Rusiya arasındakı iqtisadi, siyasi, mədəni münasibətlərin inkişafına, qarşılıqlı əlaqələrin intensivliyinə həmişə xüsusi önəm vermiş, Rusiya türklərinin milli özünüdərk və özünümüdafiə imkanlarının genişlənməsinə türk dünyasının ümumi yüksəliş strategiyasının üzvi tərkib hissəsi kimi baxmışdır [2, s.242].

Heydər Əliyev uzaqgörən, qətiyyətli, eyni zamanda səbrli, hadisəni mahiyyətindən, təsadüfi zərurətdən ustalıqla ayıran görkəmli dövlət xadimi idi. Bu isə ona Türküstan respublikaları ilə münasibətdə çox geniş səlahiyyətlər verirdi. Digər tərəfdən, Mərkəzi Asiya türklüyünün Türkiyəyə, oradan da qərbi Avropaya yolunun ən kəsəsi Azərbaycandan keçir.

Türk dünyasının sevimlisi, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin türk dünyasının yüksəlişi barədəki strateji mövqeyini onun aşağıdakı sözləri çox aydın və açıq şəkildə əks etdirir: «Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhüriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir [2, s.242].

Azərbaycanın ümummilli liderinin türk dünyasının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir.

## Ədəbiyyat

1. «Azərbaycan» qəzeti.
2. Cəfərov Nizami. Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən Ilham Əliyevə. «Dirçəliş-XXI əsr» jurnalı, 2004, aprel-may, № 74-75, s. 235-243.
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. c.2, B., 1997, 604 s.

4. Heydər Əliyev Atatürk haqqında. B., AzAtaM, 2003, 78 s.
5. Qasımlı Musa. Əliyev Heydər – istiqlala gedən yol (1969-1987-ci illər). B., Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.
6. Muxtarova Əsməd. Heydər Əliyev və türk dünyası. "Tarix və onun problemləri" jurnalı, 2003, №1, s.101-114.
7. Türk dünyasının birliyi ideyası və Heydər Əliyev (Araşdırma). Bakı: Elm və təhsil, 2011, 168 s.

# HEYDƏR ƏLİYEVİN SİYASİ FƏALİYYƏTİNİN HƏR BİR DÖVRÜ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN İNKİŞAFINA YÖNƏLMİŞDİR

**İradə Hüseynova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

*1990-cı ilin yanvar faciəsindən sonra Azərbaycana gəlmək haqqında qərar qəbul edərkən təsəvvür etmirdim ki, gəlib Naxçıvana düşəcəyəm. Çünki bilirsiniz ki, gənc vaxtlarımdan sonra bütün fəaliyyətim Azərbaycanın paytaxtı Bakıda olmuşdur. Ona görə yenə də Bakıda yaşamaq və orada Azərbaycan xalqına xidmət etmək arzusunda idim. Ancaq vəziyyət elə oldu ki, məni Bakıda yaşamağa qoymadılar və Naxçıvana gəlməyə məcbur oldum. Amma buraya gələndən sonra hiss etdim və belə qərara gəldim ki, bu, taleyin işi imiş, mən buraya gəlməli idim - yenidən öz torpağımdan güc almaq üçün, öz həmvətənlərimlə, doğma torpağımda yaşayan insanlarla bir yerdə olmaq, onların dərdlərinə şərik olmaq üçün.*

***Heydər Əliyev***

Ulu öndər Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur. Ümummilli liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. XX əsrin axırlarında yenidən müstəqillik qazanan Azərbaycan Respublikasının mövcudluğu və bu gün dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilməsi xalqın haqlı olaraq ümummilli lider hesab etdiyi Heydər Əliyevin tarixi və misilsiz fəaliyyətinin nəticəsidir.

Ulu öndər Azərbaycanın müstəqillik qazanması ərəfəsində - ötən əsrin 90-cı illərində müşahidə olunan vətənin ağır günlərində xalqının yanında olmağa qərar verdi və bu məqsədlə

də Azərbaycana qayıtdı. 20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşğu ilə qarşıladı. Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, vətənə qayıdış idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi [7].

Həmin vaxt Naxçıvan son dərəcə çətin bir şəraitdə yaşayırdı. Bir tərəfdən, iqtisadiyyat dağılaraq tamamilə iflic vəziyyətinə düşmüş, əhalinin maddi durumu isə böhranlı həddə çatmışdı, siyasi burulğanlar, hərc-mərclik burada da baş alıb gedirdi. Digər tərəfdən isə ermənilərin aramsız hücumları bölgədəki ağır vəziyyəti daha da mürəkkəbləşdirmişdi. O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana olan biganə münasibəti nəticəsində muxtar respublikanın acınacaqlı durumu son nöqtəyə gəlib çatmışdı. Belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrilmişdi, insanlar onun timsalında öz böyük xilaskarlarını tapmışdılar. Heydər Əliyevin Naxçıvana bu gəlişi müstəqillik uğrunda, vətənin toxunulmazlığı naminə elliklə ayağa qalxmış naxçıvanlıların mübarizəsinə təkan verdi, onu yeni səviyyəyə yuksəltdi. İyulun 22-də axşam Naxçıvanda Heydər Əliyevin əhali ilə görüşü oldu. Muxtar respublikanın əhalisi müxtəlif şəhər və kəndlərdən ümummilli liderimizin ziyarətinə gəlirdilər, onun ətrafında sıx birləşmək arzusunda olduqlarını bəyan edirdilər. Naxçıvan şəhərindəki mərkəzi meydana 80 min nəfərdən çox adam toplaşmışdı. Bu, böyük şəxsiyyətə sonsuz inam və məhəbbətin nümunəsi idi. Ona görə də hesab edirəm ki, 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı kimi daxil olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev Sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasını tərk etdi. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu. “Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq ... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm” [8], - deyən ulu öndər xalqın ən ağır günündə onun yanında oldu. Naxçıvana gəlişindən az sonra, 1990-cı ilin avqustunda gənclərlə görüşdə Heydər Əliyevin dediyi aşağıdakı sözlər onun əsas amalını konkret şəkildə ifadə edirdi: “Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir” [9].

Naxçıvan diyarının ağır günlərində öz həyatını təhlükələrə məruz qoyaraq vətənə qayıtması, doğma xalqa çətin günündə dayaq durması, böyük dövlətçilik təcrübəsini naxçıvanlıların güzəranının yaxşılaşdırılması üçün tərəddüdsüz sərf etməsi yüksək vətənpərvərlik göstəricisi idi.

Elə o zaman Heydər Əliyev Babək rayonunun 340 №-li Nehrəm seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına və Naxçıvan MSSR xalq deputatlığına namizəd irəli sürüldü.

Heydər Əliyev seçicilərlə görüşündə demişdi: «Mən bütün səyimi, bacarığımı və qüvvəmi Azərbaycanda əmin-amanlığın təmin olunmasına sərf edəcəyəm, Azərbaycanın milli ənənələri, milli xüsusiyyətləri ilə inkişaf etməsinə çalışacağam. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır» [6, s. 19].

30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin ilk sessiyası keçirilir. İclasın aparılması bir ağsaqqal deputat kimi Heydər Əliyevə həvalə olunur. Azərbaycanda ilk dəfə olaraq bu sessiyada milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından, müstəqilliyə can atan xalqımız üçün böyük əhəmiyyət kəsb edən bir sıra qərarlar qəbul edilir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan ulu öndərimiz Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir. Respublikamızda geniş vüsət almış milli-azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyatı, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndərimiz Heydər Əliyevin keçmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır. Muxtar respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş birinci sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuş və keçmiş Naxçıvan MSSR-in adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması barədə tarixi qərar verilmişdir. Həmin sessiyada həmçinin Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin, milli istiqlalın rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi və onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında da yekdilliklə qərar qəbul edilmiş, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət də qaldırılmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ulu öndər demişdir: «Əgər 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikası Azərbaycan xalqının həyatında əlamətdar və tarixi bir hadisədirsə, biz bunu açıq deməliyik və bu, Azərbaycan dövləti tərəfindən müəyyən qədər qanuniləşdirilməlidir. Əgər biz bunu qəbul ediriksə, 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının devrilməsi pislənilməlidir, qeyri-qanuni hal kimi qəbul olunmalıdır» [10, s. 66].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında müzakirə edilən ən mühüm məsələlər sırasında 1990-cı ilin 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də var idi. Azərbaycan xalqının qan sızan yarası olan 20 Yanvar faciəsinin respublika rəhbərliyi tərəfindən araşdırılmadığı, heç bir tədbir görülmədiyi, günahkarlar aşkar edilmədiyi bir şəraitdə Naxçıvanda sıravi deputat kimi Heydər Əliyev «1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında» qərar layihəsi işləyib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim edir və layihə müzakirə edildikdən sonra ulu öndərin siyasi nüfuzu nəticəsində 1990-cı ilin 21 noyabrında qəbul olunur. Bu qərarda ilk dəfə Bakıda baş vermiş yanvar faciəsinə siyasi qiymət verilir, qanlı hadisələri törədən şəxslərin məsuliyyətə cəlb olunması tələb olunurdu.

Qərarda deyilirdi: «1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren huquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin». Sənəddə ilr dəfə olaraq 20 yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında milli Matəm günü kimi qeyd edilməsi qərara alınmışdı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Bakı şəhərində fövqəladə vəziyyətə də öz münasibətini bildirmişdi: «Hüquqi əsas olmadan 1990-cı ilin yanvar ayında Bakı şəhərində fövqəladə vəziyyət elan olunması qeyri-qanuni hesab edilsin və pislənilsin». Fövqəladə vəziyyətin elan olunması, ən adi hüquq normalarına əməl edilməməsi, qırğının qarşısının alınması mümkün və zəruri olduğu halda kütləvi insan tələfatı ilə nəticələndiyi qeyd edilirdi.

Yeri gəlmişkən, qeyd edək ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi bu tarixi əhəmiyyətli qərarlar xeyli sonra Azərbaycan parlamenti tərəfindən də qəbul olunmuşdu. Ümumiyyətlə, həmin vaxt böyük rəhbərimiz muxtar respublikanın ictimai-siyasi həyatında yaxından iştirak etmiş, xalqımızın demokratiya və müstəqillik uğrunda mübarizəsinə misilsiz xidmətlər göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində, keçmiş Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış ağır vəziyyətə də öz birmənalı münasibətini bildirmişdir: «Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi, tarixən Azərbaycan torpağıdır». Azərbaycan Ali Sovetindən xahiş olunurdu ki, Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət və Respublikanın bütün ərazisində dövlət suverenliyini təmin edən tədbirlər haqqında məsələ birinci sessiyanın müzakirəsinə çıxarılsın [11].

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası Azərbaycan və Naxçıvan Respublikasının xalq deputatı Heydər Əlirza oğlu Əliyevi yekdilliklə sədr seçdi.

Heydər Əliyevin sədrliyi ilə işini davam etdirən sessiya «Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında» qərar qəbul etdi. Bu qərara əsasən, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin bütün strukturlarının ləğv

edilməsi və əmlakının milliləşdirilməsini təmin etmək üçün Ali Məclisin deputatlarından ibarət deputat komissiyası yaradıldı. Bununla yanaşı, sessiya «Azərbaycan Respublikası prezidentliyinə seçkilər haqqında məsələyə baxmış və Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Prezidenti seçkilərinin dayandırılması haqqında qərar qəbul etmişdir».

Belə bir qərarın qəbul olunması bir çox obyektiv səbəblərlə bağlı idi. Qərarda göstərilirdi ki, «prezident seçkiləri Azərbaycanda demokratiyanın və xalqın səsinin boğulması şəraitində keçirildiyindən bütün demokratik qüvvələr həmin seçkilərin təxirə salınmasını» tələb edir. Onu də qeyd etmək lazımdır ki, həmin dövrdə Naxçıvan parlamentinin bu qərarı bəzi qüvvələr tərəfindən birmənalı qəbul olunmamışdır və onlar şayiə yaymaq məqsədilə, bu qərarı Azərbaycandan ayrılmaq cəhdi kimi qiymətləndirməyə çalışırdılar.

Sessiya yekdilliklə həmin məsələ barəsində Muxtar Respublika Ali Məclisinin bəyanatını qəbul etmişdir. Bəyanatda muxtar respublika Ali Məclisinin sessiyasında qəbul edilmiş sənədlərdə, Ali Məclisin sədrinin həm sessiyada, həm də Naxçıvan televiziyası ilə çıxışında Azərbaycanın bütövlüyü və bölünməzliyi haqqında qətiyyətli fikir söylənilmiş, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu bir daha təsdiq edilmişdir.

Bu fikri Nehrəm kəndində seçicilərlə görüşəndə Azərbaycanın xalq deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev bir daha vurğuladı: «... Biz həmişə olduğu kimi, indi də deyirik ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsidir və belə də olacaqdır» [10, s. 72].

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul etdi. Bu tarixi hadisə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev «Həyat» qəzetinin redaksiyasına teleqram göndərdi. Teleqramda deyilirdi: «Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir. Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli-azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli-azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər» [6, s. 24].

Demokratik proseslər Naxçıvanda geniş vüsət almaqda idi. İnsanların siyasi və şəxsi hüquqlarına qəsd edən hərəkətlərə etiraz edərək muxtar respublikanın Ali Məclisi «Vətəndaşların siyasi əqidəsinə görə təqib olunmasına munasibət haqqında» qərar qəbul edir. Orada deyilirdi:

«Qeyd edilsin ki, demokratik təsisatlara uyğun olaraq ictimai həyatın siyasiləşdirilməsi proseslərinin sürətləndirilməsi, azad fikirlilik, insan azadlığı, siyasi partiya və hərəkatların azad və mustəqil, muxtar respublikanın Konstitusiya tələblərini pozmayan, insan hüquqları haqqında

beynəlxalq akta müvafiq fəaliyyətləri bundan sonra Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən qorunur və müdafiə edilir».

Naxçıvan parlamentinin vacib tarixi addımlarından biri də «31 dekabr dünya Azərbaycan turklərinin həmrəylik və birlik günü haqqında» qərarın qəbul edilməsi idi. Qərarın qəbul edilməsi ərəfəsində bu məsələyə 1991-ci il dekabrın 9-da muxtar respublika Ali Məclisinin Rəyasət Heyətində baxılmış və Naxçıvanla Cənubi Azərbaycan arasında SSRİ-İran dövlət sərhədindəki tikanlı məftil qurğularının söküldüyü 1989-cu ilin 31 dekabr gününün dünya Azərbaycan türklərinin milli həmrəylik günü kimi dövlət səviyyəsində qeyd edilməsi barədə təkliflər irəli sürülmüşdü.

Dekabrın 16-da Naxçıvan Ali Məclisinin sessiyasının iclası keçirilmişdi. Ali Məclis qərara almışdı ki, 31 dekabr dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram kimi qeyd edilsin. Naxçıvan parlamenti həmin gün dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününün bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif vermişdi. Bununla bağlı Ali Məclisin sədri Heydər Əliyev demişdir: «Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda - qədim türk diyarında irəli sürülmuşdür» [10, s. 74-75].

Demokratik dəyişikliklərə baxmayaraq, Azərbaycanın qalan hissəsindən ayrı düşmüş, Ermənistan ərazisi ilə əhatə olunmuş və hərbi təcavüzə məruz qalmış Naxçıvan Muxtar Respublikası çətin vəziyyətdə idi. İqtisadi və kommunikasiya blokadası şəraitində yaşayan Naxçıvana xaricdən, Türkiyə Respublikasından humanitar yardım daxil olurdu. Heydər Əliyev demişdir: «Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxandan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk islam dünyasına bir qapıdır» [10, s. 75].

Bu istiqamətdə Naxçıvan parlamentinin rəhbəri bir sıra tutarlı addımlar atmışdır. 1992-ci il martın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Turqut Özalın və baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyə Respublikasına rəsmi səfərə getmişdi. Səfərin gedişində - martın 24-də əməkdaşlıq haqqında protokol imzalanmışdı. Sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Ankara Naxçıvana 100 milyon dollar məbləğində kredit verərək, hər il yüz naxçıvanlı tələbəni qəbul edəcək, muxtar respublikanı Türkiyənin televiziya və telefon sistemlərinə qoşmaq sahəsində işlər görəcək, Türkiyə ilə Naxçıvan arasında hava və dəmiryol əlaqəsi yaratmağa başlayacaqdı. Türkiyə Araz çayı üzərində körpü salmaq barəsində də öhdəlik götürmüşdü.

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında Heydər Əliyevin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Azərbaycanla Türkiyə arasında sərhəd keçidi

yaratmaq məqsədilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı üçün körpü salmışdı.

Türkiyənin «Milliyyət» qəzeti hələ 4 may 1992-ci il tarixli nömrəsində Türkiyəni Naxçıvanla birləşdirəçək körpünün tikintisinin tamamlanmaq üzrə olduğu və onun may ayında açılacağını bildirmişdi. Orada qeyd olunurdu ki, Naxçıvan körpüsü Türkiyənin Qafqaz və Orta Asiya dövlətlərinə keçidini təmin edən bir qapı olacaqdır [12]. 1992-ci il mayın 28-də Sədərəkdə Naxçıvanla Türkiyə arasındakı körpünün açılışı oldu. Körpünün rəsmi açılışında Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük nümayəndə heyəti gəlmişdi. Süleyman Dəmirəl körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. O, qeyd etdi ki, böyük Türk dünyası artıq reallığa çevrilmişdir. S.Dəmirəl sözünə davam edərək demişdi: «Bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu, Avropa ilə Asiya arasında körpüdür» [13, s. 314].

Körpünün açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Azərbaycan xalqının uzun illər qəlbində gəzdirdiyi, yaşatdığı fikri ifadə edərək dedi: «Bu gün bizim arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi». Bu əlamətdar hadisə ilə bağlı muxtar respublikanın parlamenti qərar qəbul etdi. Qərarda deyilirdi: «İstifadəyə verilmiş Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edilsin» [10, s. 77-78].

İranla da Muxtar Respublikanın əlaqələri genişlənirdi. 1992-ci il avqustun 24-də Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana yola düşmüşdü və elə həmin gün İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında protokol imzalanmışdı. Bağlanmış protokola əsasən, muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, sentyabr ayından başlayaraq hər ayda yüz ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olunmuşdu.

Naxçıvanın Türkiyə və İranla iqtisadi, ticarət, mədəni əməkdaşlığının genişlənməsi Azərbaycanda və Naxçıvanda bəzi qüvvələrin «narahatlığına» səbəb olmuşdu. Belə ki, onlar bu addımları Naxçıvanda separatizm meyillərinin güclənməsi kimi təqdim etməyə çalışırdılar.

Azərbaycanın dövlət hakimiyyəti orqanlarının nümayəndələri muxtar respublikaya kömək etmək əvəzinə, onun rəhbərliyinə təzyiq göstərməyə cəhd edirdilər. Onlar Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusunda dəyişiklik etməyə, onun Konstitusiya hüquqlarını məhdudlaşdırmağa çalışırdılar. Bununla əlaqədar muxtar respublika Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilirdi: «Ali Məclisin Rəyasət Heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqında yayılan şayiələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla

əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir» [10, s. 79].

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ məsələsi Naxçıvan Parlamentinin sədri Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. 1992-ci il mayın 18-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Ermənistan tərəfdən hərbi təcavüzə məruz qalmışdı. Milli ordunun sərhəd boyunca yerləşən əsas mövqeləri hücum zamanı güclü hərbi texnikadan istifadə edən düşmənin əlinə keçmişdi. Heydər Əliyev yaranmış vəziyyətlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məclisində vəziyyəti müzakirə edib, dərhal təcili tədbirlər görməklə məşğul olur. Naxçıvanın müdafiəsini təşkil etmək və eyni zamanda, atəşin dayandırılması üçün Ermənistan prezidenti, Türkiyənin baş naziri Süleyman Dəmirəl və Türkiyənin xarici işlər naziri Hikmət Çətin ilə telefon danışıqları aparır və danışıqlar zamanı Ermənistan prezidentindən sərhəddə atışmanı dayandırmağı tələb edir. S.Dəmirəl və H.Çətindən isə buna kömək göstərmələrini xahiş edir. Türkiyə hökuməti Naxçıvana edilən təcavüzlə bağlı bütün dünyaya bəyanat yayır. May ayının 18-də Türkiyənin Bakanlar Qurumunda (Nazirlər Kabinetində-İ.H.) qəbul olunmuş bəyanatın çox mühüm cəhəti bir də ondan ibarətdir ki, Heydər Əliyevin göstərdiyi kimi, «Bəyanatda Türkiyə hökumətinin 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan Muxtar Respublikası haqqında xüsusi söz sahibi olması, qarant rolunu oynaması» məsələsi qeyd olunubdur və bu da bütün dünya ictimaiyyətinə çatdırılıbdır. Həmin günlərdə bütün dünya informasiya orqanlarının verilişlərində, məlumatlarında 1921-ci il Qars müqaviləsi, onun mənası və Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyəti göstərilmişdi.

Bununla yanaşı, Naxçıvana xarici müxbirlərin böyük axını olmuşdur. Onlar Naxçıvan parlamentinin sədri Heydər Əliyevlə görüşmüş, ondan vəziyyət haqqında məlumat almış, «operativ hərəkət edərək məlumatları bütün dünya informasiya orqanlarına çatdırmış və bunun nəticəsində dünya ictimaiyyətində ciddi rəy yaranmışdır ...Hücum Ermənistan tərəfindən olubdur və bu, Naxçıvana, Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüzdür» [10, s. 84 ].

Ciddi bəyanatlar başqa böyük dövlətlər tərəfindən də verilmişdi - Amerikanın Dövlət katibi Beyker, İngiltərənin xarici işlər naziri, Fransanın xarici işlər naziri buna münasibət bildirmişdilər. Bütövlükdə, 57 dövlət rəsmi surətdə Ermənistan Respublikasının Naxçıvana hərbi hücumunu pisləyib, etirazlarını bildirmişdilər.

Ulu öndərin düzgün, çevik siyasəti nəticəsində Naxçıvan həqiqətləri bütün dünyaya yayılırdı. Muxtar respublika dünya ictimaiyyətinin daim diqqət mərkəzində olmuşdur. 1992-ci il iyunun 17-də ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Riçard M.Mayls vəziyyətlə tanış olmaq üçün Naxçıvana gəlmiş və Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdi. Ümummilli lider ümidvar olduğunu bildirmişdi ki, ABŞ çətin problemlərin həllində, xüsusilə, Qarabağda və Naxçıvanda sülhün və əmin-amanlığın bərqərar olması üçün Azərbaycana öz köməyini əsirgəməyəcək. Amerika diplomatı Riçard M.Mayls Naxçıvanda ictimai-siyasi vəziyyətlə tanış olduqdan sonra «Həyat»ın müxbirinə demişdi: «Naxçıvan Muxtar Respublikası Azərbaycanın ictima-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynadığı üçün ilk tanışlığa buradan başlamağı qərara aldım. Bir də mən Heydər Əliyevin adını eşitmiş, böyük

nüfuzundan xəbərdar idim, şəxsən tanış olmaq arzum var idi. Biz onunla çox faydalı söhbətlər apardıq. Məndə xoş təəssürat oyandı» [10, s.85].

Azərbaycan Xalq Cəbhəsinin (AXC) apardığı yararsız kadr siyasəti Naxçıvanda daxili vəziyyəti kəskinləşdirmişdi. 1992-ci il oktyabrın 24-də AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişi cəhdi göstərilir. Onlar muxtar respublikanın Televiziya Şirkətini, Texniki İstismar Rabitə İdarəsinin Elektrik Mərkəzini, Daxili İşlər Nazirliyini tuturlar. Belə şəraitdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qarşısında izdihamlı mitinq keçirilir. Mitinq iştirakçıları Heydər Əliyevlə həmrəy olduqlarını bildirir, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və Teleradio Verilişləri Komitəsinin binasını boşaltmağı tələb edirlər. Ulu öndər bir neçə dəfə AXC sədri, Azərbaycan Prezidenti Ə.Elçibəylə telefonla danışaraq AXC-nin Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb edir. Oktyabrın 25-də Heydər Əliyev Naxçıvan radiosu ilə əhaliyə müraciət edir. Elə həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası keçirilir, 24 oktyabr dövlət çevrilişi cəhdi pislənilir. Məclis AXC silahlı qüvvələrinin tərk-silah olunması haqqında qərar qəbul edir.

Oktyabrın 27-də Naxçıvandakı "Azadlıq" meydanında keçirilən ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan Prezidentindən Naxçıvana qarşı zorakılıq hərəkətlərini aradan qaldırmağı tələb etmişdilər. Oktyabrın 28-də «Real» agentliyi xəbər verirdi ki, 3 gün davam edən gərgin vəziyyətdən sonra Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın başqa bölgələrində nisbi sakitlik yaranmışdır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində idarə, müəssisə, nazirlik, müxtəlif partiyaların, ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən muşavirədə ulu öndər demişdir: «Hazırda xalqımız müharibə şəraitində yaşayır. Belə vəziyyətdə sabitliyi pozmaq, xalq arasında münaqişə salmaq ümumi işimizə mənfi təsir göstərir» [10, s. 88]. Naxçıvanda Heydər Əliyevin siyasəti nəticəsində xalq dövlət çevrilişi cəhdinin qarşısını ala bildi.

Tarixi baxımdan qısa bir müddət - cəmisi 3 il ərzində Naxçıvanda əvvəl sıravi deputat, sonra parlament başçısı kimi fəaliyyət göstərən, təzyiq və təqiblərə məruz qalsa da əqidəsindən dönməyən xalqımızın böyük oğlu Heydər Əliyev öz həmvətənləri qarşısında misilsiz xidmətlər göstərmişdir. Ulu öndər Naxçıvanın ağır iqtisadi, hərbi mühasirə şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanın inkişaf etməsini, əhalinin normal fəaliyyət göstərməsini təmin etmişdir. Onun Naxçıvanı mühasirədən çıxarmaq, qoruyub müdafiə etmək məqsədilə böyük məharətlə, zərgər incəliyi ilə Moskva və Qars müqavilələrinin müddəalarından istifadə etməsi özü də bir böyük istedad, bacarıq, çeviklik və uzaqgörənlik tələb edirdi. Qazsız, işıqsız qalan Naxçıvan ümidsiz deyildi. Naxçıvanın həyat nəbzi tam vururdu, çunki onun başında qüdrətli, cəsarətli, əyilməz, müdrik bir siyasətçi dururdu. Azərbaycanın o zamankı rəhbərliyinin Naxçıvana ögey münasibət bəslədiyi, bu diyarın çoxsaylı problemlərlə üzbəüz qaldığı bir şəraitdə məhz Heydər Əliyevin misilsiz təşkilatçılıq qabiliyyəti və gərgin əməyi sayəsində muxtar respublika əhalisi bu çətinliklərə duruş gətirə bildi [10, s. 61-89].

Heydər Əliyevin misilsiz fəaliyyəti elə böyük məsələləri əhatə edirdi ki, bu, ilk baxışda bir insanın görə biləcəyi işlər baxımından inanılmaz kimi görünür. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması, keçmiş SSRİ-dən miras qalmış təhlükəsizlik orqanlarının ləğv edilərək milli maraqlara xidmət edən yeni müvafiq qurumun yaradılması, rus qoşun hissələrinin muxtar respublikadan çıxarılması, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlərin görülməsi, nizami ordu hissələrinin təşkili, Naxçıvan Muxtar Respublikasının tarixi taleyi üçün müstəsna əhəmiyyətə malik Qars müqaviləsinin şərtlərinin beynəlxalq aləmin diqqətinə çatdırılması, idarəetmə strukturlarında ədalətin, demokratiyanın, operativliyin və dinamikliyin təmin olunması, "hakimiyyət xalq üçündür" prinsipinə dönmədən əməl edilməsi, aqrar islahatların, özəlləşdirmənin uğurla aparılması, yeni iqtisadi münasibətlərin formalaşdırılması, əhalinin sənaye mallarına, ərzaq məhsullarına kəskin ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələrin həyata keçirilməsi, ağır yüklü təyyarələrin qəbulu üçün aeroportun yenidən qurulması, mədəni mühitin dirçəldilməsi, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm addımların atılması və digər əhəmiyyətli və tarixi addımlar məhz bu qısa müddətdə Naxçıvanda yüksək səviyyədə gerçəkləşdirilmişdi. Ölkəmizin ən kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir.

Xatırlatdığımız sahələrlə yanaşı, humanitar məsələlər də görkəmli dövlət xadimi Heydər Əliyevin prioritet verdiyi məsələlərdən olmuşdur. Naxçıvanlı gənclərin Türkiyənin müxtəlif universitetlərində ali təhsil almaq üçün göndərilməsi, səhiyyənin, ədəbi-mədəni mühitin inkişafına böyük qayğı göstərilməsi və sair tədbirlər buna aid edilə bilər. Yeri gəlmişkən, önəmli faktlardan birini yada salmaq Heydər Əliyevin qeyri-adi böyüklüyünün daha bir təsdiqi olardı. 23 oktyabr 1992-ci ildə Naxçıvanda soyuq hava şəraitində ustad sənətkarımız Hüseyn Cavidin 110 illik yubileyi qeyd olunmuş, ulu öndərimiz Heydər Əliyev tədbirdə iştirak və çıxış etmişdir. Bundan düz 10 il öncə isə - 1982-ci ilin oktyabrında məhz Heydər Əliyevin köməkliyi ilə Hüseyn Cavidin nəşinin qalıqları uzaq Sibirdən, onun dəfn olunduğu torpaqdan Azərbaycana –doğma Naxçıvana gətirilmişdi.

Ölkəmizə rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev respublikanın hər bir bölgəsində, hətta hər bir kəndində öz əbədi, silinməz izini, möhtəşəm imzasını qoymuşdur. Ulu öndərin təşəbbüsü ilə aparılmış böyük quruculuq işləri respublikanın iqtisadi tərəqqisini şərtləndirən tarixi bir mərhələnin uğurları kimi xatırlanmaqdadır. Bu da təsadüfi deyildir. Xalq öz böyük oğlunun misilsiz xidmətlərini, xalqına, dövlətinə olan tükənməz sevgisini unutmur və heç vaxt da unutmayacaqdır. Bu gün Heydər Əliyev cismən bizim aramızda yoxdur, amma hər birimiz çox gözəl bilirik ki, ulu öndərin böyük ruhu, nurlu xatirəsi, onun işıqlı ideyaları, azərbaycançılıq məqamları ilə bağlı fikirləri həmişə bizimlədir. Ümummilli lider özündən sonra hər bir Azərbaycan vətəndaşı üçün, həm də dünyanın müxtəlif guşələrində yaşayan hər bir həmvətənimiz üçün müstəqil Azərbaycan dövləti kimi müqəddəs bir əmanət qoyub getmişdir. İndi bütün Azərbaycan vətəndaşlarının ən ali borcu bu əmanəti qoruyub saxlamaqdan ibarətdir.

Fəxr edirik ki, ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan daxili və xarici siyasətini və ideyalarını möhtərəm Prezident İlham Əliyev 2003-cü ildən etibarən uğurla davam etdirir. Məhz bu uğurlu fəaliyyət ölkənin beynəlxalq aləmdəki nüfuzunu möhkəmləndirir, Azərbaycanın etibarlı tərəfdaş olduğunu sübut edir, ölkə vətəndaşlarının dövlət başçısının ətrafında getdikcə daha sıx birləşməsinə səbəb olur. Qətiyyətlə demək olar ki, məhz bu düşünülmüş siyasət respublikada dayanıqlı inkişafı, Azərbaycan xalqının rifah halının yüksəlməsini, ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini, əzmlə aparılan dövlət quruculuğunu hərtərəfli təmin edir.

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, ümummilli liderimiz möhtərəm Heydər Əliyevin zəngin idarəçilik, milli dövlətçilik məktəbini keçən, Heydər Əliyevin azərbaycançılıq kursunu dərindən mənimsəyən və onu davam etdirməyə qadir olan, vətəninə, xalqına, millətinə, dövlətinə ləyaqətlə xidmətin Heydər Əliyev örnəyinin, nümunəsinin layiqli davamçısı missiyasını yeni əsrdə – XXI yüzillikdə daşımağa qabil siyasi-ideoloji, mədəni və intellektual, idarəçilik baxımından yeganə şəxsiyyət kimi Azərbaycan cəmiyyəti tərəfindən qəbul və etiraf olunan İlham Əliyev ölkəmizin dövlət başçısıdır. İlham Əliyevin xoşbəxtliyi isə ondadır ki, o, dünya şöhrətli siyasət xadim və müdrik dövlət adamının, XX əsrin ən böyük lideri, 50 milyonluq dünya azərbaycanlılarının milli iftixarı və güvənc yeri, ən böyük azərbaycanlı olan Heydər Əliyev ocağının, Heydər Əliyev vətənpərvərlik məktəbinin yetirməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün ulu öndər Heydər Əliyevin dövlətçilik və idarəçilik iş üslubunu dərindən mənimsəmiş siyasi liderdir, çağdaş dünyanın reallıqlarını zəngin siyasi təfəkkür səviyyəsində analitik təhliletmə bacarığına müqabil praqmatik siyasətçi, bacarıqlı diplomat, fenomenal, dahi şəxsiyyət Heydər Əliyevin genetik keyfiyyətlərinin layiqli daşıyıcısıdır.

Heydər Əliyev siyasətinə sədaqət nəticəsində müstəqil Azərbaycan bu gün yeni inkişaf və tərəqqi dövrünü yaşayır, Heydər Əliyev ideyaları yaşayır, qalib gəlir. Müstəqil Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi altında sürətlə beynəlxalq birliyə sıx şəkildə inteqrasiya olunur və onun nüfuzlu üzvlərindən birinə çevrilir. Bu gün müasir Azərbaycan ulu öndərin əsasını qoyduğu təməl üzərində dayanmadan inkişaf edir, Azərbaycan bu gün heç bir alternativi olmayan Heydər Əliyev yolu ilə inamla irəliləməkdədir. Hər bir uğurumuz, nailiyyətimiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dünəni, bu günü və gələcəyi kimi dəyərləndirilən Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizə qarşıdakı illər üçün daha möhtəşəm uğurlar vəd edir...

**Açar sözlər:** ümummilli lider, Heydər Əliyev, qayıdış, müdrik siyasət, konstitusiya aktı, dövlət quruculuğu.

## Ədəbiyyat

1. Əliyev Heydər. Müstəqilliymiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
2. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997, 136 s.
3. Əliyev İlham. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, 328 s.

4. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 416 s.
5. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
6. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, 504 s.
7. Ulu öndər Heydər Əliyev və Naxçıvan / https://nuhcixan.az/news/siyaset/63566-ulu-onder-heyder-eliyev-ve-naxcivan
8. Xilaskarlıq missiyası / https://ikisahil.az/post/317685-xilaskarliq-missiyasi-3
9. Heydər Əliyevin milli öndərlik tərcümeyi-halında Naxçıvan. "İki sahil" qəzeti, 5 sentyabr 2022
10. Hüseynova İ. Dövlətçilik naminə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 294 s.
11. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, f. 2941, siy. 1a, iş 236, vər. 171
12. «Milliyyət», 4 may 1992-ci il
13. Heydər Əliyev. Qətiyyətin təntənəsi. Bakı, 1995, 846 s.
14. 12 dekabr ümummilli lider Heydər Əliyevin anım günüdür. "Azərbaycan müəllimi" qəzeti, 12 dekabr 2008.
15. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. III cild. Bakı: Elm və təhsil, 2020, 432 s.
16. Гусейнова Ирада. Мультикултурализм и его практическая реализация на Кавказе // Geostrategiya, 2013, № 06 (18), noyabr - dekabr, səh. 21-24
17. Гусейнова Ирада. «Гейдар Алиев от политического руководителя к общенациональному лидеру» Баку, 2005, 504 с.

**Genius of Heydar Aliyev in the development of Azerbaijani statehood**

The article tells about the historical and unprecedented activity of Heydar Aliyev during the existence of the Republic of Azerbaijan, which regained independence at the end of the twentieth century, and today has become one of the dynamically developing states of the world. It is noted that on the eve of Azerbaijan's independence, great leader Heydar Aliyev decided to be with his people in the difficult days of the 90s of the last century and returned to Azerbaijan for this purpose. The article analyzes in detail the arrival of the national leader from Moscow to Baku in July 1990, and then to Nakhchivan, which was in a state of severe blockade, and the important work he did during his leadership of the autonomous republic. According to the author, Heydar Aliyev, who operated in Nakhchivan for a short time from a historical point of view - only 3 years - first as an ordinary deputy, and then as the head of parliament, despite pressure and persecution, rendered invaluable services to his compatriots, ensured the prosperity of Nakhchivan, its normal functioning, despite the difficult economic and military the blockade.

It is scientifically proved that the author's uncontested domestic and foreign policy of the great leader is successfully continued today by his political successor, a worthy pupil and successor of the political school of Heydar Aliyev, President of the Republic of Azerbaijan Ilham Aliyev.

# HEYDƏR ƏLİYEV VƏ CƏNUBİ QAFQAZ RESPUBLİKALARI – MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ MÜNASİBƏTLƏRİ

**Qabil Əliyev**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: qabilalioglu1956@gmail.com

Cənubi Qafqaz respublikalarının Dünya Birliyinə və regional təşkilatlara inteqrasiyası prosesində SSRİ-nin dağılması prosesində yeni yaranan respublikalarla, xüsusən Rusiya Federasiyası və onun təşəbbüsü ilə yaradılmış Müstəqil Dövlətlər Birliyi ilə normal münasibətlər qurulması qarşıda duran çox önəmli vəzifələrdən biri olmuşdur. Gürcüstan Respublikası 1991-ci il aprelin 9-da, Ermənistan Respublikası 1991-ci il sentyabrın 21-də, Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən [1, c.40, 45, 38] sonra bu respublikaların beynəlxalq və regional təşkilatlara tamhüquqlu üzv kimi qəbul edilmələrinə şərait yaratdı. Yeni istiqlaliyyət qazanmış bu respublikalar özlərinin suveren hüquqlarını qorumaq, dövlət müstəqilliklərini möhkəmləndirmək, beynəlxalq münasibətlər sistemində layiqli yer tutmaq və üzləşdikləri münaqişələri ədalətli həll etmək üçün qonşu ölkələrlə, ilk növbədə dünyanın ən nüfuzlu dövlətlərindən biri olan Rusiya ilə normal əlaqələr qurmaq üçün addımlar atdılar. Həm də bu zaman Cənubi Qafqaz respublikaları Rusiya rəhbərliyinin postsovet məkanında yenidən hegemon rol oynamaq cəhdlərini əngəlləmək, öz suverenliklərini möhkəmləndirməyə çalışırdılar.

Cənubi Qafqaz respublikaları üçün həyati əhəmiyyət kəsb edən bu problem – MDB-yə üzv olmaq, onun daxilində öz suveren hüquqlarını qorumaq, Rusiya ilə münasibətləri normal saxlamaq istiqamətində atılan addımlar haqqında geniş bəhs etmək zəruridir. Məhz bu məsələdə ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyətli tədbirləri Azərbaycanın, eləcə də bütün Cənubi Qafqaz regionunun müasir xarici siyasət kursunun formalaşmasına güclü təsir göstərmişdir.

Müstəqil Dövlətlər Birliyi (MDB) 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belarus rəhbərləri tərəfindən yaradılmışdır. Əvvəlcə slavyan respublikalarının ittifaqı kimi nəzərdə tutulan bu birliyə 1991-ci il dekabrın 21-də Alma-Atıda keçirilən toplantıda Qazaxıstan, Mərkəzi Asiya respublikaları, Moldova və Ermənistan da qoşulmağa qərar verdilər. Alma-Atı toplantısında iştirak edən Ermənistan prezidenti MBD-yə üzv olmaq haqqında bəyannaməni imzaladı [2], o zamankı Azərbaycan rəhbərliyi isə bu sənədə münasibətdə ziddiyyətli mövqe nümayiş etdirdi. Azərbaycan prezidenti Ayaz Mütəllibov Alma-Atı bəyannaməsini imzaladı, lakin ali qanunverici orqan – Azərbaycan Milli Şurası bu sənədi ratifikasiya etmədi [3, s.597-598]. Həmin dövrdə Gürcüstanda gərgin daxili vəziyyət – silahlı qarşıdurma olduğu üçün, bu respublika Alma-Atıda keçirilən toplantıda ümumiyyətlə təmsil olunmadı.

1991-ci ilin sonunda SSRİ-nin dağılması və əvəzində yeni dövlətlərarası qurum – Müstəqil Dövlətlər Birliyi yaradılması özü ilə bərabər yeni siyasi reallıqlar doğurdu. Postsovet məkanında yeni müstəqillik qazanmış dövlətlər öz aralarında Sovet dövründəki "qardaşlıq", "müttəfiqlik" münasibətləri əvəzinə, tamamilə yeni, qarşılıqlı fayda verəcək əlaqələr yaratmaq zərurəti ilə üzləşdilər. Həm də geopolitik dəyişikliklərdən qaynaqlanan siyasi, iqtisadi, ticarət, nəqliyyat-kommunikasiya, humanitar-mədəni sahələr üzrə müxtəlif problemləri tez bir zamanda həll etmək lazım gəlirdi. Bununla bağlı, MDB-nin təsis edilməsi, ona dövlətüstü səlahiyyətlər verilməsə belə (1991-ci il dekabrın 21-də MDB-ni təsis edən respublikaların başçılarının imzaladıqları Alma-Atı bəyannaməsində bu cəhət xüsusi vurğulanmışdı – Q.Ə.), bu quruma ümumi xarakterli məsələləri həll etmək, iştirakçı dövlətlərə öz ağrılı problemlərini müzakirə edib çıxış yolları aramaq imkanı verdi.

MDB-nin rəhbər orqanları sistemi və qərarlar qəbul edilməsi mexanizmi təsis sənədlərində dəqiq əks olunmuşdu. Həm də sonrakı dövrdə MDB-nin çoxlu sayda müxtəlif səlahiyyətlərə malik işçi orqanları yaradılmışdı. Bu orqanların MDB ilə bağlı qərarları ümumi razılıq əsasında – konsensus yolu ilə qəbul edilir. Hər hansı dövlət bu və ya digər məsələdə marağı olmadığını bəyan etmək və bu zaman öz mövqeyini həmin sənədi imzalamamaqla bildirmək səlahiyyətinə malikdir. Belə mövqe həmin qərarın qəbul edilməsi üçün maneə sayılmır. Bu yolla qəbul edilmiş qərarları yalnız onu imzalayan dövlətlər icra etməyə borcludular. Ümumiyyətlə, MDB praktikasında yalnız çox məhdud sayda sənədlər 12 iştirakçı dövlətin hamısı tərəfindən imzalanmışdır. Bir qayda olaraq Ukrayna, Moldova, Türkmənistan, Azərbaycan, Gürcüstan və Özbəkistan MDB orqanlarına dövlətüstü səlahiyyətlər verilməsinə yönəlmiş təklifləri dəstəkləməmişlər.

1990-cı illərin başlanğıcında Müstəqil Dövlətlər Birliyinin yaradılmasını Rusiya diplomatiyası özünün böyük uğuru sayırdı. Rəsmi Moskva bu qurum vasitəsi ilə postsovet məkanında təsirini saxlamağa ümid edirdi. Rusiya hakim dairələri MDB vasitəsilə başqa regionlarda olduğu kimi, Qafqazda da öz həyati mənafeyini təmin etməyə, mövqelərini möhkəmləndirməyə, Qərbin ictimai-siyasi, iqtisadi və mədəni təsirini zəiflətməyə səy göstərirdilər [4, s.236]. Ona görə də, Rusiya dövlət strukturları Birlik iştirakçılarının hər hansı birinin MDB çərçivəsində inteqrasiyanı dərinləşdirmək qərarlarına etirazını açıq narazılıqla qarşılayır [5, c.105], həmin dövləti müxtəlif vasitələrlə cəzalandırmağa çalışırdı.

Ermənistan rəhbərliyi bunu dərhal nəzərə aldı və 1991-ci ilin payızından, o zamana qədər yeritdiyi SSRİ-dən qəti şəkildə çıxıb müstəqil, qərbyönlü siyasət yeritmək mövqeyindən geri çəkildi, Rusiya himayəsinə sığınmaq xətti yeritməyə başladı. 1991-ci il dekabrın 21-də isə məhz Ermənistan keçmiş İttifaqda birinci olaraq Rusiya ilə dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzaladı. Ermənistandakı keçmiş sovet hərbi bazaları və hərbi qüvvələri Rusiya Federasiyasına aid hesab edilərək, olduğu kimi saxlanıldı. 1995-ci ildə ayrıca müqavilə bağlandı ki, Ermənistandakı Rusiya hərbi bazaları 25 il qalacaqdır və sonra da hər iki tərəfin razılığı ilə daha 5 il uzadıla biləcəkdir [6, т.3, c.530].

Ermənistan rəhbərliyi həmçinin Rusiyanın MDB çərçivəsində mövqeyini möhkəmləndirməyə yönəlmiş addımlarını birmənalı şəkildə dəstəklədi. Bütün bunların əvəzində Rusiya Ermənistana hərbi yardımları artırdı. 1992-ci ilin yayında Ermənistan ərazisində dislokasiya edilmiş 15-ci və

164-cü motoatıcı diviziyaların hərbi texnikası və silah-sursatı bu respublikaya verildi. 1993-1996-cı illərdə isə əlavə olaraq daha 1 milyard ABŞ dolları həcmində silah və hərbi texnika verilməsi [4, s. 259, 260; 17, s.538, 545] də bu ölkəni mükafatlandırmaqla bütövlükdə Qafqaz regionunu öz təsirində saxlamaq məqsədi güdürdü.

Lakin MDB-nin formalaşmasına digər iştirakçı dövlətlərin, o cümlədən də Azərbaycanın münasibəti daxili siyasi vəziyyətin dəyişməsindən qaynaqlanan səbəblər üzündən bir-birindən tam fərqli mərhələlərdən keçmişdir. Əgər Azərbaycan 1991-1992-ci ilin başlanğıcında – A.Mütəllibovun rəhbərliyi dövründə Sovet liderləri ilə birlikdə "Yeniləşmiş ittifaq dövləti" yaradılması uğrunda fəal çalışmaları ilə yadda qalmışdırsa, 1992-1993-cü illərdə – Ə.Elçibəyin hakimiyyəti dövrü əksinə, MDB-yə, onun üzvlərinə qarşı çox kəskin münasibəti ilə fərqlənmişdir.

A.Mütəllibov SSRİ-nin saxlanılması haqqında 1991-ci il martın 17-də keçirilən referendumda Azərbaycan xalqının iradəsinin əksinə olaraq müsbət cavab təmin etmiş, yenilənmiş İttifaq müqaviləsinin hazırlanmasında fəal iştirak etmiş, 1991-ci ilin avqustunda isə SSRİ-də dövlət çevrilişi cəhdi zamanı mühafizəkar qüvvələri dəstəkləmişdi. Yalnız 1991-ci ilin payızında SSRİ-nin süqutu tam aydınlaşdıqda, milli qüvvələrin təzyiqi altında dövlət müstəqilliyi haqqında Konstitusiya qanunu qəbul edilməsinə razılıq vermiş, eyni zamanda özünü sığortalamaq üçün 1991-ci il dekabrın 29-da artıq ləğv edilmiş SSRİ tərkibində Azərbaycanın qalıb-qalmaması haqqında referendum keçirmişdi [8, c.7, s.229, 236, 237].

Həmin dövrdə Azərbaycan rəhbərliyi MDB-nin təsis sənədlərini imzalamaqla Rusiya ilə iqtisadi, siyasi və humanitar sahələrdə sıx əlaqələr qurmağı planlaşdırırdı. Eyni zamanda, Rusiyanın və Ermənistanın birbaşa yardımı ilə Dağlıq Qarabağda erməni quldur dəstələri tərəfindən azərbaycanlı əhalinin ata-baba torpaqlarından zorla çıxarılmasını nəzərə almağa məcbur oldu, milli silahlı qüvvələr yaratmağa başladı. Ona görə də, SSRİ-nin sonuncu Müdafiə naziri, marşal Y.Sapoşnikovun MDB məkanında silahlı qüvvələrin vahid komandanlığını saxlamaq planını dəstəkləmədi, Kollektiv Təhlükəsizlik Müqaviləsini imzalamaqdan imtina etdi. Nəticədə, 1992-ci ilin ilk aylarında Cənubi Qafqazdakı keçmiş Sovet hərbi hissələrinin Azərbaycana qarşı düşmənçilik hərəkətləri gücləndi, Xankəndində yerləşən 366-cı alayın fəal iştirakı ilə Xocalı soyqırımı gerçəkləşdirildi [9, c.965]. Beləliklə, Ayaz Mütəllibovun ardıcıl olmayan MDB siyasəti Azərbaycanın beynəlxalq mövqeyini zəiflətdi, daxili siyasi vəziyyəti də əsaslı surətdə kəskinləşdirdi.

1992-ci ilin iyununda Azərbaycanda Xalq Cəbhəsinin lideri Əbülfəz Elçibəyin prezident seçilməsindən sonra respublikanın MDB-də iştirakı donduruldu, noyabrın 7-də isə Azərbaycan Milli Məclisi MDB-nin təsis sənədlərini təsdiq etmədi. Bundan sonra Azərbaycan nümayəndəliyi MDB görüş və toplantılarında müşahidəçi qismində iştirak etməyə başladı. Əvəzində Azərbaycanın o zamankı rəhbərliyi Rusiya Federasiyası ilə bütün sahələrdə normal ikitərəfli əlaqələr yaradılması və inkişaf etdirilməsi xəttinə üstünlük verdiyini bildirdi. Bu baxımdan, 1992-ci il oktyabrın 12-də Moskvada Azərbaycan və Rusiya prezidentlərinin görüşündə dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 26 maddədən ibarət müqavilə imzalanması [7, s.525; 10, s.284]. xarakterik

idi. Lakin o zaman Rusiya hakim dairələrində nüfuzlu qüvvələr hələ də Azərbaycanın dövlət müstəqilliyini qəbul etmək istəmir, ona öz nüfuz dairələri kimi baxmaqda davam edirdilər. Məhz həmin qüvvələrin təsiri ilə Dövlət Duması bu müqaviləni təsdiq etmədi.

Həmin dövrdə Azərbaycanın MDB-də yalnız müşahidəçi qismində iştirak etməsi ölkəmizin regionda gedən proseslərdən əsassız təcrid olunmasına, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda yeni-yeni problemlərin yaranmasına səbəb oldu, eyni zamanda postsovet məkanında Ermənistanın mövqelərinin möhkəmlənməsinə gətirib çıxardı [11, s.622]. Azərbaycanın özünütəcrid siyasətinə, uzun müddət vahid bir dövlət tərkibində yaşadığı keçmiş İttifaq respublikaları ilə münasibətlərin əsassız gərginləşdirilməsinə, onların ünvanına rəsmi və qeyri-rəsmi ittihamlar səsləndirilməsinə 1993-cü ilin iyununda baş verən hakimiyyət dəyişikliyi nəticəsində son qoyuldu. Ümummilli lider, çox böyük dövlətçilik təcrübəsi olan və o zamankı Rusiya hakimiyyətində təmsil olunanların əsil simalarını çox gözəl tanıyan Heydər Əliyev Azərbaycan xalqının təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə gəldikdən sonra respublikamızın MDB-də normal iştirakı addım-addım qaydaya salındı.

Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü il sentyabrın 20-də Azərbaycan Milli Məclisi MDB-nin təsis sənədlərini qəbul etdi, Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulması haqqında qərarı təsdiq etdi [12] 1993-cü il dekabrın 24-də Aşqabadda keçirilən MDB Dövlət başçıları Şurasının zirvə görüşündə H.Əliyev qurumun tam səlahiyyətli üzvü kimi iştirak etdi, burada xüsusi bəyanat verərək MDB-nin Ermənistanın işğalçı fəaliyyətini dayandırmasında öz təsir imkanlarından istifadə etmədiyini xüsusi vurğuladı: "Böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin tamhüquqlu üzvü olduqdan və Kollektiv Təhlükəsizlik haqqında Müqaviləyə qoşulduqdan sonra Ermənistan Respublikası öz təcavüzünü nəinki dayandırmamış, əksinə, hərbi əməliyyatlar daha geniş miqyas almışdır ... Deməli, Ermənistan Respublikası təkcə Azərbaycan Respublikasına qarşı təcavüz etmir, həm də indi bizim birliyimizi birləşdirən prinsiplərə tam saymazlıq nümayiş etdirir. [13, s.298,299].

Azərbaycan rəhbərinin MDB-yə üzv olmaq haqqında qərarı o zamankı Gürcüstan rəhbərliyinin də Rusiya ilə münasibətlərə, MDB-də iştirak məsələsinə yenidən baxmasına səbəb oldu. 1993-cü ilin oktyabrında Gürcüstan Dövlət Şurasının sədri E.A.Şevardnadze Gürcüstanın MDB-yə daxil olması haqqında qərar qəbul etdi [14, c,78], 1993-cü il dekabrın 9-da Gürcüstan rəsmən MDB-nin üzvlərindən birinə çevrildi. Bununla da, oxşar problemlərlə üzləşən Azərbaycan və Gürcüstanın MDB çərçivəsində birgə fəaliyyət göstərmələrinin bünövrəsi qoyuldu. Ardınca, E.Şevardnadze Rusiyanın yardımı ilə Gürcüstanın qərbində keçmiş prezident Z.Qamsaxurdiyaya sadiq qüvvələrin qiyamını yatırdı və bu bölgədə mərkəzi hakimiyyətin nəzarətini bərpa etdi.

Azərbaycan və Gürcüstan rəhbərləri MDB-yə üzv olduqdan sonra o zamana qədər qəbul edilmiş sənədlərinin heç də hamısını birmənalı şəkildə qəbul etmədilər. O cümlədən də 1992-ci ildə Daşkənddə imzalanmış Kollektiv Təhlükəsizlik Müqaviləsinə xüsusi qeyd-şərtlə qoşuldular. 1999-cu il aprelin 1-2-də Moskvada MDB dövlət başçılarının sammitində isə Kollektiv Təhlükəsizlik Müqaviləsinin uzadılmasını milli maraqlarına uyğun hesab etmədikləri üçün imzalamadılar [14, c.171].

Heydər Əliyevin rəhbərliyi altında həm MDB çərçivəsində iqtisadi və humanitar sahələrdə inteqrasiyanın dərinləşdirilməsinə, həm də MDB-yə daxil olan dövlətlərlə ikitərəfli qarşılıqlı faydalı əlaqələrin möhkəmlənməsinə diqqət daha da artırıldı. 1993-cü ilin sonlarına qədər Azərbaycanla Mərkəzi Asiya respublikaları arasında əsassız gərginliklər bir-birinin ardınca aradan qaldırıldı. Mərkəzi Asiya və Qazaxıstanla türkdilli dövlətlər arasında ortaq dilə, mədəni və mənəvi dəyərlərə əsaslanan əlaqələrin yeni forma və vasitələrlə əsaslı sürətdə yenidən qurulmasına başlandı. Həmçinin, 1996-1997-ci illərdə Azərbaycan Gürcüstan və Ukrayna ilə strateji əməkdaşlıq haqqında sazişlər bağladı [8, s.273].

H.Əliyev MDB Dövlət Başçıları Şurasının bütün iclaslarında fəal iştirak etmiş, dəqiq, balanslaşdırılmış addımlar atmaqla Rusiyanın Azərbaycana qarşı yeritdiyi və ölkəmizi daxildən (etnik separatizmi qızışdırmaq, xaos, iqtisadi böhran, vətəndaş qarşıdurması yaratmaq yolu ilə) və xaricdən (iqtisadi və nəqliyyat blokadası tətbiq etmək, Ermənistanın təcavüzkar siyasətini müdafiə etmək, Rusiyada yaşayan azərbaycanlıları sıxışdırmaq, Xəzər dənizinin hüquqi statusu ilə bağlı fikir ayrılığını dərinləşdirmək, Azərbaycanın Qərb şirkətləri ilə Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının birgə istismarına əngəl törətmək və s. yollarla) zəiflətmək siyasətini pozmağa nail olmuşdu [11, s.557]. Azərbaycan rəhbəri MDB daxilində iştirakçı dövlətlər arasında bərabərhüquqlu əməkdaşlığı inkişaf etdirmək, xüsusən iqtisadi inteqrasiyanı dərinləşdirmək təşəbbüslərini dəstəkləməklə yanaşı, Rusiya rəhbərliyinin Birlik iştirakçılarına münasibətdə ikili standartlara yol verməsini də çəkinmədən tənqid edirdi. Ulu öndər MDB dövlət başçılarının görüşlərində dəfələrlə Birlik daxilində ögey-doğma münasibətlərin yolverilməz olmasını, etnik separatizmlə mübarizənin kollektiv səylərlə aparılmasının vacibliyini bildirmişdi.

MDB-nin Qarabağ problemi ilə əlaqədar rolunu atəşkəsin əldə olunmasında görmək mümkündür. Məhz MDB Parlament Assambleyasının iştirakı ilə (bu prosesdə əsas rolun Rusiyaya aid olması şübhəsizdir – Q.Ə.) 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflər Bişkekdə protokol imzaladılar. Heydər Əliyevin uğurlu diplomatiyası, milli ordunun yaradılması və gücləndirilməsi sahəsində səyləri nəticəsində Ermənistan və havadarları artıq münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin perspektivsizliyini dərk etdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu [8, c.7, s.271,272;]. Azərbaycan və Gürcüstan MDB-nin Parlamentlərarası Assambleyasına 1993-cü ildə üzv olmuşdular. 1995-ci ildə isə Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan tərəfindən Parlamentlərarası Assambleya haqqında Konvensiya imzalanmışdır.

H.Əliyevin səyi ilə 1997-ci ildən etibarən Azərbaycan-Rusiya münasibətləri tədricən normal məcraya düşməyə başlamışdı. Həmin il ulu öndərin Moskvaya ilk dövlət səfəri gerçəkləşdirilmiş, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında “Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında” müqavilə imzalanmışdı [15, s.158-167; 16, s.182].

1997-ci ildə həmçinin, MDB çərçivəsində Rusiyanın hegemonluq cəhdlərinə qarşı səyləri əlaqələndirmək üçün Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova dövlət başçıları razılığa gəldilər. 1997-ci il noyabrın 25-də Bakıda "GUAM" təşkilatının yaradılmasını bəyan edən rəsmi

protokol imzalandı. Bununla GUAM adlı regional təşkilatın əsası qoyuldu, üzv dövlətlərin NATO və ATƏT çərçivəsində, habelə öz aralarında siyasi, hərbi və iqtisadi sahələrdə mövqelərini əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi zəmin yarandı [8, 7-ci c., s.273; 17, s.298]. GUAM-ın təsisçiləri Rusiya Federasiyasının MDB-də hegemonluğuna qarşı səyləri əlaqələndirmək, üzv dövlətlərin Rusiyadan iqtisadi, xüsusən də enerji sahəsində asılılığını zəiflətmək, enerji daşıyıcılarının Mərkəzi Asiya-Xəzər-Qafqaz-Qara dəniz-Avropa marşrutu ilə tranzit nəqlini inkişaf etdirmək üçün əməli addımlar atmağa başladılar.

GUAM yaradıldığı zamandan MDB adından bəyan edilən, əslində isə Rusiyanın mövqeyini əks etdirən bir çox qərarlara, yanaşmalara fərqli mövqedən münasibət bildirmişdir. Üzv dövlətlər Qərblə əlaqələrə, MDB və NATO çərçivəsində təhlükəsizlik məsələlərinə, Şərq-Qərb enerji, nəqliyyat-kommunikasiya layihələrinə, MDB ölkələrinin ərazisində mövcud olan etnik separatizmə və s. məsələlərə, bir qayda olaraq, MDB-nin (Rusiyanın – Q.Ə.) mövqeyindən fərqli münasibət bildirmiş və alternativ layihələr irəli sürmüşlər [18, s.434]. Məsələn, 1999-cu ilin aprelində MDB liderlərinin görüşündə Kollektiv Təhlükəsizlik Müqaviləsinin müddətinin növbəti 5 il üçün uzadılması qərara alındıqda, Azərbaycan, Gürcüstan, Moldova və Özbəkistan buna razılıq vermədilər (Ukrayna başlanğıcdan bu müqaviləyə qoşulmamışdı – Q.Ə.) və bununla da bu dövlətlər öz aralarında, həmçinin ATƏT və NATO ilə iqtisadi, nəqliyyat-kommunikasiya, siyasi və hərbi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə daha böyük əhəmiyyət verdiklərini nümayiş etdirdilər.

2006-cı ilin mayında Kiyevdə GUAM-ın sammiti keçirilmişdir. Bu təşkilatın Nizamnaməsi qəbul edilmiş və qurum demokratiya və iqtisadi inkişafa dəstək verən quruma çevrilmişdir. 2007-ci il iyunun 18-19-da Bakıda keçirilən sammitdə GUAM üzvləri bəyannamə qəbul etmişlər. Bakı bəyannaməsində enerji təhlükəsizliyi, üzv dövlətlərin tranzit potensialından istifadə məsələləri xüsusi yer tutmuşdur.

Azərbaycanın ümummilli liderinin və onun GUAM üzrə tərəfdaşlarının belə qəti mövqeyi rəsmi Moskvanı bu dövlətlərlə münasibətləri daha da mülayimləşdirməyə, ötkəm mövqedən geri çəkilməyə vadar etmişdir. 2000-ci ildə V.Putin Rusiya prezidenti seçildikdən sonra bu sahədə xüsusilə ciddi addımlar atılmışdır. 2001-ci ilin yanvarında V.Putinin Azərbaycana rəsmi səfəri zamanı "Bakı bəyannaməsi" qəbul olunmuş, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha təsdiq etmişdir [19, s.358].

"Bakı bəyannaməsi"ndə müasir Rusiya-Azərbaycan qarşılıqlı münasibətlərinin, demək olar ki, bütün aspektləri və əməkdaşlığın əsas prinsipləri əks olunmuşdur. Bəyannamədə hər iki tərəf qarşılıqlı təhlükəsizliyin təminatı ilə bağlı milli maraqlara cavab verən, üçüncü dövlətə qarşı yönəlməyən, uzunmüddətli hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi, bölgənin sülh, mehriban qonşuluq və tərəqqi regionuna çevrilməsi istiqamətində əməkdaşlığın zəruriliyini qeyd etmiş, Cənubi Qafqaz respublikaları arasında sülhün, mehriban qonşuluğun bərpası və qorunmasının əsası olan ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə qəti tərəfdar olduqlarını bildirmişlər [15, I c., s. 207-213; 16, s.183-184].

Azərbaycan rəhbərliyi də Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi bir şəraitdə rəsmi Rusiyanın maraqlarını, xüsusən də Cənubi Qafqazda mövqeyini qoruyub saxlamaq siyasətini nəzərə almışdır. Məhz bunun nəticəsidir ki, ətraf mühitə, bölgədə yaşayan insanların həyatına çox ağır təsir

göstərməsinə baxmayaraq, Rusiyanın Qəbələ radiolokasiya stansiyasını 10 illiyə icarəyə götürməsi haqqında iki ölkə arasında 2002-ci il yanvarın 25-də saziş imzalanmışdır [6, т.3, с.532]. Qəbələ radiolokasiya stansiyasının statusu, istifadə prinsipləri və şərtlərini müəyyən edən bu sazişə görə, Rusiya bundan sonra ballistik raketlərin izlənməsi sisteminin tərkib hissələrindən olan Qəbələ radiolokasiya stansiyasını 2012-ci ilə kimi il ərzində 7 milyon ABŞ dolları ödəməklə icarə əsasında istifadəni davam etdirmişdir [7, s.556].

2002-ci ildə isə o zamana qədər qarşılıqlı münasibətlərdə soyuqluq yaradan daha bir ciddi problem aradan qaldırılmışdır. Həmin il sentyabrın 23-də Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin orta xətt prinsipi ilə bölgüsü haqqında saziş imzalanmışdır [15, I c., s.242-245]. Bütün bunlar ulu öndərin yorulmaz fəaliyyəti nəticələsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında bərabərhüquqlu münasibətlər qurulmasının real bəhrələridir.

Beləliklə, XX əsrin sonu – XXI əsrin başlanğıcında H.Əliyevin inamla həyata keçirdiyi müdrik, uzaqgörən, məqsədyönlü siyasət nəticəsində Azərbaycan MDB çərçivəsində qarşılıqlı faydalı münasibətləri dərinləşdirməyə müvəffəq olmuşdur. Eləcə də MDB-nin respublikaların suveren hüquqlarının, milli müstəqilliyinin təhlükə altına düşməsinə imkan verəcək dövlətüstü qurum çevrilməsinin qarşısının alınmasında fəal iştirak etmişdir. Ulu öndər MDB dövlət başçılarının zirvə görüşlərində respublikamızın milli mənafeyini qətiyyətlə qorumuş, xalqımızın ağrılı problemlərini bu qurumun tribunasından dünyaya çatdırmışdır.

**Açar sözlər:** Cənubi Qafqaz respublikaları, Heydər Əliyev, MDB, GUAM, inteqrasiya.

## Ədəbiyyat

1. Гусейнова А.Г. Распад СССР и образование суверенных государств на Кавказе. Баку, SkyE, 2019, 255 с.
2. Алма-Атинская Декларация://cis.minsk.by/reestr/ru/index.html#reestr/view/ text?doc=4
3. Aslanlı A. Azərbaycan – Müstəqil Dövlətlər Birliyi münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). (Məqalələr toplusu). Bakı: "Poliart" MMC, 2017, 904 s., s.595-618
4. Hüseynova İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
5. Иванов И.С. Новая российская дипломатия. Десять лет внешней политики страны. М., «Олма-Пресс», 2002, 382 с.
6. Системная история международных отношений. События и документы 1918-2003. В четырех томах. Т.3, М., Научно-образовательный форум по международным отношениям, 2003, 720 с.
7. Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015, 648 s.
8. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 s.
9. Гусейнова И.М. История народов Кавказа. Баку, "Elm və Təhsil", 2018, 1248 с.

10. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, 1999.
11. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 631 s.
12. Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. /20 sentyabr 1993-cü il/ - http://www.meclis.gov.az/?/az/topcontent/60.
13. Əliyev H.Ə. MDB Dövlət Başçıları Şuraının islasında bəyanat. 24 dekabr 1993-cü il // Əliyev H.Ə. Müstəqiiliyimiz əbədidir. 1-ci kitab. Bakı, Azərnəşr, 1997, 612 səh.
14. Бахтуридзе З.З. Внешняя политика Грузии в контексте развития международных отношений на постсоветском пространстве. Диссертация на соискание ученой степени доктора политических наук. СПб., 2016. 316 с. https://disser.spbu.ru/disser2/disser/Diser_Bakhturidze.pdf.
15. Müqavilələr toplusu (Mətn). I c. Red. və ön sözün müəll. E.Məmmədyarov. Bakı: Qanun, 2008, 252 s.
16. Məmmədov F. Azərbaycan-Rusiya münasibətləri: 1991-2016 // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). (Məqalələr toplusu). Bakı: "Poliart" MMC, 2017, 904 s., s.159-224.
17. Международные отношения: теории, конфликты, движения, организации. (Под ред. П.А.Цыганкова). М., «Альфа-М», 2011, 336 с.
18. Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-ci c. Heydər Əliyev dövrü. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 s.
19. Раджабли А.А. Международные связи Российской Федерации. Баку, 2005.

## Heydar Aliyev and the relations of the republics of the South Caucasus with the commonwealth of independent states CIS

In the process of integration of the South Caucasian republics into international and regional organizations, the attitude towards the Commonwealth of Independent States occupied a special place. These republics paid special attention to the issue of membership in the CIS in order to establish normal relations with the states emerging in the post-Soviet space, primarily with Russia. After the return of Heydar Aliyev to the leadership of Azerbaijan, at the insistence of the people, he took very important steps in this direction and determined the basic principles of the modern foreign policy of our republic. The example of Azerbaijan had a decisive influence on the formation of the attitude of the Republic of Georgia towards the CIS. During this period, the Republic of Armenia was also forced to take into account the position of Azerbaijan when establishing relations with the CIS and Russia.

# SECTION TALKS

## ГЕЙДАР АЛИЕВ – ВАЯТЕЛЬ КУЛЬТУРНОГО ОБЛИКА СТРАНЫ

**Эллада Аббасова**
Искусства Института архитектуры и искусства НАН Азербайджана, Баку, Азербайджан
e-mail: natellaabbasli@gmail.com

Гейдар Алиев является одним из самых ярких политиков XX столетия. Общенациональный лидер Гейдар Алиев разработал и реализовал стратегию современной культурной политики страны. Широкомасштабная культурная политика, являлась центром общеполитической деятельности, основным приоритетом главы государства. Особое внимание уделялось комплексным, государственным мероприятиям направленным на развитие и сохранение национально-культурных ценностей азербайджанского народа. Культурная политика Гейдара Алиева нашла свое отражение в многолетней государственно-политической деятельности, в успешной интеграции Азербайджана в современный мир, направленной на то чтобы Азербайджан завоевал достойное место в политических и культурных кругах мирового сообщества.

Гейдар Алиев был человеком высокой эрудиции. В историю он вошел не только как гениальный политик и государственный деятель, но и как прекрасный знаток истории, философии, литературы и искусства, покровитель науки и культуры. Годы его правления ознаменовались бурным развитием культурной жизни страны. Общенациональный лидер азербайджанского народа Гейдар Алиев всегда с особой теплотой и заботой относился к деятелям культуры и искусства, создавал все условия для плодотворной деятельности. При его непосредственной инициативе и участии открывались музеи, создавались памятники, проводились юбилеи множества деятелей литературы, искусства и науки. Деятельность светил науки и культуры была оценена государственными премиями и почетными званиями, им были поставлены многочисленные памятники. Безусловно, назначение индивидуальных стипендий старейшим деятелям, имевшим большие заслуги в развитии азербайджанской культуры, талантливым молодым поэтам и писателям, все это яркий пример проявления большой заботы великого лидера о развитии азербайджанской культуры.

По личной инициативе главы государства в Азербайджане было открыто несколько музеев, посвященных выдающим деятелям азербайджанского народа. Один из таких музеев, Дом-музей Самеда Вургуна, азербайджанского поэта, драматурга, ученого, общественного деятеля, двукратного лауреата Государственной премии, был открыт в октябре 1975 года по инициативе Гейдара Алиева. В 1976 году в селе Юхары Салахлы (Верхние Салахлы) был создан филиал музея «Дом поэзии Самеда Вургуна». Дом Музей Самед Вургуна является

первым мемориальным музеем, созданным в Азербайджане для увековечивания памяти писателей и композиторов.

Дом-музей выдающего азербайджанского поэта, педагога, драматурга, яркого представителя романтизма в азербайджанской литературе, Гусейн Джавида был основан в 1981 году в доме, где и жил сам поэт. 21 июля 1981 Центральный комитет коммунистической партии Азербайджана принял решение, отпраздновать 100 лет со дня рождения Гусейна Джавида. В соответствии с этим кабинет министров Азербайджанской ССР издал указ о создании музея, подчинённого Азербайджанской академии наук. В день 120-летнего юбилея Гусейна Джавида, 24 октября 2002 года, экспозиция музея была открыта для публики.[1] На мероприятии присутствовал сам Гейдар Алиев. Мавзолей Гусейна Джавида был построен по личной инициативе Президента Азербайджанской Республики Гейдара Алиева. Автором проекта памятника является Заслуженный архитектор Азербайджанской ССР Расим Алиев, архитектором – народный художник Омар Эльдаров [3].

В 1978 году было принято решение по созданию Дома-музея Джалила Мамедкулизаде, азербайджанского писателя-сатирика, журналиста просветителя, представителя критического реализма в азербайджанской литератур.28 декабря 1994 года состоялось торжественное открытие в связи с Указом Президента республики Г. А. Алиева по случаю 125-летия со дня рождения Дж. Мамедкулизаде [2].

Музей Джафара Джаббарлы был открыт 20 марта 1982 года, по личной инициативе Гейдара Алиева, по случаю 80-летия писателя. От имени музея был выпущен диск «Вольная птица», состоящий из песен, составленных писателем. В то же время, в связи со 100-летием Дж. Джаббарлы была учреждена особая премия «Джаббарлы» и была представлена некоторым эстрадным артистам [6].

По личной инициативе Гейдара Алиева начались работы по сооружению памятника Джафару Джаббарлы, видному азербайджанскому поэту и драматургу. Памятник сделан из розового гранита скульптором Мир-Али Мир-Касимовым. Памятник был установлен в 1982 году, архитектор памятника Юсиф Кадымов. Несмотря на то что решение об установке памятника было принято в 1959 году, начальные работы были приостановлены на длительный срок, минималистической политикой Хрущева. В конце 70-х в ситуацию вмешался лично первый секретарь ЦК КП Азербайджана Гейдар Алиев. Он лично контролировал ход работ, оказывал всевозможную помощь и поддержку. На открытие памятника 23 марта 1982 года Гейдар Алиев выступил с речью. В том же году скульптуру Мир-Касимову было присуждено звание Народного художника Азербайджанской ССР [5].

Гейдар Алиев считал национальную культуру великим достоянием азербайджанского народа. Как глава государства он уделял внимание всем сферам национальной культуры. Гейдар Алиев говорил что, «Нация с высокой культурой всегда будет идти вперед, всегда жить, всегда развиваться». И именно высокий уровень развития азербайджанской музыки, кинематографии, изобразительного искусства, театра стал возможен благодаря

покровительству главы государства. Гейдар Алиев внес бесценный вклад в формирование культурного облика страны и развития национальной культуры.

**Ключевые слова:** Гейдар Алиев и культура, культурная деятельность Гейдара Алиева, музеи, памятник Джаффара Джаббарлы

**Ədəbiyyat**

1. Гюльбениз Бабаханлы. Гейдар Алиев и Гусейн Джавид, Баку, 2013, 160с.
2. Дом-музей Джалила Мамедкулизаде, Баку, 2002, с.310.
3. Туран Джавид. Летопись жизни, Баку, Прогресс, 2014, 450с.
4. Музеи, заповедники, галереи Баку — Национальное бюро по пропаганде туризма, 2017.
5. Эфендизаде Р.М., Архитектура Советского Азербайджана, Москва:Стройиздат, 1986, с.196-316.
6. https://ru.wikipedia.org/ wiki Дом музей Джафара Джаббарлы.

**Heydar Aliyev is the cultural shape of the country**

The national leader of the Azerbaijani people, Heydar Aliyev, always treated culture and art workers with special warmth and care, and created all conditions for their effective activity. With his direct initiative and participation, a number of museums were opened, monuments were created, anniversaries of many figures of literature, art and science were held. The activities of the luminaries of science and culture were evaluated with state awards and honorary titles, and numerous monuments were erected to them. Special attention was paid to the complex state measures aimed at the development and preservation of the national and cultural values of the Azerbaijani people. Heydar Aliyev rendered invaluable services in the formation of the cultural image of the country and the development of national culture.

# HEYDƏR ƏLİYEVİN ERMƏNİSTAN-AZƏRBAYCAN, QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

**Səriyyə Abidova**
“Quba şəhərində Soyqırımı Memorial Kompleksi”nin Elmi Araşdırmalar, Quba, Azərbaycan
e-mail: Sariyailyasova3@gmail.com

1980-ci illərin ikinci yarısında SSRİ-nin parçalanmaqda olduğu bir vaxtda Rusiyanın dəstəyi ilə Ermənistanın Qarabağa iddiası və bölgədə yaşayan ermənilərin nümayişləri ilə başlayan problem müstəqillik elan edilməsi ilə başladı. İndiyədək həllini tapmayan bu problemdə ermənilərin tezisi Qarabağda ermənilərin çoxluğu təşkil etməsi və buna görə də öz müqəddəratını təyin etmək

hüququna malik olması arqumentinə əsaslanır. Azərbaycan tərəfi isə Qarabağ bölgəsinin hüquqi və tarixi baxımdan ona məxsus olduğunu iddia edir və regiondakı etnoqrafik strukturun Rusiya və Sovet siyasəti ilə süni şəkildə dəyişdirildiyini və buna görə də Dağlıq Qarabağ bölgəsinin bu bölgənin işğalı üçün əsas ola bilməyəcəyini iddia edir [6, s.58].

1993-cü ilin iyununda Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan üçün yekun nöqtə oldu. Müdrik siyasi lider vətəndaş müharibəsinin qarşısını aldı, daxili və xarici düşmənlərin Azərbaycanı ləğv etmək planını məhv etdi. Ulu öndər dövlətin idarəçiliyini öz üzərinə götürdü.

Ümummilli lider belə qənaətə gəldi ki, Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli mühüm daxili və xarici siyasi amillər nəzərə alınmaqla kompleks yanaşma tələb edir. Bura ictimai-siyasi sabitliyin yaradılması, döyüşə hazır nizami ordunun yaradılması, dövlət institutlarının yenidən təşkili və səmərəli fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın bərpası və idarəetmədə əsaslı islahatların aparılması, strateji neftin yekunlaşdırılması daxildir [5, s.43].

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20-dən çox kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad olunub [3].

Horadiz əməliyyatının həyata keçirilməsi zamanı 702-ci briqadanın şəxsi heyəti misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Əməliyyat Azərbaycan ordusunun 1994-cü ildə həyata keçirdiyi ən uğurlu əməliyyat olub. Horadiz əməliyyatı Azərbaycanın hərb tarixində qürurverici bir qələbədir. Azərbaycan Ordusu bu uğura ulu öndər Heydər Əliyevin qətiyyəti, yüksək liderlik keyfiyyətləri, döyüş meydanında əsgərlərlə görüşləri, onlarda ruh yüksəkliyi yaratması sayəsində nail olub.

Heydər Əliyevin güclü xarici siyasəti Qarabağ münaqişəsinin sülhlə həll olunmasının ilk addımlarını atırdı. 1994- cü il Budapeşt sammitindən sonra ATƏT-in Minsk qrupunun deyil, ayrı-ayrı üzv dövlətlərin təşəbbüsü ilə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar yenidən intensivləşdi. 1995-ci il fevralın 6-11-də Rusiyanın təşəbbüsü ilə təşkil edilən uğursuz Moskva danışıqlarından sonra, elə həmin il ATƏT-in Minsk Qrupunda ABŞ nümayəndəsi münaqişə bölgəsinə ayrıca səfər etdi. Həmin ilin martında Rusiya və İsveçdən olan vasitəçilik qrupunun həmsədrlərinin səfəri faktiki olaraq tərəflər arasında sülh prosesinin pozulmasına səbəb oldu.

1995-ci ildə və 1996-cı ilin sonuna qədər aparılan danışıqlarda Qərb, Rusiya və ATƏT-in vasitəçiliyi Qarabağ münaqişəsinin həllində konkret nəticə vermədi. Buna səbəb tərəflər arasında ziddiyyətlər, xüsusən də Rusiyanın qərəzsiz bəyanatlarına baxmayaraq, Ermənistanla hərbi müttəfiqliyini gücləndirməsi, ABŞ və Minsk Qrupunun danışıqlarda irəli sürdüyü təkliflər bəzən azərbaycanlını qane etmirdi [1].

1996-cı il dekabrın 2-3-də ATƏT-in dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşü 52 Avropa dövləti, ABŞ, Kanada və 10 Afro-Asiya dövlətinin rəhbərlərinin müşahidəçi statusunda iştirakı ilə keçirildi. Lissabon sammitində ilk dəfə olaraq Qafqaz regionu, xüsusən də Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi yüksək səviyyədə geniş müzakirə edilməli idi. Ona görə də bu sammit Azərbaycan üçün Budapeştdəki görüşdən daha əhəmiyyətli idi.

Heydər Əliyev dedi ki, o, eyni zamanda, bu zirvə görüşünə böyük əhəmiyyət verir, sammit ərəfəsində Minsk qrupunun Helsinkidə, Vyanada gördüyü işlər, Azərbaycan nümayəndə heyətinin Lissabonda çoxgünlük fəaliyyəti barədə məlumat verdi. Prezident Budapeştdən Lissabon sammitlərinə qədər olan dövrü də müsbət qiymətləndirdi [7].

Heydər Əliyev Lissabondakı çıxışında Ermənistan prezidentinin və özünün 1996-cı ilin aprelində Lüksemburqda verdiyi bəyanatı münaqişənin aradan qaldırılması istiqamətində atılan mühüm addım kimi qiymətləndirdi. Tərəflərin beynəlxalq prinsiplər və normalar əsasında silahlı münaqişəyə son qoyaraq yaşamaq istəyi [7].

O, Ermənistanla Azərbaycan arasında Qarabağ münaqişəsinin bu prinsiplər əsasında aradan qaldırılmasının mütərəqqi nəticələr verəcəyi fikrini ifadə edib: "Əminəm ki, münaqişənin BMT Nizamnaməsi, BMT-nin prinsipləri əsasında həlli ATƏT və beynəlxalq hüquq qısa müddətdə Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülhün bərqərar olmasına, erməni və Azərbaycan xalqları arasında yaxşı münasibətlərin bərpasına, Qarabağ əhalisi üçün ən əlverişli şəraitin yaradılmasına imkan verəcək".

Azərbaycan dövlətinin başçısı ATƏT-in Lissabon sammitinin bütün sənədinə veto qoyaraq, ATƏT-in fəaliyyətdə olan sədrinin vitse-prezident Al Qorun təklif etdiyi ayrıca bəyanatda prinsiplərin açıqlanmasına nail olub. ABŞ nümayəndə heyətinə rəhbərlik edən. ATƏT-in rəsmi sənədlərinə daxil edilmiş bu bəyanat ATƏT-in sammitində iştirak edən 53 üzv dövlətin bu müddəaları dəstəklədiyini göstərir [1].

1996-cı il dekabrın 3-də Lissabon sammitinin başa çatdığı gün jurnalistlərə müsahibəsində Heydər Əliyev sammitin qərarından məmnunluğunu bildirdi. O, bir daha qeyd edib ki, Ermənistan yenə də Lissabon layihəsi ilə razılaşmayıb, bu da Azərbaycanı tam qane etmir. Azərbaycan lideri Ermənistanı beynəlxalq prinsiplərə qarşı çıxmaqda ittiham edib: "Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsi ATƏT-in əsas prinsiplərini rədd etmək deməkdir" [4, s.22].

Heydər Əliyevin 1997-ci il iyulun 22-1 avqust tarixlərində ABŞ-a rəsmi səfəri həm iki ölkə arasında münasibətlərin inkişafı, həm də ABŞ-ın Qarabağ münaqişəsində daha fəal rol alması üçün əsas amil oldu. Əliyev bu ekspedisiyada neft faktorundan çox yaxşı istifadə etdi və 1991-ci ildən ABŞ-da formalaşmış Azərbaycan imicini böyük ölçüdə silməyə müvəffəq oldu. Konqres üzvləri və senatorlarla sıx dialoqda 907 saylı qətnamənin ləğvi və ya ən azı sanksiya müddəasının yüngülləşdirilməsi üçün səylər göstərildi. Heydər Əliyev ölkənin qabaqcıl ziyalıları ilə görüşərək Azərbaycan Lobbisini formalaşdırmağa çalışarkən, digər tərəfdən Azərbaycanın trilyonlarla dollara çatan neft ehtiyatlarından istifadə edərək iri şirkətlərin diqqətini Azərbaycana yönəltməyə nail oldu. [5, s.33].

Bu gərgin diplomatik gedişatın sonunda Əliyev-Klinton görüşü baş tutdu və imzalanan birgə bəyannamədə "Qarabağ probleminin ilin sonuna kimi həlli" ilə bağlı məqalə də yer aldı. Bu məsələ o vaxta qədər arzuolunan səviyyədə olmayan münasibətlərin yenidən canlanmasına səbəb oldu. Lakin ABŞ Konqresi 907 saylı qərarı nə ləğv etdi, nə də onun icrasını yumşaltdı. Amerika

rəhbərliyinin Azərbaycanla yaxınlaşmaq istəməsinə baxmayaraq, erməni lobbisinin təsiri altında olan Konqres daim problemlər yaradırdı.

Buş və Klinton administrasiyaları Konqresin qəbul etdiyi sanksiya qərarlarının zərərli nəticələrini dəfələrlə dilə gətirib və ən azı Konqresi tənqid etməklə Azərbaycan administrasiyasının reaksiyalarının qarşısını almağa çalışıblar.

Beləliklə Heydər Əliyevin uğurlu xarici və daxili siyasəti nəticəsində ölkədə inkişafa səbəb olmuşdur. Bu inkişaf xarici ölkələrlə bağlanılan müqavilələrin artmasına və ölkə hərbi sisteminin inkişafına səbəb olmuşdur. Hər iki uğurda Qarabağın işğaldan azad olunmasına səbəb olmuşdur. Heydər Əliyevin Qarabağ siyasətinin uğurlu aparılması istər Aprel döyüşlərində, istərsədə 44 günlük Vətən müharibəsində öz nəticəsini vermişdir.

**Açar sözlər:** Heydər Əliyev, Ermənistan-Azərbaycan münaqişəsi, Qarabağ münaqişəsi, erməni terroru, Azərbaycan, Qarabağ.

## Ədəbiyyat

1. Azadlıq Qazeti, 20.06.1991, 27.08.1992, 02.09.2009.
2. Azerbaycan Gazeti, 02.04.1993, 06.09.1994, 21.10.1995
3. Horadiz əməliyyatı Azərbaycan tarixinin şanlı səhifələrindəndir - https://avciya.az/horadiz-%C9%99m%C9%99liyyati-az%C9%99rbaycan-tarixinin-sanli-s%C9%99hif%C9%99l%C9%99rind%C9%99ndir/
4. Mammadyarov E., (2009), Kendir Üzerinde Yeriş: Değişen Muhitte Azerbaycanın Harici Siyaset Stratejisi, Azerbaijan Focus, No: 1 (1), s. 17-27.
5. Mehdiyev, R., (2005), Azerbaycan, Küreselleşmenin Talepleri, İstanbul: DA Yayıncılık.
6. Qasımlı M.C. Heydər Əliyev - istiqlala gedən yol (1969–1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, səh. 68.
7. Vance Gets New Peace Mission, Former Secretary Of State Will Go To Nagorno-Karabakh”, Los Angeles Times, March 14, 1992. http://articles.orlandosentinel.com/1992-03-14/news/9203141235

# BÜDCƏ DAXİLOLMALARININ FORMALAŞMASININ TƏMƏL PRİNSİPLƏRİ HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİ İLƏ BAĞLIDIR

**Ceyhun Ağayev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: jeyhun.aghayev@au.edu.az

Azərbaycan Respublikasının XX-əsrin son 30 ilini əhatə edən şərəfli dövlətçilik tarixi ulu öndər, dahi siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin müdrik rəhbərliyi, siyasi əqidəsi, qətiyyəti, tarixi uzaqgörənliyi Azərbaycan dövlətinin qurulmasının, möhkəmlənməsinin, beynəlxalq siyasi arenada nüfuz qazanmasının, eləcə də sosial-iqtisadi tərəqqinin əsasını təşkil edir.

Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi və potensialının reallaşdırılması prosesi öz başlanğıcını Heydər Əliyevin sovetlər dövründəki rəhbərliyindən götürürdü. Bu dönəmdə həyata keçirilən sistemli iqtisadi islahatlar nəticəsində Azərbaycan sovetlər dönəmində mərkəzdən dotasiya almayan iki respublikadan birinə çevrilmişdi [7].

Müstəqilliyin ilk illərində dərinləşən Qarabağ münaqişəsinin ağır təsirləri, eləcə də hökm sürən siyasi qeyri-sabitlik fonunda 1991-1994-cü illərdə ölkə üzrə ümumi daxil məhsul (ÜDM) istehsalı hər il orta hesabla 16,5 faiz azalmış, inflyasiya göstəricisi 1994-cü ilin sonunda 1763,5 faizə çatmış, büdcə kəsirinin ümumdaxili məhsula nisbət göstəricisi 0,1 faizdən 13,0 faizə qədər artmışdı [8]. Tənəzzül meyilləri, həmçinin işsizlik, xarici ticarət dövriyəsi, əhalinin pul gəlirləri və sənaye istehsalı göstəriciləri üçün də xarakterik olmuşdur. Ölkənin iqtisadi sisteminin böhranlı vəziyyətdən çıxarılması və dirçəlişi, yeni bazar prinsiplərinin tətbiqi yalnız radikal dəyişikliklər və məqsədyönlü islahatlar vasitəsilə, əzmkarlıq, parlaq iqtisadi zəka və siyasi iradə hesabına baş verə bilərdi.

İlkin mərhələdə, 1994-cü ilin may ayında atəşkəs elan edilməsi və ictimai-siyasi sabitliyin bərqərar olunması ölkənin iqtisadi dirçəlişini, inkişaf yoluna keçidini hədəfləyən inkişaf strategiyası üçün ilkin zəruri şərt rolunu oynayırdı. Münaqişənin aktiv fazasının geridə qalması ölkədə əlverişli investisiya mühitinin formalaşması və qlobal iqtisadiyyata inteqrasiya prosesinin sürətlənməsinə münbit zəmin yaratdı. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin müdrik siyasəti və yorulmaz fəaliyyəti sayəsində ərsəyə gələn tarixi əhəmiyyətə malik “Əsrin müqaviləsi” imzalandı. Növbəti illərdə isə ixrac marşrutların müəyyənləşdirilməsi ilə Azərbaycan neftinin dünya bazarlarına nəqlini təmin edən Bakı-Novorossiysk (1996), Bakı-Supsa (1999) neft kəmərlərinin istismara verilməsi, həmçinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanması ixrac marşrutlarının diversifikasiyasına imkan verməklə ölkəyə valyuta daxilolmalarının həcmini artırdı, iqtisadi fəallığa təkan verdi, qarşılıqlı etimada və etibarlı tərəfdaşlığa əsaslanan siyasi əlaqələri möhkəmləndirdi.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası yeni liberal iqtisadi sistemə keçid prosesinin hüquqi əsasını təşkil etmişdir. Çoxsaylı qanunların, irimiqyaslı konsepsiya, strategiya və proqramlar qəbul edilməsi və fərman və sərəncamların imzalanması ilə kiçik və orta sahibkarlığın inkişafı, müxtəlif sənaye sahələrinin, aqrar bölmənin, turizmin inkişafı, yoxsulluğun azaldılması hədəfləyən iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı uğurlu nəticələr 1996-cı ildən etibarən müşahidə olunmağa başlamış, inflyasiya enmiş, büdcə kəsirinin ÜDM-ə nisbəti azalmış, manatın məzənnəsi sabitləşmiş, sənaye istehsalı, xarici sərmayələr və sərmayə həcmləri artmışdır. İlk dövrlərdə büdcə kəsirinin Milli Bankın kreditləri hesabına maliyyələşdirilməsi praktikasına son qoyulmuşdur. Dövlət büdcəsində nəzərdə tutulan investisiya yönümlü xərclər 4,5 dəfə artırılaraq 2003-cü ildə 203,0 milyon manata (ümumi büdcə xərclərinin 18,7 faizi) çatdırılmışdır [9].

1999-cu ildə Dövlət Neft Fondunun yaradılması [2] neft sərvətinin nəsillər arasında ədalətli bölgüsünə xidmət etməklə, neft gəlirlərinin toplanmasının və səmərəli istifadəsinin təmin edilməsi

bir sıra digər sosial, infrastruktur və regional layihələrin maliyyələşdirilməsinə imkan yaratmışdır. Fonddan dövlət büdcəsinə yönəldilən transfertlər büdcə gəlirlərinin əhəmiyyətli hissəsini təşkil etmiş, 2023-cü ilin 1 yanvar tarixinə olan məlumata əsasən, Fondun aktivləri 49,0 milyard ABŞ dolları (ÜDM-in 62,0 faizi) təşkil etmişdir. [11,12].

Dayanıqlı büdcə gəlirlərinin əsas mənbələrdən biri isə vergi daxilolmalarıdır. Heydər Əliyevin rəhbərliyi ilə vergi sisteminin qurulması, hüquqi-institutsional çərçivənin təkmilləşdirilməsi istiqamətində atılan addımlar sırasında müvafiq nazirliyin yaradılması və Vergi Məcəlləsinin qəbul edilməsi xüsusən qeyd edilməlidir [3,4]. Sözügedən tədbirlər vergi sisteminin təkmilləşdirilməsini, beynəlxalq təcrübəyə uyğunlaşdırılması, bu sahədə şəffaflığın, eləcə də büdcə-vergi intizamının möhkəmləndirilməsi məqsədlərinə xidmət edirdi. Ulu öndərin rəhbərliyi dönəmində vergi borclarının silinməsi, vergi tətilləri, güzəştlər və azadolmalar kimi fiskal alətlərin tətbiqi bir sıra sahələrdə, xüsusən aqrar sektorda əlavə dəyər artımına zəmin yaratmaqla iqtisadi tərəqqi üçün uğurlu stimul rolunu oynadı, artım templəri isə vergi daxilolmalarının artımı şərtləndirən əsas amil kimi çıxış etməyə başladı.

Yeni iqtisadi reallıqlar şəraitində, həmçinin xarici iqtisadi fəaliyyəti tənzimləyən gömrük siyasətinin həyata keçirilməsinə başlanılmış, bu sahəsdə hüquqpozmalarının qarşısının alınması, mütərəqqi texnologiyaların tətbiqi, gömrük ödənişlərinin büdcəyə daxil olmasına nəzarətin və valyuta nəzarətinin gücləndirilməsini nəzərdə tutan tədbirlər həyata keçirilmiş, genişlənən xarici iqtisadi əlaqələr gömrük daxilolmalarının artımı ilə nəticələnmişdir [5].

Heydər Əliyevin məqsədyönlü iqtisadi islahat tədbirlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərliyi altında uğurlu şəkildə davam etdirməsi ilə ölkə iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, iqtisadi nailiyyətlər fonunda büdcə gəlirləri üzrə müsbət meyillər müşahidə olunmuşdur. 2022-ci ilin operativ büdcə məlumatlarına əsasən, vergi orqanlarının daxilolmaları dövlət büdcəsi gəlirlərinin 50,7 faizini (qeyri-neft gəlirlərinin 52,9 faizi), gömrük orqanlarının xətti ilə daxilolmalar isə 18,4 faizini təşkil etmişdir (qeyri-neft gəlirlərinin 37,0 faizi) [10]. Ümumilikdə dayanıqlı gəlir mənbələri qismində qeyri-neft sektoru üzrə daxilolmaların büdcə gəlirlərindəki xüsusi çəkisinin ilbəil artırılması diqqət mərkəzində saxlanılmaqdadır. Büdcə qaydasına əsaslanan fiskal çərçivə vasitəsilə neft gəlirlərindən asılılığın azaldılması və xarici valyuta aktivlərin dayanıqlı səviyyədə qorunması “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində təsbit olunmuşdur [1].

**Açar sözlər**: ümumi daxil məhsul, inflyasiya, büdcə kəsiri, işsizlik, xarici ticarət dövriyəsi.

## Ədəbiyyat

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı, 2 fevral, 2021, № 2469.
2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 29 dekabr, 2000, № 434.
3. “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 30 avqust, 2000, № 393.

4. Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 11 fevral, 2000, № 281.
5. Respublikasının Qanunu, Bakı şəhəri, 11 iyul, 2000, № 905-IQ.
6. Əliyev A., Azərbaycanın müasir gömrük sisteminin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Azərbaycan, 2010, 8 may, №99, s.7.
7. Əliyev H., Elektron Sənədlər Toplusu, Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Təhsil işçilərinin bir qrupu ilə görüşdə giriş və yekun sözü, 12 fevral, 1995.
8. Mustafayev Ş., Davamlı inkişaf strategiyasının müəllifi, Azərbaycan, 2010, 9 may, № 100, s.5.
9. Paşayev Z., Öndər, Xalq qəzeti, 2014, 30 aprel, № 88, s.3.
10. https://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/63ce54827d3af.pdf
11. https://www.oilfund.az/report-and-statistics/recent-figures
12. https://www.stat.gov.az/news/macroeconomy.php?lang=az&page=3

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN SİYASİ DİSKURSUNDA "QAÇQIN" KONSEPTİNİN İFADƏ RESURSLARI HAQQINDA

**Səkinə Aydınova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: sakinaaydinova@yahoo.com

Bu il anadan olmasının 100 illik yubileyini qeyd edəcəyimiz ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində silinməz iz qoymuş ən önəmli siyasi fiqurlardan biri kimi, xalqımızın təkrarən qazanmış olduğu müstəqilliyinin əbədiliyini təmin edəcək siyasi kursun müəllifi kimi – Azərbaycan xalqının qəlbində adını ölməzləşdirmişdir. H. Əliyevin Azərbaycan xalqı qarşısında ən önəmli xidmətlərindən biri – onun daima öz doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərini diqqətdə saxlaması ilə bağlıdır. Məhz, bu kontekstdən ulu öndərimizin siyasi diskursunun leksik-statistik araşdırma, semantik sahə analizi, habelə konseptual və koqnitiv modellərində metodlar ilə təhlili onu deməyə əsas verir ki, ümummilli liderin idiolektinin konsept sferasında "Qaçqın" konsepti ən mərkəz mövqelərdən birində qərarlaşmışdır. Sözlərimizin təsdiqi üçün ulu öndərin bu haqda fikirlərini xatırlatmaq kifayətdir: Mən bu barədə çox danışa bilərəm. Çünki ürəyimiz yanıqlıdır, siz bilin. Əgər ölkəmizdə bir milyon Azərbaycan vətəndaşı çadırda yaşayırsa, bizim heç birimiz rahat yaşaya bilmərik. Amma bundan xilas olmaq üçün də torpaqlarımızın bir hissəsini Ermənistana bağışlaya bilmərik [2, s. 401].

Göründüyü kimi, H.Əliyev özünə xas olan oppozitiv struktulaşma ilə toplumun "qaçqın – qeyri qaçqın" olaraq qarşılaşdırması əsasında, bu bəlanın, bu acınacaqlı durumun xalqımızın hər bir fərdi üçün ağır olduğunu dilə gətirir. Digər oppozitivliyi isə qaçqınlıq faciəsi, qaçqınların qeyri-insani həyat şəraiti və utancverici "sülh", torpaq-Vətən itkisi qarşılaşdırmasında izləyirik. Belə ki,

həmin dövr mövcud olan siyasi həll paketlərindən birində “sülh naminə torpaqlar” planı təklif olunurdu ki, bu da yüz minlərlə məcburi köçkün soydaşımızın öz torpaqlarına qayıtması naminə Azərbaycanın qondarma Dağlıq Qarabağ qurumunun müstəqilliyini tanımaqla, Şuşa, Xocalı, Xankəndi və digər ərazilərindən imtina etməsi şərti ilə əlaqədar idi. Göründüyü kimi, bu məqamın, bu məkrli, təslimkar siyasi planın bilavasitə qaçqınlıq problemi ilə kəsişməsi “sülh naminə torpaqlar” siyasi istilahını da (daha ətraflı bax: [4]). “Qaçqın” konseptinin terminoloji arsenalına daxil edir. Onu da qeyd edək ki, verilmiş iqtibasda biz, Azərbaycan dilindəki “Qaçqın” konseptinin nüvəsinə daxil olan bir milyon Azərbaycan vətəndaşı, çadır, xilas, torpaqlarımız söz və ifadələri ilə, habelə konseptin emotiv anlamlı mini konseptlərinə daxil olan ürək yanğısı (ürəyi yanıqlı olmaq), rahat yaşaya bilməmək kimi ifadələrə də təsadüf edirik.

Qarabağ qaçqınlarının problemini daim diqqət mərkəzində saxlayan ulu öndər erməni millətçilərinin etnik təmizləmə siyasəti nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın da acı aqibətini unutmur və 22 avqust 2001-ci ildə məsələyə aid xüsusi tədbirlər planını nəzərdə tutan fərman imzalayır.

"Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında Fərman” mətnində də “Qaçqın” konseptinin fərqli semantik sahələrinin geniş işləklik qazandığını müşahidə edə bilərik. Belə ki, haqqında bəhs etdiyimiz mətndə 25 dəfə qaçqın, 8 dəfə didərgin sözlərinə, habelə zəbt olunmaq (2), işğal (1), etnik təmizləmə (7), cəza aksiyası (1), soyqırım (2) söz və ifadələrinə geniş yer verilmişdir [2]. Onu da qeyd edək ki, fərman boyu fərqli leksik və frazeoloji vahidərdən istifadə sayəsində qaçqınlıq aqibətinin məcburi, zorakı şəkildə gerçəkləşmiş bir faciəvi durum olduğu vurğulanır, xalqımızın öz əzəli torpaqlarına sevgi və bağlılığı müvafiq söz və ifadələrlə verballaşır: dədə-baba yurdlarını tərk etməyə məcbur edilirdi, öz yerlərini məcburi tərk etmiş insanlar, məcburi köçkünlər, zorla köçürülmə, zorakı üsullar, deportasiya, Ermənistan ərazisindəki tarixi-etnik torpaqlar,  və s.

Onu da xüsusi olaraq qeyd etmək istərdik ki, tarixi öncəgörmə, böyük siyasi fəhmə malik siyasi düha kimi H. Əliyev bir sonrakı dönəm siyasi, geopolitik prosesləri proqnozlaşdırır, onların Azərbaycanımızın maraqları reallaşması naminə müvafiq ön addımları atırdı. Belə ön addımlardan biri kimi, Zəngəzur toponiminin siyasi proseslərin gündəminə qaytarmaq və Zəngəzur dəhlizi anlayışını tarixi arxivlərdən geri qaytarmaqla bağlı idi. Məhz, adıçəkilən fərman mətnində “Qaçqın” konsepti çərçivəsində, Ermənistan qaçqınlarının problemlərinin işıqlandırılması aspektində Zəngəzur toponimindən iki dəfə istifadə olunmuşdur. Bu gün prezident İlham Əliyevin inamlı siyasi fəaliyyəti nəticəsində təkrarən geopolitik gündəmə gətirilmiş “Zəngəzur dəhlizi” terminoloji söz birləşməsinə, məhz, H.Əliyevin imzaladığı fərmanda “Ermənistan qaçqınları” problemi çərçivəsində yer verilmişdir:  Nəticədə ermənilər Zəngəzur dəhlizini ələ keçirərək İranla sərhəd yaradılmasına nail oldular [2]. H.Əliyevin idiolektində “Zəngəzur qaçqınları” mikrokonsepti çərçivəsində Ermənistan toponiminə də geniş yer verilir. Lakin nəyə görə iki il əvvəl Ermənistandan qovulmuş qaçqınlara kömək göstərmək haqqında qərar verilmədi [3, s.48].

Məruzə çərçivəsində nəzərdən keçirdiyimiz nümunələr, habelə araşdırma əsnasında izlədiyimiz onlarla, yüzlərlə mətn iqtibasları ulu öndər H.Əliyevin siyasi diskursunda “Qaçqınlıq”

diskursunun geniş şəkildə ifadə tapdığını və ən fərqli mikrokonseptlər səviyyəsində reallaşdığını əyani şəkildə ortaya qoymuşdur.

**Açar sözlər**: Heydər Əliyev, siyasi diskurs, "Qaçqın" konsepti, idiolekt, ifadə resursları.

**Ədəbiyyat**

1. Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında Fərman https://e-qanun.az/framework/2822.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir (XXI kitab) Bakı: Azərnəşr, 2007, 480 səh. http://anl.az/el/alf7/he_me21.pdf.
3. Əliyev H. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları 1989 (noyabr) – 1993 (iyun) https://files.preslib.az/projects/toplu/v2/f3_2.pdf.
4. Гасанов К. «Не до Армении»: почему сверхдержавы не вмешиваются в карабахский конфликт // Вечерняя Москва, 21 октября 2020 https://vm.ru/world/835844-ne-do-armenii-pochemu-sverhderzhavy-ne-vmeshivayutsya-v-karabahskij-konflikt.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ GƏNCƏNİN 1993-1995-ci İLLƏR İCTİMAİ-SİYASİ HƏYATI

**Cavid Bağırzadə**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: cavid.bagirzade@gdu.edu.az

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan olunduqdan sonra respublikada hakimiyyət uğrunda mübarizənin genişlənməsi, Yuxarı Qarabağda erməni işğalçılarının hücumlarının artması və yaşayış məntəqələrinin işğal olunması, yarıtmaz daxili siyasət, separatçı qüvvələrin fəallaşması ölkədə siyasi vəziyyətin yetərincə gərginləşməsinə gətirib çıxarmışdı. Belə bir vəziyyətdə respublika rəhbərliyi idarəçilikdə çətinliklərlə üzləşmiş, faktiki olaraq respublikada dövlət müstəqilliyi ciddi təhlükə altına düşmüşdü.

Cəbhədəki uğursuzluqlar ölkədə siyasi vəziyyəti daha da dərinləşdirdi. İmperiyapərəst qüvvələr fəallaşdı. Dövlət çevrilişinə hazırlıq məqsədilə korpus komandiri Surət Hüseynov 1992-ci ilin dekabrında qüvvələrini Kəlbəcərin strateji yüksəkliklərindən geri çəkdi. 1993-cü il yanvarın 28-də Ağdərə bölgəsindən hərbi texnikanı çıxarıb Gəncəyə gətirdi. 1993-cü ilin fevralında Ermənistan ekspedisiya korpusu Rusiyanın 7-ci ordusunun 128-ci motoatıcı alayı və kazaklardan ibarət silahlı dəstənin iştirakı ilə Ağdərə - Kəlbəcər yolunu işğal etdi.

Surət Hüseynovun başçılığı ilə 1993-cü il iyunun əvvəllərində Gəncədə hərbi qiyam başlandı. Hökumətə tabe olmaqdan imtina edən bir qrup zabit Surət Hüseynovun başçılığı ilə hələ 1993-cü ilin aprelin 3-də Gəncədə "Hərbi Birlik" adlı hərbi-siyasi təşkilat yaratmışdı [2]. "Hərbi Birlik"

respublikanın ərazi bütövlüyünü qorumaq səlahiyyətini öz üzərinə götürüdü. Bu dövrdə Gəncədəki rus (keçmiş sovet ordusunun hissələri-C.B.) qoşunlarının çıxarılması ilə əlaqədar buradkı hərbi hissələr 1993-cü ilin aprelində şəhərdən çıxarkən silah-sursatlarının bir hissəsini Surət Hüseynovun rəhbərliyi altında olan 709 saylı hərbi hissəyə vermişdi [8, s.151]. Birlik, onun təsiri altında olan 709 saylı hərbi hissə Ali Baş Komandana və Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar faktiki olaraq Gəncədəki hərbi müxalifətin öhdəsindən gələ bilmirdi [2]. Dövlət Müdafiə Komitəsi və Müdafiə Nazirliyinin 709 saylı hərbi hissənin ləğv olunması, tərkisilah edilməsi haqqında 1993-cü il 25 may qərarı və müdafiə nazirinin 31 may tarixli əmri yerinə yetirilmədi. Qiyamı yatırmaq üçün siyasi bacarığı olmayan iqtidar zora – silahlı qüvvələrə əl atdı. Parlamentin sədri, baş nazir, güc nazirlikləri başçılarının daxil olduğu Mərkəzi Qərargah yaradıldı. Elçibəyin göstərişi ilə cəbhə bölgələrindən qiyamçılara qarşı 3 minədək silahlı qüvvə, o cümlədən daxili qoşunlar və milli qvardiyanın hərəsindən 200 nəfər, habelə xeyli ağır texnika, 7 tank, 10 "Qrad" qurğusu, 11 uzaqvuran top, 11 piyadalar üçün döyüş maşını cəlb edildi. Bundan başqa, "cəbhəçi könüllülər"dən ibarət üç tabor (1100 nəfər) təşkil edilib silahlandırılmışdı. 1993-cü il iyunun 5-də əməliyyata hərbi hava qüvvələri də cəlb edilmişdi [3].

Hökumət qüvvələri iyunun 4-də səhər saat 11-də qiyamçılara qarşı hücuma keçdi. Azərbaycan döyüşçüləri üz-üzə dayandı. 709 saylı hərbi hissənin kazarmaları dağıdıldı. Lakin qiyamçılar təşəbbüsü ələ aldılar [6]. Hökümət qüvvələrindən 1200 nəfər və respublika prokuroru girov götürüldü. Qvardiyaçıların bir hissəsi avtobusa doldurulub gülləboran edildi. Qardaş qırğınında 68 nəfər öldü, 150 nəfər yaralandı. Hökümət qüvvələri məğlub oldu. Gəncədə hərbi qiyamın baş verdiyi günlərdə prezident Əbülfəz Elçibəyin dəfələrlə təkidli dəvətlərindən sonra ulu öndər ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da hökümətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi [4].

Ulu öndər Heydər Əliyev genişlənmək təhlükəsi olan vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi tədbirlər həyata keçirdi. O, iyunun 13 – 14-də Gəncə şəhərində hərbi müxalifətlə - qiyamçılarla danışıqlar apardı, mövcud siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi. İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqalədə sessiyası ulu öndər Heydər Əliyevi Ali Sovetin sədri seçildi. Bu əlamətdar hadisə Azərbaycan tarixində yeni bir dövrün başlanğıcı oldu. 1993-cü il iyunun 24-də Milli Məclis respublika prezidentinin səlahiyyətlərini ulu öndər Heydər Əliyevə həvalə etdi.

Vətəndaş müharibəsini dayandırmaq məqsədilə ulu öndər Heydər Əliyev heç bir siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və revanş almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik Surət Hüseynovu öz sayıq nəzarəti altında baş nazir vəzifəsinə təyin etdi.

Ulu öndər Heydər Əliyev iqtidarında yüksək vəzifələr tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən Surət Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. Gəncədəki bu qərargahda Rəhim Qazıyev və cənub bölgəsində faktiki hakimiyyəti ələ keçirmiş Əlikram Hümbətovla birgə dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək planlarını həyata keçirməyə cəhd etdi.

Surət Hüseynov Gəncədə bəyanət verib bildirdi ki, o, "xalq və dövlət taleyinin həll edilməsi məsələsini" öz üzərinə götürür. Əlikram Hümbətov bu bəyanatı alqışladı [1, s.72].

1993-cü il sentyabrın ortalarında Surət Hüseynov, Əlikram Hümbətov və Rəhim Qazıyev qüvvələrini birləşdirib Bakıya hücum etmək, ulu öndər Heydər Əliyevi hakimiyyətdən salmaq planı hazırlamışdılar. Respublikanın qərb rayonlarında qeyri-rəsmi hərbi qruplar yaradılmışdı. Əllidən çox zirehli texnika və canlı qüvvə Gəncə ətrafındakı meşələrdə yerləşdirilmiş və fürsət gözləməkdə idi. Surət Hüseynov öz əlaltılarının müşavirəsini keçirmiş, çevrilişə hazırlıq tədbirlərini müzakirə etmişdi [5].

1994-cü il oktyabrın 4-də Gəncədə Surət Hüseynovun tərəfdarlarından 300-ə yaxın adam şəhər icra Hakimiyyəti binası və başqa strateji obyektləri ələ keçirdi. Bu zaman paytaxtda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident sarayı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Oktyabrın 4-dən 5-ə keçən gecə Prezident Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi. Onun çağırışı ilə gecə yarısı olmasına baxmayaraq, qısa bir vaxtda on minlərlə insan Prezident sarayı qarşısına toplaşdı. Qiyamçılar Prezident sarayına hücuma cəsarət etmədilər. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçılara qüvvələrini birləşdirməyə imkan vermədi. Gəncədə qiyam yatırıldı [7].

Ulu öndər Heydər Əliyevin 2002-ci ildə Gəncəyə tarixi səfəri zamanı bu hadisələri belə xatırlayırdı: "Mən keçmişdə, o vaxtlar Azərbaycanın rəhbəri olarkən Gəncə şəhərinə çox gəlmişəm. Amma bilirsiniz ki, 1993-cü ilin iyun hadisələri ilə əlaqədar məni Naxçıvandan Bakıya dəvət etdilər. Bakıda mənimlə danışıq apardılar və məni Azərbaycanın rəhbərliyinə cəlb etmək istəyirdilər. Mən çox məsələlərə ehtiyatla yanaşırdım və fikirləşirdim. Ancaq son olaraq bəyan etdim ki, mən gərək Gəncəyə gedəm, orada vəziyyəti öyrənəm, ondan sonra öz fikrimi deyə bilərəm. Xatirimdədir, iyunun 13-də mən buraya gəldim. Mən Gəncəni heç vaxt ağır, faciəli vəziyyətdə görməmişdim..."

Ümummilli lider Heydər Əliyev tarixi çıxışında Gəncənin 1993-cü il ictimai-siyasi həyatını olduqca dolğun və dəqiq şərhini vermişdir. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyə qayıdışından sonra ölkədə olduğu kimi, o cümlədən Gəncə şəhərinə də sabitlik bərqərar olmuş, ictimai-siyasi vəziyyət normal axara düşmüşdür.

## Ədəbiyyat


1. Bağırzadə C.V., Yeni Azərbaycan Partiyası və Gəncə, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və memarıdır, Gəncə Dövlət Universiteti, Ümummilli lider Heydər Əliyevin 90 illik yubleyinə həsr olunmuş elmi-praktik konfransın materialları, II hissə, 6-7 may, Gəncə, 2013. s.71-78.
2. Azərbaycan qəzeti, 20 iyul 1993.
3. Azərbaycan qəzeti, 21 sentyabr 1996.
4. Azərbaycan qəzeti, 10 iyun 1999.

5. Azərbaycan qəzeti, 27 iyul 1995.
6. Xalq qəzeti, 5 oktyabr 1994.
7. Xalq qəzeti, 21 iyul 1997.
8. Gəncə (tarixi oçerk) Bakı, Elm, 1994.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ XARİCİ SİYASƏTİN ROLU

**Məmmədağa Baxışov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: mammadagabaxishov@gmail.com

Dövlət müstəqilliyinin bərpasından sonra beynəlxalq hüququn prinsiplərinə, dövrün reallıqlarına və ölkənin milli mənafelərinə uyğun xarici siyasət proqramının hazırlanması və həyata keçirilməsi Azərbaycan Respublikasının qarşısında dayanan mühüm vəzifələrdən biri idi. Uğurlu xarici siyasət və diplomatiya respublikamızda müstəqil dövlət quruculuğunun möhkəmləndirilməsinə, təsərrüfatın bərpasına kömək, ölkəmizin yeni diplomatiya məkanında məqsədyönlü fəaliyyətini və keçid dövründə yeni beynəlxalq sistemin formalaşmasında iştirakını təmin etməli idi. Səmərəli xarici siyasət ölkəmizin sosial-iqtisadi inkişafına, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və beynəlxalq mövqelərinin möhkəmlənməsinə xarici ölkələrin və beynəlxalq təşkilatların dəstəyini təmin etməli idi. Diplomatiyamızın uğurlu olmasını həm də Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması tələb edirdi.

1993-cü ilin iyununda xalqın tələbi ilə ölkəmizdə yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev daxili və xarici siyasət sahəsində respublikanın qarşısında dayanan vəzifələri və həmin vəzifələrin həlli yollarını çox yaxşı bilirdi. Beynəlxalq hüququ və diplomatiyanı dərindən bilən Ulu öndər ilk gündən hərtərəfli xarici siyasət proqramı hazırlayıb ardıcıl şəkildə həyata keçirməyə başladı. Prezident kimi ölkəyə rəhbərlik etdiyi 10 il ərzində Ulu öndər Heydər Əliyevin xarici siyasəti və diplomatiyası Azərbaycanın müstəqilliyini möhkəmləndirdi və beynəlxalq mövqelərinin güclənməsi sahəsində ciddi və samballı uğurlarını təmin etdi.

Ulu öndər Heydər Əliyev ilk növbədə respublikamızın xarici siyasətinin qarşısında dayanan vəzifələri və onların həyata keçirilməsi yollarını, xarici siyasət fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Ölkəmizin xarici siyasətinin məqsəd və prinsipləri, konsepsiya və doktrinası, strategiya, taktika və geosiyasəti Ümumilli lider tərəfindən mükəmməl hazırlanmış proqramda öz əksini tapdı. Həmin proqramla tanışlıq göstərir ki, xarici siyasət ilk növbədə bütün diplomatik vasitələrdən istifadə edib ölkəmizi beynəlxalq təcrid vəziyyətindən çıxarmağa, respublika haqqında yaranmış mənfi ictimai rəyi dağıtmağa, xalqımızın haqlı və ədalətli mövqeyini beynəlxalq birliyə düzgün çatdırmağa və Azərbaycanın ətrafındakı məlumat mühasirəsini ləğv etməyə yönəlmişdi. Bu vəzifəni uğurla icra etmək üçün ölkənin zorla cəlb edildiyi müharibə dayandırılmalı və dinc quruculuq üçün əlverişli şərait yaradılmalı idi. 1994-cü ilin mayında Bişkekdə Ermənistanla atəşkəs

haqqında saziş imzalandı. Qısa müddətdə ölkədə daxili sabitlik yaradıldı ki, xarici siyasətin ardıcıl həyata keçirilməsi bundan birbaşa asılı idi.

Müstəqil Azərbaycanda demokratik dövlət quruldu. Ölkənin çoxsaylı iqtisadi, sosial və siyasi çətinlikləri aradan qaldırılmalı idi. Bu amil respublikamızın xarici ölkələrlə qarşılıqlı faydalı və bərabərhüquqlu əlaqələrindən və dünya birliyinə inteqrasiyasından həlledici şəkildə asılı idi. Azərbaycan Respublikasının yeni beynəlxalq münasibətlər sisteminin formalaşmasında iştirakı, dünya siyasətində böyük rolu olan dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərin qurulması və inkişafı müstəsna əhəmiyyət kəsb edirdi. İlk növbədə qonşu ölkələrlə münasibətlər yaxşıya doğru tənzimlənməli idi. 1993-cü ilin sentyabrında respublikamız MDB-nə daxil oldu. Postsovet respublikaları ilə iqtisadi,siyasi, diplomatik ticarət və mədəni əlaqələr bərpa və inkişaf etdirildi. Rusiya ilə münasibətlərdə uğurlu dialoq və anlaşma mühitinin yaradılması ölkəmizin təhlükəsizliyinin təmin olunması cəhətdən çox əhəmiyyətli idi. İki ölkə arasında əlaqələrin möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin xüsusi rolu va xidməti şübhəsizdir.

Dünyanın fövlqəl dövləti olan ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etməsində Heydər Əliyevin misilsiz xidmətini, o cümlədən, 1997-ci ilin yayında ABŞ-na ilk rəsmi səfərinin əhəmiyyətini qeyd etmək zəruridir. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanla Qərb ölkələri arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Sonra ABŞ-da Azərbaycanla əməkdaşlığa, onun problemlərinə və geosiyasi problemlərinə maraq artdı. Ulu öndərin qətiyyəti sayəsində 907-ci düzəlişin icrası dayandırıldı. Sonrakı dövrdə ABŞ özünü Azərbaycanla əməkdaşlığın genişlənməsində və strateji tərəfdaşlığın dərinləşməsində maraqlı tərəf kimi göstərdi.

Azərbaycanın strateji müttəfiqi olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilməsi, qardaş ölkənin beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdaşı kimi çıxış etməsi və Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ölkəmizin göstərdiyi fəaliyyəti dəstəkləməsi Ulu Öndərin dövründə əsası qoyulan "Bir millət, iki dövlət" sloqanlı uğurlu siyasətin bəhrəsi idi. Azərbaycan Prezidenti İlham Əliyev bu siyasəti daha da təkmilləşdirdi ki, nəticədə hər iki ölkə regionda söz sahibidir. Ulu Öndər Heydər Əliyev İran və Gürcüstanla xalqlarımızın mənafeyinə cavab verən mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına nail oldu.

Azərbaycanın yeni xarici siyasət kursunda Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi nüfuzlu ölkələrlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Heydər Əliyevin xarici siyasətinin təzahürü idi.

Respublikamızın xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər ümumilli lider Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan hökümətinin diplomatik fəaliyyətinin istiqamətlərindən biri idi. Ulu öndərin rəhbərliyi altında ölkəmiz bu məsul vəzifənin öhdəsindən bacarıqla gəldi. 1994-cü ilin sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın xarici ölkələrlə, beynəlxalq şirkətlərlə əlaqələrinin inkişafında, dünyanın iqtisadi və siyasi həyatına inteqrasiyasında mühüm rol oynadı. 1998-ci ilin sentybrında 32 ölkə və 13 təşkilatın

iştirakı ilə qədim İpək yolunun bərpası haqqında qərar qəbul edən Bakı konfransı Ulu öndərin prezidentliyi dövründə Azərbaycanın sanballı uğurları sırasına daxildir.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycanın xarici siyasətinin istiqamətlərindən biri idi. Respublikamız problemlərini dünya birliyinə çatdırmaq üçün beynəlxalq təşkilatların imkanlarından geniş istifadə edirdi. 1994-cü ilin mayında Prezident Heydər Əliyev Brüsseldə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq proqramı"nı imzalamaqla dünyanın ən güclü hərbi təşkilatı ilə əməkdaşlığın möhkəm təməlini yaratdı. Bu ölkəmizin təhlükəsizliyinə əlavə təminat idi. Azərbaycan NATO-nun təlimlərində və sülhyaratma əməliyyatlarında iştirak etmək, onun təcrübəsini öyrənmək və istifadə etmək imkanı qazandı. NATO Azərbaycan ordusunun yenidən qurulmasına köməyini əsirgəmədi. Ölkəmizin iqtisadi və siyasi uğurlarına uyğun hərbi potensial yaradılması və silahlı qüvvələrin maddi-texniki bazasının NATO standartlarına uyğunlaşdılırması Ulu öndərin uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. NATO ilə əməkdaşlıq respublikamızı həm TransAtlantika məkanının, həm də beynəlxalq təhlükəsiziyin qorunmasında yaxından iştirak və NATO ölkələri ilə ikitərəfli münasibətlərin inkişafı imkanı ilə təmin etdi.

1996-cı ilin aprelində Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq sazişi imzalandı. Bu saziş ölkəmizin Avropa İttifaqı kimi imkanlı İqtisadi İnteqrasiya təşkilatı ilə uzunmüddətli əməkdaşlığının hüquqi əsası oldu. Ulu öndər Heydər Əliyevin səmərəli fəaliyyəti nəticəsində Azərbaycan Respublikası 2001-ci ilin yanvarında Avropanın nüfuzlu təşkilatlarından biri olan Avropa Şurasına qəbul edildi. Ümumilli lider ölkəmizin Avropa Şurasına qəbul edilməsini "Azərbaycanın müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasında və Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcı" adlandırmışdı. 2001-2003-cü illərdə Azərbaycan Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinə həmin dövrdə Milli Məclisin üzvü olan cənab İlham Əliyev başçılıq etmişdi.

Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənib aradan qaldırılması prezident Heydər Əliyevin diplomatiyası qarşısında dayanan əsas vəzifələrdən biri idi. Hakimiyyətə qayıtdığı ilk gündən Heydər Əliyev ölkənin təhlükəsizliyi və Ermənistanın Azərbaycana hərbi müdaxiləsi ilə məsələləri beynəlxalq birliyin diqqətinə çatdırıb, münaqişəyə son qoymaq və regionda sülhün bərpası üçün böyük dövlətlərin və beynəlxalq təşkilatların imkanlarından maksimum istifadə etməyə çalışırdı. Ulu öndər iki və çoxtərəfli diplomatik görüşlər zamanı Ermənistan-Azərbaycan müharibəsini dayandırmaq üçün əhəmiyyətli müzakirələr aparırdı.

BMT ilə əməkdaşlıq respublikamızın xarici siyasətində mühüm yer tuturdu. Ümumilli lider dünyanın ən böyük beynəlxalq təşkilatının daha səmərəli fəaliyyət göstərməsində maraqlı idi. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı Baş Məclisin iclasında prezident Heydər Əliyev çıxış edib müasir dövrün qlobal problemləri bağlı mövqeyini diqqətə çatdırmış və bütün iştirakçılardan Ermənistana təzyiqi artırmağı tələb etmişdi.

1994-cü ilin dekabrında ATƏT-in Budapeşt və 1996-cı ilin dekabrında Lissabon sammitlərində Ermənistan - Azərbaycan münaqişəsinin geniş müzakirəsi və qəbul edilmiş sənədlər ilk növbədə hər iki tədbirdə Ulu öndərin mükəmməl diplomatik fəaliyyətinin nəticəsi idi. Lissabon sammitində münaqişənin həllinə şərait yaradan yekun bəyannaməsinə əlavə edilən sənəddə əksini tapmış üç prinsipi Ulu öndər ABŞ-ın nümayəndə heyəti ilə birlikdə hazırlanmışdı.

2000-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin keçirdiyi “Minilliyin sammitində” prezident Heydər Əliyev iştirak və çıxış etmiş, dünyəvi problemlərin həllində BMT-nin rolunun artmasını və təşkilatda islahatların zəruriliyini xüsusi bəyan etmişdi. Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə Ümummilli lider dünyanın 80 ölkəsinin rəhbərləri ilə keçirimiş 500-ə dək görüşdə və bütün aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər zamanı geniş həcmdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üsullarını müzakirə etmişdi.

Ulu öndər Heydər Əliyev ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə birincidən də əhəmiyyətli işlər gördü. İlk növbədə Azərbaycanın müstəqilliyi möhkəmləndi, düzgün daxili siyasət ölkənin sosial - iqtisadi inkişafını, xarici siyasəti isə dünya birliyinə sıx inteqrasiyasını təmin etdi. Səriştəli diplomatiya Azərbaycana beynəlxalq təşkilatların dəstəyini təmin etdi və ölkə iqtisadiyyatına çoxlu xarici investisiya gətirdi.

Ulu öndərin fəaliyyəti nəticəsində Azərbaycanın iqtisadi, hərbi, siyasi və diplomatik potensialı artdı, ölkəmiz dünya siyasətində imkanlarına uyğun təmsil edildi. İqtisadi inkişaf və hüquqi - demokratik dövlət quruculuğu ilə bağlı xarici ölkələrin və beynəlxalq təşkilatların respublikamıza etimadı artdı. Azərbaycan Respublikasının müttəfiqlərinin sayı artdı. Respublikamız bir çox ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etməyə başladı. Ulu öndər öz zəngin idarəçilik təcrübəsi və fəaliyyəti ilə, beynəlxalq hüququ və diplomatiyanı dərindən bilməsi və əməl etməsi nəticəsində Azərbaycanın yeni beynəlxalq sistemin formalaşmasına, beynəlxalq münasibətlərin inkişafına töhfəsini artırdı, həm də xarici siyasətin və diplomatiyanın Azərbaycan variantını yaratdı.

2003-cü ildən sonra əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət kursu cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirildi. Həmin dövrdən keçən 20 il ərzində Azərbaycan Respublikası xarici siyasət fəaliyyətinin bütün istiqamətlərində böyük uğurlar qazandı. Respublikamızın beynəlxalq münasibətlər sistemində mövqeyi daha da möhkəmləndi. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi qələbə Azərbaycanın dinamik və uğurlu inkişaf edən xarici siyasətinin zirvəsi və Ümumilli lider Heydər Əliyevin bünövrəsində Azərbaycana böyük məhəbbətin dayandığı ideyalarının parlaq təntənəsi oldu.

**Açar sözlər:** Ümummilli lider, xarici siyasət, yeni geosiyasi şərait, diplomatiya, beynəlxalq hüquq, əməkdaşlıq və zəfər.

### Ədəbiyyat

1. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, 2012.
2. Baxışov M.Ə. Amerika ölkələrinin xarici siyasəti. Bakı, 2023.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004.
4. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003).I-II hissə. Bakı, 2015.
5. Qarabağ Azərbaycandır epopeyası, Bakı, 2021.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİ

**Nəriman Böyükkişi**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: nariman.boyukkishi@au.edu.az

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri ulu öndər Heydər Əliyevin qürurla söylədiyi "bir millət, iki dövlət" şüarına və uzun tarixi kökləri olan qardaşlıq prinsiplərinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. İstər Azərbaycanın Çar Rusiyası tərkibində olduğu dövrdə, istərsə də Sovet dövründə bu əlaqələr məhdud çərçivədə və Azərbaycanın sərbəst fəaliyyəti olmadan həyata keçirilirdi. Geniş və müxtəlif sahələri əhatə edən bu münasibətlər müstəqilliyimizin əldə edilməsindən sonrakı dövrdə daha geniş vüsət almışdır.

Ölkələrimiz araslında siyasi, iqtsadi və mədəni əlaqələrin qurulması, inkişafı və hazırda ən yüksək səviyyəyə çatmasında müasir Azərbaycan dövlətçiliyinin memarı, ümummilli lideri Heydər Əliyevin misilsiz rolu olmuşdur. Buradaca qeyd edək ki, onun bu istiqamətdə siyasi-ideoloji fəaliyyəti təkcə Türkiyə Respublikası ilə məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə etmişdir.

Ulu öndərin türk dünyası ilə bağlı həyata keçirdiyi işlər, irəli sürdüyü ideyalar elmi-nəzəri cəhətdən əsaslandırılması ilə yanaşı, praktik tətbiqi tərəfdən və gələcəyə baxış nöqteyi-nəzərdən də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın Türkiyə Respublikası, eləcə də, türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını vermişdir ki, buraya əsasən aşağıdakılar daxildir:

- Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;
- türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;
- türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s. [3].

Azərbaycanın Türkiyə Respublikası ilə iqtisadi əlaqələri H.Əliyevin Türkiyə Cümhuriyyətinə səfərləri, dövlət və hökumət başçıları ilə görüşləri və müzakirələri nəticəsində formalaşmağa başladı. Heydər Əliyevin Türkiyənin Baş naziri, sonra isə prezidenti Süleyman Dəmirəllə möhkəm dostluğa və qardaşlığa çevrilən xoş münasibətləri bu əlaqələrin inkişafında xüsusilə böyük rol oynadı. Ulu öndər Naxçıvan Respublikasına rıhbərlik etdiyi illərdə Naxçıvan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il tarixində Ankarada ilk əməkdaşlıq protokolu imzalandı [1].

Bu kimi tədbirlərin davamı olaraq, 1 noyabr 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında Ankarada "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş" imzalanmış, 23 yanvar 1993 tarixindən isə qüvvəyə minmişdir [4].

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri istiqamətində H.Əliyevin bilavasitə rəhbərliyi və bilavasitə iştirakı ilə həyata keçirilmiş mühüm tədbirlərin əsas səciyyəvi cəhətlərinuinəzərdən keçirək:

- ✓ 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə "Türk petrolları" AO şirkətinin xarici neft şirkətləri konsorsiumunda təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi. İlk müqavilənin ("Azəri-Çıraq-Günəşli") imzalanması zamanı Türkiyə Respublikasının payı (TPAO şirkəti) cüzi - 1,75 faiz idi. Lakin sonradan Heydər Əliyev Azərbaycanın layihədəki payı hesabına Türkiyəyə əlavə 5 faiz ayrılması barədə qərar verdi. Nəticədə Türkiyə «Əsrin müqaviləsi»nin mühüm iştirakçılarından birinə çevrildi. 1996-cı ildə Azərbaycanın imzaladığı ikinci böyük müqavilə - «Şahdəniz» layihəsində Türkiyəyə daha yüksək - 9 faiz pay ayrıldı. Ümumilikdə Azərbaycanın ayrı-ayrı neft-qaz layihələrində Türkiyə 35 faiz pay əldə etdi.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrlə büruzə verir.

- ✓ 18 noyabr 1999-cu il tarixində isə ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" Saziş imzalandı [5].
- ✓ Azərbaycanda kiçik və orta sahibkarlığın inkişaında TİKA nın (Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı) ölkəmizdə TİKA Bakı Koordinasiya Ofisiniin yaradılmasında H.Əliyevin böyük rolu olmuşdur. 1994-cü ildə texniki infrastrukturda çatışmazlıqlarının aradan qaldırılması məqsədilə TİKA Bakı Koordinasiya Ofisini yaratdı [2].

Azərbaycanın ümummilli liderinin Türkiyə Respublikası ilə qarşılıqlı iqtisadi əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir. H.Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikası ilə əlaqələrin genişlənməsinə, ticarət-iqtisadi, mədəni-humanitar əməkdaşlığın artırılmasına xüsusi əhəmiyyət verir. Bu gün Türkiyə Azərbaycanın əhəmiyyətli ticarət tərəfdaşı olmaqla ölkəmizin xarici ticarət dövriyyəsində və ixracında 2015-ci ildən, idxal əməliyyatlarında isə 2013-cü ildən etibarən 2-ci yerdədir. Türkiyə və Azərbaycan şirlətləri qarşılıqlı surətdə investisiya qoyuluşunda fəal iştirak edirlər. Azərbaycan şirkətləri Türkiyədə əsasən energetika və kimya sahələrinə, Türk şirkətləri isə Azərbaycanda əsasən enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə kapital yatırırlar.

**Açar sözlər:** iqtisadi əlaqələr, strateji əməkdaşlıq, neft kəməri, qaz kəməri, ticarət əlaqələri, investsiyalar.

**Ədəbiyyat**

1. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev, Qafqaz universiteti, Bakı, 2002.
2. Heydər Əliyev və Azərbaycan- Türkiyə münasibətləri, Bakı, 1998.
3. http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_iyul2009/86532.htm
4. https://www.yeniazerbaycan.com/Siyaset_e53032_az.html
5. https://ankara.mfa.gov.az/az/content/106/azerbaycan-turkiye-iqtisadi-elaqeleri
6. https://medeniyyet.az/page/news/19468/Heyder-Eliyev-ve-turk-dunyasi.html?lang=en

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QURUCULUĞU

**Aysu Bülbülzadə**
"Soyqırımı Memorial Kompleksi"nin Elmi Araşdırmalar Mərkəzi, Quba, Azərbaycan
e-mail: bulbulzadaysu@gmail.com

Yaxın keçmişimizə, dövlətçilik ənənələrimizə nəzər saldıqda aydın olur ki, Azərbaycan xalqının XX əsr tarixinin ən parlaq səhifələri ümummilli lider Heydər Əliyev fenomeni ilə bağlıdır. (1969-1982, 1992-2003).

Ümummilli lider Heydər Əliyev ölkənin milli maraqlarına və dövlət quruculuğu xəttinə əsaslanan milli dövlətçilik konsepsiyasını irəli sürərkən tarixi ənənələrlə müasir inkişaf meyillərinin optimal vəhdətinə nail olmuş, Azərbaycan Respublikanın dinamik inkişaf strategiyasının əsasını qoymuşdur. Ona görə də bu gün əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda müasir, demokratik cəmiyyətin formalaşması onun ideyalarının bəhrəsidir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra milli və bəşəri dəyərlərə əsaslanan hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişafı müəyyən olundu, siyasi şərait yaradıldı.

Ulu öndərin formalaşdırdığı azərbaycançılıq milli dövlətçiliyimizin ideya əsasını təşkil etmiş, dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoymuşdur. Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində son yüz ildə çox ciddi məsələ kimi gündəmə gələn milli dövlətçilik problemi elmdən, nəzəriyyədən, fəlsəfədən praktiki siyasətə və praktik həyata keçir [1, s. 128].

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin ən mühüm cəhətlərindən biri də ölkəmizdə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas istiqamətlərinin müəyyən edilməsi oldu [2, s. 64].

Konstitusiyanın qəbulu və demokratik şəkildə formalaşmış Milli Məclisin mövcudluğu Azərbaycanda vətəndaşların siyasi azadlıqlarının təmin olunmasına imkan yaratdı. Bütün fəaliyyəti boyu humanizm prinsiplərini rəhbər tutan Heydər Əliyev demokratik və vətəndaş cəmiyyəti quruculuğunun fundamental əsaslarından biri olan qanunun aliliyinin təmin edilməsinə daim xüsusi diqqət yetirmişdir. Bu baxımdan o, islahatların həyata keçirilməsi istiqamətində konkret addımlar

atmış, imzaladığı hüquqi sənədlərlə vətəndaş cəmiyyətinin formalaşmasında mühüm nailiyyətləri təmin etmişdir [3, s. 44].

Siyasi lider Heydər Əliyevin qətiyyətli addımları sayəsində insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən ən mühüm islahat yaşamaq hüququnun təmin edilməsi olmuşdur. Belə ki, 1993-cü ildə ölüm hökmünün tətbiqi məhdudlaşdırılmış, 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmış, 1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edilmişdir. Azərbaycan Respublikası İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmuş, seçki sistemi təkmilləşdirilmiş, mətbuat və ifadə azadlığının daha etibarlı müdafiəsi təmin edilmişdir. 1998-ci ildə "İnsan hüquqlarının müdafiəsi üzrə Dövlət Proqramı"nı təsdiq edilmişdir [3, s. 100].

Ümummilli lider Heydər Əliyevin siyasi irsində demokratik dövlət quruculuğu məsələlərindən danışarkən, əlbəttə ki, siyasi sistemin inkişafına mühüm töhfələr verən proseslərə xüsusi diqqət yetirmək lazımdır. Onun səmərəli daxili siyasətinin mühüm nəticələrindən biri də siyasi plüralizmin təmin edilməsidir. Azərbaycanda siyasi plüralizm ən yüksək səviyyədə təmin olunub. Ölkədə 55 siyasi partiya var və hazırda ölkə parlamentində 10 partiya təmsil olunur. Əsası 1992-ci il 21 noybarda Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası demokratik dövlət quruculuğuna töhfə verən ən mühüm amillərdən biridir. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən mürəkkəb siyasi vəziyyətin daxili məntiqinin, dövrün aktual tələbatının, eləcə də Azərbaycan xalqının arzularının ifadəsi kimi yaranan Yeni Azərbaycan Partiyası hər zaman öndə olub. İlk gündən YAP-ın əsas məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, qüdrətli və güclü dövlət quruculuğu yaratmaqdan ibarət olmuşdur. 30 ildən artıqdır ki, öz proqram məqsədlərinə uyğun fəaliyyət göstərir. Bu gün Azərbaycan bu prinsiplər əsasında inkişaf edir. Qürurverici faktdır ki, Yeni Azərbaycan Partiyası ölkədə ictimai-siyasi mühitin yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi üçün ideoloji bazaya çevrilib [4, s. 54].

Heydər Əliyev müasir Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir ki, Azərbaycanın tarixinin 40 ili onun adı ilə bağlıdır. Ulu öndər xalqımızın tarixinə Azərbaycanla bağlı gördüyü işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi yazılmışdır [5].

Böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən olan Heydər Əliyev tarixə çox zəngin irs qoymuşdur. Xalqımızın mənəvi sərvəti olan bu irsi öyrəndikcə bir daha əmin olursan ki, ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan Respublikasının hərtərəfli inkişafı prosesinə güclü təkan vermiş bu böyük şəxsiyyətin müasir Azərbaycan dövlətinin quruculuğunda müstəsna rolu var. Ümummilli lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir.

**Açar sözlər:** Azərbaycan Respublikası, Heydər Əliyev, dövlət quruculuğu, siyasi lider, müstəqillik.

**Ədbiyyat**


1. Abdullayev V. Azerbaijan in the new diplomatic space. Baku: Azerneshr, 2000, 412 p.
2. Kazimli X. Continuation of the great policy. Baku: Nurlan, 2007, 768 p.
3. Mehdiyev R. National statehood in the XXI century. Baku: Azerneshr, 2003. 340 p.
4. Mehdiyev R. New policy: towards development. Volumes I-II. Baku: Oscar MTM, 2008, 581, 343 p.
5. Talıblı S.Ə. Heydər Əliyevin Azərbaycan hakimiyyətinə ikinci dəfə qayıdışının dövlətçilik tariximizdə yeri. https://azadmedia.az/gundem/57202-dr-subhan-talbl-heydr-liyevin-azrbaycan-hakimiyytin-ikinci-df-qaydnn-dovltcilik-tariximizd-yeri.html.


## ОСНОВНЫЕ АСПЕКТЫ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ В ПЕРИОД РУКОВОДСТВА ГЕЙДАРА АЛИЕВА

**Фарида Джафарли**
Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан
e-mail: fridc@internet.ru

Гейдар Алиев начал социальные и экономические реформы с приватизации государственной собственности. Республика была на пороге перехода из социалистической системы в рыночную. Именно на Гейдара Алиева была возложена миссия – вывести экономику А. Р. из глубокого хаоса.

В 1996 году были зарегистрированы представительства передовых фирм. В 1994 г. – 10% , а в 1995 – 30% нефтепродуктов были реализованы. Нефтехимическая промышленность зародилась в А.Р. в 60-70 г.г. В 70-80 г.г. нефтехимия была на пике своего развития. В 70-80 г.г. машиностроительные заводы были реконструированы. Но в период кризиса в начале 90-х инженеры стали жертвами безработицы [2]. В апреле 1996 года подводились итоги реформ в сфере сельского хозяйства. Подготавливались документы по программе перестройки и восстановления села. Гейдар Алиев проводил реформы и в денежно-монетарной сфере. В бюджетных реформах государства основную роль сыграл Центральный Банк Азербайджана.

Ильхам Гейдар оглы Алиев за последние годы реализовал ряд реформ. Указ И. Алиева от 4 января 2021 г. о том, чтобы было создан «Фонд по возрождению Карабаха». Фонд основан, с целями оказания материальной помощи и привлечения инвестиций в рамках восстановительного процесса на освобожденных землях. Для реализации управления аботой фонда создан Наблюдательный Совет [1]. Указ Главы государства А.Р. от 2 февраля 2021 г. по обеспечению функционирования Агентства Республики по разминированию. Указ Главы государства от 18 марта 2021 г. о

градостроительных проектах на территории Карабаха и ряд вопросов связанные с управлением этих работ. Указ И. Алиева о «Применении дополнительных мер согласно координации работ, связанных с разминированием территорий в Карабахе». Указ Президента А.Р. от 16 декабря по « Улучшению бытовых и социальных условий, получивших звание семьи шехида, и получивших инвалидность на войне».

Главой А.Р. Ильхамом Алиевым подписан указ о новом экономическим разделении районов в стране. По новому делению вместо 10 существующих районов предусматривается 14 экономических районов. По новому указу, Президент разделил страну на Бакинский, Ширван-Сальянский, Восточный Зангезур, Шеки-Загатальский, Миль-Муганьский, Центральный Аран, Ленкорань-Астаринский, Губа-Хачмазский, Газах-Товузский, Карабахский, Гянджа-Дашкесан, Горный Ширван, Абшерон-Хызынский, Нахчыванский экономические районы [1].

После восстановления целостности территорий страны было необходимо проведение нового разделения экономических районов. Одновременно для интеграции Карабахаи реабилитации освободившихся районов А.Р. создан Карабахский экономический район, куда входят Восточный Зангезур, Ханкенди, Агджабеди, Агдам, Барда, Физули, Ходжалы, Ходжавенд, Шуша, Тертер. В свою очередь в Восточный Зангезур входят такие районы как: Зангилан, Лачин, Кельбаджар, Джабраил.

**Ключевые слова:** национальная стратегия, реформы, национальный лидер, современный Азербайджан.

**Литература**

1. Бондаренко Л.В. Научные основы формирования системы стандартов оказания социальных услуг сельскому населению. - М. : ГНУ ВНИИЭСХ, 2013, 78 с.
2. Мусаев В., Обзор экономических реформ Азербайджана, 2017.
3. Гамидова А.Р., Эфендиева А.Т. Проблема устойчивого развития эколого-экономических систем / А.Р. Гамидова, А.Т. Эфендиева; Молодой ученый. - 2018. - № 12. Т.1, 70-73.
4. Мамедов Г., Аграрные реформы в Азербайджане: от упадка к продовольственной безопасности.
5. Ализаде М., Библиографический справочник Гейдара А.
6. Миркин Б.М. Устойчивое развитие: вводный курс: учеб. пособие, М.: Университетская книга, 2018, 312 с.
7. Раджабов А.Х. О теоретических основах устойчивого развития, Молодой ученый. - 2018. - № 13. - С. 495-498.
8. Раянов Ф.М. Концепция устойчивого развития и государственно-правовая реальность России, право и политика. 2019.

9. Рио-де-Жанейрская декларация по окружающей среде и развитию; Конференция Организации Объединенных Наций по окружающей среде и развитию. Рио-де-Жанейро, июнь 1992 г.: обзор данных. Новосибирск: СО РАН, 1992. 62 с.

# "ONE NATION TWO STATES" AZERBAIJAN AND TURKIYE RELATIONS IN THE FIELD OF HEALTH FROM PAST TO PRESENT

**Nilay Çerkezoğlu**
Fundamentals of Nursing Department, Faculty of Nursing, Ege University,
Izmir, Turkiye

**Introduction:** When we look at the history between Turkey and Azerbaijan in the field of health, it is possible to talk about a cooperation that started in the 90s and produced joint projects until today. With the acceleration of technological developments in Turkey in the 90s, very important progress and developments began to be experienced in the field of health. In these periods, it is seen that Turkey also followed the health systems in developed countries and started to advance its own health system with the example of these systems. During this period, Azerbaijan was trying to get rid of the Soviet system and declare its independence. Azerbaijan, which also experienced the Karabakh war in this period, received the most support from Turkey in this period. Turkish physicians were the first to meet the needs of Azerbaijan in the field of health, especially in 1991. Again in 1991, with the participation of Azerbaijani physicians in the physician congress held at the Gülhane Medical Academy, this bond began to strengthen. Later, in 1991, 20 Azeri medical students were sent from Turkey to Istanbul University Faculty of Medicine, 20 Azeri doctors were interned in the Ministry of Health for 3 months in 1993, and in 1994, the most important development of the period, President of Azerbaijan Heydar Aliyev and Turkey. There was the signing of the Inter-State Agreement between President Süleyman Demirel. This agreement paved the way for cooperation for all units in the field of medicine, and legal grounds were established for the realization of this cooperation. In addition, with this agreement, physician faculty members who grew up in Turkey were assigned to give lectures in Azerbaijan medical faculty for 2 to 5 years.

With the signing of the Inter-State Agreement between President of Azerbaijan Heydar Aliyev and President of Turkey Süleyman Demirel, the two countries have experienced significant developments and progress in the field of health as they supported each other and contributed to each other's development. With the organization of scientific congresses, the invitation of Azerbaijani and Turkish physicians to scientific congresses held abroad, the training of qualified physicians and health personnel, and the participation of Azeri and Turkish physicians in international platforms, both countries seem to be getting stronger in the field of health.

In addition, it has been seen that quality and integration in the field of health have increased over the years, with many collaborations such as jointly established associations, initiatives related to health tourism, making inter-university agreements and opening programs that give double

university degrees, specialization of Azeri physicians in Turkey, and the start of admission of nurses to graduate programs.

**Conclusion:** As can be understood from the cultural integration theme of "One nation, two states" used by Heydar Aliyev for Turkey and Azerbaijan, Turkey and Azerbaijan have become ready to be the countries that have started to show themselves at the forefront in the field of health with the support they give to each other as two brotherly countries. The Republic of Turkey, which was founded by the Great Leader Mustafa Kemal ATATÜRK and continues to progress in line with his principles, continues to cooperate with Azerbaijan, its sister country in the field of health, and they continue to do things that make an impact in the world within the scope of forward-looking projects.

**Keywords**: health services, two states, Azerbaijan, Türkiye.

## AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN QARŞILIQLI İCTİMAİ DİPLOMATİYA FƏALİYYƏTLƏRİ

**Lalə Dilənova**
Azərbaycan Universiteti
e-mail: lale.dilanova@au.edu.az

Azərbaycanın müstəqilliyini tanıyan, Bakıda səfirlik yaradan ilk ölkə kimi tarixə düşən Türkiyə, 1991-ci ildən başlayaraq iki ölkə arasında bütün sahələrdə əlaqələrin qurulması və inkişaf etdirilməsi kursunu götürmüşdür. Azərbaycan da Türkiyə ilə münasibətlərini Heydər Əliyevin “Bir millət, iki dövlət” prinsipi əsasında qurmuş, siyasi-iqtisadi müstəvidə ortaq mövqe nümayiş etdirmişdir.

XX əsrin əvvəllərində Azərbaycanda “Qardaş köməyi” devizi altında Anadoluya yardım fəaliyyətlərinin həyata keçirilməsi, Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun 1918-ci ilin sentyabr ayında Bakını erməni-bolşevik işğalından azad etməsi, Türkiyənin Azərbaycan torpaqlarının işğalına etiraz olaraq 1993-cü ildə Ermənistanla sərhədlərini bağlaması, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycana güclü mənəvi və diplomatik dəstəyi “Bir millət, iki dövlət” ideyasının əsassız olmadığının, tarixin ziddiyətli və mürəkkəb dövrlərində, taleyüklü məsələlərində Türkiyə və Azərbaycanın bir-birinin yanında olduğunun əyani sübutudur. İki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələrinin 2021-ci ildə imzalanan Şuşa bəyannaməsi ilə keyfiyyətçə yeni müstəviyə keçərək strateji müttəfiqlik səviyyəsinə yüksəlməsi Türk Dünyasının da maraqlarına xidmət edir, Türk xalqlarının birliyi və gələcəyi üçün nümunəvi model kimi “Bir millət, iki dövlət” fəlsəfəsinin “Bir millət, altı dövlət” şüarına çevrilməsinə zəmin yaradır.

Tezisdə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında ictimai diplomatiya fəaliyyətlərinin rolu nəzərdən keçirilmiş, dost və müttəfiq ölkələr arasında ictimai diplomatiya fəaliyyətlərinin əhəmiyyəti üzərində durulmuşdur.

İctimai diplomatiya (public diplomacy) anlayışı müasir mənasında ilk dəfə 1965-ci ildə ABŞ-ın Taft Universitetinin Fletçer Hüquq və Diplomatiya Məktəbinin dekanı Edmund Gullion tərəfindən istifadə olunmuş və elmi dövriyyəyə daxil edilmişdir [1]. Terminin elmi ədəbiyyatda müxtəlif izahlarına rast gəlmək mümkün olsa da, bu fəaliyyət növü bütün hallarda ənənəvi diplomatiyanın dəstəkləyicisi və tamamlayıcısıdır, bir dövlətin xarici siyasətinin həyata keçirilməsində hədəf ölkənin vətəndaşlarının dəstəyini əldə etmək məqsədilə onlarla ünsiyyət qurmaq səyləridir, dövlətlərin milli maraqların təmin olunması istiqamətindəki fəaliyyətlərini ehtiva edir, beynəlxalq auditoriya ilə təmas nöqtələri tapmaq yolu ilə qısa, orta və uzunmüddətli hədəflərə fokuslanan müxtəlif texnologiya və üsullarla həyata keçirilir. Günümüzdə demək olar ki, "böyük" yaxud "kiçik", "güclü" yaxud "zəif" olmasından asılı olmayaraq bütün ölkələr ictimai diplomatiya fəaliyyətlərinə müraciət edir.

Öz regionunda böyük güc olan, qlobal siyasətdə və beynəlxalq problemlərin həllində də söz sahibi olmaq istəyən Türkiyə dünyanın müxtəlif bölgələrində - Afrika qitəsində, Mərkəzi Asiya, Yaxın Şərq, Balkan ölkələrində, o cümlədən Azərbaycanda Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Türkiyə Radio-Televiziya Qurumu (TRT), Diyanət İşləri İdarəsi, Yunus Əmrə İnstitutu, Xaricdə Yaşayan Türklər və Əqrəba Topluluqlar İdarəsi (YTB) və başqa bu kimi qurumlar vasitəsilə ictimai diplomatiya fəaliyyətləri həyata keçirir. Türkiyə və Azərbaycanın ortaq milli köklərə sahib olması ictimai diplomatiya fəaliyyətlərinin zəruriliyini aradan qaldırmır, əksinə 2009-cu ildə baş vermiş "bayraq qalmaqalı" onun əhəmiyyətinə işarə edir.

2009-cu ildə ABŞ, Rusiya və Fransanın vasitəçiliyi ilə Türkiyə və Ermənistan arasında imzalanmış Sürix protokolları ("Diplomatik münasibətlərin təsis olunması protokolu" və "İkitərəfli əlaqələrin inkişaf etdirilməsi protokolu") iki ölkə arasında münasibətlərin nomallaşdırılması prosesinin başlanmasını və ratifikasiyadan 60 gün sonra Türkiyə-Ermənistan sərhədinin açılmasını nəzərdə tuturdu. Türkiyə üzərində daha çox təzyiq yaratmaq məqsədi güdən və Azərbaycan ilə münasibətlərini pozmağa hesablanan protokollar sonradan nəticəsiz qalsa da, 2009-cu ilin oktyabr ayında Bursa şəhərində keçirilən Türkiyə-Ermənistan milli matçı zamanı Azərbaycan bayraqlarının stadiona buraxılmaması, nəzarət və aramalar əsnasında ortaya çıxan xoş olmayan görüntülərin mətbuatda yer alması, Bakıdakı Türk şəhidliyindən Türkiyə bayraqlarının endirilməsi (Azərbaycan bayraqları da endirilmişdir) iki dost və qardaş ölkə arasında münasibətlərin soyumasına və gərginləşməsinə səbəb olmuşdu. Hətta Azərbaycan prezidenti İlham Əliyev həmin ilin aprel ayında İstanbul şəhərində keçirilən və o dövrdə ABŞ prezidenti olan Barak Obamanın da iştirak etdiyi "Sivilizasiyalar alyansı" adlı zirvədə iştirakdan imtina etmişdi [2].

Narahat və mürəkkəb coğrafiyada yerləşən, dövlət sərhədlərinə tam nəzarəti müstəqilliyinin bərpasından təxminən 30 il sonra təmin etməyə nail olan Azərbaycan, ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalını və işğal dövründə törədilmiş ağır tərkibli hərbi cinayətləri beynəlxalq ictimaiyyətə çatdırmaq üçün ictimai diplomatiyanın müxtəlif vasitə və elementlərindən istifadə etmişdir. Bu sahəyə 2000-ci illərdə addım atan Azərbaycan tərəfindən əsasən Fransa, İtaliya, Vatikan, Bolqarıstan, Almaniya kimi Avropa ölkələrində dünya mədəni irsinin bərpasına və qorunmasına böyük töhfələr verən, ölkə daxilində və xaricində Azərbaycanın tarixi və mədəni irsinin beynəlxalq aləmdə təbliğinə yönələn müxtəlif layihələr icra olunmuşdur.

Türkiyə ilə münasibətlərdə isə humanitar diplomatiyanın əsas yer tutduğunu söyləmək mümkündür. Son illərdə Türkiyədə baş verən dağıdıcı zəlzələ və meşə yanğınlarının fəsadlarının aradan qaldırılmasında həmrəylik nümayiş etdirilmiş, həm Azərbaycan dövləti, həm də Azərbaycan xalqı tərəfindən genişmiqyaslı yardım kampaniyaları təşkil edilmiş, Azərbaycan təbii fəlakət və yanğınların ilk saatlarından etibarən Türkiyənin yanında olduğunu əməli fəaliyyət ilə təsdiqləmişdir. Bu tip fəaliyyətlər dosluq və qardaşlıqdan irəli gələn səmimi münasibətlərin təzahürü olmaqla yanaşı ictimai diplomatiya aspektindən də anlaşılmalı və təhlil olunmalıdır.

Nəticə olaraq, eyni soykökü, dil, din, tarix, mədəniyyət və bir çox digər ortaq bağlara sahib Azərbaycan-Türkiyə münasibətləri həm dostluq və qardaşlıq, həm də qarşılıqlı etimad və yüksək səviyyəli strateji müttəfiqlik əsasında qurulmuşdur. Türkiyə, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli və Azərbaycanın ərazi bütövlüyünün bərpasında olduğu kimi, Qarabağa "Böyük qayıdış"planının icrasına da öz məsələsi kimi yanaşır. Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmliyi Türk dünyasının inteqrasiyası və birliyini, beynəlxalq problemlərin həllində birgə hərəkətinin təmin edilməsini şərtləndirən əsas amil kimi çıxış edir və strateji əhəmiyyət daşıyır. Azərbaycan-Türkiyə münasibətlərində 2009-cu ildə yaşanan "həssas dövr" və hazırkı yeni keyfiyyət mərhələsi onu deməyə əsas verir ki, ictimai diplomatiya fəaliyyətləri təkcə "düşmən" deyil, qardaş, dost və müttəfiq ölkələri də əhatə etməlidir. Türkiyə və Azərbaycan arasında ictimai diplomatiya fəaliyyətləri strateji məsələ kimi diqqət mərkəzində saxlanmalı, vahid mərkəzdən idarə olunması modeli hazırlanmalı və həyata keçirilməlidir.

**Açar sözlər:** ictimai diplomatiya, beynəlxalq münasibətlər, Türkiyə, Azərbaycan, Türk dünyası.

## Ədəbiyyat

1. Cull N. Public Diplomacy: Lessons from the Past, http://kamudiplomasisi.org/pdf/kitaplar/PDPerspectivesLessons.pdf, 10.04.2023
2. Kılıçoğlu G. Türkiye – Azerbaycan İlişkilerinde Karabağ, https://academicopinion.org/index.php/pub/article/view/8/7, 10.04.2023

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ, TÜRKÇÜLÜK MƏFKURƏSİ

**Fərid Əhmədli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: farid.ahmadli@au.edu.az

Ümumiyyətlə, hər bir xalqın dünya xalqları arasında yerinin, onun özünəməxsusluğunun müəyyənləşdirilməsində milli ideya mühüm əhəmiyyət kəsb edir. Bu, indiki qloballaşma dövründə milli varlığa və dəyərlərə ciddi təhdidlərin artdığı zamanda xüsusilə aktuallıq kəsb edir. Milli məfkurə hər bir xalqın, millətin tarixi, mənəvi-mədəni dəyərlərini özündə əks etdirən, onun çağdaş varlığını və gələcəyini müəyyənləşdirən ideyalar sistemidir.

Müasir Azərbaycan dövlətinin nəzəri əsaslarını təşkil edən Azərbaycançılıq məfkurəsinin dərin tarixi kökləri vardır. Milli kimliyimizin və dövlətçiliyimizin təşəkkül tapmasında bu ideologiyanın rolu və təsiri şübhəsizdir.

Azərbaycançılıq və onun ilkin əsası olan Türkçülük məfkurəsinin təşəkkül tapması XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində baş vermiş mütərəqqi sosial-iqtisadi, mədəni-mənəvi dəyişikliklərlə bilavasitə bağlı olmuşdur. Bu dəyişikliklər xalqımızda milli hisslərin oyanmasında, milli şüurun inkişafında və bütün bunların məntiqi nəticəsi olaraq milli hərəkatın yaranmasında mühüm rol oynadı. Məhz bu dövrdə Şimali Azərbaycanda millətləşmə prosesi sürətlənərək milli hərəkatın tədricən ümmətçilikdən türkçülük mərhələsinə keçməsinə şərait yaratdı. Əsasını Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi kimi ziyalıların qoyduğu maarifçilik hərəkatı XX əsrin sonlarında, XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov və başqa ziyalılarımız tərəfindən daha da inkişaf etdirildi. İlk dəfə olaraq bu ziyalıların yaradıcılığında milli kimlik məsələləri müzakirə obyektinə çevrildi [1, s.231-319]. Həmin dövrdə rus müstəmləkəçiliyinin qadağalarına baxmayaraq ictimai fikirdə, mətbuatda Azərbaycan millətinin və ərazisinin həqiqi adı getdikcə daha çox işlədilməyə başladı. “Kəşkül” qəzeti ilk dəfə olaraq Arazın hər iki sahilindəki əhali üçün Azərbaycan türkləri, azərbaycanlılar ifadəsini işlətməyi təklif etdi. Görkəmli publisist Məhəmməd ağa Şahtaxtinski 1891-ci ildə Azərbaycan türklərini “tatar” adlandıranlara qarşı açıq çıxış edərək, bizim xalqı öz adı ilə - Azərbaycan türkləri, onun dilini isə Azərbaycan türk dili adlandırmağı tələb edirdi.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətində, ictimai-siyasi şüurunda cərəyan edən proseslər Azərbaycan millətinin formalaşmasına öz təsirini göstərmişdi.

XX əsrin əvvəllərində görkəmli ziyalılarımızın xidmətləri sayəsində Azərbaycan türk millətinin varlığının elmi cəhətdən əsaslandırıldığı milli istiqlal məfkurəsi formalaşdırıldı. Bu dövrdə Azərbaycan xalqının milli-siyasi məqsədlərini ifadə etmək üçün panislamizm və pantürkizm ideologiyası özünə müəyyən tərəfdar tapsa da, bu ideologiyalar xalqın mənəvi, xüsusən siyasi ehtiyaclarını ödəmirdi. Bu baxımdan azərbaycanlıların milli mənlik şüurunun müəyyənləşməsində pantürkizmdən daha çox Türkçülük mühüm rol oynadı. Təqribən 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaranmasına qədər Azərbaycan milli hərəkatının əsas ilhamverici ideyası kimi

məhz türkçülük çıxış etdi. Milli kimlik axtarışı son nəticədə türkçülük ideologiyasının Azərbaycançılıq milli ideologiyasına qədər inkişaf etməsinə gətirib çıxardı [4, s.47-48].

1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycançılıq ideologiyasının əməldə gerçəkləşməsi idi. Məhz AXC dövründə M.Ə.Rəsulzadə və silahdaşları tərifindən Azərbaycançılığın nəzəri-elmi əsasları təşəkkül taparaq, milli dövlətimizin ideologiyasına çevrildi.

Ulu öndər, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi və elmi-nəzəri fəaliyyətində Azərbaycançılıq ideologiyası mühüm yer tutur. Azərbaycanda bu gün uğurla həyata keçirilən dövlət siyasətinin strateji əsaslarını da məhz Heydər Əliyevin yeni gerçəkliklərə uyğun inkişaf etdirərək zənginləşdirdiyi Azərbaycançılıq məfkurəsi təşkil edir. Azərbaycançılıq ideologiyasında Azərbaycan xalqının milli maraqları və dövlətçilik mənafeyi öz əksini tapmışdır. Heydər Əliyev göstərirdi ki, müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milliyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini hər vaxt yaşatmalıyıq [3].

Heydər Əliyev, eyni zamanda türk dünyasının mənəvi və siyasi birliyinin təşəkkül tapmasında Türkçülük ideologiyasına da yüksək dəyər verirdi. Onun siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edirdi. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını hazırlamışdır [2]. Bu gün türk xalqları arasında gedən inteqrasiya prosesləri, TDB-nin yaradılması, uğurla fəaliyyət göstərməsi bu proqramın həyatiliyinin bariz nümunəsidir.

**Açar sözlər**: Heydər Əliyev, Azərbaycançılıq, Türkçülük, məfkurə.

## Ədəbiyyat

1. Azərbaycançılıq məfkurəsi: ənənə və müasirlik. Bakı, Elm və təhsil, 2019, 453s.
2. Cəfərov N., Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə, Xalq qəzeti, 18 iyul, 2009.
3. Əliyev H., Dünya azərbaycanlılarının I qurultayında çıxış, Azərbaycan q., 10 oktyabr 2001.
4. İsmayılov K., Balayev A., "Azərbaycançılıq" ideologiyası: təşəkkül tapması, tarixi inkişaf mərhələləri, Bakı, Savalan, 2022, 223s.

# HEYDƏR ƏLİYEVİN SİYASİ FƏALİYYƏTİNİN NAXÇIVAN DÖVRÜ VƏ "ŞƏRQ QAPISI" QƏZETİ

**Namiq Əhmədov**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: tuqay59@mail.ru

Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qaydışı təkcə Azərbaycanın yox, eləcə də bütün bölgənin taleyində dönüş nöqtəsi oldu. Onun Naxçıvana dönüşü və buradakı (22 iyul 1990 - 9 iyun 1993) fəaliyyəti tarixin yeni bir mərhələsi idi. Tədqiqtçı-alim Ələkbər Cabbarlının "Heydər Əliyev və Naxçıvan tarixi məsələləri" monoqrafiyasında deyildiyi kimi "Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünü əhatə edən 1990-1993-cü illər Azərbaycan tarixinin şanlı, yaddaqalan səhifələrinə çevrildi. Əslində taleyin ümidinə buraxılan Naxçıvan məhz Heydər Əliyevin dərin zəkası, uzaqgörən siyasəti nəticəsində yaşayıb mübarizə apara bildi" [1, s.211].

Ölkə mətbuatında, xüsusən də hakimiyyət orqanlarına bağlı olan mətbuat orqanlarında bu tarixi hadisə haqqında xəbərlərin dərcinə içazə verilmədiyi vaxtlarda Heydər Əliyevin fəaliyyətinə sərt informasiya blokadasının yarılmasında "Şərq qapısı" qəzeti xüsusi rol oynamışdır..." [3, s.465].

Kremlə bağlı olan Vilayət Partiya Komitəsinin mövqeyi bəlli olsa da, onun mətbu orqanı bu məsələdə xalqın və ədalətin tərəfində olduğunu dəfələrlə sübut etmişdi. Hələ səksəninci illərin sonu, 90-cı illərin əvvəllərində "Şərq qapısı" ölkəmizdə müstəqillik ideyalarının həyata keçirilməsində fəal rol oynamışdır. 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Ali Soveti torpaqlarımıza erməni təcavüzü ilə bağlı ədalətsizliklərə etiraz olaraq sovet imperiyasının tərkibindən çıxmaq haqqında qərar qəbul edəndə "Şərq qapısı" bu qısamüddətli "müstəqillik" dövründə də əsas mətbu orqanı kimi çıxış etmişdi [3, s.45]. "Şərq qapısı" yaşadığımıız günlərin güzgüsüdür, Naxçıvan diyarının ən mükəmməl ensklopediyası da "Şərq qapısı" qəzetidir [2] deyən akademik İsa Həbibbəylinin fikirlərinin nə qədər dəqiq olduğuna qəzeti vərəqlədikcə bir daha şahidlik edirik.

Ənənə və məslək yoluna sadiq qalan qəzet böyük siyasətçi Heydər Əliyevin vətənə qayıdışı dövründə də respublikada ilk olaraq öz səhifələrində dahi siysətçiyə geniş tribuna verdi. "Şərq qapısı" qəzeti "Heydər Əliyevin müstəqillik illərində Naxçıvandakı həyat və fəaliyyətinin güzgüsü olmaqla yanaşı, ulu rəhbərin imzaladığı fərman və sərəncamları, apardığı beynəlxalq səviyyəli danışıqları dolğun əks etdirmişdir" [5]. "Şərq qapısı" qəzetinin əməkdaşı Möhsün Möhsünova ilk müsahibəsini verəndə Naxçlvana qayıdışından iki gün keçirdi və bu qayıdışdan dörd gün sonra-qəzetin 26 iyul 1990-cı il tarixli sayında dərc edilən "Daha susa bilməzdim..." adlı müsahibə [4] cəmiyyətin səbirsizliklə gözlədiyi hadisə idi. Partiya-sovet mətbuatında dərc edilən bu ilk müsahibədə Heydər Əliyevin cavabları siyasət meydanında yeni olmadığını sübut edir.

Qəzet Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyətinin işıqlandırılmasında önəmli rol oynadı. Naxçıvanda blokadanın yaratdığı ağır sosial-iqtisadi durum, Ulu öndərin imzaladığı fərman və sərəncamlar, apardığı beynəlxalq səviyyəli danışıqlar və görüşlər qəzetdə əhatəlili bir şəkildə təqdim olunmuşdur. Qəzetin dərc etdiyi məqalə və xəbərlərdə Heydər Əliyevin Azərbaycan

rəhbərliyinə tarixi qayıdışını zəruriləşdirən, bu gün də öz aktuallığını saxlayan fikirləri, oldüqca cəsarətli siyasi mövqeyi tədqiqatın araşdırma mövzusudur.

**Açar sözlər:** Heydər Əliyev, Naxçıvan, "Şərq qapısı".

### Ədəbiyyat

1. Cabbarlı Ə., Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan, 2015, 232s.
2. Həbibbəyli I., "Şərq qapısı" mənim həyatımda". "Şərq qapısı" q., 24 noyabr, 2001.
3. Qayıdış (1990-1993), Sənədlər toplusu, Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr, Bakı: Azərbaycan, 2008, 840s.
4. Möhsünov M., "Daha susa bilməzdim...". "Şərq qapısı" q., 26 iyul,1990.
5. Seyid S., Milli mətbuatımızda mötəbər bir ünvan – 90 yaşlı "Şərq qapısı, 525-ci q., 19 oktyabr, 2011.

## HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ DÖVRÜNDƏ SOSİAL RİFAH DÖVLƏTİN ƏSAS PRİORİTET SAHƏSİ KİMİ

**Xədicə Ələkbərova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: khadija.alakbarova@au.edu.az

XX əsrin 90-cı illərinin əvvəllərində iqtisadi, siyasi və sosial sahədə ciddi problemlərlə qarşılaşan Azərbaycan hazırda MDB məkanında ən sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilib. Bu, məhz dahi Heydər Əliyevin qurduğu inkişaf strategiyasının nəticəsidir.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə dönəndən sonra milli inkişaf strategiyasını müəyyənləşdirdi, 1996-2003-cü illər ərzində iqtisadiyyatın müxtəlif sahələrində müvəffəqiyyətlə islahatlar apardı. Sahibkarlığı, çoxmülkiyyətçiliyi dəstəkləyən bazar iqtisadiyyatına keçidi təmin edən qanunlar qəbul etdi, həmçinin məhz sosialyönümlü bazar iqtisadiyyatının Azərbaycan üçün prioritet olduğu müəyyənləşdirdi. "Sosial yönümlü bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsas prinsipi olmalıdır" deyə vurğulayan Heydər Əliyev Azərbaycan vətəndaşlarının rifahını təmin edən sosial dövlət modelinin qurucusu oldu.

İlk öncə ümumimilli liderimizin 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalanması ölkə iqtisadiyyatının tərəqqisinə təkan verməklə bərabər sosial strategiyaların da uğurla reallaşmasına imkan yaratdı. Bunun nəticəsində isə ölkənin büdcəsi ilbəil artmağa, büdcə kəsiri ehtimalı isə azalmağa başladı. 1993-2000-ci illərdə dövlət büdcəsinin bütün mənbələrdən gələn gəlirlərinin 85 dəfə artması təhsil, səhiyyə sahəsinə, həmçinin əhalinin aztəminatlı hissəsinə büdcədən ayrılan vəsaitin 172,9 dəfə artmasına gətirib çıxardı [4].

Ulu Öndərin qəbul etdiyi qərarlar sayəsində şəhid ailələri, əlillər, müharibə veteranları, qaçqın və məcburi köçkünlər, Çernobıl qəzasında zərər çəkmiş vətəndaşlar kimi sosial baxımdan həssas kateqoriyaların sosial müdafiəsinin gücləndirilməsi, həmçinin Milli Qəhrəmanların ailələrinə yardımlar edilməsi, minimal əmək haqqı məbləğinin yüksəldilməsi və s. kimi istiqamətlərdə ilk və əhəmiyyətli addımlar atıldı.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında yenidən qurulan sosial-iqtisadi münasibətlərə uyğun Əmək Məcəlləsi, Demoqrafik İnkişaf Konsepsiyası, əmək miqrasiyası, məşğulluq ilə bağlı qanunlar qəbul edili, həmçinin əlilliyin qarşısının alınması, reabilitasiyası üzrə ilk dövlət proqramları tərtib edildi, pensiya təminatı sistemi isə mütərəqqi beynəlxalq təcrübə əsasında qurularaq təkmilləşdirililmişdir.

Əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi də həmişə Ümumilli liderin diqqət mərkəzində olub. 1991-1995-ci illərdə inflyasıyanın səviyyəsi hər il 14-18 dəfə, yəni 1800 faiz artırdısa, 1996-2001-ci illərdə, beş il ərzində inflyasıyanın artım səviyyəsi cəmi 16 faiz olmuşdur. 1996-2001-ci illərdə işləyən vətəndaşların orta aylıq əməkhaqqı 4,3 dəfə, pensiyaların orta aylıq məbləği 4 dəfə artmışdır [6].

2003-cü il ildə "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" 854 nömrəli fərmanla təsdiq edilmişdir. Dövlət Proqramının icrasına başlandığı dövrdə ölkə üzrə yoxsulluq səviyyəsi 49 faiz qiymətləndirilirdi [3].

Dahi Heydər Əliyev ölkənin iqtisadiyyatının sürətli inkişafında, yeni iş yerlərinin açılması ilə vətəndaşların sosial rifahının yüksəldilməsində sahibkarların əvəzolunmaz rolunun olduğunu bilirdi və bununla bağlı vahid dövlət proqramının hazırlanmasına səy göstərmişdir. Bu proqaramın əsas hədəfi sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsindən, xüsusilə, regionlarda bu sahənin güclü inkişafına şərait yaratmaqdan ibarət olmuşdur.

Ulu Öndər kənd əhalisinin rifahı və sosial iqtisadi inkişafı üçün də uğurlu aqrar islahatlar aparmışdır. Ölkədə torpaq islahatlarının aparılması, torpağın xüsusi mülkiyyətçiyə - kəndliyə verilməsi, həmçinin 1999-cu illərdə bu sahədə fəaliyyət göstərən işçilərə kömək məqsədilə qanunlar qəbul olunması, torpaq vergisi xaric digər vergilərdən 5 il ərzində azad olunması, onların büdcəyə vergi borcunun ləgvi və yanacağın güzəştli şəkildə satılmasının kəndli fermer təsərrüfatının inkişafına gətirib çıxarmışdı.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar görülən bütün bu tədbirlər sosial sahənin inkişafının Heydər Əliyevin fəaliyyətində əsas hədəflərindən biri olduğunun göstəricisidir və onun təməlini qoyduğu sosial sahədəki islahatlar proqramı 2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Açar sözlər:** sosial rifah, sosial təminat, sosial islahatlar, sosial-iqtisadi münasibətlər, sosial strategiya

## Ədəbiyyat

1. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti, Bakım, 2002.
2. Hacızadə E., Sosiallaşan iqtisadiyyat, Bakı, 2006.

3. Rəcəbli H., Sosial siyasətin Heydər Əliyev modeli, Azərbaycan, 2010, 7 may, s.3.
4. Əliyev H., Müstəqil Azərbaycan dövlətinin inkişafının yeni mərhələsi, Bakı, 2004.
5. Hüseynova İ., Azərbaycan müasir dünyada:Demokratik inkişaf yolu və tarixi nailiyyətlər, Yeni Azərbaycan, 2015, 1 may, s.4.
6. Mehdiyev R., XXI əsrdə milli dövlətçilik, Bakı, 2003.
7. https://sosial.gov.az/2300

## AZƏRBAYCANIN TÜRK DÜNYASI ÖLKƏLƏRİ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Günay Əliyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
e-mail: gunay.aliyeva5@mail.ru

Ümummilli lider Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Türk dünyası ölkələri ilə iqtisadi münasibətlərinin inkişaf etdirilməsində tarixi fəaliyyət göstərmişdir. Onun fəaliyyəti nəticəsində Türk dövlətləri arasında iqtisadi münasibətlər yeni əsaslar üzərində qurulmuşdur. Böyük İpək yolunun bərpası, Baykal-Amur magistralının tikintisi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xətti layihəsi, Şərq-Qərb nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu Heydər Əliyevin Türk dünyasının birləşdirilməsi istiqamətində əvəzsiz xidmətləridir.

Heydər Əliyevin tarixi "İpək Yolu" layihəsinin həyata keçirilməsində əsas məqsəd Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasından ibarət idi. Bu isə Türk dünyası ölkələrinin sosial-iqtisadi problemlərinin həllinə və region dövlətləri ilə geniş inteqrasiya edilməsinə təkan verdi.

Ümummilli liderin yeni neft strategiyası Azəbaycanın mənafeyilə yanaşı Türk dünyası ölkələrinin maraqlarını nəzərə tuturdu. Belə ki, Heydər Əliyev "Bakı-Tbilisi-Ceyhan marşurutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimi"ndə çıxışı zamanı qeyd etmişdi: "Mərkəzi Asiyanın, Xəzəryanı ölkələrin-Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın ərazilərində də böyük neft və qaz yataqları vardır. Həmin yataqların gələcəkdə işlənilməsi, neftin və qazın dünya bazarlarına çıxarılması üçün yollar araşdırılır. Bunlar hamısı 1994-cü ildə bizim nəzərdə tutduğumuz Bakı-Ceyhan böyük əsas neft kəmərinin çəkilməsini bügün daha da reallaşdırır. Məlumdur ki, Qazaxıstanın "Tengiz" yatağında zəngin neft və qaz ehtiyatları vardır. Oradan hasil edilən neftin bir hissəsi artıq Qazaxıstan, Azərbaycan, Gürcüstan respublikalarının ərazilərindən Xəzər dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Məlumat verirəm ki, bu yolla artıq 2 milyon 500 min ton Qazaxıstan nefti daşınıbdır" [3, s.58].

Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin hüquqi bazası olan "Türkiyə ilə Azərbaycan ticarət və iqtisadi əməkdaşlıq haqqında" Saziş 1992-ci ildə, "Türkiyə ilə Azərbaycan

arasında investisiyaların təşviqi və qorunması haqqında" Saziş 1994-cü ildə, "Türkiyə ilə Azərbaycan arasında ikiqat vergitutmanın qarşısının alınması haqqında" Saziş 1997-ci ildə, "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında" Saziş isə 2001-ci ildə imzalandı. Azərbaycanla Qırğızıstan arasında investisayaların təşviqi və qarşılıqlı qorunması haqqında, ticarət iqtisadi əməkdaşlığa dair Saziş 1997-ci ildə imzalandı.

1994-cü ildə sentyabrın 20-də "Əsrin müqaviləsi" bağlandıqdan sonra Azərbaycanın xarici ticarət dövriyyəsi 1993-cü illə müqayisədə 2000-ci ildə 2,2 dəfə, 2002-ci ildə 2,8 dəfə, 2003-cü ildə isə 3,9 dəfə artmışdır. 2003-cü ildə Azərbaycanın Türkiyə ilə xarici ticarət dövriyyəsinin həcmi 302,16 milyon dollar, Türkmənistanla 194,18 milyon dollar, Qazaxıstanla 148,84 milyon dollar, Tacikistanla 35,42 milyon dollar, Özbəkistanla 3,53 milyon dollar, Qırğızıstanla 0,96 milyon dollar təşkil etmişdir [1, s.672].

1993-ci illə müqayisədə 2003-cü ildə idxal əməliyyatlarının həcmi Türkiyə ilə 131,4 milyon dollar və ya 3 dəfə, Qazaxıstanla 103,6 milyon dollar və ya 3,9 dəfə, Türkmənistanla 133,7 milyon dollar və ya 3,4 dəfə ,Tacikistanla 0,9 milyon dollar və ya 11,7 dəfə, Özbəkistanla 0,71 milyon dollar və ya 1,5 dəfə, Qırğızıstanla 0,14 milyon dollar və ya 1,2 dəfə artmışdır.

2003-cü ildə Azərbaycana Türkiyədən 1520,00 ton quş əti, 114,5 ton düyü, 140,8 ton bitki yağları, 38534,3 ton kartof, Qazaxıstandan 630,00 min ton buğda, 1188,00 ton buğda unu, Türkmənistandan 3360,8 milyon kub metr təbii qaz, Özbəkistandan 277,1 min kvadrat metr pambıq parçalar və digər məhsullar idxal olunmuşdur. 2003-cü ildə Azərbaycandan Türkiyəyə 4,6 min ton ağ neft, 237,6 min ton dizel yanacağı, 95327,5 ton şəkər çuğunduru, Qazaxıstana 5,2 min ton ağ neft, 98,00 ton balıq, Tacikistana 397,00 ton sürtkü yağları, Özbəkistana 720,00 ton polietilen və digər məhsullar ixrac olunmuşdur.

İqtisadiyyata yönəldilən xarici investisiyalar sahəsində Türkiyə Azərbaycanın əsas tərəfdaşlarından biridir. 1995-2003-cü illər ərzində Türkiyə şirkətləri tərəfindən Azərbaycan iqtisadiyyatına 204,00 milyon dollar investisiya qoyulmuşdur [2, s.120].

Əsası Ümummmilli lider Heydər Əliyev tərəfindən qoyulan Türk dünyasının qaşılıqlı əlaqələri və yüksəlişi strategiyası bugün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Türk dünyası ilə əlaqələrin möhkəmləndirilimәsi cənab Prezidentin xarici siyasətinin başlıca istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə Görüşündə çıxışı zamanı qeyd etmişdi: "Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacaq".

Son illər Türk dünyası ölkələrinin əməkdaşlığının sürətləndirilməsi istiqamətində addımlar atılır. 3 oktyabr 2009-cu ildə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan dövlətləri arasında yaradılan Türk Dövlətləri Təşkilatının əsas hədəflərindən biri Türk dövlətləri arasında ticarət əlaqələri və investisiyalar üçün əlverişli şərait yaratmaqdır. 12 noyabr 2021-ci ildə "Türk dünyasına baxış-2040" konsepsiyası qəbul olunub ki, bu da Türk dünyası dövlətlərinin gələcək hədəflərini müəyyən edir. Türk İnvestisiya Fondunun yaranması isə təşkilata üzv ölkələr arasında iqtisadi

əməkdaşlığın gücləndirilməsində, ticarət dövriyyəsinin və investisiyaların həcminin artırılmasında mühüm rol oynayacaq.

Apardığımız tədqiqatlardan belə nəticəyə gəlirik ki, Türk dünyası ölkələri Azərbaycanın iqtisadi sferada əsas tərəfdaşlarından biridir. Ümid edirik ki, gələcəkdə aparılan islahatlar nəticəsində iqtisadi əməkdaşlığımız daha da güclənəcək.

**Açar sözlər**: Azərbaycan, türk dünyası, dövlət, iqtisadi əlaqələr.

### Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri, Bakı: Səda, 2004, 748s.
2. Azərbaycan rəqəmlərdə, Bakı: Səda, 2005, 249s.
3. Mehdiyev R., Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, Bakı: Azərnəşr, 2006, 552s.


## TƏMƏLI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN QOYULAN AZƏRBAYCAN- ÖZBƏKİSTAN ƏLAQƏLƏRİ


**Təhminə Əliyeva**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, Quba, Azərbaycan

e-mail: tehmine.eliyeva@quba.adpu.edu.az


Azərbaycan Respublikası və Özbəkistan Respublikası müvafiq olaraq Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında yerləşən iki qonşu dövlətdir. Son bir neçə onillikdə hər iki xalq arasında güclü diplomatik və ticarət əlaqələri qurulmuşdur ki, bu da ölkələr arasında müsbət münasibətlərin inkişafına kömək etmişdir. Azərbaycan ilə Özbəkistan xalqı arasında qədim tarixi bağlılıq və formalaşmış əlaqələr mövcuddur. 1991-c ildə SSRİ-nin dağılması ərəfəsində yaranan müstəqillik əldə edən türk dövlətlərindən biri də Özbəkistan respublikası idi. Azərbaycan 1991-ci ilin 18 oktyabrında, Özbəkistan isə 1 sentyabr tarixində öz müstəqilliyini elan etdi. Azərbaycan ilə Özbəkistan Respublikalarının tarixində kifayət qədər oxşar məqamlar vardır. 1918-ci ildə Azərbaycanda bolşevik-daşnak qruplaşmalarının törətdiyi soyqırım zamanı 1918-ci ilin fevral ayında bolşeviklərin dəstəyi ilə Daşnaksütyun Partiyasının hərbi qanadı tərəfindən Kokand vilayətində özbəklərə qarşı soyqırım törədilmişdir. Təkcə 3 gün ərzində Kokand şəhərində 10 minə yaxın dinc sakin qətlə yetirilmişdir. Ümumilikdə həmin hadisələr zamanı 35 minə yaxın özbək öldürülmüşdür. Ermənilər bu qırğınların törədilməsində xüsusi fəallıq göstərmişdilər. Bundan başqa 1988-1990-cı illərdə Azərbaycanda milli azadlıq hərəkatının genişləndiyi vaxt Sumqayıt hadisələri, Qanlı yanvar hadisəsi törədilən zaman Xəzər dənizinin o tayında Özbəkistanın Fərqanə vilayətində məhsəti türklərinin təşkilatlanmaları və öz milli hüquqlarını tələb etmələri zamanı Sovet Rusiyasının təxribatı nəticəsində 1990-cı ildə Qırğızıstanın Oş vilayətində qırğızlarla özbəklər arasında qanlı toqquşma olmuşdur. XX əsrin 30-cu illərində Azərbaycanda baş verən represiyalar zamanı sürgün olunan əhalinin böyük hissəsi Özbəkistana

köçürülmüş, bu köçürülmə nəticəsində Özbəkistanda yaşayan azərbaycanlıların sayı 40 mini keçmişdir.

Azərbaycanla Özbəkistan müstəqilliklərini əldə etdikdən sonra ikitərəfli əlaqələri inkişaf etdirmək üçün əhəmiyyətli səylər göstərmişdir.

İlk olaraq iki dövlət arasında 1992-ci il üçün iqtisadi-ticari əməkdaşlığın prinsiplərinə dair saziş imzalanmışdı. İlkin ilk addımların uğurlu keçməsinə baxmayaraq, 1992-1993-cü illərdə daxili siyasi məsələlər ucbatından dövlətlərarası münasibətlərdə anlaşılmazlıq yaşanmışdı. Həmin dövrdə Azərbaycan daxilində separatizm meyllərinin çoxalması, siyasi hakimiyyət uğrunda gedən çəkişmələr tək daxili siyasətin zəifləməsinə deyil, xarici siyasətin də zəifləməsinə səbəb olan amillərdən olmuşdur. Azərbaycanın o zamankı rəsmilərinin Özbəkistanda baş verən daxili ictimai-siyasi proseslərə münasibət bildirməsi bu ölkənin hakimiyyəti tərəfindən yaxşı qarşılanmamış və bu, ikitərəfli münasibətlərə müəyyən soyuqluq gətirmişdi. Azərbaycan rəsmilərinin Özbəkistanda hakimiyyətdə kominstlərin başçılığını əsas gətirərək Bakı–Daşkənd hava yolunun bağlanmasına səbəb olacaq addım atmışdılar. Lakin belə vəziyyət tərəflərin heç birinin maraqlarına cavab vermədiyindən tezliklə münasibətlərin müsbət axara düşməsi istiqamətində cəhdlərə başlanılmışdı. Xüsusən də Heydər Əliyevin Prezident seçilməsi ilə ikitərəfli münasibətlərin inkişafına yeni təkan verildi. 1993-1995-ci illərdə MDB-yə üzv dövlətlərin dövlət və hökumət başçılarının görüşləri və bir sıra digər beynəlxalq tədbirlər çərçivəsində Heydər Əliyev və özbəkistanlı həmkarı İslam Kərimov arasında görüşlər keçirildi [1, s. 286]. 1995-ci il 2 oktyabr tarixində Azərbaycan və Özbəkistan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanıb və bu müqavilə onların münasibətlərinin əsasını təşkil edib. Bu müqavilə qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq və müxtəlif sahələrdə, o cümlədən ticarət, mədəniyyət və təhlükəsizlik sahələrində əməkdaşlıq prinsiplərini əks etdirir. 1996-cı ildə Özbəkistanda Azərbaycan səfirliyi, 1998-ci ildə isə Azərbaycanda Özbəkistan səfirliyi fəaliyyətə başlamışdır. Son illər Azərbaycan Özbəkistan Respublikalarının arasında diplomatik əlaqələr sürətlə inkişaf etməkdədir. Ermənistan-Azərbaycan arasında baş verən münaqişələrdə də Özbəkistan Respublikası Azərbaycanın haqqlı mövqeyi tərəfindədir. Ermənistan Respublikası ilə Özbəkistan Respublikası arasında isə diplomatik əlaqə yox səviyyəsindədir. Hal-hazırda Ermənistanda Özbəkistan səfirliyi, Özbəkistanda Ermənistan səfirliyi fəaliyyət göstərmir.

İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycana 26-27 may 1996-cı il tarixində ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır. Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər ərzində iki ölkə arasında 19 sazişdən ibarət xüsusi sənəd paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb [9]. Səfər çərçivəsində Özbəkistan Prezidenti İslam Kərimova Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim olunub.

21-22 oktyabr 1996-cı il tarixində Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Dövlətlər Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub. Səfər çərçivəsində Heydər Əliyev dövlət başçılarının Forumunda çıxış edərkən türkdilli dövlət başçılarının müntəzəm görüşləri bu ölkələr

arasında əməkdaşlığın inkişafına, mədəni və mənəvi əlaqələrin genişlənməsinə, onların müstəqilliyinin möhkəmləndirilməsinə kömək edəcəyini bildirmişdi. Hətta dövlət başçılarının birgə mətbuat konfransında da iştirak edən Heydər Əliyev Özbəkistan Televiziyası müxbirinin suallarını cavablandırmışdır [7].

Azərbaycan ilə Özbəkistan arasında mədəni əlaqələr də 1996-cı ildən başlayaraq daha güclü hal almağa başlamışdır. İki ölkə zəngin mədəni irsi bölüşür və eyni tarixi hadisələrin, o cümlədən İslamın yayılması və Sovet İttifaqı hakimiyyətinin təsiri altında olub. Ənənəvi hal alan bu mədəni əlaqələr davam edir, Azərbaycan və Özbəkistan bir sıra mədəni mübadilə proqramları, o cümlədən incəsənət sərgilərinin mübadiləsi, ənənəvi musiqi və rəqs qruplarının çıxışları və mədəniyyət nümayəndə heyətlərinin mübadiləsi üzrə də əməkdaşlıq etməkdədir.

18-19 iyun 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Özbəkistana rəsmi səfəri baş tutmuşdur [8]. Bu səfər iki ölkə arasında münasibətlərin inkişaf edici mərhələsinə qədəm qoyması ilə səciyyələnir. Bakıdakı kimi, Daşkənddə də mühüm sahələr üzrə 19 sənəd imzalanıb. Bu sənədlər Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə xüsusi önəm daşıyırdı. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün güclü fundamental müqavilə-hüquqi əsas yaradıb. Sənədlərin imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev qeyd edib: "Biz Azərbaycanda Özbəkistanla etibarlı tərəfdaşlıq münasibətlərinə malik olmaq istəyirik və hər şey edəcəyik ki, bu münasibətlər olsun, onlar inkişaf edib möhkəmlənsin". Özbəkistan Prezidenti isə bildirib ki, iki ölkə arasındakı münasibətlər məhz strateji əməkdaşlıq səciyyəli olacaqdır. İki ölkə prezidentinin görüşündə eləcə də tərəfləri maraqlandıran məsələlər müzakirə olunub, birgə əməkdaşlığın müxtəlif cəhətlərinə dair fikir mübadiləsi aparılıb. 19 iyun 1997-ci il tarixdə Azərbaycan Prezidentinə Daşkənd Universitetinin fəxri doktoru diplomu təqdim olunub.

Azərbaycan ilə Özbəkistan arasında ticarət əlaqələri son illər davamlı olaraq inkişaf edir. Azərbaycan Özbəkistana neft məhsullarının əsas ixracatçısıdır, Özbəkistan isə Azərbaycana müxtəlif kənd təsərrüfatı məhsulları, məsələn, meyvə-tərəvəz verir. Bundan əlavə, iki ölkə arasında ikitərəfli ticarət və investisiyaların təşviqinə yönəlmiş bir sıra sazişlər, o cümlədən kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Azərbaycan və Özbəkistan həm ikitərəfli, həm də regional təşkilatlar çərçivəsində təhlükəsizlik sahəsində də əməkdaşlıq edir. Onların hər ikisi terrorizm, ekstremizm və separatizmlə mübarizəyə yönəlmiş təhlükəsizlik alyansı olan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) üzvləridir. Bundan əlavə, Azərbaycan və Özbəkistan birgə hərbi təlimlərdə iştirak edib və narkotiklərin qanunsuz dövriyyəsi və mütəşəkkil cinayətkarlıq kimi transmilli təhlükələrə qarşı mübarizədə səylərini əlaqələndiriblər. Ümumiyyətlə, NATO, İKT, MDB, GUAM sammitlərində Azərbaycan və Özbəkistan prezidentlərinin görüşləri iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinə səbəb olub.

Ümummilli lider Heydər əliyev tərəfindən təməli qoyulan iki tərəfli əlaqələr son onillikdə güclü diplomatik, ticarət, mədəni və təhlükəsizlik sahələri üzrə inkişaf etmişdir. Bu müsbət münasibətlər regional sabitliyin möhkəmlənməsinə və iki ölkə arasında əməkdaşlığın inkişafına kömək edib. Azərbaycan və Özbəkistan birgə fəaliyyətini davam etdirdikcə, çox güman ki, onların ikitərəfli əlaqələri gələcəkdə də inkişaf edəcək və möhkəmlənəcək.

**Açar sözlər:** Azərbaycan, Özbəkistan, tərəfdaşlıq, müqavilə, siyasi əlaqələr.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) məqalələr toplusu. Bakı: “Poliart” MMC, 2017, 904 s.
2. “Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında” Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 21.05.2005 - http://www.e-qanun.az/framework/6124.
3. Azərbaycan-Özbəkistan münasibətləri. “Heydər Əliyev İrsi” Beynəlxalq Elektron Kitabxana. 15.02.2010 - http://lib.aliyev-heritage.org/az/9379476.html.
4. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I və II hissə. Bakı: Mütərcim, 2015.
5. Müstəqillik illərində Azərbaycan Respublikası ilə Özbəkistan arasında münasibətlər. “Tarix və onun problemləri”, №4, 2010, 130 səj.
6. https://525.az/news/200223-turanin-qardas-dovletleri-azerbaycan-ve-ozbekistan--aygun-yasar-yazir.
7. http://azculture.uz/bizim-dostlug.php?link=iki-qardas-olke.
8. Azərbaycan və Özbəkistan: dostluğumuz və qardaşlığışımız əbədidir. "Azərbaycan" qəz, 1997, l9 iyun, M l25 ( l646).
9. Hüseynova R. Heydər Əliyev və Azərbaycan Özbəkistan münasibətləri (1993-2003). Tarix və onun problemləri. No: 32014, səh.158-164.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏNƏVİ MİRASININ TÜRKİYƏ VƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDA QORUNMASI VƏ TƏBLİĞİ

**Yeganə Əliyeva**
AMEA, Memarlıq və İncəsənət İnstitutu, Bakı, Azərbaycan,
e-mail: eqana-aliyeva@yandex.ru

29 sentyabr 2022-ci il tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı elma adamlarına, ziyalı və intellektuallara Ulu Öndərin fəaliyyətinin, onun Azərbaycan xalqına miras qoyduğu mənəvi irsinin öyrənilməsinə, zəngin fikir-ideya xəzinəsinin əhatəli araşdırılmasına və təbliğinə yeni motivasiya impulsudur. Belə ki, 2023-cü ildə bəşəriyyətin tarix yaratmağa qadir şəxsiyyəti,

müstəqil Azərbaycan dövlətinin gurucusu, Türk dünyasının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev yalnız Azərbaycan xalqının sevimli lideri olmamışdır, o həmçinin bütün Türk dünyasında tanınan və sevilən dövlət xadimi olmuşdur. Türkiyə-Azərbaycan dostluq əlaqələrini əks etdirən "Bir millət, iki dövlət" ifadəsi də məhz Heydər Əliyevə məxsusdur. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdir: "*Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur. Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən liderdir*".

Ümummilli lider Heydər Əliyev Türk dünyası ölkələrinin inteqrasiyasının tərəfdarı olmuşdur. O, 1994-cü ildə Türk Xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına təbrikində qeyd etmişdir: "*Özünün yeni yüksəliş dövürünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır*" [10].

Bu gün Azərbaycanın türk dünyası dövlətlərilə əməkdaşlığı və dostluq münasibətləri xalqlarımızın tarixi köklərinin, əsrlər boyu toplanmış adət-ənələrinin birliyi, dil birliyi əsasında qurulub. Azərbaycanın Türkiyə, Qazaxstan, Qırğızıstan, Özbəkistan, Türkmənistanla tarixi ənənələri, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur.

29 iyun 1999-cu ildə Türk Dövlətləri və Topluqlarının VII Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayına müraciətində Heydər Əliyev vurğulamışdır: "*Bu gün – iyirminci yüzilliyin sonlarında xalqımızın tarixi haqqına qovuşaraq müstəqillik əldə etmişdir. Hər birimizin qəlbini sonsuz qürur duyğuları ilə döyündürən milli dövlətçilik atributlarımızı, türklüyün zəngin maddi və mənəvi dünyasını nümayiş etdirən tarixi abidələrimizi, ümumbəşəri dəyərlərimizi maneəsiz inkişaf etdirmək üçün hər cür şərait yaranmışdır. Bu böyük nailiyyətləri qoruyub saxlamaq dövlət müstəqilliyimizi daha da möhkəmləndirmək, ölkələrimiz və xalqlarımız arasında suverenlik, qarşılıqlı etimad və qardaşlıq prinsiplərinə əsaslanan hərtərəfli əlaqələrə nail olmaq hər birimizin gələcək nəsillər qarşısında müqəddəs borcumuzdur*" [3].

Bu gün isə nəyinki Azərbaycan, bütün türk dünyasının dahi şəxsiyyət Heydər Əliyev ideyalarındakı müdriklik irsini qoruyub-saxlamaq ümdə vəzifələrindən biridir.

Heydər Əliyev fenomeni Türkiyənin yalnız siyasət adamlarının deyil, o cümlədən də elm, təhsil və mədəniyyət xadimlərinin də daim diqqətindədir. Belə ki, 2019-cu ildə Heydər Əliyev Mərkəzində türkiyəli tarixçi, professor İlber Ortaylı "Qafqaz tarixi" mövzusunda mühazirədə Ulu öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətlərinin möhkəmləndirilməsində xüsusi xidmətlərini vurğulamışdır: "*Azərbaycan və Türkiyə də bir-birinə yaxın iki Türk dövlətidir. Heydər Əliyev münasibətlərimizi çox gözəl müəyyən etmişdir. Bir millət, iki dövlət. Biz bir mədəniyyətin parçasıyıq. Bu mədəniyyətin çox rəngləri var. Zəngin tarixi keçmişə sahibik. Türklər dövlətsiz yaşamaz. Dövləti əl üstə tutmaq lazımdır*" [8].

Türkiyə Cumhuriyyətilə Azərbaycanın dostluq və qardaşlıq rəmzlərindən biri 2012-ci ilin dekabr ayında Ümummilli lider Heydər Əliyevin vəfatının 9-cu ildənömü münasibətilə təşkil

olunan silsilə tədbirlər çərçivəsində Türkiyənin paytaxt şəhəri Ankarada Yeniməhəllə rayonunda Heydər Əliyev Parkının və Heydər Əliyev adına orta məktəbin [5] açılışı qardaşlıq rəmzi kimi qiymətləndirilə bilər. Bundan başqa, 2006-ci ildə Heydər Əliyevin abidəsinin İstanbulun Sarıyer rayonunda [11], 2011-ci ildə Türkiyənin Tarsus şəhərində [9], Qars şəhərində [6] açılışı və Heydər Parklarının salınmasını misal çəkmək olar.

Türk dünyasının Heydər Əliyevin irsinin və müdriklik mirasının yaşadılamasına xidmət edən xoşməramlı addımlarından biri də Qazaxstanda L.N. Qumilyov adına Avroasiya Milli Universitetində Heydər Əliyev muzey-kabinetinin fəaliyyətində təzahürünü tapır.

Heydər Əliyevin nadir şəxsiyyətinə nadir ehtiramın digər nümunəsi 2022-ci ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Heydər Əliyev Meydanında Ulu öndərin xatirəsini əbədiləşdirən böyük memorial kompleksin ucaldılmasıdır [2].

Beynəlxalq miqyaslı tarixi şəxsiyyət Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Türk dünyasının gələcəyinə inamı ona Qırğızıstanda da hörmət qazandırmışdır. Heydər Əliyevin təhsilə və elmə ifadə etdiyi önəmi qırğız xalqı bir nəsihət kimi qəbul edərək gənc nəslin tərbiyəsini daim diqqət mərkəzində saxlayır. Belə ki, 12 oktyabr 2022-ci il tarixində Qırğızıstanın paytaxtı Bişkekdə açılan 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinə Heydər Əliyevin adı verilmişdir [4].

Azərbaycan-Türkmənistan münasibətləri, o cümlədən mədəni əlaqələri [7] yeni inkişaf mərhələsini yaşayır. Bu gün türk xalqlarının birləşməyə tələbatı vardır. Bu birləşmənin əsas arqument və faktorlarından biri Heydər Əliyev amilidir. Türkmən xalqı Azərbaycanın Ümummilli lideri Heydər Əliyevə verdiyi böyük dəyərin təzahüri kimi 2010-cu ildə anadan olmasının 87-ci ildönümü ilə bağlı Türkmənistanın paytaxtı Aşqabadda "Görkəmli adamların həyatı" seriyasından olan "Heydər Əliyev" kitabının türkmən dilinə tərcümə edərək nəfis tərtibatda dərc edilməsini göstərmək olar [1].

Tədqiqatdan alınan qənaətə görə, Ümummilli lider Heydər Əliyevin Türk dünyasının birliyi barədə fikir xəzinəsi Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri tərəfindən böyük hörmət və ehtiram hissi ilə yaşadılır. Ulu öndərin ideoloji, mənəvi mirasının qorunması və təbliği müxtəlif elm, təhsil və mədəni layihələr çərçivəsində həyata keçirilir.

**Açar sözlər:** Ulu öndər, Azərbaycan, Heydər Əliyev, mənəvi irsi, Türk dünyası.

## Ədəbiyyat


1. Azərbaycan-Türkmənistan mədəni əlaqələri yeni mərhələyə qədəm qoyur. https://www.azerbaijan-news.az/view-128016/Az%C9%99rbayca
2. İlber Ortaylı Baküde, Azeri kullanımı doğru değil. https://www.qha.com.
3. İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Heydər Əliyev Meydanının açılış mərasimində iştirak ediblər. https://president.az/
4. Istanbulun Sariyer rayonunda Ümummilli lider Heydər Əliyevin abidəsinin açilişi. https://azertag.az/xeber
5. Həmzəoğlu K., Görkəmli adamların həyatı: Heydər Əliyev kitabı türkmən dilində, 525-ci qəzet, 2010, 15 may, s.8. http://anl.az/down/meqale/525

6. Sadır Japarov: Qırğızıstanda Heydər Əliyevin adına məktəbin açılması əlamətdar hadisədir. https://report.az/xarici-siyaset/prezident-sadir-japarov
7. Tarsusda Ulu Öndər Heydər Əliyevin heykəli ucaldılmışdır. http://khatai-ih.gov.az
8. Türk Dövlətləri və Topluluqlarının VII Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayına, Bakı, 29 iyun, 1999. https://lib.aliyevheritage.org/az/9998406.html
9. Türkiyədə Heydər Əliyevin adını daşıyan park və orta məktəbin açılışı olub. https://sia.az/az/news/social/325386.html
10. Türkiyənin Qars şəhərində ulu öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib. https://azertag.az/xeber/Turkiyenin_Qars_seherinde_ulu_onder_
11. Türk Xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına təbrik, 20, oktyabr, 1994. https://lib.aliyevheritage.org/az/3655705.html

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI

**Vəfa Əzizova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Ölkə miqyasının əsas və aparıcı qüvvəsi kimi iri müəssisələr qəbul edilsə də, müasir statistika milli iqtisadiyyatın əhəmiyyətli hissəsinin kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin payına düşdüyünü göstərir.

Müstəqil Azərbaycanın memarı olan ulu öndər azad sahibkarlığın inkişafına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmişdir. Ümumimilli liderimiz Heydər Əliyev öz çıxışlarının birində deyirdi: "Sahibkarlığın səmərəli işləməsi Azərbayanın iqtisadi inkişaını təmin edən amildir. Ona görə də biz sahibkarlığın inkişaına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq."

Sahibkarlığın inkişafı istiqamətində 1993-1995-ci illəri və 1997-2000-ci illəri əhatə edən iki dövlət proqramının qəbul edilməsinin xüsusi rolu olmuş, kiçik və orta sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet sahələrindən birinə çevrilmişdir. Bu proqramlar çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət maliyyə köməyi sistemi təşkil edilmişdir [1].

Qeyd etmək lazımdır ki, Ümmimilli lider ölkənin inkişafında özəl sektorun və sahibkarlığın önəmini yüksək qiymətləndirdiyi üçün iş adamlarının qarşılaşdıqları problemləri bilavasitə onların özlərindən öyrənməyə üstünlük verirdi. Dövlət başçısı ilə birbaşa təmas sahibkarı əmin etdi ki, Prezident onlara dəstək verməklə sahib durur. Sahibkarlığın inkişafına əsaslı təməlin qoylması sayəsində son 20 ildə respublikamızda güclü sahibkarlıq ordusu formalaşıb. Yerli şirkətlərimiz həm kənd təsərrüfatında, həm də sənayedə müxtəlif layihələrə iri həcmlərdə investisiyalar qoyaraq, və

ölkə üzrə ÜDM formalaşmasına özlərinin sanballı töhfələrini verirlər. Hazırda Azərbaycanda ÜDM istehsalında özəl bölmənin xüsusi çəkisi 80 faizədək artıb və bu kifayət qədər yaxşı göstəricidir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişaında TİKA nın (Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı) ölkəmizdə TİKA Bakı Koordinasiya Ofisiniin yaradılmasında H.Əliyevin rolu danılmzadır. 1994-cü ildə texniki infrastrukturda çatışmazlıqlarının aradan qaldırılması məqsədilə Azərbaycanın müstəqillik əldə etməsindən dərhal sonra bu gənc ölkənin ictimai quruluşunu gücləndirmək, öz kimliyini sağlam şəkildə qurmaq, mədəni və siyasi hüquqların inkişafına dəstək vermək üçün TİKA Bakı Koordinasiya Ofisini yaradıb.

Həmin tarixdən indiyə qədər 29 ildə ümumilikdə 6000-ə yaxın azərbaycanlı təlim və təcrübə proqramlarından yararlanıb. Azərbaycan iqtisadiyyatının inkişafına dəstək məqsədilə 500-dən artıq layihə həyata keçirilib. Qeyri-neft sektorlarının inkişafının dəstəklənməsi məqsədilə kənd təsərrüfatı sahəsində arıçılıq, südçülük və taxıl istehsalı layihələri, sənaye sahəsində texnoparkların, sənaye zonalarının və sənaye məhəllələrinin yaradılmasına dəstək layihələri həyata keçirib [2].

Heydər Əlievin qoyduğu möhkəm təməlin və doğru siyasətin nəticəsi kimi son illərdə, ölkəmizdə sahibkarlığın inkişafının yeni təşkilati-iqtisadi modellərinin, o cümlədən xüsusi iqtisadi zonaların, sənaye parklarının, sənaye məhəllələrin və aqroparkların yaradılmasına böyük önəm verilməkdədir. Sahibkarlıq subyektlərinə vergi yükünün azaldılması mexanizmlərinin işləkliyi və sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi ölkədə özəl sektorun inkişafını xeyli intensivləşdirmişdir [3].

Bundan başqa ölkədə sahibkarlıq mühitinin daha da optimallaşdırılmasında, kiçik və orta biznesin tənzimlənməsi sisteminin səmərəliliyinin artırılmasında, çoxsaylı dəstək mexanizmləri və onlara sahibkarların rahat çıxışının təmin edilməsində, KOB sektorunun davamlı inkişafına nail olmaq və onun ölkə iqtisadiyyatındakı rolunun artırılmasında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və onun KOB evləri unikal platformadır [3]. Respublikamızda sahibkarlara dəstək mexanizmləri də getdikcə təkmilləşdirilir və bu zaman daha çevik, sahibkara daha əlçatan olan strukturların formalaşdırılmasına üstünlük verilir [5].

Ölkəmiz 2030-cu ilədək olan dövrü əhatə edən yeni strateji mərhələyə daxil olub. Bu mərhələdə respublikamızda kiçik və orta biznesin daha dinamik inkişafı hədəflənib. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli müvafiq Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi təsdiqlənib. Sənədə əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılması hədəflənib. Burada, həmçinin özəl sektorun perspektiv inkişafını özündə ehtiva edən bir sıra müddəalar öz əksini tapıb. Məsələn, son vaxtlarda güzəştli kreditlərin əldə edilməsi və digər maliyyə dəstəyi mexanizmlərindən istifadə ilə bağlı prosedurlar sadələşdirilib. Belə ki, sənədlər üzrə tələblər azaldılıb, 200 min manatadək kredit müraciətləri üzrə biznes plan tələbi ləğv edilib, ilkin monitorinqin keçirilməsi tələbi 20 min manatdan 50 min manata qaldırılıb. Kredit almaq üçün tələb olunan sənədlərin sayının azaldılması barədə də qərar qəbul edilib. Digər mühüm dəyişiklik sənədlərin notarial təsdiqinin aradan qaldırılması ilə bağlıdır [6].

Qeyd edək ki, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması tədbirləri, ümumilikə sahibkarlıq mexanizmlərinin ildən ilə təkmilləşdirilməsinə,

məhsuldarlığın artırılmasına, ölkə iqtisadiyyatının yeni artım mənbələrinin formalaşdırılmasına imkan vermişdir və nəticədə iqtisadiyyatda əlavə dəyərin həcminin artırılmasında kiçik və orta sahibkarlıq subyektlərinin roluna strateji önəm verilməkdədir. Belə ki, ümumilikdə ölkəmizdə 2023-ci ilin əvvəlinə sahibkarlıq subyektlərinin sayı 165,4 min təşkil etmiş (fərdi sahibkarlar istisana olmaqa), bunun 8,3 mini, yaxud 5 %-i kiçik sahibkarlıq subyektlərindən ibarət olmuşdur. Eyni zamanda ilin əvvəlinə fərdi sahibkarların sayı 1,2 milyon olmuşdr. 2021-ci ilin yekununda sahibkarlıq subyektlərinin əsas kapitala yönəltdikləri investisiyaların ümumi həcmi 3 mlrd. manata yaxın olmuş, bunun 3,8 milyonu kiçik sahibkarlıq subyektləri və 1,3 milyarddan çoxu isə orta sahibkarlıq subyektləri tərəfindən yönəldilmişdir.

**Açar sözlər:** kiçik və orta sahibkarlıq, biznes mühiti, sahibkarlığın inkişaf problemləri, investisiya, sahibkarlığın inkişafının strateji əhəmiyyəti, biznes mühitinin yaxşılaşdırılması perspektivləri.

## Ədəbiyyat

1. https://yeniazerbaycan.com/Iqtisadiyyat_e28408_az.html
2. https://www.tika.gov.tr/tr/haber/tika_azerbaycan_da_1200_den_fazla_projeyi_hayata_gecirdi-65051
3. Prezident İlham Əliyev: Dövlət tərəfindən sahibkarlara böyük mənəvi dəstək göstərilir, http://www.gununxeberi.az.
4. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 26 iyun 2018.
5. https://www.smb.gov.az/az/nav/kob-evleri
6. Prezident İlham Əliyev: Dövlət tərəfindən sahibkarlara böyük mənəvi dəstək göstərilir, http://www.gununxeberi.az.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN STRATEJİ İNKİŞAF XƏTTİ

**İsmayıl Faxtiyev**
İsmayıllı Rayon İcra Hakimiyyəti, İsmayıllı, Azərbaycan
e-mail ismayilfaxtiyev@gmail.com

Azərbaycan dövlət müstəqilliyinə qovuşduğu ilk illərdən başlayaraq türk dövlətləri ilə bütün sahələrdə çoxtərəfli əlaqələr qurmağa üstünlük verməsi və yaxınlaşma prosesi dünyada, xüsusən də, Avropada gedən inteqrasiya prosesi ilə üst-üstə düşürdü. Amma keçilən yol göstərir ki, hətta halhazıra kimi bir çox dünya dövlətlərinin türk dünyasında baş verən proseslərə münasibətləri birmənalı olmamışdı. Belə ki, Azərbaycanın bütün tellərlə bağlı olduğu türk dövlətləri ilə və xüsusən Türkiyə ilə hər hansı formada yaxınlaşmaq istəyinə qarşı məntiqə uyğun gəlməyən mənalar

verildi. Ancaq nədənsə başqa xalqlar üçün təbii sayılan əlaqələr, eyni kökdən olan Azərbaycan və Türkiyə üçün arzuolunmaz hesab edilirdi. Amma bunlara baxmayaraq, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra onu 1991-ci il noyabrın 9-da ilk tanıyan dövlət Türkiyə oldu. Türkiyə və Azərbaycan arasında diplomatik əlaqələr 14 yanvar 1992-ci ildə quruldu. Həmin ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik nümayəndəliyi fəaliyyətə başlamışdı [2].

Diplomatik münasibətlərin yaradılması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafına geniş perspektivlər açmışdı. Həmin vaxtan etibarən iki qardaş ölkə arasında siyasi və iqtisadi əlaqələr sürətlə inkişaf etməyə başlamışdı. Bu əlaqələr bu gün də yüksələn xətlə inkişaf etməkdədir. Ulu öndər Heydər Əliyevin dönə-dönə vurğuladığı kimi, "heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə–Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır... Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq" [1].

Qeyd etməliyik ki, Azərbaycan xalqı 1990-cı və 1991-ci illərinin əvvəlində məşəqqətlərlə, ədalətsizliklərlə və haqsızlıqlarla üzləşdi. 1993-cü ilin yazına doğru ölkədaxili vəziyyət daha da kəskinləşdi. İqtidar isə hərbi müxalifətin öhdəsindən gələ bilmirdi. Belə bir təhlükəli vəziyyətdə xalqın və o vaxtki hakimiyyətin təkidli dəvəti ilə Heydər Əliyev həyatı boyu səadəti və rifahı uğrunda mübarizə apardığı Azərbaycan xalqının köməyinə gəldi. Bu gəliş, əhalidə gələcəyə böyük inam yaratdı. Ali qanunvericilik orqanına sədr seçilməsi respublika həyatında mühüm bir tarixi hadisə oldu. Bu siyasi qayıdış, sözün həqiqi mənasında Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı.

1993-cü ildən ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı. Beynəlxalq əlaqələrdə, xüsusilə Azərbaycan – Türkiyə əməkdaşlığında yeni mərhələ açıldı. Azərbaycan qısa müddətdə Beynəlxalq Birliyin tam hüquqlu üzvlərindən birinə çevrildi.

Ulu öndər Böyük İpək Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaqda məharətlə istifadə etdi. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının inkişafında, onun iqtisadi cəhətdən oyanışında misilsiz rol oynadı. Xəzərlə bağlı uzaqgörən xarici siyasət strategiyası, bu dənizi sülh və əmin-amanlıq dənizinə çevirmək planları artıq reallığa çevrildi. Bütün bunlar onu göstərir ki, Azərbaycanın müstəqil olması ilə bölgədə yeni bir siyasi dövr, yeni təfəkkür və iqtisadi inkişaf mərhələsi başlanmışdı. Müstəqillik Azərbaycanı XXI əsrə hüquqi, demokratik dövlət kimi adlamasına əsaslı təminat yaratmışdı. Heydər Əliyevin təbirincə desək: "Biz bütün çətinliklərdən keçdik, bütün bu manelərin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq."

Müstəqillik illərində Azərbaycanın türkdilli dövlətlər və xalqlarla münasibətlərinin inkişafına xüsusi diqqət yetirilmişdi. Bu gün, Ulu öndər siyasəti, onun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün sahələrdə olduğu kimi Beynəlxalq münasibətlərin genişlənməsi, qardaş Türküyə ilə iqtisadi-mədəni əlaqələrin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycan Prezidenti İlham Əliyev öz fəaliyyətində xarici ölkələrlə, xüsusilə qardaş Türküyə ilə iqtisadi əlaqələri piroritet sahə kimi daima diqqətdə saxlayır. Bu sahədə

əldə olunmuş bütün uğurlar, Azərbaycanın beynəlxalq təşkilatlarda rolunun və nüfuzunun artmasına səbəb olmuşdu [3].

Azərbaycan son 17 il ərzində günü-gündən inkişaf edərək, böyük uğurlar qazanır. Əhalinin sosial rifahı daha da yaxşılaşmış, şəhər və rayonlarımız abadlaşmış və təhsilimiz inkişaf etmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın güclü ordusu formalaşmışdı. Bu gün qürurla deyə bilirik ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer tutur. Torpaqlarımızın işğal altında qaldığı 30 ildə, xüsusilə son 17 ildə hərbçilərimizdə döyüş ruhu, psixoloji hazırlıq və vətənpərvərlik hissi daha da yüksəlmişdir. Bu illər ərzində rəhbər əzmi, xalqımızın ordumuza olan güclü dəstəyi, bir sözlə rəhbər, xalq və ordu birliyi dəmir yumruq kimi birləşmişdi. Azərbaycan ordusu BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalan dörd qətnaməsini cəmi 44 gün ərzində icrasına nail oldu. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi və digər qəsəbələr döyüş meydanında azad edildi. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdi.

Azərbaycan – Türkiyə əlaqələrinin son 30 ildə necə inkişaf etdiyini və möhkəlǝndiyini ərazilərimizin 20 %-inin işğaldan azad edilməsi uğrunda aparılan "44 günlük Vətən müharibəsi" bir daha göstərdi. Türkiyə müharibənin əvvəlindən sonuna qədər Azərbaycanın yanında oldu. Ölkəmizə həm siyasi, həm də mənəvi dəstək göstərdi. Türkiyə rəsmiləri dəfələrlə Azərbaycana səfər edərək ciddi dəstəklərini ifadə etdilər. Əlaqələrimizin inkişafının bariz nümunəsi kimi 2015-ci il martın 17-də Qarsda Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin açılışında Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışını, Azərbaycan Prezidenti İlham Əliyevin Çanaqqala zəfərinin birlikdə qeyd olunması barədə qəti mövqeyini, 15 sentyabr 2018-ci ildə Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə Bakıda keçirilən hərbi paradda, ən əsası torpaqlarımızın işğaldan azad olunması günlərində və cənab Prezidentlərin Zəfər paradında çıxışlarını göstərə bilərik. Bu çıxışlar bir daha göstərir ki, Azərbaycan və Türkiyə 100 il bundan əvvəldə də bir yerdə olublar, bu gün də bir yerdədirlər.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, Türkiyə, strateji, təhlükəsizlik, müqavilə, inkişaf.

## Ədəbiyyat


1. Allahverdiyev Q., Sultanzadə V., Heydər Əliyev və Şərq, 6 cilddə, I k. Bakı, 2002, 384s.
2. Hüseynova F., Müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektləri, Bakı, 2007, 302s.
3. Qəmbərov C., Böyük İpək Yolunun inkişafında Azərbaycan - Özbəkistan əməkdaşlığı, İpək yolu, 2001, № 1.

# HEYDƏR ƏLİYEV VƏ GÜRCÜSTAN TÜRKLƏRİ

**Asif Hacıyev, Nigar Aslanlı**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: asif.hajili@au.edu.az, nigar.aslanly@au.edu.az

Müstəqil Azərbaycan Respublikasının qurucusu, ümummilli lider Heydər Əliyevin ali dövlətçilik fəaliyyətinin mühüm bir istiqaməti – dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın milli birliyinə nail olmaq, doğma vətənə bağlamaq və digər türk xalqları ilə həmrəyliyini təmin etmək olmuşdur. Azərbaycançılıq məfkurəsi və türk birliyi ideyasının ideoloji əsaslarını təşkil etdiyi diaspora hərəkatını sistemləşdirmək və dövlət səviyyəsində təmin etmək məqsədilə onun təşəbbüsü və rəhbərliyi ilə bir sıra addımlar atılmışdır.

Bunlardan Dünya Azərbaycanlılarının I Qurultayını və sonrakı qutultayları, Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasını, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanmasını ayrıca qeyd edə bilərik. Diaspora quruculuğu Heydər Əliyevin dövlətçilik konsepsiyası və ideologiyasına uyğun aparılır və müxtəlif ölkələrdəki diasporların tarixi özünəməxsusuluğunu nəzərə almaqla həyata keçirilirdi.

Diasporanın ilk qatı hələ XIX əsrin əvvəllərindən çar Rusiyasının Şimali Azərbaycanı və bütövlükdə Cənubi Qafqazı işğal etməsi ilə əhalinin bu işğalı qəbul etməyən müəyyən hissəsinin Türkiyəyə və digər ölkələrə köçən hissəsindən, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə başlayan Türkiyəyə, Avropaya, ABŞ-a mühacirət hərəkatı nümayəndələrindən ibarət olmuşdur.

Sayca daha çox olan digər bir diaspor qrupu isə, sovet hakimiyyəti dövründə keçmiş SSRİ-nin müxtəlif Respublikalarına köçmüş əmək miqrantlarından formalaşmış kütlədən, eləcə də XX əsrin 30-40-cı illərində Orta Asiya və Qazaxıstana deportasiya edilmişlərdən ibarətdir. Ümumilli lider Heydər Əliyev sovet dövründə hakimiyyətdə olduğu dövrdə də keçmiş sovet respublikalarında yaşayan soydaşlarımız – müxtəlif peşə sahibləri, ziyalılar, tələbələrlə görüşər, onların Vətənlə əlaqələrinin dərinləşməsinə çalışardı.

Lakin bu dediyimiz diaspora təbəqələri ilə yanaşı, soydaşlarımızın digər mühüm bir hissəsi – respublikamızdan kənarda digər sovet respublikalarında, ilk növbədə Gürcüstan, Ermənistan respublikaları və RSFSR-də tarixən yaşayan azərbaycanlılar da daim onun diqqət mərkəzində olmuşdur. Ulu Öndər Heydər Əliyev bu məsələdə həm milli təəssübkeşlik, həm də uzaqgörənliklə qonşu ölkələrdə kompakt yaşayan əhalinin tarixi-mənəvi və hüquqi statusunu çox dolğun və tarixi məntiqə uyğun müəyyənləşdirmiş, onların diaspor deyil, bu ərazilərin yerli aborigen əhalisi olduğunu qətiyyətlə vurğulamışdır.

Bu baxımdan, onun 1996-cı ildə Gürcüstanda yerli azərbaycanlılarla görüşündəki epizod diqqətəlayiqdir: “1996-cı ildə ulu öndər Heydər Əliyevin Tbilisidə Opera və Balet teatrında Şevernadze və Gürcüstan azərbaycanlıları ilə görüşü olur. Görüşdə iştirak edən şahidlərin sözlərinə görə Şevernadze Gürcüstan azərbaycanlılarına “diaspor” deyə müraciət edən zaman Heydər Əliyev

dərhal onun sözünü kəsmiş "Gürcüstan azərbaycanlıları diaspora deyil, öz doğma torpaqlarında, doğma vətənlərində yaşayır" deməklə Azərbaycan dövlətinin mövqeyini göstərmişdi. Heydər Əliyevin qətiyyəti, bu sözü inamla deməsi Gürcüstan azərbaycanlılarında özünəinam yaratdı, Gürcüstan dövlətinin rəhbərliyinə isə Azərbaycan dövlətinin rəsmi münasibətini bildirdi. Olmasaydı elə, olsaydı belə...əgər H. Əliyev Şevernadzenin sözünü kəsməsəydi, "diaspor" sözünə münasibət bildirməsəydi, susaraq deyilən fikirlərlə razılaşsaydı, şübhəsiz ki, bəzi dövlət məmurları Gürcüstan azərbaycanlılarına rəsmi "diaspor" statusunun verilməsinə illər öncə nail olmuşdular" (Aygül İsayeva. Gürcüstan azərbaycanlıları diaspor deyil, biz öz tarixi torpaqlarımızda, öz vətənimizdə yaşayırıq, Inter.Press.ge | Xəbər portalı.22.04.2022).

Ümummilli liderin bu mövqeyi bu gün həm dövlət orqanları, həm ictimai təşkilatçılar üçün bir fəaliyyət prinsipidir. Bu gün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu Gürcüstanda yaşayan soydaşlarımıza humanitar məsələlərdə, xüsusən təhsil sahəsində ciddi yardım edir, ana dilində orta məktəb təhsilinin qorunub inkişaf etməsi, gənclərin Gürcüstanın ali məktəblərində təhsil alıb karyera qurmasına dəstək göstərir. Elm və təhsil nazirliyi Gürcüstandakı məktəblərin dərslik, vəsaitlərlə təmin edilməsində, məktəblərin təmirində və təchiz olunmasında geniş fəaliyyət göstərir. "Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanın bir çox məktəbləri, o cümlədən Dmanisi rayonunda yeni kompyuter tədris mərkəzinin binası inşa edilərək istifadəyə verilmişdir. 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Gürcüstanın Marneuli şəhərindəki 7 nömrəli Azərbaycan ümumtəhsil məktəbi, Tbilisidəki M.F.Axundzadə adına 73 nömrəli orta məktəb, Qardabanidəkı 3 nömrəli Azərbaycan məktəbi və Dmanisidəki 2 nömrəli Azərbaycan beynəlxalq orta məktəbi əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bolnisi rayonunun Həsən Xocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilərək istifadəyə verilmişdir" (Aygül İsayeva. Gürcüstan azərbaycanlıları diaspor deyil, biz öz tarixi torpaqlarımızda, öz vətənimizdə yaşayırıq, Inter.Press.ge | Xəbər portalı.22.04.2022).

Azərbaycanın biznes strukturları, ilk növbədə Dövlət Neft Şirkəti Gürcüstanda ali məktəblərdə təhsil alan azərbaycanlı gənclərə mənəvi və maddi dəsrək göstərir, onları öz strukturlarında işlə təmin edir. Ulu Öndərin diaspor quruculuğu fəaliyyəti öz bəhrəsini vermiş və ayrı-ayrı ölkələrdəki xırda icmalar vahid və strukturlaşmış diaspora kimi formalaşraq öz mənafeləri və tarixi vətənləri Azərbaycan uğrunda geniş fəaliyyətə başlamışlar.

Dövlətçilik siyasətinin, milli ideologiyasının mühüm anlayışlarından biri "Bir millət – iki dövlət" formulu olan Heydər Əliyev Azərbaycan-türk birliyini hələ sovet dövründə də dövlətçilik fəaliyyətinin prinsiplərindən biri kimi həyata keçirmişdir.

Bu baxımdan 1944-cü ildə vətənlərindən sürgün edilmiş, 1956-cı ildə SSRİ Ali Sovetinin Rəyasət heyətinin fərmanı ilə Axısqa türkləri komendant rejimindən və yerlərini dəyişməklə bağlı məhdudiyyətlərdən azad edilsələr də Gürcüstana köçmələri yasaq edilmiş, onlara dəymiş maddi zərər ödənməmiş, yalnız ümumi bəraət verilmiş axısqalıların ilk kiçik dəstəsi Azərbaycana 1958-ci ildə gəlmiş və Saatlı, Xaçmaz rayonlarında yerləşdirilmişlər. Ahıska türklərinin Azərbaycanda

yerləşdirilməsi bu xalqın taleyində müsbət rol oynamış, onlar milli mədəniyyətlərini qorumaq və inkişaf etdirmək, ictimai həyatda iştirak, sülh şəraitində yaşamaq imkanı əldə edirlər. 1989-cu il Fərqanə hadisələrindən sonra da xeyli sayda Ahıska türkü Azərbaycana köçür.

1969-cu ildən Azərbaycana rəhbərlik edən Ümummilli lider Heydər Əliyev Ahıska türklərinin problemləri ilə yaxından maraqlanaraq, onların nümayəndələri ilə görüşür, sovet rejiminin imkanları daxilində ahıskalılara hər cür qayğı göstərir. 1973-cü ildə Saatlının Varxan kəndində Heydər Əliyev ahıskalılarla görüşdən sonra onların xahişi ilə Ahıska türkləri gənclərinin ali məktəblərə müstəsna hal kimi güzəştli qəbul edilmələri barədə sərəncam verir və bu, ahıskalıların maariflənməsində, sosial-mədəni tərəqqisində misilsiz tarixi rol oynayır. Ahıskalıların ali savadlı gəncləri yetişir, onlar seçkili orqanlarda, inzibati vəzifələrdə, elm və təhsil müəssisələrində təmsil olunmağa başlayır.

Bu gün də Azərbaycan Prezidenti İlham Əliyev, hökumət, ictimaiyyət ahıskalıların mənəvi tələblərinin ödənilməsinə, sosial rifahına, mədəni inkişafına daim qayğı göstərir, onlar dövlət strukturlarında, müxtəlif sahələrdə geniş təmsil olunurlar.

Ümummilli liderin diaspor quruculuğu fəaliyyəti bu gün də Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edir. Bu dövrdə Prezident İlham Əliyevin sərəncamları, göstəriş və qayğısı ilə xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmış, Dünya Azərbaycanlılarının II, III, IV qurultayları keçirilmiş, Azərbaycan Diasporuna Dəstək Fondu yaradılmış, "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı təsis edilmiş, "Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi Qaydası" təsdiq olunmuşdur.

Prezident İlham Əliyev Gürcüstana səfərlərində yerli azərbaycanlılarla maraqlanmış, onların problemlərini diqqət mərkəzində saxlamışdır. Azərbaycan dövləti bu gün Gürcüstan azərbaycanlılarının mənəvi sərvətinin, tarixi abidələrinin qorunmasını da xarici siyasətinin prioritetlərindən hesab edir. Tiflisin tarixi mərkəzi olan Meydanda və ətraflarda milli tariximizlə bağlı bir çox abidə və mərkəzlər – Tiflis Azərbaycan Teatrı, Azərbaycan Mədəniyyət Mərkəzi, M.F.Axundzadənin, N.Nərimanovun, C.Məmmədquluzadənin ev-muzeyləri, 73 və 64 saylı Azərbaycan məktəbləri, Heydər Əliyev parkı, M.Ş.Vazeh, M.F.Axundzadə, İ.İsfahanlı küçələri, "Gürcüstan" qəzetinin redaksiyası və Nəbatat bağında yerləşən Görkəmli Azərbaycanlıların Panteonu daim diqqət mərkəzindədir.

Əsas diqqət isə, rəsmi statistikaya görə sayı 350 mindən çox olan, sayca Gürcüstanın ikinci xalqı olan azərbycanlılarının hüquqlarının qorunması, onların mənəvi, mədəni, təhsil məsələləri, ana dilindən istifadə imkanının təminatı Heydər Əliyev siyasətinin və onun siyasi varisi Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətinin əsas amallarından biri kimi Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

# HEYDƏR ƏLİYEV VƏ ERMƏNİSTANIN AZƏRBAYCANA ƏSASSIZ ƏRAZİ İDDİALARI MƏSƏLƏSİ

**Qasım Hacıyev**
Qafqazşünaslıq İnstitutu (AMEA), Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gasimh@mail.ru

Moskvadan dəstək alan DQMV erməni rəhbərliyi 1963-cü il 4 yanvar tarixli qərarla rayonların iriləşdirilməsi adı altında Şuşa rayonunu ləğv etdi. 289 kvadrat kilometrlik ərazi – Şuşa şəhəri və 30 kənd Xankəndi (Stepanakert) rayonuna birləşdirildi. «Azərbaycan Milli Azadlıq Qərargahı» bu məsələyə qəti etirazını bildirsə də qərar dəyişmədi. Yalnız 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa olundu.

Qarabağı Ermənistana birləşdirmək niyyətindən əl çəkməyən ermənilər tərəfindən yerli azərbaycanlılarla etnik münasibətlər pozulur, gərgin vəziyyəti saxlamaq üçün təxribatlar törədilirdi. Ulu öndər Heydər Əliyev sonralar (1996-cı il) xatırladırdı: «Mən ilk dəfə Şuşaya 1967-ci ildə, o vaxt baş vermiş faciəli bir hadisə ilə bağlı getdim. Bilirsiniz ki, o vaxtkı Stepanakertdə 1967-ci ildə böyük bir münaqişə olmuşdu, Dağlıq Qarabağdakı ermənilər ilə azərbaycanlılar arasında qan tökülmüşdü. Çox böyük bir faciə baş vermişdi. O dövrdə Dağlıq Qarabağda olan bəzi quldurlar, Azərbaycan xalqına düşmən münasibəti bəsləyən adamlar həbsdə olan iki-üç nəfər azərbaycanlını aparan dustaq maşınını dağıdıb yandırmışdılar. O vaxt biz bunun səbəblərini araşdırdıq».

Azərbaycan xalqına müraciətində Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinə haqqında demişdir: «Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı».

Parisdə 1987-ci ildə keçirilən erməni milli konqresində SSRİ-dəki mövcud vəziyyətdən «DQMV-nin Ermənistana yenidən birləşməsi ilə bağlı erməni xalqının qanuni tələblərini həyata keçirmək» üçün istifadə etmək haqqında qərarın qəbul olunması və həmin ilin oktyabr aylnda İrəvanda açıq mitinqin keçirilməsi Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədi ilə edilmişdi.

1987-ci ildə erməni akademik Aqanbeqyanın Fransanın «Humanite» qəzetinə müsahibəsindən sonra münasibətlər gərginləşdi və Azərbaycanın Qarabağ regionunda separatizm prosesi başlandı.

Azərbaycana qarşı ermənilərin əsassız ərazi iddiası yenidən başlandı. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün DQMV-də erməni əhalisi arasında imza toplandı. Bu siyasi oyunlar nümayiş və mitinqlərlə davam etdirildi. Azərbaycan xalqının əsəblərini gərginləşdirmək

məqsədilə topxana meşəsinin qırılmasını təşkil etdilər. DQMV-ni Ermənistana birləşdirmək üçün, cinayət mühiti yaradaraq qətllər törətmək və ləkələmək üçün Sumqayıt faciəsini törətdilər.

Qarabağ ətrafında gedən proseslər zamanı əsasız ittihamlara, böhtanlar atanlara qarşı Heydər Əliyev deyirdi: «Dağlıq Qarabağ hadisələri ilə bağlı ünvanıma səslənən iradlarla da razılaşa bilmərəm. Onlar əsassız və sübutsuzdur. Muxtar Vilayət və onun ətrafında mürəkkəb vəziyyət yaranmışdır və bu, dərin, düşünülmüş, başlıcası isə obyektiv təhlil tələb edir. Burada emosional yanaşma yolverilməzdir.

Mən Azərbaycandan 1982-ci ildə getmişəm, Dağlıq Qarabağda hadisələr isə 1988-ci ildə başlayıb. Azərbaycanda işlədiyim dövrdə Dağlıq Qarabağda vəziyyət normal, sabit idi. Millətlərarası zəmində heç bir neqativ hal yox idi. Dağlıq Qarabağda tez-tez olurdum, mehriban münasibət görürdüm, heç kim mənim qarşımda bu cür xarakterli məsələləri qoymurdu. Azərbaycan KP MK-nın birinci katibi işlədiyim dövrdə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxması haqqında bir dənə də olsun məktub, xahiş olmamışdı. Yeri gəlmişkən, sosial-iqtisadi inkişaf səviyyəsinə görə Dağlıq Qarabağ Muxtar Vilayətinin göstəriciləri Azərbaycan və Ermənistan üzrə olan orta respublika göstəricilərini üstələyir. Bununla mən demək istəmirəm ki, keçmişdə Dağlıq Qarabağa, onun partiya təşkilatına rəhbərlikdə nöqsan və səhvlər olmayıb və orada problemlər yoxdur. Vilayətdə sosial-iqtisadi və mənəvi xarakterli prob¬lem¬lər vardır, onları həll etmək lazımdır, lakin görülən işləri qiymətdən salmaq, danmaq olmaz».

Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qızışdırılması üçün A.Aqanbekyanın Fransanın «Humanite» qəzetinə verdiyi müsahibənin məqsədli şəkildə meydana çıxarılmasının əlaqələndirilməsinin mahiyyətini vurğulayırdı: «Belə bir xəbərin erməni diasporu arasında yayılması, Ermənistana və Azərbaycana çatmasından sonra Aqan¬beqyan azərbaycanlılar üçün ümumiləşmiş fiqura–Qarabağ tonqalına kibrit yaxınlaşdıran ilk adama çevrildi».

Keçən əsrin 80-ci illərində Moskvada nəşr olunan bir sıra jurnallarda DDK-nın istefada olan yüksək rütbəli zabitlərinin dünyanın bir sıra regionlarında, o cümlədən SSRİ məkanında münaqişə ocaqlarından bəhs edilərkən Dağlıq Qarabağa dair erməni iddialarından da bəhs edilir, hətta proqnoz da veririrdilər. O zaman etnik münaqişələri qızışdırmaq və ədavəti yeniləmək üçün təbliğata başlamışdılar. Bu məqsədlə xüsusi tapşırıqlar əsasında "elmi" və bədii əsərlər çap edilirdi. Azərbaycan ziyalılarının da görkəmli nümayəndələri qarşıdan gələn təhlükəyə dair məlumatlar verirdilər.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də Dağlıq Qarabağda vəziyyəti nizama salmaq adı altında Azərbaycanın hüquqlarını kobud surətdə pozdu. Belə ki, «Azərbaycan SSR-in DQMV-də Xüsusi idarəçilik formasının tətbiqi haqqında» qərar qəbul edildi. Azərbaycan dövlətinə deyil Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarəçilik Komitəsi (XİK) yaratdılar. Ermənipərəst A.Volski tərkibində 5 nəfər rus, 2 nəfər erməni, yalnız 1 nəfər azərbaycanlı bu komitəyə rəhbərlik etdi. Komitənin fəaliyyəti vəziyyətin daha da gərginləşməsinə səbəb oldu. Bu, DQMV-nin prinsipcə Azərbaycan SSR-dən ayrılmasının başlanğıcı ildu. Artıq vilayətdə Azərbaycan qanunlarının işləməsi rəsmi şəkildə dayandırıldı. DQMV XDS və İcraiyyə Komitəsinin fəaliyyəti Moskvaya tabe idi.

Beləliklə, DQMV-də məqsədli şəkildə yaradılmış XİK fəaliyyət göstərdiyi dövr ərzində erməni millətçilərinin qarşıya qoyduqları planı reallaşdırdı. XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə, onu Azərbaycana bağlayan iqtisadi əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və separatçı-terrorçu dəstələrində birləşməsinə şərait yaratdı.

1989-cu il no¬yabrın 28-də Xüsusi İdarəçilik Komitəsini ləğv etsə də, bu, müsbət dəyişikliyə səbəb olmadı.

Naxçıvan MR Ermənistan tərəfindən blokadaya alındı. Muxtar respublikanın Ermənistanla həmsərhəd kəndləri ermənilərin hücumlarına məruz qaldı. Ermənilər Kərki kəndinə hücum edərək, dinc əhaliyə vəhşicəsinə divan tutdular, onlarca günahsız insan qətlə yetirildi, kənd zəbt olundu.

SSRİ DTK-sı və ermənilər tərəfindən təşkil edilən Sumqayıt hadisələri və M.Qorboçovun bilavasitə göstərişi ilə törədilən 20 Yanvar qırğını Azərbaycan xalqının müstəqillik uğrunda başlanmış milli azadlıq hərəkatının qarşısını almaqla bərabər, Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini həll etməyə yönəldilmişdi.

20 Yanvar faciəsi zamanı Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gələrək, hadisəyə öz münasibətini bildirməsi böyük ürək sahibi olan şəxsiyyətin inamlı addımı, təhlükə ilə cəsarətin qarşılaşdığı gərgin bir an idi. Heydər Əliyev Azərbaycan xalqına başsağlığı verməklə bərabər, Bakıda qırğın törətdiyi üçün SSRİ-nin rəhbərlərini kəskin tənqid etdi və qırğını törədənlərin cəzalandırılmasını tələb etdi.

Həmin dövrdə baş verənləri Heydər Əliyev belə şərh etmişdir: 1990-cı il yanvarın «...19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti yeridilmişdi. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur... Azərbaycanda kifayət qədər-4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, hava hücumundan müdafiə qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır...

Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır».

Beləliklə, bu faciələr SSRİ rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinin genişlənməsinə-Azərbaycan torpaqlarının işğalına, bununla da Azərbaycanın istiqlalına mane olmağa yönəlmiş siyasətə xidmət edirdi. Belə ki, planlı şəkildə davam etdirilən, getdikcə geniş vüsət alan Dağlıq Qarabağ münaqişəsi Ermənistan-Azərbaycan müharibəsinə çevrildi. 1991-ci il sentyabrın 2-də Yuxarı (Dağlıq) Qarabağda qeyri-qanuni, oyuncaq bir qurum, müstəqil «Dağlıq Qarabağ Respublikası»nın yarandığı elan edildi, Azərbaycan torpaqlarının işğalına başlandı.

Heydər Əliyev Azərbaycan Ali Sovetinin birinci sessiyasında (5 fevral 1991-çi il) çıxışında Dağlıq Qarabağ məsələsini, vaxtilə ermənilərin torpaq iddialarının qarşısının alınmasını ətraflı şərh etdi:

"Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respublikamız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə, Azərbaycanın ərazi bütövlüyü pozulub, Dağlıq Qarabağ Muxtar Vilayəti, Şaumyan rayonu (yaxşı ki, o bu gün ləğv olundu), Çaykənd kəndi faktiki olaraq Azərbaycanın dövlət idarə tabeliyindən çıxıb, Ermənistanla geniş siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir. Şərur rayonunun Kərki kəndi isə Ermənistan tərəfindən tamamilə işğal olunub. Erməni silahlı birləşmələri mütəmadi olaraq Ermənistanla sərhəd rayonlarımıza basqınlar edir, insanlar həlak olur, qan tökülür, evlər yandırılır, kəndlər dağıdılır.

Uzun sürən erməni təcavüzünün qarşısını almaq üçün İttifaq dövləti, birinci növbədə şəxsən Qorbaçov və respublika rəhbərliyi tərəfindən qəti tədbirlər görülməmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti 3 ildir ki, Azərbaycan üçün böyük bəla olub. Bu gün sessiyada bu məsələnin müzakirəsini ürəkdən alqışlayıram. Çünki sessiyadan qabaq bu məsələ ilə maraqlanarkən mənə məlum oldu ki, üç il müddətində Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də vəziyyət haqqında ətraflı, dərin, lazımi səviyyədə məsələ müzakirə olunmayıb, səmərəli tədbirlər görülməyib. Bu gün məsələnin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin qoyuluşu belədir: DQMV-də vəziyyətin normallaşdırılması tədbirləri haqqında. İndi burada məruzə etmiş V.Polyaniçkonun və təşkilat komitəsinin gördüyü bəzi işləri qiymətdən salmaq istəmirəm. Hər atılan addımı qiymətləndirmək lazımdır. Ancaq süni surətdə yaradılmış DQMV məsələsindən, Azərbaycan xalqının başına gəlmiş bəladan xilas olmaq üçün bu məsələ gərək çox dərin, ətraflı təhlil olunsun.

Əziz deputatlar, bilirsiniz ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Düzdür, Azərbaycan torpaqlarının bir hissəsi 20-ci ildən bəri vaxtaşırı əldən gedib. Mən bu barədə mümkün olsa, öz sözlərimi deyərəm. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz.

Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması — məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması — məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: Nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi — Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə DQMV yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı. Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əlindən getdi. İndi biz orada vəziyyəti normallaşdırmaq istəyirik. Biz torpaqlarımızı özümüzə qaytarmalıyıq, orada hakimiyyətimizi bərpa etməliyik, biz respublikanın suverenliyini təmin etməliyik. Buna görə

də mən çox həyəcanla danışıram. Səkkiz il ərzində mən Azərbaycanda olmamışam, amma ürəyim Azərbaycanla, Azərbaycan xalqı ilə olub. Mən öz ürək sözlərimi deməyə imkan tapdığım üçün hamınıza minnətdaram. Sizə də, seçicilərimə də minnətdaram ki, siz mənə qulaq asırsınız. Mən yenə də deyirəm, bu məsələləri biz geniş təhlil etməliyik. Bu, tarixi məsələdir. Azərbaycan xalqının tarixində ən çətin, ən ləkəli dövrdür. Gələcək nəsillər, hətta biz DQMV-də hakimiyyəti bərpa etsək də, torpaqlarımızı geri qaytarsaq da, mütləq bu məsələnin baş verməsini, bu üç il müddətində gedən prosesləri təhlil edəcəklər, öyrənəcəklər. Əgər indi biz bunu etməsək, onlar üçün çətinlik yaratmış olacağıq. Ona görə də belə hesab edirəm ki, bu üç il müddətində DQMV-nin əldən getmək prosesini biz gərək təhlil edək, gərək bizim Ali Məclisin sessiyası bu barədə çox geniş, ətraflı qərar qəbul etsin və bu tarixi məsələlərin hamısı orada öz əksini tapsın. Gərək müəyyən edilsin: harada, kim hansı günahı işləyib, nə cür olub, nə təhər olub ki, xalq belə acizlik göstərib, öz torpağını əldən verib. Bunlar gərək hamısı şərh olunsun. Burada V.Polyaniçko deyir ki, Dağlıq Qarabağın əldən getməsinə Qorbaçov yol verir. Düzdür, mən də bu fikirdəyəm. Ölkənin rəhbəri Qorbaçovun bu barədə Azərbaycana xəyanət mövqeyi gərək tamamilə açıq-aşkar bilinsin və bizim tariximizə yazılsın. Bu məsələ qalxanda da, sonralar Ayaz Mütəllibovla söhbət edəndə də mən bu haqda fikrimi demişəm.

Sizə də öz fikrimi çatdırmaq istəyirəm. 1987-ci ilin son aylarında bu məsələ qalxanda onun qarşısı alına bilərdi, ancaq alınmadı. 1988-ci ilin əvvəlində, fevral ayında böhran vəziyyəti gəlib çatanda da bu məsələnin qarşısını almaq mümkün idi. Ancaq alınmadı. Bu iki mərhələni götürürəm. Nə üçün alınmayıb? 1987-ci ilin son aylarında erməni millətçiləri müəyyən mövqeləri əldə etdikdən sonra Dağlıq Qarabağın ələ keçirilməsi üçün əlverişli şərait yarandığını hiss edərək, güclü siyasi kampaniyaya başladılar. O kampaniyanın qarşısını nə Azərbaycan Respublikasının rəhbərliyi ala bildi, nə də ki, Moskva respublikamıza, Azərbaycan xalqına kömək etdi. İstəyirəm dəqiqləşdirəm: Moskva deyəndə mən Qorbaçovu, onun ətrafında olan erməni müşavirlərini, erməni millətçilərini, ona təsir göstərən adamları nəzərdə tuturam. O vaxt onun qarşısı alınsaydı, nə Ermənistanla Azərbaycan arasında münasibətlər pozulardı, nə bizim millətlər arasında belə ziddiyyətlər əmələ gələrdi, nə də bir belə qanlar tökülərdi, Biz əsrlər boyu bir yerdə yaşamışıq. Nə edək ki, həyat bizi belə qonşularla rastlaşdırıb. Nə biz buradan, nə də ki, onlar oradan köçə bilərlər. Ancaq görün, bu xəyanətin dərinliyi nə qədər böyükdür. O vaxt qəti qərarlar qəbul etmək lazım idi. Ola bilərdi ki, bu qərarlar kiminsə xoşuna gəlməsin. Ancaq baş vermiş təhlükəli məsələnin qarşısını alıb, Ermənistanı Ermənistan kimi, Azərbaycanı da Azərbaycan kimi saxlamaq olardı. Bunu ancaq İttifaqa rəhbərlik edən müdrik adam edə bilərdi. Ancaq Qorbaçovda bu müdriklik çatmadı və Azərbaycan rəhbərlərində də cürət, namus, cəsarət çatmadı ki, öz xalqının mənafeyini, öz xalqının namusunu qorusunlar. 1988-ci ilin mart ayında Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı üçün qərar qəbul etdilər. Bu qərar Azərbaycan xalqının, Azərbaycan Respublikasının necə deyərlər, kürəyinə süngü sancmaq idi. O qərara qol çəkən, razılıq verən adamlar Azərbaycan xalqının mənafeyi haqqında düşünməli idi. Belə bir qərarın qəbul olunmasına yol vermək olmazdı, o böyük səhv idi. Ondan sonra gedən proseslərdən danışsaq, 1988-

ci ilin iyul ayında SSRİ Ali Soveti Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə olundu. Azərbaycan deputatları ilə Ermənistan deputatları eyni hüquqda orada Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin iştirak edirdilər. Axı Ermənistan Respublikasından olan deputatlar nə hüquqla orada iştirak etməli idilər. Çünki mart ayında qəbul olunmuş qərarda Ermənistan Respublikasının rəhbərlərinə Dağlıq Qarabağın işlərinə qarışmaq üçün ixtiyar verildi. Heç də təsadüfi deyil ki, o vaxtlar Ermənistan KP MK-nın birinci katibi Arutyunyan çıxış edərək öz həmvətənlərini sakitləşdirirdi ki, onlar tarixdə birinci dəfə olaraq Dağlıq Qarabağın daxili işlərinə qarışmağa imkan tapıblar. Bəli, belə bir imkanı Qorbaçov və onun ətrafı Ermənistan rəhbərləri üçün yaratdılar. Sonrakı dövr haqqında danışsaq, Azərbaycan xalqı üçün ən böyük xəyanət olan DQMV-də SSRİ AS Rəyasət heyətinin xüsusi idarəetmə komitəsinin təşkil olunmasını qeyd etmək lazımdır. V. Polyaniçko öz səhvini burada etiraf etdi. Ancaq bu işdə günahkar tək o deyil. Başqa günahkarlar da çoxdur. İstərdik ki, onlar da öz səhvlərini etiraf etsinlər. Axı əldən verilən mövqeləri indi qaytarmaq, hörmətli deputatlar, olduqca çətindir. Volski idarə üsulu Dağlıq Qarabağı Azərbaycandan ayırmağı tamamilə təmin etdi. Təəssüf ki, o dövrdə Azərbaycanın siyasi rəhbərliyi bu idarənin yaranmasını böyük qələbə kimi qiymətləndirdi və bu idarəyə çox böyük ümidlər bəslədi. Onda onlar ya başa düşmədilər, ya da başa düşmək istəmədilər ki, bununla Dağlıq Qarabağ Azərbaycanın əlindən tamamilə çıxır. Torpağımızı əlimizdən vermişik, onu geri qaytarmaq üçün nə qədər böyük əziyyətlər çəkirik. Yaxşı ki, sonra xalq oyandı, xalq hərəkatı burada çox böyük fəaliyyət göstərdi və Volski üsul-idarəsi ləğv olundu. Ancaq nə etməli, indi Volski Azərbaycan Respublikasını SSRİ Ali Sovetində təmsil edir. O, Azərbaycan Respublikasına nəinki xeyir verməyir, əksinə xəyanət edir. Biz isə buna tamamilə laqeyd baxırıq, heç də dəhşətlənmirik, heç də narazı olmuruq və hətta bəzi yoldaşlar mənə irad tuturlar ki, köhnə palan içi sökürəm. Yox, mən köhnə palan içi sökmürəm, həqiqəti bir daha yada salıram. Bir Volski deyil, o vaxtlar Balayan da, Poqosyan da, Dadamyan da bizim respublikadan deputat seçildi və onlar orada Azərbaycan Respublikasına daha da xəyanət etmək üçün böyük hüquqlar əldə etdilər. İndi, nəhayət, təşkilat komitəsi yaradılıb. Mən bir faktı da demək istəyirəm ki, on beş min azərbaycanlı Volskinin idarəsi vaxtında Stepanakert şəhərindən qovuldu. Bir azərbaycanlı kimi buna dözə bilmirəm ki, mənim xalqımın bir hissəsi öz doğma torpağından didərgin düşsün. Bu günlərdə televiziya ilə eşitdim ki, respublika prokuroru Stepanakertdə 250 azərbaycanlı evinin yandırılması haqqında iş qaldırıb. Bəs buna necə dözək? Nə üçün indiyədək bu iş qaldırılmayıb? Evlər 1988-ci ildə yandırılıb. Bu cinayətlərə niyə bu günə qədər biganə qalmışıq? Bunların hamısı çox böyük dəhşət doğurur, çox böyük həyəcan hissi yaradır. Belə hesab edirəm ki, indi təşkilat komitəsindən bundan artıq fəaliyyət tələb etmək çətindir. İndi mən heç bir konkret təklif vermək istəmirəm.

Hesab edirəm ki, deputatlar öz fikirlərini deməlidirlər. Cürbəcür fikirləri öyrənəndən sonra qəti tədbirlər qəbul etmək olar. Fikrim belədir, üç il arxadadır. Əgər bu minvalla getsək, biz bir neçə il də Dağlıq Qarabağda Azərbaycanın hakimiyyətini bərpa edə bilməyəcəyik. Unutmayın ki, Dağlıq Qarabağ Fələstin probleminə çevrilə bilər. Buna da heç cür yol vermək olmaz...".

Beləliklə, Heydər Əliyev sovetlər dövründə də, müstəqillik dövründə də Ermənistanın leqal və ya qeyri-leqal şəkildə Azərbaycana qarşı irəli sürdüyü ərazi iddialarına qarşı mübarizə aparmış, bu əsassız iddiaların həyata keçməsinə imkan verməmişdir. Düzgün daxili və xarici siyasət, beynəlxalq

səviyyədə müzakirələrin təşkili istiqamətində fəaliyyəti nəticəsində Qarabağın Azərbaycan dövlətinə və xalqına məxsus olmaslına beynəlxaq ictimaiyyəti inandıra bildi.

### Ədəbiyyat


1. Əliyev H., Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, Altıncı kitab, mart, 1996 - iyun 1996, bur. məsul Mehdiyev R., Bakı, Azərnəşr, 1998, 512s.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti, Bakı şəhəri, 29 dekabr, 2000.
3. Бобков Ф., КГБ и власть, Москва, 2003, с.315.
4. Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi, F.1, s.83, i.16, v.
5. Dağlıq Qarabağ, Zəka qalib gələcək, Sənədlər və materiallar. Bakı, 1997, s.464
6. Hacıyev İsmayıl, Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, Naxçıvan, 2012.
7. https://www.preslib.az/books.html.
8. Aydınlıq qəzeti, 15-21 fevral 1991-ci il, Vətən səsi, 27 fevral, 1991.


## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-ÖZBƏKİSTAN ƏLAQƏLƏRİ: “BÖYÜK İPƏK YOLU” LAYİHƏSİ

**Aliyə Hacıyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail haciyev.a.liya99@mail.ru

Minillik tarixə malik olan, Şərq və Qərb ölkələri arasında körpü rolunu oynayan “Böyük İpək Yolu”nun bərpası bir çox ölkələrin müasir dövrdə iqtisadi, mədəni, elmi, tarixi, texniki və s. sahələrdə inkişafına təkan verdi. Eləcə də, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının möhkəmləndirilməsi və yeni istiqamətdə inkişafının təmin olunmasında “TRASEKA” proqramı üzrə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin- “Böyük İpək Yolu”nun bərpa edilməsi mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusilə, ulu öndər Heydər Əliyevin bu sahədəki fəaliyyəti danılmazdır. Hətta tarixi “Böyük İpək Yolu”nun yenidən bərpası demək yerinə düşər ki, bilxassə onun adı ilə bağlıdır. H. Əliyev “Böyük İpək Yolu”nun Şərq və Qərb ölkələri arasındakı inkişafa yeni töhfələr verəcəyini bildirərək, Azərbaycan və digər türk dövlətlərinin bu sahənin inkişafındakı mövqelərinə görə, dünya siyasətində türk dünyasının qovşaq, körpü rolu oynacağını, strateji əhəmiyyət daşıyacağını vurğulamışdır [1].

İpək Yolunun yenidən bərpa edilməsi barədə ilk addımlar hələ XX əsrin 90-cı illərinin əvvəllərindən atılmağa başlamışdı. Qeyd etdiyimiz kimi, ümummilli liderin bu sahədəki fəaliyyəti

olduqca əhəmiyyətli idi. Məhz onun təşəbbüsü ilə Bakıda "Böyük İpək Yolu"nun bərpası ilə bağlı 1998-ci ilin sentyabr ayında bir sıra region və böyük dövlətlərin nümayəndələrinin iştirakı ilə beynəlxalq konfrans keçirilmişdir. 1998-ci il sentyabrın 8-də Azərbaycanın ev sahibliyi etdiyi "Gülüstan" sarayında keçirilən konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndə heyətləri iştirak etmişdir. Bu konfransa Azərbaycanın ev sahibliyi etməsi olduqca önəmli bir hadisə idi. Belə ki, bu müstəqil Azərbaycanın qədimdə olduğu kimi, indi də İpək Yolunun mərkəzində qovşaq yolu olduğunu təsdiq edirdi [3]. Azərbaycan üçün "Böyük İpək Yolu"nun əhəmiyyəti olduqca böyük idi. Belə ki, tranzit ölkə kimi dəmiryol, avtomobil və dəniz yollarının istifadə edilməsi ilə Azərbaycan büdcəsinə küllü miqdarda maliyyə vəsaiti daxil olurdu. Bununla da, Azərbaycan və "Böyük İpək Yolu" çərçivəsində olan dövlətlər arasında ölkələrarası infrastruktur yaranırdı. Məhz bu xəttin mərkəzində yerləşməklə Azərbaycan hər tərəfə daşınan mallardan daha ucuz qiymətə faydalana bilirdi. Şərqdən və Qərbdən gələn xammalın hesabına Azərbaycan iqtisadiyyatı yenidən inkişaf yoluna qədəm qoymuş oldu. Bütün bunlar təbii ki, həmin zamanda ölkə prezidenti olan Heydər Əliyev siyasətinin parlaq nəticəsi idi [5].

Özbəkistan və Mərkəzi Asiyanın bir sıra dövlətləri üçün də "Böyük İpək Yolu"nun əhəmiyyəti olduqca böyük idi. Belə ki, yolun yenidən bərpasınadək Özbəkistan və Mərkəzi Asiyanın bir sıra digər ölkələrinin dəniz kommunikasiyalarına birbaşa çıxışları yox idi. Digər yollar vasitəsilə də idxal və ixrac olunan malların nəqli üçün çəkilən xərclər onların dəyərindən daha çox olurdu. Bu isə həmin ölkələrin iqtisadiyyatı üçün mənfi bir hal idi. Lakin tarixi "Böyük İpək Yolu"nun Azərbaycandan keçən hissəsi isə il ərzində fəaliyyət göstərməklə yanaşı, həm ən əlverişli, həm də ən qısa bir yol idi. Bu yol həmçinin yüklərin təhlükəsiz daşınması baxımından da olduqca sərfəli idi. Özbəkistan Transqafqaz nəqliyyat dəhlizi vasitəsilə ixrac etdiyi məhsulları artıq xarici bazarlara çıxarmağa müvəffəq olmuşdu. "Böyük İpək Yolu" həm də Azərbaycanı və Özbəkistanı bir-birinə iqtisadi baxımından da sıx bağlamaqla, iqtisadi inkişafa da şərait yaradırdı [4].

Tarixi "Böyük İpək Yolu"nun yenidən bərpası üzrə ulu öndər Heydər Əliyevin bütün fəaliyyəti müstəqil Azərbaycan Respublikasının və eyni zamanda Mərkəzi Asiya dövlətlərinin, o cümlədən Özbəkistanın dünya birliyi ölkələri ilə inteqrasiyasının daha da güclənməsinə, türk dövlətlərinin iqtisadi potensialının artırılmasına xidmət edirdi. Bütün bu sadaladıqlarımız isə ulu öndərin türk dünyası qarşısındakı tarixi və ən önəmli xidmətlərindən biri olmuşdur.

Heydər Əliyevin Azərbaycan Özbəkistan arasındakı münasibətlərin normallaşdırılması və yeni istiqamətdə inkişafı üçün görmüş olduğu işlər öz səmərəsini vermiş oldu. Onun yeritdiyi xarici siyasət xətti və türkdilli ölkələr birliyinin möhkəmləndirilməsi uğrundakı səyləri və bu sahədə görmüş olduğu tədbirlərin sayəsində Azərbaycan və Özbəkistan Respublikaları arasındakı münasibətlərin beynəlxalq hüquq normalarına əsaslanaraq tənzimlənməsinə imkan yaratdı.

Belə ki, iki ölkə arasında münasibətlərin tarixi hələ çox qədim zamanlara dayansa da, tərəflər arasında ikitərəfli siyasi münasibətlərin yaranma tarixi məhz XX əsrin 90-cı illəridir. Azərbaycan və Özbəkistan arasında ikitərəfli siyasi əlaqələr 2 oktyabr 1995-ci ildə yaradılmışdır.1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Özbəkistanda, 1998-ci ilin may ayında isə Özbəkistan Respublikasının Azərbaycanda səfirlikləri fəaliyyət göstərməyə başlamışdır. Azərbaycanın Orta Asiya ölkələri arasında ilk səfirliyinin Özbəkistan Respublikasında açılması da

bu ölkənin regionda oynadığı rolun əsas göstəricisi idi [6].

Qeyd etmək yerinə düşər ki, Azərbaycan və Özbəkistan Respublikaları arasındakı siyasi qarşılıqlı əlaqələrin yaranmasında "Böyük İpək Yolu"nun yenidən bərpası layihəsinin olduqca mühüm əhəmiyyəti olmuşdur. Ölkələrin birgə iştirak etdiyi və "Böyük İpək Yolu"nun bərpasında olduqca mühüm əhəmiyyətə malik olan TRASEKA proqramı çərçivəsində əməkdaşlıq da tərəflər arasında münasibətlərin inkişafına təkan verən önəmli bir amil idi [7].

Təbiidir ki, bu yolda xüsusilə dövlət başçılarının fəaliyyətinin önəmli əhəmiyyəti olmuşdur. Belə ki, hər iki dövlətin ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri və bu səfərlər çərçivəsində mədəni, iqtisadi və siyasi əlaqələrin inkişafı ilə bağlı atılan bir sıra addımlar və əldə edilən razılaşmalar hər iki dövlətin qarşılıqlı əlaqələrinin inkişafına müsbət zəmin yaratmışdır. Həmin vaxt Özbəkistan Respublikasının prezidenti olan İslam Kərimov özbək və azərbaycan xalqlarını "Azman ağacının iki budağı" adlandırırdı, hər iki xalqın eyni kökdən olduğunu vurğulamışdır [2].

"Böyük İpək Yolu"nun yenidən bərpası və TASİS, TRASEKA proqramlarının həyata keçirilməsinin nəticəsində Avropa İttifaqı məkanından başlayaraq, Qafqaz və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyayadək uzanan nəqliyyat dəhlizi Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirmişdir ki, bu layihə və proqramların həyata keçirilməsində də türkdilli dövlətlər açar rolunu oynamışdır [7].

**Açar sözlər**: Azərbaycan, Özbəkistan, Böyük İpək Yolu, Heydər Əliyev, qarşılıqlı əlaqələr.

## Ədəbiyyat

1. Ağazadə R., Azərbaycanı dünyaya qovuşduran yol, Nəqliyyat jurnalı, noyabr, 2005.
2. Böyük İpək Yolunun inkişafında Azərbaycan-Özbəkistan əmədaşlığı, İpək Yolu jurnalı, 2001, N1, s.20-23.
3. Əmrahov M., Böyük İpək Yolu, Bakı, 2011, Mütərcim, 84s.
4. Hüseynzadə R., Azərbaycan Respublikasının Türk dövlətləri ilə münasibətlərinin inkişafında Heydər Əliyevin rolu, Dissertasiya, Bakı, 2015.
5. https://president.az/az/pages/view/azerbaijan/silkroad
6. http://azculture.uz/bizim-dostlug.php?link=iki-qardas-olke
7. http://www.anl.az/down/meqale/ses/2013/aprel/304872.htm

# HAYDAR ALİYEV'DEN GÜNÜMÜZE AZERBAYCAN'DA BEŞERİ SERMAYE VE İNOVASYONUN GELİŞİMİ

**Hakan Kaya**
Bitlis Eren Universitesi, İktisadi ve İdari Bilimler Fakültesi, İktisat Bölümü, Türkiye
e-mail: hkaya@beu.edu.tr

## Giriş

Sovyetler birliğinin dağılmasının ardından bağımsızlığını ilan eden Azerbaycan'ın ekonomik, siyasi ve politik hayatının şekillenmesi sürecinde Haydar Aliyev önemli bir rol üstlenmiştir Bağımsızlığın kazanılmasının ardından 1993 yılında Azerbaycan'ın Cumhurbaşkanlığı görevini üstlenen Haydar Aliyev, bugün Azerbaycan'ın sahip olduğu politik ve ekonomik konumu güçlendiren pek çok önemli adım atmıştır [8]. Bilhassa iktidara geldiği ilk yıllarda Karabağ'da ateşkes sağlaması, siyasi istikrarsızlıkları sona erdirmesi ve Azerbaycan'ın başta petrol ve doğal gaz rezervleri olmak üzere sahip olduğu yer altı kaynaklarını ülke ekonomisine kazandırması Aliyev'i Azerbaycan'ın en önemli lideri haline getirmiştir [3].

Haydar Aliyev, Azerbaycan Cumhuriyeti için dinamik bir kalkınma stratejisinin temelini oluşturan tarihi gelenekleri ve modern kalkınma eğilimlerini birleştirerek, ülkenin ulusal çıkarlarını en üst noktaya çıkartmayı amaç edinmiştir [7]. Ancak Sovyetler Birliği sonrası Azerbaycan ekonomisinin modernleşmesi, kalkınması ve büyümesi sancılı bir süreç içinde gerçekleşmiştir. Bilhassa Karabağ Savaşı'nın neden olduğu ekonomik istikrarsızlık Azerbaycan'ın kalkınma ve ekonomik dönüşüm için ihtiyaç duyduğu yatırımların hayata geçirilmesini yavaşlatmıştır. Sovyet yıllarından kalan yerli üretim ağlarının kopması [4] ve çatışma ortamında yatırımlar için güven olgusunun tesis edilememesi, Azerbaycan'ın kaynak eksikliği ve ülkenin sahip olduğu büyük petrol ve doğal gaz kapasitesinin kullanılamaması Aliyev'in kalkınma ve büyüme hedeflerine ulaşma yönünde karşılaştığı en önemli sorunların başında gelmekteydi. Öte yandan Sovyet-sosyalist geleneğin ardından SSCB'nin merkezi planlama ile yönetilen Azerbaycan'ın dışa açıklık politikası ile birlikte sosyalizmden serbest piyasa ekonomisine geçiş süreci artan enflasyon ile birlikte Kalaycı (2013)'ün tanımıyla "içeride açlık" problemine dönüşmüştü [8].

1994 yılında Karabağ Savaşı'nın sona ermesine kadar geçen bu sancılı süreç nihayetinde ateşkes imzalanmasıyla birlikte Azerbaycan ekonomisinin gelişmesinde etkisini göstermiş ve başta petrol üretimi ve petrol ihracatında görülen artış olmak üzere, savunma harcamalarının azaltılarak kaynakların ekonomide daha verimli alanlara doğru yönlendirilmesi, devletin liberalleştirilmesine ve devletin küçülmesine yönelik atılan adımlar Azerbaycan ekonomisi ve politikasının geliştirilmesine olumlu katkı sunmuştur [3]. Ancak; Azerbaycan'ın ekonomik büyümesinde önemli bir yere sahip olan petrol ve enerjinin yanı sıra yabancı yatırımların teşvik edilmesine yönelik atılan adımlar, hali hazırda büyüme gösteren ekonomide bazı sosyo-ekonomik alanların geliştirilmesini geri planda bırakmıştır. Bu alanların başında beşeri sermaye yatırımları ve inovasyonun geliştirilmesine yönelik AR-GE faaliyetleri yer almaktadır. Beşeri sermaye ve inovasyonun

gelişiminin ekonomik büyüme ve kalkınma için önemli fırsatlar barındırması, ülkelerin söz konusu alanlarda gelişim göstermelerini de kaçınılmaz hale getirmiştir. Bu bağlamda çalışmanın izleyen bölümünde beşeri sermaye ve inovasyonun teorik yapısı sunularak, beşeri sermaye ve inovasyonun Azerbaycan ekonomisinde gelişim süreci ele alınmıştır.

**Beşeri sermaye ve inovasyonun teorik yapisi**

Beşeri sermayenin geliştirilmesi ülkenin mevcut yapısal unsurlarının geliştirilmesi için önemlidir. Toplumun üretken güçlerinin bilgi ve becerilerini artırmaya yönelik faaliyetlerin tümünü kapsayan söz konusu kavram ülkenin üretim kapasitesinin artırılması ve kaynakların verimli alanlara yönlendirilmesi süreçlerinde belirleyici bir unsurdur. Günümüz küresel dünya ekonomisinde bilgi faktörünün önemi göz önünde bulundurulduğunda, bilginin geliştirilmesi ve geliştirilen bilginin doğru alanlarda kullanılma biçimi ülkelerin refah düzeyleri üzerinde etkili olan başat unsurlar arasında gösterilmektedir. Beşeri sermayenin gelişimine paralel biçimde ortaya çıkan inovasyon faaliyetleri neticesinde küresel ekonomide daha rekabetçi ekonomilerin ortaya çıktığı literatürde üzerinde önemle durulan konuların başında gelmektedir. Örneğin; Eriksson vd. (2022)'ye göre beşeri sermaye ve inovasyon üretim sürecinde maliyetlerin azaltılması, ürün çeşitlendirmesi ve istihdam üzerinde olumlu etki yaratma potansiyeli nedeniyle en önemli faktörlerin başında gelmektedir. Literatürde içsel büyüme modellerini konu edinen çalışmalar başta olmak üzere, beşeri sermayenin yeniliğin önemli bir parçası olduğuna ve yeniliğin de GSYİH büyümesine katkıda bulunduğu sıklıkla vurgulanmaktadır [9]. Beşeri sermaye ve inovasyonun birbirini tamamlayıcı niteliği ülkelerin gelişmişlik düzeylerinin belirlenmesi yönüyle de önemlidir. Kimi ülkelerin daha üretken ya da zengin olmaları mevcut beşeri sermaye kapasitesinin çeşitlendirilmesine ve kaynakların optimal alanlara yönlendirilmesiyle ilişkilidir. Arıç vd.(2022)'nin belirttiği üzere Avrupa'nın batısında yer alan çağdaş batı ülkeleri üretkenlik ve refah artışlarını eğitim sistemlerini endüstrinin ihtiyaçlarına göre kurmalarına borçludur. Oysa Sovyetler Birliğinden ayrılan ve 1990 sonrası bağımsızlıklarını kazanan Türk Devletlerinde eğitim planlamasının merkezi otorite tarafından yapılması piyasa ihtiyaçlarının göz ardı edilmesine neden olmuştur. Bu durum ise beşeri sermaye kaynaklarının optimallikten uzaklaşmasına ve uzmanlaşma ve iş bölümüne yönelik üretim biçiminin sona ermesine neden olmuştur [1]. Oysa içsel büyüme teorilerinde nüfus yapısına bağlı olarak planlanan beşeri sermaye ve beşeri sermaye yatırımlarının büyüme üzerindeki etkisi birden fazla kanalı içermektedir. Beşeri sermayedeki artış üretim sürecinde işgücü verimliliğini artırarak üretimi doğrudan etkilemesinin yanı sıra beşeri sermayenin AR-GE'nin önemli bir girdisi olması nedeniyle teknolojik değişimi hızlandırarak emek verimliliğini dolaylı olarak artırma potansiyeline sahiptir [2].

Bugün Azerbaycan'ın küresel ekonomide edindiği önemli güç Haydar Aliyev ekseninde devam etse de beşeri sermaye yatırımları ve inovasyonu artırmaya yönelik faaliyetler tüm Türk Devletlerinde görüldüğü biçimde var olan potansiyelinin altındadır. Azerbaycan hükümetinin birincil hedefi ekonomik çeşitliliği hızlandırmak, petrol ve doğal gaz gelirlerinin seviyesi ne olursa

olsun petrol dışı sektörde de hızlı büyümeyi sürdürmek, rekabet gücünü artırmak ve uzmanlık fırsatlarını genişletmektir. Bu doğrultuda Azerbaycan hükümeti Aralık 2016'da Mesleki Eğitim ve Öğretim (MEÖ) 2016–2025 için Stratejik Yol Haritasını uygulamaya koyarak MEÖ için yeni bir olumlu imaj yaratmak; geliştirilmiş bir kamu-özel ortaklığına dayalı olarak MEÖ sağlayıcıları için bir yönetim yapısı oluşturmak; rasyonelleştirilmiş ve optimize edilmiş bir kamu MEÖ sağlayıcıları ağı oluşturmak; MEÖ sisteminin özel sektör için çekiciliğini artırmak; ve MEÖ profillerinde ileri teknoloji ile donatılacak 10 MEÖ okulunu işler hale getirmek gibi amaçlar belirlemiştir. Bunun yanı sıra Azerbaycan, Avrupa Birliği (AB) yıllık eylem planı (AAP) kapsamında AB'den yüksek öğretim ve MEÖ'ye odaklanarak eğitim sisteminin kalitesini ve uygunluğunu arttırmak, MEÖ'nün tüm seviyelerinin çekiciliğini ve işgücü piyasasına uygunluğunu arttırmak ve sivil katılımı, yönetişimi ve eğitimin kapsayıcılığını güçlendirmek için destek almaktadır [6].

**Sonuç ve değerlendirme**

Küresel ekonominin güçlü ekonomileri arasında yer alan Azerbaycan'ın bugünkü konumuna ulaşmasında Haydar Aliyev'in politik ve ekonomik politikaları önemli bir yere sahiptir. 1990'lı yıllarda SSCB'nin merkezi planlı yapısından serbest piyasa ekonomisine geçen Azerbaycan'da Karabağ Savaşı ile birlikte görülen ekonomik istikrarsızlık Azerbaycan ekonomisinde birtakım reformların yapılmasını gerekli kılmış ve 1993 yılında Haydar Aliyev'in etkili reformları sonucunda Azerbaycan küresel ekonomide bugünkü yerini almıştır. Haydar Aliyev'in reformlarının Azerbaycan ekonomisi üzerine yansımalarını Dünya Bankası verilerinden hareketle incelediğimizde, Haydar Aliyev iktidarından önce 1991 ve 1992 yıllarında Azerbaycan'ın gayri safi milli hasıla büyüme hızındaki azalış sırasıyla %-0,7 ve %-22,6 iken 1993 yılının hemen başında söz konusu değer %-23,1 oranına yükselmiştir. 1993 yılında Haydar Aliyev'in iktidara gelmesiyle birlikte söz konusu rakam bir önceki yıla göre %-0,5 oranına gerilemiş ve 1995 tarihinden itibaren Azerbaycan ekonomisinde hızlı bir ekonomik toparlanma süreci gözlenmiştir. Azerbaycan ekonomisinin hızlı ekonomik toparlanması kişi başına düşen GSYİH rakamlarında da görülmektedir. 1991 yılında yaklaşık 98 dolar olan kişi başına milli gelir, 1994 yılında 217,9 dolara, 1998 yılında yaklaşık 570 dolara, 2002 yılında ise yaklaşık 756 dolara yükselmiştir.

Öte yandan Azerbaycan'da bağımsızlık sonrası uzun bir süre yüksek enflasyon, diğer bir ifadeyle hiperenflasyon gözlenmiştir. Yüksek enflasyon dönemini yeninden 1991 ve 1992 dönemlerindeki artışla ve 1993 yılı Haydar Aliyev dönemiyle kıyasladığımızda, Haydar Aliyev'in iktidara gelmesiyle birlikte 1993 yılından itibaren enflasyonun kademeli olarak gerilediği ve 1993 yılının başlarında ortalama %1200 olan enflasyon oranının 1995 yılında ortalama %510 seviyesine düştüğü gözlenmektedir. Haydar Aliyev'in Azerbaycan ekonomisinin makroekonomik görünümünü pozitife çevirme gayreti "Asrın Anlaşması"nın hayata geçirilmesi ve Azerbaycan'ın petrol ve doğal gaz başta olmak üzere sahip olduğu yer altı kaynaklarının etkin biçimde işletilmesi ve uluslararası piyasada ticarete konu edilebilmesinin önünü açmıştır. Bu anlaşmanın bir neticesi olarak Azerbaycan ekonomisi hızlı bir büyüme ve kalkınma sürecine girmiştir. Bunun yanı sıra 1995 yılından itibaren Azerbaycan ekonomisinde yabancı yatırımların payı da hızla artış göstermiş ve 1995 yılında 150 milyon dolar olan yabancı yatırımlar 2002 yılında 1700 milyon dolara çıkmıştır.

Öte yandan bağımsızlık sonrasının ilk aşamalarında Azerbaycan ekonomisinde özel sektörün GSYİH içindeki payının oldukça düşük olduğu gözlense de 1991-2002 yılları arasında söz konusu pay %15 seviyelerinden %72 düzeyine yükselmiştir.

Azerbaycan ekonomisinde yaşanan ekonomik dönüşümler ülkenin büyüme ve kalkınması üzerinde olumlu etkiler yaratmış olsa da bugün SSCB'den ayrılarak bağımsızlığını kazanan tüm Türk Devletleri'nde beşeri sermaye ve inovasyonun gelişimi Batı ülkeleri ile kıyaslandığında oldukça düşük düzeydedir. Başka bir söylemle SSCB'nin merkezi planlı yapısından serbest piyasa ekonomisine geçiş sürecinde söz konusu unsurların potansiyellerinin altında kaldıklarına işaret etmektedir. Bu durumun temel nedeni olarak merkezi planlama ile düzenlenen beşeri sermaye faaliyetlerinin endüstri ihtiyaçlarını göz ardı eden yapısı gösterilmektedir. Başka bir ifadeyle bağımsızlık sonrası bazı sektörlerde gelişme aşamasında ya da henüz genç olan ülke içi endüstrinin ihtiyaçlarına yönelik beşeri sermaye faaliyetlerinin merkezi sistemin takip ettiği ve yönlendirdiği alanlara yoğunlaşması, bağımsızlık kazanan tüm Türk Devletleri'nde görüldüğü gibi Azerbaycan'da da bazı sektörlerin rekabet alanlarını daraltmış, uzmanlaşma ve iş bölümüne yönelik üretim biçiminin sona ermesine neden olmuştur. Ancak; Azerbaycan'ın Aralık 2016'da Mesleki Eğitim ve Öğretim (MEÖ) 2016–2025 için Stratejik Yol Haritasını uygulamaya koymak üzere birtakım anlaşmalara işlerlik kazandırması beşeri sermayenin geliştirilmesi sürecinde önemli bir adım olarak görülmektedir. Beşeri sermayenin geliştirilmesi, özel sektör ihtiyaçlarının eğitim planlamasında yoğun şekilde yer alması, eğitim sisteminin işgücü piyasasına uygunluğun arttırılması ve eğitimin kapsayıcılığını güçlendirmek gibi beşeri sermaye ve inovasyon yatırımlarının arttırılmasına yönelik faaliyetler Azerbaycan ekonomisinde uzun dönemli kalıcı büyüme düzeylerinin yakalanmasına destek olmasının yanı sıra, Azerbaycan'ı gelişmekte olan ülke görünümünden gelişmiş ülke kategorisine yükselmesine katkı sunacaktır.

## Kaynakça

1. Arıç K., Sek, S.K., Pavlovic V., Knezevic G. (2022). Human Capital And Economic Growth: Evidence From Western European And Ceecs Countries. Journal of Research in Economics, İktisat Araştırmaları Dergisi Cilt: 6 / Sayı: 2, s.135-146.
2. Cinnirella F., Streb J. (2017). The role of human capital and innovation in economic development: evidence from post-Malthusian Prussia. J Econ Growth, 22, pp.193–227 https://doi.org/10.1007/s10887-017-9141-3
3. Dikkaya M., Demirci O., (2013). Azerbaycan'ın Küresel Ekonomiye Eklemlenmesinde Haydar Aliyev'in Rolü, Sosyal Bilimler Araştırma Dergisi, 22, 185-193.
4. Dikkaya M., Çaylak A. (2008).Haydar Aliyev Döneminde Azerbaycan'ın Ekonomik ve Politik Dönüşümü: Fırsatlar ve Sorunlar. OAKA, 3(5), ss. 131-157.
5. Eriksson C., Lindén J., Papahristodoulou C. (2022). Human Capital, Innovation, and Growth. International Journal of Economic Theory. 10.1111/ijet.12346.

6. Jaouani A., Nikolovska M., Milovanovitch M., Nielsen S. (2010). European Training Foundation. Policies for Human Capital Development in Azerbaijan. An ETF Torino Process Assessment. Authors: Erişim Adresi: https://www.etf.europa.eu/en/publications-and-resources/publications/trp-assessment-reports/azerbaijan-2020 ; (Erişim Tarihi: Mart 2023).
7. Ilgar D.K. (2022). Successful Policy of Heydar Aliyev. Euroasia Journal of Social Sciences & Humaities, 9(2), pp.70-81.
8. Kalaycı İ. (2013). Kafdağı'nın Önündeki Ekonomi: Modernleşen Azerbaycan. T.C. Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı, Avrasya Etüdleri, 43/2013-2, s.27-56.
9. Pelinescu E. (2015). The Impact of Human Capital on Economic Growth. Procedia Economics and Finance, 22, pp.184–190. doi:10.1016/S2212-5671(15)00258-0
10. The World Bank in Azerbaijan (2023). Erişim Adresi: https://www.worldbank.org/en/country/azerbaijan, (Erişim Tarihi: Mart 2023).

**Development of human capital and innovation in Azerbaijan from Haydar Aliyev to the present**

Today, Azerbaijan is positioned as an important power both in the Turkish World and in the global economy. Behind this great power of Azerbaijan, the effects of Heydar Aliyev's role in the socio-economic development process of Azerbaijan are clearly seen. Although Azerbaijan's economy, which has developed in many areas after independence, has entered a rapid growth and development process, especially with introducing underground resources to the country's economy, sufficient weight has not been given to the development of some socio-economic areas. This situation, which is claimed to result from central planning, is explained by the low ability of human capital to respond to industry needs. In this study, the development process of human capital and innovation capacity in the Azerbaijan economy is discussed. It is foreseen that human capital and innovation will increase labor passivity, especially growth in Azerbaijan and all Turkish States, enable the export of goods and services with high added value, and provide a positive contribution to the balance of payments of my countries.

# TOLERANCE AND MULTICULTURAL STRATEGY OF HEYDAR ALIYEV

**Elnur Hasanov**
Ganja Branch of Azerbaijan National Academy of Sciences, Ganja, Azerbaijan
e-mail: el-hasanov@mail.ru

In the modern world, which is characterized by complex processes, independent Azerbaijan stands out as a stable and secure state and is one of the main centers of multiculturalism. Today, multiculturalism is the state policy in Azerbaijan. The modern society of Azerbaijan is a society of open dialogue with representatives of other nations and religions, because multiculturalism in Azerbaijan is both a state policy and a way of life. In the light of the above, we emphasize that multiculturalism in Azerbaijan has deep historical roots and is closely connected with the mentality. In the state building of modern Azerbaijan, the role of multicultural models is significant, since multiculturalism in the Azerbaijani national culture was formed as a commitment to social etiquette, mutual respect and tolerance towards subcultures living in the territory of Azerbaijan [1, p.67–68, 3, p.9-14].

Azerbaijani model of multiculturalism is based on the principles of humanism. This is the policy of national solidarity. In the activities of the successor of the wise political course of National leader Heydar Aliyev, President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev, multiculturalism is the main paradigm of social and cultural development. By the orders of the President of Azerbaijan dated May 15, 2014, the Baku International Center for Multiculturalism was established, and dated January 11, 2016, 2016 was declared the Year of Multiculturalism in Azerbaijan [2, p.98, 4, p.75-79].

The Supreme Commander of the Liberation Army of Azerbaijan, the President of our Republic, Mr. Ilham Aliyev, positions multiculturalism as a way of life in the Azerbaijani society. Thanks to the wise policy of our state, in 2020, our native lands in Karabakh were liberated from enemy occupation and a stable foundation for peace was laid in the South Caucasus [3, p.17-26].

Summarizing the system components of tolerant traditions and multiculturalism, some important elements can be noted:

1. State policy as the basis of multicultural processes in Azerbaijan;
2. Multiculturalism as a synthesis of national and universal;
3. A culture of tolerance is a product of a democratic society;
4. Multiculturally significant openness to the world community;
5. Multiculturalism determines the willingness to engage in dialogue within the framework of public policy;

6. Multiculturalism defines new processes of Azerbaijan's integration into the modern world;
7. Parity of civil rights;
8. Ensuring the security of a democratic state.

**Keywords:** Heydar Aliyev, Azerbaijan, multiculturalism, sustainable development, culture of coexistence.

## Ədəbiyyat

1. Гусейнова И.М., Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру, Баку, Тахсил, 2005, 513с.
2. Elgie R., Moestrup S., Semi-Presidentialism in the Caucasus and Central Asia, Palgrave Macmillan, 2016, 197p.
3. Əliyev F.Y., Sadıqov H.H., Həsənov E.L., Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Gəncə, Gəncə: Elm nəşriyyatı, 2022. 272s.
4. Lerman Z., Sedik D., Rural Transition in Azerbaijan, USA: Lexington Books, 2010, 80p.

# HEYDƏR ƏLİYEV VƏ FOLKLOR

**Günel Hümmətova (Pəniyeva)**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: gunelpeniyeva@mail.ru

Heydər Əliyevin yürütdüyü siyasətin tərkib hissəsi və əsas istiqamətlərindən biri olan folklorumuza, milli-mənəvi sərvətlərə qayğıkeş münasibət təqdirəlayiqdir. Ümummilli lider Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik dövründə folklorumuza göstərdiyi qayğı və diqqət partiya və hökumətin verdiyi qərar və sərəncamla nəticələnmişdir. 1969-73-cü illər ərzində mədəni irsimizi qorumaq üçün 15 qərar və sərəncam imzalanmışdır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 4 avqust 2003-cü il tarixli sərəncamı ilə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə bu ənənənin davamı olduğunun sübutudur.

Milli ruhun güclənməsi, vətərpərvərlik, azərbaycançılıq ideyalarının qüvvətlənməsi üçün Heydər Əliyevin 70-ci illərdə yeritdiyi müdrik və uzaqgörən siyasəti eyni zamanda folklor işi sahəsində nəzərəçarpacaq dəyişikliklərlə nəticələnmişdir. Azərbaycan ziyalılarını, ümumilikdə bütün xalqı gələcək strateji məqsədlər üçün səfərbər etmiş, azadlıq mübarizəsinə hazırlamışdı. Heydər Əliyev 1970-ci il 20 mart tarixli Azərbaycan KP MK-nın plenumundakı məruzəsində deyirdi: *"... Bəzən mətbuat, radio və televiziya işçiləri xalqın mənəvi həyatına aid mühüm məsələləri lazımınca işıqlandırmağı bacarmırlar* [2]. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə televiziya, radio və mətbuatda həsr edilmiş bu cür çıxışlar həmin dövrün ədəbi mühitində proqramlar və məqalələrin ortaya çıxmasına vəsilə olmuşdur. Və eyni zamanda Ulu Öndərin folklora verdiyi böyük dəstəyin "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri" qəzetləri,

"Qobustan", "Ulduz", "Azərbaycan" jurnallarında xalq yaradıcılığı ilə bağlı xeyli materiallar yer almasına səbəb olmuşdur. Xalqın milli-mənəvi dəyərlərinin toplanılması, qorunması və təbliğində "Ozan", "Bulaq" kimi verilişlər tamaşaçılarda böyük maraq oyatmış və folklorun inkişafında mühüm rol oynamışdı. Beləki, 70-80-ci illərdə folklor nəşrlərinin geniş vüsət alması, 1984-cü ildə 20 illik bir fasilədən sonra aşıqlar qurultayının çağrılması, folklor festivallarının keçirilməsi buna bariz nümunədir. Həmçinin "Aşıq Pəri" məclisinin, "Xarı bülbül" musiqi festivalının təşkili, "Koroğluya qayıdaq" adlı silsilə ozanaşıq tədbirlərinin keçirilməsi əsas inkişaf proqramlarındandır. Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə 1981-ci ildə folklor işinin xüsusi tələblər səviyyəsində qurulması ilə bağlı tədbirlər planı işlənib hazırlanmışdır ki, bu da Azərbaycan folklorunun inkişafının əsas istiqamətlərindən olmuşdur. Bu cür tədbirlərin və proqramların hazırlanması folklora olan marağın daha da çox artmasına səbəb olmuşdur. Onlardan Ümummilli liderin el sənətkarlarının yaradıcılıqlarının hərtərəfli öyrənilməsi, onların bədii irsinin toplanıb nəşr edilməsi bardə imzaladığı qərarları qeyd edə bilərik. Eyni zamanda ustad sənətkarlardan Aşıq Alının 180 (1981), Aşıq Ələsgərin 150 (1972) [1] illik yubileylərinin keçirilməsinin bilavasitə təşəbbüskarı olmuşdur. Həmçinin folklor işinə marağı gücləndirməklə bərabər, həm də mənəvi dəyərlərin qorunub yaşadılmasına və təbliğinə xidmət edilməsi üçün 1980-ci ildə Ağstafada "Saz məktəbi"nin, Tovuzda Aşıq Hüseyn Bozalqanlının adını daşıyan "Ozan-Aşıq muzeyi"nin yaradılması, bir çox folklor bayramlarının – "Qurbani saz bayramı"nın, "Bayatı bayramı"nın, "Dastan gecəsi"nin və s. keçirilmişdir [3]. Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Ələkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov, Aşıq İmran Həsənov "Əməkdar incəsənət xadimi" adına layiq görülməsi, İzzətalı Zülfüqarov, Ələsgər Şəkili, Əli Kərimov, müstəqillik dövründə isə Aşıq Əhliman, Aşıq Ədalət Dəlidağlı kimi sənətkarlar "Azərbaycanın əməkdar mədəniyyət işçisi" fəxri adının alınması da folklora olan marağın daha da artmasını təmin edir. Ulu öndər Azərbaycan folklorunun dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində sovet dövründə ciddi tədbirlərə rəhbərlik edərək gələcək müstəqilliyimizin millimənəvi inkişafına şərait yaradırdı. 1990-cı illərdə müstəqilliyi əldə etdikdən sonra dahi xilaskarın qayıdışı ilə bu sahənin inkişafı yenidən dövlət qayğısı ilə əhatə olunmuş, folklor kollektivləri bərpa edilmişdir. Eyni zamanda Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan folklor külliyyatı və Atlası, coxcildlik folklor antologiyasının müxtəlif cildləri nəşr olunmuşdur. "Kitabi-Dədə Qorquq"un və Dədə Ələsgərin yubileylərinin 1990-cı illərdə dövlət səviyyəsində hazırlanması və birbaşa prezidentin nəzarəti altında həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Aşıq Şəmkirin 110 illik yubileyinin keçirilməsi haqqında 5 iyul 2003 - cü il tarixli sərəncamı ilə Foklor İnstitutunun yaradılması folklorumuza Heydər Əliyev qayğısının və sevgisinin və folklorun inkişafının nəticəsi idi.

**Ədəbiyyat**

1. Məmmədova Ş. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri, 2014. https://lib.aliyev-heritage.org/az/99672452.html
2. "Kommunist" qəz., 1980, 21 fevral.
3. Zərbəliyev C. Heydər Əliyev və Azərbaycan folkloru, 2013 https://www.medeniyyet.az/page/news/10387/Heyder-Eliyev-ve-Azerbaycan-folkloru.html

## "A COUNTRY WITH A STRONG ECONOMY IS CAPABLE OF EVERYTHING!"- HEYDAR ALIYEV

**Elnura Huseynova**
SOCAR, Baku, Azerbaijan
Azerbaijan University, Baku, Azerbaijan
e-mail: elnura.huseynova@socar.az, elnura.huseynova@au.edu.az

The development strategy of independent Azerbaijan was determined after Heydar Aliyev came to power. This strategic concept was developed taking into account the potential opportunities of our country, national interests, global economic trends, geopolitical realities and other important factors of this kind.

First of all, the great leader demonstrated his political will to meet the main requirements of the multi-ownership market economy and started fundamental reforms taking into account the laws of economic transformation. At that time, Heydar Aliyev stated that it was very difficult and complicated for an independent state to carry out reforms by transitioning to a new transformation: "Ever since independence, Azerbaijan has been building its life, state, economy, and national interests on the basis of democratic principles. This requires a serious restructuring of the entire economic system. In this regard, Azerbaijan has announced a reconstruction strategy based on the principles of free economy and market economy and is following this path. Of course, this path is extremely difficult and complicated for the republic, which has lived in a different socio-economic system for 70 years. However, in addition to this, it is the only way to overcome the difficulties in the economy, to get out of the socio-economic crisis and to ensure the development of the economy in accordance with international standards in order to connect Azerbaijan to the world economic system [1].

By preparing the national development doctrine of Azerbaijan, the great leader created deep foundations for the long-term progress of our republic. The oil factor plays a special role in independent Azerbaijan reaching the stage of high development, strengthening its national-economic security and having a rich economy. The exploitation, processing and transportation of oil resources, and most importantly, the implementation of the oil policy in accordance with the correct, well-thought-out economic strategy, have created deep foundations for our republic to reach the current stage of progress. After Azerbaijan regained its state independence, the foundation of a completely new stage in the oil industry was laid. During this period, the main task was to attract

foreign oil companies to the oil industry of the independent country and to create new transportation routes [2].

Making the implementation of all components of the liberal market economy one of the main goals of the reforms, the government of Azerbaijan took decisive steps in accordance with the requirements of the period of recovery and dynamic development that began in 1994. As a result of the implementation of privatization in other areas, serious qualitative changes took place in the structure of the economy and a favorable ground for the formation of a liberal economy was created. As a result, the financial situation in the country stabilized, the amount of investments involved in the economy increased year by year, and the standard of living of the people began to improve. Thanks to the acceleration of the economic transformation, fertile conditions were formed for the transition from the planned economic system to the liberal market economy. In addition to the oil sector, which is the basis of the economy, the foundation of large-scale reforms was laid in other areas as well. As a result of the formation of market economy legislation, budget, tax, banking systems, implementation of agrarian reforms, privatization of state property, creation of a favorable business environment for the development of entrepreneurship, the transition to the market economy was established and the entrepreneurial class was formed. In those years, a number of laws were adopted to accelerate the flow of foreign investors to the country, to create favorable conditions for their business activities, to free foreign trade, to develop entrepreneurship, and a legislative framework was created to ensure the adaptation of the national economy to the world economic system. The "Entrepreneurship" Law adopted at that time also defined the main directions of entrepreneurial activity and meant a favorable legal basis for the development of the economy through the market economy [3].

On September 20, 1994, a "production sharing" type agreement was signed in the Gulistan Palace in Baku on the joint development of oil in the deep water layers of the "Azeri", "Chirag", and "Guneshli" fields in the Azerbaijani sector of the Caspian Sea. Due to its historical, political and international importance, the agreement was named "Agreement of the Century". In the contract of the century, 13 of the most famous oil companies (Amoko, BP, McDermott, Yunokal, SOCAR, LUKoil, Statoil, Exxon, Turkish Petroleum, Penzoil) from 8 countries of the world (Azerbaijan, USA, Great Britain, Russia, Turkey, Norway, Japan and Saudi Arabia, Itochu, Remko, Delta) participated. With the conclusion of this agreement, the flow of foreign capital to Azerbaijan increased. One of Heydar Aliyev's biggest successes was the question of which routes to take Azerbaijan's energy resources to the world market. The Great Leader managed to take Azerbaijan's energy resources to the world market in 2 directions. On February 18, 1996, an agreement was signed in Moscow on transporting Azerbaijani oil through the territory of the Russian Federation to the Black Sea port of Novorossiysk. After determining the northern route of Azerbaijan's energy resources, on March 8, 1996, President of Azerbaijan Heydar Aliyev and Georgian President Eduard Shevardnadze agreed on the construction of the Baku-Supsa oil pipeline in Tbilisi. In the tripartite agreements concluded between CSCE, SOCAR and the Georgian government, Azerbaijan

provided for the transportation of primary Azerbaijani oil from the Azeri, Chirag, and Guneshli fields through the Baku-Supsa oil pipeline. In addition to ending Azerbaijan's economic dependence on any state, the alternation of oil routes met the national interests of our country. The biggest advantage of this route was the introduction of pure Azerbaijani oil to the world market under the "Azeri light" brand. Heydar Aliyev's greatest success in the field of oil was the BTC project. Even though the Great Leader Heydar Aliyev laid the foundation for the development of the oil strategy with the "Contract of the Century", he continued this success with the Baku-Tbilisi-Ceyhan project. With the aim of long-term protection of the interests of Azerbaijan, the development of large-scale international economic cooperation, the export of oil to the world markets due to the increase in oil production in the region, intensive work was carried out for the realization of the strategically important Baku-Tbilisi-Ceyhan main pipeline project, and the negotiations were successfully concluded. as a result, during the OSCE summit held in Istanbul on November 18, 1999, an agreement was signed in Ciragan Palace in Istanbul on the transportation of crude oil through the territories of the Republic of Azerbaijan, the Republic of Georgia and the Republic of Turkey through the Baku-Tbilisi-Ceyhan main export pipeline. BTC encouraged the reconstruction of new relations between the world states and the Azerbaijani state, the relations between the world nations and the people of Azerbaijan, and led to the strengthening and development of Azerbaijan's foreign policy [5].

One of the main requirements of the market economy is primarily related to the implementation of land reforms. Without a landowner, it is impossible for the owner to engage in free and independent production activities. Therefore, Heydar Aliyev stated that reforms are the only way to save and develop the economy from the crisis, and the signing of relevant decrees on the approval of some normative-legal acts for the provision of land for the use of citizens greatly accelerated the processes related to reforms.

After almost 30 years have passed since then, we can boldly say that during the ten years of Heydar Aliyev's presidency in 1993-2003, great socio-economic changes began to be observed in our country. Thus, the great leader Heydar Aliyev implemented a set of norms and values both at the theoretical level and in practice, and this set became a viable model of democracy. During Heydar Aliyev's presidency, a solid foundation was laid for the country's modern development, Azerbaijan was recognized as a settled state, and conditions were created for Azerbaijan's integration into the modern world in the future [4].

**Keywords:** Global economic trends, national interests, development.

## References

1. https://genprosecutor.gov.az/az/post/2436,
2. https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ve-azerbaycan-iqtisadiyyati-16
3. https://modern.az/az/news/130329/heyder-eliyev-ve-iqtisadi-islahatlar,
4. https://azerbaijan.az/related-information/147,
5. https://sesqazeti.az/news/politics/867295.html.

# HEYDƏR ƏLİYEVİN SOSİAL SİYASƏTİNDƏ MALİYYƏ NƏZARƏTİNİN YERİ VƏ ROLU

**Novruz Hüseynov**
İmişli rayon Statistika İdarəsi, İmişli, Azərbaycan
e-mail: novruz_huseynov_92@mail.ru

Əhalinin sosial müdafiəsi dövlətimizin sosial siyasətinin ana xəttini təşkil edir. Bu barədə ölkənin əsas qanunu olan Konstitusiyada da müvafiq maddələr mövcuddur. Belə ki, həmin qanunun 38-ci maddəsində sosial təminat hüququ ayrıca qeyd olunur [1]. Bundan başqa hər il qəbul edilən dövlət büdcəsi haqqında qanunda da sosial müdafiə və sosial təminatla bağlı xərclərin artdığını görürük. Bütün bunlar əhalinin sosial müdafiəsi məsələlərinə dövlət qayğısının təzahürüdür.

Sosial təminatla bağlı xərclərin artırılması, əlavə vəsaitlərin ayrılması və digər bu kimi tədbirlər bu sahədə maliyyə vəsaitlərinə səmərəli nəzarət mexanizminin tətbiqini zəruri edir. Bu nəzarətin mahiyyəti özünü ayrılmış vəsaitlərin qanunvericilik, şəffaflıq və təyinatı üzrə istifadəsində göstərir. Heç təsadüfü deyildir ki, bütün sahələrdə olduğu kimi maliyyə nəzarəti sahəsində də inkişaf məhz Ulu Öndər H. Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra baş verdi. Həmin dövrdən sonra nəzarətin qarşısında məhdud resurslardan səmərəli istifadə edilməsi istiqaməti də yeni tələb kimi qoyuldu. Dövlət büdcəsinin gəlirlərinin formalaşması və xərclərinin səmərəli təşkilinə nəzarət edən orqan Hesablama Palatası yaradıldı. Bundan başqa “Büdcə sistemi haqqında” qanuna çağdaş dövrün tələblərinə uyğun olaraq əlavə və düzəlişlər edildi. Nəzarət sisteminin yeni növü olan audit formalaşmağa başladı. Bu sahədə beynəlxalq təcrübələr öyrənilərək milli standartlara uyğun tətbiq edilməyə başlanıldı. Bütün bunlar nəzarət sisteminin obyektiv və şəffaf təşkil edilməsinə yönələn addımlardır.

Ölkədə sosial müdafiə sahəsində idarəetməni Azərbaycan Respublikası Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun tərkibindəki qurumlar həyata keçirir. Nazirliyin göstərdiyi xidmətlərin sayının çoxluğuna, geniş əhali kütləsini əhatə etməsinə və maliyyə vəsaitlərinin həcminə görə fərqlənən qurumu Dövlət Sosial Müdafiə Fondudur.

Dövlət Sosial Müdafiə Fondu (bundan sonra – Fond) məcburi dövlət sosial sığortası və könüllü (əlavə) sosial sığorta, əhalinin əmək pensiyaları, sosial müavinətlər, ünvanlı dövlət sosial yardımı ilə, təqaüd və kompensasiyalarla, habelə Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə nəzərdə tutulmuş digər ödənişlərlə təmin edilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir [4]. Fondun xidmət dairəsi bütün əhali kateqoriyasını əhatə edir və göstərdiyi xidmətlərin böyük hissəsi elektron qaydada həyata keçirilir.

Ümumiyyətlə ölkə miqyasında vətəndaşlara xidmətlərin elektron qaydada və bir pəncərə sistemi vasitəsi ilə təşkilinə uzun müddətdir ki, başlanılıb. Bütün bu tədbirlər dövlət idarəetmə

sektorunda şəffaflığı, operativliyi artırmaqla yanaşı həm də vətəndaş məmur təmasını sıfıra endirməklə korrupsiya və neqativ halların qarşısının alınmasına yönəldilmiş tədbirlərdir.

Dövlət idarəetmə sektorunda əhaliyə göstərilən xidmətərin avtomatlaşdırılımış və proaktiv qaydada həyata keçirildiyi, vətəndaş müraciətlərinin elektron daşıyıcılarda qeydiyyata alındığı, zəruri məlumatların real vaxt rejimində əldə edilməsinin mümkün olduğu dövrdə nəzarət mexanizminin özünün də yeni yanaşma əsasında təşkil edilməsi zəruri reallıqdır. Dövlət idarəetmə sektorunda maliyyə nəzarətinin təşkilində yeni yanaşma olaraq auditin elektron formada həyata keçirilməsi çevikliyi və operativliyi təmin etməklə yanaşı, həm də nöqsanların vaxtında müəyyənləşdirilməsinə şərait yaradar. Müasir dövrdə auditin funksiyasını yalnız yoxlama ilə məhdudlaşdırmaq olmaz. Audit təşkilatın maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaqla yanaşı, həm də mövcud resurslardan istifadənin səmərəliliyinin qiymətləndirilməsinidə həyata keçirir [2]. Yuxarıda qeyd etdiyimiz kimi, dövlət idarəetmə orqanlarında vətəndaşlara göstərilən xidmətlərin bir çoxunun elektron qaydada həyata keçirildiyi bir vaxtda elektron auditin tətbiq edilməsi və təkmilləşdirilməsi olduqca mühümdür. Elektron auditin təşkil edilməsi üçün bir sıra məsələlərin həll edilməsi vacibdir:

1. dövlət idarəetmə orqanları arasında bir-birinin məlumat bazasına çıxışın təmin edilməsi;
2. müvafiq qurumda bütün sənədləşmə prosesinin elektron formada qeydə alınaraq ümumi vahid sistemdə görünməsinə şərait yaradılması;
3. qurumun bütün struktur vahidlərinin zəruri avadanlıqlarla təmin edilməsi və s.

Fikrimizcə, yuxarıda qeyd olunan məsələlərin həll edilməsi elektron auditin məlumat bazasını formalaşdırmaqla yanaşı həm də bu sahənin inkişafına təkan verəcəkdir. Auditin bu formada həyata keçirilməsi dövlət idarəetmə orqanlarının xərclərinin azalmasına əsas verəcəkdir. Belə ki, artıq müvafiq şöbənin əməkdaşlarının bölgələrə ezam olunması zərurəti aradan qalxacaqdır. Elektron auditin digər üstünlüyü qanunsuz ödənişlərin və təyinatların dərhal müəyyən edilməsinə imkan verməsidir. Bildiyimiz kimi, audit yoxlaması əsasən 1 illik, 2 illik və s. dövrü əhatə etməklə həyata keçirilir. Bu isə qanunsuz və əsassız ödənişlərin uzunmüddət davam etməsinə şərait yaradır. Elektron auditin təşkil edilməsi bu cür problemlərin vaxtında aşkar olunmasına və aradan qalxmasına əsas verəcəkdir. Beləliklə, fikrimizcə, maliyyə nəzarətinin həyata keçirilməsində yeni yanaşma olan elektron auditin tətbiqi ilə aşağıdakı məsələlər öz həllini tapacaq:

- operativlik və şəffaflıq təmin ediləcək;
- kənarlamaların dərhal müəyyənləşdirilməsi imkanı yaranacaq;
- sənədlərin elektron daşıyıcılarda qeydə alınması sürətlənəcək;
- qurumlar arasında qarşılıqlı elektron sənəd mübadiləsi sürətlənəcək və s.

**Açar sözlər**: maliyyə nəzarəti, elektron audit, sosial müdafiə, dövlət idarəetmə sektoru, məlumat bazası.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə), Bakı: Qanun, 2002, 48s.
2. Abbasov İ.M., Audit, Bakı: Bakı Biznes Universiteti, 2007, 530s.

3. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu 2 iyul 2002-ci ildə qəbul edilmişdir (2021-ci il dekabrın 24-də qəbul edilmiş əlavə və dəyişikliklərlə), Bakı: Qanun, 2002.
4. Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2020-ci il tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
5. Hesablama Palatası Azərbaycan Respublikasının haqqında Qanunu 29 iyun 2018-ci ildə qəbul edilmişdir (2019-cu il martın 29-da qəbul edilmiş əlavə və dəyişikliklərlə), Bakı: Qanun, 2018.

## AQRAR –SƏNAYE SAHƏSİNDƏ İNNOVASİYA SİYASƏTİ ÜMUMMİLLİ LİDERİN İDEYALARININ DAVAMIDIR

**Fuad İbrahimov**
Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan
e-mail fuadibrahim@mail.ru

Aqrar-sənaye sahələrinin müasir tələblər səviyyəsində inkişafı Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və hazırda yaradıcılıqla reallaşdırılan ideyalarının məntiqi davamıdır. Milli aqrar – sənaye sahələrinin dinamik və dayanıqlı inkişafı strategiyasının əsasında Heydər Əliyevin bu sahələrə daimi qayğısı və proqram xarakterli müddəaları durur. Tam əminliklə demək olar ki, “Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmaqla yanaşı, həm də Azərbaycan dövlətini davamlı iqtisadi inkişafa aparan düşünülmüş strategiyanın banisidir” [1].

Müasir dövrdə aqrar-sənaye sahələrinin dinamik və dayanıqlı inkişafı, hazırda innovasiya amili ilə bilavasitə bağlıdır. Həmin sahələrdə innovasiyalı inkişafın səmərəliliyi, nəticə etibarı ilə aşağıdakı istiqamətlərdə özünü göstərməlidir [4]: ərzaq və qida təhlükəsizliyinin təminatı səviyyəsinin və alternativ enerji mənbələrindən istifadə səviyyəsinin yüksəldilməsi; qlobal iqlim dəyişikliklərinə qarşı mübarizənin gücləndirilməsi və təsərrüfatşılığın həmin dəyişikliklərə uyğunlaşdırılması; resurslardan istifadə səmərəliliyinin yüksəldilməsi və biomüxtəlifliyin bərpası istiqamətində nəticələrin əldə olunması.

İnnovasiya siyasətinin reallaşdırılmasında mühüm mərhələ olan layihələrin hazırlanması və icrası zamanı, haqqında danışılan siyasətin prioritetləri diqqət mərkəzində olmalıdır. Həmin layihələrə yönəldilən investisiyaların maliyyələşdirilməsi kompleks xarakterli və məntiqi ardıcıllığı gözləməklə həyata keçirilən idarəetmə prosedurlarının reallaşdırılmasını nəzərdə tutur. Innovasiya layihələrinə vəsait qoyuluşlarının maliyyələşdirilməsi, ümumilikdə investisiya - innovasiya siyasəti prioritetlərinin reallaşdırılması prosesində qərar qəbulu zamanı potensial mənbələrin əsas xarakteristikalarının müəyyən edilməsi, onlardan istifadə səmərəliliyinin təmin edilməsi məsələləri ön plana çıxır. Bu baxımdan, aşağıdakı mənbədə təqdim olunan mövqe ilə razılaşmaq mümkündür:

aqrar-sənaye sahələrində innovasiya layihələrinin maliyyələşdirilməsi barədə qərar qəbulu zamanı, ilk növbədə innovasiyalı inkişafa vəsait qoyuluşlarından səmərəli istifadə, risk menecmentinin, resurs və hüquqi təminat səviyyəsinin kəskinləşən rəqabət tələblərinə cavab verməsi məsələləri gündəlikdə olur [3, s.138-143].

İnnovasiya siyasətinin həyata keçirilməsində, bu məqsədlə ayrılan vəsaitlərin mənbələrinin təmsilçilərinin ümumi iqtisadi – institusional sistemdə yeri və rolu, kifayət qədər mühüm əhəmiyyətli məqamdır. Onların innovasiyaların investisiyalaşdırılmasında nə dərəcədə maraqlı olması, qeyd edilən sistemdə tutduqları yerdən və statusdan asılı olur. Aqrar-sənaye sahələrində də iqtisadi subyektlərin investisya fəaliyyəti dövlətin və müəssisənin investisiya siyasətinin prioritetləri nəzərə alınmaqla həyata keçirilməlidir. Eyni zamanda, nəzərə alınmalıdır ki, dövlətin investisiya siyasəti, onun reallaşdırılması alətləri aqrar-sənaye sahələrində fəaliyyət göstərən müəssisələrinin investisiya fəaliyyəti üçün iqtisadi-institusional mühitin formalaşmasında mühüm rola malikdir.

Aqrar-sənaye sahələrində investisiya siyasətinin prioritetlərinə münasibətdə aşağıdakı istiqamətlər xüsusi qeyd edilməlidir. İlk növbədə, onu qeyd edək ki, bu sahələrin inkişafının prioritetliyi, qeyri-neft sektorunun üstün inkişafının rəsmi surətdə bəyan edilməsi ilə təsbit edilmişdir. Bəyan edilmiş üstün inkişaf kontekstində bərpa olunan resurslardan və alternativ sayılan enerji mənbələrindən istifadənin, bu məqsədlə rəqəmsal mühitin formalaşdırdığı üstünlüklərin reallaşdırılması sayəsində ixracyönlü istehsalın qeyri-xammal istiqamətinin prioritetliyi nəzərdə tutulur.

Aqrar – sənaye sahələrində investisiya - innovasiya siyasətinin digər prioritetləri qismində, həmçinin aşağıdakılar qeyd olunmalıdır: iqtisadi fəaliyyət və marketinq tədqiqatlarının şaxələndirilməsi; texnoloji inkişafın və innovasiya infrastrukturunun formalaşdırılmasının sürətləndirilməsi və elmtutumluq səviyyəsinin yüksəldilməsi məqsədi ilə daxili özəl kapitalın və xarici investorların təşviq edilməsi; insan kapitalının inkişafının stimullaşdırılması; innovasiyalı modernləşdirilmənin müxtəlif variantlarının müqayisəli qiymətləndirilməsi bazasında əlverişli olanın reallaşdırılması və s.

Aqrar-sənaye sahələrində investisiya siyasəti innovasiyalı inkişaf strategiyasına əsaslanmaqla bir sıra strateji hədəflərə doğru hərəkət üçün əlverişli şərait yaradır. Başqa sözlə, "innovasiya strategiyası - çoxsaylı innovasiyaların meydana çıxması ilə iqtisadiyyatın ümumi innovativ səviyyəsinin yüksəlməsi, innovativ özünütəşkil prosesinin başlanması, bu və ya digər sahənin investor üçün cəlbedici olması, innovativ investisiyaların gəlirliliyinin artması, biznesin inkişafı ilə xarakterizə olunur" [2, s.248]. Aqrar - sənaye fəaliyyətinin innovasiyalı inkişaf siyasətinin daha sürətlə reallaşdırılması üçün rəqəmsal texnologiyaların tətbiqi təşviq edilməli, bazarın yeni seqmentində mövqe tutmaq və möhkəmlənmək imkanlarını aşkar etmək üçün marketinq tədqiqatları dərinləşdirilməli, innovasiya - investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi üçün birgə yanaşmaların metodiki bazası formalaşdırılmalı, innovasiya infrastrukturunun inkişafı məqsədi ilə iqtisadi - texnoloji, institusional və digər tədbirlər həyata keçirilməlidir.

**Açar sözlər**: innovasiya siyasəti, aqrar-sənaye, investisiya, prioritet.

**Ədəbiyyat**


1. Alıyev İ., Əsədov A., Heydər Əliyev Azərbaycanı davamlı iqtisadi inkişafa aparan strategiyanın banisidir, http://anl.az/down/meqale/ xalqqazeti_ may 2009/ 78718. htm
2. Ардашева Е.П., Отраслевая политика: понятие и функции в инновационной экономике, Вестник Казанского технологического университета, 2007, №3-4, URL: https://cyberleninka.ru/article/n/22.12.2022. с.245-252.
3. Bebudovna, Boltayeva & Ganjiyevich, Jumayev & Tairova, Mavluda, Ways Of Financing Innovative Activities In Agrobusiness, 138-143, (2021).
4. Innovation to achieve competitive, sustainable and inclusive agriculture, Inter-American Institute for Cooperation on Agriculture, Fundación Colegio de Postgraduados en Ciencias Agrícolas – Mexico: IICA, 2017, 169p.


## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ HEYDƏR ƏLİYEV TƏSİRİ


**Nərgiz İbrahimova**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: nergiz686@gmal.com


Azərbaycan tarixinə nəzər salsaq, istər Sovet rejiminin 70 illik ağır repressiya və iğtişaşları dövründə, istərsə də Azərbaycan Respublikasının yenicə müstəqillik qazandığı dövrdə, yəni 1990-93-cü illərdə bütün sahələrdə müşahidə etdiyimiz mənfi prosesləri milli mənəvi dəyərlər və onun ayrılmaz hissəsi olan milli ədəbiyyat sahəsində də müşahidə edəcəyik. Bütün sahələr kimi, bu sahə də iflic vəziyyətinə düşmüşdü. Bu vəziyyətə yalnız Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi ilə son qoyuldu. Heydər Əliyev 1994-cü il martın 16-da Füzulinin 500 illik yubileyinin qeyd olunması barədə fərman imzalamışdır [7; 6, 16 mart 1994]. Bu fərmandan sonra geniş tədbirlər planı hazırlanmış və diqqətəlayiq işlər görülmüşdür.

1994-cü il noyabrın 1-də Türkiyənin paytaxtı Ankara yaxınlığındaki Bilkənd Universiteti şəhərciyində Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışı oldu.

1994-cü il noyabrın 17-də Moskvada Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş təntənəli mərasim təşkil olunmuşdu [2, səh. 285;3,c.1,95].

Görkəmli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illik yubileyi ərəfəsində Heydər Əliyevin göstərişi ilə Bakı şəhərində bu böyük mütəfəkkirin ev-muzeyi təşkil olunmuşdur. 1994-cü il dekabırın 28-də respublikanın görkəmli yazıçıları, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyətin nümayəndələri ev-muzeyinin açılışında iştirak etmişdilər [2, səh.289;3,c.1, 152].

1995-ci il aprelin 6-da Heydər Əliyev xalq şairi Məmməd Araz ilə görüşmüş və onun Almaniyada müalicəsi ilə bağlı lazımi işlərin görülməsi üçün müvafiq göstərişlər vermişdir [3,c.1, 250].

1995-ci il aprelin 16-da Heydər Əliyevin göstərişi ilə Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında Məmməd Araz poeziyasına həsr olunmuş “Azərbaycan-dünyam mənim” ədəbi-musiqili məclis keçirilmişdir [3, c.1, 251].

1996-cı il oktyabrın 29-da Naxçıvanda görkəmli ədib Hüseyn Cavidin memar Rasim Əliyevin təklif etdiyi layihəyə əsasən tikilmiş məqbərəsinin açılış mərasimi oldu. Mərasimdə İran İslam Respublikasından və Türkiyə Cümhuriyyətindən gəlmiş yüksək səviyyəli qonaqlar iştirak etmişdilər [2,səh. 290-291].

1995-ci il iyulun 5-də Heydər Əliyevin göstərişi ilə “Respublika” Sarayında xalq şairi Xəlil Rza Ulutürkün xatirə gecəsi keçirilmişlər. Xatirə gecəsində iştirak edən Heydər Əliyev şairin yaradıcılılığında vətənə məhəbbət, xalqa sədaqət kimi mənəvi dəyərlərin öz əksini tapması haqqında geniş nitq söyləmişdir [3, c.1, 219].

“Əliağa Vahidin anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Heydər Əliyevin sərəncamına[6, 7 fevral 1995] uyğun olaraq 1996-cı il avqustun 30-da “Respublika” Sarayında yubiley gecəsi keçirilmişdir. Yubiley gecəsində iştirak edən Heydər Əliyev gecənin açılışından əvvəl “Respublika” Sarayının foyesində M. F. Axundov adına Dövlət Kitabxanasının təşkil etdiyi, Əliağa Vahidin həyat və yaradıcılığından bəhs edən kitab sərgisinə baxmış və sonra rəssam Adil Rüstəmovun Əliağa Vahidə həsr etdiyi qrafika əsərləri sərgisi ilə yaxından tanış olmuşdur [3, c.1, 212]. Heydər Əliyev Vahidin yaradıcılığına yüksək qiymət verərək onu böyük bir xəzinə adlandırmışdır.

Səməd Vurğunun 90 illik yubileyinin respublika səviyyəsində yekun tədbiri ərəfəsində, 1997-ci il martın 6-da Azərbaycan Respublikasının ədəbiyyat, mədəniyyət, elm, incəsənət xadimləri, paytaxt ictimaiyyətinin nümayəndələri Fəxri Xiyabana Səməd Vurğunun məzarı önünə toplaşmışdılar. Heydər Əliyev də Səməd Vurğunun məzarını ziyarət etmək üçün Fəxri Xiyabana gəlmişdir. Elə Həmin gün xalq şairi Səməd Vurğunun 90 illik yubileyinin respublika səviyyəsində qeyd edilməsi ərəfəsində Heydər Əliyev şairin ev-muzeyinə gəlmişdir [2, səh.290; 3,c.1,176; 8].

Xalq şairi Qabil, yazıçı-publisist Sirus Təbrizli, xalq şairi Mirvarid Dilbazi, şair Sabir Rüstəmxanlı, yazıçı Elçin çıxış edərək Heydər Əliyevin bütövlükdə ədəbi mühitə qayğı ilə yanaşdığını, milli mənəvi dəyərləri daim uca tutduğunu və Yazıçılar İttifaqının bütün problemlərini diqqətlə dinləyib aradan qaldırdığını vurğulayaraq bütün bunlara görə Heydər Əliyevə öz təşəkkürlərini bildirmişlər. Görüşün sonunda Heydər Əliyev 1970-ci ildə özünün tikdirdiyi və yaşadığı, lakin Moskvadan qayıtdıqdan sonra respublikaya rəhbərlik edən Rusiya xidmətgüzarları tərəfindən ona yaşaması qadağan olunan bu evdən boşalmış iki mənzilin birini Bəxtiyar Vahabzadəyə digərini isə Məmməd Araza hədiyyə etmişdir [3,c.1,317].

1997-ci il oktyabrın 29-da Heydər Əliyev Prezident Sarayında Azərbaycanın gənc nəsildən olan yazıçı və şairlərinin bir qrupu ilə görüşmüşdür [3, c.1, 319; 6, 25 noyabr 1997;]. Görüşdən məqsəd Heydər Əliyevin milli mənəvi dəyərlərin keşiyində durmasını gənc nəsilə çatdırmaq, onların yaradıcılığına qiymət vermək və qarşılarına çıxan problemləri aradan qaldırmaq olmuşdur.

1997-ci il oktyabrın 30-da Şəhriyar adına Mədəniyyət Mərkəzində Azərbaycan yazıçılarının növbəti X qurultayı keçirilmişdir. Qurultayda iştirak edən Heydər Əliyev dövlət tərəfindən Azərbaycan ədəbiyyatına, mədəniyyətinə diqqət yetirilməsini, qayğı göstərilməsini ən vacib məsələlərdən biri kimi qiymətləndirmişdir. [1, səh.431; 3,c.1,333; 6, 25 noyabr 1997].

Yazıçılar Birliyinin sədri Anar Yazıçılar Birliyinin Katibliyinin və Ağsaqqallar Şurasının 1998-ci ilin may ayının əvvəllərində keçirilmiş birgə iclasında Prezident Heydər Əliyevin Azərbaycan ədəbiyyatına göstərdiyi böyük diqqət və qayğısına, yazıçıların qurultaylarında, beynəlxalq ədəbi bədii tədbirlərdə iştirak etdiyinə, klassik və müasir Azərbaycan yazıçılarının yubileylərini müntəzəm keçirdiyinə görə və xalq üçün mühüm əhəmiyyət kəsb edən mərasimlərdə söylədiyi fikirlərin çox peşəkar, sanballı bir ədəbiyyatşünaslıq əsəri olduğunu nəzərə alaraq, bu müdrik insanın yekdilliklə Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü seçildiyini bildirmişdir.

1998-ci il oktyabrın 7-də Gəncə şəhərində şəhər sakinlərinin sevimli istirahət yeri olan Sərdar bağında Heydər Əliyevin göstərişi ilə tanınmış heykəltəraş Münəvvər Rzayevanın müəllifliyi ilə hazırlanmış Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Niğar Rəfibəylinin abidəsinin açılış mərasimi olmuşdur [3, c.1,204].

1999-cu il oktyabın 13-də Heydər Əliyevin göstərişi ilə Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı olmuşdur [2, səh. 290]. Heydər Əliyev Azərbaycan xalqının milli mənəvi dəyərlərinin əhəmiyyətli hissəsini təşkil edən ədəbiyyat sahəsinə ayırdığı diqqət və qayğı Azərbaycan xalqının milli varlığının qorunmasında ən böyük amildir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan ədəbiyyatı və incəsənitinin qorunması, inkişaf etdirilməsi istiqamətində apardığı intensiv fəaliyyətin nəticəsində milli mənəvi dəyərlərin bu sahələri köhnəlmək, məhv olmaq, biganə münasibətlə əhatə olunmaq kimi mənfi hallardan uzaqlaşdırılmışdır.

Artıq bu gün Azərbaycanın zəngin, qədim köklərə məxsus olan ədəbiyyatı və incəsənəti xaqın mənəvi həyatında, dövlət müstəqilliyinin möhkəmlənməsində öz töhfəsini verməkdədir.

**Açar sözlər:** Filarmoniya, Ankara, xalq şairi, dramaturq, yaradıcılıq, yubiley.

## Ədəbiyyat


1. Azərbaycan tarixi.Yeddi cilddə, (1941-2002), VII cild, Bakı, “Elm”. 2008. 608səh.+80səh.
2. Azərbaycan Respublikası 1991-2001. Bakı. XXI –Yeni Nəşrlər Evi, 2001. 360 səh.
3. Heydər Əliyev mədəni irsimizin keşiyində.1-2 cild Bakı: Nurol, 2001, 439 s.
4. Quliyeva X. Heydər Əliyev və mənəvi- estetik dəyərlər. Bakı: Azərnəşr, 2002,175 s.
5. Qaffarov T. Azərbaycan Respublikası əsrə bərabər on il, 1991-2000. Bakı: Tural- Ə.NPM, 2001, 325 s.
6. Xalq qəzeti. 1993-2002-ci illər
7. Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında. Bakı şəhəri, 16 mart 1994-cü il № 118/ https://e-qanun.az/framework/9790

**Hayder Aliyev's influence on Azerbaijan culture**

During Heydar Aliyev's leadership of Azerbaijan, the world-wide anniversaries of the "Kitabi-Dada Gorgud" epic, famous artists such as Fuzuli and Nasimi, the construction of the mausoleums of Molla Panah Vagif, Huseyn Javid, the erection of statues of Imadedin Nasimi, Nariman Narimanov, Jafar Jabbarli, the memorial complex of martyrs and the creation of other monumental works of art, the opening of home museums of our literary and cultural figures, architectural monuments such as "Gulistan" palace, Opera studio, Choreography school were significant events. All these were manifestations of the unprecedented rise of the national culture of the Azerbaijani people.

## HEYDƏR ƏLİYEV VƏ VERGİ SİYASƏTİ

**Gülanə İsayeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail isayevagulana@mail.ru

Ulu öndər Heydər Əliyevin apardığı vergi siyasəti nəticəsində Azərbaycanda müasir tələblərə cavab verən vergi sistemi yaradılmışdır. Heydər Əliyev vergi sisteminin inkişafına daim diqqət göstərmiş, bu sahədə verdiyi tapşırıqlar əsasən vergi sistemində milli dəyərlər nəzərə alınmaqla müasir standartlara uyğunlaşdırılması istiqamətində təkmilləşdirmələr aparılmasından,vergi sisteminin mütərəqqi prinsiplər əsasında formalaşdırılmasından ibarət olmuşdur. Özəl sektorun inkişafına diqqət və qayğı onun rəhbərliyi altında müəyyən edilən vergi siyasətinin mahiyyətini təşkil edir.

Müstəqilliyin ilk illərində Azərbaycanin bütün sahələrində olduğu kimi iqtisadiyyatda da tənəzzül gedirdi,büdcə gəlirlərinin azalması sosial iqtisadi problemləri kəskinləşdirirdi.Ulu Öndər Heydər Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində respublika iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən qurulub, makroiqtisadi sabitliyin möhkəmlənməsi və iqtisadiyyatın tarazlı inkişafının təmin olunması sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə başlanıldı. Həmin dövrdə iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olan vergi siyasətində də köklü dəyişikliklərin aparilması bir zərurət kimi qarşıda dururdu.

"Əgər biz müstəqil dövlətiksə , müstəqil inkişaf etmək istəyiriksə , biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik . Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik" tezisi ilə verginin aparıcı rolunu qeyd edən Ümummilli Lider Heydər Əliyev Vergilər Nazirliyinin yaradılması , Vergi Məcəlləsinin qəbul edilməsi və digər aidiyyəti qərarları ilə müstəqil Azərbaycan dövlətinin vergi sisteminin formalaşmasının təşəbbüskarı və banisidir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın vergi sisteminin dünya standartlarına uyğunlaşdırılması istiqamətində əsasını qoyduğu siyasət kursunu şərti olaraq iki mərhələyə ayırmaq olar:

1)1993-1999-cu illər;

2)1999-2003-cü illər;

Birinci mərhələdə yeridilən iqtisadi siyasətin əsas məqsədi ölkənin iqtisadi xaosdan çıxarılmasına , makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə , əlverişli investisiya mühitinin yaradılmasına , milli istehsalın artırılmasına nail olmaqdan ibarət idi.

O zaman respublikada həyata keçirilən irimiqyaslı islahatların tərkib hissəsi kimi vergilər sahəsində də köklü dəyişikliklər aparılmışdır. Aparılan uğurlu islahatlar nəticəsində inflyasiya və büdcə kəsiri minimuma endirilmiş , ötən əsrin doxsanıncı illərin birinci yarısında iqtisadiyyatda mövcud geriliyin qarşısı alınmış və uzunmüddətli böhrandan sonra iqtisadi artıma nail olunmuşdur. Eyni zamanda bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra vergi növləri haqqında yeni qanunlar qəbul edilmiş , onların normativ hüquqi bazası və həyata keçirilməsi mexanizmi formalaşdırılmışdır.

Müasir vergi siyasəti kursrunun ikinci mərhələsi 1999-cu ildən sonrakı dövrü əhatə edir. 1999-cu ildən başlayaraq respublikamızda vergi sisteminin kompleks islahatlarının planı işlənib hazırlanmışdır. 1999-cu ildən başlanmış islahatların ilkin mərhələsində bütün diqqət yeni vergi qanunvericiliyinin yaradılmasına , inzibati idarəetmənin yaxşılaşdırmasına və vergilərin dövlət büdcəsinə tam səfərbər olunmasına yönəldilir.

Müasir vergi sisteminin formalaşdırılması sahəsində Ümummilli lider Heydər Əliyevin qərarı ilə yeni inkişaf mərhələsinə Vergilər Nazirliyinin yaradılması ilə start verildi. Azərbaycan Respublikası prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanına əsasən Baş Dövlət Vergi müfəttişliyinin bazasında Azərbaycan Respublikası Vergilər Nazirliyi yaradıldı.

Vergilər sahəsində əldə edilmiş ən böyük uğurlar sırasına, ilk növbədə 2001-ci ildə Vergi Məcəlləsinin qəbul edilməsi və təkmil qanunvericilik bazasının yaradılması daxildir. Vergi Məcəlləsinin qəbul edilməsi islahatların genişləndirilməsi üçün təkan rolunu oynadı. Bu dövrə qədər vergi siyasəti faktiki olaraq vergitutma sahəsində qəbul edilmiş bir sıra qanunlar və digər normativ - hüquqi aktlarla tənzimlənirdi. Onların da çoxu ölkədə aparılan iqtisadi islahatların tələblərinə cavab vermirdi, bir-birilə ziddiyyət təşkil edirdi, sahibkarlığın inkişafına maneçilik törədirdi, investisiya mühitinə şərait yaratmırdı.

1999-2003-cü illəri Azərbaycanın vergi xidmətinin mühüm islahatlar dövrü kimi qeyd etmək olar. Belə ki, 1999-cu ildən başlanmış islahatların ikinci mərhələsində bütün diqqət bu istiqamətlərə yönəldildi:

- Vergi sisteminin kompleks islahatlarının planının işlənib hazırlanmasına;
- Vergilərin dövlət büdcəsinə tam səfərbər olunmasına;
- Təkmil vergi qanunvericiliyinin yaradılmasına;
- İnzibati idarəetmənin yaxşılaşdırılmasına.

Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9 vergi növü təsbit olundu.Əksər vergi dərəcələri aşağı salındı, aksizə cəlb olunan malların siyahısı azaldıldı. Eyni zamanda, Vergi Məcəlləsinə əsasən vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının

hüquq və vəzifələri qaydaları müəyyən edildi. Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ölkədə sabit vergi mühitinin yaradılmasına, vergi yükünün azaldılmasına, vergi güzəştləri sisteminin tətbiq edilməsinə, azad sahibkarlığın stimullaşdırılmasına ,vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına xidmət edən müddəalar Vergi Məcəlləsinə daxil edilmişdir.

Müdrik siyasətçi Heydər Əliyev respublikada milli istehsalın stimullaşdırılması, əlverişli investisiya mühitinin yaradılması və azad rəqabətin təmin olunmasına çox böyük üstünlük verirdi. Bu baxımdan, Heydər Əliyevin bilavasitə göstərişi əsasında bir sıra qanunlar hazırlanaraq qəbul edilmişdir. Bu sənədlər kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi, özəlləşdirilən dövlət müəssisələrinin və digər təsərrüfat subyektlərinin vergi borclarının silinməsi, əhalinin əmanətləri üzrə, ödənilən faiz məbləğlərindən, habelə investisiya qiymətli kağızları üzrə divident və faizlərdən gəlir vergisinin tutulması üzrə güzəştlərin müəyyən edilməsini nəzərdə tuturdu. Ölkədə böyük iqtqsadi dəyişikliklilklərin baş verməsi iqtisadiyyatın sürətli inkişafı, vergi yükünün azaldılması və vergilər sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi ilə müşayiət olunmuşdur. Vergi siyasətinin əsas istiqamətlərinə müvafiq əlavə və dəyişikliklər “Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası qanunlarında öz əksini tapmışdır. Eyni zamanda Azərbaycan Respublikasında iqtisqdi siyasətin tərkib hissəsi olan vergi islahatları müəyyən prinsiplərə əsaslanırdı. Bu prinsiplər aşağıdakılardır:

- Ümumi məqsədyönülük, yəni vergi sisteminin qurulmqsında və səmərələliyinin artırılmasında onun  iqtisadi inkişafa təsiri başa düşülür;
- Sadəlik, yəni vergilərin müəyyən edilməsi və onların yığılması sahəsində hər cür süni çətinliklərin aradan qaldırılması, tətbiq olunan çoxsaylı hesabat formalarının sayının azaldılması və müəssisələrin mühasibat bölmələrinin işindəki gərginliyin azaldılması;
- Fiskal səmərəlilik, yeni dövlətin və vergi ödəyicilərinin vergilərin yığılması ilə bağlı xərclərinin vergi daxilolmalarından dəfələrlə  az olması, əks halda dövlətin əsas xərclərinin maliyyələşdirilməsinə vəsait çatmamazlığı olar;
- Vergiləri ödəməkdən yayınma meyilərinə sədd çəkilməsi, yəni bu və ya digər verginin tətbiqi və onun yığılması qaydalarının müəyyən edilməsi zamanı onun ödənilməsindən yayınmanın və beləliklə də iqtisadiyyatın və bütövlükdə, cəmiyyətin kriminallaşmasının qarşısının alınması üçün müvafiq normativ-hüquqi bazasının hazırlanması və onun tətbiqi;
- Universallıq, yəni dərəcələrinin və gəlirlərinin bölüşdürülmə normativlərinin maksimum universallığının təmin edilməsi müxtəlif kateqoriyalı vergi ödəyicilərinə, sahələrə və fəaliyyət növlərinə vergitutma məqsədi ilə yanaşma müxtəlifliyinin təmin edilməsi;
- Büdcənin və vergi ödəyicilərinin gəlirlərinin infiliyasiyadan müdafiəsi, yəni büdcənin maraqları çərçivəsində infilyasiya artımının nəzərə alınması, vergi ödəyicilərinin müflisləşməsinin və vergiyə cəlb olunan bazanın azalmasının qarşısının alınması, vergi ödəyicilərinin hüquqlqrının qorunmasının maksimum təmin edilməsi.

Daim diqqət mərkəzində olan məsələlərdən biri vergi nəzarətinin təşkil olunması idi. Bu məqsədə nail olmaq üçün 2001-ci ildə xüsusi bir struktur olan Vergi cinayətinin ilkin araşdırılması

idarəsi yaradıldı. Bu struktur irimiqyaslı vergidən yayınma hallarına hüquqi qiymət verirdi. Vergi nəzarətinin təmin edilməsi, vergi cinayətlərinin araşdırılması sahəsində vergi orqanına belə səlahiyyət verməklə yanaşı, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Prezident fərmanı ilə digər qurumların biznesin işinə müdaxilələrin qarşısı alındı. Bütün bunlar son nəticədə vergi inzibatçılığının əhəmiyyətli şəkildə yaxşılaşmasına, vergilərin məcburi yığılmasından tədricən könüllü ödəməyə keçidə şərait yaratdı.

Son 30 ildə Azərbaycanın sosial-iqtisadi və siyasi sahədə qazandığı bütün uğurlar xalqın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, vergi sisteminin inkişafı bilavasitə ulu öndər Heydər Əliyevin gərgin əməyinin nəticəsidir. Vergi xidməti orqanlarının fəaliyyəti Azərbaycanın müstəqillik əldə etməsi dövründən başlasa da vergi sisteminin inkişaf mərhələsi məhz dahi öndərin dövlət kürsüsünə yenidən qalxmasından sonrakı dövrə təsadüf edir. Bu gün vergi sisteminin yenidən qurulması prosesinə nəzər saldıqda nə qədər böyük dəyişikliklərin şahidi ola bilərik.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sisteminin son illər ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında əsaslı modernizasiya prosesi keçib, onun maddi texniki bazası genişləndirilib. Ölkə Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuş Azərbaycanda çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara cavab verən vergi sistemi formalaşıb.

**Açar sözlər:** vergi sistemi, vergi siyasəti, vergi qanunvericiliyi, vergi islahatları.

## Ədəbiyyat

1. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.N., Vergilər və vergitutma, Dərslik, Bakı, 2010, 512s.
2. Musayev A.F., Məmmədov Ə.C., Ünvanlı vergi xidməti, Vergi ödəyicilərinin məlumat kiyatı, Bakı, 2013, 288s.
3. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q., Xarici ölkələrin vergi sistemi, Bakı: İqtisad Universiteti, 554 s. 2011.

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİNİN UĞURLARI

**Ləman İsayeva**
Azərbaycan Dillər  Universiteti, Bakı, Azərbaycan
e-mail leman.isayeva99@gmail.com

Bütün xalqlar dahi şəxsiyyətləri ilə tanınır. Bu şəxsiyyətlər xalqının sahib olduğu dünya görüşünü, mədəniyyətini, elmini, incəsənətini dünya xalqlarının gözləri önünə sərir. Dünya sərvətinin bir hissəsi olan bu dahilərin fəaliyyətləri nəticəsində dünyanın zənginliyi artan xətt üzrə inkişaf edir və etməyə də davam edəcək. Hər bir xalq, hər bir dövlət inkişaf tarixində, xalqını, millətini, yurdunu qəlbən sevən, onu zəfərə, dar günlərdə gün işığına doğru aparan rəhbərə, şəxsiyyətə hər zaman ehtiyac duyur. Sözün həqiqi mənasında, vətəninə, xalqına candan bağlı olan vətəndaş, tarixi şəxsiyyət və ümumilli lider kimi üç keyfiyyəti özündə cəmləşdirən dahi şəxsiyyət Heydər Əliyevin xalqının tarixi alın yazısında tutduğu mövqeyi əvəz edilməzdir. Atalarımız doğru qeyd ediblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin və hər kəsin doğru qiymətini verir. Zaman irəlilədikcə xalq olaraq ümumilli lider Heydər Əliyevin müdrikliyini, yurdunu, elini, obasını, vətənini, xalqını qəlbən sevib və dəyər verdiyini daha parlaq şəkildə dərk edirik. Bu siyasi lider bütün fəaliyyəti dövrünü bütün dünyanın parlaq və xoşbəxt gələcəyi naminə mübarizəyə həsr etmişdir. Heydər Əliyev bütün xalqın gözü önündə qısa bir zaman çərçivəsində misilsiz bir tarixin əsasını qoymuş, xalqımızın bütövlükdə türk dünyasının tarixi şəxsiyyəti kimi qüdrətli hörmət sahibi olmuşdur. Türk dünyasında fəxr və qürur hissi ilə anılan dahi şəxsiyyət Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi böyük dühalardan biridir. Konstitusiyamızın qəbulu, hüquq və qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, hakimiyyətlərin bölgü prinsipinin aydınlaşdırılması, müasir idarəetmə üsullarının müəyyənləşdirilməsi Heydər Əliyevin quruculuq siyasətinin əsas amillərindəndir. Heydər Əliyevin 23 may 2001-ci il 724 nömrəli sərəncamına əsasən, 2001-ci il 9 noyabr tarixində Bakı şəhərində “Dünya AzərbaycanlılarınınI Qrultayı” keçirildi. Qurultay xaricdə yaşayan azərbaycanlıların vahid azərbaycançılıq ideologiyası ətrafında cəmlənməsində əsas amil olmuşdur. Qurultayda Heydər Əliyev bu müdrik kəlamları ilə çıxış etmişdir: “Hər bir insan öçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli, mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.

Vətən oğlu

Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum-yurdumuzun mayakı.
Şeir də bir təsəllidir, yazırıq.
Adın-sanın yenilməz bir ordudu,
İndi odlar diyarının özüsən...

Azərbaycan Heydərlərin yurdudu,

Gələcəyə baxanların gözüsən. (Fikrət Qoca)

Heydər Əliyev: “Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi”. Heydər Əliyev hakimiyyətinin ilk dövrlərindən bəri Azərbaycan kənd təsərrüfatına, sənaye, bir sözlə xalq təsərrüfatının bütün istiqamətlərinə dair bir sıra əhəmiyyətli tədbirlər görmüşdür. Heydər Əliyev 1970-ci ildə “Azərbaycan kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında”, 1975-ci ildə “Azərbaycan kənd təsərrüfatı istehsalını daha da intensevləşdirmək tədbirləri haqqında”, 1976-cı ildə “1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında”, 1979-cu ildə “Azərbaycan kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında” kənd təsərrüfatının inkişafını nəzərdə tutan bir sıra qanun layihələri qəbul etmişdir. Heydər Əliyev meliorasiya və su təsərrüfatının iqtisadiyyatın ən əsas da kənd təsərrüfatının inkişafında vacib amil olduğunu vurğulayaraq, bu yöndə tədbirlərin görülməsini və bu sahəyə kifayət qədər vəsait ayrılmasını tələb kimi qoydu. 1969-1982-ci illər zaman çərçivəsində müasir meliorasiya və irriqasiya tədbirlərində nəzərəçarpacaq dərəcədə inkişaf müşahidə edilmişdir. 1966-1970-ci illər ilə müqayisədə 1971-1975-ci illərdə meliorasiya işlərinə ayrılan vəasaitin miqdarı iki dəfə artırılaraq 580 milyon manatdan çox vəsait xərclənmişdir. 1969-1982-ci illər zaman çərçivəsində ümumilikdə Heydər Əliyev tərəfindən meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan çox vəsait ayrılmışdır ki, bu da sovet hakimiyyətinin bu sahəyə 50 il ərzində ayırdığı vəsaitdən təqribən iki dəfə çox idi. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə iqtisadi sahədə islahatlar prosesini başlatmışdır. Heydər Əliyev iqtisadi islahatların aparılmasında iqtisadi sabitliyin mövcudluğunun vacibliyini hər zaman vurğulayırdı. “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatının maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında” 1994-cü il 15 iyun tarixli fərmanı uzun zaman iqtisadiyyatımızın, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında müsbət təsir dairəsinə malik olmuşdur. Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının dirçəldilməsində Heydər Əliyev dövrünü üç pilləyə ayırmaq olar: 1. 1993-1995-ci illər; 2. 1995-1998-ci illər; 3. 1998-2008-ci illər. İqtisadi inkişaf baxımından bölgüdə birinci mərhələdə Heydər Əliyevin əsas prinsipi iqtisadiyyatın canlandırılması və iqtisadiyyatın sakit temp üzrə artımını formalaşdıran prespektivlərə nail olunması idi. İkinci mərhələdə isə Heydər Əliyev əsas diqqəti iqtisadiyyatın formalaşdırılması, ölkə iqtisadiyyatını bazar prinsiplərinə uyğunlaşdırmaq və ən əsasda iqtisadiyyatımızın dünya iqtisadiyyat sektoruna əlverişli inteqrasiyası məsələləri ətrafında cəmləmişdir. Üçüncü mərhələdə isə iqtisadiyyatın artıq sürətli bir şəkildə inkişafı planlaşdırılırdı. Danılmaz bir faktdır ki, Heydər Əliyevin iqtisadiyyat sahəsində apardığı quruculuq və təkmilləşdirmə işləri nəticəsində özəl sektorun inkişafı üçün şərait yaradılmışdır. Heydər Əliyevin

idarəçilik zamanında hələ yalnız 1994-cü ildə kənd təsərrüfatın təkmilləşdirilməsinə dair səkkiz müşavirə və bir beynəlxalq konfrans keçirilmişdir. 1994-cü il 23 dekabr tarixində iqtisadi islahatlara dair keçirilən sonuncu respublika müşavirəsində Heydər Əliyev, kənd təsərrüfatında iqtisadi islahatların reallaşdırılması, mövcud mülkiyyət formasını yeniləmək, torpaq islahatları aparmaq, sərbəst iqtisadiyyatı formalaşdıran tədbirlərin reallaşdırılması kimi məsələlərin Azərbaycan iqtisadiyyatının dirçəldilməsində vacib bir məsələ olduğunu vurğulamışdır. 1997-ci il 10 yanvar tarixli, "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" fərmanın imzalanmasından sonra islahatlar daha da sürətlə reallaşdırılmağa başlanılmışdır. Azərbaycan Respublikasının 1998-ci il 22 dekabr tarixində "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında", 1999-cu il 12 mart tarixində "Torpaq icarəsi haqqında", 1999-cu il 7 may tarixində "Torpaq bazarı haqqında", 1999-cu il 25 iyun tarixində "Azərbaycan Respublikası Torpaq məcəlləsi" haqqında qanun layihələrinin qəbul edilməsi ölkəmizdə islahatların müvəffəqiyyətli bir şəkildə reallaşdırılması prosesində əsas konsepsiyalardan biridir. Heydər Əliyev ölkədə keçirilən islahatlar barəsində fikirlərini bu ifadələri ilə ifadə etmişdir: "Biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu, hələlik başlanğıcdır". Ölkəmizdə reallaşdırılan aqrar islahatların "Heydər Əliyev aqrar islahatları" kimi anılmasını tərəddüdsüz bir şəkildə söyləyə bilərik.

Heydər Əliyev Azərbaycan Respublikasını, xalqını, millətini və Respublikamızın, xalqımızın, millətimizin gələcəyini İlham Əliyev Cənablarına əmanətini bu sözləri ilə ifadə etmişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyiniz ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

**Açar sözlər**: iqtisadi siyasət, inteqrasiya, kənd təsərrüfatı, torpaq islahatı.

## Ədəbiyyat

1. Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.45-77.
2. https://az.wikipedia.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n%C4%B1n_Qurultay%C4%B1
3. Azər Y.T., Azərbaycan Respublikasının kənd təsərrüfatında özəl sektorun formalaşması və inkişafı tarixindən, Bakı, 2017, s.17-23.

## Successes of Hayder Aliyev's economic policy

All nations are know for their geniuses. Every nation always needs a personality that ensures its development. These personalities spread the world view, culture, science and art of their people before the eyes of the peoples of the world. As a result of the activities of these geniuses, who are a part of the world`s wealth, the wealth of the world is developing on an increasing line and will contiune to do so.

# ГЕЙДАР АЛИЕВ И ФОРМИРОВАНИЕ ИНСТИТУЦИОНАЛЬНЫХ ОСНОВ РЫНОЧНОЙ ЭКОНОМИКИ В АЗЕРБАЙДЖАНЕ

**Али Исмаилзаде**
Университет Азербайджан, Баку, Азербайджан
e-mail: aliaga68@mail.ru

Согласно институциональной теории, любая экономическая система представляет собой совокупность определённых институтов, определяющих условия и характер её деятельности. Институты являются производными человеческой деятельности [3,с.62; 5,с.69-76].

В переломные периоды развития истории резко возрастает спрос на исторические личности, которые объединяют страну, становятся её национальным лидером и ведут её на строительство новых политических, социально-экономических институтов.

Подобная историческая ситуация сложилась в Азербайджане в начале 90-х годов XX века, когда слом старых, изживших себя, административно регулируемых социалистических институтов дополнился внешней армянской агрессией. В этих сложнейших условиях крушения всей экономической системы страны, президентом республики, согласно всенародному волеизлиянию, был избран Г. Алиев. Первоочередной задачей, к решению которой он приступил, явилось стабилизация политической ситуации в стране, являющихся внешними факторами экономической деятельности.

Решение проблемы политической стабильности в стране, позволило перейти к решению следующей важнейшей задачи: достижению экономической стабильности, путём достижения экономического равновесия. Этого удалось достичь путём введения в стране жёсткой, консервативной денежно-финансовой политики и начала малой приватизации в стране. В 1992-1995 годах становление экономического равновесия было подкреплено принятием таких важнейших законов рыночной экономики, как «Закон о частной собственности», «Закон о земле», «Закон о занятости», «Закон о приватизации». Принятие в эти годы перечисленных юридических актов позволило ускорить продвижение Азербайджана по пути перехода от централизованно-административной экономики, к либерально-демократической рыночной экономике, высвободить внутреннюю предпринимательскую энергию азербайджанского народа, превратить их из декларативных социалистических собственников богатства своей страны в реальных, рыночных держателей национальных активов, заложить основы формирования среднего класса общества, как наиболее мощного социально-экономического стабилизатора новой, рыночной социально-экономической системы. В период руководства Гейдара Алиева были приняты более 70 законов, подписаны свыше 100 указов и распоряжений, утверждены до 30 государственных

программ по урегулированию отраслей экономики. Практические результаты предпринятых мер нашли своё отражение в конкретных экономических показателях республики за 1995-2003 годы. Так, годовая инфляция снизилась с более, чем 1763% в 1994 году до 2-4% в 2003 году[1, с.17]. В 1995-2003 годах валовой внутренний продукт увеличился на 90,1 процента, доходы государственного бюджета – в 3,9 раза, валютные резервы страны – в 85 раз, объем промышленной продукции – на 22,4 процента, сельскохозяйственное производство – на 52,8 процента, внешнеторговый оборот – в 4 раза, средняя заработная плата занятых в экономике – 6,2 раза, уровень инфляции снизился до 2-3 процентов [4].

Ускорение экономического развития республики требовала привлечение зарубежных инвестиций и передовых технологий. Титанические усилия Г. Алиева позволили республике решить и эти глобальные проблемы. В результате заключения «Контракта века» в 1994 году, начала реализации дорожно-транспортной системы TRACECA, транспортного коридора «Север-Юг», за 1995-2003 годы удалось привлечь в республику 20 миллиардов долларов иностранных инвестиций, превратить республику в активного и надёжного экономического партнёра наиболее развитых стран мира.

Таким образом, вышеперечисленные реформы, реализованные Г.Алиевым в бытность его президенства, позволили заложить основы долгосрочной, успешной стратегии социально-экономического развития Азербайджана, расширение и углубление которой проводит ныне действующий президент И.Алиев.

**Ключевые слова:** институциональная теория, закономерность, маржинализм, личность, бизнес.

### Литература


1. Azərbaycanda qiymətlər, Baki, 2022, s.17.
2. Amirov N. Стратегия глубоких экономических реформ. https://azertag.az/ru/xeber/,26.04.2017
3. Веблен Т. Теория праздного класса. https://gtmarket.ru/library/basis/5890/5893
4. Blaug M. The economic theory in retrospect, Mark Blaug, 1997, p. 277.
5. Джон Р. Коммонс. Институциональная экономика. Terra Economicus, 2012, Том 10 № 3, с.69-76.
6. Garten G.E. Business and Foreign Policy // Foreign Affairs. May/June, 1997. p. 67-79.

# HEYDƏR ƏLİYEV VƏ " ƏSRİN MÜQAVİLƏSİ". İQTİSADİ ASPEKTİN TƏHLİLİ

**Günel İsmayılova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail igunel892@gmail.com

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya birliyinin həqiqi üzvü kimi özünün suverenlik hüquqlarını həyata keçirərək, dünya ölkələrinin əksəriyyəti ilə siyasi və iqtisadi əlaqələr qurmağa başladı. Müstəqilliyin ilk illərində özünün ən çətin anlarını yaşayan Azərbaycan Respublikası ölkəni hərtərəfli bürüyən böhran vəziyyətindən çıxarmaq üçün özünün ən qiymətli təbii sərvəti olan neft amilindən istifadə edərək dünyanın ən yüksək inkişaf etmiş aparıcı dövlətləri və iri neft şirkətləri ilə əlaqələr yaradıb müstəqil sosial-iqtisadi və siyasi xətt həyata keçirməyə başladı [1].

Heydər Əliyevin uzaqgörənliyi və uğurlu iqtisadi siyasəti nəticəsində milli sərvətmiz olan neft xalqımızın rifahının yüksəldilməsinə, iqtisadiyatmızın güclənməsinə, dövlətimizin möhkəmləndirilməsinə yönəldilmişdir hər zaman.

Əsrin müqaviləsi Dövlət Neft Şirkəti ilə Azərbaycan arasında dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə Hasilatın pay bölgüsü sazişinin imzalanması yenicə müstəqillik qazanmış ölkəmiz üçün tarixi hadisə idi. Bu müqavilə ümummilli lider Heydər Əliyevin gərgin zəhməti hesabına gerçəkləşdi. Ulu öndər həmin sazişə təkcə Azərbaycana firavanlıq, sosial rifah gətirəcək iqtisadi sənəd kimi baxmırdı. O, "Əsrin müqaviləsi"ni, həm də Azərbaycanın istiqlalını qoruyacaq saziş kimi dəyərləndirirdi [3].

Əsrin müqaviləsi yeni neft strategiyasının əsasını qoydu. Müqavilə 1994-cü ilin sentyabrn 20- də imzalanmışdır. Müqavilə 8 dövlətin 11 xarici neft şirkətinin işdirakı ilə yaradılan ARDNŞ-lə imzalanmış Hasilatın Pay Bölgüsü (HPB) sazişidir.

"Əsrin müqaviləsi" adını almış Hasilatın Pay Bölgüsü Sazişini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir "Azərbaycanın azad iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməsi üçün, dünya iqtisadiyyatına sıx bağlanması üçün bu sənədin çox böyük əhəmiyyəti var" [2].

Əsrin müqaviləsi" imzalandıqdan sonra müqavilə üzrə danışıqlar davam etdirilərək texniki, maliyyə və təşkilati işlərin həyata keçirilməsi üçün Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaradılıb. Bu qurumların fəaliyyəti 2 dekabr 1994-cü ildə Azərbaycan Prezidentinin xüsusi fərmanı ilə təsdiq edilərək hüquqi qüvvəyə minib. "Əsrin müqaviləsi"nin mətni 12 dekabr 1994-cü il tarixində Azərbaycan Respublikasının

Milli Məclisi tərəfindən ratifikasiya edilib. Müqavilənin həyata keçirilməsi üçün lazımi hüquqi baza yaradıldıqdan sonra konkret işlərin həyata keçirilməsinə başlanıb [4].

Müqavilə Azərbaycanın digər böyük lahiyələr yaratmasına zəmin yaratmışdır.Azərbaycanın dünya bazarında özünə ehdibarlı güvənilir müttəfiqlər tapmışdır.Müqavilədən sonra ilk neft hasilatına 1997 – ci ildə çıxarılmışdır. Hasilatdan sonra Azərbaycan dövlətinin gəliri ilbə il artmışdır.Müqavilə imzalandığı gündən cari zamandək 440 milyon ton neft hasil olunmuşdur və 125 milyon dollardan çox məənfət əldə edilmişdir.

**Açar sözlər**: Heydər Əliyev, neft, Əsrin müqaviləsi, sosial, iqtisadi, strategiya.

## Ədəbiyyat


1. Məsimov A.X., BP-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti, Bakı: Elm və Təhsil, 2018, 256s.
2. Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir, İkinci kitab, Bakı: Azərnəşr, 1997, 604s.
3. http://e-kitab.ameanb.nmr.az/QezetSekilleri/xalq.pdf
4. https://lib.aliyevheritage.org/az/917277.html


# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ VƏ TÜRK DÜNYASI

**Günel İsmayılova**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
e-mail : filoloq2021@gmail.com

Azərbaycanın əvəzolunmaz lideri, görkəmli, dahi şəxsiyyəti Ulu Öndər Heydər Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın ən qədim və gözəl guşələrindən biri olan Naxçıvan şəhərində anadan olmuşdur. Tarix türklərə saysız-hesabsız ziyalılar, sərkərdələr, döyüşçülər, siyasətçilər, elm xadimləri bəxş etmişdir. Bu şəxsiyyətlər nəinki Türk tarixi və coğrafi ərazilərində, dünya coğrafiyasında da şanslı-şöhrətli tarix yazmışlar. Türk dünyası və türklərin yaşadığı coğrafi area hər zaman yadelli işğalçıların diqqət mərkəzində olmuşdur. Ona görə də Qafqaz regionunda türk yurdunun bütöv və sabit qalması üçün çox ağıllı, uzaqgörən, savadlı, dünyagörüşü olan və həyat məktəbi keçmiş vətənpərvər, xalqını, millətini və vətənini sevən siyasətçilərə ehtiyacı olmuşdur. O, siyasətçilər xalqın içində milli şüur, milli birlik və milli oyanış hərəkatının oyanmasında müstəsna rol oynamışlar. Xalq məhz o siyasətçilərin ətrafında birləşmiş və onların ardıyca getmişdir. Türk soyu və türk tarixi bu coğrafiyada iki böyük şəxsiyyət ilə gürur duyur. Türk dünyası bu iki lider ilə XX əsrdə dünya siyasət meydanına çıxmışdır. Onlardan biri Mustafa Kamal paşa Atatürk idi, digəri Ulu Öndər Heydər Əliyev idi. XX əsrdə iki böyük lider türk torpağlarının və xalqının bölünməsinin, dağılmasının və xalq kimi digər qəsbkar dövlətlərin əsarətinə düşərək yox olub getməsinin qarşısını almışdır. XX əsrin I yarısında Türkiyədə Mustafa Kamal Atatürk idisə, XX əsrin II yarısında Azərbaycanda Ulu Öndər Heydər Əliyev idi. Ulu Öndər nəyinki türk coğrafiyasında eləcədə beynəlxalq aləmdə öz sözünü demiş siyasətçilər idi [2, s.98-100].

Ulu Öndərin uzaqgörənliyi, elmi, savadı, zəkası sayəsində Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan digər kiçik dövlətlər kimi tarixin şanlı səhifələrində xatirə olaraq qalmadı. O, bu dövləti, milləti yox olmadan qoruyub saxlaya bildi. Əgər Heydər Əliyev o qarışıq dövrlərdə siyasət meydanına gəlməsəydi və xalqa rəhbərlik etməsəydi, türk coğrafiyasında bizlər də işğalçıların və qəsbkarların əsarətində xəritədən silinərək yox edilmişdik. Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onun həm ölkə daxilində, həm də ölkə xaricində xidmətlərini sadalamaqla bitməz [3, s.6].

Türkdilli xalqların inteqrasiyası yolunda Ulu Öndərin göstərdiyi təşəbbüs və təkliflər bu gün geniş coğrafiyada birgə əməkdaşlığa yol açmışdır. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində Türk dünyası yazıçılarının III qurultayı keçrilmişdir. Qurultayda dili, milləti, dini, adət-ənənəsi, mənəviyyatı bir olan türk xalqlarının birliyinə çağırış edilməsi və regionda güclü dövlət kimi formalaşmasına çağrışlar edilmişdir. 1993-cü ildə Heydər Əliyevin ölkəmizə hakimiyyətə qayıdışı ilə Sovet İttifaqi tərkibində yaşayan türksoylu dövlətlərin bu ittifaq dağıldıqdan sonra yenidən birləşməsi və əməkdaşlıq etməsindən Heydər Əliyevin rolunu qeyd etməliyik. Heydər Əliyev məhz çətin bir dönəmdə xarici qüvvələrin at oynatdığı bir vaxtda siyasət meydanına gələrək Türk xalqları ilə qarşılıqlı əməkdaşlığın və birgə fəaliyyətin vacibliyini irəli sürmüşdür [ 3, s.7].

Heydər Əliyevin 1994-cü il 9 fevral qardaş ölkəyə ilk rəsmi səfəri zamanı Türkiyə Böyük Millət Məclisində etdiyi tarixi çıxışında Azərbaycanın MDB-yə daxil olmasının səbəbini açıqlayır: “Biz bu birliyə daxil olmaqla nə uduzduq? Heç nə uduzmadıq, amma qazandığımız o oldu ki, vaxtilə möhkəm, sıx əlaqələrimiz olan respublikalarla əlaqələri saxlayaraq iqtisadiyyatımızın inkişafı üçün müəyyən şərait yaradırıq”. Bu ölkələrin sırasında Türksoylu xalqlar üstünlük təşkil edirdi.Heydər Əliyev iki ölkənin strateji tərəfdaşlığının tarixi formulunu da bəyan edərək belə deyir: “Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir”. Sonralar dillər əzbəri olan bu sözlər ölkələrimizin qardaşlıq münasibətlərinin simvoluna çevrildi. Heydər Əliyev böyük neft-qaz layihələri həyata keçirərkən Türkiyəni kənarda qoymamışdır. Azərbaycan 1994-cü ildə xarici neft şirkətləri ilə ilk müqaviləni (“Azəri-Çıraq-Günəşli”) imzalayanda Türkiyənin payı (TPAO şirkəti) cüzi - 1,75 faiz idi. Bunun əsas səbəbi türk şirkətinin müqavilə üzrə danışıqlara gec qoşulması, Qərb sərmayədarları ilə müqayisədə astagəllik etməsi olmuşdur. Buna görə sonradan Heydər Əliyev Azərbaycanın layihədəki payı hesabına Türkiyəyə əlavə 5 faiz ayrılması barədə qərar vermişdir. Heydər Əliyevin səyi nəticəsində Türkiyə «Əsrin müqaviləsi»nin mühüm iştirakçılarından birinə çevrildi. Azərbaycanın 1996-cı ildə imzaladığı ikinci böyük müqavilə - «Şahdəniz» layihəsində Türkiyəyə daha yüksək - 9 faiz pay ayrıldı. Ümumilikdə Azərbaycanın həyata keçirdiyi ayrı-ayrı neft-qaz layihələrində Türkiyə 35 faiz pay əldə etdi.Türkiyə və türksoylu ölkələr arasında sıx əməkdaşlığın yaradılması və gələcəkdə də davam etdirilməsi təşəbbüsü məhz Heydər Əliyevə məxsusdur [ 4, s.3].

Türk dövlətləri və toplumlarının inteqrasiyasının mühüm bir istiqamətini mədəni əməkdaşlıq, müştərək mədəni layihələr təşkil edir. Dərin tarixi köklərə malik bağların yeni şəraitdə inkişaf etdirilməsi və dünyada tanıdılması üçün, Beynəlxalq Türk Mədəniyyət Təşkilatının - TÜRKSOY-un formalaşması vacib idi.Bir çox layihələrin reallaşmasında Heydər Əliyevin rolu sayəsində

mümkün olub. Heydər Əliyev türk xalqlarının mədəni abidələrinin, böyük ədiblərinin, şəxsiyyətlərinin yubiley mərasimlərində hər zaman yaxından iştirak edir və xalqlarımızın ümumi mədəni sərvətinin bizi birləşdirən tarixi dəyər olduğunu diqqətə çatdırırdı. Bu fikir 1994-1996-cı illərdə türkmən şairi Məhdimqulunun, qazax ədəbiyyatının klassiki Abayın, böyük özbək hökmdarı Əmir Teymurun, qırğız eposu “Manas”ın yubiley mərasimlərindəki çıxışlarının ana xəttini təşkil edib [ 3, s. 7].

Heydər Əliyev 1996-cı ilin noyabrında dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi, 2000-ci ilin aprelində isə böyük türk eposu “Kitabi-Dədə Qorqud”un 1300 illiyini qeyd etmək üçün türk dünyasının təmsilçilərini, dövlət və hökumət adamlarını, alim, şair və yazıçıları, mədəniyyət xadimlərini Bakıya topladı. UNESCO səviyyəsində qeyd olunan bu möhtəşəm yubileylər, eyni zamanda, ümumtürk mədəniyyətinin təntənəsi kimi yadda qaldı. “Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı,"Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir”, - deyərək Heydər Əliyev 2000-ci il aprelin 8-də eposun 1300 illiyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə bildirmişdi.Ümumiyyətlə Ulu Öndər Heydər Əliyevin siyasəti, şəxsiyyəti, gördüyü işlər saysız-hesabsız bir ümmandır. O, elə bir şəxsiyyətdir ki, Türk dünyası onu əsrlər keçsədə unutmayacaq və Heydər Əliyev şəxsiyyəti həmişə hər bir azərbaycanlının qəlbində xoş xatirələrlə anılacaq.

**Açar sözlər:** milli şüur, milli birlik, Ulu Öndər, türksoylu, inteqrasiya.

## Ədəbiyyat

1. Xalq qəzeti, 2013, 8 may, s.8.
2. İsmayılov İ., Azərbaycan Türkiyə mədəni əlaqələri XX əsrdə, Bakı, Azərbaycan Dövlət Neft Akademiyası nəşriyyatı, 2004, s.154.
3. Mədəniyyət q., 2013, 3 aprel, s.6,7.
4. Respublika q., 2017, 4 iyun, s.3.

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ПОПУЛЯРИЗАЦИИ КУЛЬТУРНОГО НАСЛЕДИЯ АЗЕРБАЙДЖАНА-ЛЯНКЯРАН

**Наиля Исмаилова**
Институт Архитектуры и Искусства (НАНА), Баку, Азербайджан
e-mail naileqabil@mail.ru

В период руководства Общенационального лидера Гейдара Алиева (1969-1982 гг.; 1993-2003 гг.) была возрождена культура государства с древними народными традициями, что стало большим поворотным пунктом в национально-культурном возрождении, а в будущем - фундаментальной экономической и культурной почвой для восстановления независимой государственности. Велась большая работа по укреплению национально-духовного самосознания, возвращению народу его исторической памяти. Гейдар Алиев придавал особое значение вопросам пропаганды жизни и творчества выдающихся личностей Азербайджана, издания произведений, создания домов-музеев [4].

Гейдар Алиев прибывал с визитом в Лянкяран 6 раз – в 1973-ем, 1974-ом, 1976-ом, 1979ом, 1982-ом и 1998-ом годах, интересовался общественно-политической жизнью региона, проблемами населения, принимал важные решения с целью дальнейшего развития и прогресса всего субтропического региона в целом и ставил соответствующие задачи перед руководством отдельных министерств и комитетов [2].

Лянкяран один из туристических центров Азербайджана, обильный памятниками, с живописной природой. Архитектурный памятник это символ нашего культурного развития - неотъемлемая часть нашего наследия. «Он несёт на себе эстетическую, историческую, документальную, археологическую, экономическую, общественную и даже политическую и духовною нагрузки. Сохранение памятников важно с точки зрения повышения самосознания народа, которому по праву есть чем гордиться» [3]. Важно правильно и целесообразно использовать их в современных условиях и популяризовать

В качестве примера популяризации и использования архитектурного памятника можно показать Дворец Мирахмед Хана (Хан-Эви) в Лянкяране. Для строительства дворца в честь своей супруги Тугры ханум, Мирахмед Хан пригласил французского архитектора. Дворец - первый многоэтажный дом, построенный в Лянкяране в начале XX века (1913 г.). Трехэтажное здание отличается от других домов своей подвижной и динамичной объемно-пространственной композицией. Северный и западный фасады дома были построены из кирпича и белого камня, восточный и южный — только из красного кирпича. Все балконы и окна выходящие на главный фасад внешне отличны. Особую привлекательность зданию придает купольный эркер с витражными окнами [1].

С 1991-года в здании функционирует Историко-краеведческий музей Лянкярана, который начал свою деятельность с 1924 года. Экспозиция музея насчитывает 6610 экспонатов отражающих традиции богатой истории и культуры Лянкярана [5]. Здесь можно получить информацию о топониме слова Лянкяран, Кызылагаджском заповеднике, Гирканском национальном парке, первобытно - общинном строе. Имеются отделы древнего периода, каменных памятников, этнографии, археологии, культуры, науки и образования, отдел периода ханства, где демонстрируются глиняные и металлические предметы быта, одежда, ковры. Экспозиция музея привлекательна, как для исследователей, так и для местных и зарубежных туристов.

Предметы материальной культуры являются свидетельством эпох и цивилизаций, подлинными источниками информации о зарождении и развитии культуры края. «Гейдар Алиев использовал все возможности для популяризации азербайджанского культурного наследия за рубежом и оказывал поддержку в налаживании международных культурных связей» [4].

**Ключевые слова**: Гейдар Алиев, Лянкяран, архитектурный памятник, наследие, популяризация.

**Ədəbiyyat**

1. Əbdülrəhimov R.H., Erkən Kapitalizm Dövrünün memarlığı (XIX-XX əsrin əvvəli): [5 cilddə], Əbdülrəhimov R., Abdullayeva N., Bakı, c.123, 2013, 344s.
2. Mistanlı (Əliyev), A Haftoni: Qəlbimdəki yeddi bulaq, Elm və təhsil, Bakı, 2018, s.13 - 384s.
3. Гаджиева С.Х., Архитектурное наследие Северо-Западного региона Азербайджана проблемы его охраны и использования: на соис, учёной степени доктора архитектуры, Баку, 2002, 269с.
4. Гасанов А., Наследие великого лидера Каспiй: 1декабря, 2019, с.4-5. http://www.anl.az/down/meqale/kaspi/2019/dekabr/690449.htm
5. Музеи Азербайджана https://museum.az/ru/museum/80

## HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT STRATEGİYASI

**Şahismayıl İsmayılov**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: ismayilovsahismayil@gmail.com

Müdrik insanlar zəngin hisslərə, emosiyalara sahib olmaqla yanaşı, güclü təfəkkür və zəngin söz bazasına sahibdirlər. İnsan amilini bütün bu qeyd etdiklərimiz olmadan təsəvvür etmək qeyri-mümkündür. Sözün həqiqi mənasında dövlətin dünya dövlətləri sırasında, xalqın dünya xalqları sırasında qürurlu, güclü bir şəkildə yer alması üçün dahilərə hər zaman ehtiyac var. Azərbaycan Respublikasının adı bu gün dünya platformasında qabaqcıl dövlətlər sırasında yer almaqdadır. Bu

yurd, bu vətən daima onun adını yüksəkliklərə daşıyan dahi şəxsiyyətlər yetişdirib. Belə şəxsiyyətlərdən biri də "Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz" fikrinin banisi, Azərbaycan Respublikasının adını qabaqcıl dövlətlər cərgəsinə həkk edən, dünyagörüşü və uzaqgörənliyi ilə hər zaman dünya liderlərini təəccübləndirməyi bacarmış dahi şəxsiyyət Heydər Əliyevdir. Heydər Əliyevin bütün söhbət və əlaqələrində böyük mənalar özünü əks etdirirdi. Onun dövlət rəhbərləri və yüksək nüfuz sahibi olan siyasi xadimlər ilə danışıqları zamanı onları daima heyrət içərisində qoymuşdur. Heydər Əliyev siyasətinin, quruculuq fəaliyyətinin başlıca olaraq məqsədi Azərbaycanı qüdrətli, demokratik bir dövlət kimi formalaşdırmaq, xalqının müstəqil və günü-gündən çiçəklənən həyat ilə təmin etmək olmuşdur. Ölkəmiz onun 34 illik idarəçiliyi zamanında artan xətt üzrə bütün sahələrdə uğurla inkişaf etmişdir. O, bütün ömrünü dövlətinin və xalqının inkişaf və yüksəlişinə həsr etmiş və hər zaman vətəninin, xalqının, millətinin yanında olmuşdur. Dahi şəxsiyyət daima bu düşüncəsini ifadə etmişdir: "Azərbaycan dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının vətənidir".

Xalqın Öndəri
Xalqın tükənmişdi səbri-dözümü,
O, yetirdi ağır gündə özünü,
Sülh carcısı dedi haqqın sözünü
Heydər kimi öndəri var xalqımın.
Tanıtdı dünyaya, Azərbaycanı,
Torpaqdır, Vətəndir onun imanı,
Dağıtdı yurdumdan qara dumanı
Heydər kimi öndəri var xalqımın.
Doğdu Günəş kimi göylərdən baxdı,
Nur olub yurduma şəfəqlər saçdı.
Tilsimli yollardan düyünü açdı,
Heydər kimi öndəri var xalqımın. (Şəlalə Çingizqızı)

1923-cü il 10 may tarixində Azərbaycan Respubliksanın Naxçıvan şəhərində dünyaya göz açan Heydər Əlirza oğlu Əliyev 80 illik ömrünü Vətəninə, xalqına, millətinə və onların gələcəyinə həsr etmişdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyev xarici siyasətində türk dövlətləri ilə sıx əlaqələrin qurulmasına üstünlük vermişdir. 1992-ci ilin may ayında Türkiyənin o zamankı baş naziri Süleyman Dəmirəl Azərbaycana ilk səfərini etmişdir. Azərbaycan parlamentində çıxış edən Süleyman Dəmirəl "böyük türk dünyası reallığa çevrildi" ifadəsini söyləyərək Azərbaycan və Türkiyə Respublikaları arasındakı əlaqələri qardaş xalqların münasibətləri kimi qiymətləndirmişdir. Hər iki tərəf qədim tarixi və mədəni tellərlə bağlı olan Türkiyə və Azərbaycan arasında birgə danışıqların aparılmasını yüksək qiymətləndirmişlər. Türkiyə ilə hərtərəfli əməkdaşlığın inkişafına hər zaman xüsusi önəm verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan dərhal sonra bu əlaqələrin yüksələn xətt üzrə inkişafına xüsusi diqqət ayırmışdır. Türkiyənin beynəlxalq arenadakı rolu və yerini daim yüksək qiymətləndirən

Heydər Əliyev belə bir fikir səsləndirmişdi ki, dünyada müxtəlif ölkələr ilə diplomatik əlaqələr qurmaq istəyən Azərbaycanın Türkiyə ilə arasında xüsusi bağlar mövcuddur. Məhz təsadüfi deyil ki , Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev bu həmrəyliyi “Bir millət , iki dövlət” adlandırıb. 1997-ci ilin may ayında Azərbaycan-Türkiyə dövlət başçılarının görüşündə Türkiyə prezidenti Süleyman Dəmirəl bu ifadəni işlətmişdir: “Azərbaycanın müstəqilliyini biz öz müstəqilliyimiz qədər qiymətləndirir və onun səylərinə mümkün olan bütün köməyi göstərməyi özümüzə borc bilir və bundan şərəf duyuruq”.

Neft sektoru Azərbaycan iqtisadiyyatının aparıcı istiqamətidir. Hələ sovet hakimiyyəti dönəmində SSRİ-nin əsas yanacaq təminatını Azərbaycan nefti təşkil edirdi. XIX əsrin sonlarından Azərbaycandə neft sənayesi daha da inkişaf etmişdir. Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra neft Azərbaycan xalqının milli sərvəti olmuşdur. Azərbaycan neft sənayəsinin inkişafında Heydər Əliyev imzası xüsusi ilə fərqlənir. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsinin müsbət nəticəsi olaraq 1970-ci illərdən Azərbaycan sənayesinin yenidənqurma proqramı və onun reallaşdırılması prossesinə başlanıldı. Heydər Əliyev, 70-ci illərdə SSRİ-də yüksək oktanlı neft istehsal edən “Katalitik Krekinq” qurğusunun inşa edilməsi üçün Moskvada Sovetlər İttifaqının rəhbərlərinə bu məsələnin həlli ilə bağlı bir neçə dəfə müraciət etmişdir. Biz “Katalitik Krekinq” qurğusunun Azərbaycanda qurulması üçün demək olar ki, on il çalışdıq deyə Heydər Əliyev vurğulayırdı. Bütün çalışmaların nəticəsində “Katalitik Krekinq” qurğusu 1993-cü ildə istismara verilmişdir. Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etmədən öncə neft sahəsində müəyyən yeniliklərə nail olması, sonrakı illərdə neft sektorunda daha əsaslı işlərin görülməsinin təməl daşı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 16 sentyabr 1994-cü il tarixində keçirdiyi brifinqdə söyləmişdi: “Biz indi də , gələcəkdə də Azərbaycanın təbii sərvətlərindən, xüsusən, ən böyük təbii sərvətimiz olan neft yataqlarından çox ehtiyatla, səriştəli istifadə olunmasına çalışmalıyıq. Çalışmalıyıq ki, bu sərvətlərdən Azərbaycan xalqının bu günü və gələcəyi üçün maksimum mənfəət götürək”. Azərbaycan Respublikasının daxilində formalaşan sabitlik və beynəlxalq aləmin Azərbaycana inam və marağının artması zamanı Heydər Əliyev mövcud vəziyyəti dəyərləndirərək 1994-cü ilin 20 sentyabr tarixində Bakı şəhərində Gülüstan sarayında “Əsrin müqaviləsi” adlandırılan ilk neft müqaviləsinin imzalanmasına nail olmuşdur. Bu müqavilə “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarındakı neft ehtiyatlarının ixracına dair imzalanmışdır. “Əsrin müqaviləsi”ndə dünyan səkkiz ölkəsi – Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı və bu ölkələrin 13 neft şirkəti – Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta şirkəti iştirak etmişdir. Müqavilədə Böyük Britaniya-“British Petroleum” şirkətinin 17,12% və “Ramco” 2,08%, ABŞ-”Amoco” şirkətinin 17,01%, “UNOCAL” 11,2%, “Penzzoil” 9,81%, “McDermott” 2,45%, Rusiyanın-“Lukoil” 10,0%, Norveçin-“Statoil” 8.56%, Türkiyənin “Türk petrolları şirkəti”nin 1,75% və Azərbaycan Neft Şirkətinin isə “20% payı var idi. “Əsrin müqaviləsi”Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra 1994-cü il 12 dekabr tarixində qüvvəyə mindi. Bu müqavilənin reallaşdırılması Heydər Əliyevin iqtisadi siyasətinin, neft strategiyasının uğurlu nəticəsidir. “Əsrin müqaviləsi”nin uğurla reallaşdırılması Azərbaycanın dünyada nüfuzunun artmasına, onun müstəqilliyinin qüdrətlənməsinə, parlaq

gələcəyə dair ümidlərin daha da zənginləşməsinə təkan verdi. Türkiyə Cümhuriyyətinin dövlət naziri Nəcməddin Cövhəri müqavilənin imzalanmasını, " Azərbaycan tarixində önəmli bir hadisədir və mühüm bir dönüş mərhələsinə çevriləcəkdir. Mən bu tarixi mərasimə ölkəmin xalqı və hökümətinin adından gəlmişəm və müqavilənin imzalanmasını sadəcə iqtisadi bir hadisə kimi qiymətləndirmirəm. Müqavilə yalnız dənizdəki neftin çıxarılması deyil, eyni zamanda dost və qardaş Azərbaycan Cümhuriyyətinin Qərb dünyası tərəfindən alqışlanması deməkdir. Mən xalqım adından bu hadisəni Qərbin Azərbaycan və onun bayrağı qarşısında baş əyməsi kimi dəyərləndirirəm" deyə fikirləri ilə ifadə etmişdir. Məhz bu müqavilədən sonra Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici dövlətlərin nəhəng şirkətləri ilə yeni-yeni müqavilələrə imza atılmışdır.

Heydər Əliyev: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

**Açar sözlər**: neft strategiyası, neft sənayesi, Əsrin müqaviləsi, xarici siyasət.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev, Bakı, 2018, s.9-25.
2. Hüseynova İ., Müstəqil Azərbaycan Dövlətinin Qurucusu, Bakı, 2004, s.245-270.
3. https://az.m.wikipedia.org/wiki/%C6%8FSrİN_m%C3%BCqavil%C9%99si

# HEYDAR ALIYEV IS THE FOUNDER OF THE STRATEGY LEADING AZERBAIJAN TO SUSTAINABLE ECONOMIC DEVELOPMENT

**Aynur Jabbarova**
Azerbaijan University, Baku, Azerbaijan

Today, Azerbaijan is an independent state that is rapidly integrating into the international world, has ensured dynamic economic development and reliable political stability. Already, the world community recognizes Azerbaijan as a state with rich economic potential, capable of speaking its voice from authoritative seats, expressing and protecting its rightful position. Our national leader Heydar Aliyev made exceptional contributions in achieving progress in the economy of Azerbaijan, which had become ruined due to known reasons in the first years of independence, in raising a very fragile and weak state policy to a strong and leading position, and in promoting our young state on a global scale [1, s.89].

It should be noted that when the Russian army, which we considered our big brother for 70 years, committed the January 20 massacre in Baku city using the incompetence of local leaders,

Heydar Aliyev was the first person to come to the Azerbaijani representative office in Moscow. At the meeting held at the representative office, he sharply criticized the high-ranking officials who were leading the USSR at that time, and clearly stated that the leadership of the USSR was directly responsible for the events in Baku. In general, the great leader Heydar Aliyev has thousands of services of historical significance for our nation and independence.

The congress created conditions for the implementation of historical works in the direction of rapid development of Azerbaijan and further strengthening of its political position in the international arena. It is the result of the adoption of decisions that serve to unite the Azerbaijanis of the world, Turkish diaspora organizations in general for one action, and the large-scale measures taken in this direction, that diaspora organizations that are strong, able to express themselves, and able to influence political processes have been formed in the world. It should be noted that in 2009, the victims of the Khojaly tragedy were commemorated in almost all countries of the world, the causes of the events, the inhuman faces of the hated Armenians and their patrons were shown to the whole world. In the first years of our independence, the genius leader took important steps in the direction of saving the Azerbaijani state and the country's economy from the inevitable disaster, he started taking urgent measures for the economic growth of the country. After the collapse of the existing economic relations at the level of the Union, it was important to use the natural resources of the country and ensure the access of national products to foreign markets for the revival of the national economy. It was in such a period that national leader Heydar Aliyev, who took into account the existence of rich oil reserves of Azerbaijan, involved the first vice-president of SOCAR, MP Ilham Aliyev in the negotiation process from the very beginning. Thus, Mr. Ilham Aliyev became one of the most active participants in the preparation and successful implementation of the new oil strategy. At the center of all his activities was an idea, as he emphasized many times: "Our goal is not only to produce oil, transport it, and get funds from it. Our goal is to direct all profits from oil, both political, economic and other benefits, to the future interests and well-being of the people of Azerbaijan.

Of course, it is impossible to fully cover the activities of Heydar Aliyev, the savior of the Azerbaijani people, the world-famous politician, who served the development of our country and people, not only in one article, but even in volumes of books. The above-mentioned can be considered as "a drop from the river" in front of the services of the national leader. The development of individual fields of science, social spheres such as education, health care, agriculture and industry in the Republic of Azerbaijan is connected with the name of the national leader. All this necessitates a deeper study of Heydar Aliyev's ideas. Because the genius Heydar Aliyev is not only the savior of the Azerbaijani people, but also the founder of a well-thought-out strategy that leads the Azerbaijani state to sustainable economic development.

**Keywords**: Heydar Aliyev, economic development, Azerbaijan.

## References

1. Aliyev I., The strategy of Azerbaijan, Revival-XXI century, 2014, No.82-83, pp. 3-7.
2. Heydar Aliyev introduces Azerbaijan to the world. Baku: Azerbaijan, 2014, 174p.

3. Huseynova I., An example of leadership, Revival-XXI century, 2019, No.130-131, p. 90-98.
4. Huseynova I., Azerbaijan is a leading state in the Caucasus, Revival-XXl asr, 2018, No.118-119, p.344.

## HEYDƏR ƏLİYEVİN SİYASİ İDEOLOJİ BAXIŞLARINDA ÜMUMTÜRK MƏSƏLƏLƏRİ

**İbrahim Kazımbəyli**
Azerbaycan Dillər Universiteti, Bakı, Azerbaycan
e-mail ibrahimkazimbeyli@gmail.com

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi o, müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə xalqımızın müstəqillik arzusunun həyata keçirilməsinə nail olmaqla geniş, həm də türksoylu və türkdilli xalqlar arasında birlik və həmrəylik uğrunda qətiyyətli və ardıcıl mübarizə aparmışdır.

Qürur hissi ilə deyə bilərik ki, XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycan xalqının ümumilli lideri olmaqla bərabər Heydər Əliyev bütövlükdə türk dünyasının birləşməsi ideyasının gerçəkləşməsi uğrunda mübarizəyə öndərlik etmişdir.

Elə tarixi şəxsiyyətlət olub ki, onların bütövlükdə fəaliyyətləri, düşüncə tərzləri, gördükləri işlər təkcə mənsub olduqları xalqın, ərazinin, dövlətin deyil bəzən onun hüdudlarından kənara da çıxa bilir. Siyasi-idoloji fəailiyyətinin 30 ildən artıq bir dövrünü xalqın rifahına, inkişafına, dünyada qəbul olunmasına yönəlik bir fəaliyyətə həsr etmişdir.

Özünü bütün fəaliyyəti boyu təsdiq edən görkəmli dövlət adamı olan Heydər Əliyev türk dünyasının qəbul etdiyi həmçinin bu sferada qəbul olunan liderlərdən biri idi. Onun düşünülmüş şəkildə apardığı istiqamət Türk dünyasını, bütövlükdə dünyanı əhatə edirdi. Heydər Əliyev öz siyasi-fəaliyyəti dövründə müxtəlif coğrafiyalarda mövcud olan türk xalqlarına son dərəcə isti münasibət göstərir, onlarla hərtərəfli əlaqələrin qurulub inkişaf etdirilməsini özünün əsas prioriteti hesab edirdi. Həmçinin türk və müsəlman ölkələri ilə xüsusən mədəni əlaqələr formalaşdırır, öz zəngin təcrübəsinə söykənərək dövrün ideoloji sarsıntılarından kənarda qalmağı, məsləhət bilirdi. Öz dərin biliyi, düşüncəsi sahəsində o, zaman mərkəzdə (Moskva-İ.K) ən yüksək vəzifəyə yüksəlməsi də heç də birmənalı qarşılanmamışdır. Heydər Əliyev Moskvada yaşadığı dövrü belə qəbul etmişdilər: “Kremldə ucalan türk bayrağı” [1, s.39].

Ancaq sistemli şəkildə həm də daha rahat, müstəqil düşünmək planlı strategiya müəyyənləşdirmək 1993-cü ildən başlayır. Bəhs olunan dövr Azərbaycanda nəzərə alsaq ki, siyasi-dağınıqlıq, ideoloji çaşqınlıq dövrü idi desək yanılmarıq. Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan- Türkiyə münasibətlərinin inkişafı hələ Heydər Əliyevin Naxçıvanda Ali Məclisin sədri olduğu dövrdən başlamışdır.

Türkiyə Cümhuriyyəti ilə əlaqələrə çox böyük önəm verən H.Əliyevin təşəbbüsü ilə Azərbaycanı Türkiyə ilə bağlayan Araz üzərində "Ümid" körpüsünün tikintisinə başlandı. Körpünün təməli 1991-ci il oktyabrın 29-da Türkiyə cümhuriyyətinin qurtuluş günündə atılan bu körpü 1992-ci ilin mayın 28- də Azərbaycan Respublikasının milli bayramı günündə "Vüsal" körpüsü kimi Heydər Əliyevin Süleyman Dəmirəlin iştirakı ilə təntənəli sürətdə açıldı. Bu açılış Azərbaycan- Türkiyə münasibətlərində yeni bir mərhələnin təməlini qoymuş oldu.

Konkret biz Azərbaycan- Türkiyə münasibətlərinin tarixi köklərlə bir-birinə bağlılığını uzun bir tarixi yol keçdiyini eyni kökdən, eyni soydan gələrək, dili bir, dini bir, etnik mənsubiyyəti bir olan türk toplumu kimi xarakterizə edə bilərik. Ulu Öndərin hakimiyyətinin ikinci mərhələsində Azərbaycanla-Türkiyə arasında strateji tərəfdaşlıq münasibətləri əbədi və dönməz xarakter almışdır. Qeyd etdiyimiz kimi bir-birinə tarixi-siyasi, dini, milli-mənəvi köklərlə bağlı iki qardaş ölkənin münasibətlərinin bütün sahələrdə inkişafı Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik" tezislərinə əsaslanmışdır [2, s.76].

Türkdilli dövlət başçılarının V Zirvə görüşündə (1998, Astana) çıxış edən Heydər Əliyev uzaqgörənliklə dövlət başçılarının diqqətini regional layihələrin birgə hazırlanaraq həyata keçirilməsinə yönəltmişdir. Qısa müddət ərzində dünyanın siyasi mənzərəsini dəyişən "Əsrin müqaviləsi", " Böyük İpək yolu" , TRASEKA, TASİS proqramları ikinci qlobal layihələrin həyata keçirilməsidə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur. [3, s 87.] Məhəmməd Füzulinin 500, Türk toplumunun ortaq əsəri olan " Kitabi- Dədə Qorqud"un 1300 illik yubileyinin UNESCO səviyyəsində bütün dünyaya tanınması, türk dövlət başçılarının zirvə görüşlərinin təşkili və.s. bu kimi tarixi əhəmiyyətli tədbirlər onun adı ilə bağlıdır. Ulu Öndər "Manas" dastanının 1000, böyük-Qazax şair filosofu Abayın 150, Özbəkistanın görkəmli dövlət adamı, Türk dünyasının əvəzsiz tarixi şəxsiyyəti, qüdrətli sərkərdə Əmir Teymurun 660, Qazax şairi A.Kenanbayevin 125 və.b. onun adı ilə bağlıdır [4, s.74].

Heydər Əliyev uzaqgörən, qətiyyətli, eyni zamanda səbirli, hadisəni mahiyyətindən təsadüfi zərurətdən ustalıqla ayıran görkəmli dövlət xadimi idi. Azərbaycan tranzit ticarətin üzərində yerləşən çox əlverişli bir birləşdirici missiyanı da uğurla daşıyırdı. Orta Asiya türkləri Türkiyəyə, oradan da Qərbi Avropaya yollarının ən qısası Azərbaycandan keçirdi.

Ümumilli lider Heydər Əliyev Türk dünyasının yüksəlişi barədə çox böyük uzaqgörənliklə deyirdi: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş Türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox Türk Cümhuriyyətlərinin bu şuraya qoşulması Türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlaması ilə türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir" [5, s.148].

Haşiyə çıxaraq bir fakta diqqət çəkmək istəyirəm ki, müxtəlif ikitərəfli yaxud çoxtərəfli əlaqələr mövcud olsa da zaman göstərdi ki, Türk dövlətləri hər hansı bir təşkilatdasa birləşməli, təşkilatlanmalı yaxın gələcəkdə sözün yaxşı mənasında bir güc mərkəzində birləşməlidirlər. Bu gecikmiş ancaq yenə də sabahın düzəni üçün zamanın diqtəsidir.

Nəhayət ki, Türkdilli dövlətlərin əməkdaşlıq şurası adı ilə (Türk şurası-indi artıq Türk Dövlətləri Təşkilatı-İ.K.) 03 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə Qazaxıstan və Qırğızıstan dövlətləri arasında qurulmuş olan beynəlxalq təşkilatdır.

Özbəkistan 30 aprel 2018-ci ildə qatılmaq niyyətinin olduğunu bildirmiş və 14 sentyabr 2019-cu ildə də Türk şurasına üzv olmuşdur. Bu istiqamətdə çoxşaxəli işlər aparılır Türkdilli dövlətlər arasında ikitərəfli, çoxtərəfli, müxtəlif adda fəaliyyət göstərən beynəlxalq qurumlarda da birləşirlər.

Türk dünyasının birliyi və həmrəyliyi Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezident Cənab İlham Əliyevin də möhtəşəm dövlətçilik fəaliyyətinin mühüm istiqamətlərindəndir. İlham Əliyevin "Biz bir-birimizi daim dəstəkləməliyik. Hər bir türkdilli ölkənin problemi digərlərinin probleminə çevrilməlidir" sözləri türk dünyasında qarşılıqlı əməkdaşlığın qlobal əhəmiyyətini gözəl ifadə edir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türkiyə ilə Azərbaycan arasında imzalanan TANAP layihəsi də Türk xalqlarını daha da birləşdirir, ölkəmizə əlavə maliyyə resursları gətirir.

Türk dünyasında əməkdaşlıq, birlik və həmrəyliyin daha bir nümunəsi Bakı-Tiblisi-Qars dəmir yolunun çəkilişidir. İlham Əliyev demişdir: "Bu dəmir yolunun tikintisi ölkələrimiz üçün, xalqlarımız üçün regional əməkdaşlıq üçün lazımdır. O, Türkiyəni Azərbaycanla dəmiryolu vasitəsilə birləşdirəcək. Türkiyəni Orta Asiya ilə, Qazaxıstanla dəmiryolu vasitəsilə birləşdirəcək və bütünlükdə Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu layihə bölgədə ancaq və ancaq sabitliyən sülhün möhkəmlənməyinə gətirib, çıxaracaqdır." [6]

Bu gün Türk dövlətlərinin və xalqlarının birliyinin formalaşması üçün misilsiz xidmətlər göstərən prezident İlham Əliyev türk dünyasının ən yaxşı liderlərindən biri kimi sevilir, öz praqmatik və çevik siyasəti ilə Türk xalqlarının inkişfına misilsiz töhfələr verir. Türkdilli dövlətlərin X Zirvə görüşündə (İstanbul-İ.K) Azərbaycan Respublikasının Prezidentin çıxışındakı bu sözləri, onun türk xalqlarının təkcə iqtisadi-siyasi mədəni baxımdan deyil, həm də coğrafi cəhətdən bağlılığı aşağıdakı kimi ifadə edir: " Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində Türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görəcəyik əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan bir məkan kimi yaşayacaqdır. Ancaq, buna baxmayaraq bizi birləşdirən təkcə coğrafi koordinatlar deyil. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür. İyirmi ilə yaxındır ki, ölkələrimiz müstəqil dövlətlər kimi yaşayırlar. Bu müddət ərzində ölkələrimiz gücləndi, formalaşdı, dövlətçilimizin əsasları quruldu. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan kimi ölkələr öz növbəsində Türkiyəni gücləndirir necə ki, böyük və güclü Türkiyə bizi gücləndirir. Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək." [7]

Artıq biz bu gün qürurla deyə bilərik ki, Ulu Öndərin türk dünyası ilə bağlı həmçinin Qarabağ məsələsi ilə bağlı həyata keçirə bilmədiyi yarımçıq qalmış işləri Müzəffər Ali Baş Komandan

Prezident İlham Əliyev çox böyük cəsarətlə və fəxarətlə həyata keçirir. İllər öncə dediyi fikirlər (xüsusilə Zəngəzur. İ.K) məsələsi artıq reallığa çevrilməkdədir. Azərbaycan Prezidenti regionda yene reallıq yaradıb. Bu dəyişməz reallıqla gec-tez hər bir dövlət və hakimiyyət barışmaq məcburiyyətində qalacaqdır. Çünki Azərbaycanın irəli sürdüyü təkliflər layihələr həqiqətə, günün reallığına və hər bir dövlət üçün geosiyasi, geoiqtisadi maraqlara xidmət edir. Vahid ümumtürk məsələləri istiqamətində görüləcək işlər çoxdur.

**Açar sözlər**: ümumtürk, ideoloji, siyasi, baxış.

## Ədəbiyyat


1. İsmayılov H.T., Dövlət demokratiya, qanunçuluq haqqında: çıxış və nitqlərdən sitatlar, tərtib.
2. Əliyev H., Müstəqillik yolu: seçilmiş fikirlər, Bakı: Azərb.nəşriyyatı, 1997-136s.
3. Hüseynova İ., Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı: Təhsil, 2004-472s.
4. Mahmudov Y., Azərbaycan: qısa dövlətçilik tarixi- Bakı: Təhsil, 2005, 140s.
5. Mehdiyev R., Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr I cild: iyun 1971-iyun 2001, Bakı: 2006-624s.
6. Xalq qəzeti, 01 noyabr 2017.
7. https://president.az/articles 54183.


# TƏHSİL- İNSAN RESURSLARI İNKİŞAFININ İNNOVATİV TEXNOLOGİYASI KİMİ

**Asəf Kazımov**
Azərbaycan Universiteti, Bakı, Azerbaycan

Azərbaycan Respublikasının Təhsil Qanununda qeyd edildiyi kimi, təhsil cəmiyyətdə və dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərə əsaslanır və demokratik xarakter daşımaqdadır. Bu baxımdan da cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsilin idarə edilməsi sahəsində də mütəmadi olaraq yeniləşmə getməkdədir. Əlbəttə, təhsil sistemini yeniləşdirmə cəmiyyətin digər sahələrindən əsaslı şəkildə fərqlənməkdədir. Bunu isə yalnız qanunlar və qərarlar qəbul etməklə təşkil etmək mümkün deyildir. Ölkəmizdə də mövcud olmuş təhsil sistemini təkmilləşdirmək, millibəşəri dəyərlərə cavab verən innovativ təhsil standartlarını hazırlamaq, bunlara müvafiq olaraq təhsilin strukturunu, məzmununu yaratmaq, onu dərsliklərlə, maddi-texniki vasitələrlə təmin etmək təkcə təhsil sahəsində çalışanların deyil, eləcədə bütün ölkə vətəndaşlarının şərəfli və vacib vəzifəsi hesab olunur. Razılıq hissi ilə demək olar ki, ölkədə yaradılmış sağlam ictimai-siyasi, mənəvi şərait geniş fəaliyyət imkanları açmaqdadır. Bu imkanlardan hansı vəzifədə çalışmalarından asılı olmayaraq bütün sahələrdə dərin və hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə malik olan vətəndaş tərbiyə edilməsi üçün istifadə olunmalıdır. Çağdaş dünyamızın böyük şəxsiyyətlərdən biri hesab olunan, Azərbaycan xalqının ümummilli lideri H. Əliyev təhsil sahəsində çalışanlara müraciət

edərək demişdir: "Məktəblərimizdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənası, məzmunu çox geniş tədris olunmalıdır. Xalqımızı, millətimizi, gənclərimizi tariximizə, mədəniyyətimizə, ənənələrimizə uyğun tərbiyə etmək təhsilin əsas istiqaməti, məktəblərimizin, müəllimlərimizin borcudur" [2, 30].

Ümumiyyətlə, təhsildə idarəetmənin təkmilləşdirilməsi, bütün maraqlı tərəflərin cəlb olunmasını təmin etməklə həmin təhsil müəssisəsində daha səmərəli idarəetmə modelinə üstünlük veriləcəkdir. Təhsil sistemində tənzimləmə və idarəetməni həyata keçirən dövlət orqanlarının funksiya və səlahiyyətləri qabaqcıl beynəlxalq təcrübəyə uyğun müəyyənləşdirilməsi, eləcədə onların fəaliyyətinin səmərəli əlaqələndirilməsi üçün müvafiq mexanizmlər yaradılması mütləqdir [1, s.25-26]. Çünki, bir məfhum kimi, "təhsil" praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusu hesab olunmaqdadır. Məsələn, YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur. Diqqət yetirin ki, təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etməsini və həyata keçirməsini müəyyənləşdirir, həm də onları öz icmalarının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir. Əlbəttə, bu çox fərdiyyətçi yanaşmadır-yəni burada insanlara toplum kimi deyil, fərdlər kimi baxılır. İnsanlara həm də cəmiyyət nöqteyi-nəzərindən yanaşmaq lazımdır, belə olduqda əlavə, mahiyyətcə yeni perspektivlər, yanaşmalar və prioritetlər ortaya çıxır. Məsələn, plüralist cəmiyyətlərdə, o cümlədən Qərb demokratiyalarında bəzi qruplar fərdin muxtariyyətini tamamən qəbul edə bilmirlər, çünki onların fikrincə, yalnız öz eqosuna və hüquqlarına qapılmış fərdlər milli-mədəni normalara, inanclara və ənənələrə tabe olmamaqla milli (etnik, mədəni və ya konfessional) qrupun varlığını zəiflədə bilərlər. Beləcə öz milli mahiyyətini fərdiyyətçiliyin təhlükəsi altında görən qruplar dövlət tərəfindən təmin edilən icbari və formal təhsili heç də həmişə faydalı hesab etmirlər. Bununla belə, bütün milli-siyasi qruplar (millətlər və dövlətlər) qəbul edirlər ki, onların davamlı gələcəyi təhsil proseslərindən asılıdır. Məsələn, 1916-cı ildə nəşr edilmiş "Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdı ki, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir. O qeyd edirdi ki, "sosial qrupun hər bir üzvünün doğuluş və ölümünün qaçılmazlığı" təhsili labüd edir, zira bu bioloji dövriliyə baxmayaraq, "qrupun həyatı davam etməlidir" [5, s.134-135].

Göründüyü kimi insan potensialının inkişafı sosial tərəqqi tendensiyalarını təhlil etməklə cəmiyyətdə hər bir fərdin vəziyyətinin müxtəlif indikatorlar vasitəsilə çox cəhətli dəyərləndirilməsinə əsaslanır. Bəzi tədqiqatçı alimlərdə haqlı olaraq hazırkı şəraitdə ictimai tərəqqinin vəziyyətini-iqtisadi inkişafla yanaşı insanların cəmiyyətdəki vəziyyəti ilə, o cümlədən onların sağlamlıq, uzunömürlülük və dünya görüşü səviyyəsi, mənəvi-psixoloji vəziyyəti ilə müəyyənləşdirilməsini irəli sürürlər. Məsələn, tədqiqatçı alim S.D.Valenteyə görə iqtisadiyyatdakı nailiyyətlərin əsas ölçüsü istehsal və istehlakın həcmi ilə deyil, adamların mənəvi dünya görüşünün

səviyyəsi, insanların fiziki və psixoloji sağlamlıq vəziyyəti ilə də şərtlənir. Əvvəlki dövrlərlə müqayisədə informasiya cəmiyyətində fərdlərin davranış motivləri dəyişməkdədir. Məlumdur ki, hazırda cəmiyyətin bütün sahələrində informasiya texnologiyasının genişlənməsi mühüm rol oynayır. Lakin mövcud informasiya texnologiyasının hansı istiqamətdə xidmət etməsi bilavasitə insanlardan asılıdır. Mürəkkəb informasiya cəmiyyətində həyat fəaliyyətinin bütün sahələrində kiminsə iradəsini yerinə yetirən sadə icraçı əvəzinə təbiətlə cəmiyyətin tarazlığı kontekstində insan inkişafının qlobal mahiyyətini dərk edərək, cəmiyyətin ümumi tərəqqisinə çalışan mənəvi-psixoloji cəhətdən yetkin, geniş dünya görüşünə malik şəxsiyyətlərin olmasıda daha zəruridir. Bu inkişafa xidmət edən faktorlardan biri də mənəvi psixoloji amillərin formalaşmasıdır. Bu baxımdan müəyyən ölkələrin insan inkişafı hesabatları hazırlanarkən sosial-demoqrafik statistikanın vahid sistemi yaradılmışdır. İnsan inkişafının müxtəlif aspektləpini əhatə edən, yuxarıda göstərilən bloklar insanın həyat və fəaliyyətinin, demək olar ki, bütün sahələrini əhatə edir. İnsanın həyat fəaliyyəti prosesinin idarə edilməsi problemi insan potensialının qorunması və inkişafı sahəsində qlobal siyasətin qarşısında duran əsas vəzifələrdən biridir. Bu informasiya əsrində təbiət-cəmiyyət münasibətlərini dərindən anlamaq üçün yeni həlledici metodoloji prinsiplərdən birinə çevrilməkdədir [3].

Aparılan təhlillərə nəzər salsaq görə bilərik ki, bu gün ali təhsil sistemində  də həlli ilk növbədə vacib olan işlər də çoxdur. Xüsusilə, texniki ali məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müstəqil texnoparkların yaradılması xeyli vəsait tələb etdiyindən, bu istiqamətdə vahid mənbədən idarə olunan Dövlət Proqramı çərçivəsində hazırlanıb həyata keçirilməsi zəruridir. Bu məsələdə hesab edilirki, bir neçə istiqamətdə həll edilə bilər. Birincisi, dövlətin dəstəyi ilə, ikincisi, müxtəlif sənaye sahələrinin həmin istiqamətdə mövcud olan ali təhsil ocaqlarında maddi-texniki bazanın yaradılması istiqamətində, üçüncüsü isə ali məktəb mütəxəssislərinin dünyada və Azərbaycanda olan təşkilatlarla birgə qrant layihələrinin yerinə yetirilməsi istiqamətində. Hər halda qeyd olunan bu istiqamətlərin hər üçünün bir mənbədən koordinasiya olunmaqla yanaşı, vahid siyasət şəklində həyata keçirilməsi daha məqsədə uyğun hesab oluna bilər [4].

**Açar sözlər**: insan resursları, təhsil menecmenti, təhsil texnologiyaları, insan kapitalı, təhsil sistemi.

## Ədəbiyyat

1. Azərbaycan 2020: Gələcəyə baxış-inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, Bakı, 2012. s.40.
2. Rzayev O.H., Təhsilin idarə olunmasının əsasları, Dərs vəsaiti, Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N., Bakı: Mütərcim nəşriyyatı, 2010, 230s.
3. www.aceconsultants.az/media/files/32/file221.pdf
4. www.muallim.edu.az/www.old/arxiv/2015/31/17.htm
5. www.undp.org>5.pdf  Təhsil və insan inkişafı

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ MƏDƏNİ İRSİN İNKİŞAFI

**Elnarə Kazımova**
Azərbaycan Milli Elmlər Akademiyasi (AMEA), Bakı, Azerbaycan
Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyatı Muzeyi, Bakı, Azerbaycan
e-mail: elnare.kerimli.91@mail.ru

Bəşər tarixinin qüdrətli, tarixi simaları sırasında sonsuz qətiyyəti, düzgün analitik təfəkkürü, ensiklopedik nəzəri və praktik biliyi, dahi müdrikliyi ilə seçilən, müstəqil Azərbaycan xalqının qurucusu olan Heydər Əliyevin mədəniyyətimizin inkişafında əvəzsiz rolu vardır. Dahi şəxsiyyət hakimiyyətdə olduğu bütün dövrlərdə maddi və qeyri-maddi mədəni irsin qorunmasına, təbliğinə xüsusi diqqət ilə yanaşmışdır. Mədəniyyətimizin bütün sahələrində Heydər Əliyevin əvəzsiz əməyi vardır. Ulu Öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoyaraq mədəniyyətimizin, milli- mənəvi dəyərlərimizin beynəlxalq aləmdə tanınmasına zəmin yaratmışdır. Mədəni dəyərlərə dövlət qayğısı öz əksini Azərbaycan Respublikasının Konstitusiyasında, “Mədəniyyət haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Muzeylər haqqında”, “Kitabxana işi haqqında”, “Kinematoqrafiya haqqında”, “ Arxiv işi haqqında”, “ Folklor haqqında” və.s qanunlarda tapmışdır. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev diqqətindən, qayğısından bəhrələnməsin. Musiqimiz də, teatrmız da, kino sənətimiz də, heykəltaraşlığımız və rəssamlığımız da, xalça sənətimiz də bugünki inkişafında ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Maddi və qeyri-maddi mədəni irsin qorunması və bərpası işini həyata keçirmək üçün 1993-cü ildə Azərbaycan Respublikasının iştirakı ilə qeyri-siyasi təşkilat- Türkdilli ölkələrin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı üzrə TÜRKSOY Beynəlxalq Təşkilatı yaradıldı. Beynəlxalq miqyasda mədəni dəyərlərin tanınması işinin miqyasını genişləndirmək məqsədilə Respublikamız 1993-cü ildə YUNESKO-nun Haaqa Konvensiyasını, 1997-ci ildə Paris Konvensiyasını imzaladı. Bütün sahələrdə olduğu kimi, mədəni quruculuq sahəsində əldə olunmuş uğurlar da Ümumilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır [1, s.7]. Ulu Öndər Heydər Əliyev siyasətində mədəni irsin inkişafı hakimiyyətdə olduğu dövrdə ardıcıl olaraq Haaqa, Paris Konvensiyalarının imzalanması ilə daha da geniş vüsət aldı. Bu siyasətin nəticəsi olaraq Azərbaycanın 3 maddi mədəni irs nümunəsi YUNESKO-nun Ümumidünya İrs siyahısına, 15 qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, 2 irs nümunəsi təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. YUNESKO-nun mədəni irs siyahısına “ İçəri Şəhər, “Qız Qalası”, “Şirvanşahlar Saray Kompleksi”, YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına isə “Azərbaycan Muğamı”, “Azərbaycan Aşıq Sənəti”, “Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti”, “ Tar və onun ifaçılıq sənəti”, “ Azərbaycan Respublikasında Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu”, “ Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş

örtüklərinin hazırlanması və istifadə olunması", "Lahıcın misgərlik sənəti", " Yallı", "Miniatür" sənəti daxildir. Adlarını qeyd etdiyimiz bu sənət nümunələrinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır [5].

Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi mənbələrinə həmişə xüsusi qayğıyla yanaşan Ulu Öndər Heydər Əliyev qeyri-maddi mədəni irs siyahısına daxil olan mədəni irs nümunələrimizin komplektləşdirilməsi, uçotu, mühafizəsi və nümayişinin düzgün şəkildə həyata keçirilməsi üçün muzeylərin inkişafına xüsusi diqqət yetirmişdir. Elə bu diqqətin nəticəsi öz əksini " Muzeylər haqqında" qanunda tapdı. 2010-ci ilin noyabrında YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilən mədəni irs nümunələrindən biri də "Ənənəvi Azərbaycan Xalçaçılıq" sənətidir. Xalça Azərbaycan incəsənətinin tükənməz xəzinəsi, bir xalqın tarixi və mədəni dünyagörüşünün əsas mənbəyidir. Bu məqsədlə xalçaya, sənətə, milli qürura dəyər, önəm verən insanların təşəbbüsü ilə 1967-ci ildə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi təşkil edildi. Lakin muzey yalnız ümummilli lider Heydər Əliyevin el sənətinə göstərdiyi diqqət və qayğının nəticəsində muzeyin ilk ekspozisiyası 1972-ci il sentyabrın 27-də açılmışdır. Muzeyin açılışında iştirak edən, çıxışı zamanı Azərbaycan xalqının həyatında əhəmiyyətli yer tutan xalçalar haqqında məlumat verib, müqayisələr aparan ümumilli lider Heydər Əliyev bir daha xalça sənətinin möhtəşəmliyini vurğulamışdır [2, s.7]. 1970-1980-cı illərdə ümumilli lider Heydər Əliyevin davamlı dəstəyi sayəsində muzey sənətkarlıq nümunələrini almaq və bununla da öz kolleksiyasını genişləndirmək imkanı əldə etdi. Həmin illərdə muzey üçün Azərbaycan xalça sənətinin inciləri alındı[4]. 1983-cü ildə YUNESKO-nun dəstəyilə keçirilən Azərbaycan Xalçaları üzrə Beynəlxalq Simpoziumun açılış mərasimində ümumilli lider Heydər Əliyev yaxından iştirak etdi. Bu ənənənin davamı olaraq 1988-2003-cü illərdə Bakıda, 2007-ci ildə Parisdə Azərbaycan xalçaları üzrə beynəlxalq simpoizumlar keçirilmişdir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə diqqəti təkcə xalça sənətində deyil, mədəniyyətin digər sahələrində də özünü göstərmişdi [2,s.7]. Ümummilli lider Heydər Əliyevin dövlətçilik strategiyasının varisi onun siyasətini şərəflə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oldu. Onun xalça sənətinə, toxucuların əməyinə, xalçaçılıq elminə olan diqqətini hər hansı çərçivədə xarakterizə etmək mümkün deyil. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqımızın mədəniyyətinə göstərdiyi yüksək qayğısı, həmçinin, Azərbaycan Qeyri-maddi mədəni irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədilə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsləri və dəstəyi ilə həyata keçirilən silsilə tədbirlər nəticəsində bu uğurlar milli mədəniyyət və incəsənət tariximizə yazılmaqdadır [3]. 2005-ci il fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev " Azərbaycanda xalça sənətinin qorunması və inkişafı haqqında" qanunun icra edilməsi barədə sərəncam imzaladı və bu sərəncamın nəticəsi olaraq 2007-ci il mart ayının 6-da imzaladığı " Azərbaycan muzey işinin yaxşılışdırılması haqqında " sərəncam Xalça muzeyinin fəaliyyətində uğurlu addım kimi dəyərləndirildi. Sərəncamda Bakı şəhərində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasının tikintisi üçün yer ayrılması haqqında məlumat yer almışdır. Bunun nəticəsində inşa edilən Dənizkənarı bulvar ərazisində " Açılan xalça" muzey kompleksi Bakı memarlığına xüsusi canlanma gətirmişdi [2.s,7].

Ulu Öndər Heydər Əliyev və İlham Əliyevin mədəniyyət siyasətində siyasətində mədəni irsin inkişafı özünün ən yüksək mərhələsinə çatmışdır. Bu irsi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək gənc tədqiqatçıların əsas amalı olmalıdır.

**Açar sözlər**: Heydər Əliyev, beynəlxalq təşkilatlar, xalça, dövlət siyasəti, mədəni irs, muzey.

## Ədəbiyyat

1. Bayramov A., Sənət, sənət məbədləri, sənət fədailəri «VƏTƏNOĞLU» NPŞ MMC, Bakı, 2015, 336s.
2. Tağıyeva R., Azərbaycan xalçası ümumbəşəri dəyər kimi qorunur, Xalq q., 14 mart 2012.
3. http://anl.az/down/meqale/ses/2011/fevral/157222.htm
4. https://azcarpetmuseum.az/az/museum-history
5. https://ulduztourism.az/azerbaycan/umumi-melumatlar/azerbaycanin-unesco-irsl%C9%99ri

### The development of cultural heritage in the Great Leader Hayder Aliyev's policy

Heydar Aliyev, one of the powerful figures of human history, played an invaluable role in the development of our culture. Heydar Aliyev has spent a lot of work on the recognition of our national moral values in the international world. The article provides information about the work done by the genius in the protection and promotion of material and non-material cultural heritage during all periods of his power.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİ MƏNƏVİYYAT VƏ ƏXLAQ MƏKTƏBİDİR

**Gülarə Kərimova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

Dünyanın görkəmli siayasi xadimləri Heydər Əliyevi XX əsr dünya siyasətinin lideri adlandırmışlar. Ümummilli lider Heydər Əliyevin mənalı, zəngin həyat və fəaliyyəti, təcrübəsi yüksək insani, əxlaqi və mənəvi keyfiyyətləri yetişən gənc nəsillər üçün ən dəyərli nümunə, mənəviyyat və əxlaq məktəbidir.

Heydər Əliyevin bütün siyasi və dövlətçilik fəaliyyəti qurucusu və memarı olduğu müasir Azərbaycan respublikasının müstəqlliyinin, əbədiliyinin, sarsılmazlığının təmin edilməsinə, Azərbaycan xalqının rifahının daha da yüksəldilməsinə, Azərbaycançılığın, milli-mənəvi dəyərlərin inkişaf etdirilməsinə, milli dövlətçiliyimizin möhkəmləndirilməsinə fədakar əməyi və yorulmaz xidmətinin bariz örnəyidir. O, Azərbyacan tarixində yeganə şəxsiyyətdir ki, keçmiş SSRİ kimi böyük bir dövlətin siyasi rəhbərlik zirvəsinə qədər yüksəlmiş və dünyanın siyasi xadimləri içərisində ən görkəmli və ən şöhrətli lider olduğunu əməli fəaliyyəti ilə göstərmişdir.

O, hələ 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan bütün fəaliyyət göstərcilərinə görə keçmiş Sovet ittifaqında ən yüksək mərtəbədə olurdu. Müstəqilliyimizin təməlləri, gələcək parlaq inkişafı hələ o dövrdə qoyulurdu. Böyük fəxrlə qeyd edə bilərik ki, müstəqil Azərbaycan Respublikasının yaranmasının, onun dövlət quraculuğunun əsas Qanunu-Konstitusiyanın əsas memarı Heydər Əliyev olmuşdur. Məhz ölkəmizdə hüquqi, dünyəvi və demokratik dövlətin əsası Heydər Əliyev tərəfindən qoyulmuş və onun rəhbərliyi ilə inkişaf etmişdir.

Heydər Əliyev bütün fəaliyyəti dövründə həmişə Azərbaycan xalqının dilinin, mənliyinin, milli şüurunun, milli mentalitetinin qorunması və inkişaf etdirilməsi keşiyində durmuş və bu sahədə çalışanların əməyinə yüksək qiymət vermişdir.

Heydər Əliyevin bütün həyatı, fəaliyyəti yüksək mənəviyyat, əxlaqi paklıq üzərində qurulmuşdur. Heydər Əliyev çox yaxşı bilirdi ki, cəmiyyətin və millətin mənəvi inkişafı, mənəvi yüksəlişi hər bir şəxsin mənəvi inkişafından başlayır. Bu inkişaf cəmiyyətin mənəvi həyatına, mənəvi mədəniyyətinə çevrilir və bütünlüklə sosial mühitimizi əhatə edir, hətta bütövlükdə bəşəriyyətin həyati amilinə şamil edilir. Bu ideya, bu tezis Heydər Əliyev dialektikasından irəli gəlirdi və özü buna hər zaman sadiq olaraq deyirdi: *"Sizi əmin edirəm ki, mən həmişə yüksək mənəviyyat uğrunda mübarizə aparmışam, mənim həyatım saf mənəviyyat əsasında qurulubdur, mənim bütün əməllərim saf mənəviyyat əsasında qurulubdur, mənim gördüyüm işlər də saf, təmiz mənəviyyat əsasında qurulubdur. Mən Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm. Ona görə də mən indiyə qədər buna sadiq olduğum kimi, bundan sonra da sadiq olacağam"* [1].

Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət təhsil siyasətinin uğurla reallaşdırılması nəticəsində bu gün mühüm nailiyyətlər, qələbələr əldə olunmuşdur. Ulu öndər Heydər Əliyev gənclərə daim sonsuz qayğı ilə yanaşmış, gənc nəslin milli-mənəvi ruhda, milli və bəşəri dəyərlər əsasında tərbiyəsinə böyük diqqət və həssaslıqla yanaşmışdır. Xalqımızın Ümummilli lideri Heydər Əliyev zəngin mənəvi irsimizin yaşadılmasına və inkişafına yol açmış, milli birliyimizin, bütövlüyümüzün möhkəmlənməsində əvəzsiz rol oynamışdır.

Dahi şəxsiyyət, Ulu öndər Heydər Əliyev mənəviyyatı insan həyatının mənası, dəyəri kimi qiymətləndirərək Gənclərin Birinci Ümumrespublika Forumunda nitqində demişdir:

*"Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri milli-mənəvi tərbiyə məsələsidir... mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var -dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz"* [2].

Vətənpərvərlik milli ruhun əsasıdır, o vətənimizin, dövlətimizin milli ideologiyasına əsaslanmalıdır. Vətənpərvərlik mənəvi, əxlaqi borc olmaqla yanaşı, həm də ideoloji-siyasi bir problemdir. Ulu öndər Heydər Əliyev vətənpərvərliyə, milli-mənəvi dəyərlərə və dövlətçiliyə əsaslanan Mütəqil Azərbaycan Respublikasını qurdu. Vətənpərvərlik insanı səciyyələndirən ən

mühüm mənəvi keyfiyyətdir. Vətənpərvərlik olmadan başqa keyfiyyətlərin olmasının heç bir əhəmiyyəti yoxdur, əksinə zərəri vardır.

Ulu öndərimizin bütün həyatı, fəaliyyəti ən böyük vətənpərvərlik nümunəsidir. Bütün mənalı hyəyatını doğma xalqına həsr etmiş, azərbaycançılıq ideologiyasını formalaşdırmış dahi şəxsiyyət Heydər Əliyev tarixin ən böyük vətənpərvəridir. Onun vətən sevgisi hər kəsə nümunədir. “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!” - bu sözlər Ulu Öndərimizə məxsus olaraq, dahi insanın daxilindən gələn ən ali müqəddəs duyğulardır.

**Açar sözlər:** Heydər Əliyev, mənəviyyat, vətənpərvərlik, təhsil.

### Ədəbiyyat

1. Əliyev H., Mingəçevirdə məscid kompleksinin açılışı mərasimində nitqi, 8 oktyabr, 1998, Xalq, 9 oktyabr, 1998.
2. Əliyev H., Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq, Azərbaycan qəz. Bakı, 1996, 6 fevral.
3. Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 340s.

## ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА В НАСЛЕДИИ ГЕЙДАРА АЛИРЗА ОГЛУ АЛИЕВА

**Ирана Мамедова**
Азербайджанский Государственный Педагогический Университет, Баку, Азербайджан

*«Для каждого человека его национальность является источником его гордости.*
*Я всегда гордился и горжусь сегодня тем, что я азербайджанец».*
***Гейдар Алирза оглу Алиев***

Принадлежность к национальному государству на протяжении веков демонстрировала, на что способна каждая нация, путь честной борьбы и решимость занять достойное место среди наций мира. В этом смысле существование национального государства является одним из важных условий в процессе движения людей к конкретным целям, которые они перед собой поставили. Только народы, осознающие себя национальным этносом, смогли сохранить свое существование, создав национальное государство. Опыт показывает, что возвращение каждой нации к своим национально-этническим корням при благоприятных исторических условиях, возможность защиты своей идентичности на основе накопленных в течение столетий национально-нравственных ценностей и системы мировоззрения обусловлены исключительным в миссии феномена исторической идентичности, как Гейдар Алиев. С начала 70-х годов до конца века - слились в славную реальность независимого Азербайджанского государства. В те годы общенациональный лидер осуществил ряд важных

мероприятий в направлении защиты национальных нравственных ценностей, национального духа, национализации кадров, превращения идеологии «азербайджанства» в единую систему [2].

Великий лидер всегда подчеркивал, что идеология «азербайджанства «является средством достижения реальной независимости, сохранения и укрепления единого, неделимого Азербайджана. Согласно философским воззрениям Гейдара Алиева, «азербайджанства» означает сохранение национальной принадлежности, национально-нравственных ценностей и в то же время получение выгоды от их синтеза и интеграции с общечеловеческими ценностями. Идеология азербайджанства, способная защитить и сохранить национально-нравственные ценности нашего народа, органично сочетающая в себе интересы государства и граждан, является успешной основой гражданского единства и единого общества в стране. Как сказал Гейдар Алиев «*каждый азербайджанец должен гордиться своей национальностью, и мы должны продвигать идеологию азербайджанство: азербайджанский язык, культуру, национально-духовные ценности, традиции и обычаи должны быть сохранены*" [1]. Таким образом, он добился солидарности и целостности азербайджанского национального общества, определил моральное единство всей нации. Идеология азербайджанства – понятие, определяющее классификацию историко-политических факторов, объединение азербайджанцев мира вокруг единой идеи, обязанности государства в сфере защиты прав и свобод наших соотечественников, проживающих за рубежом, их моральные обязательства по отношению к Азербайджану, а также социально-философское содержание азербайджанской концепции. Позитивный характер этой идеологии определяется ее способностью мобилизовать более 50 миллионов азербайджанцев, разбросанных по всему миру, во имя общих идеалов. Идеология азербайджанства гармонично включает в себя национально-духовные, религиозно-нравственные, светско-гуманитарные ценности, диалог восточной и западной культур, тенденции тюркизма и европеизма, наследственность и прогрессивность в исторической эволюции, коммуникативное единство [3]. Традиция является стимулятором развития азербайджанства, являющегося генетическим источником системы национального мышления. Она связывает прошлое с будущим, сохраняет этнокультурное бытие. Эти традиции сохраняют прогрессивный жизненный опыт богатого исторического пути народа. Поэтому идеология азербайджанства является еще и нравственным мостом, передающим будущим поколениям прогрессивные традиции нации. В то же время сила азербайджанства измеряется способностью сочетать индивидуальные интересы и склонности с государственной политикой, сохранять национально-культурную идентичность нации.

Во время своего официального визита в США в 1997 году Гейдар Алиев в своем выступлении перед азербайджанской диаспорой определил основные принципы в этом направлении: «*Вы не должны думать о том, что Азербайджан сделал для нас, подумайте о том, что мы сделали для Азербайджана. Азербайджан тоже будет двигаться вперед, Азербайджан, диаспора тоже будет развиваться… Неважно, где ты родился, главное, что ты азербайджанец, носитель азербайджанского языка и культуры*». Сегодня, вне

зависимости от своих политических взглядов, все признают, что национальное единство, достигнутое в Азербайджане после возвращения Гейдара Алиева к власти в 1993 году волей народа, является одним из самых ценных духовных и идеологических достояний нашей республики. Гениальность Гейдара Алиева, воплощенная в целом, национальная личность в глазах народа, продолжила линию на укрепление гражданского мира и национальной солидарности при втором руководстве Азербайджана и подняла эту политическую линию на уровень совершенного научно-теоретическая концепция с его конкретными шагами. Последовательная и решительная, целеустремленная и принципиальная политика Президента Ильхама Алиева в этой области говорит о том, что в ближайшие годы азербайджанская диаспора станет сильнее, и мы будем более активно участвовать в решении судьбоносных проблем нашей Родины.

**Ключевые слова**: Азербайджанство, президент, Гейдар Алиев.

**Литература**

1. Əliyev H.Ə., Təhsil millətin gələcəyidir. Bakı: 2002, 580s.
2. Əsədov A., Siyasətin fəlsəfəsi: mahiyyətin gerçəkləşdirilməsinə yönələn insani iradə və onun tarixi taleyi üzərində düşüncələr, V cild, Bakı: 2013, 464s.
3. Рустамов И., Философские проблемы развития естественнонаучной мысли в Азербайджане, Баку: 2014, 193с.

## AZƏRBYCANIN İQTİSADİ İNKİŞAFINDA BEYNƏLXALQ MALİYYƏ İNSİTUTLARININ AZƏRBAYCANA CƏLB EDİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Rəfael Mərdiyev**
Azərbaycan Universiteti, Bakı, Azerbaycan
e-mail rafael.mardiyev@au.edu.az

1990-cı illərdə keşmiş SSRİ-də gedən siyasi hərəkatlar nəticəsində Azərbaycan xalqı öz dövlət müstəqilliyini əldə etdi. Lakin, 90-cı illərin əvvəllərində ölkədəki mövcud sosial-iqtisadi tənəzzül, Qarabağ müharibəsi və liderin olmaması ölkə qarşısında duran həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə maniyə yaradırdı.

1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanın parçalanması və süqutunun qarşını aldı. Ulu öndər tərəfindən 1994-cü ildə Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olunması və ölkədə siyasi stabilliyin bərqərar olması sosial-iqtisadi inkişaf strategiyasını formalaşdırılmasına zəmin yaratdı.

Heydər Əliyev ölkə prezidenti olduğu dövrdə aşagıda qeyd olunan strategiyanı müəyyən etmiş və bu məsələlərin həllinə dövlət resurslarını və cəmiyyəti səfərbər etmişdi:

- dövlət aparatının möhkəmləndirilməsi və müasir dövrdə idarəçilik tələblərinə cavab verən iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;
- “Böyük İpək Yolu” layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəzə çevirilməsi;
- bazar yönümlü və liberal iqtisadıyyatın qurulması və xüsusi mülkiyyətə əsaslanan sahibklarlıq mühitinin yaradılması;
- regionların sosial-iqtisadi inkişafına nail olmaq və bunun üçün xüsusi dövlət proqramının qəbul olunması;
- iqtisadiyyatın diversifikasiyası, xammal və neft-qaz sahəsindən asılılığın azaldılması, istehsal və xidmət sahələrinin inkişafı.

Ulu öndər bilirdi ki bu məqsədlərə çatmaq üçün beynəlxalq təcrübədən bəhrələnmək lazımdır. Bundan irəli gələrək Azərbaycan Asiya İnkişaf Bankı, Dünya Bankı, Avropa İnkişaf və Yenidənqurma Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi kimi beynəlxalq maliyyə institutları ilə əlaqə yaratdı və onları Azərbaycana dəvət etdi. Heydər Əliyev bu maliyyə institutlarının dəstəyi ilə ölkə iqtisadiyyatında struktur və idarəetmə islahatlarının həyata keçirilməsinə təkan verdi. Beynəlxalq maliyyə institutlarının respublikamıza cəlb olunması xarici dövlətlərin və investorların oılkəmizə inamını artırdı və xarici sərmayənin Azərbaycana axınına zəmin yaratdı.

Beynəlxala maliyyə institutları ilə əməkdaılığın başlanma tarixi aşağıda verilmişdir:

- ✓ Azərbaycan 1992-ci ildə Dünya Bankının (DB) üzvü oldu.
- ✓ 1992-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) üzvü oldu.
- ✓ 1999-cu ildə Asiya İnkişaf Bankının üzvü oldu.
- ✓ 1996-cı ildə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (YBƏA) ilə tərəfdaşlıq haqqında saziş imzalandı.

Azərbaycan Respublikası 30 illik tərəfdaşlıq müddəti ərzində Dünya Bankı tərəfindən ölkəyə yatırdığı investisiyaların ümumi məbləği 50 layihə çərçivəsində 3,5 milyard dollardan artıq olmuşdur. Bu layihələr dövlət sektorunun idarəçiliyi, səhiyyə və təhsil sistemlərindən tutmuş maliyyə və infrastruktur kimi müxtəlif sektorları əhatə edir.

AYİB Azərbaycan arasında əməkdaşlıön prioritet sahələri bunlardır: rəqabət qabiliyyətliliyə və yaxşı idarəçiliyə dəstək vasitəsilə iqtisadi şaxələndirmənin təşviqi; maliyyə bazarlarının inkişaf etdirilməsi vasitəsilə dözümlülüyün artırılması; yaşıl iqtisadiyyata keçidə və regional rabitəliliyə dəstək. AYİB tərəfindən ölkəyə yatırılmış investisiyalar 187 layihə çərçivəsində 3,6 milyard AVRO təşkil edir.

1999-cu ildən etibarən Azərbaycan Respublikası Asiya İnkişaf Bankından ümumi dəyəri 10,4 milyard ABŞ dolları olan kredit, qrant və texniki yardımlar əldə etmişdir. Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrindədir.

AİB Azərbaycanla arasında əməkdaşlıq “Ölkə Strategiyası” sənədinin çərçivəsində 3 strateji prioritetdən ibarətdir: özəl sektorun inkişafının gücləndirilməsi; dövlət sektorunun effektivliyinin artırılması; infrastrukturun təkmilləşdirilməsi və insan kapitalının möhkəmləndirilməsi.

Azərbaycan 1996-cı ildən Yaponiya Beynəlxal Əməkdaşlıq Agentliyi ilə tərəfdaşlıq edir. Bu əməkdaılığın sosial-iqtisadi inkişaf dəsətəyi tərəfindən hədəf sektorları bunlardır: iqtisadi infrastrukturun yaxşılaşdırılması; sosial xidmətlərin təkmilləşdirilməsi; insan resuslarının inkişafı; iqtisadi artımına dəstəyi məqsədi ilə həm neft infrastrukturunun həm də qeyri-neft sektorun inkişafı. 27 il ərzində YBƏA qrant yardımı və kredit xətti vasitəsilə olkə iqtisadiyyatının enerji, su və meliorasiya təsərrüfatı, səhiyyə və yolların bərpası sahələrinə 1 milyard ABŞ dolları sərmayə qoymuşdur.

**Açar sözlər**: beynəlxal maliyyə institutları, inkişaf strategiyası, xarici sərmayə, sahibkarlıq mühüti, bazar yönümlü iqtisadiyyat.

### Ədəbiyyat

1. Dünya Bankı, Dünya Bankı Azərbaycanda 25 illik tərəfdaşlıq.
2. Asiya İnkişaf Bankı, Azərbaycan və AİB (1999-2019) 20 illik tərəfdaşlıq.
3. Kintsurashvili K., Ana Kresic "Azerbaijan Diagnostic", EBRD, March 2019.

## ZAMANA SIĞMAYAN RƏHBƏR – S. VURĞUNUN "İNSAN" PYESINDƏ H. ƏLIYEV OBRAZI

**Fərhad Mədətov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

S. Vurğunun "İnsan" pyesi yazılanda H. Əliyev yeniyetmə bir gənc idi və təbii ki, siyasi uğurları qabaqdaydı. Lakin şair türk xalqlarını sovet totalitar rejimindən xilas edən əfsanəvi Xızır peyğəmbər bənzər, lakin real bir tarixi şəxsiyyətin yaranmasına böyük inam bəsləyirdi. O, öz arzularını bu əsərdə gizli kodlarla ifadə etmiş, böyuk bir sənət əsəri yaratmağa müvəffəq olmuşdur.

Əsərdəki hadisələr gələcəkdə, yəni faşizmin məğlubiyyətindən 30 il sonara Qaradəniz sahilində salınmış "Qardaşlıq şəhər"ində cərəyan edir. Əslində zamanın dəyişdirilməsi bədii bir priyomdur və bununla şair sovet senzurasının diqqətini yayındırmaq məqsədi güdürdü. Digər tərəfdən bu vasitə geniş manevr imkanı yaradırdı. O həm müharibədən yuvarlaq şəkildə 30 il irəliyə - AXC dövrünə, həm də, otuz il sonra qurulmuş "Qardaşlıq şəhəri"nə - xəyalında təsəvvür etdiyi müstəqillik dövrünə ekskurs etmək imkanı əldə edir. Şair SSRİ-nin dağılmasına dair fikirlərinə "Komsomol" poemasında da üstü örtülü şəkildə rast rast gəlirik. Əsərdə göstərilir ki, məfkurəsindən asılı olmayaraq əsas qəhramanlar sinfi mübarizədə faciəli şəkidə həlak olurlar. Bu quruluş hamını bədbəxtliyə yuvarlayır:

Buludlar dağlır uzaqda lay-lay,
Yenə öz yerində yuvarlanır Ay.
Fəqət nə Cəlal var, nə də ki Humay

Nə ömrə acıyır, nə yaşa dünya [2, s.14].

İmperiyanın rəmzi olan buludların, müstəqilliyimizin atributu olan ayın təsviri bunları deməyə əsas verir. Şairin sevinc və qəm hissləri bir-birinə qarışır; milyonlarla qətlə yetirilmiş insanlrın məsuliyyətini kimlər daşıyacaq? S.Vurğun yaxşı dərk edirdi ki, dünyanın ən güclü silah cəbbəxanasına çevrilmiş sovet imperiyasını devirmək əfsanə kimi görünürdü. Əsərdə o, bunun necə baş verməsini əsaslandırmağa çalışır. Yeri gəlmişkən onu da deyim ki, elm və sənət adamlarının dilindən tez-tez M,Ə.Rəsulzadənin Z.Goyalpa istinadən verdiyi bu misralar eşidilir:

Rusiya dağılıb viran olacaq,
Türkiyə böyüyüb Turan olacaq! [5]

Şüar kimi verilmiş bu sözlər, məncə, zaman-zaman mexaniki şəkildə təkrar olunmuş, məntiqi cəhətdən, demək olar ki, əsaslandırılmamışdır. Bəzi oxucular elə düşünə bilər ki, bunların hamısı avtomatik şəkildə, öz-özünə yaranacaqdır. “İnsan” pyesi bu suallara cavab verməyə çalışır. Şair Hizamilər, Füzulilər yaratmış bu torpağın indi də xalqın xilaskarı olan bir dahinin yaranacağına şübhə etmirdi. Dünyanın xilas edilməsini qanlı müharibələrdə yox, haqlı olaraq insan kamalında, məhəbbətdə, xalqa sevgidə axtarırdı. Filosof Şahbazın həyat yoldaşı Səhərlə mükaliməsi incə mətləbləri üzə çıxarır:

“Şahbaz
Bizim təyyarəmiz, topumuz azdır…
Həqiqət güvənir yalnız qüvvətə.
Ümidim çoz azdır qalibiyyətə…
Səhər
Bəs insan qüvvəsi bizdə ki çoxdur?
Şahbaz
Onun o qəsdər də qiyməti yoxdur…” [1, s.294]

Lakin Səhər onunla razılaşmır, insan amilinə böyük önəm verir:

“Hələ inanmayır insana Şahbaz.
Xeyr … bambaşqa fikirdəyəm mən,
İradə möhkəmdir topdan, tüfəngdən. [1, s. 294]

İkinci dünya müharibəsində qələbənin kökündə yalnız insan amili dura bilməzdi. Cəbhədə silahlar da öz sözünü dedi. Şahbaz ona görə də Silaha üstünlük verir. Lakin Səhəri düşündürən problem 30 idən sonara milli –azadlıq ideyalarının necə gerçəkləşəcəyi ilə balıdır. Şair Şahbaz obrazına bir dinamiklik gətirmişdir. Tamaşaçı onun Səhərin fikirləri ilə razılaşdığını görür. Bunu İslamın verdiyi suallara cavabı da təsdiqləyir:

Tutaq ki, allahsan sən bir anlığa,
Bir avtomatın var, bir də fəlsəfən,
Dünyanı hansıyla xilas edərsən?
Şahbaz
Əlbəttə fəlsəfə, ağlın qüdrəti,
Bir də ürəklərin saf məhəbbəti. [1, s.322]

Bu gün sovet imperiyasının dəhşət saçan silahlarından dünyanın xilas olmasının şahidi olan hər bir kəs heç şübhə etmir ki, şair bunları nəzərdə tuturmuş. Şübhə yoxdur ki bunlar S.Vurğunun arzuladığı kamalın-H.Əliyevin təntənəsi idi Bu düşüncələr H.Cavidin fikirləri ilə səsləşir: "Hər kim kəssə tökülən qan izini, Qurtaran dahi odur yer üzünü." İsa Muğannanın "İdeal" və "Məhşər" əsərində də bu fikirlərin davamını görürük. Birinci əsərdə "Saf ağ" elmi, ikinci əsərdə isə Nəsiminin tərəfdarlarının taxta qılıncla silahlanması qan tökmədən-fəlsəfə ilə məqsədə nail olması kimi qəbul etmək olar. H.Əliyev sonralar yazırdı ki, bizim ən böyük tarixi nailiyyətimiz Azərbaycanı müstəqilliyə çıxarmaq oldu.

Şəhərin açılışında iştirak etmək üçün dünyanın hər tərəfindən bu azad və suveren şəhərə qonaqlar gəlmişdir. Burada Azərbaycanı təmsil edən əsas qəhrəman filosof Şahbaz, onun həyat yoldaşı Səhər, şair Cəlal xüsusilə diqqəti cəlb edirlər.

Bu tipli öncəgörən əsərlərə dünya ədəbiyyatında da təsadüf edilir. Roma şairi Publi Vergili Maron (b.e.ə. 70-19) İsa Məsihin doğulacağı günü təxminən 40 il əvvəl təsvir etmişdi.: "Vergili "Bukoliko" ("Çobanlar") və ya "Eklogio" ("Seçilmişlər") əsərlərini yaradır. Teoloqlar əminliklə təsdiq edirlər ki, şair əsərdə yaxın gələcəkdə dünyaya ədalət, sülh bəxş edəcək peyğəmbərin-İsa Məsihin doğulacağı günü təsvir etmişdir. Bu üzdən orta əsrlər epoxasında Vergili ilk xristian şairi kimi elan edilir və əsərləri bütün xristian dünyasına yayılır. Tez bir zamanda "Bukolikos" əsəri səhnələşdirilərək tamaşaya qoyulur" [4].

H. Cavid "İblis" əsərində Osmanlını darmadağın edən bütün şər qüvvələrin –
İblislərin cəzasız qalmayacağına əmin idi və onun yaratdığı Elxan obrazı "Səhra məhkəməsi" qurur və cinayətkarlar layiqincə cəzalarına çatırlar. Əsər Türkiyədə tamaşaşaya qoyulanda M. K. Atatürk də tamaşaya baxır və Elxan obrazını diqqətlə təhlil süzgəcindən keçirir və "o mənəm", deyə ürəkdən alqışlayır (Azər Turan). Əsərin mürəkkəb quruluşu zaman-zaman hətta ən professional tənqidçilərin, demək olar ki, əksəriyyətini çaş-baş salmış, bir-birinə zidd mülahizələr söyləmişlər. Belə bir əsərin daxili qatlarını Atatürkün dərindən duyması böyük maraq doğurur. Daha maraqlısı isə budur ki, H.Əliyev də ədəbiyyatda psixoloji cəhətdən çətin dərk edilən əsərlərə yeri gələndə öz münsibətini bildirmiş, ədəbi tənqidə istiqamət vermişdir. O da H.Cavidin "İblis" və Hötenin "Faust" əsrini müqayisə etmiş və bu qənaətə gəlmişdir ki, bəlkə də "İblis" əsəri daha yüksək qiymətə layiqdir. "İnsan" əsərinin qəhrəmanlarından biri Hötedə insanların şeytana uymasını onun əsərinin zəif cəhəti kimi qiymətləndirir. H.Əliyev tükənməz enerjisini siyasi problemlərin həllinə yönəltsə də, yeri gələndə milli sənətkarların əməyini sərraf gözü ilə qiymətləndirməyi yaxşı bacarırdı. O, 2002-ci il dekabrın 7-də Azərbaycan Akademik Milli Dram teatrında V.Şekspirin "Hamlet" tamaşasına baxarkən "İnsan" pyesini də unutmur: "H. Əliyev tamaşadan sonra gəlib artistlərlə görüşdü: Söhbət əsnasında məlum oldu ki, H. Əliyev teatrın rəhbəri Əliabbas Qədirovdan (1969) xahiş edib ki, S.Vurğunun "İnsan" pyesini tamaşaya hazırlasın [4]

"İnsan" pyesi S.Vurğunun sevdiyi əsərlərdən biri olsa da, ədəbi tənqid tərəfindən birmənalı şəkildə qarşılanmadı, onun dərin qatları öz tədqiqatçılarını gözləmli oldu. Belə bir məqamda əsərin

tamaşaya qoyulmsı haqqında məsləhət verilməsi şairin məqsəd və məramının dəqiq təyin edilməsindən qaynaqlanırdı.

Yenicə Azərbaycana rəhbər seçilmiş ümummilli lider qəlbində gəzdirdiyi boyük idealların həyata keçməsinə yaxınlaşdığını hiss edirdi. Əsərin ruhu ilə öz düşüncələri arasında bir asossiasiya yarandığını görürdü. Bu gücü, sevgini ona verən xalq məhəbbəti, milli ruhlu əsərlər və anoloqu olmayan uzaqgörənliyi idi. Ona görə də o, müstəqillik illərindəki çıxışlarından birində deyirdi ki, Azərbaycanın azadlığa çıxmasında H.Cavid, S. Vurğun və b. sənətkarların böyük əməyi vardır.

S. Vurğun “İnsan” pyesində müstəmləkə şəraitində türk xalqlarının xilaskarının gələcəyinə böyük inam bəsləyirdi. Nə yaxşı ki, Allah onu da xalqımızdan əsirgəmədi. Cənab president İlham Əliyev tez-tez dəyişən zamanların nəbzini məharətlə tutması nəinki bizim, hətta dünyanın görkəmli şəxsiyyətlərinin də rəğbətini qazanmışdır. “İnsan” pyesində verilmiş uğurlu proqnozlar uzun illərdir ki, tədqiqatçıların əksəriyyətini çaşdırmış, səhv nəticələrə gətirmişdir. Maraqlıdır ki, bütün ömrünü ədəbi tənqidə həsr etmiş adamlardan daha öncə H. Əliyev “İnsan” pyesinin daxili qatlarını, məram və məqsədini daha dərindən duymuş və əsəri vaxtında qiymətləndirmişdir.

**Açar sözlər:** ümumilli lider, Səməd Vurğun, “İnsan” pyesi, saf ağ, taxta qılınc.

## Ədəbiyyat

1. Səməd Vurğun, Seçilmiş əsərləri, Beş cilddə (IVcild), Şərq-Qərb nəşriyyatı, Bakı, 2005, 398 s.
2. Səməd Vurğun, Seçilmiş əsərləri, Beş cilddə (III cild), Şərq-Qərb nəşriyyatı, Bakı, 2005, 414 s.
3. Zakir Abbas. “Ədəbiyyat qəzeti”-2020, 3 dekabr səh.14.
4. Tərlan Novruzov, Heydər Əliyev və ədəbiyyat məsələləri; Bakı, 2007, səh 187.
5. “Azərbaycan jurnalı”, 14 noyabr, 1918, №39.

# ECONOMIC REFORMS OF HEYDAR ALIYEV

**Ziynat Mehdiyeva**
Azerbaijan University, Baku, Azerbaijan
e-mail: zinat.aghayeva@au.edu.az

*“The outstanding personalities demonstrate to the world the nation’s intellect, science, culture and morality.”* ***Heydar Aliyev*** [7].

More than a third of a century in the modern history of Azerbaijan is associated with the name wise statesman, national leader Heydar Aliyev.The decades during which this outstanding a man, a phenomenal politician who forever inscribed his name in modern history of Azerbaijani statehood can be called a period of renaissance, national progress, national awakening, and, finally, the period of building an independent state.

Heydar Aliyev, who served as the President of Azerbaijan from 1993 until his death in 2003, played a significant role in transforming the country's economy. Here are some of the key ways in which he changed the economy of Azerbaijan:

Attracting foreign investment: Heydar Aliyev actively worked to attract foreign investment to Azerbaijan, particularly in the oil and gas sectors. He negotiated agreements with major international oil companies, including BP and ExxonMobil, which led to the development of Azerbaijan's vast oil and gas reserves.

Privatization: Heydar Aliyev oversaw the privatization of many state-owned enterprises, which helped to increase efficiency and competitiveness in various sectors of the economy [8].

Diversification: Heydar Aliyev recognized the importance of diversifying Azerbaijan's economy beyond oil and gas. He encouraged the development of non-oil sectors such as agriculture, tourism, and manufacturing [8].

Infrastructure development: Heydar Aliyev invested heavily in infrastructure development, including the construction of new roads, bridges, and buildings. This helped to create a more business-friendly environment and attract foreign investment [5].

Economic stability: Heydar Aliyev's policies helped to stabilize the Azerbaijani economy after a period of instability in the early 1990s. He implemented measures to reduce inflation, improve the balance of payments, and strengthen the banking sector [6].

Heydar Aliyev inherited an economy in shambles when he became the President. To address these challenges, Heydar Aliyev implemented a series of economic reforms aimed at stabilizing the economy and promoting growth. Some of the key economic indicators during his presidency include:

GDP growth: Under Heydar Aliyev's leadership, Azerbaijan experienced strong economic growth, with the GDP increasing from $2.2 billion in 1994 to $13.5 billion in 2003, an average annual growth rate of over 9% [1].

Inflation: Inflation was a major problem in Azerbaijan in the early 1990s, with rates reaching as high as 1,300% in 1994. Heydar Aliyev implemented measures to bring inflation under control, and by the end of his presidency, the inflation rate had fallen to 1.4% [2].

Unemployment: Heydar Aliyev's economic policies helped to create jobs and reduce unemployment in Azerbaijan. The unemployment rate fell from 10.6% in 1993 to 8.8% in 2002 [1].

Foreign investment: Heydar Aliyev's efforts to attract foreign investment helped to bring much-needed capital into Azerbaijan. Between 1993 and 2003, foreign investment in the country totaled over $20 billion [3].

Poverty reduction: Heydar Aliyev's economic policies also helped to reduce poverty in Azerbaijan. The poverty rate fell from 49.6% in 1995 to 40.1% in 2001 [3].

Heydar Aliyev implemented a range of economic policies during his presidency of Azerbaijan. Some of the key features of his economic policy include:

Market-oriented reforms: Heydar Aliyev's economic policy was based on market-oriented reforms, which aimed to reduce the role of the state in the economy and promote private enterprise. He implemented policies to liberalize prices, reduce trade barriers, and privatize state-owned enterprises [4].

Oil and gas industry development: Heydar Aliyev recognized the importance of Azerbaijan's significant oil and gas reserves and made the development of this industry a priority. He signed several oil and gas contracts with foreign companies, which led to increased production and exports. The development of the oil and gas industry played a significant role in Azerbaijan's economic growth during Heydar Aliyev's presidency [4].

Stable business environment: Heydar Aliyev worked to establish a stable and predictable business environment in Azerbaijan. He implemented policies to protect property rights, promote foreign investment, and reduce corruption [8].

Regional cooperation: Heydar Aliyev recognized the importance of regional cooperation and worked to establish partnerships with neighboring countries. He promoted trade and investment in the region, which helped to improve Azerbaijan's economic prospects [5].

Heydar Aliyev's economic policy aimed to modernize and transform Azerbaijan's economy, and his efforts were largely successful. During his presidency, Azerbaijan experienced strong economic growth, reduced inflation, and increased foreign investment. Overall, Heydar Aliyev's economic policies helped to transform Azerbaijan from a struggling post-Soviet state into a dynamic, rapidly developing economy as well as helped to stabilize Azerbaijan's economy and lay the foundation for future growth and development.

**Keywords:** Heydar Aliyev, economy, reforms, inflation, investment, economic growth, oil and gas

**References**

1. Azərbaycan Respublikasının Dövlət statistika komitəsi. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Retrieved April 11, 2023, from https://www.stat.gov.az/
2. Azerbaijan, World Bank. (n.d.). Retrieved April 11, 2023, from https://www.worldbank.org/en/country/azerbaijan
3. Central Bank of the Republic of Azerbaijan. (n.d.). Azərbaycan Respublikasının Mərkəzi bankı. Azərbaycan Respublikasının Mərkəzi Bankı - Ana səhifə. Retrieved April 11, 2023, from https://www.cbar.az/home
4. Mammadli I. (2017, April 19). Экономические реформы Гейдара Алиева: преобразование рисков в возможности. Trend.Az. Retrieved April 11, 2023, from https://www.trend.az/business/economy/2744831.html
5. Nuriyev S. (2022, May 9). Great leader Heydar Aliyev's strategy of National State Building and Modern Development. AZERTAC. Retrieved April 11, 2023, from https://azertag.az/en/xeber/Great_Leader_Heydar_Aliyevs_strategy_of_national_state_building_and_modern_development-2126996

6. Republic of Azerbaijan and the IMF. IMF. (2022, October 21). Retrieved April 11, 2023, from https://www.imf.org/en/Countries/AZE
7. Əliyev H. (2019). Heydər Əliyevin Kəlamlari. i.f.d., dos. Mübariz Camalov, i.f.d. Aqil Şirinov.
8. Гусейнова И. (2005). Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру.

## EXPANDING CULTURAL RELATIONS WITH THE TURKISH WORLD HEYDAR ALIYEV PERSONALITY

**Saida Mehraliyeva**
Baku State University, Baku, Azerbaijan
e-mail: nabiyeva.22@mail.ru

Initiatives authored by national leader Heydar Aliyev in the path of integration of Turkic-speaking peoples have opened a great way for the development of multi-field cooperation between Turkic-speaking peoples and states living in a wide area today. “ Because our roots are connected to one language, one spirituality, and the same values, no matter how many difficulties we encountered in different periods of history, our national-spiritual ties have constantly developed”. These words were said by national leader Heydar Aliyev, the founder of the state of Azerbaijan, on November 6, 1996, at the III Congress of Writers of the Turkic World held by TURKSOY in Baku.

The genius Heydar Aliyev spoke at the III summit meeting of Turkic-speaking countries dedicated to the 1000th anniversary of the "Manas" saga held in Kyrgyzstan in August 1995 [5, p.22]. Heydar Aliyev expressed his joy at the economic and cultural rapprochement that began between the Republic of Azerbaijan and the independent Turkish states after 1993 and noted that “ we should help each other to solve our important problems, help our Turkish brothers who are in trouble, and put out the flames of bloody wars together” . For these reasons, I attach great importance to our meetings with Turkish-speaking heads of state. I wish that these meetings become permanent.

On December 9, 1995, Heydar Aliyev took part in the 150th anniversary of the birth of the great Kazakh poet Abay Kunanbayev in Almaty and was warmly welcomed by the capital's residents. On October 31, 1995, on the occasion of the Independence Day of the Republic of Kazakhstan, in his speech at the official reception organized by the Embassy of Kazakhstan in Baku, he uttered the slogans of friendship and brotherhood. He noted that “Azerbaijani and Kazakh peoples are not only friendly and brotherly countries, but also neighboring countries.This factor will be useful not only in the rapprochement of our nations, but also in the efficient use of natural resources.

On December 7-9, 1995, Turkish President Suleyman Demirel paid an official visit to Azerbaijan. The main issue in the negotiations between Heydar Aliyev and Suleyman Demirel was

Turkish unity. They mentioned in their speeches that our wish and desire is that the Turkic world and Turkic-speaking peoples should come closer and unite. Heydar Aliyev notes that we feel ourselves as a part of the Turkish world and hope for the future of the Turkish world. We hope that every Turkish state that has gained its independence will develop further.

One of the highlights of Heydar Aliyev's meeting with Turkic-speaking heads of state was that he was a skilled connoisseur of the history and literature of the Turkic peoples, and mentiond examples of historical-literary and cultural relations in his interviews.

In 2000, on April 8, the VI summit of Turkic-speaking heads of state was held in Baku. President of Kazakhstan Nursultan Nazarbayev, national leader Heydar Aliyev, President of the Republic of Turkey Suleyman Demirel, President of Kyrgyzstan Asgar Akayev, Chairman of the Parliament of Turkmenistan Sahhat Muradov and other members of the delegation led by them participated in the summit meeting. At the end of the summit, they adopted the Baku Declaration, which consists of 17 articles. Article IV of the declaration talks about the importance of the Great Silk Road and mentions the special services of Heydar Aliyev in the restoration of this road.

The official visit of the President of the Kyrgyz Republic Asghar Akayev to Azerbaijan in April 1997 opened a new page in mutual relations between the two countries. Heydar Aliyev will play an important role in the development of our friendship, brotherhood, cultural, economic and political relations between the two countries.

The decree of national leader Heydar Aliyev dated March 9, 2001 played a very important role in the development of Azerbaijan-Turkey cultural relations [4, p.16]. The decree states: Considering the important place of the great leader of the Turkic world, the founder and first president of the Republic of Turkey, Mustafa Kemal Atatürk in the history of the Turkish people, a decision is made to establish the Atatürk Center in Azerbaijan in order to further study and promote Atatürk's heritage, Turkish history and culture. The President of the Republic of Azerbaijan is the honorary chairman of the Atatürk Center.

## References

1. Türk dünyasının birliyi strategiyası Heydər Əliyevdən İlham Əliyevə. Xalq qəzeti. 2009, 18 iyul, s.3.
2. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri. Bakı, Nurlan, 2007, 302s.
3. İsmayılov İ.Z. Türk dünyası XX əsrin 90-cu illərində. Bakı, Zaman, 2001, 144s.
4. Ulusel R.S. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası Nizami Cəfərovun elmi araşdırmalarında. Bakı, Elm, 2004, 148s.
5. Vəliyev İ.Ö. Heydər Əliyev və türk dünyası. Bakı, Orxan, 2003, 46.s

# HEYDƏR ƏLİYEV "MANAS" DASTANININ 1000 İLLİK YUBİLEY TƏDBİRİNDƏ

**Xanımbacı Məlikzadə**
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu (AMEA), Bakı, Azərbaycan
e-mail: Melikzade1976@gmail.com

Eramızdan əvvəl yaranmış Böyük Hun imperiyasının varisləri olan bu gün Asiyadan başlamış Avropaya qədər geniş coğrafi arela yayılan türkdilli xalqlar dünya mədəniyyət tarixinə misilsiz töhfələr bəxş etmişlər. Hələ ilk orta əsrlərdən yaranmış folklor nümunələri ortaq dil-etnik birliyin nümunəsi kimi bu gündə mühüm əhəmiyyət daşıyır. Belə folklor nümunələrindən biri hələ 1000 il əvvəl qırgız xalqının duhasının yaratdığı möhtəşəm qəhrəmanlıq dastanı olan "Manas" dastanıdır. Dünya eposları arasında "Manas" kimi iri həcmli ikinci bir dastana rast gəlinmir. Qırgız xalqının "Manas" dan başqa digər folklor nümunələri olsa da heç biri "Manas" qədər geniş və dolgun sujetilə həm də, xalqın yaddaşında yaratdığı təsir gücücunə malik deyildir.

"Manas" o qədər əzəmətlidir ki, əgər onun bütün hissələri nəşr olunsaydı, ən azı 100 cildi əhatə edərdi. Müqayisə üçün deyək ki, bu, digər dünya şöhrətli dastanlar -yunanların "İliada" və "Odisseya"sından 20 dəfə, qədim hind dastanı Bharata övladlarının ölüm-dirim mübarizəsini əks etdirən "Mahabha-rata"dan üç dəfə böyüklüyü ilə fərqlənməkdədir."Mahabharata" 19 kitabdan, "Manas" 3 kitabdan - "Manas", "Semetey", "Seytek"dən ibarət olduğu halda, "Kitabi-Dədə Qorqud" 12 boydan (nəğmədən, dastandan) ibarətdir. "Manas"ı ifa edənlərin hər bir hissəsinə xalqın özü ad verib: "Manas" - manasçı, "Semetey" - semeteyçi, "Seytek" - seytekçi adlanır. Eyni zamanda "Manas" ifaçılığına yiyələn-mənin də öz pillələri mövcuddur. Bunlar birinci pillə - manasçı - şəyird, ikinci - manasçılığa başlayan (çala manasçı), üçüncü - sənətkar-manasçı (çınığı manasçı), dördüncü - böyük manasçını (çon manasçı) əhatə edir [4].

"Manas" dastanında təsvir edilən hadisələr bəzi araşdırmaçılar tərəfindən Hun dövrünə bağlanır. Ancaq bu hadisələrin zəminini 12-ci əsrlə bağlamaq daha doğru olar. 1120-ci illərdə Orta Asiyanı zəbt edərək Qaraxanlı ölkəsini ələ keçirən Moğol Karahitayların, qırğızlar üzərinə basqın etməsi və bu sırada yaşanan hadisələr Manas dastanının mövzusunu təşkil edir. Məşhur türkoloq V. Radlov (1837-1918) "Manas" dastanıyla əlaqədar ilk tapıntını, Qırğızıstanın Toxmaq şəhərinin cənubundakı Sarı Bağış boyuna mənsub bir manasçıdan 1869-cu ildə əldə edib. Radlovun yığdığı yeddi hissəlik "Manas" dastanı cəmi 11 min 454 misradan ibarət idi. Lakin manasçıların oxuduğu variant sətir sayının 16 min misra ətrafında olduğu ifadə edilir [3].

Məlumat üçün bildirək ki, türk xalqlarından biri olan qırğızların milli dastanı, dünya ədəbiyyatının da şah əsərlərindən biri sayılan və iri həcmli "Manas" dastanı, adını dastanın qəhrəmanının adından götürüb. Bu dastanı oxuyub söyləyənlərə də "manasçı" deyirlər. Manasçılıq, bir sənət və peşə olaraq qəbul edilir.

İlk manasçılar -Çaysan Irçı, Iramandm Irçı haqqmda yalnız rəvayətlər və ehtimallar mövcuddur. Onlann söylədikləri «Manas»dan nişanə qalmamışdar. A.Auezova görə dastan qəhrəmanı Manas haqqmda ilk mənzumələri yaradan adamm Çaysan Irçı olduğu güman edilir. Eposun S.Orozbəyov variantında Çaysan Irçı Manasın qırx çorosundan (igidindən, dəlisindən) biri olan ozan kimi qələmə verilir. Oxuculara təqdim olunan bu variantda isə Manası ilk vəsf edən ozan kimi Iramandm Irçıoğlunun adı keçir. Haqqmda dürüst məlumatlar olan manasçılar bunlardır: Keldibəy Barıboz oğlu, Balıq (BəymuratKumar oğlu), Tmıbəy Çapı oğlu, Çoyuk Ömür oğlu, Toqolok Moldo, Şapak Irısmendiyev, Saqımbəy Orozbəyov, Canıbəy Koçekov, Cakşılıq Sarıkov, Moldobasan Musulmankulov, Akmat Rismendiyev, Sayaqbəy Karalayev, Mambet Çokmorov, İbrahim Abdırahmanov, Baxış Sazonov, Aktan Tmıbəyov, Cusup Mamay. «Manas» eposunu ilk dəfə yazıya alıb, bəzi parçalanm rus dilinə çevirən və əsərə elmi analiz verən görkəmli qazax ziyahsı Çokan Vəlixanov olmuşdur (1856) [2].

Azərbaycanda isə bu iri həcmli əsəri ana dilimizə çevirən şair, tərcüməçi, filologiya üzrə fəlsəfə doktoru Adil Cəmil olmuşdur.O, nəzm formasında yazılmış "Manas" eposunu nəsr şəklində, yığcam variantda tərcümə edib azərbaycanlı oxuculara çatdırmışdır.

Sovet İttifaqı dağıldıqdan sonra imperiyanın müstəmləkəsi olan bir neçə türk dilli dövlətlər müstəqillik əldə erdikdən sonra milli özünü dərk prosesi çərçivəsində bir çox silsilə tədbirlər həyata keçirdilər.

Belə tədbirlərdən biridə 1995-ci ilin avqust ayında "Manas- 1000 il" tədbiri Qırgızıstanın paytaxı Bişkek şəhərində təntənəli şəkildə keçirildi. Həmin təntənəli tədbirdə dünyanın 70 ölkəsindən nümayəndələr toplanmışdılar. Belə bir möhtəşəm tədbirdə Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan Nümayəndə Heyəti də iştirak etmişdir.

Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə həmişə xalqın milli-mədəni dəyərlərinin qorunması və təbliğində əvəzsiz xidmətləri olmuşdur. Xüsusilə türkdilli xalqların ortaq abidələrinin qorunması və türk dilli xalqların inteqrasiyası yolunda mühüm işlər görmüşdür. Heydər Əliyev türk xalqlarının mədəni abidələrinin böyük ədiblərin şəxsiyyətlərin yubiley mərasimlərində yaxından çıxış etmişdir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatının TÜRKSOY –un formalaşmasında onun böyük xidməti olmuşdur. 1994-1996-cı illərdə türkmən şairi Məhdimqulunun, qazax şairi Abayın, özbək hökmdarı Əmir Teymurun və o cümlədən "Manas"-ın yubiley mərasimində çıxışları onun türkdilli siyasətinin ana xəttini təşkil edir.

1995-ci ilin avqust ayında Qırgızsanın paytaxtı Bişkek şəhərində keçirilmiş "Manas" dastanın 1000 illik yubley tədbirindəki tarixi çıxışdan bəzi ifadələri nəzərinizə çatdırmaq istəyirəm.

Əziz qırğız qardaş və bacılar, əziz dostlar! Biz müqəddəs qırğız torpağına qardaşlıq hissləri ilə, böyük bayramı, "Manas" dastanının 1000 illiyi bayramını sizinlə birlikdə təntənəli şəkildə qeyd etmək üçün gəlmişik. "Manas" qırğız xalqının fəxri, qırğız xalqının milli ləyaqətinin nümayişi, onun müdrikliyinin, qəhrəmanlığının nümayişidir. Qırğız xalqı çoxlu çətinliklərə, həyatın keşməkeşlərinə baxmayaraq, min il Manasın sözlərini qəlbində qoruyub saxlamış, onun göstərdiyi yolla azadlığa və müstəqilliyə doğru getmişdir. "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir."Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, azadlıq sevər olduğunu, cəsarətli olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük

mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır. “Manas"ın dili bizim hamımızın dilidir. Biz bir kökdən, bir dildən olan xalqlarıq [1].

Heydər Əliyev təkcə Qırgıstan xalqının folklor abidəsi olan “Manas” dastanın yubileyində deyil həmişə türkdilli xalqların tədbirlərində iştirak etmişdir. O cümlədən “Manas-1000” tədbirindən 4 il sonra “Dədə Qorqud” datanın 1300 illik yubley tədbirlərinin keçirilməsi haqqında sərəncam imzalamışdır. 2000 ci lin aprel ayının 9 da Gülüstan sarayında H.Əliyevin rəhbərliyi ilə türkdilli dövlətlərin VI Zirvə toplantısının təntənəli yubiley gecəsi keçirilmişdir. Eyni zamnda UNESKO səviy-yəsində qeyd olunan tədbir türk dünyasının dövlət və hökümət adamları, görkəmli alim və yazarların toplaşdığı bir məkan idi. Ümumiyyətlə, Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı eyni zamnda müstəqillik əldə etmiş türk dövlətlərinin inkişafı və milli kökə inteqrasiyası üçün önəmli hadisə idi.

**Açar sözlər***:* Heydər Əliyev, “Manas” dastanı, türkdilli xalqlar.

## Ədəbiyyat

1. Azərbaycan qəzəeti, 30 avqust, 1995.
2. Yusupov K., tərcümə Cəmil Adil “Manas” dastanı Bakı, Nurlan, 2009, s290.
3. Mükərrəmoğlu M., Xalq qəzeti, Manas” dastanı Azərbaycan dilində nəşr edildi, 21 oktyabr, 2009, s7.
4. Tağısoy N., Ədəbiyyat qəzeti, “Manas” da Adil Cəmilin “Manas “ dastan poemasına 27.01.2022.

## Hayder Aliyev at the 1000th anniversary event of "Manas" epic

The article provides information about the historical significance of the “Manas” epic, which is a cultural monument of the Kyrgyz people, for the Kyrgyz people, and shows the role of the epic in the culture of Turkic-speaking peoples. The importance of Heydar Aliyev’s historic speech at the 1000th anniversary of the “Manas” saga held in Bishkek, the capital of Kyrgyzstan, is emphasized. Also, the role of Heydar Aliyev in the culture of Turkic-speaking peoples is evaluated.

# ELÇİNİN "BAŞ" ROMANINDA MAHMUD OBRAZI HEYDƏR ƏLİYEV OBRAZININ PROTOTİPİ KİMİ

**Leyla Məmmədəliyeva**
Azərbaycan Universiteti
e-mail: leyla.mammadaliyeva@au.edu.az

"Baş" romanı Xalq yazıçısı Elçinin çağdaş yaradıcılığının hələlik başı, zirvəsi hesab oluna bilər. Belə ki, əsərdə müəllif tarixi məqamları, tarixi obrazları müasir prizmadan dəyərləndirərək anoloji situasiyalarla son dərəcə məharətlə paralelləşdirmiş, tarixiliklə müasirlik peşəkar yazıçı sənətkarlığı ilə vəhdətdə təqdim olunmuşdur. Yazıçı məqsədinə nail olmaq üçün müxtəlif üsul və priyomlardan, üstüörtülü məqamlardan ustalıqla yararlanmış, ölkənin müasir siyasi səhnələri, siyasətçiləri ilə bu və ya digər məqamları müqayisə etməyə, paralelləşdirməyə çalışmışdır. Əsər XIX əsrin əvvəlləri Bakı xanlığının təsviri, Bakı xanı Hüseynqulu xanın hakimiyyəti dövründə baş verən ziddiyyətlər, rus generalı Sərdar Sisianovun hücumları ərəfəsində xanlıqda başlanan təşviş, məsləhətləşmələrlə başlayır.

Əsərin əsas obrazlarından biri də Mahmud bəydir. O, əsərdə Hüseynqulu xanın bacısı oğlu kimi təqdim olunur. Müəllif Hüseynqulu xanın dili ilə Mahmud bəyi belə xarakterizə edir: "...bu satqın dünyada, öz övladları da daxil olmaqla, xanlığın əyan-əşrəfi arasında ona heç vaxt xəyanət etməyəcək adam vardısa- əgər vardısa- o da Mahmud idi" [2, səh. 32].

XIX əsrdə Türklərin bütün dünyada sıxışdırılması daha da intensivləşdi. Türk əraziləri hissə-hissə işğal olunmağa başladı. Mahmud yaxşı başa düşürdü ki, bu vəziyyətdən çıxmaq üçün hansısa bir dövlət ilə ittifaqa girmək yersizdir. Çünki "türkün türkdən başqa dostu yoxdur" (Atatürk). Ona görə də o türkçülüyə böyük inam bəsləyirdi.

"Mahmud bəy "millət" dedikdə yalnız Abşeron camaatını yox, hətta yalnız bütün xanlıqlar da daxil olmaqla Azərbaycan əhalisini yox, dünyada yaşayan bütün türkləri nəzərdə tuturdu və bu ad-sanlı cavan bəyin od kimi püskürən əqidəsi- türkçülüyü də hamıya və təbii ki, Bakı xanının məşvərət otağında əyləşmiş bu adamlara da yaxşı məlum idi"

Mahmud bəy millətini azad görmək ideyaları ilə nəfəs alır. Bu yolda o kiməsə güzəştə getməyi ağlına belə sığışdıra bilmir. Xanın dilmancı Şərif bəy xanlığı ruslarla dil tapmağa, birləşməyə səsləyəndə Mahmud bəy dözmür və onun sözünü kəsərək: "Kaş sən o Peterburqdan qayıtmayadın, Şərif bəy, biz də fəxr edəydik ki, orada ruslara nökərçilik edən bir həmşərimiz var!", - deyə cavab verir. Bu qarşılaşdırma Mahmudun prinsipial və milli-azadlıq ideyalarına sədaqətini göstərir. Vətənin əsarəti ilə heç cür barışa bilməyən Mahmud bəy ən təhlükəli anlarda da, geri çəkilməyi ağlına gətirə bilmir. Əsərdə Mahmud obrazı daha çox diqqət çəkir və görmək çətin deyil ki, onun uğrunda vuruşduğu həyat amalı müasir Azərbaycanın qurucusu, memarı olan H.Əliyevin ideyaları ilə tamamilə üst-üstə düşür. Başqa sözlə desək Mahmud obrazı elə H.Əliyev obrazının prototipi kimi qavranılır.

Xanlıqdan qat-qat güclü qoşuna malik olan və böyük rus imperiyasına arxalanan Sisianov özünə aludə olduğuna görə xanlığın açarının təqdimolunma məqamını hamının görə biləcəyi bir yerdə nümayiş etdirməyi qərara alır. Bununla da o, hamıdan cəsarətli və ağıllı bir başa sahib olduğunu sübut etmək və qürrələnmək istəyir. Mahmud bəyin iki nəfər silahdaşı güllə ilə cəld knyazı qətlə yetirirlər. Hüseynqulu xan dəhşətə gəlir. "Ədə qoymayın, ədə neynirsiz?" –deyə qışqırır. Çöldə hava çox pis olduğundan xan: "o qasırğa çöldə deyil, ürəyimdə əsir mənim", – deyir, dəhşətlə Mahmud bəyə bağırır: "Bilirəm, sənin işindir bu! Sənin əl-qolunu zəncirləyəcəm, səni qəfəsə salacam!... Sərdarın meyidi ilə bərabər səni ruslara göndərəcəyəm!

Mahmud bəy üçün bu cavab gözlənilməz deyildi. O, xalqın və vətənin azadlığı uğrunda hər an qurban getməyə hazır idi. Ona görə də xana belə cavab verir: " – Göndər! Göndər, qoy ruslar dar ağacından assınlar məni! Rusların ayaqları altında olmaqdansa, onların başı üstündən dar ağacından asılmaq yüz dəfə şərəflidir".

Təkcə elə bu sətirlər kifayətdir ki, Mahmud bəyin millətçilik, vətənpərvərlik ruhu haqqında oxucuda geniş bir təsəvvür yaransın.

Xanlıqda çaxnaşma düşür, qorxu, həyəcan başlanır. Hüseynqulu xan başını itirir. Qərara gəlirlər ki, İrana sığınsınlar. Xanlığın məşvərəti zamanı Molla Müzəffər Ağa İrana hədiyyə olaraq Sərdarın kəsilmiş başını göndərmək təklif edir. Bəs Başı kim aparsın? Xan üzünü Mahmud bəyə tutur: " –Onu sən öldürdün, sən də Fətəli şaha ərməğan aparacaqsan! Molla Müzəffər Ağaya da başı aparmaq üçün Mahmud bəyə yol yoldaşı, nəzarətçi olmağı tapşırır".

Daha sonra yenə də tarixi məqamlar vərəqlənir: Ağa Məhəmməd şah Qacarın Qarabağa hücumları, sui-qəsd nəticəsində öldürülməsi, Yemelyan Puqaçovun tarixi xidmətləri və s.

Paata Sisişvili çəkişmələrdən təngə gəlib çar 6-cı Vaxtanqla birlikdə Tiflisi tərk edib Rusiyaya mühacirət edirlər. Paata artıq Pavel Sisianov oldu. Babua Arçil də Paatanın uşaqlıq dostu da onları müşayət edənlərdən biri idi. Babua-Arçil Sisianovların ən yaxın dostu idi, evlənməmişdi. Deyilənə görə Moskva gözəllərinin övladları arasında Babuanın da uşaqları az deyilmiş. Babua Arçilin uydurma əhvalatlar danışması, Peterburqda iki nəfər caninin başının kəsilib spirtin içində kolbada saxlanılması, hətta bir-biri ilə danışması və s. uydurmaları əsər boyu maraqla izlənilir.

Lal Qafaroğlu obrazı da bir qədər fərqlidir. Guya Hüseynqulu xan sərdarın başının kəsilməsini əvvəl Mahmud bəyə tapşırdı, sonra Lala. Guya Lal Qafaroğlu qəssab Balarzanın kötüyünü gətirib Sərdarın başını kəsir, kötüyü götürmək istəyəndə Qəssab Balarza etiraz edir, bundan sonra mən o kötükdə necə ət kəsə bilərəm deyir, kötüyə heyfi gəlir: "Həyif onnan deyir-yaxşı kötük idi zay oldu!"-deyə illər keçsə də, yaşı 90-ı haqlayan qəssab Balarza yenə də kötüyün yerini çəkirdi.

Molla Müzzəffər Ağa, Mahmud bəy və s. başı Fətəli şaha aparırlar. Hüseyn Xan bununla heç olmasa Qacarların, İranın Bakıya dost gözü ilə baxmasını arzulayırdı. Molla Müzəffər ağaya söhbət əsnasında Mahmud bəy işğalçılara öz nifrətini belə ifadə edir: "Allah deyir mənə bir qılınc versəydi yer üzündəki bütün rusları Avropalıları, firəngləri, ingilisləri, o birilərini hamısını qılıncdan keçirərdim."

Molla Müzəffər ağa Mahmudun bu cür düşüncələrinin düşdüyü şəraitdən qaynaqlandığını hiss edir və onu soyuq başla düşünməyə çağırır. Onu başa salır ki, bütün dünyada baş verən müharibələrin çoxu milli və dini zəmindən çox uzaq olmuşdur (türk xaqanlarının bir-biri, Hitlerin xristian dünyasını ilə qanlı müharibələrini xatırlayın!): “Ancaq türklər bir-biri ilə dostdur? Sən bütün məxluqatı qılıncdan keçirdikdən sonra türklər daha bir-birini qırmayacaq?” Allah o qılıncı sənə heç vaxt verməyəcək, Mahmud bəy. Sənin boynunu üzmək istədiyin o millətləri də Allah-Təala xəlq etmişdir. Sən o səlahiyyət sahibi deyilsən ki, millətləri yox edəsən. Və sənin bu cür fikirləşməyin də qüsurludur oğlum...”

Əsər boyu Mahmud bəyin türkçülük ideyalarından bəhs olunur. Diqqət edək: “ Yaşı otuzu haqlamaqda olan Mahmud bəy həyatını türkün tarixini öyrənməyə, bu tarixdən ibrət dərsi almağa və bütün varlığı ilə o dərs naminə çalışmağa həsr etmişdi. ... ümumiyyətlə, heç vaxt xanlıq taxtı barədə fikirləşmirdi də, çünki onun üçün dünyadakı türklərin, ilk növbədə də ədavətləri bir-biri ilə böyük-kiçik müharibə və savaşları bitib-tükənməyən Osmanlılar ilə Qacarların birləşib, vahid bir türk dövləti yaratmaqlarından müqəddəs bir amal yox idi”.

Mahmud təkcə türklərin birliyini arzulamırdı, o, eyni zamanda. bunu həyata keçirmək üçün əməli addımlar da atırdı. Bunun üçün üzünü türk qardaşlarına tutmuş və onlara arxalanmaq istəmişdir. Lakin Avropapərəst Sultan Səlim onun niyyətini başa düşdükdə onu qəbul etməyir. Əsərdə Elçin bunun səbəbsiz olmadığını açıqlayır: “ Mahmud bəy üç il bundan əvvəl əqidə dostu hesab etdiyi üç-dörd nəfəri başına yığıb İstanbula getmişdi-vəziyyəti başa salmaq, Osmanlını türk birliyinə çağırmaq istəyirdi, istəyirdi ki, Osmanlı dövləti bu birliyin başında dursun, Azərbaycanı rusların əlindən xilas etmək üçün onlardan kömək umurdu, ancaq Sultan Səlim onu heç qəbul da etmədi. Bir Sultan ki, təmiz türk olmadı, bir sultanın ki, anası Avropalı kafir qızıdı, ondan nə gözləmək olar? Türk gərək təmiz türk olsun, təmiz olmayan türk türkə xidmət eliyə bilməz. Söhbət böyük xidmətdən gedir, o dövlətdən ki, başqa millətlər-rusundan, ingilisindən, firəngdən tutmuş, farsına, ərəbinə, həbəşinə kimi –türklərə nökərçilik etsin”.

Mahmud bəy Hüseynqulu xanın məktubunu şahənşaha şəxsən təqdim etməyi qət etmişdi. Lakin Abbas Mirzə məktubun Xacə Əbdül Rəhmana verildiyini deyəndə Mahmud bəy ona etiraz edir:

“- Mən də türkəm, siz də türksünüz, əlahəzrət! –qışqırdı. –Siz məni dinləməlisiniz! Dinləyin məni! Biz bir-birimizə əl uzarmalıyıq! Biz hamımız Osmanlı padşahlığı ilə birləşib, böyük türk dövləti yaratmalıyıq! Dünyadakı bütün türklər birləşməlidir, yoxsa Osmanlının da, sizin də axırınız pis olacaqdır! Biz hamımız məhv olacağıq! Bizim özümüzdən başqa kimsəmiz yoxdur! Siz təkbaşına rus ordusu ilə bacara bilməyəcəksiniz!”

Abbas bəy gecə yuxuya getməzdən əvvəl Mahmud bəyin türkçülüklə bağlı fikirlərinə rişxəndlə yanaşır öz-özünə deyir:

“Türk birliyindən dəm vuran əbləh bakılı bəy! Cahil insan! Sən görmürsən ki, Azərbaycanın bu cırtdan xanlıqları bir-birinin başına nə oyun açır? Sən cahil və xəstə xəyalında böyük türk dövləti qurursan! Sənin türkbazlığın arvadbazlıq şərabbazlıq, quşbazlıq kimi bir şeydir, axmaq oğlu axmaq! ...Sən istəməyində ol, bəs, dünya özü buna nə deyir? Türk bir-biri ilə heç vaxt birləşməyəcək”.

Kifayət qədər böyük nüfüza sahib olsa da, Abbas bəy Mahmudun arzularının real zəminə əsaslandığını heç yuxusunda da görə bilməzdi. Ona görə də onun rişxəndlərinin mayasında dünyagörüşünün cılızlığı, Mahmudu düya bilməməsi dayanır. O, hadisələrin zahiri görkəminə əsaslandığı üçün mahiyyət yaddan çıxır. Başqa sözlə desək, Elçin yaradıcılığını türkçülük bir qırılmaz tel kimi birləşdirir. Hələ sovet dövründə - səksəninci illərin əvvəllərində yazdığı "Mahmud və Məryəm" əsərində də bu məsələlərə toxunur, Ərzurumlu Süleyman paşanın "Böyük Türk Xalqları Dövləti" qurmağa səsləməsi dediklərimizə sübutdur [1]. Bütün bunlar onu göstərir ki, Elçin nəinki türk dünyasının bu gününü, hətta gələcəyini belə aydın təsəvvür etdiyi üçün əsərləri tarixlə məhdudlaşa bilməzdi. Onun əsərlərindəki keçmiş zaman müasirliklə vəhdət təşkil edir, bu gün Abbas Mirzə kimi düşünən adamları gözlə yox, ağılla düşünməyə çağırır, kiçik Azərbaycanın bu nəhəng işlərin mərkəzində dayandığını qürurla əks etdirir.

"Bəs Sərdar Sisianovun ağlı harda idi ki, Bakı qalasına təkbaşına açar dalınca gedirdi? – səbəb, əlbəttə, təkcə Hüseynqulu xanın onu arxayın etməsi deyildi, əsl səbəb Sisianovun yekəbaşlığı, yerə-göyə sığmayan təşəxxüsü, ən başlıcası isə, Arazın o tayındakı bütün xanlıqlara, gürcü şahzadələrinə, knyazlarına, Dağıstan hakimlərinə, bütün Qafqaz camaatına yuxarıdan, göyün yeddinci qatından, az qala Allahın dərgahından aşağı baxması idi.

Allahın dərgahından aşağı baxırsan, axırı da belə olar"

Əsərdə yazıçı Sisianovun bəd əməllərindən bəhs etdikcə oxucuların gözləri qarşısında böyük bir aləm yaranır: Rus imperiyasının da, Sovet imperiyasının da çökməsinin səbəbləri Sisianovun əməlləri fonunda açıqlanır. Maraqlıdır ki, İmperiyanın simvoluna çevrilmiş Sisianovun taleyinə Bakıda son qoyulur. Bu isə xalqımızın şərəfli qəhrəmanlıq səhifəsi kimi tarixlərə düşəcəkdir və tarixlə müasirliyi bir araya gətirmiş Elçin fəlsəfəsinə böyük maraq yaradacaqdır.

**Açar sözlər:** ümumilli lider, Elçin, roman, Bakı xanlığı, "Baş" romanı.

### Ədəbiyyat

1. Elçin. Seçilmiş əsərləri (10 cilddə) 4-cü cild. Bakı, "Çinar-çap" nəşriyyatı, 2005, - 589 səh
2. Elçin. Baş (roman). Təhsil, 2019, 192 səh.

# ÜMÜMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN VƏ BÖYÜK BRITANİYA MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ ROLU

**Samirə Məmmədova, Şəbnəm Ağaməmmədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Azərbaycan –Avropa əlaqələrinin ən mühüm hadisəsi hesab edilən Böyük Britaniya dövləti ilə əlaqələr məhz Heydər Əliyev hakimiyyətə gələndən sonra başlamışdır və dərinləşmişdir. Hələ keçən əsrin əvvəllərində Bakıda neft sənayesi ilə üzə çıxan, iqtisadi, mədəni elmi əməkdaşlıqla davam edən Azərbaycanın Böyük Britaniya ilə ilk peşəkar əməkdaşlığı 1994-cü il 22-25 fevral ayında Müstəqil Azərbaycan prezidentinin Böyük Britaniyaya ilk rəsmi dövlət səfəri ilə həyata keçmişdir. Bu görüşdə Azərbaycanın həm siyasi, həm də iqtisadiyyatı ilə bağlı bir çox müqavilələr və sazişlər imzalanır. 1998-ci ildə Toni Bleyevin dəvəti ilə 19-24 iyul tarixində baş tutan ikinci rəsmi səfərdə olduğu zaman Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığın xarici işlər üzrə dövlət naziri Daq Henderson Londonda Azərbaycan prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil edir. Böyük Britaniya dünyanın ən böyük və ən qədim dövlətindən biridir, onun xalqı dünya tarixinə, mədəniyyətinə böyük töhvələr vermişdir. Bu gün Böyük Britaniyanın dünya birliyində onun özünəməxsus yeri olan iqtisadiyyatı dünyada ən önəmli yer tutur. Bu baxmdan siyasi-ictimai məsələlərin həll olunmasında Böyük Britaniyanın fikri həlledici xarakter daşıyır. Elə həmin gün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləmiş Krallığın Kraliçası ll Yelizovella ilə görüşmüşdür. Daha sonra Londonun lord-meri Riçard Nikols dövlətimizin başçısı Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil etmişdir. Bu görüş tarixi “Gildholl” sarayında keçirilmişdir. 6 əsrlik tarixi olan ədəbiyyat üzrə nüfuzlu mükafat Buker məhz bu sarayda təqdim olunur.

Heydər Əliyev burada çıxış edərək qeyd edir: “Hörmətli xanımlar və cənablar! İki gündür ki, mən sizin ölkədə rəsmi səfərdəyəm. Birləmiş Krallıq və Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün çox böyük əhəmiyyətə malik görüşlər keçirmiş danışıqlar aparmışıq. Mən və mənimlə birlikdə “Gildholl” sarayında iştirak edən Azərbaycan nümayəndə heyəti yaxşı dərk edir ki, biz Birləşmiş Krallığın Londonun ən mərkəzində olan tarixi bir binadayıq. Həqiqətən burada hər şey Böyük Britaniyanın qəhrəmanlıq tarixindən xəbər verir. Orta əsrlərdə bu sarayı tikib yaradanlar mahir və peşəkar memarlar, inşaatçılar deyil sadə vətəndaşlar olmuşlar. Onlar Böyük Britaniyanın, Birləşmiş Krallığın bugünkü nəsilləri üçün böyük irs qoyub getmişlər. Biz isə, sizin ölkəyə dərin hörmət və məhəbbət bəsləyənlər kimi sizinlə birlikdə sevinirik. Mən bu gün Birləmiş Krallığın kraliçası ilə görüşüb çox maraqlı söhbət etmişəm. Bunu özüm üçün və Azərbaycan xalqı üçün tarixi hadisə hesab edirəm.” Səfərin 3-cü günü Azərbaycan Prezidenti Heydər Əliyev Azərbaycan səfirliyində Böyük Britaniyada yaşayan Azərbaycan icması nümayəndələri ilə görüş keçirmişdir. Bu görüşdə prezident bir sıra mənəvi məsələlərə toxunub. Mən 3-cü gündür ki, Londondayam, çoxsaylı görüşlər keçirmişəm və səfərim uğurlu keçir. Azərbaycan bizim üçün - azərbaycanlılar üçün nə qədər dəyərli bir ölkə olsa da, nə qədər qədim mədəniyyətimiz, musiqimiz, şairlərimiz,

yazıçılarımız, rəssamlarımız və tarixi memarlıq abidələrimiz olsa da, biz özümüzü dünyada yetərincə tanıda bilməmişik. Dövlət müstəqilliyimizi əldə etdikdən sonra başqa vəzifələrimizlə yanaşı, Azərbaycanı hər gün, hər ay təbliğ etmək, tanıtmaq, xarici ölkələrdə Azərbaycanı olduğu kimi göstərmək və respublikamızın əleyhinə olan təbliğatların qarşısını almaq bizim əsas vəzifəmizə çevrilmişdir.

Azərbaycanın dünya miqyasında ən böyük problemi odur ki, ölkəmiz üçün daim bəla gətirən Ermənistan adlı qonşumuz vardır. Azərbaycan torpaqlarına keçmişdə və indi göz dikən Ermənistan! Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişə mövcuddur. Biz Azərbaycanı təbliğ etmək, tanıtmaq üçün respublikamızda müxtəlif tədbirlər həyata keçiririk. Amma Ermənistanın buna ehtiyacı yoxdur. Ermənistan üçün bunu Amerikada, İngiltərədə, Fransada başqa ölkələrdə yaşayan ermənilər, erməni diasporu edir. Ermənilər bu ölkələrdə sayca çoxdur. Onlar bu ölkələrdə yaşadıqları müddətdə özlərinə güclü imkanlar yaradıblar və böyük sərvətə malikdirlər.

Bizim üçün tarixi bir amal var – Azərbaycançılıq. Ermənilər çalışırlar sübut etsinlər ki, guya ümumiyyətlə Azərbaycan milləti yoxdur, köçərilər olublar. Amma bizim millətimizin böyük tarixi var. Bizim dilimiz Azərbaycan dilidir. Bəli biz türkdilli millətlərə daxilik. Əcdadlarımız birdir. Ancaq türkdilli xalqlar sonra şaxələnib, hərəsi bir millətə çevrilibdir. Özbək də türkdillidir, qırğız da, qazax da, tatar da, türkmən də, basqır da, uyqur da türkdillidir. Amma hərəsi bir millətdir. Hərəsinin də öz dili var. Amma biz bu kökün bir budağıyıq. Özümüzün adı var – Azərbaycan, özümüzün də dili var. Azərbaycan dili çox da gözəl və zəngin dildir. Siz bilirsiniz ki, mənim təhsilim rus dilində olub. Bütün həyatım boyu rus dilində oxumuşam, rus dilində işləmişəm. Moskvada böyük vəzifələrdə işləmişəm, rus dilində danışmışam. Mənim üçün rus dili ana dili kimi bir dildir. Amma mən o dildən nə qədər istifadə etsəm də, Azərbaycan dilini unuda bilmirəm. Bu dil mənim üçün hər şeydən əzizdir. Millətin milli kimliyini ifadə edən onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Azərbaycan dili olmasa azərbaycan ədəbiyyatı olmaz" [1, s.406-407].

Ulu öndər, Azərbaycanın milli dərkinin inkişafında xüsusi xidməti olan Heydər Əliyev hər yerdə olduğu kimi dünyanın ən nüfuzlu ölkələrindən biri olan Böyük Britaniyada da Azərbaycan dilini, türk millətini uca tutur və torpaqlarının işğal olunmasını diqqətə çatdırır.

Bu çıxışında diqqəti cəlb edən məsələlərdən ən önəmlisi isə onun neft sənayesindən söz açaraq onu özünəməxsus peşəkarlığı, vətənpərvər duyğusu ilə milli-mədəni sərvətimiz olan "Dədə Qorqud"a müncər etməsi idi: "Mən hər dəqiqə Azərbaycanın müstəqilliyini və milliliyini nümayiş etdirirəm. Bizdə neftqazma qurğusu var idi. "Şelf-2" adlanırdı. Sovetlər ittifaqı vaxtında almışdıq, ancaq bugünkü tələblərə cavab vermirdi. Onu modernləşdirmək üçün 37 milyon dollar vəsait qoymaq lazım idi. Bu vəsaiti konsorsium qoydu. Amma təkcə vəsait deyil. Bu qazma su qurğunun adını mən qoydum. "Dədə Qorqud" adı verdik. Bu bizim babamızdır. O adı mən qoydum" [1, s.446-447].

İyulun 28 də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri zamanı Azərbaycan prezidenti Heydət Əliyev Şotlandiyanın Edinburq şəhərinə getmişdi. Prezidenti

Edinburqun lord-provostu Erik Miliqan qarşılayıb. Respublikamızın rəhbərinin Şimali İrlandiya Birləşmiş Krallığının ən gözəl və qədim tarixə malik olan Edinburq şəhəri və Şotlandiya kralların sarayı barədə bilikləri onu müşayət edən britaniyalıların böyük təəccübünə və heyrətinə səbəb olur.

Sonra Heydər Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı kraliçasının Edinburqdakı iqamətgahına qonaq gəlmişdir. 1128-ci ildə I Deyvid tərəfindən əsası qoyulmuş bu kral sarayında əlahəzrət Kraliça hər yay dincəlir. Hər il yeni il ərəfində və Kralıçanın doğum gününündə bu iqamətgahda təntənəli qəbullar, ziyafətlər təşkil olunur.

Axşam ziyafətində Edinburq lord-provostu Erik Miliqan çıxış edərək Azərbaycandan gəlmiş nümayəndə heyətini şəxsən salamlamaqdan qürür duyduğunu bildirir. Çıxışının sonunda lord bildirir ki, Şotland ənənələrinə sadiq qalaraq qonaqlar evə ən xoş xatirələr aparsın deyə, dostluğu əbədiləşdrimək üçün Şotland milli qədəhinə əla növ Şotland viskisi süzüləcək. Bu Edinburqda istehsal olunan viski olmalıdır. Bu sağlıq Şotlandiyada məskunlaşmış kralların dilində "Slanceva" kimi səslənir. Bu möhkəm səhhət və sağlamlıq arzusudur. "Cənab Prezident! Sizin və bütün Azərbaycan xalqının sağlığına!"- deyərək həmçinin Heydər Əliyevdən hədiyyə olaraq şəhərin rəsmini və gümüş qolbəndləri qəbul etməyi xahiş edir. Burada vətənpərvər Ulu Öndər bildirir ki, "...sizə verəcəyimiz hədiyyənin mənəvi dəyəri daha böyükdür – bu Azərbaycan xalçasıdır... Bu gün Kraliçanın Edinburqdakı sarayını gedərkən oradakı xalçalara diqqət yetirdim. Onlar çox gözəl xalçalardır. Şübhəsiz ki, həmin xalçalar Şərqdə toxunub, şərqdə isə xalçanın ən mötəbər mərkəzləri İran və Azərbaycandır. Kral sarayındakı xalçalardan birinin üzərindəki ornamentlərdən belə fikrə gəldim ki, bu azərbaycanlılar tərəfindən toxunmuş xalçadır. Doğrudur, mən sizə həmin xalça kimi böyük xalça bağışlaya bilmərəm. Onu sadəcə, buraya gətirmək mümkün olmaz. Amma mən bu gözəl və kiçik xalçanı sizə bağışlayıram..." [1, s.450].

Bu gün biz başqa bir kontekstdə yaşayırıq. Bütöv Azərbaycan! Qalib xalq! Milli birliyimiz bizi Şuşa qalasına qədər gətirdi. Bu gün Qarabağ atları Britaniya yarışlarında iştirak edir. Britaniya səfiri Fergus Aulden Zaqatalada at çapırdı, azərbaycanca danışırdı.

Şuşanın azad olunmasından sonra möhtərəm prezidentimiz İlham Əliyevin dediyi "Mən bu gün atamın məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" fikri Heydər Əliyevin arzularının, başladığı işin məntiqi yekunu bundan daha yaxşı ifadə etmək mümkün deyil. Bu Heydər Əliyevin hər kəsin qəlbində yaşayan əziz xatirəsinə ən böyük ehtiramdır.

**Açar sözlər:** Heydər Əliyev, Böyük Britaniya, əməkdaşlıq, müstəqillik, milli birlik.

## Ədəbiyyat

1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. On altıncı kitab: iyun, 1998 – iyul, 1998, Bakı: Azərnəşr, 2005. – 552 s.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELEKTROENERGETİKASININ İNKİŞAF STRATEGİYASI

**Çingiz Məmmədov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Hər bir dövlət müstəqillik əldə etdiyi ilk günlərdən bir çox qlobal problemlərlə qarşılaşır.Bu problemlər həm xarici,həm də daxili amillərlə xarakterizə olunur. Ölkəni qarışıq gərginlikdən, sosial-iqtisadi tənəzzüldən və ümümiyyətlə böhran halından xilas etmək üçün millətə bacarıqlı, dərin biliyə malik, uzaqgörən və xalqının əsl təəssübkeşı olan bir liderin rəhbərlik etməsi vacibdir. Bu nöqteyi-nəzərdən Azərbaycan xalqının bəxtinə Heydər Əliyev kimi bir şəxsiyyətin rəhbər təyin edilməsi qismət olmuşdu ki, onun fenaminal qabiliyyəti sayəsində olkəmiz qısa bir dövr ərzində sürətlə öz iqtisadiyyatını inkişaf etdirmiş, dünyada yüksək reytinqə malik ölkələr sırasına qoşulmuşdur.

Məlumdur ki, ulu öndər Heydər Əliyev, ölkəmizə ilk dəfə 1969-cu ildən 1982-ci ilə qədər olan müddət ərzində Azərbaycan KP MK-nın birinci katibi kimi,daha sonra müstəqillik illərində isə, 1993-2003-cü illərdə Respublika Prezidenti kimi başçılıq etmişdir. Qeyd olunan bütün bu dövrlər ərzində o, iqtisadi inkişafın təmin edilməsi üçün zəruri tələbləri düzgün qiymətləndirərək hər bir sahənin inkişafını nəzərdə tutan işlək proqram hazırladı. O, başa düşürdü ki, iqtisadiyyatı qaldırmağın əsas şərti, ölkənin sabit elektrik təchizatı ilə tam təmin olunmasıdır.

Məlumdur ki, müasir texnologiya, elmi-texnoloji tərəqqinin inkişafında elektrik enerjisinin rolu böyükdür. İstər xalq təsərrüfatının hər hansı bir sahəsinin normal fəaliyyəti, istərsə də məişətimizdəki komfort şərait, əsasən elektrik enerjisi vasitəsilə təmin edilir. Onun tətbiqi elə bir geniş vüsət almışdır ki, müasir sivilizasiya sistemində insan yaşayışında vacib olan su və hava kimi əsas komponentlərdən birinə çevrilmişdir.

Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrü elektroenergetikanın ən dinamik inkişaf dövrü adlandırmaq olar. Energetikanın inkişafına təkan verən əsas hüquqi bazasını,onun tərəfindən təsdiq edilmiş qanun və sərəncamlar təşkil edir. Bunlardan aşagıdakıları qeyd etmək olar: “Enerji resurslarından istifadə haqqında”; “Elektroenergetika haqqında”; “Energetika haqqında”; “Elektrik və istilik stansiyaları haqqında” Azərbaycan Respublikasının Qanunları və s.

Bu dövrdə, fəaliyyətdə olan elektrik stansiyalarında mühüm rekonstruksiya işləri aparılmış, MDB məkanında ilk dəfə olaraq gücü 400 MVt olan müasir qaz-turbin tipli “Şimal” ES istifadəyə verilmiş və Respublikanın müxtəlif bölgələrində ümumi gücü 858 MVt olan yeddi “Modul” tipli Elektrik Stansiyası tikilmiş, yeni elektrik veriliş xətləri və yarımstansiyalar quraşdırılmışdı. Energetika sahəsində yüksəlişin başlanğıcını qoymaqla,ölkədə enerji qıtlığı aradan qaldırılmışdı.

Belə ki, 1969-cu ildə ölkənin elektrik enerjisi üzrə generasiya gücü: 2627,4 Mvt, illik elektrik istehsalı isə 1157,27 Mln.kvts təşkil edirdi. Bu isə o vaxtkı elektrik tələbatını ödəməyə qadir deyildi.

Ölkə iqtisadiyyatının geniş miqyasda inkişafını və əlavə generasiya güclərinə gələcək tələbatı proqnozlaşdıran ulu öndər, Respublikada elektroenergetik generasiya güclərinin artırılmasını ön plana çəkdi. Bir çox çətinliklərə baxmayaraq, beynəlxalq banklardan alınmış kreditlər və müxtəlif xarici firmaların ölkəyə dəvət edilməsi sayəsində mövcud stansiyaların bir çoxunda rekonstruksiya işlərinə və yeni stansiyaların quraşdırılmasına başlandı: "Bakı"İEM (107Mvt,19.10.2001);Əli-Bayramlı İES-i (1050Mvt, 2003.Şirvan ş.); Şimal İES-i (400 Mvt,29.11.2002 Bakı, Şüvəlan qəs.); "Araz" (22 Mvt, 1970-ci il), "Yenikənd" SES (150 Mvt, 2000-ci il, Kür çayı üzərində); "Şəmkir" SES-i (380 Mvt, 1982-ci il); "Sərsəng" SES (50 Mvt, 1975-ci il, hazırda işğal altındadır) tikilmişdi. Bu dövrdə 2400 Mvt-gücə malik, Cənubi Qafqazda ən güclü elektrik stansiyası sayılan "Azərbaycan" İES-in (20.10.1981, Mingəçevirdə) işə salınması ilə respublikamızın yarısının energetik tələbatı ödənildi [1]. Ümumiyyətlə, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə 3500 MBt-a yaxın generasiya gücü işə salınmışdır. Bununla da ölkənin enerji təhlükəsizliyi təmin edilmiş oldu.

Aşagıdakı cədvəldə Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyiu illərdə elektrik generasiya güclərinin inkişaf dinamikası aydın görünür:

**Cədvəl 1 [2]**

| **İllər** | **Güc, Mvt** | **İstehsal, Mln.kvt.s** |
|---|---|---|
| 1969 | 2627,4 | 11572,7 |
| 1970 | 2623,0 | 11915,2 |
| 1971 | 2704,9 | 12222,0 |
| 1972 | 2752,6 | 12541,9 |
| 1973 | 2803,7 | 13379,2 |
| 1974 | 2862,4 | 14117,5 |
| 1975 | 288240 | 14546,0 |
| 1976 | 2932,4 | 15189,0 |
| 1977 | 2932,4 | 15641,0 |
| 1978 | 2932,4 | 15788,9 |
| 1979 | 2932,4 | 15061,5 |
| 1980 | 2882,4 | 14922,6 |
| 1990 | 5051,0 | 23152 |
| 1995 | 5044,0 | 17044 |
| 2000 | 4912,0 | 18699 |
| 2001 | 5161,0 | 18 969 |
| 2002 | 5283,0 | 18 701 |
| 2003 | 5673,0 | 21 286 |

Bu günkü Azərbaycan dövləti etibarlı siyasi sabitliyə, zəngin iqtisadi potensiala malik, beynəlxalq aləmə öz haqlı mövqeyini bildirməyə qadir olan müstəqil bir dövlətdir. Buna səbəb ulu

öndər Heydər Əliyevin xalqımız, müstəqilliyimiz üçün tarixi əhəmiyyət kəsb edən xidmətləridir və xalqımız son illərdə nail ola bildiyi bütün uğurlara görə daim ona borcludur.

Məhz ulu öndərimiz tərəfindən düzgün təyin edilmiş sosial-iqtisadi siyasətin nəticəsidir ki, Azərbaycan bir vaxtlar qonşu ölkələrdən enerji daşıyıcıları-xüsusilə də təbii qaz və elektrik enerjisi idxal edirdisə, hazırda onların ixracatçısına çevrilmişdir. 2022-ci ildə Azərbaycan $121 milyon 598,37 min dəyərində, 1 milyard 711 milyon 432,88 min kVt.saat elektrik enerjisi ixrac edib.

İxracın strukturunda 2022-ci ildə Rusiyaya elektrik enerjisi ixracı $3 milyon 644,23 min dəyərində 91 milyon 529,56 min kVt.saat, Gürcüstana - $33 milyon 213,97 min dəyərində 551 milyon 878,8 min kVt.saat, Türkiyəyə - $79 milyon 267 min dəyərində 964 milyon 453,7 min kVt.saat, İrana - $5 milyon 473 min dəyərində 103 milyon 571,21 min kVt.saat təşkil edib [7].

**Açar sözlər:** Ulu öndər, enerji təhlükəsizliyi, generasiya gücləri, iqtisadi tərəqqi.

## Ədəbiyyat

1. Azərbaycan Enerji Sistemi, Azərenerji, Bakı, 2015.
2. Azərenerji ASC-nin illik hesabatı, Bakı, 2016.
3. Enerji resurslarından istifadə haqqında Azərbaycan Respublikasının Qanunu (30 may 1996, № 94).
4. Elektroenergetika haqqında Azərbaycan Respublikasının Qanunu (3 aprel 1998, № 459).
5. Energetika haqqında Azərbaycan Respublikasının Qanunu (24 noyabr 1998, № 541).
6. Elektrik və istilik stansiyaları haqqında Azərbaycan Respublikasının Qanunu (28 dekabr 1999, № 784).
7. Məmmədov Ç.R., Dadaşova N.N., Respublikada elektroenergetikanın inkişafı ölkənin enerji təhlükəsizliyinin əsas meyarıdır, İpək yolu, №4, 2017.
8. https://fed.az/az/energetika/2022-ci-ilde-azerbaycan-elektrik-enerjisi-ixracindan-gelirler

# XARİCİ İQTİSADİ SİYASƏTİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Emil Mirzəyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
e-mail: emil.mirzayev@au.edu.az

Məlumdur ki, respublikamız iqtisadi inkişafının təmin edilməsi istiqamətində bir sıra çətin və məşəqqətli yollardan keçmişdir. Ölkəmizin illər boyu müstəmləkə siyasətinin mərkəzində olması və kapitalist münasibətlərinin inkişaf etməməsi iqtisadi inkişafı ləngitmiş və inteqrasiyasını məhdudlaşdırmışdır. Bu proses iqtisadiyyatın bütün sahələrinin inkişafına mane olmaqla yanaşı, ölkələrarası istehsal-təsərrüfat və kooperasiya-inteqrasiya əlaqələrinin də inkişaf tempini

yüzilliklərlə geri atmışdır. Lakin, 1991-ci ildə Respublikamız müstəqillik əldə etdikdən sonra və 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkəmizin iqtisadi inkişafında köklü dəyişikliklər baş vermişdir. Belə ki, proses özünü ilk öncə, mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi ilə biruzə vermiş, kollektiv mülkiyyət münasibətlərindən şəxsi mülkiyyətə keçid və azad sahibkarlıq sisteminin inkişafı ilə davam etmişdir. Heydər Əliyev hakimiyyətə gəldiyi dövrdən etibarən ölkə iqtisadiyyatının bazar münasibətlərinə əsaslanan inkişaf modelinə keçidini təmin etmiş, ölkədə azad sahibkarlıq və biznes mühitinin inkişafını təmin etmiş, prosesə mane olan amilləri məhdudlaşdırmışdır. Ulu öndərin uzaqgörən siyasəti və neft strategiyası Azərbaycan iqtisadiyyatının inkişafını daha da gücləndirmişdir. Belə ki, 1994- cü il 20 sentyabr tarixində imzalanmış “ Əsrin müqaviləsi” dünya dövlətlərinin Azərbaycan neftinə və iqtisadiyyatına marağını daha da artırmış, ölkəyə xarici kapitalın axınını gücləndirmişdir. Heydər Əliyevin yürütdüyü iqtisadi siyasətin əsas mərkəzində Azərbaycan vətəndaşının sosial rifah halının təmin edilməsi və daha da gücləndirilməsi xüsusi yer almışdır. Əbəs deyil ki, bu istiqamətdə iqtisadi inkişafın təmin edilməsi, milli maraqların qorunması xarici iqtisadi siyasətin əsas hədəflərinə çevrilmişdir. Respublikamızda iqtisadiyyatın inkişafı, onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi təməli möhkəm əsaslar üzrərində qurulan iqtisadi siyasətin əsas prioritet istiqamətlərindəndir. Eyni zamanda, tələbatların xarakterinin mürəkkəbləşməsi, iqtisadi resursların məhdudluğu , eləcə də mövcud sahədə izafi məhsul istehsalı xarici –iqtisadi siyasətin sağlam əsaslar üzrə qurulmasını aktual etmişdir. Xarici iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də xarici ticarət siyasətidir. Xarici ticarət siyasəti dedikdə, dövlətin digər ölkələrlə münasibətlərinə məqsədyönlü təsiri başa düşülür [2, s.100]. Təməli Heydər Əliyev tərəfindən formalaşan xarici iqtisadi siyasətin əsas məqsədi daxili bazarın qorunması, yerli istehsalçıların maraqlarının təmin edilməsi, xarici investisiyanın cəlb edilməsi və bütövlükdə milli iqtisadi təhlükəsizliyin təmin edilmsinə yönəldilmişdir. Əminliklə deyə bilərik ki, respublikamız bu gün də beynəlxalq miqyasda effektiv iqtisadi münasibətləri təşkil edir, bu proses milli mənafelərin qorunmasına və “Made in Azerbaijan” brendinin təşviqinə xüsusi təkan verir.

**Açar sözlər**: Xarici iqtisadi siyasət, rəqabətqabiliyyətlilik, biznes mühiti, milli-iqtisadi təhlükəsizlik.

## Ədəbiyyat

1. A.H. Qəribov. A.Ə. Əzizov. S.E.Əhmədova. Beynəlxalq ticarət əməliyyatları. Dərs vəsaiti. Bakı-2017.
2. Feyzullabəyli İ.Ə. Ticarət iqtisadiyyatı. Dərslik. Bakı-2002.

# AZƏRBAYCAN GƏNCLİYİNDƏ FORMALAŞAN MÜASİR PRİNSİPLƏR

**Etibar Musayev**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: etibaradiloglu@mail.ru

Ümummilli lider Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin iyulun 26-da yeni dövlət qurumunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. 1996-cı il fevralın 2- də keçirilmiş Gənclərin I Forumunım xüsusi əhəmiyyəti oldu. Növbəti forum 1999-cu ilin martın 2-3-də keçirildi[2].

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə dövlət gənclər siyasətinin tənzimlənməsi ilə bağlı normativ-hüquqi baza yaradıldı. Belə ki, ümummilli liderimiz Heydər Əliyev 1993-2003-cü illərdə gənclərlə bağlı fərmanlar vermişdi.

Ümummilli lider Heydər Əliyevin gənclərlə bağlı həyata keçirdiyi strategiya bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm prezidentimiz İlham Əliyevin "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)"[6] üzrə həyata keçirilən tədbirlər haqqında 30 avqust 2005-ci il tarixdə imzaladığı sərəncam bir daha Azərbaycan gəncliyinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Müasir mərhələdə Azərbaycan dövlətinin gənclər siyasəti ümummilli liderimiz Heydər Əliyevin gənclərlə bağlı qəbul etdiyi sərəncam və fərmanlar, etdiyi çoxsaylı çıxışlar və məruzələr, eləcə də Konstitusiyanın müvafiq müddəaları, Dövlət Gənclər Siyasəti haqqında Azərbaycan Respublikası Qanunu, digər qanunvericilik aktları və qərarları, Azərbaycan Respublikası Prezidentinin imzaladığı gənclərlə bağlı Dövlət Proqramları ilə tənzimləndyini və həyata keçirildiyini görmək mümkündür.

1997-2000-ci illərdə gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görüldü. Bu müddətdə uşaq və gənclərin fiziki, mənəvi-əxlaqi, vətənpərvərlik tərbiyəsi işi, onların sosial-iqtisadi problemlərinin həllini sürətləndirmək üçün bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdur: «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının qanunu (19 may 1998-ci il)[6], «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının qanunu (22 iyun 1999-cu il)[5], «Dövlət Gənclər Siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı (29 iyul 1999-cu il)[4] Bu proqramların bir çoxunun icra müddəti başa çatmış, yeni proqramlar hazırlanaraq həyata keçirilməkdədir.

Gənc nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyevin gənclər siyasətindəki mühüm amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Gənclərin mənəvi tərbiyəsində fəal həyat mövqeyinin formalaşdırılması;
2. Gənclərin fəal həyat mövqeyinə yiyələnməsi və vətəndaşlıq mövqeyinin qiymətləndirilməsi;

3. İctimai mənafe ilə şəxsi mənafe arasında vəhdət yaratmaq;
4. Əməkdə, təhsildə, ailə-məişət münasibətlərində nümunəvilik göstərmək;
5. Asudə vaxtdan səmərəli istifadə etmək;
6. Əqidəsində möhkəmlik yaratmaq, ideya-mənəvi keyfiyyətlərində iradə zənginliyi yaratmaq;
7. Yeni-yeni məsələləri həll etməkdə təşəbbüskarlıq göstərməklə, nailiyyətlər qazanmaq;
8. Çətin məsələlərin həllində qətiyyətli hərəkət etmək;
9. Gənclərin mənəvi tərbiyəsində azərbaycançılıq ideyalarının bərqərar edilməsi;
10. Azərbaycançılıq ideyaları timsalında gənclərə sərbəst düşüncə, nümunəvi əxlaq, bir-birinə inam, etibar, sədaqət, vətənpərvərlik hissləri təlqin etmək;
11. İctimai həyatın bütün sahələrində iqtisadiyyatda, mədəniyyətdə, elm və təhsildə, təsərrüfatda, ictimai şüurda sərbəstlik, azadlıq və müstəqillik ideyalarının formalaşdırılmasına xidmət etmək, bu ideyaların həyata keçməsi Azərbaycanın bir müstəqil dövlət kimi formalaşmasının ideya bazasını təmin etmək;
12. İctimai şüurun sosial həyatla vəhdəti bazasında azərbaycançılıq ideyalarının mənimsənilməsi;
13. Vətənpərvərlik tərbiyəsində gənclərə, gəncliyə yaradıcı və aparıcı bir qüvvə kimi yanaşılması, müstəqıl, azad, demokratık dövlətin bünövrəsinin yaradılmasında gəncliyin rolunun qiymətləndirilməsi;
14. Demokratik cəmiyyətin qurulmasında yalnız vasitə kimi nəzərə alınmır, həm də onlar bu cəmiyyətin varisləri, davametdiriciləri kimi qiymətləndirilir. Gənclər gələcəyin aparıcı qüvvəsi hesab edilirlər.

**Açar sözlər:** Gənclər, forum, sərəncam, fərman, proqram, sosial-iqtisadi.

## Ədəbiyyat

1. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil 2004.
2. İsmayılov E., Həsənov C., Qaffarov T. Azərbaycan tarixi. Dərslik, (1918- 1993), Bakı, Öyrətmən, 1995.
3. Qaffarov T. Azərbaycan tarixi: XX əsrin 80-90-cı illəri. Bakı, Mütərcim, 1997.
4. Maqsudov F. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, Elm, 1998.
5. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, Şərq-qərb, 2001.
6. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq idealogiyası. Bakı, Nurlan, 2003.

# HEYDƏR ƏLİYEVİN SİYASİ DİSKURSUNDA PRESEDENT ONİMLƏR – FON BİLİYİNƏ XİTAB EDƏN PERSUAZİVLİK KATEQORİYASI VASİTƏLƏRİ KİMİ

**Samirə Musəvi**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: musavi.samira@mail.ru

Ulu öndər Heydər Əliyevin siyasi diskursunun tədqiqi onun dil kimliyi haqqında, mənəvi dəyərləri, əxlaqi-etik prinsipləri, Azərbaycan tarixi və mədəniyyətinə dərin bələdliyini tam əyaniliklə ortaya qoyur və eləcə də dahi liderin milli irsi yüksək qiymətləndirməklə yanaşı, onu (Azərbaycan dilini, milli ədəbiyyat xəzinəmizi, mədəni irsimizi) qoruma təşnəsində olmasını, bu iş uğrunda böyük və əzmkar fəaliyyətə ömrünün qızıl illərini sərf etdiyini deməyə əsas verir. Ümummilli liderin çıxış və məruzələrinin mətnləri ilə tanış olmaq kifayətdir ki, onun Azərbaycan tarixi və mədəniyyətinin ən dərin qatlarına sirayət edə biləcək məlumatlılığa malik olduğunun və məhz, həmin mədəni varisliyə söykənən iqtibas və allyuziyalarla dolu mesajlar verdiyinin şahidi olaq. Belə ki, H.Əliyev Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi naminə usanmaq fəaliyyətləri ilə təkcə bu işin təkmilləşdirilməsinə xidmət edən fərmanlara imza atmamış, ana dilimizin gözəlliyini, möhtəşəmliyini, ən əsası isə bizə babalarımızdan qalan dəyəri biçilməz miras olduğunu dönə-dönə vurğulayarkən, fikirlərinin persuazivlik əmsalının artırılması naminə dönəm-dönəm fon biliklərinə müraciət etmişdir. *Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc ... Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, C.Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməzsə, o, tarixi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli mədəni ənənələrimizi bilməyəcək* [2]. İqtibasda H.Əlıyevin öz fikirlərinin əsaslandırılması üçün, toplumun mənəvi dəyərlərinə aydın şəkildə xitab edilməsi naminə öz mülahizələrinin persuazivlik əmsalını artıran presedent onimlərə (*Füzuli, Nəsimi, Vaqifi, Sabir, C.Məmmədquluzadə* ) yer vermişdir.

Xatırladaq ki, fon biliklərinin tədqiqi əsnasında üzə çıxan maraqlı məqamlardan biri, məhz, fon biliklərinin təməl ifadə resursları sırasında yer alan presedent onimlərlə bağlıdır. Belə ki, presedentklik konsepsiyası çərçivəsində nəzərdən keçirilən bu qəbil antroponimlər, toponimlər, hidronimlər və s. etnomental və linqokulturoloji şərtlənməli onomastik vahidlər müəyyən situasiya ilə "bağlılıq" yaratmaqla interteksem əlaqələndirməsini reallaşdırı ki, bu da, əslində, bilvasitə fon bilikləri paradiqmasına refernsiyadan, müraciətdən başqa bir şey deyil. Onu da qeyd edək ki, bir çox hallarda presedent onimlər allyuziv onimlərlə eyni tutulsa da, onların presedentlik yaratmaq əmsalı baxımından, yəni mətn permutasiyasına uğramaq baxımından müəyyən fərqləri vardır. Belə ki, presedent onimlər özlərində həm də allüziv onimləri ehtiva etməklə yanaşı, eləcə də həmin onimastik vahidlərin apelyativləşmə əmsalının gücləndirilməsini mümkün edən potensiala da

malikdir. *Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun. Bu gün məndə bu ümidlər daha da çoxaldı, bizim gənclərimiz bundan sonra tariximizi daha da yaxından öyrənəcək, doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaq* [2].

Nümunədən də aydın şəkildə göründüyü kimi, Şekspir presedent onimi ingilis ədəbiyyatını simvolizə etdiyi halda, Nizami, Füzuli, Nəsimi presedent onimləri ilə Azərbaycan ədəbiyyatının reprezentantı kimi istifadə olunur. Burada aparılan antonimiya əsas arqumentləşdirmə həm H.Əliyevinin mülahizələrinin persuazivlik əmsalını artırır, həm də fikirlərin fon biliyinə istinadı ilə onların əyaniləşdirilməsinə xidmət edir, eləcə də toplumun altşüurunda yer alan semantik paradiqmalarla bağlılıq qurur. Belə ki, Azərbaycan milli kimliyi üçün adıçəkilən söz ustaları mili kimliyi simvolizə edən, milli mədəni irsi Dünya səviyyəsində təmsil etmək qürurunu yaşadan şəxslər olmaqla toplumun mental dəyərlərini təşkil edən simalardandır. Məhz, bu səbəbdəndir ki, əsrlər ötməsinə baxmayaraq, Azərbaycan onomastikasında ən aktual vahidlər sırasında (istər antroponimlər səviyyəsində olsun, istərsə də toponimlər, erqonimlər səviyyəsində olsun) Nizami, Füzuli, Nəsimi presedent onimlərin günümüzədək yüksək işlənmə tezliyi ilə seçildiyini müşahidə edirik. Başqa sözlə desək, bu presedent onimlərin transonimasiya potensialı (*şəxs adlarının digər onomastik vahid qruplarına daxil edilməsi halları, məsələn: "Füzuli" presedent onimi → "Füzuli" şəxs adı →"Füzuli" rayon adı → "Füzuli" adına təşkilat və müəssisələr*) çox güclüdür və elə bu səbəbdən də toplum daxilində bu vahidlərin tanınma əmsalı onilliklər, hətta yüzilliklər öncə olduğu qədər bu gün də yetərincə yüksəkdir. H.Əliyevin siyasi diskursunda bu kimi məqamlara diqqət yetirən V.Əliyev də bu qəbildən xatırlatmaların heç də təsadüfi olmadığını qeyd edir: "*bir qayda olaraq Azərbaycan tarixindən söhbət gedərkən A.Bakıxanov, Azərbaycan ədəbiyyatından söhbət gedərkən Xəqani, Nizami, Füzuli, Nəsimi, Xətai, Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, ... kimi onlarca sənət fədaisi, Azərbaycan incəsənətindən və musiqisindən söhbət gedərkən Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, S.Bəhlulzadə yada düşür* [1, s.10]. Azərbaycan mental kimliyinin skript komponentlərini təşkil edən bu simalar milli varlığı simvolizə etməklə yanaşı, xalqın bir növ, ekzemplifikant mahiyyətli "vizit vərəqəsi" rolunda çıxış edirlər.

Xatırladaq ki, sktriptlər dedikdə müasir koqnitiv dilçilikdə milli mədəniyyət ssenariləri nəzərdə tutulur [4]. Ekzemplifikatlar isə müəyyən toplumun, coğrafi bölgənin, sosial qrupun ümumiləşdirilmiş adı, səciyyələndirici nominasiya vahidi kimi nəzərdən keçirilmən onomastik vahidlərə deyilir [3].

Məruzə çərçivəsində nəzərdən keçirilən faktlar ümummilli liderimizin Azərbaycan milli mentallığının kod sözlərinə, simvolistik anlamlı onomastikonuna yaxından bələd olduğunu və bu işarələrdən öz nitqlərinin persuazivlik əmsalının artırılması üçün çox böyük ustalıqla istifadə etdiyini əyani şəkildə nümayiş etdirir.

**Açar sözlər**: Heydər Əliyev, presedent onim, persuazivlik kateqotiyası, siyasi diskurs, Kitabi-Dədə Qorqud, Nizami, Füzuli.

**Ədəbiyyat**


1. Əliyev V., Heydər Əliyevin dil siyasəti, Bakı, Nurlan, 2003, 100s.
2. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Gənclərinin Birinci Forumundakı çıxışı https://aztc.gov.az/az/posts/id:794
3. Лиговский Г., Экземплификанты и метапеременные, Разновидности слов, 9 октября, 2010, http://www.tramvision.ru/words/exemplificant.htm
4. Моторина Н.В., Лингвокультурные скрипты традиционного коммуни-кативного поведения в России и Англии: автореферат диссертации ... кандидата филологических наук, Волгоград, ВГУ, 2014, 23с.


## TÜRKDİLLİ DÖVLƏTLƏRİN MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU (1993-2003-cü illər)


**Afiq Nadirov**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

e-mail: Afig.nadirov@au.edu.az


Türk xalqları zəngin mədəniyyətə və qədim dövlətçilik tarixinə malikdir. Bu tarixin yeni dövrlərinə nəzər salsaq, SSRİ-nin dağılmasından sonra onların qarşısında yeni inkişaf perspektivlərinin yarandığını görə bilərik. Türk arealının başında duran Türkiyə Respublikası olmaqla, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan Respublikaları arasında yeni mədəni əlaqələrin məhz bu dövrdə formalaşdığını qeyd etmək olar [4]. SSRİ imperializminin hakim ölduğu dövrlərdə Türkiyə Respublikası bu əlaqələrdən kənarda qalsa da, Azərbaycan və Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan Respublikaları arasında bu əlaqələr imperiya siyasətinə uyğun olaraq aparılırdı. Müstəqillik illərində isə bu münasibətlər özünün yeni inkişaf mərhələsinə keçid etdi. Türk dünyası dövlətlərinin mədəni əlaqələrinin yaradılması və inkişaf etdirilməsində 1993-cü ildən etibarən Heydər Əliyevin xidmətləri bu yolda yeni cığırlar açdı. Bu baxımdan türk dünyası dövlətlərinin mədəni əlaqələrinin formalaşmasında Heydər Əliyevin xidmətlərinin öyrənilməsi məsələsi öz aktuallığını qoruyub saxlayır.

Mədəni əlaqələrin formalaşması xalqların mədəni irsi və tərəqqisi vasitəsilə təzahür edir. Heydər Əliyev bunu türk xalqlarının eyni bir tarixi kökə sahib olmaları ilə əlaqələndirirdi.

Türk dövlət və toplumlarının inteqrasiyasının mühüm istiqaməti mədəni əməkdaşlıq və ortaq mədəni layihələridir. Uzun tarixi keçmişə malik türk xalqlarının qarşılıqlı əlaqələrinin yeni şəraitdə inkişaf etdirilməsində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (bundan sonra TÜRKSOY) rolu böyükdür.

TÜRKSOY Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatdır. TÜRKSOY-un yaradılması prosesi ilə bağlı ilk səylər Azərbaycan və Türkiyə tərəfindən

göstərilmişdir və 1993-cü ilin iyul ayında Qazaxıstanın Almatı şəhərində türkdilli dövlətlərin mədəniyyət nazirlərinin imzaladığı müqavilə ilə başa çatmışdır.

TÜRKSOY öz fəaliyyətində demokratik prinsiplərə əsaslanan təşkilatdır, üzv ölkələrin və xalqların daxili və xarici siyasətindən, siyasi fəaliyyətindən asılı olaraq mədəniyyət və incəsənət sahəsində regional fəallıq nümayiş etdirir [14].

TÜRKSOY təşkilatının əsas məqsədləri kimi türkdilli xalqlar və etnik qruplar arasında mədəni inkişaf, türk mədəniyyətinin tədqiqi, öyrənilməsi və qorunub saxlanılması, türk mədəniyyətinin başqa mədəniyyətlərin zərərli təsirindən qorunması və s. kimi məsələləri göstərmək olar [13].

TÜRKSOY-un yaradıldığı ilk illərdə əsas aparıcı tərəf Türkiyə sayılsa da, 1994-1995-ci illərdə Heydər Əliyevin simasında Azərbaycan TÜRKSOY təşkilatında nüfuzunu artırdı və əsas ağırlıq mərkəzinə çevrildi. Bu faktı, Azərbaycanın ev sahibliyi ilə keçirilən 1996-cı il 6-7 noyabr tarixlərində türk xalqlarının ədəbi-mədəni əlaqələri ilə bağlı tədbirlər – TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı, Məhəmməd Füzulinin 500 illik yubiley tədbirləri ilə təsdiq etmək olar. Bu da, Heydər Əliyevin türk dünyası mədəniyyətinə qayğısının fikirdə və əməldə nəticəsi idi. Bu, həm də Azərbaycanın türk dünyasının liderliyində olması demək idi.

Heydər Əliyev türk dünyası yazıçılarının III qurultayında türk xalqlarının tarixini, *yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini* yenidən qiymətləndirmək lazım olduğunu bildirmiş və artıq türkdilli xalqların hər birinin müstəqil bir dövlətinin olduğuna görə bu prosesin daha da mütəşəkkil təşkil edilməsinin vacibliyini vurğulamışdır *[*5*]*.

Heydər Əliyevin timsalında Azərbaycan tərəfinin TÜRKSOY-da yüksək təşəbbüskarlığı nəticəsində 1994-cü il 28 may-3 iyun tarixlərində Bişkekdə keçirilən TÜRKSOY-un V toplantısında Azərbaycan Dövlət Mədəniyyət Naziri Polad Bülbüloğlu təşkilatın direktoru seçilmişdir [13].

*Qeyd edildiyi kimi, Heydər Əliyev dühası təkcə azərbaycan xalqı üçün deyil, bütövlükdə türk dünyasını əhatə edirdi. Heydər Əliyev türk xalqlarını azərbaycan xalqından ayırmır, azərbaycan xalqı daxil olmaqla türk xalqlarına bir bütöv olaraq yanaşırdı. Bunun ən bariz nümunəsi onun 1994-1996-cı illərdə türkmən şairi Məhdimqulunun, qazax ədəbiyyatının klassiki Abayın, özbək hökmdarı Əmir Teymurun, qırğız eposu "Manas"ın yubiley mərasimlərindəki söylədiyi nitqlərdir. Bunlardan başqa, 1996-cı ilin noyabrında Məhəmməd Füzulinin 500 illik yubileyi, 2000-ci ilin aprelində "Kitabi-Dədə-Qorqud" dastanının 1300 illik yubileylərinin Bakıda keçirilməsi Heydər Əliyev türkdilli dövlətlərin mədəniyyətinə qayğısının daha bir təcəssümü idi. UNESCO səviyyəsində Bakıda təşkil edilən bu tədbirlər çərçivəsində türk dünyası təmsilçiləri, dövlət və hökumət adamları, alim, şair və yazıçılar, mədəniyyət xadimləri iştirak edirdilər* [5; 1; 2; 3; 10].

2000-ci il aprelin 8-də "Kitabi-Dədə-Qorqud" dastanının 1300 illik yubileyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə Heydər Əliyev çıxış edərək bildirmişdir: "Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis Əmrənin, Füzulinin,

Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir" *[*5*]*.

Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu 10 illik prezidentliyi dövründə Azərbaycan Respublikası türk dünyası ölkələri arasında nüfuzlu bir ölkəyə çevrildi. Heydər Əliyev türk dünyasının mədəniyyət keşikçisi kimi tarixi imzalar atdı. Türk dünyası dövlətlərinin bu günkü mədəni əlaqələrinin, habelə digər əlaqələrinin bünövrəsi məhz Heydər Əliyev tərəfindən atılmış, Heydər Əliyev tərəfindən təşəbbüs göstərilmişdir. Bu baxımdan da, Heydər Əliyev şəxsiyyətinin türk dünyası dövlətlərinin mədəni əlaqələrinin inkişafında xidmətləri əvəzsizdir.

**Açar sözlər:** Türkdilli dövlətlər, mədəni əlaqələr, Heydər Əliyev, TÜRKSOY.

**Ədəbiyyat**


1. Azərbaycan – Qazaxıstan münasibətləri./"Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana./ http://lib.aliyevheritage.org/az/549420.html
2. Azərbaycan-Qırğızıstan munasibətləri./"Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana./22.08.2016/ http://lib.aliyev-heritage.org/az/9093787.html
3. Azərbaycan-Özbəkistan münasibətləri./ "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana./15.02.2010/ http://lib.aliyev-heritage.org/az/9379476.html
4. Əhmədov Ə. Azərbaycan beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr: XX əsrin 90-cı illəri). Bakı, Elm-təhsil, 2009, 378 s
5. Əliyev V. Zərdabi Mətbuat Mərkəzinin "Türkdilli xalqların həyatı və inteqrasiya məsələləri Azərbaycan KİV-lərində" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunan yazı http://medeniyyet.az/page/news/19468/Heyder-Eliyev-ve-turk-dunyasi.html?lang=en
6. Heydər Əliyev və "Çağ öyrətim" etimada sədaqətlə - 15 il. Bakı, Azərnəşr, 2007
7. Heydər Əliyev. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 15 iyun 1993
8. Heydər Əliyev. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 18 mart 1998
9. Heydər Əliyev. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 26 aprel 2001
10. Ömərov V. Azərbaycan, Türkmənistan və Qırğızıstan mədəni əlaqələri. http://sesqazeti.az/news/kivdf/381726.html
11. "Azərbaycan müəllimi" qəzeti. 17 iyul 1997
12. https://az.wikipedia.org/wiki/Bişkek_protokolu
13. https://az.wikipedia.org/wiki/Beynəlxalq_Türk_Mədəniyyəti_Təşkilatı
14. https://www.turksoy.org/tr/turksoy/about

# ƏBƏDİLƏŞƏN ŞƏXSİYYƏT

**Günel Nəcəfova**
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
e-mail: gunel.necefova.35@mail.ru

"Mən fəxr edirəm ki, Azərbaycanlıyam". İllər ötsə də Ulu öndər H.Əliyevin söylədiyi bu müqəddəs kəlam öz qiymətini itirməyib və Azərbaycan dövləti, xalqı qarşısında işıq saçan bir mayaq olmuşdur. Azərbaycan dövlətinin müstəqilliyi və ikinci çiçəklәyən dövrü, yəni 1993-cü ilin iyun ayından sonrakı dövr vətənimizə böyük uğurlar qazandırmışdır. Azərbaycan uğurlu xarici siyasət yeritməklə yanaşı səmərəli iqtisadi siyasət yeritməyə başlamışdır. Respublikamız dünyaya inteqrasiya prosesində öz inamlı addımlarını atmışdır. Azərbaycan iqtisadiyyatı inkişaf edərək, dünya iqtisadiyyatı səviyyəsinə qalxmışdı. Savadlı, bilikli mütəxəsislərin olması üçün yeni təhsil sistemimndə yeni təhsil texnologiyalarını tətbiq edərək Təhsil İnstitutunun nəzdində dünya səviyyəsinə malik olan 7 pilot mərkəz, 20 pilot məktəb fəaliyyətə başlamışdı. Bu metodlarla hazırlanmış gənc kadrlar dünya və Avropa ölkələrində cox məharətlə işə qoşula bilirdilər. Türkiyənin ölkəmiz üçün hazırladığı gənc kadrlar artıq dünya tendensiyalarını təhlil etmək iqtidarına malikdirlər.

Gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, onların layiqli vətəndaş kimi formalaşmasına hərtərəfli şəraitin yaradılması H.Əliyevin hakimiyyətə qayıtdığı ilk günlərdən fəaliyyətinin əsas istiqamətlərindən olmuşdur. Cəmiyyətin inkişafında gənclərin rolunu yüksək qiymətləndirən ulu öndər H.Əliyev daim onlara diqqət və qayğı göstərmiş və Azərbaycan gəncliyinin də itmiş inamı özünə qaytarmışdı. Hələ keçmiş SSRİ dövründə respublikaya rəhbərlik edən H.Əliyevin göstərişi ilə minlərlə azərbaycanlı gənc müttəfiq respublikaların ən nüfuzlu ali təhsil ocaqlarında oxumuş və yüksək biliklərə yiyələnmiş mütəxəsis kimi vətənimizə qayıtmışlar. Həmin gənclərin işlə təmin olunmasında H.Əliyevin böyük əməyi olmuşdur. Vətənini ürəkdən sevən, Azərbaycanı hər zaman uca görmək istəyən, xalqımıza qayğı ilə yanaşan ulu öndər Azərbaycanı hər tərəfli inkişaf etmiş bir dövlət kimi görmək istəyirdi. Ordusu olmayan, həttda bayrağı belə həbsdə olan Azərbaycanda 1972-ci ildə C.Naxçıvanski adına Bakı Hərbi Məktəbinin açılması H.Əliyevin böyük qələbəsi idi. Hal-hazırda müstəqil Azərbaycan ordusunda xidmət edən zabitlərimizin əksəriyyəti həmin məktəbin məzunlarıdır. H.Əliyevin Azərbaycana bəxş etdiyi bu məktəb xalqımızın qürur mənbəyidir.

Gənclərin bacarığına yüksək qiymət verən, vətənimizin gələcəyini gənclərlə bağlı olduğunu hiss edən Ulu öndər H.Əliyev 1993-cü ildə hakimiyyətə qayıdan kimi gənclər təşkilatının nümayəndələri ilə görüşmüş onların problemləri ilə yaxından tanış olduşdur. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında imzalanan fərman gənclərə verilən ən yüksək qiymətdir. Bu dövrdən başlayaraq gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində bir sıra işlər görüldü. Ümumiyyətlə, nazirliyin yarandığı ilk günlərdən qarşıya qoyulan

məqsədlərdən biri gənc nəsli vətənə sədaqət, Azərbaycan xalqının dilinə, tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyə etmək olmuşdur.

1995-ci ildə H.Əliyev Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi .Forumda ulu öndər Heydər Əliyev şəxsən özü iştirak etdi.Gəncləri ürəkdən sevən, onların qayğısını çəkən Heydər Əliyev hər zaman onları sevindirmək, onlarda həyat eşqini canlandırmaqdan ötrü hər an yeni qanunlar, sərəncamlar verməkdən çəkinmirdi. Axı gənclər sabaha ümüdlə ,inamla baxmalı və vətən, xalq qarşısında olan borclarını unutmamalı vətənə layiqli övlad olmalı idilər. Bunun üçün 1 fevral 1997-ci il tarixində Heydər Əliyev yeni bir sərəncam imzaladı.O, gəncləri yeni bir bayramla təbrik etdi. 2 fevral-Azərbaycanda Gənclərin günü oldu. Həmin günü təkcə gənclər günü deyil, uşaqlarda, yaşlılarda çox sevdi. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Özünü  mənən gənc hesab edən H.Əliyevin gənclərə bəxş etdiyi bu bayram bu gündə sevilə-sevilə qeyd olunur. H.Əliyev idmanıda çox sevirdi. Bütün şəhər və rayonlarda idman mərkəzləri açılmış və gənclərin idmanın bütün növləri ilə məşğul olması üçün şərait yaradılmışdır. Heydər Əliyev çox istəyirdi ki, gənclər idman yarışlarinda yüksək yerlər tutsunlar və bayrağımız hər zaman birincilər sirasında dalğalansın.O, gənclərdən ilham alırdı və istəyirdi ki, gələcək nəsillərə azad, müstəqil Azərbaycan bəxş etsin. Onun ən böyük arzusu gənclərimizə arxalanaraq mətn addimlarla irəli getmək və bu yolda gənclərə kömək etmək idi. O, arzusuna çatdı. Gənclərimiz başda Heydər Əliyev olmaqla onun ruhu qarşısında söz verərək, İlham Əliyevlə gələcəyə ilhamla , mətin addimlarla gedirlər.Bu gün Azərbaycanın qüdrətli ordusu, göylərdə dalğalanan üçrəngli, aylı ,ulduzlu bayrağı,mətanətli xalqı və bu xalqı qəlbən sevən Heydər oğlu İlhamı var. Biz inanırıq onun ruhu bunları görür və duyur. O, bizim gənclərlə fəxr edir, çoxlu dövlət işləri olmasına baxmayaraq gənclərin bayramların bayrağına gəlir və onlara ürək sözlərini bildirir. O, bu bayramdan ruhlanaraq, gənclərdən ilham alaraq, gənclərə arxalanaraq Azərbaycanı daha qüdrətli etməyə çalışır və yeni bir fərman imzalamaqla gəncləri təhsildə irəli getməyə, sağlamlıqlarını qorumağa dövlətin təşkil etdiyi hüquq qaydalarına əməl etməyə sağırırdı. ”Mən sizi gördükcə gələcəyə daha inamla baxıram və inaniram ki, məndən sonrada siz Azərbaycanin əsl vətəndaşı olacaqsınız”öz çıxışlarında qetd edirdi [1, s.38].  2 fevral 1998-ci il Heydər Əliyevin Azərbaycan Gənclərinə bəxş etdiyi ən gözəl gündür. 1999-cu ildə Heydər Əliyev yeni bir fərman imzaladı. Heydər Əliyev kimsəsiz, atasını I Qarabağ döyüşlərində itirən şəhid balalarına xüsusi qayğını əsirgəmir , onların təhsilinə ciddi yanaşmaları üçün xüsusi qurumlara təlimat verdiridi. "Dövlət Gənclər Siyasəti haqqında" fərman bu təlimatları özündə əks etdirir.Şəhid övladlarının təhsil haqqindan azad edilməsi Prezident səviyyəsində böyük bir addim idi. Gənclər dövlətin bu qayğısına etinasız qalmır, vətəninə, xalqına layiqli övlad olmağı üçün səylə çalışırlar. Ölkə gənclərinin idmanla məşğul olmalarını  Heydər Əliyev vacib amil sayırdı. 1996-cı ildə  Azərbaycan müstəqil dövlət kimi ilk dəfə  Olimpiya Oyunlarına qatıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər  Heydər Əliyev kursunu layiqli şəkildə davam etdirərək gənclər siyasətinə eyni diqqətlə yanaşır. Prezidentimiz tərəfi ndən

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında 06 aprel 2011-ci il tarixdə imzalanan sərəncamın ardınca, aprel ayının 21-də bir qrup gənci və tələbə gənclər təşkilatlarının nümayəndələrini cənab İlham Əliyevin qəbul etmişdir. Beləliklə, Yeni dövrdə nə istədiyini, nə etmək lazım gəldiyini, Azərbaycan gəncliyi çox aydın dərk edir və ulu öndər Heydər Əliyevin milli ideyalarının reallaşması üçün əlindən gələni edir, Azərbaycanın dünya səviyyəsində taninması üçün çalışırlar.

Sonda Ulu öndərimizin sözləri ilə bitirmək istərdim: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Onların nümayəndələri bugünkü uşaqlardır, yetişən gənclərdir. Yaşasın Azərbaycanın gəncləri.

**Açar sözlər**: gənclik, təhsil, müstəqillik, inamlı addımlar.

### Ədəbiyyat

1. Heydər Əliyev və müstəqil Azərbaycan, Bakı, 2003.
2. Mirzəzadə A., Azərbaycan, zaman, inkişaf, Bakı, 2008.
3. Əsgəroğlu İ., İbrahimov A., Zəmanəmizin böyük Azərbaycanlısı, Bakı, 2002.
4. Xalq Nəzarəti, Beynəlxalq ictimai-siyasi hüquq jurnalı, Bakı, 2010.
5. İsmayılov Ə., Əliyev O., Əliyev Heydər və milli ləyaqət fəlsəfəsi, Bakı, 1998.

## ДЕЯТЕЛЬНОСТЬ ГЕЙДАРА АЛИЕВА ДЛЯ СОХРАНЕНИЯ ИСТОРИЧЕСКОЙ ЛИЧНОСТИ ХУРШИДБАНУ НАТАВАН

**Назрин Огуз**
Университет Карабюк, Турция
e-mail: nezrin.oguz@hotmail.com

Азербайджанский народ подарил истории человечества много могущественных личностей. Среди таких редких исторических личностей особое место занимает Гейдар Алиев, основатель независимого Азербайджана, отличающийся большим величием, гениальной мудростью и политической волей.

Гейдар Алиев считал культуру великим достоянием народа, поэтому он делал все возможное для защиты и популяризации культурных и духовных ценностей азербайджанского народа. Гейдар Алиев заложил основу новой эпохи в развитии азербайджанской культуры. Азербайджанская культура, национальные и нравственные ценности получили признание в международном мире.

В советское время все жестко контролировалось из самого центра - Москвы, но при этом Гейдар Алиев в период своего правления умело проводил культурную политику в Азербайджане. Творчество Хуршидбану Натаван всегда было в центре внимания Гейдара Алиева.

Хуршидбану Натаван родилась в 1832 году в городе Шуша. Поскольку она была дочерью последнего хана Карабахского ханства, Мехдигулу-хана, местные жители дали ей имя: Ханская дочь. Будучи женщиной, Хуршидбану Натаван внесла большой вклад в развитие и благоустройство Шуши, которая являлась жемчужиной Карабаха. Культурная жизнь Карабаха и Шуши не может упоминаться без Хуршидбану Натаван. Благодаря ей в Шуше и Карабахском регионе были построены дворцы, мечети, здания летних и зимних клубов, школы, театры и многие другие здания, которые считаются культурным наследием Карабаха.

Во времена Советского Союза очень сложно было строить здания с национальным духом, ставить памятники деятелям искусства, организовывать культурные мероприятия. Главной политикой являлось отдаление народа от своей культуры и советское правительство, к сожалению, в свое время превратила большой особняк Натаван в детский (туберкулезный) санаторий-лагерь, чтобы заставить общественность хоть немного забыть о деятельности и величии поэтессы Натаван. Но благодаря Гейдару Алиеву в нашей стране было предпринято ряд мер в увековечении памяти Натавана. В 1960 году в центре Баку была установлена статуя поэтессы. В 1982 году в результате больших усилий общенационального лидера Гейдара Алиева, на центральной площади города Шуши были установлены памятники Хуршидбану Натаван и другим деятелям культуры и искусства Азербайджана. В результате оккупации Шуши армянами в мае 1992 года бронзовый бюст Натаван вместе с другими бюстами (в результате обстрела солдатами статуи серьезно повреждены) были демонтированы и вывезены для продажи в Грузию. В 1993 году по инициативе великого лидера Гейдара Алиева бюст Натаван вместе с остальными бюстами были привезены в Баку и установлены во дворе Азербайджанского национального художественного музея. После окончания 30-летней оккупации города,  в 2021 году по инициативе Президента Азербайджана Ильхама Алиева эти бюсты были возвращены в Шушу и заняли свои прежние места. Эти бюсты специально не были отреставрированы, потому что отражают следы прошлого. На каждом бюсте можно увидеть следи пуль армянских вандалов и эти пули всегда будут напоминать азербайджанскому народу свое прошлое и никогда не позволит забыть ненависть и ущерб врага не только по отношению к азербайджанскому народу, но и к его национальной культуре.

После 2003 года политика, заложенная гениальным лидером Гейдаром Алиевым, была весьма успешно продолжена под руководством Президента Азербайджанской Республики Ильхама Алиева. В 2016 году в центральном парке Ватерлоо в Бельгии был установлен памятник Натаван. На постаменте статуи, созданном скульптором Имраном Мехтиевым при поддержке Фонда Гейдара Алиева, написаны слова «Хуршидбану Натаван, современный просветитель и поэтесса Востока, принцесса Карабаха, Азербайджан». В 2017 году состоялась церемония открытия очередной статуи Хуршидбану Натаван в Азербайджанском парке в городе Эвиан-ле-Бен, Франция.

Гейдар Алиев считал культуру великим достоянием народа. Поэтому он делал все возможное для защиты и популяризации культурных и духовных ценностей азербайджанского народа. Гейдар Алиев заложил основу новой эпохи в развитии азербайджанской культуры. Азербайджанская культура, национальные и нравственные ценности получили признание в международном мире.

Азербайджанский народ не забывает свою историю и великих деятелей, делавших все для Азербайджана. Поэтому спустя годы, при упоминании Азербайджана, Азербайджан в первую очередь ассоциируется с Гейдаром Алиевым. Гейдар Алиев, благодаря своей мудрой политике смог создать идилию отношений между собой и азербайджанским народом, поэтому его называют «Общенациональным лидером».

Нужно отметить тот факт, что ведущим направлением современной культурной политики и управления Азербайджана, заложенной Гейдаром Алирза оглы Алиевым, является сохранение прошлого, поддержка и развитие национальных культурных ресурсов. А также, великие достижения Гейдара Алиева, основоположника культурной политики независимого Азербайджана, успешно продолжаются под руководством главы страны Ильхама Алиева и поднимаются на еще более высокие высоты.

**Ключевые слова:** Гейдар Алиев, Хуршидбану Натаван, Азербайджан, Карабах, Культура, История.

## AZƏRBAYCANDA VERGİ SİYASƏTİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Zöhrab Paşayev**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

*"Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik"*
***Ümummilli lider Heydər ƏLİYEV***

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın milli maraqlarını nəzərə alaraq uzunmüddətli inkişaf strategiyasının prioritetləri müəyyən edilmişdir. Ulu öndərin bilavasitə rəhbərliyi ilə müstəqilliyin ilk illərindən başlayaraq vergi sisteminin tənzimlənməsində, beynəlxalq standartlara uyğun formalaşmasında, çevik vergi siyasətinin aparılmasında yeni istiqamətlər müəyyənləşdirilmişdir. Vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti formalaşdırmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsinə yönəldilmişdir. Vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, kadr potensialının çevik idarəetmə sistemində fəaliyyətinin təkmilləşdirilməsi vergi siyasətinin güclü və işlək mexanizmlərini formalaşdırdı. 2001-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsi

müstəqil Azərbaycanın həyatında yeni tarixi hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan birinə çevrildi.[1] Bir sözlə, vergi islahatlarının bütün istiqamətləri vergi münasibətlərinin tənzimlənməsinin hüquqi əsasını qoyan Vergi Məcəlləsində öz əksini tapdı. Məcəllənin qəbulu, yeni və vahid qanunvericilik bazasının təşkili vergi sistemində aparılan islahatlara mühüm təkan verməklə dövlət-sahibkar münasibətlərində yeni bir yanaşmanın əsasını qoymuş oldu [1].

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət ilk növbədə, ölkədə sosial-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi kimi mühüm həlqələri əhatə etməklə bu iqtisadi strategiyanın uğurla reallaşdırılmasına zəmin yaratmışdır. Bu siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının gündən-günə artmasında göstərdi. Kənd təsərrüfatı mülkiyyətçiləri torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad olundu ki, bu da aqrar sahədə dinamik inkişafa əlverişli zəmin yaratdı [2].

Bütün sadalananlarla yanaşı, Vergi Məcəlləsində vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələlərilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar müəyyənləşdirilmişdir [1].

Dövlətin iqtisadi siyasəti müxtəlif istiqamətlərdə həyata keçirilsə də, burada dövlətin maddi və pul vəsaitləri ilə təminatının əsas aləti olan vergi siyasəti mühüm yer tutur.

Maliyyə resurslarının yenidən bölüşdürülməsi hesabına dövlətin, cəmiyyətin ayrı-ayrı sosial qruplarının, habelə ölkənin iqtisadi inkişafının maliyyə ehtiyaclarını təmin etmək məqsədi ilə ölkənin vergi sisteminin formalaşdırılması üzrə dövlətin həyata keçirdiyi iqtisadi, maliyyə və hüquqi tədbirlərin məcmusu kimi vergi siyasəti müxtəlif formalarda təzahür edir. İqtisadi inkişafın əsas parametrləri vergi siyasəti vasitəsi ilə həyata keçirilir. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, vergi sistemi sosial - iqtisadi inkişafın, investisiya strategiyasının, xarici iqtisadi fəaliyyətin, istehsalatda struktur dəyişikliklərinin, prioritet sahələrin sürətli inkişafının dövlət tənzimlənməsinin daha fəal vasitələrindəndir.

Vergi sisteminin optimallaşdırılmasının mühüm ünsürlərindən biri – onun iqtisadiyyata, hər şeydən əvvəl, bazarın və bütünlükdə bazar infrastrukturunun səmərəli fəaliyyət göstərən subyektlərinin formalaşmasına, optimal təsərrüfat qərarlarının həyata keçirilmə mexanizmi kimi rəqabət mühitinin yaradılmasına stimullaşdırıcı təsirinin gücləndirilməsidir.

Milli iqtisadiyyatın uzunmüddətli inkişaf konsepsiyasına malik olan ölkələrin vergi siyasəti üçün aşağıdakı xüsusiyyətlər xarakterikdir:

1) iqtisadiyyatın qarşısında duran problemlərin dəqiq qiymətləndirilməsi;

2) problemlərin zəruriliyi baxımından qruplaşdırılması və daha zərurilərin həyata keçirilməsi üçün tədbirlərin hazırlanması;

3) vergi islahatlarının xarici təcrübəsinin öyrənilməsi

4) keçmişdə buna uyğun həyata keçirilmiş proqramların səmərəliyinin qiymətləndirilməsi;

5) mövcud şəraitin təhlili;

6) milli xüsusiyyətlər və şərait nəzərə alınaraq siyasətin korrektə edilməsi.

Eyni zamanda beynəlxalq təcrübədə vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- vergi sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, vergi mədəniyyətinin formalaşdırılması, modernləşdirilmiş istehsal-mülkiyyət sistemi əsasında sabit iqtisadi artım üçün şəraitin olması;
- vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin qurulması və vergi ödəyicilərinin hüquqlarının maksimum qorunması;
- vergi yükünün optimallaşdırılması;[2]
- mövcud vergi sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla, ölkənin strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşdırılmasında inkişaf etmiş ölkələrin vergi sisteminin özünü doğrultmuş təcrübəsinin istifadə olunması;

Qeyd etmək lazımdır ki, vergi siyasətinin təkmilləşdirilməsi, vergi islahatlarının aparılması prosesində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

- ümumi məqsədyönlülük, yəni vergi sisteminin qurulmasında və səmərəliliyinin artırılmasında onun iqtisadi inkişafa məcmu təsirindən çıxış edilməsi;
- fiskal səmərəlilik, yəni dövlətin və vergi ödəyicilərinin vergilərin yığılması ilə bağlı xərclərinin vergi daxilolmalarından dəfələrlə az olması, əks halda dövlətin əsas xərclərinin maliyyələşdirilməsinə vəsait çatışmazlığının labüdlüyü və s.

Yuxarda göstərilən prinsiplər əsasında Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi;
- iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması; - vergi ödəyiciləri arasında vergitutma rejiminin bərabərləşdirilməsi;
- ölkənin və əhalinin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi;

  Ölkənin ixrac potensialının inkişafının təmin edilməsi;
- Ölkənin güclü iqtisadi potensialının yaradılması məqsədi ilə daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsi üçün əlverişli vergi mühitinin formalaşdırılması;
- vergi sisteminin vahid uçot-informasiya sisteminin yaradılması;
- vergi yığımlarının səviyyəsinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi;

- vergi inzibatçılığının, vergi intizamına əməl olunması üzərində nəzarət sisteminin təkmilləşdirilməsi və vergi hüquq pozuntusu hallarına görə məsuliyyət sisteminin daha da sərtləşdirilməsi; [3]
- vergiləri ödəməkdən yayınma meyllərinə sədd çəkilməsi, yəni bu və ya digər verginin tətbiqi və onun yığılması qaydalarının müəyyən edilməsi zamanı onun ödənilməsindən yayınmanın və beləliklə də, iqtisadiyyatın və bütövlükdə cəmiyyətin kriminallaşmasının qarşısının alınması üçün müvafiq normativ-hüquqi bazanın hazırlanması və onun tətbiqi;
- universallıq, yəni vergi dərəcələrinin və gəlirlərin bölüşdürülmə normativlərinin maksimum universallığının təmin edilməsi, müxtəlif kateqoriyalı vergi ödəyicilərinə, sahələrə və fəaliyyət növlərinə vergitutma məqsədi ilə yanaşma müxtəlifliyinin təmin edilməsi;
- ictimai faydalı fəaliyyət növlərinin inkişafının stimullaşdırılması və zərərli fəaliyyət növlərinin qarşısının alınması, yəni səmərəli vergi sistemi qurmaqla istehsal təyinatlı investisiya fəallığının və iqtisadi aktivliyinin artırılması hesabına cəmiyyət qarşısında duran problemlərin həll edilməsinin, ekoloji proqramların həyata keçirilməsinin, ətraf mühit və insanın sağlamlığı və fəaliyyəti üçün təhlükə törədən fəaliyyət növlərinin qarşısının yüksək vergi müəyyən etməklə alınmasının təmin edilməsi;
- büdcənin və vergi ödəyicilərinin gəlirlərinin inflyasiyadan müdafiəsi, yəni büdcənin maraqları çərçivəsində inflyasiya amilinin nəzərə alınması, vergi ödəyicilərinin müflisləşməsinin və vergiyə cəlb olunan bazanın azalmasının qarşısının alınması.

**Açar sözlər:** Vergi siyasəti, universallıq, vergi inzibatçılığı, ixrac potensialı.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2023.
2. Məmmədov F.A., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma: dərslik Bakı-2010.
3. Kəlbiyev Y.A., Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri: dərslik 2012.

# AZƏRBAYCAN MEMARLIĞI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

**Rizvan Qarabağlı**
AMEA Memarlıq və İncəsənət İnstitutu, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: R_Qarabagli@mail.ru

Artıq iyirmi üçüncü ildir ki, bəşəriyyət üçüncü minillikdə yaşayır. Bu minillik bizdən daha qlobal elmi axtarışlar tələb edir. Bütün bunlar göstərir ki, üçüncü minillik elm və mədəniyyətlər erasıdı. Belə milli mədəni dəyərlər içərisində memarlığın xüsusi yeri var.

Xatırladaq ki ölkəmiz müstəqilliyini qazandıqdan sonra Azərbaycan memarlığında keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu mərhələ xüsusi ilə Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünə təsadüf edir. Həmin dövrdə bugünkü memarlığın möhkəm təməli qoyulmuşdur.

Azərbaycanın rayon mərkəzləri və ayrı-ayrı kənd və şəhərlər müasir inşaat materialı ilə klassik, modernizm, konstruktivizm və dekonstruktivizm üslublarda tikilərək abadlaşdı.

Bakı Ağ Şəhər layihəsi çərçivəsində Port rayonunun Baş Plan Konsepsiyası işləndi. Bu ərazi həm də Ağ Şəhərin qərb hissəsini Bakının mərkəzi ilə birləşdirir və eyni zamanda dənizkənarı bulvar boyunca şərq istiqamətində genişlənir.

Prezidentin 28 fevral 2006-cı il sərəncamı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yaradılması memarlıq və inşaat işlərinin daha geniş miqyasda aparılması üçün böyük imkanlar açdı. Belə ki, “Dövlət Şəhərsalma və Memarlıq Komitəsi” sifarişinə əsasən, 24 şəhərin (Yevlax, Ağdaş, Ağstafa, Ağsu, Beyləqan, Bərdə, Lənkəran, Cəlilabad, Xırdalan, Xızı, İmişli, İsmayıllı, Qax, Qazax, Qəbələ, Qobustan, Lerik, Masallı, Samux, Oğuz, Şamaxı, Ucar, Horadiz və Şəki) baş planı hazırlandı və təsdiq olundu. Bundan sonra respublikada aparılan tikinti işləri həmin baş planlara əsasən aparılır.

Heydər Əliyev adına mərkəzlər, milli olimpiya idman kompleksləri, körpülər, yeraltı keçidlər, metrolar, nadir memarlıq abidələri (H.Əliyev mərkəzi, Alov Qüllələri, Heydər Əliyev adına Beynəlxalq Hava Limanının, Zəfər muzeyi, Dövlət Bayrağı Meydanı, Muğam Mərkəzi, Xalça muzeyi), yaşayış binaları, mehmanxanalar, bağ-park, meydanlar və s. müstəqillik illərində yaranmış memarlıq inciləridir.

Lakin bütün bunlarla yanaşı milli memarlıq ənənələrimizin qorunub saxlanması da vacib məsələdir. Burada həm şəhərsalma və həm də ayrı-ayrı binaların milli memarlıq üslubu diqqət mərkəzində olmalıdır.

Araşdırmalar göstərir ki, Azərbaycan memarlığı müstəqillik illərində görünməmiş inkişaf mərhələsinə qalxsa da o istiqamətini dəyişdi. Məsələn, yeni tikilən binaların estetik gözəlliyində həm rəng, həm də milli ornament seçimi arxa plana keçdi. Binalarda ənənəvi isti daş memarlığı deyil, əksinə şüşə-beton soyuqluğu hiss olundu.

Şəhər mərkəzində yeni binaların sıx-sıx tikilməsi və onların bir-birinə çox yaxın olması tikinti normalarının kobut şəkildə pozulması deməkdir. Məsələn, normativə əsasən, bina üçün ayrılan sərhədin hər tərəfindən bu tikiliyə qədər olan məsafə bina hündürlüyünün 60 faizinə bərabər olmalıdır. Deməli, bina 30 metr hündürlüyündədirsə, onunla divar arasındakı məsafə 18 metr, binalar arasındakı məsafə isə 36 metr olmalıdır.

Digər tərəfdən, ərazinin 40 faizi tikinti üçün nəzərdə tutulmalıdır. Qalan ərazilər isə sakinlərin istirahəti üçün yaşıllıq, söhbət qurğuları və digər tikili üçün ayrılmalıdır. Xatırladaq ki, şəhərlər salınarkən yaşayış, iş və istirahət məsələsi ön planda durmalıdır. Bu baxımdan şəhərlərin mərkəzini çoxmərtəbəli binalarla yükləməkdənsə onları şəhər kənarına inşa etmək daha məqsədə müvafiq olar. Çox əhali yerləşən və iri tutumlu binaların (stadion, idman sarayları, konsert salonları, dəmiryol və avtovaqzallar və s.) şəhərdən kənara çıxarılması da vacib məsələdir.

**Açar sözlər:** müstəqillik dövrü, memarlıq irsi, memarlıq stili və istiqaməri.

**Ədəbiyyat**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab. Bakı, 1997, s.161-162.
2. Azərbaycan Milli Ensiklopediyası 25 cilddə. Məsul katib Q. M. Nağıyev “Azərbaycan cildi”. “Azərbaycan Milli Ensiklopediyası”. Elm Mərkəzi. Bakı, 2007, 884 s.
3. Məmmədzadə K.M. Azərbaycanda inşaat sənəti ( IV-XVI əsrlər). Bakı: Elm, 1978, 210 s.
4. Muradov V.Q. Orta əsr Azərbaycan şəhərləri. Bakı: Maarif, 1993, 157s.
5. Salamzadə Ə.B. Sadıqzadə Ə.Ə. XVIII-XIX əsrlərdə Azərbaycanda yaşayış binaları. Bakı: Azərb. SSR . EA Nəşr., 1961, 168 s.
6. Беретаницкий Л.С., Саламзаде А.В. Архитектура Советского Азербайджана. М. Стройиздат, 1973, 264 с.
7. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX начала XX веков. Л.; Стройиздат, 1986, 456 с.
8. Эфендизаде Р.М. Архитектура Советского Азербайджана. М.; Стройиздат, 1986, 319 с.
9. Усейнов М.А. Беретаницикий Л.С., Саламзаде А.В. История архитектуры Азербайджана. М.; Госстройиздат, 1963, 396 с.

# ГЕЙДАР АЛИЕВ И РЕФОРМЫ В БАНКОВСКОЙ СИСТЕМЕ: ПРОБЛЕМА РИСКОВ В БАНКОВСКОМ СЕКТОРЕ

**Таир Гараев**
Университет Азербайджан, Баку, Азербайджан

Возвращение в 1993 году к власти общенационального лидера Гейдара Алиева стало поворотным моментом в становлении и развитии банковского сектора, а также в других областях. При непосредственном внимании и поддержке Гейдара Алиева были проведены банковские реформы в направлении реконструкции государственных банков, капитализации и укрупнения частных банков, формирования банковской инфраструктуры. По инициативе Г.Алиева было налажено эффективное сотрудничество с Всемирным банком, Международным валютным фондом, Европейским банком реконструкции и развития и другими международными учреждения. Особое место в этом направлении общенациональный лидер уделял уменгьшению рисков в банковской системе.

Макроэкономическая стабильность является одним из важнейших условий диверсификации экономики. Для этого ЦБ должно проводить гибкую денежно-кредитную и курсовую политику. В этом смысле макро и микро пруденциальная политика должна быть направлена на управление банковским сектором посредством системного регулирования.

Существование финансовой неустойчивости влияет на формирование нестабильной конъюнктуры на рынках и оказывает негативное влияние на экономику. Особенно в развивающемся банковском секторе увеличение числа посредников, наличие спекулятивных операций или расширение финансовой либерализации в целом способствуют повышению уровня чувствительности банковской системы [3].

Существует несколько видов банковских рисков.

Кредитный риск. Возможность того, что банки, взявшие на себя роль посредников, не смогут вернуть выданные кредиты, рассматривается как кредитный риск. Оценка кредитного рейтинга является важным фактором в управлении кредитным риском. Банки оценивают кредитный рейтинг и определяют сумму и срок кредита. Таким образом, банки получают доступ к кредитным историям, анализируют их кредитную историю и предлагают кредиты соответствующим лицам. Применяя этот метод, банки минимизируют кредитные риски и риски невозврата.

Операционный риск — это тип риска, с которым в первую очередь сталкиваются начинающие компании. Риски, возникающие из-за инфраструктуры системы, административных ошибок и тех, которые вызывают задержку и потерю услуг, предоставляемых учреждением, и рассматриваются как операционные риски [1]. Факторов, влияющие на, и создающие операционный риск, можно перечислить следующим образом: кадровые риски возникают, когда сотрудники или руководители банка терпят неудачу, не принимают на должном уровне свои обязательства, прерывают работу или злоупотребляют своими обязанностями; риски, возникающие из-за информационных систем, известны как

риски, возникающие из-за отсутствия достаточной информационной и технологической инфраструктуры банка; процессные риски, – это риски, возникающие в зависимости от организационной структуры банка и операционного процесса.

Риск ликвидности— это тип риска, который возникает, когда банки плохо управляют своими текущими обязательствами и не имеют достаточных ресурсов для покрытия увеличения своей задолженности. Когда банк с риском ликвидности нуждается в наличных деньгах в краткосрочной перспективе, он с трудом удовлетворяет эту потребность [2]. Основная причина формирования риска ликвидности заключается в том, что у компаний или банков недостаточно ресурсов. Отсутствие контроля над обязательствами и отсутствие достаточных ресурсов для погашения долгов приводят к риску ликвидности. Хороший уровень ликвидности определяется как способность погашать причитающиеся долги, своевременное взыскание дебиторской задолженности и стабильная реализация необходимых новых инвестиций. Если возникает проблема в осуществлении этих перечисленных операций, значит, существует риск ликвидности [5]. В чрезвычайных ситуациях проблема ликвидности приводит к тому, что банк не может осуществлять свою деятельность. Риск ликвидности может быть снижен за счет правильного управления активами и пассивами.

Выявление возможных рисков помогает контролировать финансовые кризисы как в банковской системе, так и в общеэкономических рамках. Высокая уязвимость ослабляет систему, делает ее уязвимой для внешних потрясений и вызывает дисбаланс в общей структуре. Измерение финансовой уязвимости и определение микро- и макро- факторов, влияющих на формирование этой уязвимости, являются важными факторами для разработки наиболее эффективного метода борьбы с финансовыми кризисами.

Меры, которые будут реализованы в современный период, обеспечат сбалансированное развитие основных сегментов рынка финансовых услуг в Азербайджане (банковский сектор, небанковские кредитные организации, рынок страхования, рынок лизинга, рынок ценных бумаг и рынок факторинга). Будут усовершенствованы инструменты банковского контроля, реализованы соответствующие меры по обеспечению стабильного и безопасного развития банковской системы. Консолидационные мероприятия и структурные реформы в банковской сфере будут продолжены, основное внимание будет уделено стимулированию конкуренции, повышению качества банковских и финансовых услуг, в том числе совершенствованию инфраструктуры электронных платежных систем и расширению ее масштабов.

**Ключевые слова:** банковские реформы, финансовая устойчивость, кредитный риск, операционный риск риск ликвидности.

**Литература**

1. Barakat A., Hussainey K., Bank governance, regulation, supervision, and risk reporting: Evidence from operational risk disclosures in European banks. International Review of Financial Analysis, 2013, 30, pp.254-273.
2. Goodhart C., Liquidity risk management, Banque de France Financial Stability Review, 2008, 11(6), pp.39-44.
3. Gülhan Ü., Uzunlar E., Bankacılık sektöründe kârlılığı etkileyen faktörler: Türk bankacılık sektörüne yönelik bir uygulama, factors influencing the bank profitability: an apllication on turkish banking sector, Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2011, 15(1), pp.341-368.
4. Ivashina V., Laeven L., Moral-Benito E., Loan types and the bank lending channel, Journal of Monetary Economics, 2022, 126, pp.171-187.
5. Van Deventer D.R., Imai K., Mesler M., Advanced Financial Risk Management: Tools and Techniques for İntegrated Credit Risk and Interest Rate Risk Management. Manhattan: John Wiley & Sons, 2013.

## HAYDAR ALIYEV'S SIGNIFICANT ROLE IN THE TRANSLATION SPHERE

**Laman Gasimli**
Azerbaijan University, Baku, Azerbaijan

In every nation's history, we can mention the names of personalities who play significant role in their country's social, cultural and political life. One marvellous sample of this is our great leader Haydar Aliyev and his indispensable role in Azerbaijan culture, literature, linguistics, translation and every sphere of our people's life. All linguists have to acknowledge that the development of the Azerbaijani language is certainly related with the name of great personality Haydar Aliyev's life and creative-activity [2].

The history of Haydar Aliyev's language policy, the development of our language, is the history of this school, and the experience of this school will be benefited from time to time [1]. Meanwhile, together with linguistics, literature and culture, the development of translation in our country has also related with the name of our great leader Haydar Aliyev [5]. Both written translation and interpretation began to be in the spotlight during his reign. The idea of creating a state institution that would regulate translation work in Azerbaijan, promote world literature in Azerbaijan, and popularize our national literature in the world was suggested by Haydar Aliyev in 1981 at the VII congress of Azerbaijani writers. The great importance given by the great leader to the field of translation, the importance of this field for the spiritual and enlightened state of the country, as well as the importance of mutual exchanges between peoples, languages and literatures, are still relevant today. He mentioned that our strongest writers should fulfill the great and noble task of creative translation with honor [4].

Another necessary fact about this sphere is that in Azerbaijan, the history of simultaneous translation dates back to the independence years. Especially, after 1993 simultaneous translation was developed in Azerbaijan, because after gaining independence our country turned into one of the many important places for holding international conferences. It should be emphasized that during the authority of Haydar Aliyev both simultaneous and consecutive interpretations began to be developed. Afterwards, special conditions created for training of translators and interpreters. As the result of such kinds of trainings during independence years, both consecutive and simultaneous interpretations, all kinds of translation have entered a phase of high development. Accordingly, it should be emphasized that President Ilham Aliyev, who has successfully continued the language policy of our national leader, decided to establish the Azerbaijan State Translation Center with Order No. 2236 dated May 23, 2012 to support the development of the translation [4].

**Keywords:** linguistics, national literature, translation, language policy, interpretation.

## References

1. Axundov A. Dilimizə dövlət qayğısı. «Dirçəliş» jurnalı, №41, B., 2001.
2. Aliyev V. Heydər Əliyevin dil siyasəti, Bakı, "Nurlan" 2003.
3. Http://www.anl.az/down/meqale/yeni_az/2013/mart/297038.htm
4. https://aztc.gov.az/az/posts/id:946
5. Https://www.yeniazerbaycan.com/Sosial_e32516_az.html

# TÜRK DÜNYASINDA H. ƏLİYEV FENOMEN ŞƏXSİYYƏT KİMİ

**Ulduz Qəhrəmanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: ulduzkahraman1@gmail.com

Ulu Öndər Heydər Əliyev müasir mərhələdə ümumi türkçülüyün, türk birliyinin, türk dövlətləri birliyinin aparıcı ideoloqu, böyük şəxsiyyəti idi. H.Əliyev türkçülüyü, azərbaycançılığı, dünyəviliyi və islami dəyərləri milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. Siyasi leksikona "bir millət, iki dövlət" tezisini irəli sürən şəxsiyyət də məhz müdrik rəhbər Heydər Əliyev olmuşdur. Qeyd edək ki, Türk dünyası yazıçılarının qurultayı ilk dəfə 1992-ci ildə Türkiyədə Ankara şəhərində keçirilmişdir. Bu qurultayda türk dünyası qurultayının iki ildən bir keçirilməsi qərarlaşdırılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə Bakıda ilk dəfə iri miqyasda türk xalqları yazıçılarının III Qurultayı keçirilir. Türk dünyası yazıçılarının III Qurultayının Azərbaycanda-Bakı şəhərində toplaşılması Ulu Öndər Heydər Əliyevdə fəxr, qürur hissi yaratmışdır. Bu qurultayda H.Əliyev "Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir" şəklində elmi məruzə ilə çıxış etmişdir. Heydər Əliyevə görə, "Hər bir xalqın milliyini, mənəvi

dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, inkişaf etdirənlər yazıçılarımız, şairlərimiz olmuşdur" [5, s.92]. Çünki biz yazıçılarımızın, şairlərimizin yaratdığı bədii əsərlərdən çıxış edərək tarixi kimliyimiz, dilimiz, adət-ənənələrimiz haqqında fikirlər söyləyə bilirik. Heydər Əliyev bu qurultayda Türk xalqlarının tarixi keçmişinə yenidən qayıtmağın və yenidən təhlilinin tərəfdarı idi. Ona görə də Ulu Öndər H.Əliyevin ədəbiyyatla bağlı ədəbi-estetik görüşlərinin bir hisssəsi bütün türkdilli xalqların folklorunu, qədim abidələrini, müştərək dastanlarını öyrənməsi təşkil edirdi.

Heydər Əliyevi dərindən düşündürən problemlərdən biri ortaq türk dili konsepsiyası idi. Ulu Öndər xüsusilə vurğulayırdı ki, türk xalqları tarixən işğallara məruz qalmış, hətta onların dövlətçiliyi əllərindən alınmış, ana dilləri məhv olmaq təhlükəsi qarşısında qalmışdır. Məlumdur ki, hər bir xalqın milliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Hər bir xalqın mədəniyyəti ilk növbədə sənət adamlarının bədii əsərlərində qorunub saxlanılır. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanlarından tutmuş ayrı-ayrı dövrlərdə yazıb yaradan yazıçı və şairlərin əsərləri H.Əliyevə görə, bir olan dillərimizin bir-birinə daha da yaxınlaşması üçün ortaq türk dili məsələsi düşünülməlidir.

Məlumdur ki, sovet dönəmində türk xalqlarının tarixən keçdiyi yollar təhrif edilmiş, uydurulmuşdur. Təbii ki, bu Sovetlərin ideoloji təzyiqlərindən irəli gəlirdi. Belə təzyiqlərə məruz qalan türk abidələrimizdən biri "Kitabi-Dədə Qorqud" dastanı idi. XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi. Lakin H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən bu yubiley tədbiri yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu.

Ulu Öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Bu eposu tarixi ədəbi milli fakt hesab edirdi. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, sənəddir. Bu eposla Ulu Öndər Heydər Əliyev dünyaya belə bir mesaj vermişdir. "Kitabi-Dədə Qorqud" abidəsi sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir. Həmçinin Ulu Öndər H.Əliyev bu abidənin ümumdünyaya, bəşəriyyətə Azərbaycan-oğuz türklərinə mənsubluğunun mesajını vermişdir. H.Əliyev 2000-ci ilin 9 aprel tarixində Respublika Sarayında "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini YUNESKO səviyyəsində ümumdünya mədəniyyət salnaməsinin bir nümunəsi kimi keçirməklə dünyaya Azərbaycan xalqının çoxəsrlik tarixə malik bir xalq olduğunun mesajını da vermişdir.

"Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley....bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan bir tarixi hadisədir. Bu bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır" [5, s.41].

**Açar sözlər:** Türk, Heydər Əliyev, III Qurultay, "Kitabi-Dədə Qorqud", dastan.

**Ədəbiyyat**


1. Qurbanov A., Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı, Bakı, Gənclik, 1997.
2. Xəlilov B., Heydər Əliyev və mədəni irsimiz, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, 24 aprel 2003, №3.
3. Xəlilov B., Heydər Əliyev və azərbaycanşünaslıq, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, 10 may 2004-cü il, №2.
4. Xəlilov B., Azərbaycan dili: dünən və bu gün, Bakı, 2004.
5. Novruzov T., Heydər Əliyev və ədəbiyyat məsələləri, Bakı, 2007.


## MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA HEYDƏR ƏLIYEVIN ROLU


**Nigar Qələndərli**

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Bakı, Azərbaycan


*Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik.*

***Heydər Əliyev***

Azərbaycan xalqı ən qədim dövrlərdən etibarən dünyanın zəngin milli mədəniyyətə, milli-mədəni dəyərlərə malik xalqlarından biri olmuş, bəşər mədəniyyətinin maddi-mənəvi xəzinəsini qiymətli sənət inciləri ilə, dəyərli ədəbi-bədii, tarixi-memarlıq töhfələri ilə zənginləşdirmişdir.

Azərbaycan Respublikası Asiya və Avropanın bir-biri ilə qovuşduğu çox əhəmiyyətli geosiyasi və geostrateji coğrafi məkanda – Cənubi Qafqaz regionunda, həmçinin Şimal-Cənub xətlərinin üzərində yerləşərək, Şərq və Qərb sivilizasiyalarını özündə harmonik şəkildə birləşdirir.

Ölkəmiz yeni əsrə, yeni minilliyə çağdaş Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin ideyaları ilə, müstəqil, azad, demokratik, hüquqi, sivil, dünyəvi dövlət olaraq qədəm qoymuşdur. Müasir dövrdə dünyada hər hansı bir dövlətin geostrateji mövqeyi və geosiyasi üstünlükləri hər şeydən öncə onun fiziki-coğrafi mövqeyi, təbii sərvətləri, əhalisi, əmək ehtiyatları, iqtisadi inkişaf səviyyəsi, siyasi quruluşu və təbii ki, həmin ölkənin lideri ilə müəyyən edilir. Əsl lider məhz bu sadaladığımız üstünlüklərdən xalqın və dövlətin maraqları naminə müdrikcəsinə və siyasi uzaqgörənliklə istifadə edir, ölkəsini hər bir cəhətdən – siyasi, iqtisadi, mədəni və s. sahələr üzrə inkişaf etdirir, onun şanlı tarixini yeni səhifələrlə zənginləşdirir.

Məlum olduğu kimi, dünya xalqlarının yüzilliklər ərzində formalaşmış yüksək milli-mənəvi dəyərlərini, milli məfkurəsini qoruyaraq, cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin və şərəfli bir vəzifə, ilk növbədə, dahi şəxsiyyətlərin üzərinə düşür. Azərbaycanda bu məsuliyyətli missiyanı Ümummilli liderimiz Heydər Əliyev öz üzərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə -

həm Sovet İttifaqının tərkibində müttəfiq respublika olduğumuz illərdə, həm də istiqlaliyyət qazandığımız zamanda milli-mənəvi dəyərlərin, milli məfkurənin böyük himayədarı olmuşdur. Müasir Azərbaycan cəmiyyəti əsrlər boyu formalaşan zəngin ənənələrin, milli-mədəni dəyərlərin, multikulturalizmin, tolerantlığın və müasirliyin sıx vəhdəti şəklində təzahür etmişdir. [1, s.106-114].

Məlum olduğu kimi, Ümummilli liderimiz, çağdaş Azərbaycanın qurucusu Heydər Əliyevin xalqımıza və dövlətçiliyimizə həsr etdiyi möhtəşəm fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi formasiyadan keçmişdir. Təcrübəli siyasi və dövlət xadimi olan Ulu öndər bu quruluşların hər ikisindən böyük məharətlə, əsl strateq kimi faydalanmaqla, vətənimizin hərtərəfli tərəqqisinə nail olmuşdur.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, tarixdə xalqına, onun milli-mənəvi dəyərlərinin inkişaf etdirilməsinə və dirçəldilməsinə, millətinin maariflənməsinə xidmət edən rəhbərlər heç də çox olmayıb. Fəaliyyəti milli dəyərlərdə, bu dəyərlərin qorunmasında və daha da inkişaf etdirilməsində təcəssüm tapan böyük şəxsiyyətlərə demək olar ki, nadir hallarda rast gəlinir. Heydər Əliyev məhz belə böyük rəhbər, təcrübəli strateq və mahir dövlət xadimi idi.

Azərbaycan öz milli-mənəvi dəyərlərini, şanlı tarixini, zəngin mədəniyyətini və bəşəri incəsənətini yüksək səviyyədə qoruyan və təbliğ edən ölkələr sırasındadır. Dünyaya sürətli inteqrasiya siyasətini uğurla həyata keçirən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizi qorumaqla onların dünyanın qabaqcıl ölkələrinin meyarlarına uyğunlaşdırılmasına çalışmışdır. Ulu öndər Heydər Əliyevin söylədiyi proqram xarakterli “Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik” fikri dövlətimizin siyasətində daim öndə dayanıb və bu gün də Prezident İlham Əliyevin böyük önəm verdiyi mühüm, prioritet istiqamətlərdəndir.

Hər bir xalqın hansısa əlverişli situasiyada milli-etnik soykökünə qayıdışı, əsrlər boyu ərz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünəməxsusluğunu qorumaq şansı əldə etməsi, əsasən, lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. XX yüzillikdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla, əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuş, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Əgər Ulu öndər Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycan Respublikasının müstəqil dövlət kimi mövcudluğundan danışmaq çox çətin olardı [1, s. 106-114].

Böyük fəxrlə vurğulamaq istərdik ki, Ulu öndər milli şüurun oyanışında, formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmişdir. Məhz buna görə də mədəni-mənəvi

intibahımızın təminatçısı Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi unikal tarixi şəxsiyyət, böyük dövlət xadimidir. Onun bütünlüklə doğma xalqına həsr etdiyi zəngin və mənalı həyat yolu elə şərəfli bir tarixdir ki, gələcək nəsillər zaman-zaman bu şanlı tarixi, onun tükənməz və qiymətli irsini öyrənəcək, ondan həmişə ibrət götürəcək, Heydər Əliyev məktəbindən daim dərs alacaqlar.

Xatırlatmaq yerinə düşər ki, əbədi rəhbərimiz Heydər Əliyev hələ Azərbaycanda hakimiyyətinin birinci mərhələsində, yəni 1969 – 1982-ci illərdə milli təfəkkürümüzü repressiya xofundan, təzyiq və təhdidlərdən xilas etmiş, milli şüurun yüksəlişinə xidmət edən ardıcıl tədbirlər həyata keçirmişdir.

Ötən əsrin 70-ci illərindən başlayaraq respublikamızda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran, sosial-iqtisadi, hüquqi və mənəvi intellektual mühitin yaranmasına səbəb olan Ulu öndər Heydər Əliyev xalqımızın məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir. Sovet hakimiyyətinin repressiya maşınının çox güclü fəaliyyət göstərdiyi illərdə Heydər Əliyev öz xalqının bütün hüquqlarını qoruyan, haqqı nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla həm də ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri ilə əbədi olaraq yaddaşlarda qalmışdır. Böyük liderin rəhbərliyi altında Azərbaycan xalqında yüksək iradə sərgilənməklə, milli yaddaşı, mənəvi-əxlaqi dəyərləri və tarixi dövlətçilik ənənələrini qorumaq əzmi nümayiş etdirilmiş, gələcəkdə dövlət müstəqilliyi üçün lazımi potensial formalaşdırılmışdır.

"*Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır*", – deyən Heydər Əliyev sovet dövründə Azərbaycana rəhbərlik edərkən respublikada təhsil, səhiyyə, mədəniyyət və incəsənət kimi mühüm sahələr sürətlə inkişaf edirdi, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətində həmçinin mühüm addımlar atılırdı [2].

Heydər Əliyevin dövlət həyatının müxtəlif sahələri və yürüdülən siyasətin ayrı-ayrı məqamları ilə bağlı söylədiyi müdrik fikirlərin Azərbaycanın vahid milli inkişaf konsepsiyasının, milli ideologiyasının əsasını təşkil etdiyini vurğulasaq, qətiyyən yanılmarıq. Əbədi rəhbərimizin zəngin irsi çağdaş Azərbaycanın sosial idealı, milli-fəlsəfi dünyagörüşüdür, bu sərvət ölkənin real gerçəkliyinin, ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri sistem və dövlət quruculuğu təlimidir.

Ötən əsrin 60-cı illərinin sonunda Ulu öndərin sovet siyasi arenasında rəhbərliyə gəlməsi ilə Azərbaycanda milli özünüdərk hissi güclənmiş, bütün ideoloji maneələr dəf edilərək, müstəqil düşüncəyə, dövlətçilik təfəkkürünə yol açılmışdır. Ümummilli lider Heydər Əliyevin tarixi missiyası həm də o dövrdə xalqın daxilində toplanan milli ruhu və idealları keçmiş rejimin hücumlarından qoruyaraq xalqın milli yüksəlişini təmin etmək, hüquqlarını qorumaq olmuşdur. Dahi lider həmin dövrdə bütün ideoloji-siyasi maneələrin qarşısını alaraq Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ulu öndər hələ Dövlət Təhlükəsizliyi Komitəsində (DTK) çalışdığı illərdə

kadrların milliləşdirilməsi kimi vacib məsələni qarşıya məqsəd qoymuş, labüd risklərə baxmayaraq, bu orqanda işləyən azərbaycanlıların sayca artımına nail olmuşdur. DTK-ya uzun onilliklər ərzində qeyri-azərbaycanlıların rəhbərlik etməsi ilə bağlı formalaşmış stereotipləri öz nüfuzu və bacarığı hesabına dağıdan Heydər Əliyev "beynəlmiləlçilik" pərdəsi altında milli dəyərlərin aşınması prosesinin də qarşısını almışdır. Ölkənin ən böyük nəzarət orqanı olan və milli özünüdərkin bütün rüşeymlərinə qarşı amansız mübarizə aparan qurum qısa müddət ərzində mahiyyətcə yeniləşmiş və fəaliyyətində liberal çalarlar artmışdı. Qeyri-azərbaycanlıların rəhbərlik etdiyi DTK-da qısa vaxt ərzində şəxsi heyət azərbaycanlıların xeyrinə dəyişdirilmiş və azərbaycanlılaşdırılmışdır [3].

Ulu öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbərliyinə təyinatından sonra zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının taleyində yeni səhifə açılmış, xalqımız tarixən xəyallarında yaşatdığı idealları gerçəkləşdirmək üçün real şans və imkanlar əldə etmişdir. Heydər Əliyev müdrik strateq və böyük siyasətçi olaraq yaxşı bilirdi ki, qədim tarixə və ənənələrə malik Azərbaycan xalqının milli ruhunu, milli-mənəvi dəyərlər və düşüncə sistemini qorumağın, milli ideaların ictimai şüurda möhkəmlənməsinə nail olmağın yeganə yolu məhz elm və təhsilin inkişafından, ölkə üçün yüksək intellektə, bacarığa malik kadrların hazırlanmasından asılıdır.

Azərbaycanı dünyada tanıdan müdrik siyasətçi bildirirdi ki, mənəviyyatla birləşməyən bilik və birlik təhlükəli ola bilər. Xalqlar arasında dostluq münasibətlərinin möhkəmlənməsini, mədəniyyət və elm sahələrində əlaqələrin artırılmasını yüksək dəyərləndirən Ulu öndər hələ sovetlər vaxtında azərbaycanlı gəncləri SSRİ-nin bir çox nüfuzlu ali məktəblərinə təhsil almağa göndərməklə, həm də mənəvi dəyərlərimizin geniş təbliğinə imkan yaratmışdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə 1969 – 1980-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur.

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların zehinlərə zorla yeridildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm addımlar həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipi olmuşdur. Müdrik rəhbər yaxşı başa düşürdü ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır.

Ulu öndər həmin illərdə xalqın mədəni-mənəvi irsinə, adət-ənənələrinə, milli dəyərlərinə də diqqət və qayğı ilə yanaşmışdır. Heydər Əliyev nə vaxtsa Azərbaycanın müstəqil dövlət olacağına möhkəm inanırdı və buna əmin idi. Ona görə də gələcəyə hesablanmış müdrik addımlar atır, strateji hədəflərini zaman-zaman həyata keçirirdi. Məhz müdrik rəhbərin qayğısı ilə o illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

Qeyd etmək istərdik ki, Azərbaycanın mənəvi dəyərlərə hörmətlə yanaşmasını təsdiqləyən başlıca amillərdən biri də ölkəmizin tolerant respublika kimi dünya birliyində tanınmasıdır. Çoxkonfessiyalı və çoxmillətli Azərbaycanın bütöv bir tarixi mərhələsi Ulu öndərin adı ilə bağlıdır. Xalqına, onun milli-mənəvi dəyərlərinə, tarixin sınaqlarından çıxmış adət-ənənələrinə böyük

hörmətlə, dərin sayqı ilə yanaşan, dövlət-din münasibətlərinə sivil prinsiplər əsasında tərəfdar olan, dini-mənəvi, əxlaqi-etik məsələlərə müdrik siyasətçi kimi incəliklə diqqət yetirən, ölkəmizdə yaşayan bütün millətlərin mənəvi dəyərlərinin qorunmasına ehtiram göstərən dahi öndər Heydər Əliyev bildirirdi ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən və siyasi baxışlarından asılı olmayaraq bərabər hüquqlara malikdirlər.

Xüsusi olaraq vurğulayaq ki, mənəvi varlığımızın tərkib hissələrindən biri olan islami dəyərlərə hörmətlə yanaşma Ulu öndərimizin daim diqqət və qayğı göstərdiyi sahələrdən idi. Müstəqil Azərbaycanın memarı və qurucusu olan Ümummilli liderimiz Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə xalqın mənəvi dəyərlərinin yaşaması və inkişafı üçün əlindən gələni etmişdir. Sovetlər dövründə belə, islami dəyərlərə hörmətlə yanaşmağı tövsiyə edərək və xalqımızı sovet ideologiyasının zərərli təsir və təzyiqlərindən qoruyaraq Azərbaycanı bir tolerant, hüquqi dövlət olaraq tanıtmışdır [4].

Heydər Əliyev bütün dini abidələrə, məscidlərə ehtiyatla, böyük məharətlə qayğı göstərir, dövrün səciyyəvi xüsusiyyətlərini nəzərə alaraq, onları tarixi mədəniyyət abidələri kimi bərpa etdirib xalqın ixtiyarına verirdi. 1970-ci illərdən başlayaraq mahir siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlərdən olan dini dəyərlərin dirçəlişi və inkişafı baş verdi. Məhz Azərbaycan Respublikasında Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində xalqın mənəvi həyatına son dərəcə mənfi təsir göstərən dinsizləşdirmə siyasətinin qarşısı alındı.

Əbədi rəhbərimizin müvəqqəti olaraq siyasi hakimiyyətdən uzaqlaşdırıldığı dövrdə – ötən əsrin 80-ci illərinin axırları, 90-cı illərinin əvvəllərində onun başladığı və uzun illər ərzində böyük uğurla həyata keçirdiyi mədəni quruculuq işlərində, o cümlədən, Azərbaycan təhsilində, Azərbaycan elmində sözün həqiqi mənasında tənəzzül, geriləmə prosesləri müşahidə olunurdu. Elm, təhsil və mədəniyyət sahəsində uzun illər ərzində böyük zəhmətlər hesabına yaradılmış milli-mənəvi dəyərləri düzgün qiymətləndirməyən o zamankı naşı və “meydan təfəkkürlü” respublika rəhbərlərinin səriştəsizliyi üzündən elm, təhsil və mədəniyyət kimi milli dəyərlərə böyük zərbə vuruldu, təhsilə, elmə maraq azaldı, ölkədən xaricə “beyin axını” sürətləndi. Ölkəni “idarə edənlər”, əslində xaosa sürükləyənlər müstəqil dövlət quruculuğunun mühüm atributlarından və təsisatlarından olan təhsil, elm, mədəniyyət sahəsində Azərbaycan gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etmək kimi tarixi missiyanı reallaşdırmaq üçün düşünülmüş tədbirlər ilə təmin edilə bilmədilər, aparılan “inqilabi” yeniləşmələr nəticəsində elmin və təhsilin inkişafına çox böyük, ağır zərbələr vuruldu.

Müasir Azərbaycan tarixində açılan yeni quruculuq səhifələrindən biri 1993-cü ildə Heydər Əliyevin xalqın təkidli xahişi ilə ölkəmizə ikinci dəfə siyasi rəhbərliyə qayıdışı ilə başladı. Hesab edirik ki, bu, Azərbaycan dövlətçiliyinin inkişaf mərhələsində yeni dövrün, eranın – Heydər Əliyev erasının başlanması demək idi. SSRİ süquta uğradıqdan sonra Azərbaycan Respublikasına rəhbərlik edən şəxslərin səriştəsizliyi, qabiliyyətsizliyi və çox hallarda xəyanəti nəticəsində dini sahədə xalq üçün təhlükə kəsb edən kifayət qədər problemlər meydana gəlmişdi. Əhalinin mənəvi birliyini pozmağa çalışan qüvvələr tərəfindən dini dəyərlərin təbliği

başlığı altında dindaxili təriqətlər – sünnilərlə şiələr arasında nifaq toxumu səpilir, xalqı öz dinindən döndərmək üçün missioner hərəkatı güclənirdi. Yalnız Heydər Əliyevin 1993-cü ildən etibarən mənəvi dəyərlərin inkişafı və möhkəmləndirilməsi, dövlətçilik ideyalarının bərpa edilməsi, ictimai-siyasi sabitliyin formalaşdırılması istiqamətində yürütdüyü məqsədyönlü və düşünülmüş siyasət nəticəsində xalqın mənəvi sahəsinə mənfi təsir göstərən bütün amillər zərərsizləşdirilmişdir [5, s.98].

Müstəqil Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin, xüsusilə onun ayrılmaz hissəsi olan dini dəyərlərin inkişafı və möhkəmləndirilməsi prosesi Heydər Əliyev tərəfindən siyasi dəqiqliklə nəzərdən keçirildiyi üçün başqa müsəlman ölkələrindən fərqli olaraq, Azərbaycan Respublikasında islam dininin əsl mahiyyəti və sülhsevər məğzi inkişaf etdirilir və hər növ radikal, terrorizm ideologiyalı, sözün geniş mənasında desək, islamla pərdələnmiş məzhəb və təriqətlərin qarşısı qətiyyətlə alınırdı. Azərbaycan Respublikası müsəlman ölkələri içində antiterror koalisiyasına birinci qoşulan və eyni zamanda vəhabilik, sələfilik, radikal şiəliyə məxsus olan hizbullah və sair bunun kimi dini siyasi vasitəyə çevirən təşkilatların həqiqətdə islam dəyərlərindən çox-çox uzaq olduğunu beynəlxalq səviyyədə çatdıran bir respublika hesab olunmaqdadır. Şübhəsiz ki, mənəvi sahədə bir çox müsəlman dövlətlərinin nail ola bilmədikləri bu uğurlara Azərbaycanın nail olması Heydər Əliyevin milli-mənəvi dəyərlərə göstərdiyi əsl qayğının məntiqi nəticəsidir [5, s.101].

Qeyd etmək lazımdır ki, Ulu öndərin hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası işlənib-hazırlandı. Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli “Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında” sərəncamında vurğulandığı kimi, “Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu - Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir” [6].

Əbədi liderimiz Heydər Əliyev deyirdi ki, “Xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərini qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir”. Onun fəaliyyətində və siyasətində azərbaycançılıq həmişə öndə olub və bu ideoloji prinsip dövlət siyasəti səviyyəsinə qaldırılıb. Həqiqətən də müstəqil Azərbaycanın dövlətçilik ideologiyası olan azərbaycançılıq məfkurəsi konsepsiyasının müəllifi Heydər Əliyevdir, eyni zamanda bu ideologiyanı gerçəkləşdirən, həyata keçirən də məhz Heydər Əliyev olmuşdur. Ulu öndərin müəllifi olduğu bu ideologiyanın əsas konseptual müddəaları içərisində başlıca yeri Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun dönməzliyinin və əbədiliyinin təmin edilməsi, Azərbaycan xalqının bütövlüyünün, milli həmrəyliyinin təmin olunması, vətəndaş cəmiyyətinin formalaşması, dünya azərbaycanlılarının Azərbaycan idealı ətrafında birliyinə nail olunması, Azərbaycanın iqtisadi müstəqilliyinin, azad bazar münasibətlərinin bərqərar olması tutur.

Bundan başqa, milli ideologiyanın ifadə vasitəsi olan müstəqil Azərbaycanın dövlət dilinin – Azərbaycan dilinin hərtərəfli inkişaf etdirilməsi və tətbiqi dairəsinin genişləndirilməsi, xalqımızın milli-mənəvi dəyərlərinin, milli mentalitetinin inkişaf etdirilməsi, Azərbaycanın milli dövlətçiliyində ümumbəşəri dəyərlərin, dünyəvi, hüquqi, demokratik, sivil dövlət quruculuğu prinsiplərinin təmin olunması da əsas konseptual müddəalar sırasındadır. Azərbaycançılıq ideologiyasında dövlətçilik atributlarının milli ideologiyanın tərkib hissələrindən biri olması, bu ideologiyanın əsas müddəalarının, prinsiplərinin təhsil müəssisələrində öyrədilməsi, tədrisi, təbliği, təhsilin məzmununda milli-mənəvi və ümumbəşəri dəyərlərin geniş əks olunması, milli vətənpərvərlik tərbiyəsinin ön plana çəkilməsi və s. məsələlər də önəmli əhəmiyyət kəsb edir. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verilən fərman Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin saxlanılması və inkişafına qayğısının parlaq ifadəsi olub ictimaiyyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı.

Azərbaycançılığı Azərbaycanda ictimai-siyasi dövriyyəyə gətirən və onun yerini praktik olaraq möhkəmləndirən Heydər Əliyevdir. Ümummilli lider çox haqlı olaraq deyirdi ki, azərbaycançılıq söykəndiyimiz təməl prinsiplərin əsasıdır: "*Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq*". Böyük rəhbər Heydər Əliyev azərbaycançılıq dedikdə, Azərbaycan xalqının öz milli dəyərlərinə söykənməklə bərabər, ümumbəşəri dəyərləri də qəbul etməsini və onlardan yararlanmasını nəzərdə tuturdu. Heydər Əliyev azərbaycançılıq ideologiyasının nəzəri cəhətdən elan edilməsi ilə məsələni bitmiş hesab etməmiş və azərbaycançılığın dünyada olan bütün azərbaycanlılar üçün birləşdirici bir ideologiyaya çevrilməsi üçün xeyli tədbirlər həyata keçirmişdir. Bu baxımdan dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi və burada həmin ideyanın bütün dünyada yaşayan azərbaycanlılara çatdırılması olduqca əhəmiyyətli rol oynamışdır [7, s.8].

Heydər Əliyevin dövlət təlimində dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşları qanun və ölkənin bütün maddi və mənəvi dəyərləri qarşısında bərabər idi. Təsadüfi deyil ki, 1993-cü ildə Heydər Əliyevin idarəçilik fəaliyyətinin mühüm bir sahəsini Azərbaycanda ədalətli vətəndaş cəmiyyətinin yaradılması, insan potensialının quruculuq işlərinə cəlb olunması, sosial ədalət prinsiplərinin bərqərar olması və insanların öz dövlətinə və dövlətçiliyinə inamının artırılmasına xidmət təşkil etmişdir. Heydər Əliyevin milli həmrəylik və vətəndaş birliyi ideyası, insan resurslarından düzgün istifadə edilməsi, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı hesab etməsi, dövlətin hər bir insana, hər bir insanın isə öz dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyada da öz əksini tapmışdır. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında həm Azərbaycanın tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdü.

Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Bununla bağlı Ulu öndər qeyd edirdi ki, bizim milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə xidmət etməlidir.

"*Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!*". Bu ifadələr Ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaş aləmini və varlığını göstərən, onun öz milli köklərinə necə də dərindən bağlılığını sübut edən tarixi bir bəyanatdır.

Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən layiqli vətəndaş məsələsini də xüsusi olaraq fərqləndirirdi. Əbədi rəhbərimiz qeyd edirdi ki, biz elə bir nəsil yetişdirməliyik ki, o, öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada tanıtmağı, ölkəsini beynəlxalq aləmdə layiqincə təmsil etməyi bacarsın. Bundan başqa, Ulu öndər Heydər Əliyev gənc nəslin öz milli adət-ənənələrinə sadiqliyini, milli əxlaqlı olmasını, ana dilini, milli mədəniyyətini gözəl bilməsini və sevməsini həmişə tövsiyə edir, eyni zamanda onları təhsilli, savadlı, müasir düşüncəli, Avropa dəyərlərini və dillərini mükəmməl bilən gənc insanlar kimi görmək istəyirdi [8, s.3-4].

Heydər Əliyevin milli vətənpərvərlik konsepsiyasında ən önəmli yerlərdən birini də müasir nəsli milli ruhda, milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutur. Gerçəkdən də müasir nəslin milli ruhda tərbiyəsi – soykökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri yeniləşdirməkdən, dirçəltməkdən və təlim-tərbiyə prosesində onlardan maksimum dərəcədə istifadə etməkdən, faydalanmaqdan ibarətdir.

Təhsilə və elmə yiyələnməyin vacibliyini xüsusi vurğulayan Heydər Əliyev göstərirdi ki, gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə qalxmaqdır. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən birinin məhz mənəvi tərbiyə məsələsinin olduğunu qeyd edən Ulu öndər gəncləri ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən mənimsəməyə çağırırdı.

Ulu öndər 1996-cı ildə keçirilən Gənclərin birinci forumundakı nitqində bununla bağlı öz narahatlığını belə bildirirdi: "*Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən, gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik!*".

Ulu öndər Heydər Əliyevin fikrincə, dövlətçiliyimizin möhkəmlənməsi gənclərin bir şəxsiyyət kimi formalaşmasından – onların milli ruhda tərbiyəsindən çox asılıdır. Bəllidir ki, milli ruh, hər şeydən öncə – vətənpərvərlik ruhudur. Bu məsələyə böyük önəm verən Ulu öndər demişdir: "*Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır*" [9, s.5].

Ulu öndər ailədə də, cəmiyyətdə də, dövlət idarəçiliyində də daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalmış, etnik-mental olaraq əsl azərbaycanlı dünyagörüşünə malik olmuşdur. Belə ki, Heydər Əliyev azərbaycançılığın əsası olan ana dilinin inkişaf etdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli liderimiz yaxşı bilirdi ki, xalqa milli-mənəvi dəyərləri aşılamaq üçün ona ilk növbədə öz ana dilini qaytarmaq və sevdirmək lazımdır. Hələ 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən Azərbaycan dilinin bu ali sənəddə “dövlət dili” kimi təsbitlənməsi və qorunub saxlanılması məhz dahi şəxsiyyətin milli məfkurəyə sadiqliyindən irəli gəlirdi. 70-ci illərdə Bakıda türkçülüyü tədqiq edən sanballı “Türkologiya” jurnalının nəşrə başlaması da böyük əzmin, fədakarlığın, türk dönməzliyinin nəticəsi olmuşdur. “Türkologiya” jurnalının nəşrinə Kreml bir neçə dəfə etiraz etsə də, nəhayət, imperiya səlahiyyətliləri Heydər Əliyevin fədakarlığı qarşısında geri çəkilərək türk dünyasının birliyinə xidmət edən bu nəşrin dayandırılmasına müyəssər ola bilməmişdilər. 1926-cı ildə keçirilən Birinci Beynəlxalq Türkoloji Qurultaydan xeyli sonra belə bir jurnalın nəşrə başlaması öləziyən türkçülüyə yeni nəfəsin, təkanın verilməsi məqsədi daşımışdır [1]. Heydər Əliyevin ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik “Müasir Azərbaycan dili” dərsliyinə dövlət mükafatı verməsi, ana dilində elmi nəşrlərin sayının çoxalması, elmi tədqiqatların və araşdırmaların məhz bu dildə aparılmasının dəstəklənməsi də azərbaycançılıq ideologiyası ilə bağlı idi [10].

Ulu öndərimiz milli özgürlüyümüzü daim diqqət mərkəzində saxlayır, onun daha da zənginləşməsinə xüsusi önəm verirdi. Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, azərbaycançılıq ideologiyasının cəmiyyətdə möhkəm sosial dayaqlar taparaq zehinlərdə möhkəmlənməsi, davamlı inkişaf prosesində mənəvi stimula çevrilməsi üçün bütün zəruri tədbirləri gerçəkləşdirirdi. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərlərinə düşən mənəvi öhdəlikləri, “azərbaycanlı” anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutur. Bu konsepsiya milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla, strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin sanbalında öz əksini tapır. Ölkəmizin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi azərbaycançılıq ideologiyasının diaspor quruculuğunda üstün cəhəti ilk növbədə onun milli maraqlarımızın tam çevrəsini əhatə etməsidir. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyllərini, tarixi təkamüldə varislik və tərəqqini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də çox müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün də olduqca cəlbedicidir.

Azərbaycan xalqının öz milli dəyərlərinə önəm verməsi, azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi, çoxmillətli ölkəmizin bütün sakinlərinin qarşılıqlı anlaşma, dialoq şəraitində birgəyaşayışı, dövlətimizin yüksək insani dəyərlərə, humanizm və tolerantlığa sadiqliyi qloballaşma

dövründə böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunması yolunda gördüyü işlərlə bizlərə müasir qloballaşma prosesində milli-mənəvi dəyərlərimizi ön plana çəkməyi, öz milli kimliyimizi, dinimizi və adət-ənənələrimizi unutmamağı tövsiyə edirdi. Bu baxımdan, Heydər Əliyevin Dünya azərbaycanlılarının I qurultayındakı nitqinin müstəsna əhəmiyyəti var. Ümummilli liderimiz öz nitqində azərbaycançılıq ideyasının mahiyyətini, milli dövlətçilik ideyasının milli-mənəvi dəyərlərlə vəhdətini açıb göstərmiş, bizim hamımızı birləşdirən cəhətin məhz bu amil olduğunu qürur hissi ilə vurğulamışdır. Bəli, bizim hamımızı birləşdirən, həmrəy edən cəhət azərbaycançılıqdır. Biz bu ideya ilə özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan üçün bu ideologiya mədəniyyətlərarası və sivilizasiyalararası dialoq istiqamətində mühüm bir körpü rolu oynayır [11, s. 5-12].

Azərbaycan keçmiş Sovet İttifaqının tərkibində olarkən Ümummilli liderin formalaşdırdığı mütərəqqi ənənələr müstəqillik illərində də inamla davam etdirilmiş, Ulu öndər Azərbaycanın görkəmli şair və yazıçılarının, elm, incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin bu sahədəki mədəni quruculuq siyasəti nəticəsində mənəvi dəyərlərimiz qorunmuş, milli adət-ənənələrimiz yaşadılmış, klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə itkisiz çatdırıla bilməsi üçün lazım olan bütün zəruri addımlar atılmışdır.

Dahi rəhbər xalqın milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı və təbliği istiqamətində də mühüm işlər görmüşdür. Bu isə onun milli-mənəvi dəyərlərə həssas münasibətindən irəli gəlməklə milli özünüdərkə, ictimai şüurun oyanışına xidmət etmişdir. Heydər Əliyev xalqın istiqlal düşüncələrinin, azadlıq ideyalarının lirik-emosional təcəssümü olan aşıq poeziyasının və musiqisinin dirçəldilməsinə də həmçinin xüsusi diqqət yetirmişdir.

Ulu öndər müstəqillik illərində xalqın milli-mənəvi dəyərlərini və düşüncə sistemini yaşadan, günümüzə gətirib çıxaran folklor nümunələrinə – qəhrəmanlıq eposlarına daha da xüsusi maraqla, diqqətlə yanaşmışdır. Heydər Əliyevin 1997-ci il aprelin 20-də imzaladığı “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi haqqında fərmanı, yubileyi keçirmək məqsədilə komissiya yaratması və ona sədrlik etməsi, bunu dövlət işinin tərkib hissəsinə çevirməsi milli-mənəvi irsi qorumaq, yaşatmaq, öyrənmək, təbliğ etmək və gələcək nəsillərə çatdırmaq sahəsində olduqca əhəmiyyətli bir hadisə olmuşdur. 2000-ci ildə isə “Kitabi-Dədə Qorqud” dastanının beynəlxalq səviyyədə 1300 illik yubileyi qeyd olundu. Bu qəhrəmanlıq eposu elə həmin ildə YUNESKO-nun nadir sənət abidələri siyahısına salındı. Ulu öndər Heydər Əliyev yubiley mərasimində bu qədim abidəyə gerçəkdən də böyük qiymət vermişdir: “*Bu gün Azərbaycan xalqı möhtəşəm “Kitabi-Dədə Qorqud” eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır*” [12, s. 177].

Ulu öndər milli-mədəni irslə yanaşı, mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılması məqsədilə də əhəmiyyətli işlər görmüşdür. Məsələn, dahi rəhbərin 14 avqust 2001-ci il tarixli bəyanatı da milli-mənəvi dəyərlərin qorunmasını prioritet hesab etməklə, gənc nəslin tərbiyəsinə mənfi təsir göstərən neqativ amillərin aradan qaldırılmasına xidmət etmişdir. Bu bəyanat, hər şeydən əvvəl, azərbaycançılıq ideologiyasına sadiq qalan xalqı öz tarixi köklərinə, əcdadlarının yaratdığı milli-mənəvi dəyərlərə daha sıx bağlı olmağa çağırır. Heydər Əliyev bəyanatda deyirdi: "*Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalq yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir*" [13, s. 349].

Ulu öndərimiz Heydər Əliyev xalqımızı öz tarixi köklərindən uzaqlaşmamağa, ata-babalarımızdan bizə yadigar qalan maddi və qeyri-maddi xəzinəyə, qiymətli sərvətə, irsə daha hörmətlə yanaşmağa çağırırdı.

Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsinə dair 14 avqust 2001-ci il tarixli bəyanatından sonra bir sıra əxlaqsızlıq və mənəviyyatsızlıq yayan, milli mentalitetə zidd və yad mövzularla xalqın mənəvi dəyərlərini pozmağa və təhqir etməyə cəhd göstərən mətbuat orqanlarının fəaliyyəti dayandırıldı. Xüsusilə gənc nəslin mənəviyyatını və tərbiyəsini pozmaqla məşğul olan mətbuatın fəaliyyətinə və yayılmasına ciddi şəkildə qadağalar qoyuldu. Bununla yanaşı, gənclərin tərbiyəsinə pis təsir göstərən və xalqın mənəvi dəyərlərinə zidd olan bir sıra gecə barlarının və əyləncə klublarının fəaliyyəti dayandırıldı. Heydər Əliyev bəyanatda bu kimi əxlaqsızlıq yuvalarının ölkədə fəaliyyətini pisləyərək, demişdir: "Bu əyləncələr Azərbaycan xalqının əxlaqına, mənəviyyatına zidd olan forma alır və beləliklə də bizim gənclərimizin bir hissəsinin əxlaqı pozulur. Bu, dəhşətli bir şeydir". Qeyd etmək lazımdır ki, bununla bağlı Heydər Əliyev bəyanatda bir milyondan çox qaçqının çadırlarda və ümumiyyətlə, yoxsulluq içində yaşadığı halda "eyş-işrətlə və pozğunlulqa" məşğul olan bəzi məmurları və sahibkarları da qınamışdır. Beləliklə Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsinə dair 14 avqust 2001-ci il tarixli bəyanatından sonra Azərbaycanın milli-mənəvi dəyərlərinə, milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin qarşısının alınması üçün qanun çərçivəsində lazımi ölçülərin götürülməsinə başlandı.

Yeni, müstəqil, çağdaş Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəri olmaqla, xalqımızın, millətimizin, dövlətçiliyimizin XX əsrdəki ən böyük milli sərvətidir. Bu gün Azərbaycanın idarəçiliyi etibarlı əllərdədir, ölkəmizin müstəqilliyi onun əbədiliyini, sarsılmazlığını, dönməzliyini təmin edən, xalqın rifahını getdikcə daha da yaxşılaşdıran güclü hakimiyyət komandasındadır. Azərbaycan xalqı müstəqilliyimizin memarı və qurucusu Heydər Əliyevin dövlətçilik xəttini çox böyük müvəffəqiyyətlə irəli aparan İlham Əliyevin rəhbərliyi altında, Ulu öndərin milli dövlətçilik ideyalarını əsas tutaraq müstəqillik yolu ilə inamla davamlı şəkildə və dayanmadan irəliləyir.

Ümummilli liderimizin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı bir lider olduğu aydın görünür. Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sonsuz sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi kimi lider üçün mühüm xüsusiyyətlər xalqın İlham Əliyevə olan rəğbət hissini daha da artırmışdır.

Hər bir məsələdə Ulu öndərin ideyalarına əsaslanan Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin və mənəvi dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti çağdaş dövrün bir sıra reallıqları ilə şərtlənir. Cənab İlham Əliyevin milli ideologiya və milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Prezidentin bu sahədəki xidmətləri xalqın milli dəyərlərinə – mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək qayğı, diqqət nümunəsi kimi dəyərləndirilməlidir. Dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycanın seçdiyi yolun yeganə düzgün yol olduğunu vurğulayaraq demişdir: "*Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir. 1993-2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilib. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir*" [14].

Milli-mənəvi dəyərlərə, onların inkişafına böyük önəm verən cənab İlham Əliyev Azərbaycan xalqının həmişə bu dəyərlərə sadiq olduğunu bildirmişdir. Qeyd etmişdir ki, "*bu dəyərlər bizi bir xalq kimi qoruyub saxlamışdır. Bu gün müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli-mənəvi dəyərlər üzərində qurulmuşdur... Milli-mənəvi dəyərlər bizim üçün əsas məsələdir. Əlbəttə, elə etməliyik ki, bu dəyərlər gələcəkdə də Azərbaycanda daim üstünlük təşkil etsin. Gənclərimiz, uşaqlarımız, gənc nəsil bu dəyərlər üzərində tərbiyə alsınlar, milli ruhda böyüsünlər, daim Vətən haqqında düşünsünlər və Vətənin inkişafı üçün əllərindən gələni əsirgəməsinlər. Xüsusilə, indiki zamanda, qloballaşma dövründə bunun daha da əhəmiyyəti vardır. Çünki qloballaşmanın müsbət tərəfləri haqqında kifayət qədər geniş danışılır. Ancaq qloballaşmanın mənfi tərəfləri də vardır. Özümüzü bu mənfi təsirdən qorumaq və gələcəkdə, uzun illər bundan sonra da Azərbaycanı inkişaf yolu ilə irəliyə aparmaq üçün mütləq milli dəyərlər üstünlük təşkil etməlidir*" [15].

Ölkə vətəndaşlarının böyük əksəriyyəti Ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin mükəmməl, alternativi olmayan daxili və xarici siyasətinin və ideyalarının cənab Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən etibarən müvəffəqiyyətlə davam etdirilməsindən hədsiz qürur duyur. Bu uğurlu fəaliyyət ölkənin beynəlxalq aləmdəki imicini daha da möhkəmləndirir, Azərbaycanın etibarlı tərəfdaş olduğunu bir daha sübut edir. Dövlətimizin

başçısı İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan vətəndaşları cənab Prezidentin ətrafında getdikcə daha sıx birləşirlər. Məhz bu uğurlu fəaliyyət sayəsində ölkədə dayanıqlı inkişafı, möhkəm ictimai-siyasi sabitliyi, vətəndaş cəmiyyəti quruculuğunu təmin etmək mümkün olmuş, hüquqi, demokratik dövlət qurulmuş, Azərbaycan xalqının rifah halının yüksəlməsinə nail olunmuşdur.

Heydər Əliyev siyasətinə sədaqət nəticəsində müstəqil Azərbaycan bu gün yeni inkişaf və tərəqqi dövrünü yaşayır, Heydər Əliyev ideyaları yaşayır, qalib gəlir. Müstəqil Azərbaycan dövləti möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi altında sürətlə beynəlxalq birliyə inteqrasiya olunmaqdadır. Hər bir uğurumuz, nailiyyətimiz Ulu öndər Heydər Əliyevin adı ilə, onun daxili və xarici siyasətini böyük müvəffəqiyyətlə davam etdirən möhtərəm Prezidentimizlə bağlıdır. Azərbaycanın dünəni, bu günü və gələcəyi kimi dəyərləndirilən Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasəti, Heydər Əliyev məktəbi möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizə qarşıdakı illər üçün daha möhtəşəm uğurlar vəd edir.

**Ədəbiyyat**


1. Hüseynova İ. Cəmiyyəti milli ideya ətrafına birləşdirən lider. «Dirçəliş XXI əsr».–2009.-№139-140.–s.106-114.
2. Abdullayev Ə., Nəsirov E. Heydər Əliyev fenomeni və Azərbaycanın milli intibahı. “Xalq qəzeti”.-2011.-11 may.-N 100.-s.6.
3. Budaqova S. Mütərəqqi təhsil strategiyasının banisi. “Şərq”.-2009.-12 dekabr.-N.230.-S.7
4. Hüseynova İ. Hər bir xalqı yaşadan onun mənəvi dəyərləri, milli hissə bağlılığıdır. “İki sahil” qəzeti, 9 may 2012
5. Hüseynova İ. Tarix. Zaman. Düşüncələr. IV cild. Bakı: Elm və təhsil, 2020, 544 s.
6. “Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
7. https://president.az/az/articles/view/7119
8. Qurbanlı M. Müstəqil Azərbaycan dövlətinin təməl prinsipləri və müasirlik. “Azərbaycan” qəzeti.-2011.-8 may.-N 99.-s. 8
9. Heydər Əliyev və milli dövlətçilik təlimi – azərbaycançılıq. “Xalq qəzeti“.-2010.-9 may.-N 100.-s. 3-4
10. Heydər Əliyevin milli vətənpərvərlik elmi konsepsiyası. “Yeni Azərbaycan”.-2013.-30 mart.-N 54, s. 5
11. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. “Azərbaycan“.- 2010.- 27 aprel.-N 89- S.4.
12. Hüseynova İ. Heydər Əliyev və dövlətçilik tariximizin şanlı səhifələri. «Tarix, insan və cəmiyyət». Elmi-metodik jurnal, №1-2 2009, səh. 5-12.
13. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Mart, 2000 - aprel, 2000. K.:26.- B.: Azərnəşr, 2008.- 512 s.

14. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.- İyun, 2001 - avqust, 2001 K.: 35.-Bakı: Azərnəşr , 2011.- 519 s.
15. İlham Əliyev Ulu öndər Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təntənəli mərasimdə iştirak etmişdir.
16. /https://president.az/az/articles/view/2140
17. Ulu öndər Heydər Əliyev ideyaları işığında "Respublika".-2013.-23 aprel.-N 85.-s.5.

# HEYDƏR ƏLİYEVİN NƏZƏRİ-TƏCRÜBİ KONSEPSİYASI VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞU

**Sona Qələndərli**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

*Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəni müharibə şəraitindən çıxarmaq, vətəndaşların rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlərdir.*

***Heydər Əliyev***

Ölkəmizin ərazisində dövlətçilik ənənələrinin tarixi 5 min il əvvəllərə gedib çıxır. Belə ki, Azərbaycan torpaqlarında ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Bu qədim Azərbaycan dövlətləri regionun güclü dövlətlərindən olmaqla, hərbi-siyasi tarixində mühüm rol oynayırdılar...

Ötən əsrin axırlarında Azərbaycan müstəqillik əldə etməklə beynəlxalq birliyin tam hüquqlu üzvünə çevrildi. Əslində, ölkəmizin istiqaliyyət qazanması XX yüzilliyin əvvəllərində qurulmuş dövlətçiliyin - Azərbaycan Xalq Cümhuriyyətinin bərpası anlamına gəlirdi. Dövlətçiliyimizin yaranması və inkişafında, xalqımızın tarixi taleyində böyük rol oynamış Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamenti çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdi. Həmin dövrün mürəkkəb beynəlxalq siyasi şəraiti, müstəqil dövlətimizə xarici təzyiqlərin artması nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, xalqın təfəkküründə azadlıq, demokratiya və müstəqil dövlətçilik ideyaları dərin kök salmışdır [20, s.146].

Azərbaycan Respublikası müstəqillik yolları ilə sürətlə qloballaşan dünyada beynəlxalq birliyə inteqrasiya olunmaqda, sivil, demokratik, hüquqi dövlət quruculuğu, azad bazar iqtisadiyyatı sahəsində uğurlar əldə etməkdə, insan hüquq və azadlıqlarının bərqərar olmasına əsaslanan vətəndaş cəmiyyəti formalaşdırmaqdadır. Azərbaycan XXI əsrə Şərq və Qərb sivilizasiyalarının sintezindən

yaranmış çağdaş və qədim mədəniyyətə sahib olan xalq, Asiya və Avropa arasında, mühüm geosiyasi, strateji əhəmiyyətli coğrafi məkanda yerləşən ölkə, hüquqi-demokratik, dünyəvi prinsipləri özündə bərqərar etmiş bağımsız dövlət olaraq daxil olmuş, artıq intensiv inkişaf yoluna çıxmış və beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Qeyd etmək istərdik ki, hər hansı dövlətin çoxşaxəli tərəqqisi, əsasən, milli lider faktoru ilə şərtlənir. Xalqına, millətinə rəhbərlik etmək, ölkəsini yalnız irəli aparmaq, yəni lider funksiyasını həyata keçirmək heç də hər bir dövlət başçısına nəsib olmur. Liderlik funksiyasını öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı, fəallığı, təşəbbüskarlığı, yaradıcılığı və enerjisi ilə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətlərə malik olan, xalqın dərin məhəbbətinə və rəgbətinə nail olan dahi insanlar yerinə yetirirlər. Siyasi lider siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən, siyasi təşkilatları və hərəkatları öz ardınca aparan şəxs deyil. O, hər şeydən əvvəl, hadisələrin gedişini dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan şəxsiyyətdir. Görkəmli şəxsiyyətlər özləri situasiya yaradır və onu lazımi istiqamətə yönəltməklə qarşıya qoyduqları məqsədləri reallaşdırmağa nail olurlar.

Ümumiyyətlə, hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxaspektli fəaliyyətində təsəccümünü tapmışdır. XX yüzillikdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, ulu öndər Heydər Əliyevdir.

1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələrək ölkəni dünyanın siyasi xəritəsindən silinməkdən, bir dövlət olaraq parçalanmaqdan xilas etdi. Dövlətimizin demək olar ki, bütün sahələrində əsaslı islahatlara qədəm qoyuldu və sürətli inkişafın əhəmiyyətli faktorlarından biri - daxili ictimai-siyasi sabitlik bərqərar oldu.

Bağımsız, çağdaş Azərbaycan dövlətini yaratmaq xilaskar kimi ulu öndər Heydər Əliyevə müyəssər oldu. Ona görə də biz ulu öndəri tam haqlı olaraq çağdaş Azərbaycanın memarı hesab edirik. Onun 1993-cü ildə hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamında vurğulandığı kimi, "Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin Əsas Qanunu - Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir" [5].

Ulu öndərin vurğuladığı kimi, "1993-cü ilin may-iyun aylarında Azərbaycanda dövlət böhranı baş verdi. Bu böhran respublikanı vətəndaş müharibəsinə gətirib çıxardı. Vətəndaş müharibəsi ölkəmiz üçün çox böyük təhlükəli şərait yaratdı. O, nəinki xalqımıza zərərlər, zərbələr

vuracaqdı, eyni zamanda, respublikamızın parçalanması, dağıdılması prosesi mövcud idi. Bunların qarşısı alındı. Həyata keçirilən tədbirlər respublikada əmələ gəlmiş dövlət böhranını və qarşıdurmanı aradan götürdü, müəyyən sabitlik yarandı. Lakin təəssüf ki, belə faciəli vəziyyətə gəlib çıxmış respublikamızda bu vəziyyəti yaradan qüvvələr öz əməllərindən əl çəkmədilər. Respublikamızda ictimai-siyasi sabitlik təmin edilərək dövlət quruculuğu, ordu quruculuğu prosesi aparıldığı, müstəqilliyimizin möhkəmləndirildiyi, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun qaldırılması sahəsində lazımi tədbirlər görüldü" [6, s. 24].

Əbədi rəhbərimiz Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Ümummilli liderin parlamentə sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə açıqlandı. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlandı. 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. O, strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir" [2, s. 30].

Qeyd etməyi özümüzə şərəf bilirik ki, yeni, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəri olmaqla, xalqımızın, millətimizin, dövlətçiliyimizin XX əsrdəki ən böyük milli sərvətidir. Müstəqil Azərbaycan yeni əsrə, yeni minilliyə milli dövlətçiliyimizin əvəzsiz lideri Heydər Əliyev ideyaları ilə, müstəqil, azad, demokratik, sivil, dünyəvi dövlət olaraq, Şərq və Qərb sivilizasiyalarını özündə harmonik şəkildə əks etdirən çağdaş mədəniyyətə sahib olan xalq kimi, Asiya ilə Avropanı bir-birinə qovuşduran çox əhəmiyyətli geosiyasi və geostrateji coğrafi məkanda yerləşən ölkə kimi daxil oldu. Bu gün Azərbaycanın səsi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından gəlir, Azərbaycanın müstəqilliyi dünya tərəfindən tanınır və geniş müdafiə olunur, dünyanın hər yerində Azərbaycan himni səslənir, üçrəngli bayrağımız yüksəklikdə dalğalanır, dövlət gerbimiz Azərbaycan dövlətçiliyini nümayiş etdirir [7, s. 206 ].

Ölkəmizin öz istiqlaliyyətini qazandıqdan sonrakı dövrdə qarşıda duran ən prioritet hədəflərindən biri respublikada hüquqi, demokratik, dünyəvi və sivilizasiyalı dövlət quruculuğu prosesinin gerçəkləşdirilməsinə nail olmaq idi. Müstəqil Azərbaycan Respublikasının Əsas Qanununun qəbul edilməsi, onun əsasında yeni parlamentin təşkili üçün demokratik seçkilərin keçirilməsi dövlət quruculuğu sahəsində strateji proqramın ilk mərhələsinə çevrildi. Bütün bunlar Azərbaycanın bağımsız dövlət olaraq yaşaması və möhkəmlənməsi məqsədinə tamamilə uyğun idi. Əbədi rəhbər Heydər Əliyev bir tərəfdən Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qarşı çıxan qəsdlərin, təxribatların qarşısını məharətlə aldı, digər tərəfdən isə dövlət quruculuğunu möhkəmlətmək və inkişaf etdirmək işinə rəhbərlik edərək, bu sahədə qarşıya çıxan problemlərin tənzimlənməsi istiqamətində misilsiz fədakarlıq və bacarıq göstərdi [8. s. 191].

Ulu öndər Heydər Əliyevin xalqın israrlı xahişi ilə 1993-cü ildə hakimiyyətə qayıdışından sonra respublikamızda ictimai-siyasi sabitliyin tam bərqərar olması, vətəndaşların təhlükəsizliyinin təmin olunması və qanunçuluğun gücləndirilməsi, sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl addımların atılması insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində də əsaslı irəliləyişlərə zəmin yaratdı. Ümummilli lider Heydər Əliyev ölkədə demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun əsasını qoydu və apardığı islahatlarla dövlətçiliyimizi getdikcə daha da inkişaf etdirməyə başladı. Böyük rəhbərimiz ölkə prezidenti seçildikdən cəmi bir il sonra – 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışında insan hüquqları və azadlıqlarının qorunmasının onun üçün prioritet əhəmiyyət kəsb etdiyini nəzərdə tutaraq söyləmişdir: "Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə Konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir" [9].

Ümummilli liderimiz hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu kimi mühüm məsələni daim diqqət mərkəzində saxlayaraq, bu istiqamətdə mühüm islahatların həyata keçirilməsini təmin etmişdir. Heydər Əliyev böyük siyasət ustadı olaraq hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ulu öndərimizin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyətlər bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının qorunmasının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Əsas Qanunu - Konstitusiyası kimi tarixilik qazanmışdır [10, s. 141].

Heydər Əliyev 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbul edilməsini ölkəmizdə dövlət quruculuğunun yeni mərhələsinin başlanması kimi qiymətləndirirdi. O, Konstitusiyanın qəbul edilməsindən sonra respublikada dövlət quruculuğu sahəsində görülən işləri yekunlaşdıraraq demişdir: "1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür" [11].

Məlum olduğu kimi, sənədin təsbit etdiyi maddələrin üçdə bir hissəsi məhz insan hüquqlarının  və azadlıqlarının qorunması məsələlərini ehtiva edir. Müəllifi Heydər Əliyev olan, dünyanın ən dolğun və demokratik konstitusiyalarından sayılan Əsas Qanun ulu öndərin xalqımız

üçün qoyduğu çox dəyərli, qiymətli bir irsdir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu maddənin II hissəsində göstərilir ki, burada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tərtib edilir. Bu, dövlətimizdə insan hüquqları məsələsinə daha böyük önəm verildiyini təsdiqləyir. Konstitusiyasının 24-cü maddəsi "İnsan və vətəndaşın hüquq və azadlıqlarının əsas prinsipi" adlanaraq beynəlxalq hüququn tələblərinə tam uyğun olaraq insan hüquqlarının aliliyini milli qanunvericiliyimizdə əks etdirir. Bərabərlik prinsipi, insan hüquq və azadlıqlarının qorunması, yaşamaq hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, sağlamlığın qorunması hüququ, şərəf və ləyaqətin qorunması hüququ konstitusiyamızın III fəslində təsbit olunmuşdur [12].

Konstitusiyanın qəbulundan sonrakı dövrdə müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz, mətbuat və sərbəst toplaşmaq azadlıqları bərqərar olmuş, dövlət idarəçilik sistemi tamamilə yenidən qurulmuş, məhkəmə-hüquq islahatları uğurla davam etdirilmişdir. Ölkənin idarəetmə sistemində siyasi mədəniyyət elementləri güclənmiş, icra hakimiyyəti orqanlarının işinin dinamikliyi artmış, yerli özünüidarə orqanları formalaşmışdır. Eyni zamanda, ulu öndərin respublikaya rəhbərliyi illərində ölüm cəzasının, mətbuat üzərində siyasi senzuranın ləğvi, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, respublikada üçpilləli məhkəmə sisteminin formalaşdırılması, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə Müvəkkil İnstitutunun yaradılması demokratik inkişaf yolunda əldə etdiyimiz mühüm nailiyyətlərdəndir [13, s. 326-327].

Hesab edirik ki, hüquq və azadlıqların inkişafı istiqamətində qanunun aliliyinin təmin olunması sahəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi çox əhəmiyyətli bir institutdur və bu işdə mühüm rola malikdir. Azərbaycanda Konstitusiya Məhkəməsinin təsis edilməsi və fəaliyyətə başlaması həmçinin ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü sayəsində reallaşmışdır. 1997-ci ildə Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında" Qanun qəbul edilmiş və 1998-ci il iyulun 14-də həmin təsisat fəaliyyətə başlamışdır. Konstitusiyanın aliliyinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə çox geniş səlahiyyətlər verilmiş və bu orqan hüquqi dövlətin və demokratiyanın inkişafında mühüm təsisat olmuşdur. Konstitusiya Məhkəməsi milli dövlətçiliyimizin inkişafında, vətəndaş cəmiyyətinin yaranmasında, insan hüquq və azadlıqlarının qorunmasında, cəmiyyətdə məhkəmə sisteminə göstərilən etimadın artırılmasında, həmçinin qanunların implementasiyası və demokratik hüquq mədəniyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, insan hüquqlarının müdafiə edilməsinə daim böyük önəm verən və bu mühüm məsələləri həmişə diqqətdə saxlayan ulu öndər 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamışdır. Sənəddə respublikamızda ictimai-siyasi sabitliyin bərqərar edilməsi, aparılan genişmiqyaslı islahatlar nəticəsində insan hüquqlarının müdafiəsi sisteminin yaradılmasının vacibliyi öz əksini tapmış, bu sahədə inkişafın istiqamətləri müəyyən edilmişdir. Bu fərmanın məntiqi davamı olaraq

ulu öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli sərəncamı ilə Azərbaycanın ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir.

Qeyd etdiyimiz kimi, dövlət quruluşunda hakimiyyətlər bölgüsü prinsipinə ciddi əməl edilməsinə dair müddəaların əksi ölkəmizdə demokratik siyasi sistemin qurulması istiqamətində böyük önəm daşımışdır. Konstitusiya maddələrinə müvafiq olaraq dövlət idarəetmə sistemində icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyətinin təmin edilməsi, eləcə də müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün şərait yaradılması demokratik inkişafın daha sürətli mərhələsinin başlanmasından xəbər verirdi. Siyasi plüralizmin, fikir və vicdan azadlığının təmin edilməsi, tolerantlıq mühitinin formalaşması, insan hüquqlarının təmin edilməsi və qorunması isə Azərbaycanı daha böyük sürətlə Avratlantik məkana yaxınlaşdırırdı. Ümummilli lider həmin dövrdə qəbul edilmiş qanunların əhəmiyyəti barədə danışarkən demişdir: "Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur" [14].

Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən başlıca meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa məxsus olmasıdır. Öz fəaliyyətində hüquq prinsiplərini rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən sistem hüquqi ola bilməz. Bu mənada, Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqın və əsas məqsəd kimi onun maraqlarının təmin edilməsinin qəbul olunması hüquqi dövlətin mövcudluğunu şərtləndirir. Respublikamızda dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Konstitusiyanın 151-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı, həm də ölkədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına yetərincə münasib şərait yaratmışdır. Əsas Qanunumuzda əksini tapmış insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir [15, s. 86-99].

Azərbaycanın hüquqi dövlət və humanizm ideallarına sadiqliyini sübut edən digər bir məqam ondan ibarətdir ki, ölkəmiz hələ Avropa Şurasına üzvlüyə qədər ölüm hökmünü tamamilə ləğv etmişdir. Təşkilatın 1983-cü ildə qəbul etdiyi İnsan Hüquqlarına dair Konvensiyanın 6 saylı Protokolunda da ölüm hökmünün yolverilməzliyi birmənalı əksini tapmışdır. 1996-cı ilin mayında Milli Məclis Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü dəstəkləyərək yaşı 65-dən yuxarı olanların ölüm cəzasından azad olunması ilə bağlı qərar qəbul etmiş, eyni zamanda ölüm

cəzasının tətbiqini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirilmişdir. Ulu öndər insanları bağışlamaqla dövlətin, onun rəhbərinin vətəndaşlara humanist münasibətini daim önə çəkmişdir. 1996-2003-cü illərdə 32 əfv fərmanının, 8 amnistiya aktının imzalanması da deyilənləri bir daha təsdiqləyir. Bəzi iddiaların əksi olaraq ölüm cəzasının ləğvi, amnistiya və əfv fərmanlarının imzalanması ciddi tərbiyəvi məzmun kəsb edərək, ağır və xüsusilə ağır cinayətlərin sayının azalmasına gətirib çıxarmışdır. 1993-ci ildən ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 1998-ci ilin 10 fevralında ölüm cəzasının tamamilə ləğvi isə ulu öndərin daxilən yüksək humanizm, insanpərvərlik kimi keyfiyyətlərə malik olduğunu bir daha təsdiqləyir [16]. Şərq aləmində, islam dünyasında ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv edilməsi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir.

Ulu öndərin dövlətçilik konsepsiyasının uğurlu istiqamətlərindən birini də ölkəmizin 2001-ci il yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması təşkil edir. Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə davamlı şəkildə riayət edilməsi özünün layiqli qiymətini almışdır. Ulu öndər özü bu barədə demişdir: “Bu gün Azərbaycanın demokratik inkişaf prosesi dönməz xarakter alıbdır, azadlığın və qanunun aliliyinin möhkəm təminatı yaradılıbdır. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabər hüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır” [17].

Avropa Şurasına daxil olma ərəfəsində ulu öndər Heydər Əliyev xalqa müraciət edərkən demişdir: “XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir” [21, s. 2].

Yuxarıda vurğuladığımız kimi, 1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinə gəlməsi ilə Avropa dəyərləri, normaları və standartları istiqamətində əhəmiyyətli addımların atılmasına başlanıldı. Heydər Əliyevin rəhbərliyi ilə ölkədə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun formalaşdırılması, həmçinin vətəndaş cəmiyyətinin yaradılması məsələləri prioritet hesab edildi. Ulu öndər tərəfindən Azərbaycanda demokratik dəyərlərin bərqərar və inkişaf etdirilməsi, insan hüquqlarının və əsas azadlıqlarının təmin olunması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması, digər dövlətlərlə formalaşmış bərabərhüquqlu və faydalı münasibətlərin sərhədlərinin genişlənməsi, balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsi sayəsində və Avropaya inteqrasiya istiqamətində aparılan məqsədyönlü və uzaqgörən siyasət

nəticəsində ölkənin Avropa Şurasına tamhüquqlu üzv qəbul olması üçün möhkəm fundament yaradıldı.

Azərbaycan Respublikası Prezidentinin 13 iyul 1996-cı ildə Avropa Şurasının Baş katibinə ünvanladığı məktubda ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv daxil olmaq və başqa üzv dövlətlər kimi İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğu bildirilmişdir.

Ümummilli lider Azərbaycanın bu mühüm təşkilata tamhüquqlu üzv kimi daxil olması üçün bütün zəruri məsələləri qısa müddətə həll etdi. Məsələn, 1996-cı il iyulun 8-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında" sərəncam imzalandı. 1998-ci il yanvarın 20-də "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında," 1999-cu ilin may ayının 14-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi" və "Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" sərəncamlar imzalandı. Bu sərəncamlarda Avropa ölkələrində qəbul edilən standartlara uyğunluq baxımından ölkənin cinayət, cinayət-prosessual, mülki və mülki-prosessual məcəllələrinin hazırlanmasının sürətləndirilməsi, Azərbaycanın Avropa Şurasının bir sıra konvensiya və sazişlərinə qoşulması məsələsinin öyrənilməsi tövsiyə edildi.

2000-ci ilin mart ayında Avropa Şurasının 8 konvensiyasına qoşulmaqla bağlı imzalanmış müqavilələri ratifikasiya edən Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın Avropa Şurasına qəbuluna dair müzakirələri daha da sürətləndirdi. 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi barədə qərar qəbul edildi. Azərbaycan Respublikası qurumun 42-ci üzvü oldu.

Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul edildikdən sonra ölkədə hüquqi, demokratik dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması prosesləri daha da sürətləndi. Qeyd etmək lazımdır ki, əslində bu proseslərə xeyli əvvəl start verilmiş - 1993-cü ildə Heydər Əliyevin xalqın təkidi ilə siyasi rəhbərliyə qayıtmasından sonra respublikada bütün sahələrdə islahatlara başlanılmış, demokratiyanın bərqərar olması, fikir plüralizminin yaradılması və s. istiqamətlərdə ciddi işlərə təkan verilmişdi.

Azərbaycanın ratifikasiya etdiyi ilk sənədlərdən biri İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (Avropa İnsan Hüquqları Konvensiyası) və onun 1, 4, 6 və 7 saylı Protokolları idi. 25 dekabr 2001-ci ildə Azərbaycan parlamenti tərəfindən ratifikasiya edilən sənəd insanların hüquq və azadlıqlarının təmin olunması məsələlərini əhatə edir. Məlum olduğu kimi, həmin dövrdə Azərbaycan ərazisinin 20%-i Ermənistan hərbi birləşmələrinin işğalı altında olduğundan Azərbaycan Konvensiya və Protokollara müvafiq bəyanat və qeyd-şərtlərlə qoşulmuşdu. Bəyanatda göstərilirdi ki, "Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə

yetirilməsinə işğal olunmuş ərazilər azad edilənə qədər təminat vermək iqtidarında deyildir”. Məhz bu sənədə qoşulduqdan sonra Azərbaycan vətəndaşlarının İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmək hüququ yaranmışdır.

Bundan başqa, Azərbaycan Respublikası Avropa Şurasının üzvü kimi İşgəncə və qeyri-insani və ya alçaldıcı rəftar və cəzalandırmanın qarşısının alınması haqqında Avropa Konvensiyası və onun protokollarını, Yerli özünüidarə haqqında Avropa Xartiyasını, Ərazi birlikləri və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası və onun əlavə protokollarını, Ekstradisiya haqqında Avropa Konvensiyasını, Cinayət məsələlərində qarşılıqlı yardım haqqında Avropa Konvensiyasını, Cinayətkar yollarla əldə olunmuş gəlirlərin leqallaşdırılması, axtarışı, həbsi və müsadirəsi haqqında Avropa Konvensiyasını, Avropa Sosial Xartiyasını, Korrupsiya haqqında cinayət hüququ Konvensiyasını, Korrupsiya haqqında mülki hüquq Konvensiyasını və s. kimi çox mühüm əhəmiyyət kəsb edən beynəlxalq konvensiya və sazişləri ratifikasiya etmişdir.

Azərbaycanda ilk dəfə yeni bir institut olan Ombudsmanın (insan hüquqları üzrə müvəkkil) yaradılması da məhz ümummilli liderimizin misilsiz xidmətləri sırasındadır. Ulu öndər Ombudsman təsisatını yaratmaqla, ölkədə insan hüquqlarının qorunmasına nə qədər böyük əhəmiyyət verdiyini sübut etmişdir. Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində hüquqi islahatların həyata keçirilməsində İnsan Hüquqları üzrə Müvəkkil institutunun təsis edilməsinin olduqca mühüm əhəmiyyəti olmuşdur. Belə ki, Milli Məclis tərəfindən 2001-ci il dekabrın 28-də “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili – Ombudsman haqqında” Konstitusiya qanunu qəbul edilmişdir. 2002-ci il iyulun 2-də ulu öndərin təqdimatı ilə Milli Məclis tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili seçilmişdir. Bu təsisatın yaradılması insan hüquqlarına riayət olunmasında parlament nəzarətinin təşkilini möhkəmləndirmiş, parlamentlə vətəndaşlar arasında vasitəçi rolu oynamış və vətəndaşların demokratik sistemin formalaşmasında fəallığını artırmışdır.

2001-ci il noyabrın 10-da ulu öndər Heydər Əliyev Dünya Azərbaycanlılarının birinci qurultayının iştirakçılarının şərəfinə Azərbaycan Respublikasının Prezidenti adından təşkil edilən rəsmi qəbulda demişdir: “Gərək biz hamımız birlikdə çalışaq ki, müstəqil Azərbaycan dövləti, onun daxili siyasəti, Azərbaycanda gedən demokratik proseslər, Azərbaycanda gedən iqtisadi islahatlar, Azərbaycanda həyata keçirilən hüquq islahatları, insan hüquqlarının təmin olunması, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin yaranması və inkişaf etməsi bütün dünyaya çatsın və tanınsın” [18, s. 443].

Ümummilli lider Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasətinin, strateji və siyasi xəttinin görkəmli şəxsiyyət, dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dinamik inkişaf edən ölkəyə çevrilmiş, beynəlxalq aləmdə etibarlı tərəfdaş imici qazanmışdır. Ulu öndər Heydər Əliyev strategiyasının ardıcıl şəkildə davam etdirildiyi Azərbaycan Respublikası hazırda sürətlə, davamlı şəkildə bütün sahələr üzrə inkişaf etməkdədir. Bunun yeganə səbəbi məhz Prezident İlham Əliyev tərəfindən ulu öndərin müdrik siyasətinin uğurla davam etdirilməsində, Heydər Əliyev ideyalarına sadiqlikdə və xalqın da bu siyasəti dəstəkləməsindədir. İqtisadi, sosial, mədəni və həyatımızın digər vacib sferalarında

həmçinin müşahidə olunan tərəqqi, vətəndaş həmrəyliyi, sosial rifah ölkə vətəndaşlarının istək və arzularına uyğun şəkildə təmin olunur. Bu baxımdan, Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik, tolerant mühit, multikulturalist cəmiyyət bir daha sübut edir ki, ölkəmiz düzgün yoldadır. Dövlətimizin başçısı Azərbaycanın seçdiyi yolun yeganə düzgün yol olduğunu vurğulayaraq demişdir: “Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir. 1993-2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir” [19].

“Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız ümummilli lider Heydər Əliyevin siyasi varisi – yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir” [22].

**Açar sözlər:** müdrik siyasət, Heydər Əliyev strategiyası, ulu öndər, ictimai-siyasi sabitlik, İnsan Hüquqları Konvensiyası.

## Ədəbiyyat


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
2. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
3. Əliyev İlham. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, 328 s.
4. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 416 s.
5. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/7119
6. Əliyev Heydər Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K.: 4. Bakı: Azərnəşr, 1998, 511 s.
7. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, 504 s.
8. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.

9. İnsan hüquqlarının müdafiəsi... https://yeniazerbaycan.az/MEDIA_e75296_az.html
10. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr: Çoxcildli əsər, III c. Bakı: Elm və təhsil, 2020, 432 s.
11. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Azərbaycan" qəz., Bakı, 2000, 30 dekabr.
12. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 96 s.
13. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr: Çoxcildli əsər, IV c. Bakı: Elm və təhsil, 2020, 544 s.
14. Cəfərov Z. Beynəlxalq hüquq məkanına uğurlu inteqrasiyanın banisi. "Azərbaycan" qəz., Bakı, 2010, 7 may.
15. Hüseynova İ. Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu // "Dirçəliş - XXI əsr", Bakı, 2009, №133-134, s. 86-99.
16. Elmanoğlu S. Azərbaycanı Avropa Şurasına qovuşduran tarixi qərar. "Azərbaycan" qəz., Bakı, 2009, 10 fevral.
17. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxışı - 25 yanvar 2001-ci il, Strasburq. https://lib.aliyevheritage.org/az/3817043.html
18. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. XXXVI c. Bakı: Azərnəşr, 2011, 512 s
19. İlham Əliyev Ulu öndər Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təntənəli mərasimdə iştirak etmişdir / https://president.az/az/articles/view/2140
20. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. Çoxcildli əsər, I cild. Bakı: Elm və təhsil, 2016, 512 s.
21. Səmədzadə Z. Azərbaycan iqtisadiyyatı 100 ildə. I cild. Bakı: İqtisadi Ensiklopediya Evi, 2021, 635 s.
22. Vəliyev A. Mükəmməl qanunvericilik sisteminin banisi. "Azərbaycan" qəzeti.- 2009.-24 aprel - №87.- S. 2.
23. Гусейнова И. Мультикултурализм и его практическая реализация на Кавказе // Geostrategiya, Bakı, 2013, № 06 (18), noyabr - dekabr, səh. 21-24.
24. Гусейнова И. Гейдар Алиев от политического руководителя к общенациональному лидеру. Баку: Тахсил, 2005, 512 с.

# ÜMUMMİLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA İNSAN KAPİTALININ FORMALAŞMASINDA ROLU

**Xanım Quliyeva, Rühəngiz Əliyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
khanim.guliyeva@au.edu.az, ruhangiz.aliyeva@au.edu.az

Bugün Azərbaycan dinamik iqtisadi inkişafa nail olmaqla, sabit siyasi mühit formalaşdırmaqla, beynəlxalq siyasi arenalarda öz sözünü deyə bilən, öz haqqlarını tələb edən müstəqil ölkədir. Artıq dünya birliyi Azərbaycan dövlətçiliyinin gücünü və onun aparıcı mövqeyə malik olduğunu görə bilir [2]. Bu nailliyyətlərin əldə olunmasında Azərbaycanının ümumimilli lideri Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Beləki, bir dövlətin lideri kimi Heydər Əliyev inkişaf kriteriyalarını və xalqın müqəddaratını dəqiqliklə qiymətləndirmiş, ölkənin tarixi-mədəni, iqtisadi və təbii resurslarını, mövcud potensialını Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına və dövlətçiliyin möhkəmlənməsinə yönəltmişdir [6].

90-cı illərin əvvəlllərində müstəqil Azərbaycana ümummilli liderin dönüşü xalqımız üçün çox ağır bir dövrə təsadüf edirdi. Belə ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdı və qarşısına qoyduğu məqsədlərə nail oldu. O, müstəqil Azərbaycanı xarici qüvvələrin təsiri ilə ölkənin dünya xəritəsindən silinmə təhlükəsi, vətəndə hər an baş tutacaq vətəndaş müharibəsi kimi məsələləri iti zəkası ilə həll edərək tərəqqiyə nail oldu [6]. Ölkədə qabarıq şəkildə üzə çıxan problemlər tədricən öz həllini tapdı, sabitlik, dayanıqlıq təmin olundu. Beləliklə, iqtisadi inkişafın sürətləndirilməsi, Azərbaycan həqiqətlərini beynəlxalq arenada səsləndirilməsi, ölkə ədəbiyyatı və incəsənəti, tarixi faktlarını bütün dünyata tanıdılması və s. istiqamətlərdə müəyyən proqram və proyektlərin işlənib hazırlanmasına dair göstərişlər verilmişdir [1].

Başqa sözlə desək, dayanıqlı iqtisadi inkişafa malik olmaq və Azərbaycanı bütün dünyada güclü bir dövlət kimi tanıtmaq qarşıda duran prioritet vəzifələrdən idi. Bu siyasətin davamlı olması insan kapitalının inkişafı üçün mühüm islahatların təməlini qoymuşdur. İnsan kapitalı geniş mənada insanlarda mövcud olan və onların fəaliyyətinin effektiv şəkildə məhsuldar olmasına yönələn bilik, bacarıq və digər şəxsi xüsusiyyətlərin məcmusu kimi təyin edilir [7]. Təbii ki, ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda elm və təhsilin inkişafı birbaşa olaraq ulu öndərin adı ilə bağlı olmuşdur. Məsələn, 1969-cu ildə respublikadan kənara 244 ixtisas üzrə 47 tələbə göndərildiyi halda, 1980-cı ildə bu rəqəm 1400 nəfərə çatmışdır [4]. Həmin illərlə müqayisədə 90-cı illərdə Azərbaycan artıq müstəqil, sərbəst bir ölkə idi və xalqın səs birliyinə əsaslan dövlət başçısına malik idi. Ona görə də müstəqil bir ölkə olaraq, 1969-cu ildə aparılan siyasətin davamı kimi insan kapitalının inkişafı, bununla da əmək bazarınının formalaşması Heydər Əliyev siyasətinin ən öndə duran məsələlərindən biri idi.

Heydər Əliyev siyasətinin uzaqgörənliyi bu mənada ondan ibarət idi ki, o, sürətli inkişaf tempinin insan kapitalından asılı olduğunu dəfələrlə öz çıxışlarında vurğulamış və bu istiqamətdə tədbirlər planının həyata keçirilməsinə ciddi nəzarət etmişdir. Beləki, birinci rəhbərliyi dövründə informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya kimi yeni ixtisaslar üzrə Azərbaycanda mütəxəssis hazırlığının olmadığını nəzərə alaraq 10 mindən artıq azərbaycanlı gənclərini dünyanın nüfuzlu universitetlərində təhsil almağa göndərmişdir [5].

Mütləq qeyd olunmalıdır ki, "insan kapitalı" yalnız təhsillə bağlı deyil. Yəni, idman, incəsənət və s. kimi sahələrdə fəaliyyət göstərən hər bir şəxs səmərəli insandır və insan kapitalının özüdür [7]. Bu mənada, səmərəli insanlar vaxtlarına qənaət edib onu faydalı yerə sərf edən, hər anın dəyərini bilən və bu zamandan daha çox yararlanmağa çalışanlardır. Məqsədəuyğun olaraq, Heydər Əliyev rəhbərlik etdiyi dönəmlərdə müntəzəm şəkildə elm və incəsənət xadimləri ilə görüşlər keçirtmiş [5], idman sahəsinə xüsusi qayğı göstərmişdir [3] ki, bu da birbaşa ölkədə insan kapitalının formalaşmasına xidmət etmişdir.

Strateji idarəetmə funksiyalarını tədbiq edərək Heydər Əliyev neft sektoruna xarici investorları cəlb etmiş, nəticədə Azərbaycana ən yeni texnologiyaları gətirərək vətəndaşların intellektual səviyyəsinin yüksəlişinə ciddi təkan vermişdir [1]. Hətta neft sektorundan gələn gəlir hesabına qeyri-neft sektorunun inkişafı üçün sütün hesab edilən insan kapitalının formalaşması uğrunda dörün tələblərinə uyğun islahatların aparılması da məhs, Ulu öndərin adı ilə bağlıdır.

Sonda, yuxarıda vurğulanan məqamlar nəzərə alınaraq qeyd olunmalıdır ki, bugün Heydər Əliyev ideyaları, nəhəng quruculuq işləri onun layiqli davamçısı prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və cənab İlham Əliyev ümummilli lider Heydər Əliyev siyasətinin bariz nümunəsidir.

**Açar sözlər:** Heydər Əliyev, insan kapitalı, iqtisadi inkişaf, idarəetmə, siyasi-iqtisadi islahat.

## Ədəbiyyat

1. ADİU, Monoqrafiya, Azərbaycanın İqtisadi İnkişafının Heydər Əliyev strategiyası, 328 səh., Bakı 2019.
2. Qaralov Z., Heydər Əliyevin Elmi İrsi (nəzəriyyə və təcrübə), I cild, 321 səh., Bakı, 2013.
3. "Elm Qəzeti"nin xüsusi buraxılışı, 287 səh., Bakı.
4. Mahmudov Y., Heydər Əliyev Azərbaycan Elminin Keşiyində, (sənədlər və materiallar), I cild, Bakı, 2013.
5. Mahmudov Y., Heydər Əliyev Azərbaycan Elminin Keşiyində, (sənədlər və materiallar), II cild, Bakı, 2013.
6. Niyazox X ., Fateh, Oskar NPM, 312səh., Bakı.
7. https://www.oecd-ilibrary.org/docserver/a1046e2e-en.pdf?expires=1680760308&id=id&accname=guest&checksum=9D9C709CED83ACB1F9C604F1B7D5D582

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN-QAZAXISTAN MÜNASİBƏTLƏRİ

**Növrəstə Quliyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: novrasta.guliyeva@au.edu.az

Azərbaycan müstəqillik əldə etdikdən sonra türk dövlətləri, o cümlədən Mərkəzi Asiyanın türk dövlətləri ilə ictimai-siyasi və mədəni əlaqələrə xüsusi əhəmiyyət verilir. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət hal-hazırda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən yüksələn xətlə inkişaf etməkdədir. Azərbaycanın müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyi türk dövlətlərindən biri də SSRİ-nin süqutundan sonra öz müstəqliyyini qazanmış Qazaxıstan Respublikasıdır.

Azərbaycan-Qazaxıstan münasibətləri dərin tarixi, mədəni və dini dəyərlərə malikdir. Hər iki ölkə tərəfindən müstəqillik qazandıqdan sonra ikitərəfli əməkdaşlığa xüsusi diqqət yetirilmiş, onlar arasında müxtəlif sahələrdə əlaqələr qurulmuşdur. 1992-ci ilin 30-dekabrında Azərbaycan Respublikası və Qazaxıstan Respubilkası arasında diplomatik əlaqələr yaranmış, daha sonra 1993-cü ilin yanvarında Qazaxıstanın ölkəmizdə, 2004-cü ilin martında Azərbaycanın Qazaxıstanda səfirliyi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının 2008-ci ilin sentyabrında Qazaxıstanın Aktau şəhərində baş konsulluğunun açılması hər iki ölkə arasında əlaqələrin inkişafında mühüm rol oynadı [1].

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avratlantik Tərəfdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKPA, TÜRKSOY kimi beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir [2].

2012-2013-cü illərdə Azərbaycan BMT Təhlükəsizlik Şurası üzvlüyü üçün, həmçinin 2017-2018-ci illərdə BMT Təhlükəsizlik Şurasına Qazaxıstanın qeyri-daimi üzvlüyü üçün dəstək verib. Bundan başqa hər iki dövlət İslam Əməkdaşlıq Təşkilatı və İqtisadı Əməkdaşlıq Təşkilatının üzvüdürlər və burada da fəal əməkdaşlıq edirlər. Hal-hazırda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qurucu üzvü kimi birgə fəaliyyət göstərirlər [6].

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əlaqələrin inkişafında 1994-cü il oktyabrın 19-da türk dövlətləri başçılarının İkinci Zirvə toplantısı mühüm rol oynadı. Zirvə toplantısında Türkiyə prezidenti Süleyman Dəmirəl, Azərbaycan Prezidenti Heydər Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Türkmənistan Prezidenti Saparmurad Niyazov və Qırğızıstan Prezidenti Əsgər Akayev bəyannamə imzaladılar. İstanbul bəyannaməsini imzalamaqla türkdilli dövlət başçıları iqtisadi əməkdaşlığı, mədəni əlaqələri daha da inkişaf etdirmək yolunda mühüm addım atdılar. Bu Prezident Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbəri kimi Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə ilk görüşü oldu [3].

1996-cı il mayın 14-də, EKO-nun dövlət başçılarının zirvə toplantısında dövlət başçıları yenidən görüşdülər və bu zaman Heydər Əliyev Nursultan Nazarbayevi Azərbaycana rəsmi səfərə dəvət edib. Qazaxıstan prezidentinin Azərbaycana rəsmi səfəri 1996-cı il sentyabrın 16-da oldu. Səfər çərçivəsində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair sazişlər imzalandı. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Münasibətlərin əsasları haqqında Müqavilə, İnvestisiyaların təşviqi və qorunması haqqında saziş, Neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, Hava əlaqəsi haqqında saziş, Xəzər dənizi məsələləri üzrə Birgə Bəyannamə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Milli Təhlukəsizlik Nazirliyi ilə Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarsılıqlı fəaliyyət haqqında saziş, Azərbaycan Respublikasının Milli Bankı ilə Qazaxıstan Respublikasının Milli Bankı arasında hesablasmaların təşkili haqqında saziş sonrakı dövrdə əlaqələrin inkişafında mühüm rol oynadı [4].

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası prezidentlərinin növbəti görüşü 1997-ci il iyunun 10-11-də Prezident Heydər Əliyevin Qazaxıstana rəsmi səfəri zamanı baş tutub. Görüş zamanı Azərbaycan-Qazaxıstan münasibətlərinin gələcək perspektivi müzakirə edilib, bir sıra xüsusi əhəmiyyət kəsb edən sənədlər imzalanıb. Bu zamanı Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əməkdaslığın daha da inkişafı və dərinləşdirilməsi haqqında Bəyannamə, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin beynəlxalq bazarlara nəql olunması üzrə əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası vətəndaşlarının vizasız gediş gəlişi haqqında saziş, azad ticarət haqqında saziş, mülki işlər üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında saziş, neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında saziş, ilk rəsmi səfər çərçivəsində Heydər Əliyevin həmçinin, Qazaxıstan parlamentinin hər iki palatasının deputatları qarşısında çıxışı iki tərəfli əlaqələrin inkişafında mühüm rol oynadı [4].

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Moskvada 29 noyabr 2001-ci il tarixində Xəzərin dibinin bölüşdürülməsinə dair saziş imzalandı və bu saziş Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində mühüm rol oynadı [4].

Prezident Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan-Qazaxıstan münasibətləri inkişaf etmiş, müxtəlif sahələrdə əməkdaşlıq edilmişdir. İlham Əliyevin prezidentliyi dövründə bu əməkdaşlıq davam etdirilmiş, strateji cəhətdən daha intensiv xarakter daşıyır.

Prezident İlham Əliyevin Qazaxıstana ilk rəsmi səfəri 2004-cü ilin mart ayında baş tutub. Səfər zamanı Prezident İlham Əliyev və Prezident Nursultan Nazarbayev bir çox sahələrdə, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində fikir mübadiləsi aparmışlar [4].

2004-cü il martın 1-də Astanada imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2005-ci il mayın 24-də Bakıda imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında

strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" ilə hər iki dövlət arasında olan tarixi dostluq münasibətləri bu müqavilələrin imzalanması ilə daha da möhkəmləndirilmişdir [2].

Azərbaycan-Qazaxıstan münasibətlərində beynəlxalq təşkilatlarda iki tərəfli əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. 2006-cı il noyabrın 17-də Prezident İlham Əliyev Antalyada, Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşündə və Xəzəryanı dövlət başçılarının 2007-ci il oktyabrın 16-da Tehranda keçirilən görüşü çərçivəsində Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşmüş, hər iki dövlətin maraq dairəsində olan bir sıra məsələlər müzakirə olunmuşdur [4].

Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasına 2009-cu ildə növbəti səfəri dövlətlərarası münasibətlərin inkişafında xüsusi əhəmiyyət daşıyır. Səfər zamanı imzalanan "Birgə Bəyannamə"yə görə ölkələrarası enerji əməkdaşlığının dərinləşdirilməsi, 1992-1993-cü illərdəki ticarət-iqtisadi əlaqələrlə bağlı yaranan borcların ödənilməsi, kənd təsərrüfatının inkişafı sahəsində iş birliyi, iki dövlətin vətəndaşlarının vizasız səfərləri barədə saziş, memorandum və Aktau ilə Sumqayıt şəhərlərinin qardaşlaşması haqqında məsələlər öz əksini tapmışdır [5, s.642 s.].

Azərbaycan-Qazaxıstan münasibətlərinin əsas inkişaf istiqamətindən biri də Xəzər dənizi və bu sahədə əməkdaşlığın təmin edilməsidir. Qazaxıstan Bakı-Tbilisi-Ceyhan neft kəməri bağlı aparılan görüşlərdə fəal iştirak etmiş, 1999-cu ildə İstanbulda ATƏT-in zirvə görüşündə İstanbul Bəyannaməsinin imzalanmasında iştirak etmişdir. Daha sonra Bakı-Tbilisi-Ceyhan boru kəmərinin 2005-ci ildə açılışında Nursultan Nazarbayev iştirak etmiş, 2007-ci ildə isə Qazaxıstan rəsmi olaraq bu layihəyə qoşulmuşdur. Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Azərbaycan nefti ilə yanaşı Qazaxıstan nefti də xaric ölkələrə nəql olunur. 2018-ci ilin 12 avqustunda imzalanan "Xəzər Sazişi" Qazaxıstanda daxil olmaqla beş sahilyanı dövlət arasında əlaqələrin inkişafına öz müsbət təsirini göstərdi [6].

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əlaqələr Böyük İpək Yolunun bərpa edilməsi və Avro-Asiya Nəqliyyat Dəhlizinin tammiqyaslı fəaliyyətinin təmin edilməsi üzrə TRASECA layihələri çərçivəsində də inkişaf etmişdir. Bakıda 2017-ci ildə Bakı-Tiflis-Qars Dəmiryolunun açılışı zamanı Qazaxıstanın Baş naziri də iştirak etmiş, bu isə nəqliyyat sahəsində əlaqələrin inkişafına öz müsbət təsirini göstərdi [6].

2022-ci ilin avqustunda 24 keçirilən görüş zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə dövlətlər arası bir sıra əhəmiyyət kəsb edən sənədlər imzalanıb. Səfər zamanı iki ölkə arasında iqtisadi, ticarət əlaqələrini inkişaf etdirmək məqsədi ilə "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş" bağlanması, "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2023-2024-cü illər üzrə Əməkdaşlıq Planı", nəqliyyat, dəmir yolu və su nəqliyyatı ilə tranzit yükdaşımaları üzrə müvafiq qurumlar arasında Anlaşma Memorandumları, media, elm və təhsil sahələrində sənədlərin imzalanması böyük əhəmiyyətə malikdir [7].

2023-cü ilin aprel ayının 10-u Azərbaycan Respublikasının prezidenti Qazaxıstanda rəsmi səfərdə oldu və bir sıra ikitərəfli sənədlər imzalandı. Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzalayıblar [8].

Bundan başqa hər iki ölkənin rəsmi nümayəndələri arasında bir sıra sənəd imzalandı. "Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC ilə "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyəti arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyətinin baş direktoru Rauşan Kajibayev, "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu arasında elmi və mədəni əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutunun direktoru Talqat Kaliyev, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Qazaxıstanın Xarici Ticarət Palatası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstanın Xarici Ticarət Palatasının İdarə Heyətinin sədri Ayan Yerenov və başqaları arasında mühüm sənədlər imzalandı [8].

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında inkişaf edən əlaqələr mədəniyyət sahəsində də özünəməxsus şəkildə təzahür olunmuşdur. Azərbaycan-Qazaxıstan arasında mədəni əlaqələr XX əsrin 90-cı illərində mövcud olmasına baxmayaraq sonrakı dövrdə daha da inkişaf etmişdi. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyi 2015-ci ilin 10 noyabr tarixində Qazaxıstanın Almatı şəhərində TÜRKSOY-un və Azərbaycanın Qazaxıstandakı səfirliyinin təşkilatçılığı ilə keçirildi və yubiley münasibətilə "Türk dillərində Bəxtiyar Vahabzadənin 90 şeiri" adlı kitabın təqdimatı oldu. 2016-cı ildə Qazaxıstanda keçirilən 12-ci Avrasiya Beynəlxalq Film Festivalı çərçivəsində Mirbala Səlimlinin "Qırmızı bağ" bədii filminin beynəlxalq premyerası keçrildi, daha sonra Qazaxıstan geniş tərkibli nümayəndə heyəti "Multikulturalizm İli" çərçivəsində Prezidenti cənab İlham Əliyevin 2009-cu il 18 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı"na uyğun olaraq keçirilən lV Bakı Beynəlxalq Teatr Konfransında təmsil olunub [6].

Azərbaycan prezidenti İlham Əliyevin Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevlə görüşləri və imzalanmış sənədlər bir daha təsdiq edir ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq qarşıdakı illərdə daha da güclənəcəkdir.

**Açar sözlər:** Azərbaycan-Qazaxıstan əlaqələri, ikitərəfli əməkdaşlıq, imzalanan sənədlər, Bakı-Tbilisi-Ceyhan neft kəməri, mədəni əlaqələr.

## Ədəbiyyat


1. Azərbaycan-Qazaxıstan münasibətləri yeni mərhələdə https://qafqazinfo.az/news/detail/azerbaycan-qazaxistan-munasibetleri-yeni-merhelede-396860 10.04.2023
2. Azərbaycan-Qazaxıstan münasibətləri: tarixdən yeni inkişaf mırhələsinə https://azertag.az/xeber/Azerbaycan_Qazaxistan_munasibetleri_tarixden_yeni_inkisaf_merhelesine-2253662 15.08.2022
3. Türk dövlətləri başçilarinin II zirvə toplantisi https://azertag.az/xeber 20.10.1994
4. Azərbaycan-Qazaxıstan münasibətləri https://lib.aliyevheritage.org/az/549420.html 26.06.2010
5. Musa İ.M. Azərbaycanın xarici siyasəti. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2011, 776 s.
6. Azərbaycan-Qazaxıstan münasibətləri: Ortaq maraqlar, birgə layihələr, eyni kök https://modern.az/analitika/227367/azerbaycan-qazaxistan-munasibetleri-ortaq-maraqlar-birge-layiheler-eyni-kk-rubrika/ 13.02.2020
7. Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb https://president.az/az/articles/view/57013 24.08.2022
8. Azərbaycan və Qazaxıstan arasında hansı mühüm sənədlər imzalanıb? https://sputnik.az/20230410/azerbaycan-prezidenti-lham-eliyev-qazaxistana-resmi-sefere-gedib-453593535.html 10.04.2023


# ОБРАЗОВАТЕЛЬНАЯ ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНЕ (Краткий Обзор)


**Нушаба Кулиева**

Университет Азербайджан, Баку, Азербайджан


Общенациональный лидер Гейдар Алиев в период своего руководства Азербайджаном (1969-1982; 1993-1998 годы) всегда уделял особое внимание сфере образования в стране. Политическая мудрость, большой опыт государственной деятельности, светлая память, попечение о работниках образования снискали Гейдару Алиеву любовь народа.

Гейдар Алиев является стоителем нового Азерайджана. Национальный лидер Гейдару Алиев дал реальный характер этой эпохи. «В Азербайджане большой процент населения с высшим образованием, знаниями, квалификацией, а также людей большое количество людей с высокими научными достижениями, и они составляют большую часть общества, что опять же это еще раз показывает ценность системы образования в стране. Если бы не они, экономика Азербайджана не могла бы так стремительно развиваться. Без них мы не смогли бы управлять Азербайджаном как независимым государством. Система образования,

созданная в XX-м веке, — это наше самое большое достижение, и мы, как независимое государство, начали XXI-й век с уже имеющимся огромным потенциалом и ресурсами».

Задача проведения образовательных реформ в СССР была возложена на гениального лидера Гейдара Алиева. 12 апреля 1984 года председатель Комиссии по реформе Гейдар Алиев выступил с глубоким по содержанию и идеями докладом «Об основных направлениях реформы общего образования и профессионально-технических училищ». Этот его доклад был воспринят как очень важное событие в развитии образовательной сферы страны и дал существенный толчок дальнейшему развитию образования.

Гейдар Алиев выполнял такие ответственные задачи, как строительство школ, военная подготовка, подготовка кадров для всех сфер жизни.

Второй приход к власти Гейдар Алиева Азербайджане в 1993 году был по требованию народа. Азербайджанский народ встретил это возвращение с большой торжественностью. По возвращении Гейдар Алиев стал более эффективно работать на благо Независимого Азербайджана и реализовывать очень важные задачи, которые до сих пор не удавались никому.

Гейдару Алиеву, вернувшемуся к власти в этот сложный и ответственный период, удалось создать общественно-политическую стабильность в Азербайджанской Республике. Гейдар Алиев вывел страну из из критической ситуации, возникшей во всех сферах, представил всему миру истины Азербайджана, добился возрождения и развития Азербайджана.

Гейдар Алиев всегда уделял отдельное внимание образованию и просветителям, старался реализовать проблемы образования, не уклонялся от этой ответственной цели и планомерно продолжал свою идею [1, с.9-14].

Впервые в истории Азербайджана общенациональный лидер дал поручение провести реформы в сфере образования для оптимального решения проблем в сфере образования.

С этой целью 30 марта 1998 года указом Президента была создана Государственная комиссия по реформе образования. В 1998 году состоялся первый съезд учителей Азербайджана. Гейдар Алиев, выступил на съезде с исторической речью. Это выступление стало настоящей программой для успешного решения задач, стоящих перед педагогами. На съезде впервые в истории нашего образования был создан Республиканский совет по дела образования. 15 июня 1999 года - в День национального освобождения великий лидер специальным указом утвердил Программу реформы образования и определил главную цель реформ: "Главная цель реформ в системе образования - привести азербайджанскую систему образования к в соответствии со стандартами мировой системы образования ... принципы образования, которые мы приобрели за эти годы, должны быть ожидаемы и развиты. Если мы пойдем по этому пути, то сможем в короткие сроки довести систему образования в Азербайджане до мировых стандартов [3].

Реформы, проведенные в соответствии с концепцией образовательной политики Гейдара Алиева, принесли положительные результаты. Общенациональный лидер Гейдар Алиев, считавший необходимым проведение образовательных реформ, сказал: «После

углубленного изучения нынешнего состояния нашей системы образования и ее проблем следует определить приоритетные направления».

Действительно, выбор такого принципа сформировал основной принцип образовательной политики в Азербайджане. Обращая внимание на обобщенные приоритеты деятельности, основанные на программе реформ на 2001-2003 годы и далее, подтверждается, насколько фундаментальной является концепция стратегии Гейдара Алиева в области образовательной политики.

Подготовка Национальной концепции образования, переход к интеграционным моделям в содержании образования, утверждение Программы компьютеризации и информатизации системы образования и внедрение в процесс, усиление факторов научной направленности в образовании, интенсификация научных исследований и исследования в передовых областях в целях обеспечения единства образования и науки, в целях усиления интеграции в мировую систему образования. Стратегические направления образовательной политики четко видны из регулярного продолжения работы над программами, проектами и другими вопросами. Одной из важнейших задач в период реформ была подготовка впервые в истории азербайджанского образования Государственных стандартов общего образования и Основного учебного плана и их утверждение правительством республики (1999 год, апрель) [2].

Одним из приоритетов политики великого лидера Гейдара Алиева в области науки и образования являются новые подходы к управлению обеими сферами. Реалии показывают, что в настоящее время работы, проводимые Президентом страны господином Ильхамом Алиевым в этом направлении, успешно продолжаются на уровне, который служит благому будущему азербайджанского народа [4, стр. 2].

Сегодня можно с гордостью сказать, что, как и во всех областях, подготавливающих нашу нацию к самостоятельному развитию, в великих достижениях в области народного образования миссия национального лидера, кроме небольшого перерыва между ними, является великим. Гейдар Алиев, успешно перенесший на своих могучих плечах более 30 лет XX века в третье тысячелетие, имеет особые заслуги. За годы независимости расширились международные связи в сфере образования, и в настоящее время ведется целенаправленная работа по развитию системы образования в Азербайджане путем изучения мирового опыта. [6].

**Ключевые слова**: сфера образования, наука, политика независмого государства

## Литература

1. Azərbaycan təhsil siyasəti (1998-2004), I kitab. Bakı 2005.
2. Səmədov A., Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qaygısı, Bakı, səh. 499.
3. http://files.preslib.az/projects/toplu/v2/f6_2_3.pdf

4. http://anl.az/el/Kitab/2015/qm_ina.pdf 82
5. http://shamakhy.cls.az/front/files/libraries/2471/books/642401402061574
6. https://www.elibrary.az/docs/QAZET/qzt2008_2078q.htm

**Educational policy of Heydar Aliyev in Azerbaijan (Overview)**

Loyalty to the people of Azerbaijan, political wisdom, experience of great statesmanship, bright memory, logical speech, and concern for education and educators earned Heydar Aliyev universal love and elevated him to brilliant heights. In the great achievements in the field of national education, the great personality Heydar Aliyev, who successfully carried more than 30 years of the 20th century into the third millennium on his powerful shoulders, with the exception of a small break in between, the mission of a national leader, has exceptional merits.

## HEYDƏR ƏLİYEV VƏ ÜMUMTÜRK TARİXİ

**Günel Qurbanova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gunel4323@gmail.com

Müasir Azərbaycan dövlətçiliyinin banisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideoloji- siyasi fəaliyyəti sadəcə Azərbaycanla məhdudlaşmamış, ümumi türk dünyasını əhatə etmişdir. Böyük tarixi şəxsiyyətin gördüyü işlər, irəli sürdüyü ideyaları, söylədiyi fikirləri həm elmi-nəzəri kamilliyi, həmçinin praktiki perspektivi baxımından böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın türk dünyası, əsasən də müstəqil türk dövlətləri ilə əlaqələrinin ətraflı proqramını vermişdir və bu proqramda əsasən aşağıdakılar var: [1]

- türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı bir türk dövlətinin problemlərinin həllində türk dünyasının birgə fəaliyyətini təmin etmək;
- Azərbaycanın iqtisadi, sosial və siyasi problemlərinin həll edilməsin də də türk dünyasının ümumi imkanlarından istifadə etmək;
- türk dünyasının beynəlxalq nüfuzunu gücləndirməyə çalışmaq və müstəqil türk dövlətinin imkanlarından istifadə etmək və b.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə Türkiyəylə münasibətlər real tərəfdaşlıq və qarşılıqlı fayda əsasında quruldu. Azərbaycana rəhbərlik etdiyi 10 il müddətində dəfələrlə Türkiyəyə səfər etmiş, Türkiyə dövlət və hökumət rəhbərləri Azərbaycana çoxsaylı səfərlər etmişlər. Bu əlaqələr müxtəlif beynəlxalq və regional tədbirlərdə davam etdirilmişdir. Bir faktı qeyd etmək kifayətdir ki, Heydər Əliyev on illik prezidentliyi dövründə xarici dövlətlərin rəhbərləri ilə 500-dən çox görüş keçirib ki, bunun da 100-ə yaxını Türkiyə tərəfindən keçirilib. Bu intensiv təmaslar və davamlı məsləhətləşmələr fonunda hər iki ölkənin xarici siyasəti sıx koordinasiyada bir-birini tamamlayırdı.

Heydər Əliyevin Özbəkistan, Türküstan- Qazaxıstan, qırğız, türkmən, bu türk bölgəsinin dövlət və ictimai-siyasi xadimləri ilə sovetlər dövründə sıx əlaqələri olub, sovet dövləti süqut etdikdən sonra yeni milli-ideoloji məzmun kəsb edib. Tarix təsdiq etdi ki, Heydər Əliyevin Qazaxıstana, onun rəhbərliyi altında gedən proseslərə münasibəti və rus şovinizminin bu proseslərə müdaxiləsi düzgün mövqe idi. [3]

Aşağıdakı sözlər türk dünyasının qürurunu və türk dünyasının yüksəlişi ilə bağlı Heydər Əliyevin strateji mövqeyini aydın şəkildə əks etdirir: "Yeni yüksəliş dövrünü yaşayan müasir türk dünyası bəşər sivilizasiyasının misilsiz yeni nümunələri verməyə qadirdir. Bugün öz suverenliyini əldə edən bir çox türk cümhuriyyətlərinin bu siyahıya əlavə edilməsi türk dünyasının gələcəyinə parlaq ümidlər doğurur. Siyasi, iqtisadi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlayan türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilir". [2]

Və fəxr etməliyik ki, Azərbaycanın ümummilli lideri İlham Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi ilk aylardan türk dünyasının münasibətləri və yüksəliş strategiyasını uğurla davam etdirir. Onun Özbəkistana, Qazaxıstana və xüsusilə Türkiyəyə rəsmi səfərləri göstərdi ki, İlham Əliyev bütün sahələrdə olduğu kimi bu sahədə də siyasi enerjisini əsirgəməyəcək, ikitərəfli əlaqələrin genişləndirilməsində müasir dövrün lideri kimi böyük xidmətlər göstərəcək. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev prezident kimi Türkiyəyə ilk rəsmi səfəri ərəfəsində demişdir: "Biz öz siyasətimizi müstəqil şəkildə aparmalıyıq ki, millətimiz, xalqımız daha da güclənsin, güclənsin, güclənsin. Gücümüz birlikdədir". Ankarada keçirilən görüşlərdə həm Azərbaycanın, həm də Türkiyənin xüsusi beynəlxalq problemlərinin həllində hər iki ölkənin rəhbərlərinin prinsipial mövqe nümayiş etdirməsi bu "güc birliyinin" siyasi reallıq olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

**Açar sözlər:** Heydər Əliyev, ümumilli lider, türk dünyası, türk birliyi.

## Ədəbiyyat

1. Cəfərov N., Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə, Bakı, Xalq qəzeti, 2009, 18 iyul, 3 səh.
2. Əhmədova S., "Heydər Əliyev və ədəbi- tarixi proses", Bakı, 2013, 156 səh.
3. Quliyev Y., "Heydər Əliyev və Türk dünyası", Bakı, 2022.

# HEYDƏR ƏLİYEVİN YERLİ AZƏRBAYCANLILARA QARŞI ERMƏNİ ZORAKILIQLARININ DÜNYAYA TANIDILMASI ÜÇÜN APARDIĞI SIYASƏT

**Mirvari Qurbanova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra illər boyu tariximizin üstü açılmayan, saxtalaşdırılaraq gizlədilən məqamların gerçəkliyinin aşkara çıxarılmasına başlandı. Bunlardan biri də xalqımızın soyqırıma məruz qalaraq deportasiyaya uğramasıdır.

Deportasiya bir etnik qrupu öz əzəli torpaqlarından, ata-baba yurdlarından qovmaq, onların yerinə digər bir qrupu yerləşdirmək, bu qrup üçün geniş həyat sahəsi əldə etmək məqsədilə həyata keçirilən ən qəddar tədbirlərdən biridir. Nəticədə də deportasiyaya məruz qalan xalqların əzəli torpaqları, var dövlətləri əldən çıxır, qaçqın və köçkünə çevrilərək, minlərlə, on minlərlə dinc əhali ölümlə qarşılaşır. Bir çox hallarda deportasiyaya məruz qalan xalqların bəziləri tarixin səhifəsindən silinir.

Ən böyük tarixi ədalətsizlik ermənilər tərəfindən azərbaycanlıların öz etnik dədə-baba yurdlarından zaman-zaman deportasiya edilməsidir. Xalqımızın müdrik oğlu Heydər Əliyevin cəsarətinin, prinsipiallığının, dönməzliyinin, öz xalqının təkcə bu günü, sabahı deyil, onun enişli-yoxuşlu tarixinin vurğunluğunun parlaq təcəssümü olan "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanının verilməsidir. Fərmanda diqqət çəkən məsələlər son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyünlü həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti, belə bir qeyri-insani siyasət nəticəsində azərbaycanlıların indi Ermənistan adlanan ərazidən min illər boyu yaşadıqları tarixi-etnik torpaqlardan qovulduqdan sonra xalqımıza məxsus minlərlə tarixi-mədəni abidələrin ermənilər tərəfindən mənimsənilməsi və yaşayış məntəqələrinin darmadağın edilməsi; SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı, 1948-ci il 10 mart tarixli 754 saylı qərarlarının Azərbaycan xalqına qarşı dövlət səviyyəsində tarixi cinayət aktı elan edilməsi; bu cinayət aktının həyata keçirilməsində Azərbaycanın o dövürkü rəhbərliyinin öz xalqının taleyinə zidd mövqe tutması; 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiya edilməsi, ona hüquqi-siyasi qiymət verilməməsi və beynəlxalq ictimaiyyətə çatdırılmaması, obyektiv, isbatına şübhə olmayan şəkildə şərh olunmasıdır [1, s.201-202 ].

Heydər Əliyev bütün çıxışlarında yeri düşdükcə bu faciənin bütünlüklə araşdırılıb dünyaya çatdırılması üçün, ermənilərin haqsızlıqlarnı görmədən, bilmədən, araşdırmadan dəstəkləyən dövlətlərin tutduğu siyasət yolunu pisləyirdi.

Hələ 1965-ci ildə DTK sədrinin müavini işləyərkən İrəvanda bir qrup azğınlaşmış erməninin keçirdiyi mitinqlərdə Türkiyə və Azərbaycan əleyhinə əsassız ərazi iddiaları irəli sürməsini yaxşı bilirdi. Buna görə də hakimiyyəti illərində xalqlar arasında nifaq yaradan erməni millətçi dairələrinə "göz açmağa" imkan vermir onlara sarsıdıcı zərbələr endirirdi. Bütün bu fəaliyyətin nəticəsində 70-ci illərdə erməni millətçiliyi böhrana düşmüşdü. Erməni millətçi qrupları hər hansı bir qanuna zidd hərəkətlərinə görə sərt cəzalandırılırdılar. Məsələn: Azərbaycan DTK-nın

5-ci şöbəsi 1973-cü ilin avqust ayında "Erməni millətçiləri" adı altında əməliyyat işini apardı və Daşnaksütyunla əlaqədar olan şəxslər həbs edildilər [2, s. 338-339 ].

Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi SSRİ-nin irticacı siyasətindən və erməni daşnakları tərəfindən əzilən yerli əhalinin həyatında böyük bir dönüş yaratdı. 1969-cu ildən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi vaxtdan ömrünün sonuna qədər apardığı uğurlu siyasətlə erməni təcavüzünü pisləyərək onların Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq istəklərinin qarşısına böyük bir sədd çəkdi.

Ilk addımı 1938-ci il qərarını ləğv etmək oldu. Belə ki, 1937-ci ildə qəbul olunmuş Azərbaycan SSR-nin yeni Konstitusiyasına əsasən yaradılan Ali Sovet səmərəli fəaliyyət göstərə bilmirdi. Buna görə də nümayəndəli qanunvericilik orqanlarına seçilmiş azərbaycanlılar 1937-1938-ci və sonrakı illərdə respublikanın elmi, mədəni, siyasi elitasının məhv edilməsinə, xalqın genofonduna zərbə vurulmasına, torpaqlarının dəfələrlə parça-parça qoparılıb, Ermənistana verilməsinə qarşı etiraz səslərini qaldıra bilmədilər. Əksinə, yuxarının təzyiqi ilə Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 7-də Laçın, Qubadlı, Kəlbəcər və Qazax bölgələrindən 2 min hektar torpaq sahəsinin Ermənistana verilməsi haqqında protokolu təsdiq etdi. Amma həmin qərara yerlərdə sadə insanlar, kənd camaatı müqavimət göstərdilər və torpaqlarını əldən vermədilər. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də 1938-ci ildə qəbul etdiyi bu bədnam qərarı yenidən təsdiq etdi. Lakin az sonra hakimiyyətə gəlmiş cənab Heydər Əliyev bu qərarın icrasına yol vermədi.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra məhdud imkanlardan xalqın xeyrinə istifadə etmək, diqqəti cəlb etmədən milli-mənəvi oyanışa kömək göstərmək üçün addımlar atmağa başladı [3].

Sovet Rusiyasında 1985-ci ildə baş verən hakimiyyət dəyişikliyi ermənilərə öz arzularını reallaşdırmaq üçün yenidən zəmin yaratdı. Heydər Əliyevin siyasi baxışını dəstəkləmədiyi Mixail Qorbaçova etiraz olaraq 1982-ci ildən təyin olunduğu Siyasi Büronun üzvlülüyü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən 1987-ci ildən istefa verərək uzaqlaşdı. Bununla da Qərbi Azərbaycan torpaqlarında o cümlədən Qarabağda ermənilər yenidən fəallaşdı. Yerli azərbaycanlılar 1988-1991-ci illəri əhatə edən 2-ci böyük deportasiyaya məruz qaldılar. 1988-ci il Sumqayıt hadisələrindən qisas almaq üçün yaratdıqları "Krunk" cəmiyyəti qırğınlar törətməkdə israrlı idi. Yurd-yuvasından didərgin düşən azərbaycanlı əhalini isə dəstəkləcək, doğru yol göstərəcək bir qüvvə yox idi.

1990-cı ildən Bakıya qayıdan Heydər Əliyev Naxçıvana gedərək fəaliyyətini orda davam etdirir. 1991-ci il Sentyabrın 3-dən 1993-cü ilə qədər Naxçıvan MR-nın Ali Sovetinin sədri seçilir. O dövrdə daxildə baş verən çəkişmələrə son qoyulmasında böyük rolu olan Ulu Öndər 1993-cü ildən prezidentlik fəaliyyətinə başlayaraq Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması üçün daxili və xarici siyasətdə uğurlu addımlar atmağa başladı. Onun hakimiyyətə qayıdışı Azərbaycanı müstəqil dövlətçiliyinin məhv edilməsi təhlükəsindən və faktiki erməni təcavüzündən xilas etmiş oldu. Ən böyük nailiyyətlərdən biri də məhz qərbi azərbaycanlıların deportasiyasına hüquqi qiymət

verilməsi oldu. Hətta xarici səfərlərində də Ermənistan-Azərbaycan münaqişəsi məsələsini qabardaraq aradan qaldırılması üçün danışıqlar aparır, erməni pisliyini tanıtmağa çalışırdı. Məsələn:- 12 mart 2001-ci ildə Azərbaycan prezidenti Heydər Əliev Camlı köşkdə Türkiyənin xarici işlər naziri ismayıl Cəm ilə görüşdü.

Tərəflər azərbaycanla Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladılar., bir sıra məsələlər, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həlli barədə fikir mübadiləsi apardılar [4, s.101].

Prezident yaxşı deyirdi: "Biz tarixdə baş verən hadisələrin erməni millətçilərinin mütəmadi olaraq həyata keçirdiyi eybəcər formada bu günümüzə köçürülməsinin, insanlar və xalqlar arasındakı münasibətlərdə düşmənçilik yaratmaq üçün istifadə olunmasının əleyhinəyik. Müasir dünyada müharibə təbliğatı, insana nifrət ideologiyası, başqa dövlətlərə qarşı ərazi iddiaları bizim üçün yolverilməzdir. Bütöv xalqa nifrət hissi azərbaycanlılara yaddır. Biz müstəqilliyimizin verdiyi imkanlardan istifadə etməklə ölkəmizin daim tərəqqisinə nail olmaq, vətəndaşlarımız üçün firavan həyat qurmaq istəyirik" [5, s.172]. Bəli, biz kimsənin deyil, öz torpaqlarımıza sahib çıxmağa çalışırıq. Heydər Əliyev deyirdi ki, "Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq,onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır".

Əli çatan, gücü çatan qədər deportasiyaya məruz qalan insanlara kömək edən Ulu Öndəri bu gün də xatırlayanlar Allahdan rəhmət diləyir. Baku tv-yə müsahibə verən Vedidən köçən 95 yaşlı Bahar Əhmədova beş uşaqlı ailənin böyük övladı olub. O, 1948-ci il deportasiyası ilə Qarabağlardan uzaqlaşdığını belə xatırlayır: - Belə xəbər çıxdı ki, Mikoyanla Stalin söhbətləşiblər azərbaycanlıları burdan aparacaqlar ki,fransa ermənilərini gətirələr. Mən şəhərdə oxuyanda o fransa ermənilərini gördüm, balaqları yekə, enli idi. Noyabr, dekabr aylarında bizi Xocalıdakı kimi elədilər. Vəhşi kimi bizi vaqona yığdılar, orada heç yataq da vermədilər, özümüzlə heç nə gətirə bilmədik. Ancaq əynimizdə nə paltar vardı onlarla çıxdıq. Evlər, damlar, tövlələr hamısı erməniyə qaldı. Stansiyada dayananda gedib çırpı yığıb gətirib vaqonda yandırırdıq, dəmir vaqonlar buz kimi idi, bizə zülüm elədilər.

Həmişə bizə xainlik, xəbislik edirdilər. Tez-tez hücum edirdilər. Erməni-azərbaycanlı davalarında ermənilər gəlib onların evinə od vurub yandıb, 17-18 nəfər tutub bir tüfənglə vurublar ki, onların 18-dən də keçsin.

Allah Heydər Əliyevə rəhmət eləsin, o, hakimiyyətə gələndən sonra bizə ev, torpaq verdilər yaşamağa. O torpaqları görməyin arzusundayam. Orada bizim hər cür şəraitimiz var idi, Novruz bayramı, Qurban bayramı,Ramazan bayramı hamısını qeyd edirdik. Vətən yaddan çıxmır deyərək kövrələn Bahar nənənin ailəsi Biləsuvarın Bağbanlar kəndinə sığınıb[ 6 ].

Hal-hazırda bu bəlanı başı çəkmiş minlərlə insan yaşadığı acı taleyi ürək yanğısı ilə xatırlayır, bir gün o torpaqlara yenə dönəcəyini ümidlə gözləyir.

**Açar sözlər:** Heydər Əliyev, qərbi azərbaycanlılar, erməni zorakılığı, deportasiyaya qiymət.

## Ədəbiyyat


1. Həsənoğlu H. Dünyanın mənfur milləti erməni, Bakı, "Əbilov, Zeynalov və oğulları", 2003. 256 s.
2. Qasımlı M.C. Heydər Əliyev İstiqlalala gedən yol(1969-1987-ci illər), Bakı, Bakı Universiteti nəşriyyatı, 2006. 608 s.
3. Azərbaycan.az Parlamentin tarixi https://azerbaijan.az/related-information/284
4. Hüseynov S.Q., Məmmədov D.H. Türk dünyasının xilaskarları, Bakı, "Nurlan" , 2001. 250 s
5. Mirələmov H. Həqiqət (publisistik düşüncələr), Bakı, "Azərbaycan" nəşriyyatı, 2003,448 s.
6. Baku tv. Qarabağlardan olan 95 yaşlı Bahar nənə doğma yurdun həsrətindədir https://www.instagram.com/reel/CpKa1ZzNucO/?utm_source=ig_web_copy_link


# HEYDƏR ƏLİYEVİN TÜRK XALQLARI ARASINDA MİLLİ-MƏNƏVİ, SİYASİ-İCTİMAİ ƏLAQƏLƏRİN YARANMASINDA VƏ İNKİŞAFINDA MÜSTƏSNA ROLU


**Ülviyyə Rəhimova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

e-mail: Ulviyya.rahimova@au.ed.az


Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin türk xalqları arasında milli-mənəvi, siyasi-ictimai əlaqələrin yaranmasında və inkişafında müstəsna rolu vardır. Azərbaycan xalqının həyatında mühüm rol oynamış bu tarixi şəxsiyyəti türk xalqları ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivlilikdə də böyük tarixi əhəmiyyətə malikdir.

Ölkələrarası siyasi, iqtisadi və sosial-ictimai münasibətlərin həllində ilk növbədə türk xalqlarının dəstəyindən və imkanlarından istifadə etmək siyasi liderin peşəkar fəaliyyətindən xəbər verirdi. Bu məqsədlə o ilk növbədə türk dünyasının qüvvələrini birləşdirərək istənilən türk dövlətinin problemlərinin həll olunmasını təmin etmişdi. Bu əlaqələrin inkişafı da məhz Türk dövlətlərinin beynəlxalq nüfuzunun daha da artmasına səbəb olmuşdur.

1993-cü ildən, Heydər Əliyevin prezident seçilməsindən sonra İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin — Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir..."[3].

Burada prezidentin məqsədi bir tərəfdən uzun illər sovet rejiminin əsarəti altında yaşamış türk dövlətlərinin müstəqilliyini qorumaq, digər tərəfdən ümumtürk birliyinin yaradılması idi. 21-22

oktyabr 1996-cı il tarixində Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Dövlətlər Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində qeyd etmişdi ki, "türkdilli dövlət başçılarının müntəzəm görüşləri bu ölkələr arasında əməkdaşlığın inkişafına, mədəni və mənəvi əlaqələrin genişlənməsinə, onların müstəqilliyinin möhkəmləndirilməsinə kömək edir"[1, səh.169].

Məlumdur ki, türk xalqlarını bir-birinə yaxın milli adət və ənənələr, müştərək dil qrupu olan türk dili və ən başlıcası mədəniyyət və din birləşdirir. Qafqazda yaşayan bir çox türk və dağlı xalqlarının ənənəvi xalq yaradıcılığında və yazılı ədəbiyyatında mühüm yer tutan mövzulardan biri vətən sevgisi, işğalçılarla mübarizə olmuşdur. Tarixi proseslərin təsiri ilə bir çox türk xalqlarında bu mövzu yeni çalarlar qazanmış, bu toplumların öz tarixi məskənlərindən zorakı deportasiyası, qəriblik, sürgün motivləri xalq yaradıcılığının əsas mövzularından birinə çevrilmişdir. XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda cərəyan edən hərbi-siyasi hadisələr, yerli müsəlmanların cəlb olunduğu müharibələr bu xalqların həyat tərzində, milli mənəviyyatında, mədəniyyətində, folklor və ədəbiyyatında dərin iz buraxmış, şifahi xalq yaradıcılığında və yazılı ədəbiyyatda geniş əks olunmuş, bu motivlərin xüsusi bədii ifadə vasitələri, "köç yırları", "sürgün uzamları", "vətən ağıtları" kimi lirik janr formaları, memuar və epistolyar yaradıcılıq növləri təşəkkül tapmış, bütövlükdə xüsusi tarixi-ədəbi tipologiyası olan özünəməxsus "sürgün folkloru və ədəbiyyatı" yaranmışdır.

Bu baxımdan "bir etnik toplum kimi XIX yüzilin əvvəllərindən başlayaraq doğma yurdlarından çıxarılan, tarixi əraziləri qəsb olunan türklərin, çərkəzlərin, qaraçaylıların, balkarların, çeçenlərin, inquşların, kalmıkların, kürdlərin və digər... xalqların ortaq tarixi faciələrini və eyni zamanda imperiyanın cinayətlərini aşkarlayan" [2, səh.16] tarixi proseslərin ədəbi yaradıcılığa təsirinin öyrənilməsi, repressiyaya uğramış Qafqaz müsəlman xalqlarının ortaq mental cəhətlərinin aydınlaşdırılması baxımından da böyük rol oynaya bilər. Bu repressiyalardan evindən eşiyindən didərgin düşüb Azərbaycana pənah gətirən xalqların həyatına Heydər Əliyev biganə qalmamış və hər şeydən öncə onların yerləşdirilməsi, qida və yataqla təmin olunması üçün böyük işlər görmüşdür.

Bu baxımdan qey etmək lazımdır ki, türk xalqlarının milli mədəni dəyərləri də , o cümlədən ədəbiyyatı Heydər Əliyevin həmişə maraq dairəsində olmuşdur. O Çağdaş Türk xalqları ədəbiyyatının daha çox milli özünüdərk, milli oyanış, milli-əxlaqi dəyərlərin üzə çıxarılması məsələləri kontekstində diqqər mərkəzində olmasına nail olmuşdur. Müasir türk dünyamızın ən aparıcı yazarları olan M.Şəhriyar, Ç.Aytmatov, O.Süleymenov kimi ədəbi şəxsiyyətlərin yaradıcılıqlarını Heydər Əliyev milli-fəlsəfi dəyər olaraq qəbul etmiş, bu sənətləri türk xalqının özünüdərkində vacib məqam olmasını vurğulamışdır.1996-cı ilin oktyabr ayında Daşkənd şəhərində dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovla, 1999-cu ildə Bakıda görkəmli qazax şairi Oljas Süleymenovla görüşlərində ictimai-siyasi problemlərlə yanaşı, onların yaradıcılıq problemlərindən də danışmış, hər iki sənətkarın yaradıcılığı üçün xarakterik olan milli ruh ideallarına xüsusi olaraq toxunmuşdur. Sovet dövründə qadağan olunsa da, Heydər Əliyev onların sənətlərinin milli qayəsini təşkil edən türkçülük ideyalarını bütün Türk dünyası üçün əhəmiyyətli saymış, hər iki sənətkarı türk milli mənliyimizin, türk milli bədii intellektinin nadir simaları hesab etmişdir.

Şəhriyar yaradıcılığı Heydər Əliyev üçün ən sevimli yaradıcılıq nümunələrindən biri olmuşdur. Təsadüfi deyildir ki, ona ünvanlanan "sevdiyiniz şair" sualına "Şəhriyar" cavabı Heydər Əliyevin Şəhriyara olan sonsuz ehtiramlarının ifadəsidir. Şəhriyarın 90 illik yubileyi ilə əlaqədar 1996-cı ildə Bakıda keçirilən tədbirdə Heydər Əliyevin çıxışında ustad Şəhriyar sənətinin "şərq şeirinin nadir siması", "yeni ədəbi məktəbin banisi", "filosof şair", "vətəndaş şair" və s. kontekstlərdə dəyərləndirilmişdir.

TÜRKSOY türk mədəni əməkdaşlıq təşkilatının yaradılmasının əsas təşkilatçılarından biri olan Heydər Əliyevin Türk dünyası yazıçılarının 6 noyabr 1996-cı ildə Bakıda keçirilən III qurultayında tarixi çıxışı ümumtürk ədəbiyyatı problemlərini vahid türk mədəniyyəti hadisəsi tipində dəyər verməsinin əyani tazahürüdür: "Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşsa da, dayanmayıb, inkişaf edir". UNESCO xətti ilə türkü bir daha özünə qaytaran Türk dünyasının böyük sənətkarlarının yubiley tədbirlərinin keçirilməsi, türkçülük ideyalarının təbliğinə həsr edilmiş çoxsaylı konfransların təşkili və s. kimi fəaliyyəti söz sənətini etnik mövcudluğun, milli bütövlüyün, milli mənliyin, milli intellektin göstəricisi hesab edir. Xüsusilə "Kitabi-Dədə Qorqud"un YUNESKO səviyyəsində 1300 illik yubileyinin keçirilməsi türk dünyası üçün böyük ədəbi-siyasi, elmi-mədəni hadisə idi. Heydər Əliyevin milli ideallara söykənən ədəbiyyat siyasəti milli düşüncəli ədəbi proseslə yanaşı, ədəbi tənqid və ədəbiyyatşünaslığın inkişafına da təsirsiz ötüşməmişdir. Zaman-zaman formalaşmış milli ruhumuzun, milli ideologiyamızın, milli psixologiyamızın, milli şüurumuzun özünüifadə və təsirinin ədəbiyyatla əlaqəsini xüsusi qeyd edir və bu dəyərləri əxz etmək üçün ədəbi-bədii düşüncələrimizdən bəhrələnməyi vacib sayırdı. O qeyd edirdi ki, "XX əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "dildə, fikirdə, əməldə birlik" [2, səh.19] şüarı ilə çıxış edirdilər. Biz uzun mübarizələrdən sonra XX əsrin sonunda bu imkana nail olduq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığı bu sahədəki uğurlarımızı daha da artıracaqdır". Bu çıxışında o tatar milli mətbuatının banisi İsmayıl bəy Qaspiralının "dildə, fikirdə, işdə birlik" ideyasını yeni konteksdə irəli sürürdü. Bu mənada Heydər Əliyevin Türk xalqları ədəbiyyatı ilə bağlı fikirlərini geniş anlamda ümumtürk mədəniyyətinin dünya mədəniyyəti çərçivəsində təbliğinin təntənəsi, eyni zamanda, öz keçmişinə, mənəvi dəyərlərinə sevgi və hörmətin göstəricisi olaraq hər bir türkə ünvanlanan çağırış və vəsiyyətidir.

## Ədəbiyyat


1. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı, «Təhsil», 2004, 472 səh.
2. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan –Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, 2007, 302 səh.

3. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün Iştirakçılarına - 5 iyul 1993-cü il https://lib.aliyev-heritage.org/az/9718021.html

# MİLLİ ÖNDƏR HEYDƏR ƏLİYEVİN İDİOLEKTİNDƏ PSİXOSOMATİK VƏ PARALİNQVİSTİK ŞƏRTLƏNMƏLİ FRAZEOLOGİZMLƏRİN ÜSLUBİ-FUNKSİONAL REALLAŞMASI

**Nərgiz Rüstəmova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: nergiz.rustemova.87@mail.ru

Azərbaycanın ən dahi siyasi xadimlərindən biri sayılan ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyimiz bu günlərdə onun irsinin təkrar tədqiqi, müasir reallıqlar aspektində yenidən və fərqli meyarlarla dəyərləndirilməsi ümummilli liderimizin böyük zəka sahibi olmaqla yanaşı, eyni zamanda həm də böyük ürəyə malik olmasını da təsbit etməyə imkan verir. Belə ki, onun idiolektinin araşdırılması əsnasında biz, bu dahi şəxsiyyətin real kimliyini, fərdi dil kimliyində ifadə tapmış linqvopersonoloji özəlliklərini aydınlıqla izləmək imkanı qazanırıq. İnsan özünü, məhz, nitqində, söylədiklərində, hətta söyləyə bilmədiklərində ifadə etdiyindən, ümummilli liderimizin idiolektinin tədqiqi çərçivəsində biz, onun şəxsiyyətinin kövrək məqamlarını, məhrəm duyğularını müəyyənləşdirə bilirik. Bu işdə ən dolğun verballaşma resursu olaraq, heç şübhəsiz ki, frazeoloji vahidləri qeyd edə bilərik. Belə ki, frazeoloji vahidlər öz emosional ekspressivliyi ifadə etmək potensialı ilə siyasi diskurs kimi praqmatik mahiyyəti ön planda olan, psixoemosional durumun açıq ifadəsi alqışlanmayan, istənilən ifrat emosiya göstərişi məqbul sayılmayan, bir növ, "quru" institusional diskurs növündə xüsusi implisit məna ifadəliliyi missiyasını icra edə bilirlər. Məhz, ulu öndərin idiolekt özəlliklərinin təhlili onun çıxışlarında, müraciətlərində emossionallığın implisit formatda ifadəsi üçün frazeoloji vahidlərdən istifadə olunduğunu müşahidə edirik.

Məruzə çərçivəsində əyaniliklə şahidi olacağımız kimi, H.Əliyevin fərdi siyasi diskursunda yer alan frazeologizmlər arasında psixosomatik və paralinqvistik şərtləndirməli ifadələr xüsusi çəkiyə malikdir.

İlk olaraq, onu xatırladaq ki, psixosomatik frazeologizmlər müəyyən emosional reaksiya, əks-reaksiya əsasında insan orqanizminin kənar qıcıqlara labüd "cavabı"nın metaforikləşməsinə istinad edir. Məsələn, *ürək qızdırmaq* frazeoloji vahidinin lüğəvi anlamı "*inanmaq, etibar etmək, güvənmək*" mənalarını bildirir [3]. Lakin həmin frazeoloji vahidin yaranmasını şərtləndirən faktorlara nəzər saldıqda burada fərqli məqamın ortaya çıxdığını görürük. Belə ki, insan müsbət və ya mənfi stress məqamında ürək qan-damar sisteminin aktiv fəaliyyətinə məruz qalır. Bu mənada *ürəyi isinmək, ürək qızdırmaq* kimi ifadələrin meydana çıxması, heç də, təsadüfi deyil. H.Əliyevin idiolektində həmin ifadənin işlənmə mövqelərinə diqqət edək: *Bax, bunlara görə dünyanın böyük ölkələri, böyük şirkətləri ürək qızdırırlar, inanırlar və buraya gəlirlər* [1, s.239]. Ulu öndərin idiolektində təsadüf edilən və bilavasitə "Ürək" komponenti ilə bağlı olan digər psixosomatik

frazeologizmlər də az maraq doğurmur. *Sizin günün altında dayanmağınıza mənim ürəyim dözmür* [1, s.352]; *Mən bu barədə çox danışa bilərəm. Çünki ürəyimiz yanıqlıdır, siz bilin* [1].

Göründüyü kimi, bu iqtibaslarda yer alan *ürəyi dözmək, ürəyi yanıqlı olmaq (// ürəyi yanmaq*) psixosomatik frazeologizmlər ulu öndərin bu və ya digər situasiyada keçirdiyi emosional gərginliyi, qarşı tərəfə qarşı duyduğu empatiyanı ən lakonik və eyni zamanda tutumlu şəkildə ifadə etməyə yardımçı olur. *Ürəyi yanmaq* ifadəsinin N.Vəliyevanın frazeoloji lüğətində əks etdirdiyi məna yükü "*son dərəcədə, olduqca çox kiminsə halına acımaq, dərdini bölüşmək, empatiya duymaq, dərdini bölüşmək*" anlamlarına uyğun gəlir [4, s.764].

Heç şübhəsiz ki, bu ifadənin kökü kəskin ürək ağrıları zamanı döş qəfəsinin sol tərəfində yandırıcı hissin olması ilə əlaqələndirilə bilər. Belə ki, "*döş sümüyü arxasında şiddətli yanma, göynəmə", "kürəkarası nahiyədə çox kəskin, "bıçaq batması" kimi hissiyyat*" bilavasitə ürəklə bağlı olan xəstəliklərin əlamətidir və 50% hallarda belə simptomlara malik xəstələrə "*miokard infarktı, qeyri-sabit stenokardiya, ağciyər arteriyasının tromboemboliyası və ürək çatışmazlığı kimi kardioloji vəziyyətlərin diaqnozu* qoyulur". Yəni, xalq öz metaforikləşdirmə potensialına müvafiq şəkildə ürək ağrıları simptomlarını həmin ağrını yaradan faktorların, can acısına yol açan səbəb və şəraitin oyandığı emosional reaksiyaların adlandırılması üçün istifadə edir.

Onu da qeyd edək ki, H.Əliyevin idiolektində paralinqvistik mahiyyətli frazeoloji vahidlər də mövcuddur. *Mən demək istəyirəm ki, sizin yanınıza doqquz ildən sonra alnıaçıq, üzüağ gəlmişəm* [2, s.179]. Burada biz, *alnıaçıq olmaq, üzüağ olmaq* frazeoloji vahidlərinin situativ variantı ilə qaşılaşırıq.

Məlumdur ki, dildə situativ sinonimiya hadisəsinə təsadüf edildiyi kimi, eləcə də situativ variantlılıq hallarına da təsadüf edilir. Əslində nəzərdən keçirdiyimiz korrelyasiya münasibətini sadəcə olaraq variantlılıq kimi dəyərləndirmək doğru olmazdı. Çünki biz, burada müəyyən məna çaları müxtəlifliyini, konkret olaraq statikliklə (*alnıaçıq olmaq, üzüağ olmaq*) dinamikliyin (*alnıaçıq gəlmək, üzüağ gəlmək*) fərqləndirilməsini müşahidə edirik.

Xatırladaq ki, dil və nitq sinonimləri yekcins mahiyyətə malik deyil. Sonuncular situativ, kontekstual mahiyyət kəsb etməklə yalnız nitq, mətn aspektində araşdırılırlar [6, s.263-279]. Situativ variantlar da, eynilə situativ sinonimlər kimi, yalnız müəyyən kontekst çərçivəsində işlək olur. Məsələn, *alnıaçıq olmaq → alnıaçıq yaşamaq // alnıaçıq gəlmək // alnıaçıq getmək* və s. Digər paraliqnvistik şərtləndirməli ifadənin işlənmə mövqeyinə nəzər salaq: ... *nəinki bizim ayaqqabılar onlarla ayaqlaşa bilmir, hətta Moskvanınkı, Leninqradınkı da ayaqlaşa bilmir* [1, s.90]. *Ayaqlaşa bilmək* frazeologizmi bilvasitə bədən dili elementi kimi yerişin xarakteristikasına istinad edir.

**Açar sözlər**: Heydər Əliyev, idiolekt, psixosomatika, paralinqvistika, frazeologiya, üslubi-funksional reallaşma.

## Ədəbiyyat

1. Əliyev H. Müstəqilliyimiz əbədidir, XXI kitab, B., Azərnəşr, 2007, 480 s.
2. Əliyev H. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları https://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf

3. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeologiya lügəti, Bakı, “Altun kitab”, 2015, https://www.azleks.az/az/online-
4. Vəliyeva N.Ç. Azərbaycanca – ingiliscə – rusca frazeoloji lüğət, Bakı, 863 s.
5. Белов В. А. Синонимические отношения в языке и высказывании // Science for Education Today, 2017, Том 7, №6, с. 263-279.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDİOLEKTİNDƏ MÜRƏKKƏB CÜMLƏ MODELLƏRİNİN EKSPLİKATUR VƏ İMPLİKATUR İFADƏ FƏRQLİLİYİ HAQQINDA

**Cəmilə Rüstəmova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: rustemova-cemile@mail.ru

Azərbaycan xalqının dərin minnətdarlıqla öz vəfa borcunu yerinə yetirib bu il 100 illik yubileyini böyük təntənə ilə qeyd edəcəyi ulu öndəri Heydər Əlirza oğlu Əliyev özünün sarsılmaz siyasi iradəsi ilə məşhur olduğu qədər, incə gedişli siyasi taktikaları, milli maraqlara xidmət edən strateji xəttə uyğun olan üstüörtülü siyasi mesajları ilə də məşhurdur. Belə ki, siyasi konyukturanın, diplomatik etiketin, mövcud geopolitik vəziyyətin açıq səsləndirilməsinə imkan vermədiyi bəzi fikirləri H.Əliyev özünə xas olan implisit formatda dilə gətirmək istedadına malik idi. Bu mənada onun idiolekti eksplikatur və implikatur fərqləndirməsi baxımından maraqlı təhlil materialları ortaya qoyur. Məsələm, İran – Azərbaycan münasibətlərinin Xəzərin statusu ilə bağlı yaşandığı gərginlik mərhələsində prezidentimizin İran rəhbətinə göndərdiyi dəvətlə bağlı Cənub qonşumuzun ölkə rəhbərinin manipulyativ siyasi gedişlərini şərh edən H.Əliyev İran nümayəndələri ilə görüşündə bu fikirləri səsləndirmişdir: *İndi, Allah qoysa, şübhəsiz ki, vaxt olacaq, mən də gələcəyəm. Ondan sonra cənab Xatəmi söz verib ki, o da gəlsin. Mən onu əvvəl dəvət etdim. O, Tehranda, İslam konfransında mənim dəvətimi qəbul etdi. Mən də onu gözlədim. Amma sonra sizin səfir mənə məlumat verdi ki, cənab Xatəmi hesab edir ki, əvvəl qoy Heydər Əliyev gəlsin, sonra. Eybi yoxdur, mən bunu qəbul edirəm. Mən gələcəyəm. Bundan sonra da cənab Xatəminin Azərbaycana ziyarətini gözləyəcəyik* [2, s.122]. Burada biz, konfliktogen faktorların təsiri ilə yaranmış gərgin situsiayada siyasi diskursun imkan verdiyi çərçivədə siyasi iradənin ortaya qoyulması ilə qarşılaşırıq. Məlumdur ki, əslində, öz mahiyyəti etibarı ilə, siyasi diskurs, burada yer alan ziddiyyətli mülahizələri ilə, subyektiv qiymətləndirmələri ilə ən konfliktogen diskurs növlərindən sayılır. Əgər əlavə olaraq, nəzərə alsaq ki, bu növ instutisional diskurs kəskin aktual problemlərlə gərginləşdirilmiş, bir növ, “doymuş” hala gətirilməklə aqqressiv, dözümsüz, qeyri-tolerant, inkarçı, etirazçı və s. bu kimi ayırımcıllığa, qarşıdurma meylliliyi ilə seçilir, bu zaman onun ən konfliktogen diskurslar sıarasında yer alması tam məntiqəmüvafiq görünəcədir [4, s.886-895]. Konfliktogen (yəni, konflikt törədici, konflikt yaradıcı) situasiyalarda kommunikasiyanın müsbət məcrada yönləndirilməsi üçün, xüsusi “aqressiya yatışdırıcı”, sakitləşdirici kommunikatemlərdən istifadə oluna bilər ki, yuxarıda təqdim olunan iqtibasda biz, ulu öndərin “*eybi yoxdur*” ifadəsinin məhz, bu

intensiya ilə istifadə olunduğunu görürük. *Eybi yoxdur, mən bunu qəbul edirəm.*- mürəkkəb cümləsi tabesiz mürəkkəb cümlə formatına uyğun gəlib, konstruktiv planda bölüşdürmə əlaqəsi ilə iki cümlənin birləşməsini təzahür etdirir. Xatırladaq ki, "*tabesiz mürəkkəb cümlənin komponentlərində iş və ya hadisələrin növbələşdiyini, müxtəlif şəxslər arasında bölüşdürüldüyü ifadə olunur, beləliklə, tabesiz mürəkkəb cümlənin xüsusi növü*" – bölüşdürmə əlaəqli tabesiz cümlə növü ortaya çıxır [1, s.314-315]. Lakin həmin cümlənin funksional-kommunikativ planda təhlili burada, əslində, bölüşdürmə anlamının deyil, implisit formatlı xəbərdarlıq, eyham anlamının ifadə tapdığını söyləməyə əsas verir. Ulu öndər, əslində, "*Eybi yoxdur*" – kommunikatemindən istifadə etməklə, eksplikaturada sakitləşdirici, barışcıl mesaj dilə gətirsə də, implikatura da isə əslində, çox böyük eyibin olduğuna diqqət çəkmişdi. Belə ki, məlum olduğuna görə, məsələyə funksional-kommunikativ sintaksis aspektində nəzər saldıqda istənilən cümlədə iki tərəf: ifadə planı (yəni, konstruktema əsasında reallaşan konstruktiv plan) və məzmun planı (kommunikatem əsasında reallaşan kommunikativ plan) mövcuddur.Onların müştərəkliyi isə cümlənin mikrosistemini formalaşdırır [3, s.61-68]. Cümlənin makrosistemi isə kontest çərçivəsində, situasiyaya nəzərən mövcudluq tapır. Məhz, izlədiyimiz makrosistem fərqli anlamın eksplikaturdan seçilən altmənanın olduğunu ortaya qoyur. Digər nümunə əsasında analoji eksplikatura – implikatura uyğunsuzluğunu izləyək: *Biz bu sahədə işimizi davam etdirməliyik və prezident Koçaryanla belə fikir də olduq ki, Minsk qrupunun həmsədrləri öz işini gücləndirməlidirlər. Arzu edirəm ki, siz bunu biləsiniz və istərdim ki, həmsədrlər bu işdə fasilə verməsinlər* [2, s.37-38]. Ulu öndər Minsk qrupu həmsədrlərinin fəaliyyətini, habelə Qarabağ münaqişəsinin həll variantları üzərində çalışmalarını sürdürən təşkilat və qurumların təşəbbüslərini qiymətləndirərkən səsləndirdiyi bu fikirlər də, əslində, implikaturda fərqli siyasi mesajı əks etdirir. Məlumdur ki, ənənəvi sintaktik təhlil müstəvisində biz, *Arzu edirəm ki,* və *istərdim ki,* tamamlıq budaq cümləli mürəkkəb cümlə ilə qarşılaşırıq. Baş cümləsində arzu-istək ifadə edən vəziyyət feillərinə (Stative verbs və ya state verbs) aid olub onların arzu feilləri növünü (verbs denoting wish) əhatə edirlər. Lakin məsələyə, funksional kommunikativ aspektdən nəzər saldıqda, burada arzu-istək semantikasının eksplikaturada ifadə tapdığı halda, real olaraq, yəni implikaturda isə xəbərdarlıq anlamının ifadə tapdığını deyə bilərik. Yəni, eksplikatiradan yanaşdıqda "üst qat" təhlilimiz burada rekvestivin yer aldığını təsbit etmək imkanı tanıyırsa, konsituasiyadan çıxış etdikdə, yəni bilavasitə funksional praqmatik aspektdən verilmiş kontekst çərçivəsindən dəyərələndirdə isə biz, H.Əliyevin heç də xahiş, arzu mövqeyindən çıxış etmədiyini, Avropalı diplomatları və ümumilikdə, Qərb siyasətçilərini xəbərdar etdiyi məlum olur ki, bu da artıq menasiv nitq aktının mövcudluğunun etirafına yol açır.

**Açar sözlər**: Heydər Əliyev, idiolekt, mürəkkəb cümlə, eksplikatura, implikatura.

## Ədəbiyyat

1. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. IV hissə, Sintaksis, Bakı: Maarif, 1985, 467 s.

2. Əliyev H.. Müstəqilliyimiz əbədidir, XXI kitab, Bakı: Azərnəşr, 2007, 480 s. http://anl.az/el/alf7/he_me21.pdf
3. Комкова А.С. Средства выражения экспрессивности в японском синтаксисе: к постановке проблемы [Электронный ресурс] / А.С.Комкова // Вестник Сибирского государственного университета путей сообщения: Гуманитарные исследования. – 2018. – № 1 (3). – С. 61–68. https://elibrary.ru/item.asp?id=35258251
4. Пушина Н.И, Леонов Н.И., Маханькова Н.В., Широких Е.А. Конфликтогенные факторы в условиях виртуального политического дискурса // Вестник Удмуртского университета. Серия История и филология. 2019. Том 29. Выпуск 5. с. 886-895.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİNİN EKZİSTENSİALLIQDA ÖNƏMİ

**Xədicə Rüstəmova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: aidaqurbanli719@gmail.com

Şübhəsiz ki, təhsil cəmiyyətdəki fərdlərin karyera qövsünü müəyyənləşdirən əsas amildir. Təhsilli şəxslər üçün mümkün ixtisas seçimləri və iş imkanları genişdir. Yoxsulluq və savadsızlıq bir-biri ilə əlaqədar olduğundan yoxsulluq problemi ilə üzləşən ölkələrdə təhsil səviyyəsi əksər hallarda aşağı səviyyədə olur. Bəzən isə, fərdlərin təhsil almaq imkanı olsa da, maddiyyat sıxıntısında olan ailələrin uşaqlarının məktəbə getmək əvəzinə işləyərək pul qazanması zərurəti meydana gələ bilər. Dünyada təhsilsiz yetkin şəxslərin təxminən üçdə ikisini qadınlar təşkil etməsi savadlılıq səviyyəsində gender fərqləri olmasını deməyə əsas verir. İqtisadi cəhətdən zəif inkişaf edən bölgələrdə qeydə alınan bu qeyri-bərabərlik nəticəsində ölkə üzrə ümumi savadlılıq səviyyəsi də aşağı düşür. Sevindirici haldır ki, ölkəmizdə təhsil sahəsində gender boşluğu müşahidə olunmur.

Ümumilikdə, qlobal savadlılıq səviyyəsi 15 yaşlı bütün oğlan və qızların savadlılıq səviyyəsi 86,3%, 15 və daha yuxarı yaşlı kişilərin savadlılığı 90%, qadınlarda isə 82,7% təşkil edir. Bununla belə, ölkələr arasında böyük fərqlər var. İnkişaf edən dövlətlərdə demək olar ki, böyüklərin savadlılığı 96% və ya daha yüksəkdir. Az inkişaf edən ölkələrdə isə orta savadlılıq faizi 65%dən aşağıdır. Keçirilən islahatlar nəticəsində ölkəmizdə savadlılıq dərəcəsi kişilər arasında 99,9%, qadınlar arasında isə 99,7%, ümumilikdə isə 99,81% faiz təşkil etməsi təhsil siyasətinin uğuru kimi dəyərləndirilə bilərik. UNESKO Statistika İnstitutu və bir sıra digər mənbələrə istinadən BMT İP-ın İnsan İnkişafı hesabatına əsasən təhsil indeksi ölkəmizdə müstəqillik qazandığımız dövrdə 0,61 idisə 2003-cü ildə 0,66, hal-hazırda isə 0,711 təşkil edir. Bu isə, savadlı şəxslərin sayının artması ilə kadr potensialının yüksələrək intellektual şəkildə təbliğinə şərait yaranmasını sübut edir.

Nelson Mandelanın "Təhsil dünyanı dəyişdirmək üçün istifadə edə biləcəyiniz ən güclü silahdır." fikri təhsilin önəmini vurğulayır. Təhsilin köməyi ilə canlılara xarakterik təşkilatlanma qanunauyğunluqlarını özünütəşkiletmə və vahid dinamik prinsipdə ümumiləşdirə bilərik. Canlılar özünü təşkil edən sistem olduğundan onun nizam-intizamı ətraf mühit tərəfindən qoyulmur, həmin

sistemin özü qurur. Moskva “Skolkovo” İdarəetmə Məktəbinin 2014-cü ildə apardığı “Gələcəyin Bacarıqları” araşdırmasına əsasən ekzistensial bacarıqlar bütün ömrü boyu formalaşaraq, inkişaf edir. Demək olar ki, hər bir ailədə bağçada, orta ümumtəhsil məktəblərində, ali təhsil müəssisələrində təhsil alanların və ya təhsil müəssisəsində çalışanların olmasını nəzərə alsaq, təhsil prosesinin uğurlu təşkil olunmasının ekzistensiallığın inkişafında çox mühüm rol oynadığını əminliklə deyə bilərik. Amerikalı psixoloq Rollo Meyin fikrincə müasir dövrdə insanların emosional və mənəvi aspektlərdən özünü ifadə etməsini ehtiva edən ekzistensializm onların psixoloji vəziyyətini təsvir edir və xarakterik cəhətləri ifadə edən mədəni hərəkata çevrilib. Təhsilin şagirdlərin əxlaqi seçim etmələrində stimuledici rol oynaması və tarix fənninin ekzistensiallığı inkişaf etdirəcək emosional faktlarla zənginliyi təhsil və həyat mövqeyi kimi həssas komponentlərin inteqrasiyasının effektivliyini artıra bilər.

Ötən əsrin sonlarında baş verən siyasi dəyişikliklər fonunda yenidən müstəqillik qazanan dövlətimiz təhsil sahəsinə göstərilən qayğı nəticəsində beynəlxalq təcrübələrdən faydalanmaq, təhsilin nəinki məzmunu və strukturu, həmçinin kəmiyyət baxımından inkişafı istiqamətində əsaslı tədbirlər həyata keçirmişdir. Təhsilin önəmini H.Əliyevin “Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır” sözləri ilə ifadə edərək ölkəmizin bu sahədə apardığı islahatların mahiyyətini daha yaxşı anlaya bilərik [1, s.181]. 1969-1982-ci illərdə H.Əliyevin Azərbaycan SSRİ-nin KPMK-nın birinci katibi olduğu vaxtlarda 5 yeni ali təhsil müəssisəsinin açılması, təhsil alanların sayının isə əvvəlki dövrlə müqayisədə 30 min nəfər artaraq 100 min nəfərə yüksəlməsi təhsilə göstərilən diqqətin sübutudur. Professianal hərbi kadrların yetişdirilməsi sahəsində keçirilən siyasətin bəhrəsi olaraq SSRİ hərbi məktəblərinə azərbaycanlıların qəbul sayının artması, C.Naxçıvanski adına hərbi məktəbin açılmasını, Bakı Birləşmiş Komandirlər məktəbində təhsil alan kursantlar arasında az müddətdə azərbaycanlıların əksəriyyət təşkil etməsi milli müstəqilliyimizin qazanılması uğrunda apardığımız mübarizənin sağlam bünövrəsinə zəmin olmasını iddia edə bilərik [6, s. 600]. Bu H.Əliyevin “mən millətimə xidmət etmək istəyirəm” düşüncəsinin nəzəriyyədən praktiya əməli tətbiqi idi [7, s. 218]. Əslində, H.Əliyevin hərbi təhsil sahəsinə göstərdiyi diqqət hər zaman özünə örnək hesab etdiyi Atatürkün “Sülh istəyən xalq hərbə hazır olmalıdır” təbirinin reallaşdırılması idi.

H.Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonrakı elm sahəsinə qayğısına bariz nümunə onun prezident seçkilərindən əvvəl 1993-cü ilin 21 sentyabrında Elmlər Akademiyasında ziyalılarla görüşünü və hər vəchlə Azərbaycan elminin inkişaf etdirilməli olduğunu vurğulamasını göstərə bilərik. Fərdlərin həyatında inkişaf traektoriyasını təhsilin müəyyənləşdirdiyini nəzərə alan H.Əliyev türkçülük, azərbaycançılıq ideyalarının yayılmasında təhsil prosesində bu siyasətin gerçəkləşdirilməsi istiqamətində əməli addımlar atmışdır. Professor N.Cəfərovun fikrincə ümummilli lider Atatürkçülüyü milli birlik yaratmaqda, milli dövlət qurub inkişaf etdirməkdə görürdü. Bu istiqamətdə atılan addımlardan biri isə, 2001-ci il avqustun 13-də Azərbaycan Atatürk Mərkəzinin yaradılması barədə H.Əliyev fərman vermiş və 2004-cü ilin aprelində mərkəzin təntənəli açılışı keçirilmişdir. H.Əliyevin Azərbaycan Atatürkü olmaq amalını “Cumhuriyyət”

qəzetinə 1997-ci ilin iyun ayında verdiyi "Türk xalqının ən böyük övladının yolundan getmək mənim üçün bir vəzifədir" açıqlaması da bir daha təsdiq edir [7, s. 472].

H.Əliyev millətin inkişafının əsas amillərindən biri olan elmin dəyərini nəzəriyyələrin praktikada tətbiqini əsas tutaraq deyidri: "Xalq həmişə ziyalıları, mədəniyyəti, elmi ilə tanınır. Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, ölkəyə, cəmiyyətə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar [2, s.61-62]."

Nəticə olaraq deyə bilərik ki, ölkəmizdə təhsilin səviyyəsinin yüksəldilməsi insanların xarakterinin müəyyənləşdirilməsinə, daxili və xarici aləm arasında əlaqəni təmin edən ekzistensial bacarıqların daha yaxşı formalaşmasına stimul verə bilər. Təsadüfi deyil ki, H.Əliyevin təhsil siyasətini davam etdirən Prezident İlham Əliyev təhsil keyfiyyətinin yüksəldilməsini və neft kapitalının insan kapitalına çevrilməsini ölkəmizdə strateji hədəf olaraq elan edib.

**Açar sözlər:** Azərbaycan, Atatürk, Heydər Əliyev, İlham Əliyev, ekzistensializm, təhsilin önəmi.

**Ədəbiyyat**


1. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı, "Qap-Poliqraf" korporosiyası, 2003, 368 s.
2. Heydər Əliyev. Biblioqrafiya. Bakı 2018, 680 s.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab. Bakı: Azərnəşr, 1997, 597 s. 2.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. II kitab. Bakı: Azərnəşr, 1997, 588 s.
5. Heydər Əliyevin müdrik kəlamları: Heydər Əliyev təhsil haqqında
6. Mərdanov Misir. Azərbaycan təhsil tarixi II cild (1920-1991-ci illər). Bakı, Təhsil, 2011, 704 s.
7. Zirve Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, 493 s.
8. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkiŖafında Heydər Əliyevin rolu" mövzusunda beynəlxalq elmi konfransının materialları. Bakı – 2021, 97s.
9. https://worldpopulationreview.com/country-rankings/education-rankings-by-country
10. https://en.wikipedia.org/wiki/List_of_countries_by_literacy_rate
11. https://en.wikipedia.org/wiki/Education_Index

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINA DAİR

**Fazil Rüstəmov**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: rustemov_1969@mail.ru

XX əsrin sonu, XXI əsrin əvvəllərində mütləq mənada aydın oldu ki, milli iqtisadiyyatın inkişafında və cəmiyyətin həyatında təhsilin rolu əvəz olunmazdır. Dövlətin və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsini və iqtisadi tərəqqisini ölkənin malik olduğu təbii sərvətlərindən daha çox onun təhsilinin və elminin inkişaf səviyyəsi müəyyən edir. H.Əliyev deyirdi:“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. C əmiyyət təhsilsiz inkişaf edə bilməz” [2].

Azərbaycanın təhsil sistemindən danışarkən əvvəlcə, onun tarixi inkişafına ekskursiya etmək lazımdır. Azərbaycanın təhsilinin yüksələn xətt üzrə inkişafı isə H.Əliyevin adı ilə birbaşa bağlıdır. Bu nöqteyi nəzərdən təhsilimizin inkişafını iki mərhələyə bölərdim: birinci mərhələ H.Əliyevin ilk dəfə hakimiyyətə gəldiyi dövr(1969-cu il); ikinci mərhələ H.Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi dövr(1993-cü il).

Birinci mərhələdə H.Əliyev Respublikamızın orta və ali təhsilinin yüksək səviyyədə inkişafına diqqət və qayğını artırdı, bununla belə digər Respublikalarda, xüsusilə Mockva, o zamankı Leninqrad (indiuki Sankt-Peterbuq), Kiyev və d. Universitetlərdə azərbaycanlıların təhsil almasını, onlarda azərbaycan gənclərinin kadr hazırlığına xüsusi əhəmiyyət verirdi.

Məhz, onunköməyilə 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali məktəbində Respublikamızın elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına yardım etmişdir. Həyata keçirilən bu işlər H.Əliyev fenomeninin uzaqgörən, vətənini sevən siyasətinin nəticəsi kimi yaranmışdır. O, bilirdi ki, Azərbaycanın, Azərbaycan xalqının gələcəyi onun apardığı bu siyasətlə birbaşa bağlıdır. Çünki xalqın gələcəyi və onun inkişafı mövcud dövrdə yetişdirilən gənclərdən, gənc savadlı, bacarıqlı kadrlardan birbaşa asılıdır.Buna görə də H.Əliyev bütün dövrlərdə, digər sahələrdə olduğu kimi Azərbaycan gənclərinə və onların təhsilinə xüsusi diqqət və kömək edib. Bir nümunə göstərim: 1970-ci ilə qədər Respublikamızdan kənarda təhsil alanların 40 faizi azərbaycanlı idisə, 1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində bu göstərici 97,7 faizə qalxmışdı.

İkinci dəfə hakimiyyətə gəldikdən sonra da, yəni Müstəqil Azərbaycanın təhsil sistemindəki uğurları və nəticələri də birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Respublikamızı ağır durumdan azad edən Heydər Əliyev ölkədə digər sahələrdə olduğu kimi, təhsil sahəsinə də xüsusi diqqətlə və ehtiyyatla yanaşırdı.

1993-cü il oktyabr ayının 3-də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra, onu daha ağır və məsuliyyətli məsələlərin həlli gözləyirdi: atəşkəsə və sabitliyə nail olmaq, Qarabağ probleminin həllinə çalışmaq, Azərbaycanı dünyaya tanıtmaq və informasiya blokadasını yarmaq...

Bununla belə, H. Əliyevin təhsilimizə göstərdiyi diqqət və ehtiyyatın arxasında Onun "Təhsil millətin gələcəyidir", "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" ideyaları dururdu.
Azərbaycanın müstəqilliyinin əvvəllərinə diqqət etsək, görərik ki, təhsil sahəsində də müxtəlif çətinliklər, problemlər mövcud idi. Bu problemlər məktəblərin yenidən qurulmasında, onların tikilməsində, dərsliklərin və təhsil proqramlarının yenidən tərtib olunmasında özünü biruzə verirdi. Sözsüz ki, bütün bu deyilənləri və deyilməyənləri nəzərə alaraq, yeni məktəblərin tikilməsi, yeni dərs metodlarının tətbiq olunması, dərsliklərin və təhsil proqramlarının yenidən tərtib olunması və digər yüksək səviyyəli işlərin icrası ardıcıl və nizamlı şəkildə aparıldı və indi də bu işlər davam etdirilir.

Bu illərdə, məktəbəqədər təhsilin bazis proqramı işlənib hazırlandı, "Ümumtəhsil məktəblərinin nümunəvi əsasnaməsi"nin yaradılması məsələsi qoyuldu. Hökumətin böhran vəziyyətində olmasına baxmayaraq, ibtidai siniflər üçün dərsliklərin pulsuz paylanılması haqqında qərar qəbul edildi.

Heydər Əliyev təhsil sistemində olan problemlərin daha uğurlu həlli üçün Azərbaycanın tarixində ilk dəfə Təhsil sahəsində islahatlar aparılması üçün tapşırıqlar verdi. Bu tapşırıqların həyata keçirilməsi məqsədilə 1998-ci il martın 30-da Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasında Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu.

Bu siyasətin məntiqi davamı olaraq, 1998-ci ildə Azərbaycan müəllimlərinin birinci qurultayı baş tutdu və Heydər Əliyev qurultayda tarixi çıxış etdi. Bu çıxış sanki təhsil sahəsində çalışan işçilərin qarşısında duran vəzifələrin həlli üçün bir proqram idi. Qurultayda Azərbaycan təhsil tarixində ilk dəfə Respublika Təhsil Şurası yaradıldı.

O, 1999-cu ilin iyunun 15-də Milli Qurtuluş günündə Təhsil Sahəsində İslahat Proqramını xüsusi sərəncamla təsdiq etdi. Heydər Əliyev təhsil sistemində islahatların əsas məqsədini özü müəyyən etmişdi: "Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki,Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın….On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir.Əgər biz bu yolla gedəriksə,qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik"[3].

"Təhsil sahəsi xalqımızın bu günü,millətimizin,dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" deyən Heydər Əliyev Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən fərman, sərəncamlar verdi: "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli, "Dövlət dilinin tətbiq işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, "Azərbaycan əlifbası və Azərbaycan dili günü (01 avqust) təsis edilməsi haqqında 09 avqust 2001-ci il tarixli bəyanat", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərman təhsilimizi dünya standartları səviyyəsinə qaldırdı. Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının

öyrədilməsinə, mükəmməl dərsliklər hazırlanmasına, xüsusilə Azərbaycan dilinin öyrədilməsinə, Dövlət dili statusunda təbliğinə diqqət daha da artırıldı.

H. Əliyevin “Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi” haqqında 4 oktyabr 2002-ci il tarixli sərəncamı və həmin sərəncama uyğun hazırlanmış xüsusi proqram sayəsində Azərbaycanda dünya standartlarına rəqabətə girə biləcək müasir tipli məktəb binaları tikilməyə başlandı.

Onun rəhbərliyi, tövsiyəsi ilə hazırlanmış proqramlar, strateji yol Azərbaycan təhsilinin, onun maddi-texniki bazasının uzunmüddətli, dinamik inkişafını təmin etməyə hesablanmışdır.

Respublikamızın Prezidenti İ. Əliyev Heydər Əliyev ideyalarını uğurla davam etdirərək təhsilimizin inkişafına, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmlənməsinə böyük diqqət yetirir.

**Açar sözlər**: Heydər Əliyev, təhsil, elm, təhsil islahatı, Respublika Təhsil Şurası.

Ədəbiyyat

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı: Azərnəşr, 1997.
2. https://lib.aliyev-heritage.org/az/1948590.html
3. https://e-qanun.az/framework/5363

## HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELİTAR DİSKURSUNUN APARICI “KONSEPT YARADICI” (CONCEPT MAKER) AKTORU KİMİ

**Aygün Rüstəmzadə**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: r.aygun.h289@gmail.com

Azərbaycan elitar diskursunun müasir dönəmə dair formalaşma mərhələsi XX əsrin son onilliklərindən başlamışdır. Belə ki, elitarlığın diskursiv ortam yaratma ənənələrinin Sovet işğalı dönəmində aradan qalxması ilə, Azərbaycan uzun onilliklər boyu bolşevizm eqalitarizimin ideya-fəlsəfi postulatlarına uyğun şəkildə süni “bərabərlik” və ya daha dəqiq desək, zorakı bərabərləşdirmə sosial strukturlaşma fəlsəfəsindən çıxış etmək məcburiyyətində qalmışdır. Lakin Sovet rejiminin çöküşü, kommunist ideologiyasının iflası ilə bu sosial tənzimləmə mexanizminin fəaliyyətinə də son verildi. Nəticədə müstəqil Azərbaycanda yeni ideoloji zəminə əsaslanan cəmiyyətin formalaşması prosesinin tərkib hissəsi kimi elitar təbəqənin – yaradıcı, intellektual, siyasi, iqtisadi (daha sonralar oliqarxik) elitar zümrə nümayəndələrinin müəyyən ortaq ünsiyyət sferasının yaradılması prosesinı də təkan verildi. Həmin proses süni “bərabərləşdirməni”, yəni eqalitarizmi inkar edən yaşam fəlsəfəsinə istinad etsə də, sosial seqreqasiya mexanizmlərindən tam uzaq, yəni təbii seçmə yolu ilə icra edilməkdə olan mürəkkəb və çoxşaxəli fəaliyyət sistemini təzahür etdirməyə başladı. Həmin prosesin başında isə gözlənildiyi kimi, Azərbaycan toplumunun

sosial, siyasi-inzibati iyerarxiyasının zirvəsində dayanan şəxs, yəni ölkə başçısı rəhbərlik etməli idi ki, bu da ən ağrılı tarixi dönəmdə ölkə idarəçiliyi kimi çətin missiyanı üzərinə götürmüş ulu öndər Heydər Əliyevin öhdəsinə düşən daha bir etimad, məsuliyyət kimi ortaya çıxdı. Başqa sözlə desək, H.Əliyev təkcə müstəqilliyi çox sayda təhlükələrlə üzləşən dövləti amansız siyasi fırtinalar məngəsindən xilas etmək məsuliyyəti ilə yüklənməmişdi, ümummilli lider eyni zamanda xalqımızın mental şüurundakı yenidəntərtiblənmə, ideoloji müstəvidəki təkrardəyərləndirmə proseslərinin ilhamverici, yönləndirici siması kimi etnopsixoloji, etnososial zəmində baş verən əsaslı "tektonik" dəyişikliklərin istiqamətvericisi, tənzimləyicisi missiyasını da icra etmək məsuliyyəti ilə də yükləndi. Bu kontekstdə yeni dəyərlər sistemi çərçivəsində "aşağılar – yuxarılar" qarşıdurmasının yaşanmasına imkan vermədən, sosial antaqonizmi tətikləmədən cəmiyyətin seçkin simalarının – aparıcı yaradıcı şəxslərin, alim və incəsənət adamlarının, habelə siyasi xadimlərin xüsusi imtiyazlarla bərabər, əlahiddə məsuliyyətlə yükləndiyinin fərqinə varan bir "elitarlaşma", daha dəqiq desək, təbii seçim əsasında seçkin şəxslərin, toplumun "qaymaqlarının" idarəçilik işinə cəlb olunması prosesi müşahidə edilməyə başladı. Bu əsasda əminliklə demək olaraq ki, müstəqil-liyimizin əldə edilməsindən sonra Azərbaycan elitar diskursunun formalaşmasında müstəsna əhəmiyyətli rol, məhz, ulu öndər Heydər Əliyevin üzərinə düşmüşdür. Bilvasitə dilçiliklə bağlı onu deyə bilərik ki, ümummilli liderin dövlət dilinin adı ilə bağlı müzakirələrdə geniş ictimaiyyətə açıq təhlillərin aparılmasına rəvac verməsi, həmin müzakirələrdə ölkənin aparıcı elm, mədəniyyət, incəsənət xadilmələrinin fikirlərini dinləyərək məşvərət əsasında ortaq rəyin əldə edilməsi də, özlüyündə, Azərbaycan elitar diskursunun formalaşmasındakı ilk əhəmiyyətli addımlar kimi dəyərləndirilə bilər. Xatırladaq ki, Azərbaycanın müstəqillik qazanmasından sonra ilk dəfə ümum-xalq səsverməsi yolu ilə qəbul ediləcək konstitusiyasının "Dövlət dili" ilə bağlı maddəsinin iki gün davam edən geniş tərkibli müzakirələri zamanı A.N.Qəriblinin də qeyd etdiyi kimi, səsləndirilən fikir və təkliflər əsasən aşağıdakı üç variantı əhatə edirdi: *1) türk dili; 2) Azərbaycan türk dili və ya Azərbaycan türkcəsi; 3) Azərbaycan dili.* [3, s.46]. Məhz, həmin müzakirələr istər təhlil obyektinin (müzakirə mövzusunun) mahiyyəti baxımından, istərsə də müzakirələrə cəlb olunan şəxslərin kimliyi baxımından əsl mənada elitar diskurs reallaşmasını təcəssüm etdirirdi. Heydər Əliyev burada başlıca diskurs formalaşdırıcı aktor (iştirakçı) olmaqla bərabər, eləcə də aparıcı konsept yaradıcı şəxs kimi öz nüfuzunu ortaya qoyurdi. Həmin müzakirələrin canlı şahidlərindən birinin – prof. J.Əliyevanın "Heydər Əliyev və ana dilimiz" adlı araşdırmasında xatırladığı kimi, "*ölkənin çox nüfuzlu, tanınan alimləri, yazarları həmin toplantıda idi. Ulu öndər hər kəsə danışmaq, öz mülahizələrini ifadə etmək, təkliflər irəli sürmək və bu təkliflərini müdafiə etmək imkanı və şəraiti yaratmışdı. ... Dilimizin türk dili, azəri-türk dili, türkcə, azəri türkcəsi, Azərbaycan türk dili, və b. kimi adlandırılmasıni təklif edənlər və bu mülahizələrini xalqın etnosu, etnik mənşəyi, etnik mən-subiyyəti ilə əlaqələndirənlər var idi və bunu da deyim ki, özlüyündə onlar da haqlı idilər* [2; 7]. Ar-tıq qeyd etdiyimiz kimi, H.Əliyevin Azərbaycan elitasının nümayəndələri ilə keçirdiyi vaxtaşırı görüşlər, aparılan müzakirələr onu milli elitar diskursumuzun təkcə flaqmanı deyil, eləcə də başlıca "consept maker"-inə çevirmişdir. Belə ki, məhz, ulu öndərin yorulmaz fəaliyyəti nəticəsində ölkə gündəmindən, o cümlədən elitar diskursun konseptsferasından "Qarabağ", "Müharibə", "Sülh danışıqları", "Qaçqınlıq" və s. bu kimi cəmiyyətimiz, xalqımız üçün aktual olan konseptlər kənar-

laşmırdı. Məhz, ziyalılarımızla, yaradıcı şəxslərimizlə görüşlər zamanı Qarabağ probleminin ağrılı məqamlarını müzakirə edən ulu öndər erməni işğalına dair faktların bədii əsərlərdən əbədiləşdirilməsini təşviq etməklə yanaşı, ölkənin siyasi-ideoloji istiqamətini də yönləndirmiş olurdu. Belə ki, məlum olduğu kimi, istənilən ölkənin idarəedici potensialı onun passionar gücünün cəmləşdiyi elitar təbəqəsində cəmləşir. Bu mənada elitar diskursun başlıca aktoru, onun "consept maker"i də, əslində, ideoloji zəmində cəmiyyəti idarə edən qüvvəyə çevrilmiş olur. H.Əliyevin idiolektində elitarlıq anlayışını ayrıca mikrokonsept kimi nəzərdən keçirsək, bu zaman həmin mikrokonseptə aşağıdakı açıqlamalarda yer alan söz və ifadələrin aid ediləcəyini yəqinləçdirə bilərik: *Onların böyük əksəriyyəti* ***dünyagörmüş***, ***böyük təcrübə toplamış, yüksək biliyə, elmi potensiala, intellektə malik olan, ziyalı tərbiyəsi*** *almış insanlardır. Bu, bizim partiyanın* ***üstünlüyünü*** *göstərir* [1, s.321]. Göründüyü kimi, H.Əliyev öz ətrafına müvafiq göstəricilərə malik şəxsləri toplamaqla əsl mənada elitar diskurs ortamı formalaşdırmağa müvəffəq olmuşdur.

**Açar sözlər:** Heydər Əliyev, elitar diskurs, "konsept yaradıcı" (concept maker), diskurs aktoru (diskurs iştirakçısı), Azərbaycan dil mühiti.

**Ədəbiyyat**

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2007, 480 s.
2. Əliyeva J. Heydər Əliyev və ana dilimiz. Xalq qəzeti.- 2010.- 8 may.- s. 7. http://anl.az/down/meqale/xalqqazeti/2010/may/118802.htm
3. Qəribli A.N. Türk dili və Türk dilləri anlayişlarinin formalaşmasi tarixinin elmi-metodoloji problemləri, Elmlər doktoru elmi dərəcəsi almaq üçün .. dissertasiyanın avtoreferatı, Bakı, 2022, 57 s.

## AZERBAIJAN - TURKEY RELATIONS - GREAT LEADER HEYDER ALIYEV

**Parvana Safarova, Aytac Javadova**
Mingachevir State University, Mingachevir, Azerbaijan

Relations between Azerbaijan and Turkey have a long history. Common roots, language, religious unity, similar culture, customs and traditions are among the factors that determine these relations. Turkey and Azerbaijan have shown that they support each other in the most complex periods of their history. The liberation of Baku by the Turkish Caucasian Islamic Army under the command of Nuru Pasha after long struggles and wars in 1918 was an important turning point for Azerbaijan. As the national leader of the Azerbaijani people, Heydar Aliyev, said: "The Turkish army's arrival in Azerbaijan, in Baku, and the rescue of Azerbaijan from the attack of the Dashnaks lives in the heart of every Azerbaijani. The Azerbaijani people will never forget the help that the Turkish people gave in this difficult time."

The late Heydar Aliyev, in one of his speeches, said: “I would like to state that our nation has been close friends with each other for centuries. We are nations of the same origin, speaking the same language. Our national values are very close and similar to each other”. It means. The political-ideological work of Heydar Aliyev, the founder of the modern Azerbaijan state and the national leader of the Azerbaijani people, did not only end with the borders of Azerbaijan, but these studies covered the whole Turkic World. The late President of Azerbaijan Heydar Aliyev, who has rich state administration, experience and potential, has done great things as a leader for the unity of the Turkic World. After coming to the administration of Azerbaijan, a number of lines are also selected in the political point of Heydar Aliyev:

To benefit from the potential opportunities of the Turkish World in solving the economic, political and social problems of Azerbaijan;

- ✓ To unite the forces of the Turkic World, to ensure the joint action of the Turkic World in solving the problems of any Turkish state;
- ✓ To try to further strengthen the international image of the Turkish World and to take advantage of the opportunities of each independent Turkish state for this.[1]

The period when Heydar Aliyev was more concerned with the problems of the Turkic World began after he was elected President of the independent Azerbaijan Republic. In his application dated July 05, 1993 to the participants of the 2nd meeting of the “Economic Participation” Organization held in Istanbul, Heydar Aliyev stated the following: "Uzbekistan, Turkmenistan, Kyrgyzstan, Tajikistan, Azerbaijan have unused rich natural wealth and reserves. Their combined use will be transformed into the real Muslim conviction and will show its benefits for the development of all humanity".

In this application, the ideology of Turkishness has at least three historical values:

1) Demonstrating the independence of individual Turkish states;

2) Working towards the unity of the Turkish and the Muslim world;

3) That this union serves in the creation of harmony in the world.

One of the reasons for Haydar Aliyev's love for Turkey was that roads stretched from the entire Turkic World to Turkey, and the entire Turkic World was visible from Turkey. It appears today. Turkey sees not only the successes of the Turkish world, but also plays the role of a patient jury by seeing the flaws and problems. The most successful follower of Heydar Aliyev's thought, President Ilham Aliyev's love for Turkey and Turkishness is not only a Turkish devotion, but also an Azerbaijani and Turkism morality inherited from our great fathers and which should be preserved and entrusted to future generations. Great Leader Mustafa Kemal Atatürk, the founder of the Republic of Turkey: "Azerbaijan's joy is our joy, its sorrow is our sorrow." “I Believe in Turkish Unity.” “I believe in the Turkish Union [2]. Tomorrow's history will open its new chapters with the Turkish Union. The world will find tranquility in this chapter. The existence of the Turk will open new horizons for this decrepit world, what the sun means, then it will be seen.” “They are our brothers with one language and one essence.” “Language is a bridge. Faith is a bridge. History is a bridge. We must get down to our roots and unite in our history. We can't wait for them to get closer to us. We need to get closer to them.” General Leader of Azerbaijan Heydar Aliyev: "Turkey,

created by Atatürk, is important not only for Turkey, but also for the entire Turkic World and Azerbaijan." “The Two Countries have the same root, the same value, the same religion and the same language.” “We all come from one root. The idea and intelligence of all of us is also tied to our roots [3]. We care about our roots.” “We know the value of the Republic of Turkey more than you do” Azerbaijan and Turkey are in place in Baku-Tbilisi-Ceyhan, Baku-Tbilisi-Erzurum, Kars-Tbilisi-Ceyhan and other strategic projects. Even in its basic principles, the ideology of Turkism, which is based on Atatürk's idea of "Peace at home, peace in the world", is the friendship slogan of Turkey and Azerbaijan. Like "One nation, two states" Azerbaijan's sorrow is Turkey's sorrow, its joy is Turkey's joy.

**Keywords:** Azerbaijan-Turkey brotherhood, Turkish ideology, political-ideological position.

**References**

1. https://yesiligdir.com/yazar/yazi/7547
2. https://lib.aliyev-heritage.org/az/44726128.html
3. https://www.yeniazerbaycan.com/Siyaset_e53032_az.html

## HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏT İLLƏRİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINDA LİZİNQ PROSESİ

**Günel Səfərova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində yenidən doğulması Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövrdə Azərbaycanı bir dövlət kimi dövrün çətin və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş, onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır [3].

Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə ölkə həyatının bir çox sahələrində olduğu kimi, lizinq şirkəti fəaliyyəti ilə də bağlı bir sıra mühüm tarixi addımlar atılmışdır. Belə ki, Heydər Əliyevin hakimiyyətinin ilk illərində, 1994-cü ildə “Lizinq xidməti haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir [2].

Lizinq fəaliyyətinin yaradılması və onun tənzimlənməsi prosesi ilk hüquqi əsasını 2000-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Vergi Məcəlləsində və digər qanunvericilik aktlarında öz əksini tapmışdır [1].

İqtisadiyyatın bir çox sahələrində olduğu kimi, Heydər Əliyevin lizinq prosesi ilə bağlı həyata keçirdiyi yeniliklərin davam etdirilməsi nəticəsində 1993-cü ildə Azərbaycanda cəmi bir lizinq şirkəti fəaliyyət göstərirdisə, 2005-ci illə müqayisədə lizinq şirkətlərinin sayı 2011-ci ildə 2 dəfə artaraq 22-yə bərabər olmuşdur. Digər təqdirəlayiq addım isə lizinq portfelində baş verən müsbətə doğru dəyişiklikdir, beləki, əgər 2005-ci ildə lizinq portfelinin həcmi 34 mln. dollar təşkil edirdisə, 2008-ci ildə bu göstərici 209 mln. dollara bərabər olmuşdur.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan iqtisadiyyatı, lizinq prosesi.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1380-1383.
2. Azərbaycan Respublikasının Qanunlar Külliyatı, 3 cilddə, Bakı: I c., 2001, 1381.
3. https://heydar-aliyev-foundation.org/uploads/files/ferman_en.pdf

## XARİCİ İNVESTORLARIN AZƏRBAYCANA CƏLB EDİLMƏSINDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Zərifə Səlimova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

XX əsrin sonlarında dünyada baş verən geosiyasi hərəkatlar nəticəsində Azərbaycan Respublikası öz siyasi və iqtisadi müstəqilliyini əldə etdi. Müstəqilliyin əldə edilməsindən qısa bir zaman keçməsinə baxmayaraq dünyanın bir çox dövlətləri Azərbaycan Respublikası ilə iqtisadi münasibətlər qurmağa maraq göstərirdilər. Bunun əsas səbəbi isə Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması idi. Hadisə və prosesləri dərindən və hərtərəfli təhlil edərək, ulu öndər Heydər Əliyev hesab edirdi ki, yenicə müstəqillik əldə etmiş ölkənin iqtisadi cəhətdən möhkəmlənməsi üçün dünya ölkələri ilə iqtisadi əlaqələrini genişləndirməsi, ölkəyə xarici investisiyaların cəlb edilməsi zəruridir. Reallıq isə bundan ibarət idiki, müəyyən səbəblərdən, o cümlədən Qarabağ münaqişəsi həll olunmadığından xarici investorlar Azərbaycana investisiya yatırılmasına ehtiyatla yanaşırdılar. Ulu öndər özünün bütün xarici səfərlərində, keçirdiyi görüşlər zamanı ölkənin iqtisadiyyatı, tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verirdi və bununlada Azərbaycan əlverişli investisiya mühitinin olduğunu onlara çatdırırdı.

Ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün ilk növbədə neft və qaz layihələrinin reallaşdırılması lazım idi. 1994-cü ildə çox böyük maneə və çətinliklərə baxmayaraq, aparılan gərgin işlər nəticəsində Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında"Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsinin bağlanması ilə bu istiqamətdə ilk addım atıldı. İlkin hesablamara görə, ”Azəri-Çıraq-Günəşli” yataqlar blokunun çıxarıla bilən neft ehtiyatı 511 milyon ton müəyyən edilmişdir. Daha sonralar qiymətləndirici quyuların nəticələrinə görə 730 milyon tona çatmışdır.Yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11.5 milyard

ABŞ dolları idi.Ümumi xalis gəlirdə azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşürdü.

Hasil edilən külli miqdarda xam neftin dünya bazarına nəql edilməsi də bir sıra çətinliklərə üzləşdi. H.Əliyevin qətiyyəti ilə Bakı-Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsi və onun maliyyələşdirilməsi məsələsi həll olundu. Təməli ulu öndər tərəfindən 1999-cu ildə qoyulan və sonralar “Üç dəniz əfsanəsi” adlandırılan bu nəhəng layihə 2006-cı ildə istifadəyə verildi. Eləcə də O dövrdə kəşf edilmiş “Şahdəniz” yatağından hasil ediləcək təbii qazın dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ərzurum qaz kəməri xəttinin tikilməsi məsələsi həll edildi.

Bu lahiyələrin həyata keçirilməsindən əldə edilən gəlirlərin iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsinə yönəldilirdi.

Azərbaycan Respublikasının əlverişli geosiyasi və coğrafi məkanda yerləşməsini, Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynamasını və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malik olmasını nəzərə alaraq Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə xüsusi əhəmiyyət verməyə başladı.

Tarixi təcrübə göstərdi ki, ulu öndərin uğurlu neft strategiyası ölkəmizin iqtisadi inkişafı ilə bərabər onun beynəlxalq imicinin və nüfuzunun artmasına səbəb olmuşdur. Heydər Əliyevin yeni neft strategiyası nəticəsində bu gün Azərbaycan Respublikası regionun ən dinamik inkişaf edən, iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və eyni zamanda tam müstəqil siyasət yeridən bir ölkəyə çevrilmişdir.

Azərbaycanın milli iqtisadiyyatın innovativ inkişafının əsas problemlərinin həlli birbaşa xarici investisiyaların cəlbediciliyindən asılıdır. Çünki qabaqcıl texnologiyaların, avadanlıqların və nou-haunun xaricdən ölkəyə gətirilməsini təmin etmək, bu əsasda texnoloji stukturu yeniləmək, sənaye istehsalını canlandırmaq və artırmaq baxımından bu tip investisiyalar əhəmiyyətli rola malikdir.

Əlverişli investisiya mühitinin formalaşması və birbaşa xarici investisiyaların cəlb edilməsi problemlərinin həlli, həmçinin ölkənin inkişafının müxtəlif iqtisadi, sosial, siyasi, infrastruktur və digər aspektləri ilə əlaqədardır. Bu gün ölkəmizdə əlverişli investisiya mühiti bərqərar olmuşdur və ölkəmizə hər il 5-6 mlrd. dollar xarici investisiyalar yönəldilir.

Heydər Əliyevin uğurlu xarici siyasətini davam etdirən cənab İlham Əliyev 2006-cı ildə “Bakı-Tbilisi-Ceyhan”, 2007-ci ildə “Bakı-Tbilisi-Ərzurum” kimi nəhəng neft və qaz marşrutlarının təntənəli açılışını reallaşdırdı. 2015-ci ildə Qarsda TANAP-ın təməlqoyma mərasimi oldu. 2016-cı ildə anoloji addım TAP layihəsi ilə bağlı atıldı.

**Açar sözlər:** Xarici-iqtisadi siyasət, xarici investisiyalar, investisiya mühiti, neft strategiyası, innovativ inkişaf.

**Ədəbiyyat**

1. Məmmədov Ə.C., Seyfullayev İ.Z. Vergi və investisiya. Bakı: Çaşıoğlu, 2013, 376 s.
2. Валдайцев С.В. и др. Инвестиции. М.: Проспект, 2008, 584 с.
3. Петрикова Е.М. Прямые иностранные инвестиции и экономический рост // Вопросы статистики. № 9, 2009, с. 14-21.
4. Юзвович Л.И., Дегтярева С.А. Инвестиции. Екатеринбург, 2016, 316 с.
5. Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi, İstanbul, 2007.

# İBRAHİM YUSİFOĞLUNUN "O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR" POEMASINDA HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI HAQQINDA

**Salidə Şərifova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan

## Giriş

Heydər Əliyev haqqında nəzm, nəzr və dram əsərləri janr müxtəlifliyi və mövzu rəngarəngliyi ilə fərqlənir. Xalq yazıçısı Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və Zaman" altı cilddən ibarət olan roman-tədqiqatında, Xalq yazıçısı Anarın "Unudulmaz görüşlər" publisist-romanında, Xalq yazıçısı Elçinin "Dünya axirət əkini" essesində, Hüseynbala Mirələmovun "Heydər Əliyev" kitabında, Hidayətin "Burdan min atlı keçdi", Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", Aqşin Babayevin "Xilaskar", İftixar Piriyevin "Qurtuluş dastanı" kimi pyes və tamaşalarda, Cabir Novruzun "İxtiyarım olsa idi", Nəbi Xəzrinin "İnam", Rəfiq Zəka Xəndanın "Heydər baba", Zəlimxan Yaqubun "Xalqın ehtiyacı var" poemalarında və bu kimi digər əsərlərdə Heydər Əliyevin tam, dolgun bədii obrazı yaradılmışdır. Bu bədii nümunələrdə Heydər Əliyevin siyasi xadim, lider, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi obrazı canlı şəkildə tərənnüm və təsvir edilmişdir.

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poeması 2023-cü ildə keçiriləcək Azərbaycan xalqının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilib. Müəllifin öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxartmağı bacarmış Heydər Əliyevin tarixi şəxsiyyət olmasını bədii dillə təbliğ edir.

## Poemanın janr xüsusiyyətləri

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında hadisələr təhkiyə üsulu ilə təsvir olunur və təsvir olunan hadisələrin gedişində lirik lövhələrə geniş yer verilməkdədir. Poemadakı hadisələrin epik təsviri ilə lirik tərənnüm üzvü surətdə birləşir. Poemada qəhrəmanın - Heydər Əliyevin həyəcanları, onunla bağlı təqdim edilən hadisələrin təsviri və onların doğurduğu hiss və duyğular yer alır. Poema heca vəznində qələmə alınması ilə diqqəti cəlb edir. Heca vəznində təqdim edilən misralardakı bölgülər əsasən 7, 8, 11 hecadan ibarətdir. Məsələn, aşağıda təqdim edilən bənd 11 hecadan ibarətdir:

Onun böyük olub şöhrəti, şanı,
Qəlbində od vardı hələ yanmağa.
Elə ona görə Azərbaycanı,
Qoymadı içindən parçalanmağa.

Aşağıdakı beytə diqqət yetirdikdə, burada heca bölgüsü 8 hecadan ibarətdir:

Tanrıya çatdı səsimiz
- Heydər olsun rəhbərimiz!

İbrahim Yusifoğlu bəzən bənd daxilində həm 7 hecaya, həm də 8 hecaya müraciət edir. Misralardakı hecalarda fərqlilik bölgü pozulmasını hiss etdirmir və şeirin ahənginə mənfi təsir göstərmir. Tələffüz zamanı həmin əksiklik duyulmur:

Moskvaya qanlı xəbər
Gəlib çatdı sübh çağına.
Ulu Öndər gəldi səhər,
Azərbaycan ocağına.

Hecaların sayı fərqli olan misralarda Azərbaycan xalqının 20 Yanvar faciəsinin təsviri fonunda Heydər Əliyevin siyasi fəaliyyətinə aydınlıq gətirilir. Xalqının bu ağır günündə H.Əliyevin onların yanında durması fəxr hiss ilə tərənnüm edilir. Heydər Əliyevin "Qanlı Yanvar" faciəsini yaşayan xalqını tək qoymamasını, onun yanında olmasını tarixi faktlara əsaslanaraq müəllif bayatı ilə təqdim edir. Müəllifin poemada təqdim etdiyi bayatıya nəzər salaq:

Bakı hər vaxt Bakıdı,
Şəhərlərin pakıdı
Qolun qurusun, fələk,
Bura paytaxt Bakıdı.

Müəllifin təqdim etdiyi bayatı 4 misradan ibarətdir. Hər misrası isə 7 hecadır. Qafiyə şəkli isə aaba şəklindədir. Müəllif poemada bu bayatını yaratması ilə kifayətlənmir, müxtəlif bayatılar yaradır. Məsələn, müəllifin yaratdığı digər bayatıya diqqət yetirək. Müəllif poemada 20 yanvar gecəsi şəhid olmuş İlham və Fərizə Allahverdiyevlərin, yəni bu ailə cütlüyünün faciəsini poemada bayatı ilə təqdim edir:

Qurban olum gəlinə,
Bir görmədim ərinə,
O, məzarda qovuşdu,
Şəhid olmuş ərinə.

Nümunələrə diqqət yetirdikdə, müşahidə edirsən ki, ilk iki misralar üçüncü və dördüncü misralarda ifadə olunan əsas fikirlərin yaranması üçün zəmin rolunda çıxış edir. Təqdim edilən bayatılar ictimai-fəlsəfi məna daşıması, vətənə məhəbbət aşılaması ilə məhəbbət mövzusunu təbliğ edən bayatılardan fərqlənir.

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasını epiqrafla başlaması diqqətdən yayınmır. Heydər Əliyevə aid olan epiqraf poemanın süjet xəttinə daxil olmasa da,

poemanın mövzusu ilə səsləşən hikmətli sözlər kimi diqqəti cəlb edir. H.Əliyevə aid olan “Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm…

Azərbaycan Respublikası bundan sonra müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir” kimi hikmətamiz fikirlər əsərin birinci səhifəsinin başında, yəni əsərin əvvəlində açıqlığı ilə səciyyələnən mətn parçası-kəsiyidir. Poemada intrasemiotik uyğunluq yaratmağa qadir olan bu epiqraf bədii mətnin komponenti kimi oxucunu ilkin mətnə istiqamətləndirə bilir. İbrahim Yusifoğlu istifadə etdiyi epiqrafın ifadə etdiyi məna ilə oxucunun diqqətini əsərin məzmununa yönəldərək, əsərin ideyası ilə tanış edir. Oxucu epiqrafla tanış olduqdan sonra poemanın kimdən bəhs edəcəyi haqqında bilgi əldə edir. Poemada bu və digər epiqrafların işlənilməsi poemanın məzmun və ideyasını qavramağa yardımçı olur.

Müəllif poemada bədii fikrin məntiqi ilə uzlaşan çoxsaylı epiqraflardan istifadə etmişdir ki, istifadə edilən epiqrafların da əksər qismi Heydər Əliyevə məxsusdur.

Mətnin semantik yükü ilə bağlı olan bu epiqraflara diqqət yetirdikcə onların poemanın əsas ideyası və məzmununu açmağa yardım etməsinin şahidi oluruq. İbrahim Yusifoğlu təqdim etdiyi epiqraflarla həm də poemanın məzmununa əlvanlıq qatır, açıqlamasına yardımçı olur. Bu epiqraflar həm poemada təsvir edilən hadisələrin mahiyyətinə aydınlıq gətirir, həm də Heydər Əliyevin Azərbaycanın azad və bütöv bir dövlət olacağına inamını əks etdirir. Məsələn, H.Əliyevin Şuşanın azad olunacağı ilə bağlı olan inamı poemada təqdim edilən epiqrafda əksini tapır: “Arzu edirəm ki, Sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür. Hər bir azərbaycanlı üçün bu iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətizmizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhəri, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları Kəlbəcərin o isti suyu... Biz onlarsız yaşaya bilməmişik”.

İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikirlərinin epiqraf kimi təqdimi maraq doğurur. Şairin təqdim etdiyi bu epiqrafda Azərbaycan Ordusunun qələbə qazanması, Azərbaycan torpaqlarının azad olunması poetik dillə təqdim edilir. İlham Əliyevin fikirlərini əks etdirən bu epiqrafda həm də ata vəsiyyətini yerinə yetirmiş insanın qüruru əksini tapır: “Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim! Bu böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!

Gözün aydın olsun, Azərbaycan!
Gözün aydın olsun, dünya azərbaycanlıları!
Füzuli bizimdir!
Cəbrayıl bizimdir!
Zəngilan bizimdir!
Qubadlı bizimdir!
Ağdam bizimdir!

Laçın bizimdir!
Kəlbəcər bizimdir!
Şuşa bizimdir!
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır,
Eşq olsun Azərbaycana!"

İbrahim Yusifoğlu poemada zaman anlayışına riayət edərək, xronoloji ardıcıllığı izləyir. Poemada Heydər Əliyevin xalqın keçirdiyi təlatümlü tarixi olaylardan sonra hakimiyyətə gəlməsini konkret tarixlə əks etdirir:

1969-cu il…
Bir gün idi, günəşli gün,
Üzlər gülər, gözlər süzgün,
Qəlblər gəzdi xoş səda-ün,
Bərq də vurdu ləl-zərimiz,
Heydər gəldi rəhbərimiz

İbrahim Yusifoğlu poemada 1990-ci ildə baş vermiş tarixi olayları konkret zaman axarında əks etdirir:

20 yanvar… qış çağı…
İçdik namərd zəhərini…
«Şanlı sovet qoşunları»
Qırıb Bakı şəhərini!

İbrahim Yusifoğlu poemada məkan kimi həm Bakının, həm Naxçıvanın gözəlliklərini, özünə məxsusluqlarını təqdim edə bilir. Məsələn, Naxçıvanın özünəxas xüsusiyyətlərini əsərdə əks etdirir:

Naxçıvan… Ulu şəhər,
Günəşlə bir oyanır.
Bütün küçə, xiyaban
Al şəfəqə boyanır.

**Poemanın problematikası**

Heydər Əliyevin dövlət xadimi olması, çoxəsrlik dövlətçilik ənənələri İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasının problematikasında əksini tapır. "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin əks etdirilməsini İbrahim Yusifoğlu bir müəllif kimi özü də vurğulayır:

Bir insan ömründən söz açıram mən,
O, günəş ömrüdü, sönməyəcəkdir.
Səadət verdiyi milyonlar qəlbən,
Onun haqq yolundan dönməyəcəkdir.

Poemanın problematikasında diqqəti cəlb edən məqamlardan biri də Heydər Əliyevin siyasi kursunun dəyərləndirilməsi məqamıdır. Müəllif H.Əliyevin siyasi fəaliyyətini yüksək dəyərləndirməklə yanaşı, onun bir siyasi xadim kimi atdığı əməllərinə də işıq salır. Məsələn, Heydər Əliyevin ataşkaş dövründə də siyasi ampulada qala bilməsini tərənnüm edir:

Atəşkəs dövründə Ulu Öndərin,
Ordu qurmaq oldu, müqəddəs anı.
Müstəqil, müdrik siyasətiylə,
Yenidən qururdu Azərbaycanı.

Heydər Əliyevin siyasətinin nəticəsi olan Atəşkəs dövründə Azərbaycanın dirçəlməsi uğrunda siyasi fəaliyyətlə məşğul olması poemanın problematikasının tərkib hissəsinə çevrilib. Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərketmənin Heydər Əliyev siyasətinin, milli dövlətçilik təliminin ana xəttini təşkil etməsini və əsas prinsiplərindən olması poemada əksini tapır.

Poemanın problematikasında sələflik, xələflik, varislik məsələlərinə toxunulur. Şair tərəfindən Heydər Əliyevin siyasi yolunun oğlu İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi vurğulanır:

Ata vəsiyyətin oğul prezident,
Doğrultdu müqəddəs əməllərində.
Yenilməz bir ordu qurub-yaratdı,
Dünyanın qarışıq, sərt illərində.

Ədəbiyyata qayğı və böyük xidmətlər göstərmiş Heydər Əliyevin bu sahədəki xidmətləri saymaqla bitmir: Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov kimi söz xiridarlarının Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif edilməsi, “Kitabi-Dədə Qorqud” dastanının yaranmasının 1300, Xaqani Şirvaninin 850, Nizami Gəncəvinin 840, İmaməddin Nəsiminin 600, Məhəmməd Füzulinin 500, Cəlil Məmmədquluzadənin 125, Mirzə Ələkbər Sabirin 120, Nəriman Nərimanovun 100, Məhəmməd Hadinin 100, Əliqulu Qəmküsarın 100, Hüseyn Cavidin 90, Cəfər Cabbarlının 80, Aşıq Şəmşirin 80 və 110, Rəsul Rzanın 60 və 70, İlyas Əfəndiyevin 80, Məmməd Arazın 60, Məhəmməd Hüseyn Şəhriyarın 90, Maqsud İbrahimbəyovun 60, İsmayıl Şıxlının 75, Nigar Rəfibəylinin 60, Nəbi Xəzrinin 50, Mirvari Dilbazinin 70 illik yubileylərinin qeyd edilməsi, Cəfər Cabbarlının, Molla Pənah Vaqifin, Hüseyn Cavidin, Səməd Vurğunun ev muzeylərinin açılması, Hüseyn Cavid, Vaqif məqbərələrinin açılışı, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, Şüvəlanda Yaradıcılıq evinin istifadəyə verilməsi, Hüseyn Cavidin nəşinin Vətənə qaytarılması, ilk dəfə təsis olunmuş “İstiqlal” ordeni ilə Məmməd Arazın, Xəlil Rza Ulutürkün (ölümündən sonra), Bəxtiyar Vahabzadənin təltif edilməsi və s. İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin ziyalılara qayğısı müəllifin nəzərindən yayınmamış, ziyalılara verdiyi dəyər qiymətləndirilmişdir:

Çox yazarlar ad aldılar,
Çox dahilər ucaldılar,
Zəhmətindən güc aldılar,
Vardı ümman hörmətimiz,
Heydər baba rəhbərimiz.

**Poemanın bədii obrazları**

Heydər Əliyevin Azərbaycan ədəbiyyatında bədii obraz kimi şair və yazıçılar tərəfindən əks etdirilməsi onun hakimiyyətə gəldiyi dövrdən başlayır. Akademik İsa Həbibbəyli həm sovet, həm də Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazının işlənilməsi məqamlarına toxunmuş, "Sovet hakimiyyəti illərində Azərbaycan yazıçıları Heydər Əliyevin simasında mənsub olduğu xalqın milli iftixar mənbəyi olan, ölkəni tanıdan və inkişaf etdirən görkəmli dövlət xadiminin obrazını" canlandırmalarını, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında isə Heydər Əliyevin xilaskar obrazı yaradılmış, böyük ədəbiyyat onun milli dövlətçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsindəki rolunu bədii sözün bütün vüsəti ilə təsvir və tərənnüm etməyə səfərbər" olmalarını qeyd etmişdir. İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında bu ənənənin davam etdirilməsinin şahidi oluruq. Poemada Heydər Əliyevin obrazı dolğun şəkildə təqdim edilir:

Köksündə döyünən odlu ürəklə,
Elinə məhəbbət bəsləyirdi O.
Hər zaman müdrik siyasətiylə,
Dünyanı birliyə səsləyirdi O.

İbrahim Yusifoğlu qələmə almış olduğu "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında obrazın zahiri görünüşünü təsvir etməklə bərabər, təsvir etdiyi obrazın keçirdiyi nigarançılıq, təəssüf, sevinc, kədər və s. hissləri də təsvir edir ki, bu da obrazın daxili portretini oxucunun gözündə canlandırır:

Qəlbində nisgilli dərd çağlayırdı,
Vətənin talanan sərvət-varına.
Ömrünün müqəddəs işi sayırdı,
Qaytarsın xalqını torpaqlarına

İbrahim Yusifoğlunun poemasında Heydər Əliyevin "çekist" obrazında təqdim edilməsi maraq kəsb edir. Belə ki, dövlət təhlükəzsizliyi sahəsindəki böyük və əvəzsiz xidmətlər göstərmiş, siyasətçi nəsli, gələcəyin dövlət adamları üçün örnək sayılmalı obraz kimi Heydər Əliyevin millәti qarşısındakı fəaliyyəti millətinə olduğu kimi çatdırılmalıdır. İbrahim Yusifoğlu poemada H.Əliyevin dövlət təhlükəzsizliyi sahəsindəki xidmətlərini əks etdirməsi faktını qısa şəkildə açıqlamağa cəhd etmişdir:

Belə bir qarışıq, təzadlı anda,
Səfalət almışdı bütöv hər yanı.
Qeyrətli bir oğul zərli paqonda,
Qəlbən qoruyurdu Azərbaycanı.

Poemada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin epizodik şəkildə olsa da, dolğun obrazının təqdimi ilə üzləşirik. İbrahim Yusifoğlu bu məqamı tiradada təqdim edir. İlham Əliyevin monoloqu kimi təqdim edilən nitqindəki təntənədə biz İlham Əliyevin obrazını Heydər

Əliyev siyasi kursunun davamçısı olmasında, Vətən Müharibəsindəki Zəfər təntənəsində görə bilirik:

Baş əydi, dik baxdı, salamlaşdı da,
O, ulu öndərin abidəsinə.
Zəfər sevincini çatdırdı ona,
Qələbə ovqatlı məğrur səsiylə:

- Salam, gözün aydın, ruhun şad ata,
Sənin vəsiyyətin yerinə yetdi.
Döndü oğulların dəmir yumruğa,
Qarabağ torpağı azad edildi.

**Poemanın bədii dili**

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasının bədii dili ilk növbədə dolğunluğu ilə diqqəti cəlb edir. Poemada dialektizmə, arxaizmə və s. müraciət edilmə poemanın dilinin zənginləşməsinə səbəb olmuşdur. Poemada dialektizmlərə müraciət edilmə məqamı maraq kəsb edir. Məsələn, şair mənfur qonşuların siyasətini işıqlandırarkən, fikirlərini dialekt sözlərlə ifadə edir:

Ancaq düşmən marıxdaydı,
Yol gedirdi, çarıxdaydı,

Mənası pusqu, səngər olan "marıx" və ya "marığ" sözünün Bakı, Naxçıvan, Culfa, Ordubad, Cəbrayıl, Cəlilabad, Salyan, Şərur, Daşkəsən, Kəlbəcər, Xanlar, Masallı, Oğuz və digər bölgələrimizdə xalq tərəfindən işlənilməsinin şahidi oluruq. Məsələn, "Bı dəyqə hammısı marığa yatıp görsün mən nə deyirəm" (Naxçıvan), "Bıra marığ kimi yerdi (Salyan), "Elə bil pişigdi, marığda durıb" (Cəlilabad), "Tülkü marıxdan keşdi" (Kəlbəcər), "Neçə gündü kü, marıxda durmuşam (Xanlar), "Tula qırqo:lun marığında duruf" (Oğuz) və s. İbrahim Yusifoğlu da "ancaq düşmən marıxdaydı" misrasında düşmənin, yəni ermənilərin pusquda durmalarına işarə edir.

Müəllifin işlətdiyi "çarıx" (çarıq) sözü köhnəlmiş söz kimi, yəni arxaizm kimi diqqəti cəlb edir. Bəllidir ki, keçmişdə kəndlilərin geydiyi aşılanmış dəridən tikilən ayaqqabılar, həmçinin yüngül ev ayaqqabıları çarıx (çarıq) adlanırdı. Məsələn, "Keçəl Həmzə çarığını geydi, patavasını bərkitdi" ("Koroğlu"), "Vəliqulu kənarda çömbəlib başladı çarıqları çıxartmağa" (C.Məmmədquluzadə) və s. İbrahim Yusifoğlu da "Yol gedirdi, çarıxdaydı" misrasında dilimizdə işlənməyən köhnəlmiş sözə müraciət edir.

Poemanın bədii dilində müəllifin xitablara müraciət etməsi də diqqəti cəlb edir. Məsələn, şairin Ümummilli liderə "Baba" deyə müraciət edilməsi məqamına nəzər salaq:

O qədər qəm-qüssə var canımızda,
Neçə çiçək vaxtsız solmuşdu, Baba.
Ağır anımızda, dar çağımızda,
Hamı siyasətçi olmuşdu, Baba.

İbrahim Yusifoğlu Heydər Əliyevə xitab edərkən, “Baba”, “Heydər baba” və s. kimi xitablarla müraciət etməsinin şahidi oluruq:

Heydər baba, həyatda,
Bu gün, sabah da varıq.
Firəvan günlər üçün,
Biz sənə minnətdarıq.

**Nəticə**

İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin siyasi fəaliyyətinin, xidmətlərinin bədii şəkildə təqdim edilməsi təqdirəlayiqdir. “O, günəş ömrüdü, sönməyəcəkdir” poeması Heydər Əliyevin bir tarixi şəxsiyyət kimi rəhbərlik etdiyi dövlətin azadlığı və dirçəlişi yolunda apardığı mübarizəni bədii dillə tərənnüm edir. İbrahim Yusifoğlu “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin keçdiyi şərəfli, həmçinin keşməkeşli həyat yolunun heç də asan və hamar olmadığını açıqlamışdır. Müəllif zaman kəsiyində mürəkkəb, ziddiyyətli dövrün içindən müdrikliklə, qalibiyyətlə keçib gələn Heydər Əliyevin obrazını canlandırmışdır.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ MÜASİR İQTİSADİ ƏHƏMİYYƏTİ

**Əhməd Sərkarlı**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: sarkaroglu@gmail.com

Azərbaycan təbii resurslarla zəngin bir ölkədir və burada böyük həcmdə karbohidrogen ehtiyatları mövcuddur. Bu resursların istifadəsinə maraq ölkəmizin tarixinin müxtəlif dövrlərində fərqli formalarda təzahür etmişdir. Xüsusilə, enerji resurslarının böyük ehtiyatlarına malik olmaq ölkədə regional və beynəlxalq qüvvələrin maraqlarının kəsişməsinə səbəb olmuşdur. Xarici təsirlər əsasən milli mənafelərin qorunmaması ilə xarakterizə olunmuşdur. Belə ki, Azərbaycanın neft sənayesinin imkanlarından yararlanan dövlətlər və xarici şirkətlər yalnız öz mənafelərini düşünmüş, fəaliyyət göstərdikləri ərazidə heç bir əhəmiyyətli mütərəqqi fəaliyyətlə yadda qalmamışdır. Belə bir vəziyyətdə ölkənin milli maraqlarına xidmət edən, onun müstəqilliyini qoruyan və davamlı inkişafının əsasını qoyan siyasi liderə ehtiyac duyulurdu. Bu ehtiyac isə Heydər Əliyev dühasının Azərbaycan siyasi arenasında fəaliyyətə başlaması ilə ödənilmiş, Azərbaycanın iqtisadi, siyasi və sosial inkişafının əsası qoyulmuşdur.

Ümumilli lider Heydər Əliyevin istər Sovet hakimiyyəti dövründə, istərsə də müstəqillik dövründə Azərbaycan üçün etdikləri əvəzsizdir və danılmazdır. Ulu öndərin neft strategiyası, Azərbaycan iqtisadiyyatı üçün ən önəmli strateji həllərdən biridir. Bu strategiya ölkəmizdə neft və qaz sənayesi sahəsində böyük inkişafın başlanğıcı sayılır.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsinin ölkəmizdə hasil edilən neftin dünya bazarlarına çıxarılmasında rolu əvəzsizdir [2]. Heydər Əliyev kəmərin təməlinin qoyulması mərasimindəki nitqində demişdir: "Bakı-Tbilisi- Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər".

Ümummilli lider Heydər Əliyevin neft strategiyası son onilliklərdə Azərbaycanın iqtisadi inkişafı üçün əsas hesab olunur [1]. Bu strategiya 1994-2003-cü illərdə, Ümummilli liderin Azərbaycanın prezidenti olduğu dövrdə hazırlanmış və reallaşdırılması bu gün cənab Prezident tərəfindən uğurla davam etdirilir.

Ulu öndərin neft strategiyası Azərbaycanın neft sənayesində çoxillik təcrübəyə əsaslanmış, eləcə də neft və qaz hasilatının səmərəli şəkildə artırılmasına, ixrac potensialının reallaşdırılmasına, eləcə də ölkənin enerji sektoruna xarici investisiyaların cəlb edilməsinə yönəlmişdir [4].

Bu strategiyada nəzərdə tutulan əsas tədbirlərə aşağıdakılar daxildir:

- yeni neft və qaz yataqlarının işlənməsi. Azərbaycanın geoloji strukturlarının geniş tədqiqi aparılmışdır ki, bu da yeni neft və qaz yataqlarının kəşfinə imkan vermişdir. Bu dövrdə kəşf edilmiş ən böyük yataqlar Azərbaycanda neft sənayesinin gələcək inkişafı üçün əsas rolunu oynamışdur.
- neft emalı sənayesinin inkişafı. Çıxarılan neftin maya dəyərini artırmaq üçün Azərbaycanın neft emalı sənayesini inkişaf etdirmək qərarı qəbul edilmişdir.. Bu istiqamətdə neft emalı zavodlarının tikintisi, mövcud olanların yenidən qurulması və neft emalı sənayesinin müasirləşdirilməsi layihələrinin icrasına başlanılmışdır.
- nəqliyyat infrastrukturunun inkişafı. Hasil edilən neftin və qazın ixrac məqsədi ilə nəqli üçün yeni boru kəmərlərinin çəkilməsi və mövcud boru kəmərlərinin genişləndirilməsi layihələrinin yerinə yetirilməsi baş tutmuşdur. Ən böyük layihələrdən biri əvvəldə də qeyd etdiyimiz kimi Xəzər dənizinin neft resurslarının dünya bazarlarına çıxarılmasını təmin edən, onu dünya bazarları ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin əsasının qoyulması idi. Qeyd etmək lazımdır ki, bu layihənin hazırlanması və reallaşdırılması böyük siyasi iradə, siyasi manevrlər və xüsusi qabiliyyət və bacarıqlar tələb edirdi. Bu gün həmin layihənin verdiyi fayda rəqəm ifadəsindən qat-qat artıqdır. Həmin region ölkələrindən Qazaxıstanın bu layihəyə qoşulması, eləcə də gələcəkdə tranzit neftin həcminin artırılması Azərbaycanın tək neft hasilatçısı kimi deyil, o cümlədən tarnzit ölkə kimi həm gəlirlərini artıracaq, həm də siyasi mövqeyini gücləndirəcək.
- xarici investisiyaların cəlb edilməsi ilə bağlı irimiqyaslı layihələr həyata keçirmək mümkün olmuşdur.

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının əsas ideyası təkcə neft hasil etmək deyil, həm də ondan mümkün qədər iqtisadi artım və infrastrukturun inkişafının mənbəyi kimi istifadə etmək idi. O, Azərbaycanın qlobal neft bazarlarında əsas iştirakçı kimi inkişafına yönəlmiş yeni investisiya layihələrini təqdim etmişdir.

Ümummilli liderin Dövlət Neft Fondunun yaradılması haqqında qərarı Azərbaycanın müasir həyatının maliyyə təminatı baxımından mühüm əhəmiyyətə malikdir [3]. Neftdən gələn gəlirlərin ölkədə infrastruktura investisiya edilməsi və ərzaq təhlükəsizliyinə nail olunması da Ulu Öndər

Heydər Əliyev iqtisadi uzaqgörənliyinin nəticəsi idi. Ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı tarixi qərar da uğurlu neft strategiyasının məntiqi davamı kimi Ulu Öndərin ümumi iqtisadi siyasətinin tərkibi kimi dəyərləndirilə bilər.

Respublikamızda hasil edilən neft-qaz xalqımızın həyat səviyyəsinin yaxşılaşmasında, onun ictimai-siyasi həyatında böyük rol oynayır və hələ uzun illərdə oynayacaqdır.

**Ədəbiyyat**

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 10 mart, 2004.
2. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev, Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: «Turxan» NPB, 2016. - 536 səh.
3. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 29 dekabr 1999.
4. Novruzov V.T. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli – Bakı: Azərnəşr, 2004, - 288 səh.

## HEYDƏR ƏLİYEV – 100: TARİXİ ŞƏRAİT, GÜCLÜ LİDER, MÜSTƏQİL, QÜDRƏTLİ DÖVLƏT

**Abbas Seyidov**
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Bakı, Azərbaycan
e-mail: abbas.seyidov@gmail.com

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci tarixli Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev ili" elan olunub.

Tarixi sənədlər və şahidi olduğumuz hadisələr göstərir ki, azadlığa, müstəqilliyə qovuşmaq üçün iki şərt əsasdır: - tarixi şəraitin yetişməsi və güclü, xalqı arxasınca aparmağı bacaran liderin olması.

Azərbaycan xalqı XX əsrin əvvəllərində dövlət müstəqilliyinə və əsrin sonuna yaxın əvvəlki illərdə itirdiyi dövlət müstəqilliyinin bərpasına nail oldu. 1918-ci ilin may ayında yaranan Azərbaycan Xalq Cümhuriyyəti öz istiqlalının dadını çıxarmamış, 1920-ci ilin aprel ayında yenidən Qırmızı imperiyanın əsarəti altına düşdü. Respublikamızı işğal planı Sovet Rusiyasının rəhbəri V.İ.Lenin tərəfindən qabaqcadan hazırlanmış və təsdiqlənmişdi. 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə AXC-nin Parlamenti hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verdi. 70 minlik XI Qırmızı ordu, öndə "III İnternasional", daha 3 zirehli qatar və 300 nəfərdən ibarət piyada desant olmaqla, Samur çayı üzərindəki körpünü keçdi. Bu, faktiki olaraq, işğalçı rus-sovet qoşunlarının müstəqil Azərbaycan Cümhuriyyətinin ərazisinə təcavüzü idi. AXC-nin dövlət strukturlarında çalışanlar nə qədər inadkarlıq göstərsələr də, Birinci Dünya müharibəsindən (1914-1918-ci illər)

sonra yaranan tarixi şərait, siyasi mühit buna imkan vermədi. Rusiyada baş verən 1917-ci ilin oktyabr inqilabı və ondan sonrakı dövrdə hakimiyyəti ələ keçirən sovetlərin Bakı neftinə və bütövlükdə vətənimizin yeraltı, yerüstü sərvətlərinə olan marağı Azərbaycan xalqının müstəqillik ideyalarının üstündən xətt çəkdi. Cəmi 23 ay mövcud olan, Şərqdə qadınlara ilk seçki hüququ verən, dövrünə görə bir sıra mühüm islahatlar həyata keçirən Azərbaycan Xalq Cümhuriyyəti azadlığın nə olduğunu xalqımıza dadızdıraraq, tarixin səhifələrinə qovuşdu.

Ancaq çox sınaqlardan çıxmış xalqımız heç də sınmadı. Həqiqət olanı dərindən dərk edərək, bu işğalla barışmadı, öz müstəqilliyi və azadlığı uğrunda əsl ölüm-qalım savaşına başladı. İlk antisovet üsyanı Tərtərdə baş verdi. 1920-ci il mayın 26-31-də olmuş Gəncə üsyanı Azərbaycanın işğal edilməsinə, onun dövlət müstəqilliyinə son qoyulmasına qarşı xalqın ən kütləvi və mütəşəkkil müqaviməti idi. Mayın 31-də XI Qızıl ordu hissələri şəhərə nəzarəti ələ keçirdi. Düz üç gün Gəncədə terror və qarət həyata keçirildi. Gəncə döyüşləri zamanı "qırmızılardan" 8800, üsyançılardan isə 13000 nəfər öldürüldü. Üsyan yatırıldıqdan sonra Azərbaycan ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitan, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşiki, 267 digər hərbi qulluqçusu bolşeviklər tərəfindən güllələndi [6, səh. 197;.7, səh.396].

Qarabağda - Ağdam və Şuşada 1920-ci il iyunun 5-də baş vermiş silahlı etiraz çıxışlarının davamı həmin ilin yay və payızında Zaqatala, Şəmkir, Dəvəçi və Qusar dairələrində, Zəngəzurun Xanlıq dairəsində, Lənkəranda, 1920-1923-cü illərdə isə Cavanşir, Qəbələ, Kürdəmir, Göyçay, Xaçmaz, Ordubad, Şərur və digər qəzalarda davam etmiş, o illərdə qaçaqçılıq hərəkatı geniş yayılmışdı. Ümumiyyətlə, 1924-cü ilə kimi Azərbaycanda sovet hökmranlığına qarşı 60-dan çox silahlı çıxış olmuşdur [8, səh. 385, 444, 447].

1930-cu illərin repressiyaları azadlıq ideyası ilə ürəyi döyünən azərbaycanlıların həyatı bahasına başa gəldi. İkinci Dünya müharibəsi bitdikdən sonra, bir müddət insanların başı dünyadan köçənlərə, dağılmış şəhər və infrastrukturların bərpasına qarışdı. 1920-ci il işğalından keçən 70 il ərzində SSRİ adlanan dövlətin tərkibində yaşasaq da, xalqın uzaqgörən ziyalıları həmişə azad, müstəqil, suveren Azərbaycan haqqında düşünmüş, siyasi nöqteyi-nəzərdən yeni tarixi şəraitin yetişməsini gözləmişlər. Tanrı Azərbaycan xalqına əsrin sonunda ikinci dəfə dövlət müstəqilliyinin bərpasını təmin etmək üçün yol açdı.

Hələ Rusiya zamanında "xalqlar həbsxanası" adlanan, SSRİ dönəmində guya ki, 15 suveren, müstəqil respublikanın "könüllü birləşməsindən" yaranan Sovet imperiyası XX əsrin 80-ci illərinin ikinci yarısında çökməyə başladı. Artıq müstəqilliyə aparan əsas yollardan biri - tarixi şərait yetişdi. Sadəcə, xalqı arxasınca apara bilən, hadisələri düzgün qiymətləndirməyi, məntiqi qərarlar çıxarmağı bacaran güclü liderə ehtiyac duyulurdu ki, bu nəhəng sima Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev idi.

Heydər Əliyev SSRİ adlanan imperiyanın tezliklə dağılacağını çox-çox əvvəldən hiss edir, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasına gedən yolun bu illərdən başladığını görürdü. Sovet ittifaqının güclü olduğu bir dövrdə bunu açıq-aşkar söyləmək və ya hər hansı bir hərəkət etmək mümkünsüz idi. Amma, Heydər Əliyev atdığı addımlarla, əməlləri ilə Azərbaycanın iqtisadi, hərbi qüdrətini gücləndirmək üçün ürəyinin dərinliyində gələcək Müstəqil Azərbaycan Respublikasının konturlarını cızırdı.

Heç kimə sirr deyil ki, Heydər Əliyev Azərbaycan xalqının tərəqqisinin əsas yolunu təhsildə, elmdə və mədəniyyətdə görürdü [1]. İstər 1969-1982-ci illərdə, istərsə də, müstəqillik dönəmində (1990-1993 Naxçıvan, 1993-2003) Ulu Öndər öz məqsədini həyata keçirmək üçün fəaliyyətinin böyük bir hissəsini bu istiqamətə yönəltmişdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövr bütün sahələrdə olduğu kimi, elmin, təhsilin və mədəniyyətin yüksəliş illəri idi. Ulu Öndər deyirdi**:** "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır" [2, s.76].

1970-1980-cı illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin 50-dən çox şəhərində Azərbaycan SSR üçün 17.000-dən çox mütəxəssis hazırlanmışdı. Bu dahi şəxsiyyət yeni, Müstəqil Azərbaycanı qurduğu illərdə o dövrü yada salaraq deyirdi: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır" [3, s.6-9]. Qeyd etdiyimiz kimi, Azərbaycan SSR-in Müstəqil Azərbaycan Respublikasına çevrilməsində mühüm mərhələnin təməli Heydər Əliyevin rəhbərliyi ilə həmin illərdə qoyulub.

Ulu Öndərin heç kəsin görə bilmədiyi gələcəyə hesablanan düşüncələri reallaşdıqca, hərbi sahənin inkişafının da elm və təhsil kimi bu gün həyatımızda nə qədər vacib və önəmli olduğunun şahidi oluruq.

1971-ci ildə Azərbaycan KP MK Bürosunun qərarı ilə hərbi təmayüllü "İxtisaslaşdırılmış İnternat Məktəbi" yaradılır. 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə internat məktəb Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılır. Heydər Əliyev bu təntənəli mərasimdə iştirak edir və geniş məzmunlu nitq söyləyir. 1971-ci ildə SSRİ-də Naximov və Suvorov adına hərbi təmayüllü iki internat məktəbi var idi. O zamanlar müttəfiq respublikaların hər hansı birində hərbi məktəb açmaq böyük cəsarət tələb edirdi. Bunu ancaq Heydər Əliyev edə bilərdi. Onun bu addımı ilə razılaşmayanlar var idi. Onlar, haradasa alternativ hərbçilər hazırlayan tədris ocaqlarını əsas götürürdülər. Lakin Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi ilə hələ 52 il bundan əvvəl yaradılan bu məktəbin yetirmələri bu gün Müstəqil Azərbaycan Respublikasının hərbi qüdrətinin əsas dayağıdır. Hərbi Liseyin yetirmələrindən Azərbaycan Respublikasının Milli Qəhrəmanı fəxri adına layiq görülənlər də az deyil [https://mod.gov.az/az/c-naxcivanski-adina-herbi-lisey-200/].

Elmi işçilər arasında azərbaycanlıların sayının artımına xüsusi diqqət göstərilirdi. 1972-ci ildə Elmlər Akademiyasının nəzdində Naxçıvan və Gəncə Elm Mərkəzi, Şəki Regional Elmi bazası təşkil olundu. Ziyalıların sayca artması ilə yanaşı, onun tərkibində keyfiyyət dəyişikliyi də baş verdi [4, s.269]. Bu gün respublikamızda fəaliyyət göstərən elm və təhsil müəssisələrinin geniş şəbəkəsinin əsasının təməli də Heydər Əliyevin rəhbərliyi altında məhz o illərdə qoyulub [5, s.4-9].

Heydər Əliyev xalqın xahişi və təkidi ilə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpasına aparan yollarda yorulmadan bu məsuliyyətli və ağır yükü öz çiyinlərində daşıdı. Ümummilli liderin 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya və 22-də isə Naxçıvana

olan tarixi səfəri əsrlər boyu insanların qəlbində yaşayacaq. Vətənimizin, xalqımızın ictimai-siyasi həyatına qızıl hərflərlə yazılan bu “səfər” və bununla başlayan milli dövlətçiliyimizin, müstəqilliyimizin əsasının qoyulması daima xatırlanacaq. Bu səfərdən sonra hadisələr tam başqa axarda cərəyan etməyə başladı. O çətin günləri Ümummilli lider doğulduğu Naxçıvan şəhərində xalq ilə birlikdə yaşadı.

Naxçıvana gəldiyi gün Ulu Öndər şəhərin Azadlıq meydanında 80 min nəfərdən çox adamın iştirakı ilə keçirilən mitinqdə etdi. Bu, adi bir çıxış deyildi. Heydər Əliyevin hər bir cümləsi Azərbaycanı müstəqilliyə doğru aparan çox çətin, lakin şərəfli bir yolun qısa, mükəmməl tezisləri idi.

Heydər Əliyev 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçildi. Onun sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 17 noyabr tarixli ilk sessiyasında qəbul edilən qərarlar təkcə Azərbaycanın ayrılmaz guşəsi olan Naxçıvanın yox, bütövlükdə Azərbaycanın ictimai-siyasi həyatında tarixi dönüş yaradan hadisə oldu. İclasda “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında”, “1990-cı ilin yanvar hadisələrinə siyasi qiymət verilməsi haqqında” tarixi qərarlar qəbul edildi. Naxçıvan MSSR adından “sovet sosialist” sözləri çıxarıldı, Ali Sovetin adı dəyişdirilərək “Naxçıvan Muxtar Respublikasının Ali Məclisi” adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edildi və bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış edildi [9, s.34-38]. Bütün bunlar Azərbaycanın müstəqilliyinin bərpasının məhz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlamasının göstəriciləridir.

Heydər Əliyev 02 sentyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı mühüm qərarlar və daha böyük tədbirlər həyata keçirilməyə başladı. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən “Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən silahlı qüvvələrin statusu haqqında”, “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” qərarlar qəbul edildi. 07 sentyabr 1991-ci il tarixli qərarla Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı. Sovet qoşun hissələrinin Naxçıvan ərazisindən çıxarılmasına başlanıldı ki, sonuncu rus əsgəri 29 sentyabr 1992-ci ildə ərazini tərk etdi. Elə həmin ilin 28 mayında Naxçıvanla qardaş Türkiyə Respublikası arasında Araz çayı üzərində tikilən “Ümid körpüsü” açıldı. Heydər Əliyevin 22-26 avqust tarixlərində İran İslam Respublikasına səfəri və orada imzalanan sənədlər qonşu dövlətlə gələcək münasibətlərin inkişafında böyük rol oynadı. Dekabrın 3-də İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında Araz çayı üzərində Şahtaxtı-Poldəşt üzən körpüsü istifadəyə verildi [9, s.38-59].

1991-ci il dekabr ayının 16-da keçirilən Ali Məclisinin sessiyasında “Sərhəd hərəkatı”na Heydər Əliyev tərəfindən siyasi və tarixi qiymət verildi. Elə həmin gün 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik günü elan olunmaqla, hər il bayram edilməsi və həmin

günün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi.

1992-ci ilin noyabrın 21-də Naxçıvanda keçirilən YAP-ın təsis Konfransında partiyanın yaranması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

1993-cü ilin iyununda Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda dövlət müstəqilliyi möhkəmləndirildi və bugünkü hərtərəfli inkişafın əsası qoyuldu.

Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə də elm, təhsil və mədəniyyətin inkişafına daim atalıq qayğısı göstərib. Ümummilli Lider 21 may 1998-ci ildə respublikamızdan kənarda ali təhsil almış Mütəxəssislər Cəmiyyətinin üzvlərini qəbul edərkən Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrləri xatırlayaraq deyirdi: “...1970-1980-cı illərdə Azərbaycandan kənarda təhsil almağa göndərdiyim insanlar mənim doğma övladlarımdır. Bəlkə də Siz bilmirsiniz ki, bu işi təşkil etmək üçün mən nə qədər əziyyət çəkdim... O illərdə hər bir respublikaya gənclərin SSRİ-nin müxtəlif şəhərlərində təhsil alması üçün müəyyən yer ayrılırdı. Mən 1970-ci ildə öyrəndim ki, bu məqsədlə Azərbaycana 50 yer ayrılır və bu işlə heç maraqlanan yoxdur. Gördüm ki, orada adları olan gənclərin yalnız 25 faizi milliyyətcə azərbaycanlılardır... Mən 1975-ci ildə tələbələrin sayını 600-ə çatdırdım, sonra isə ilbəil artırdım – 700, 800, 900 oldu...” [10, s.18-19].

Heydər Əliyev 1999-cu il avqustun 31-də respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə söylədiyi kimi: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır” [11].

Heydər Əliyevin elmin bütün sahələri ilə yanaşı Azərbaycanın qədim tarixi, arxeologiyası, etnoqrafiyasına da qayğı ilə yanaşır, elmin, təhsilin və mədəniyyətin bu sahəsini həmişə təbliğ edir, Vətəni Azərbaycanın çoxəsrlik tarixi, dövlətçilik ənənələri ilə fəxr edirdi. Xüsusən, milli arxeoloq kadrların yetişməsi vacib məsələlərdən biri idi.

Artıq bu günün reallıqları sübut edir ki, bütün sahələrdə olduğu kimi, Heydər Əliyevin milli və mənəvi irsimizə olan qayğısı elmin və təhsilin inkişafı istiqamətində çox mühüm müsbət nəticələr verir və bütün bunlar Azərbaycan dövlətini dünyada layiqincə təmsil etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır.

Göründüyü kimi, 1990-cı ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Naxçıvanda əsası qoyulan dövlət müstəqilliyinin bərpası Azərbaycan Ali Sovetində aparılan müzakirələrdən sonra 18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə başa çatdı.

Bu gün Azərbaycanın müstəqilliyi çox möhkəm əllərdədir. Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri, Silahlı Qüvvələrin Ali Baş Komandanı, 44 günlük Vətən müharibəsinin Qəhrəmanı İlham Heydər oğlu Əliyevin rəhbərliyi altında respublikamız günü-gündən öz dövlət

müstəqilliyini möhkəmləndirir. Ümummilli Liderin söylədiyi kimi: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir".

**Açar sözlər:** Heydər Əliyev, İlham Əliyev, tarixi şərait, Müstəqil Azərbaycan Respublikası, elm, təhsil.

## Ədəbiyyat

1. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar, 2 cilddə, I cild, Bakı: Turxan NPB, 2013, 668 səh.
2. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997, 136 səh.
3. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar, 2 cilddə, II cild, Bakı: Turxan NPB, 2013, 640 səh.
4. Heydər Əliyev, İki cilddə, 1-ci cild, Bakı: Turxan NPB, 2013, 500 səh.
5. Heydər Əliyev, İki cilddə, 2-ci cild, Bakı: Turxan NPB, 2013, 704 səh.
6. Nəzirli Ş. Cümhuriyyət generalları. Bakı: Hərbi bilik, 1995, 312 s.
7. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. I cild. Bakı: "Lider nəşriyyatı", 2004, 440 s.
8. Süleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı: "Hərbi nəşriyyat", 1998, 488 s.
9. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı. Sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: 2011, "Əcəmi" NPB, 272 səh.
10. Azərbaycanın təhsil siyasəti (1998-2004), I kitab, Bakı: Çaşıoğlu, 2005, 832 səh.
11. "Azərbaycan" qəzeti, 1 sentyabr, 1999.

## Heydar Aliyev – 100: historical circumstances, strong leader, independent, powerful state

2023 was declared the "Year of Heydar Aliyev" by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated September 29, 2022. The Great Leader Heydar Aliyev, whose 100th birthday is being celebrated this year, saw the main way of progress of the Azerbaijani people in education, science and culture. Along with all fields of science, Heydar Aliyev also cared about the ancient history, archeology, ethnography of Azerbaijan, always promoted these fields of science, education and culture, and was proud of the centuries-old history and statehood traditions of his homeland.

The policy of National Leader Heydar Aliyev in the direction of the development of science and education in Azerbaijan is being successfully continued today by the Head of our State Mr. Ilham Aliyev. Today's realities prove that the reforms carried out in all fields of science and education, according to the political course of Heydar Aliyev, give positive results in the direction of their development.

# HEYDAR ALIYEV AND THE BALANCED LANGUAGE POLICY IN AZERBAIJAN

**Eldar Şahgaldiyev[1], Saadat Farhadova (Koroglu)[2], Nurana Asadova[1]**
[1]Azerbaijan University, Baku, Azerbaijan
[2]Khazar University, Baku, Azerbaijan
e-mail: Eldar.Shahgaldiyev@au.edu.az, Nurana.Asadova@au.edu.az
sada.farhadova@outlook.com

After his second return to Azerbaijan when H.Aliyev was elected to the Supreme Soviet of Azerbaijan SSR in Baku in October 1990 one of the first things that he prioritized was his farsighted language policy. It was the unprecedented contribution to the Turkic world and the language. The situation was much complicated in regards to Russian and English languages in the republic at the time. Russian had deep roots and English as a Lingua Franca (ELF) was widely used in school curricula. There was not a clear-cut language policy. This complication was connected mainly with two factors: internal and external. Internally there were some unjustified and pre-arranged criticism to his address which were prepared well in advance before he moved to Nakhchivan. Externally this eve coincided with the period of aftermath of Black January (20 January, 1990) that sometimes was also named as Black Saturday or the January Massacre, when the violent crackdown on the civilian population of Baku had already happened. Apparently, such kind of individualities arose when there existed the mass rage against some domains of the FSU language policy.

Nearly, 90 percent of high schools in Azerbaijan in 60$^{th}$ and 80$^{th}$ included the subject of English which was taught starting from the fifth, and later from the fourth forms with some periodic changes. "The massive use of English in science is a coincidence between political and economic events at the same time during the past 50 years at least" [3]. The massive use of foreign languages in the country were, in fact, the positive factors, however, while the foreign language overtakes the native one it always leads the way to assimilation of aboriginal nations. The similar situation was quite familiar for H.Aliyev because even in the 60$^{th}$ of the last century he mentioned that "the native language needs the care of the state, and especially the sensitive attitude of the intelligentsia!" [2]. By other words, the entire statehood urgently needed its firm determination in the balanced language policy to be coherently represented by *three major elements – specific traditions, socio - cultural belonging and mother tongue or native language*. He clearly understood that "the feeling that people in a country share characteristics, culture and traditions" [4] to develop the country's Turkic world relations.

Heydar Aliyev clearly guided Azerbaijani people and led the only existing optimal way where *the definite and favorable case of satisfying one's need for identity is using the native*

*language*. From another side, he also stressed that the balanced language policy, and the prioritized use of native language- in this case using own language and extending relations with other languages, facilitate to arousal of many favorable conditions. First, it becomes much easier for the nation to use, develop its own native language and shift it to another generation while also protecting its purity. Besides, it is much difficult consciously assimilate the newer language rather than one's own, which without doubt, will require additional efforts. Third, given to the fact that the new language will also have some distinctive varieties, that will surely, require the ability to teach and learn foreign languages with additional efforts. Fourth, by the complex mechanism of language learning, it usually overlaps with different stage of people's life span or period.

It should be noted that, it has not been so easy for individual nations to fully inherit or assume the mandatory features of language policy during the hegemony of Russian identity, however, the balanced language policy pursued by H. Aliyev throughout his activity could establish the following sound prerequisites for the mother tongue's further development and prosperity. First, by adopting the optimal decision about the coexistence of Azerbaijani language with other world languages, especially with Russian and English he could harmonize the general trends in this field. Second, he clearly manifested that not any side of Azerbaijan's language policy is directed towards squeezing out the other nations and languages, and as well as the marginal languages. Third, he emphasized and encouraged the multilingual and multicultural nature of Azerbaijan, but masterfully prioritized the native language. Fourth, following the December 25, 1991, Azerbaijan's Milli Majlis's (Parliament) decision on officially adopting a modified Latin script for their Azeri alphabet shift, he signed a decree No 552, dated August 9, 2001 on celebration the Day of Azerbaijani Alphabet and Day of Azerbaijani language which determined the further developmental trends of Azerbaijan's language policy.

It goes without saying that historically "by the late 1930s, Stalin sensed that these Turkic-speaking nations could threaten Soviet power if they united. To eliminate such a possibility, he rescinded the Latin alphabet policy and forced all Turkic people to adopt Cyrillic (1939-1940)" [1]. Clearly, managing the new language policy inherited from the past could not meet the new requirements at that time. It arose a special need for the new language policy adapted to the current period. People's Writer Afag Masud justifiably noted that "Heydar Aliyev's language policy contribution is endless and covers many historical decrees and orders signed in connection with the promotion of the national and state significance of the Azerbaijani language, its updating, teaching, use and research, in addition to laying the basis for the concept of a perfect language construction, created fundamental historical changes in the direction of the development of the language, enrichment of its content and essence, range expansion of the use and expression." [2]

Finally, timely realizing the necessity of the new language policy could manage to open the newer horizons for fostering Azerbaijan's new domestic and foreign policy, integrating it more rigorously to the Turkic world, serving for the welfare and prosperity of the nation for many years to come.

**Keywords:** national language policy, environment for co-existence of languages, mandatory features of language policy, balanced language policy.

## References

1. Bayatli T. Alphabet Transitions. The Latin Script. A Chronology. Symbol of a New Azerbaijan. -Magazine Azerbaijan International- Summer 1997 (5.2) -p23. -pp. 22-24 (by contribution of Khalilov Firidun and Garibova Jala)
2. "Heydar Aliyev and the Azerbaijani Language" -Baku, Xezer Online Library, 17 March 2023 [Electronic resource] URL: https://aztc.gov.az/en/posts/id:1446
3. Kaplan, R. B. (2001). English–the accidental language of science. In U. Ammon (Ed.), The dominance of English as a language of science: Effects on other languages and language communities - Berlin, New York, Mouton de Gruyter - p. 24. - p. 3-26.
4. Macmillan Dictionary [Electronic resource] URL: https://www.macmillandictionary.com/dictionary/british/national-identity#:~:text=DEFINITIONS1,share%20characteristics%2C%20culture%20and%20traditions

# TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTILARI VƏ HEYDƏR ƏLİYEV

**Lamiə Sultanova**
AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
e-mail: tarix1650@yandex.com

1993-cü ilin 15 iyununda xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması təkcə Azərbaycan tarixində deyil, eyni zamanda bütün türk dünyası tarixində yeni bir inkişaf mərhələsinin başlanması demək idi. [2, s.6]. Bu dövrdən etibarən Azərbaycanın beynəlxalq münasibətlərində baş verən dəyişikliklərdən biri də türkdilli dövlətlərlə sıx əlaqələrin qurulması oldu. Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir [3, s.3]. Türkdilli dövlətlər arasında iqtisadi, siyasi, diplomatik, hərbi , mədəni və digər sahələri əhatə edən sıx əməkdaşlığının qurulmasında zirvə toplantılarının xüsusi əhəmiyyəti vardır.Türkiyənin mərhum prezidenti Turqut Özal tərəfindən türkdilli dövlət başçılarının zirvə toplantılarının keçirilməsi fikri irəli sürülərkən çox müsbət qarşılandı. Keçirilən zirvə toplantılarında dəfələrlə Azərbaycanı ümummilli lider Heydər Əliyev təmsil etmişdir. Türkiyə Cümhuriyyətinin yaranmasının 69-cu ildönümünə təsadüf edən I Zirvə toplantısı 1992-ci ilin 30 oktyabr tarixində keçirilmişdir. Deyə bilərik ki, bu toplantı türkdilli millətlər arasında birliyin daha da genişlənməsinə xidmət edən təməl addımlardan biridir. Bu toplantıların keçirilməsi təbii ki, dünya miqyasında birmənalı qarşılanmadı.Türkdilli dövlətlərin bu birliyinə qarşı çıxanlar da az olmadı. Məhz bu səbəbdən II Zirvə toplantısı bir neçə dəfə təxirə salındı (1993-cü il 2 may, 1994-cü

il 21-22 yanvar). Nəhayət, 1994-cü ilin 18 oktyabr tarixində II Zirvə toplantısı Türkiyənin İstanbul şəhərində keçirildi. Azərbaycanı bu toplantıda ümummilli lider Heydər Əliyev təmsil etmişdir. Çıxışı zamanı Heydər Əliyev zirvə toplantılarının türkdilli dövlətlər üçün əhəmiyyətindən, daha çox Dağlıq Qarabağ münaqişəsindən bu münaqişənin yaratdığı fəsadlardan bəhs etmişdir. Zirvə toplantısı zamanı bir daha bu toplantıların davamlı şəkil alması xüsusi vurğulanmışdır. Növbəti III Zirvə toplantısı 1995-ci il 28 avqustda Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilmişdir. Bu dəfə də Azərbaycanı bu toplantıda ümummilli liderimiz Heydər Əliyev təmsil etmişdir.Toplantı zamanı Heydər Əliyevin çıxışı onun zirvə toplantılarının keçirilməsinə xüsusi rəğbətini bir daha bildirmiş oldu: "Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi – bütün bunlar bizim strateji əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa imkan verir." [1, s.144].

Zirvə toplantılarında Azərbaycanı təmsil edən Prezident Heydər Əliyev daima Azərbaycanın haqq səsini dünyaya çatdırmağa səy göstərmiş, dünya ölkələrinin diqqətini Dağlıq Qarabağ münaqişəsinə çəkməyə çalışmışdır. O, dəfələrlə çıxışlarında qeyd etmişdir ki, biz müharibə istəmirik, biz respublikamızın ərazi bütövlüyü uğrunda mübarizə aparır, beynəlxalq hüquq normalarına əməl edilməsini tələb edirik.

Əmir Teymurun 660 illik yubileyi ərəfəsində 1996-cı ilin oktyabr ayının 21-də Özbəkistanın paytaxtı Daşkənddə türkdilli dövlət başçılarının IV Zirvə toplantısı keçirildi. İlk söz Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə verildi. Ümummilli lider çıxışında türkdilli dövlətlər arasında əməkdaşlığın dərinləşməsi, Transqafqaz nəqliyyat dəhlizi, separatçılıq, beynəlxalq terrorizm, Dağlıq Qarabağ münaqişəsi kimi məsələlərə toxundu.Türkdilli dövlətlər arasında sıx əməkdaşlıq münasibətlərinin qurulmasında mühüm rol oynayan növbəti V Zirvə toplantısı 1998-ci ilin iyun ayının 9-da Astanada keçirilmişdir. Toplantında çıxış edən Heydər Əliyev "Bakı-Tiflis-Ceyhan" boru kəmərindən, türkdilli dövlətlərin mövcud problemlərindən, Azərbyacanın digər türkdilli dövlətlərlə münasibətindən danışmışdır. "Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileyi münasibətilə 2000-ci il 8aprel tarixində Bakıda keçirilmişdir. Giriş sözüylə çıxışa başlayan Heydər Əliyev bu vaxta kimi keçirilən Zirvə toplantılarının əhəmiyyətindən, türkdilli dövlətlər arasında dərinləşən çoxtərəfli əməkdaşlıq əlaqələrinin nəticələrindən danışmışdır. 2001-ci il 26 apreldə İstanbulda VII Zirvə toplantısı keçirildi. Bu sammit Türkiyədə yeni dövlət başçısının seçilməsindən sonrakı zamana təsadüf etmişdir. Ənənə halını almış zirvə toplantıları türkdilli dövlətlər arasında möhkəm dostluq münasibətinə əsaslanmışdır. Zirvə toplantıları türkdilli dövlətlərin prioritet inkişaf istiqamətlərinin müəyyənləşməsində, mədəni, mənəvi, tarixi, iqtisadi cəhətdən inkişafında mühüm rol oynamışdır.

Ümummilli lider Heydər Əliyev türk dünyası birliyinin daha da möhkəmlənib inkişaf etməsində müstəsna xidmətlər göstərmişdir. Bu dahi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, türk dövlətləri birliyinin daha da möhkəmlənməsi üçün irəli sürdüyü ideyalar bu gün də aktuallığını qoruyub saxlamışdır.

**Açar sözlər** : türk dünyası, Heydər Əliyev, ümummilli lider.

**Ədəbiyyat**

1. Əhmədov Ə. Azərbaycan beynəlxalq münasibətlərdə (türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri ). Bakı – 2009 , 386 s.
2. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası, Bakı – 2006, 772 s.
3. “Xalq“ qazeti. Bakı – 2009, 18 iyul.

# HAYDAR ALİYEV’İN TÜRK DÜNYASINDAKI ROLÜ VE HAYDAR ALİYEV DÖNEMİ AZERBAYCAN EKONOMİSİ

**Uzun Yilmaz Ulvi**
Bitlis Eren University, Turkiye
e-mail: yuuzun@beu.edu.tr

Sayın Haydar Aliyev’in; 1969-1982 ve 1993-2003 yılları arasında görevde bulunduğu dönemlerde uygulamış olduğu kalkınma ve ekonomik büyüme politikaları Azerbaycan’ın sosyo-ekonomik gelişiminde önemli etkiler yaratmıştır. Türk Dünyası için önemli bir rol model olan Haydar Aliyev aynı zamanda bugün Azerbaycan Cumhuriyeti’nin küresel ekonomide üstlendiği önemli rol ve başarılarında mimarıdır. Haydar Aliyev’in uyguladığı politikalar Azerbaycan’ın günümüze değin uzanan politik ve ekonomik gücünün belirleyici unsurları olmuştur. Bu düsturdan hareketle bu çalışmada Haydar Aliyev’in Azerbaycan ekonomisinin büyümesi ve kalkınması yönünde attığı önemli adımların günümüz Azerbaycan ekonomisini ne yönde geliştirdiğini ele alınmıştır. Öte yandan günümüzün en önemli siyasi ve ekonomik ortak aktörü olan Azerbaycan Cumhuriyeti özelinde elde edilen çok yönlü başarıların, Türk Dünyası ve Türk Devletleri Teşkilatı üzerindeki yansımaları çalışmada incelenen bir diğer alanı oluşturmaktadır.

## Giriş

Haydar Aliyev, Azerbaycanın son dönemlerde yetiştirmiş olduğu önemli devlet insanlarından birisidir. Haydar Aliyev bu özelliğinden dolayı hem Azerbaycan’da hemde dünya çapında tanınan ve saygı duyulan önemli bir liderdir. Haydar Aliyev birçok kaynakta sadece Azerbaycan halkının değil, ayrıca tüm Türk Dünyasını oluşturan halkarında lideri olarak bilinmektedir [3]. Haydar Aliyev’e atfedilen bu önem, Aliyev’in Azerbaycan Devletinin geleceğini inşa ederken aynı zamanda Türk Dünyasınında geleceğinide inşa etmesinden ileri gelmektedir. Bilhassa 1969-1982 ve 1993-2003 yılları arasında görevde bulunduğu dönemlerde uygulamış olduğu kalkınma modelleri ve ekonomik büyüme politikaları ile ülkenin ekonomik krizlerden çıkarak refaha ulaşmasında önemli rol oynayan Aliyev, aynı zamanda Türk Dünyası adına da önemli işlere imza atmıştır. Günümüz Azerbaycan Cumhuriyetinin dünya siyasetinde ve ekonomisinde bu kadar önemli bir yere sahip olmasında ve Türk Dünyasının bir çatı altında toplanarak günümüzün küresel bir gücü haline dönüşmesinde Aliyev’in önemi ve katkısı oldukça büyüktür.

**Haydar Aliyev'in türk dünyasindaki rolü**

Haydar Aliyev, Azerbaycanın kuruluşundan günümüze kadar uzanan bu önemli süreçte, ülkesi için önemli büyük projelere imza attığı gibi aynı zamanda Türk Dünyasının da bir çatı altında toplanarak bir güç birliği etrafından toplanması yönünüde de büyük gayret ve çabalar göstermiştir. Bu kapsamda Aliyev "Tek Millet, İki Devlet" inancı ile yola çıkarak Türk Dünyasının bir çatı altında buluşması için çok emek harcamış ve bunu; "*Türk Dünyasının birliği önemlidir, dünyada yaşayan 250 milyondan fazla Türk, başta Türkiye olmakla er yada geç tek çatı altında birleşmeliler. Biz bir bütün olduğumuzda hiçbir yabancı ülke dâhili işlerimize karışamaz*" [9] sözleri ile ifade ederek bu kutlu yola baş koyduğunu göstermiştir.

Öte yandan Aliyev'in Azerbaycan cumhuriyeti yönetimine geldikten sonra yine bu kapsamda; ülkenin sosyo-ekonomik ve siyasi sorunlarının çözülmesi hususunda Türk Dünyasının mevcut potansiyelinden yararlanılması, Türk Dünyasını ilgilendiren genel sorunlarının çözümünde birlikte hareket edilmesi ve yine Türk dünyasının uluslararası düzeyde tanınırlığını artırmak için her bir bağımsız Türk Devletinin potansiyelinden ayrı ayrı faydanılması gerektiği gibi önemli fikirleri savunarak günümüze ışık tutumuştur [1]. Bunun yanında Aliyev, Türkiye Cumhuriyenin ve Mustafa Kemal Atatürk'ün; Türk Dünyasının birleştirilmesi ve güçlendirilmesi hususunda oynamış olduğu kilit rolü her zaman takdir ederek kendisine örnek almıştır. Bu bağlamda Azerbaycan Cumhuriyetinde "Azerbaycan Atatürk Merkezi" açılarak Türk Dünyasının birliği kapsamında faliyetlerini yürütmesi her iki ülkeninde Türk Dünyasına vermiş olduğu önemi göstermektedir [2]. Merhum Aliyev zamanında, Türkiye Cumhuriyeti ile kurulan sağlam ikili ilişkiler günümüze kadar kardeşlik ve dostluk çerçevesinde yürütülerek, her türlü zor koşullarda beraber olan ve birlikte hareket eden bir birlikteliğe dönüşmüş ve bu durum ikili ilişkilerde en üst seviyenin yakalanmasını sağlamıştır. Azerbaycan ve Türkiye açısından büyük bir önem taşıyan bu ikili ilişkiler aynı zamanda Türk Dünyasının bir çatı altında toplanmasına da olumlu yansımıştır.

Haydar Aliyev ve Mustafa Kemal Atatürk'ün iki ülkenin kardeşliği, dostluğu ve bunun yanında Türk Dünyasının birleştirilmesi hususunda izlemiş oldukları bu önemli stratejik politika, günümüz ülke liderleri tarafından da desteklenerek, bugün bu politikalrın tamamen farklı bir boyut kazandığı görülmektedir. Bu farklı boyut; Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ve Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ın birlikte yürütmüş oldukları ileri görüşlü stratejik ve vizyoner politikalarının doğrudan bir sonucu olarak ortaya çıktığı söylenebilir. Bu kapsamda 3 Ekim 2009 yılında Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ve Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ın girişimleri ile; Türk Devletleri Nahçivan'da bir araya gelmiş ve gerçekleştirilen toplantı sonucunda "Türk Konseyi" birliği kurulmuştur [4]. Bu toplantı özünde Sovyetlerin dağılması ve Türk Devletlerinin bağımsızlıklarını ilan etmeleri ile beraber Türk devletleri arasında başlayan bu çok yönlü önemli ilişkilerin 2009 yılında yapılan toplantı ile resmiyet kazanmasına olanak sağlamıştır. Ayrıca günümüze kadar kendi aralarında birçok toplantı gerçekleştirmiş olan bağımsız Türk Devletleri en son alınan nihayi karar ile "Türk Devletleri Teşkilatı" ismi çatısı altında toplanarak tüm dünayaya; amaç, kapsam ve hedeflerini resmi bir şekilde ilan etmişlerdir.

Geçmişten günümüze izlenen doğru politikar nihayetinde Türk Devletlerinin aynı amaç ve kapsam etrafında tek bir çatı altında birleşerek küresel bir güce dönüşmesine katkı sunmuştur.

**Haydar Aliyev dönemi Azerbaycan ekonomisinin genel durumu**

Azerbaycan'ın toprak bütünlüğünün ve egemenliğinin uzun yıllar boyunca tehdit altında olduğu tüm dünyaca bilinmektedir. Söz konusu bu tehditler Azerbaycan'ın istikrarlı bir şekilde uygulamaya çalıştığı kalkınma ve büyüme politikalarını olumsuz yönde etkileyerek, Azerbaycan ekonomisinin pek çok kez ekonomik krizlerle karşı karşıya kalmasına neden olmuştur [7]. Öte yandan Sovyetlerin dağılması ile birlikte ülke de aniden serbest piyasa ekonomisine geçilmesi piyasalarda şoko-terapi etkisi yaratmıştır. Bunun haricinde idari yönetimde görülen eksiklikler ve boşluklarla beraber hala o dönemde etkisini sürdüren Dağlık Karabağ krizi, ülke ekonomisine zarar veren diğer olumsuz faktörler olarak sıralanabilir [7]. Diğer yandan Azerbaycan topraklarının petrol ve doğal gaz başta olmak üzere zengin mineral kaynaklarına sahip olmasına rağmen, ülkede görülen bu olumsuzluklardan dolayı, sahip olduğu bu yüksek ekonomik potansiyelin ülke ekonomisine kazandırılamaması ve bunun bir sonucu olarak ülkede görülen ekonomik krizlerde artışların yaşanması toplumda ayrıca derin sosyo-ekonomik sorunların oluşmasına neden olmuştur. Azerbaycan devletinin yaşamış olduğu bu ekonomik sorunlar döneminde yönetime gelen Haydar Aliyev; 1969-1982 ve 1993-2003 yılları arasında görevde bulunduğu dönemlerde uygulamış olduğu kalkınma modelleri ve ekonomik büyüme politikaları ile ülkenin ekonomik krizlerden çıkarak refaha ulaşmasında önemli rol oynamıştır. 1969 yılında göreve başlayan Aliyev; ilk olarak ülkenin ekonomik potansiyelini çok iyi bir şekilde analiz ederek ülkenin var olan bu güçlü potansiyelinin ekonomiye kazandırılmasını sağlamış ve ülkenin milli gelirinin 1969-1982 yılları arası dönemde tam 2,5 kat oranında artmasının önünü açmıştır. Bunun yanında yine aynı dönemde sanayideki üretim hacminin de 7,9 kat oranında artış olduğu görülmektedir [8].

Aliyev, ayrıca bu dönemde sermaye yatırımlarına, inşaat sektörüne, alt yapıya, ulaşım ağlarına ve lojistik alanına yapılan yatırımlara önem verdiği gibi aynı zamanda yeni fabrikaların kurulmasına da ağırlık vermiştir. Bunun yanında ayrıca petrol dışı sektörlerinde gelişmesi için farklı politikalar uygulayan Aliyev, ülkede sanayinin gelişmesini, üretimin artmasını ve ekonomide dengeli büyümeyi öncelikli hale getirmiştir. Bu durum ülke ekonomisinin hızla gelişmesini ve toplumun refaha kavuşmasını sağlamıştır. Diğer taraftan halkına büyük değer ve önem veren Aliyev, ülkedeki sağlık hizmetlerine ve eğitim alanlarına da büyük yatırımların yapılmasını sağlayak önemli eğitim krumlarının ve hastanelerinin inşaatlarını geçekleştirirerek kısa süre içerisinde halkın hizmetine açmıştır. Ayrıca ülkede tarım ve hayvancılığın geliştirilmesi ve güçlendirilmesi için gerekli tedbir ve teşvik planlarınıda hayata geçirerek ülkenin bu alanda da güçlenmesini ve söz sahibi olmasını da sağlamıştır [11]. Fakat Haydar Aliyev'in 1982 yılında görevden ayrılması ve devamında sovyetlerin dağılması ile birlikte ülkede tekrardan sosyo-ekonomik istikrarsızlıkların baş gösterdiği söylenebilir. 1969-1982 yılları arasında önemli işlere imza atan Aliyev, 1993 yılında Azerbaycan halkının oyları ile tekrardan ülke yönetimine gelmiştir. Yönetime tekrar gelen Aliyev; bırakmış olduğu önemli işlere kaldığı yerden başlayarak uygulamış

olduğu stratejik ve önemli ekonomi politikaları sayesinde ülkenin var olan sosyo-ekonomik sorunlarının azaltılmasında önemli rol oynamıştır [10]. Uygulanan önemli ekonomi politikaları sayesinde; ülkedeki Gayri Safi Yurtiçi Hasılanın 1988 yılından beri ilk defa 1996-2005 yılları arasını kapsayan dönemde yüzde 368'lik bir oranda artış yaşandığı görülmektedir. Öte yandan 1995 yılında, ülkenin kişi başına düşen milli geliri 323 dolar seviyelerinde iken, bu oranın 2003 yılında 865 dolar seviyelerine ulaştığı görülmektedir. Ayrıca 1995-2004 yılları arası dönemde ülkedeki ortalama ücretlerin yüzde 760 oranında bir artışın gerçekleştiğide söylenebilir [12].

Bu dönemde Ayrıca, ülkenin hukuki alt yapısına, kanunlara, yönetmeliklere ve mevzuatlara da önem veren Aliyev, Azerbaycan devletinin sağlam hukuk temellerini atarak ülkenin kurumsallaşmasınında önünü açmıştır. Hukuki yönden güçlenen ülke; doğrudan yabancı sermayenin ülkeye çekilmesinin ve ülkede büyük yabancı yatırımların gerçekleştirilmesinin önünü açarak, ülkede büyük bir ekonomik reformun yaşanmasını sağlamıştır. Dolayısı ile yine budönemde ülkede dış ticaret hacimlerininde arttığı söylenebilir [5].

**Sonuç**

Aliyev, tüm hayatını kendi ülkesine ve Türk Dünyasına adayan önemli bir şahsiyet olarak arkasında çok büyük önemli eserler bırakmıştır. Özellikle Azerbaycan devletinin kurulması, bağımsızlığını kazanması ve ülkesinin günümüzde bu kadar güçlü hale gelebilmesi için görevde bulunduğu süre içerisinde önemli projelere imza atan Haydar Aliyev, aynı zamanda Türk Dünyasının da birleştirilmesi ve bir çatı altında buluşturulması içinde büyük gayretler göstermiştir.

Ülke ekonomisi bağlamında; Aliyev döneminde uygulanan ekonomi politikalarının geçmiş dönemlerle kıyaslandığında ülke ekonomisini daha iyi seviyelere taşıdığı görülmektedir. Fakat ülkenin sahip olduğu ekonomik potansiyel özellikle enerji başta olmak üzere tarım ve hayvancılık alanında da çok iyi seviyelerde olduğu görülürken bunun ülke ekonomisine tam olarak kazandırılamaması bazı handikaplarıda beraberinde getirmektedir. Dolayısı ile ülkenin sahip olduğu zengin mineral kaynaklarının daha verimli şekilde kullanılarak buralardan elde edilen gelirlerin reel yatırım alanlarına doğru kaydırılması; istikrarlı ekonomik büyümenin ve kalkınmanın önünü açacağı gibi aynı zamanda ekonomide yaşanması olası handikapların da önüne geçilmesini sağlayacaktır.

Günümüz Azerbaycan Cumhuriyetinin sosyo-ekonomik durumu bizlere; Aliyev'in o dönemlerde almış olduğu kararların bugün ne kadar önemli ve doğru olduğunu göstermektedir. Azerbaycan Cumhuriyetin günümüzde ekonomi başta olmak üzere birçok alanda söz sahibi olmasında ve Türk Dünyasının aynı amaç ve kapsam etrafında buluşarak bir güç birliğine dönüşmesinde Aliyev'in rolü büyüktür. Dolayısı ile bizler bu bağlamda Sayın Aliyev'i Azerbaycan halkı ve Türk Dünyası için yapmış olduğu önemli işlerden dolayı; sadece onu anarak değil, onu iyi bir şekilde anlayarak ve gelecek nesillere en iyi şekilde anlatarak, ona karşı olan vefa borcumuzu yerine getirmiş olacağız.

**Anahtar Kelimeler:** Haydar Aliyev, Türk Dünyası, Azerbaycan Ekonomisi.

## Kaynakça

1. Acar Z.Z. (2020). Türkiye – Azerbaycan ilişkilerinde "Haydar Aliyev", https://yesiligdir.com/yazar/yazi/7547 , Erişim Tarihi: 20.03.2023.
2. Adıgüzel H. (2007). Zirve Haydar Aliyev'in Hayatı, İleri yayınları, İstanbul, http://anl.az/el_en/s-12727.pdf , Erişim Tarihi: 20.03.2023.
3. Ahundova E. (2019). "Haydar Aliyev: Şahsiyet ve Çağ, Kremlin de Beş Yıl, Dönüş" isimli kitabı, http://www.marmaragrubu.org/elmira-ahundovanin-haydar-aliyev-kitabinin-tanitimi- Erişim Tarihi: 20.03.2023.
4. ANAS Felsefe Enstitüsü Bilimsel İşlerden Sorumlu Müdür Yardımcısı, Tarih Doktoru, Olağanüstü ve Tam Yetkili Büyükelçi. (2020). https://www.yeniazerbaycan.com/Siyaset_e53032_az.html , Erişim Tarihi: 20.03.2023.
5. Azerbaycan Respublikası Xocavend Rayon İcra Hakimiyeti, 2020. Hayder Aliyev ve Azerbaycanda İgtisadi Dirçeliş.
6. Azimzadeh A. (2019). Azerbaycan'ın Ekonomik Kalkınmasında Haydar Aliyev Reformları, Akademik Kaynak, https://www.akademikkaynak.com/azerbaycanin-ekonomik-kalkinmasinda-haydar-aliyev-reformlari.html Erişim Tarihi: 23.03.2023.
7. Bayromov E. (2010). Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası, http://anl.az/down/meqale/xalqqazeti/2010/may/119632.htm Erişim Tarihi: 20.03.2023.
8. Bugadov T. (2017). Haydar Aliyev Azerbaycan'ın sosyo-ekonomik kalkınma stratejisinin kurucusudur, https://www.yeniazerbaycan.com/Siyaset_e34690_az.html Erişim Tarihi: 20.03.2023.
9. Neimetzade, E. (2022). Türk dünyasının büyük Evladı, Haydar Aliyev (2. yazı), https://www.anadolugazete.com.tr/turk-dunyasinin-buyuk-evladi-haydar-aliyev-2-yazi-6121yy.htm Erişim Tarihi: 20.03.2023.
10. Beşikçi S.Ö. (2016). Bağımsızlık Sonrası Dönemde Azerbaycan Dış Politikasındaki Stratejik Değişimler ve Yönelimler, Türk Dünyası İncelemeleri Dergisi. 16/2 Kış-Winter 2016.
11. BAKI-UNEC, (2021). Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər, 2021.
12. Kalaycı İ. (2013). Kafdağı'nın Önündeki Ekonomi: Modernleşen Azerbaycan, Avrasya Etüdleri, 43/2013-2 (27-56).

# MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT ABİDƏLƏRİNDƏ HEYDƏR ƏLİYEV OBRAZI

**Ülviyyə Verdiyeva**
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: pedaqoq1984@mail.ru

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" Heydər Əliyev.

21 sentyabr 1993-cü ildə Heydər Əliyev ölkə prezidentliyinə namizəd kimi Azərbaycan Elmlər Akademiyasında görüş keçirdi. Respublikanın ziyalıları ilə görüşdən Ulu Öndər müharibə və iqtisadi çətinliklərdən çox mədəniyyətdən danışıb. Belə ki, o, şair və mütəfəkkir Məhəmməd Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirilməsinin zəruriliyini vurğulayıb: “Bizim çox zəngin mədəniyyətimiz, elmimiz var. Nizamidən, Füzulidən söz düşmüşkən, biz onları nəinki populyarlaşdırmalıyıq, həm də dünya mədəniyyətinə böyük töhfələr vermiş böyük filosoflar, mütəfəkkirlər kimi adlarını uca tutmalıyıq. Gələn il Füzulinin 500 illiyi qeyd olunacaq. Biz bu yubileyə hazırlaşmalıyıq. Biz Füzulini dünya səviyyəli bir filosof kimi bütün dünyada tanıtmalıyıq [2].

1994-cü il martın 16-da Prezident Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinin təntənəli surətdə keçirilməsi haqqında fərman imzaladı. Mədəniyyət və incəsənətin bu bayramı beynəlxalq miqyas aldı və Parisdə qeyd olundu. YUNESKO-nun baş qərargahında, İraqda, Orta Asiya respublikalarında, İranda, Türkiyədə və Rusiyada üstəlik, son iki ölkədə keçirilən yubiley şənliklərində Azərbaycan Prezidenti şəxsi iştirak edib [6].

Prezidentin şəxsi fotoqrafı Rafiq Bağırovla söhbətindən: “Heydər Əliyev yaradıcı insan, böyük şəxsiyyət idi. Mənə dedi ki, gəncliyində fotoqrafçılığa həvəsi olub, kamerası var. Onun ailə arxivində Kislovodskda yaxınlarının şəklini çəkdiyi kadrlar var. O, rəssamla, memarla, istənilən mədəniyyət xadimi ilə peşəkarcasına mübahisə edə bilərdi. Məsələn, onun memarlıq layihələrinə hansı düzəlişlər etdiyini görürdüm və düzəlişlər kifayət qədər ciddi idi. Mən Şəhidlər Xiyabanında ucaldılan abidənin layihələrinin müzakirəsində iştirak etdim. Müsabiqəyə yüzlərlə müxtəlif layihə təqdim olunmuşdur. Heydər Əliyev Şəhidlər Xiyabanı kompleksini milli üslubda hazırlamağı məcbur edirdi. Ulu Öndərin layihəsi əsasında “Şəhidlər xiyabanı” çox əzəmətli oldu!

Yaxud götürək Hüseyn Cavidin məqbərəsinin tikintisini. Təqdim olunan layihələrin heç birini bəyənmədi. İlk layihələri gördüm, adi... Amma onun ideyasına uyğun həyata keçirilən layihələr nadir kamilliyi ilə seçilirdi [3].

1999-cu ildə cənab prezidentimiz ABŞ-a səfər etmiş, Dünya Bankının prezidenti cənab Volfensonla görüşmüş və güzəştli kreditin ayrılması ilə bağlı ona müraciət etmişdir. Müraciətdə Ulu Öndər Azərbaycanda tarixi abidələrin bərpası üçün Dünya Bankının heç vaxt pul ayırmadığını nəzərə çatdırıb. Bu görüşdən sonra Dünya Bankı Azərbaycanda tarixi abidələrin bərpası üçün güzəştli kredit ayırdı. Müqaviləyə əsasən (0,75 faiz on ildən sonra ödənilməli) 40 il müddətinə 6

mln. kredit ödəndi. Müqaviləyə dörd abidə daxil edilib: Şəkidəki Xan Sarayı, Şirvanşahlar Sarayı, Naxçıvanda Möminə Xatun və Qarabağlar məqbərəsi [7].

Heydər Əlirza oğlu yaxşı bilirdi ki, Azərbaycan xalqı tarix boyu həm də milli bədii sənətin qüdrəti sayəsində öz birliyini, bütövlüyünü və orijinallığını qoruyub saxlaya bilmişdir. Heydər Əliyevin bütün həyatı boyu əlaqə saxladığı yaradıcı ziyalıların nümayəndələrindən biri də Azərbaycanın məşhur bəstəkarı Arif Məlikovdur. Arif Məlikov "Məhəbbət əfsanəsi" baleti ilə məşhurdur. Ulu Öndər Heydər Əliyev dəfələrlə onun premyeralarında - Bakıda və Moskvada iştirak edib, "Məhəbbət əfsanəsi"nə yəqin ki, on dəfə baxıb. Hər dəfə o, görkəmli Arif Məlikov tandeminə heyran olduğunu bildirirdi [4].

Heydər Əliyev o mədəniyyət xadimlərinə xüsusi dəyər verirdi ki, öz yaradıcılığı ilə kifayətlənməyib maarifçiliklə məşğul olmuş, milli mənəviyyatını, xalqın ruhunu, köklərini, mənəvi dəyərlərini əks etdirən əsərlər yaratmışdır. Prezident tez-tez konsertlərə, sərgilərə və xarici qrupların çıxışlarına gedirdi. Konsertdən sonra həmişə səhnəyə çıxırdı, ifalarına görə “ulduzlara” təşəkkür edirdi, onlara çox xoş sözlər deyirdi [1].

Heydər Əliyevin Respublika rəhbərliyinə qayıdışından sonra müharibə şəraiti və ağır iqtisadi vəziyyətə baxmayaraq 21 muzey, o cümlədən, Leopold və Mstislav Rostropoviçin ev muzeyi, Naxçıvan Dövlət Xalça muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi açıldı. Həmçinin Hüseyn Cavidin ev muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti muzeylərinin ekspozisiyaları xalqa təqdim edildi. Ümumiyyətlə, bu gün Respublikada fəaliyyət göstərən muzeylərin hamısına (onların sayı isə 200-dən çoxdur) müxtəlif dövrlərdə Heydər Əliyev tərəfindən bu və ya digərşəkildə dəstək göstərilib. Bəzən bu, bərpa işləri və ya yeni bina tikintisi, bəzən isə ekspozisiyanın genişləndirilməsi və ya yubiley tədbirlərinin keçirilməsi ilə bağlı olub. Bu tədbirləri xüsusi qeyd etmək lazımdır: məhz Heydər Əliyevin təşəbbüsü ilə görkəmli mədəniyyət və incəsənət xadimlərinin yubileylərinin qeyd edilməsi ənənəsi başlandı. İmaməddin Nəsiminin 600 illiyi, Məhəmməd Füzulinin 500 illiyi, "Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyi, Müslüm Maqomayev, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Aşıq Ələsgər və digər şəxsiyyətlərin yubileyləri təntənəli şəkildə qeyd edildi [5].

Qeyd etmək lazımdır ki, çağdaş dönəmdə Ümummilli Liderin layiqli davamçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri millət vəkili Mehriban Əliyeva mədəni irsin qorunması və zənginləşməsi istiqamətində böyük işlər görürlər. Hazırda paytaxt və Azərbaycanın digər şəhərlərinin infrastrukturunun sürətli inkişafı nəticəsində çoxsaylı mədəni obyektlərin qorunması zəruriyyəti daha da aktuallaşmışdır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev unikal abidələrin mühafizəsinin,sözün əsl mənasında qarantıdır.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət, YUNESKO, incəsənət, mənəvi dəyərlər.

## Ədəbiyyat

1. Ахундова Э. Гейдар Алиев. Личность и эпоха: в3-хтг. Т. 3. Возвращение (1990-2003) Москва: Издательство «Канон+» РООИ «Реабилитация», 2017, 624 с.

2. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Həyat və fəaliyyətinin xronikası. Bakı, «Ozan», 2008, 328 səh.
3. Aslanov A. Heydər Əliyev və AzərTAc. Bakı, 2005, 178 səh.
4. Гурбанова С.А. Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики. Баку, «Şorq-Qərb», 2010,72 стр.
5. "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi" Beynəlxalq elmi-praktik konfrans. - Bakı, “Azərbaycan” nəşriyyatı, 2007. - 280 səh.
6. file:///C:/Users/User/Downloads/Heyder_Eliyev_ve_medeni_irs.pdf
7. file:///C:/Users/User/Downloads/Heyder_Eliyev_ve_SHerq_VI_kitab_turk_dunyasi.pdf

**Heydar Aliyev portrait in the cultural and artistic monuments**

The basis of national statehood values is common sense culture. The only guarantee for tomorrow's success is to pay more attention to building a healthy society, to deeply and persistently instill deep-rooted moral values in the new generation and the whole society. Heydar Aliyev considered culture as a great wealth of the nation. That is why he did everything possible for the protection and promotion of cultural and spiritual values and the creation of works belonging to the new aesthetic thought.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN NEFTİ DÜNYA SİYASƏTİNDƏ

**Gülnar Xaliqova**
Şabran rayon Heydər Əliyev Mərkəzi, Şabran, Azərbaycan

XX yüzillikdə Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafının ən yüksək mərhələsi 70- ci illərdə Heydər Əliyevin Azərbaycan KPMK-nə rəhbərlik etdiyi 1969- 1982- ci illərə təsadüf edir. Heydər Əliyevin gərgin əməyi, böyük iş təcrübəsi, düzgün və məntiqli iqtisadi siyasəti nəticəsində 1970- ci ildən başlayaraq Azərbaycan sənayesində sıçrayış mərhələsi başladı. Respublika sənayesi 1970-ci il problemlərini, planlarını fəallıqla yerinə yetirdi. Nəticədə, sənaye məhsullarının istehsalı 8, 6 % artdı. 1969-1982- ci illərdəı neft sənayesində mövcud olan uzun illərin problemləri, məsələləri Heydər Əliyevin rəhbərliyi altında uğurla həll edilməsi nəticəsində Azərbaycan neft sənayesinin inkişafı keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur [3, səh.4]. Heydər Əliyevin neft sənayesinin inkişafına diqqətinin artırılması həm quruda həm də dənizdə neft hasilatının artmasına geoloji kəşfiyyat işlərinin genişlənməsinə, perspektivli sahələrin istismarına şərait yaratdı. Heydər Əliyevin neft hasilatına böyük diqqətinin nəticəsi olaraq 70- ci illərin birinci yarısında 103 geoloji texniki tədbir, quyuların qazmaətrafı zonlarına təsir üçün 22 min tədbir, 12 min əsaslı və 559 min yeraltı təmir işləri görülmüşdür. Həmçinin neft sənayesi yeni texnika və mütərəqqi

texnalogiya ilə zənginləşmişdir. Heydər Əliyevin gərgin əməyi sayəsində 70-80- cı illərdə "Günəşli", "Çıraq" və "Azəri" kimi nəhəng neft yataqları aşkaar edilmişdir. Hansı ki, onlar bu gün müəllifi Heydər Əliyev olan "Neft strategiyası"-nın həyata keçirilməsində çox böyük əhəmiyyətə malikdirlər. Azərbaycanın neft strategiyası sahənin iqtisadi-təsərrüfat fəaliyyətinin həm yaxın, həm də uzaq perspektivlərdəki məqsəd və vəzifələrinin müəyyən olunmasını özündə əks etdirir. Milli neft strategiyası, bütün iqtisadiyyatı, dövlət maliyyəsini hamılıqla milli təhlükəsizliyin struktur komponentlərini eyni orbitdə birləşdirən funksional bir idarəetmə sistemidir. Bu reallıq qəti olaraq onu əks etdirir ki, neft-qaz kompleksində aparılan islahatlar iqtisadi və dövlət idarəetməsi sahəsində aparılan islahatlarla üzvü bağlılıqdadır.

Heydər Əliyev respublikada neft sənayəsinin inkişaf etdirilməsi mənbələrini dərindən təhlil edərək neft çıxarılmasında yeni imkanlar aşkar etdi. O, elmi axtarışların nəticələrini, alimlərin, mühəndislərin, ümumiyyətlə neft sənayəsində çalışan mütəxəsislərin fikirlərini, məsləhətlərini öyrənərək müəyyən etmişdir ki, Azərbaycanin neft yataqlarında çoxlu miqdarda neft və neft məhsulları vardır. Bu ehtiyatların çıxarılmasının yollarını, mənbələrini araşdırdı.

Azərbaycan müstəqillik qazandıqdan sonra respublikada Dövlət Neft şirkəti ilə Qərb ölkələrinin neft şirkətləri arasınada Azərbaycanın Xəzərdə olan neft yataqlarının birgə istimar edilməsi haqqında hələ 1990-cı ildən danışıqlar başlamışdır [6, səh.20]. Danışıqlar təqribən 3 il müddətində davam etdirilmiş və 1993- cü il iyunun 23-də dayandırılıb. Heydər Əliyev özü bu məsələ ilə bağlı qərb neft şirkətlərinin prezidentləri və başqa rəhbərləri ilə görüşərək, ətraflı söhbətlər aparmış, danışıqların dayandırılmasının səbəblərini aydınlaşdırmışdı. Heydər Əliyev göstərirdi ki, "Mən Azərbaycana cəlb edilən neft şirkətlərinin öz iqtisadi maraqları olduğunu anlayıram. Lakin, eyni zamanda biz ölkəmizin maraqlarını şirkətlərin maraqlarından üstün tutmalıyıq". Eyni zamanda Heydər Əliyev neft şirkətlərinin sədrləri ilə 1993- cü ilin avqustunda Bakıda keçirilən görüşdə bəyanat vermişdi. Bəyanatda qeyd edilirdi ki, "Böyük ölkələrin neft şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərirsə. . . bu ölkələrin dövlət qrumlarında respublikadakı hazırki ictimai-siyasi druma diqqət göstərilməlidir"

1994-cü il sentyabırın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Bakıda"Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Günəşli", "Çıraq" yataqlarından birgə neft çıxarılması haqqında ilk neft müqaviləsi imzalandı. Bu müqavilə dünyada böyük əks-səda doğurdu. Ona "Əsrin müqaviləsi"adı verildi. Müqaviləni ABŞ-ın "Amoko", " Yunokal", "Penzoyl", "Ekson", Böyük Britaniyanın "Britiş Petroleum", Türkiyənin""Türk petrolları", Səudiyyə Ərəbistanın "Delta" şirkətləridir. Bu şirkətlərin iştirakı ilə Neft müqaviləsinin həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı.

"Əsrin müqaviləsi"-nin həyata keçirilməsinə şəxsən Heydər Əliyevin rəhbərliyinin, uzaqgörən dövlət siyasətinin nəticəsində çıxarılan neftin ixrac edilməsi üçün maddi-texniki baza yaradılmasında qazanılan uğurlu nəticələr göz qabağındadır. "Çıraq" platformasından

çıxarılan nefti sahilə gətirmək üçün 176 kilometr məsafədə neft borusu tikilib istifadəyə verilmişdir. Neft müqaviləsinin həyata keçirilməsində, neft çıxarılması və onun nəql edilməsinin təşkilinə nəinki onu ilk imzalayan şirkətlər, dünyanın bir çox başqa şirkətləri də qoşulmuşdur. ”Əsrin müqaviləsi”-nin imzalanmasından sonra Azərbaycanda dövlət çevrilişlərinin, siyasi terror aktlarının ləğv edilməsi ilə respublikamızda siyasi sabitlik yaranmağa başladı. Beynəlxalq aləmdə Azərbaycanın nüfuzu və mövqeyi möhkəmləndi. Bunun nəticəsində xarici dövlətlərin Azərbaycana investisiya qoymaq, müştərək fəaliyyət göstərmək meyli, marağı daha da artdı.

Müstəqil Azərbaycan Respublikasının yeni tarixinə qızıl hərflərlə həkk olunmuş 20 sentyabr 1994- cü il bu günki və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. Dövlət müstəqilliyinin bərpasından sonra qısa vaxt ərzində Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində , çox çətin şərtlərə baxmayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nəaliyyətlər əldə olunmuşdur. Ölkəmiz neft və qeyri neft sektorunda böyük irəliləyişlər əldə etmişdir. Neft sektorunda Azərbaycan dünyada tanınan bir ölkəyə çevrildi. Heydər Əliyevin zamanında aparılan uğurlu siyasətini hazırda Cənab İlham Əliyev davam etdirir. 2006- cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin ildən-ilə Azərbaycanın gəlirlərini artırması Azərbaycanın ümumi inkişafına çox müsbət təsir göstərir. Aparılan təhlili araşdırmalar bir daha göstərir ki, Azərbaycanda çox uğurlu milli neft strategiyası həyata keçirilir. Bu strateji prioritet ulu öndər Heydər Əliyevin müəllifi olduğu müasir dünya enerji təhlükəsizliyi sistemində çox mühüm əhəmiyyət daşıyan “Əsrin müqaviləsi”-indən qaynaqlanır. Milli neft strategiyası formalaşdırılarkən lokal məzmunu ilə yanaşı, o həm də regional və qlobal miqyasları hədəfə almış, ilkin yaxın və orta müddətdə milli inkişafın imperativlərini ehtiva etmişdir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan nefti tarix boyunca regionda ölkəmizin ictimai-siyasi əhəmiyyətini artıran başlıca səbədir. Həm XIX, həm də XX əsrdə, xüsusilə hər iki cahan savaşında, o cümlədən XXI əsr qloballaşan dünyamızda Azərbaycan hadisə və proseslərin əsas amili kimi çıxış edə bilmişdir.

**Açar sözlər:** Heydər Əliyev, neft, iqtisadiyyat, sənayə, inkişaf.

## Ədəbiyyat

1. Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycab iqtisadiyyatı, Bakı 1998.
2. Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə- Bakı 2001.
3. Hüseynov S. 1969-1982-ci illər — müstəqil Azərbaycan dövlətçiliyinin təməlinin qoyulduğu dövr, Xalq qəzeti, 2010, 1 may, s. 4.
4. Mirzəyev R. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. Bakı 2001.

# HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİ

**Vəfa Xanoğlan**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya miqyaslı siyasətçi , görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə vətənə və xalqa titanik xidmətləri ilə yanaşı Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə, təhsilinə, eləcə də görkəmli sənət adamlarına, yazıçı və şairlərə, elm xadimlərinə böyük qayğı və diqqət göstərmişdir. Ulu Öndərin mədəniyyət, ədəbiyyat, elm və sənət, mənəvi dəyərlərimiz, görkəmli sənətkarların yaradıcılığı haqqında söylədiyi dərin məzmunlu fikir və mülahizələri öz konseptuallığı ilə seçilir və bu gün də aktuallığını saxlayır.

Çağdaş Azərbaycanın şərəfli inkişaf tarixinin böyük bir dövrü fenomenal xüsusiyyətlərə, dərin təfəkkürə və güclü iradəyə malik ən böyük Azərbaycanlının adı ilə bilavasitə bağlıdır. Məhz onun dəyanəti və cəsarəti,mətinliyi və zəkası, qətiyyəti və qüdrəti sayəsində xalqımız zamanın ağır sınaqlarından üzüağ çıxaraq çətinliklərə sinə gərmiş, təzyiq və təhlükələrdən xilas olaraq ictimai-siyasi sabitliyin bərqərar olmasına, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə nail ola bilmişdir. Azərbaycanlı olması ilə hər zaman fəxr edən, milli mənsubluğundan hədsiz iftixar hissi keçirən Ulu Öndər Heydər Əliyev öz fəaliyyəti və misilsiz xidmətləri sayəsində xalqın qəlbində və yaddaşında həmişəlik həkk olunmuş və elə bir iz qoymuşdur ki, ölkəmiz özünün bu dahi rəhbəri ilə daim fəxr edəcəkdir. O,sovetlər dönəmində,eləcə də müstəqillik illərində xalqımızın müdafiəsi və rifahı, milli dövlətimizin qurulması və möhkəmləndirilməsi üçün elə bir yorulmaz və əzmkar fəaliyyət göstərmişdir ki,Azərbaycan xalqı onu özünün həmişəlik Ümummilli lideri seçmiş, vətəndaşların ürəyində əbədi yer tutmuşdur. Heydər Əliyevin təbliğ etdiyi azərbaycançılıq ideyası hər bir vətəndaşı bu dövlətin idarə olunmasında və inkişafında məsuliyyətə dəvət edir,hər bir azərbaycanlıda ictimai-siyasi özünüdərk duyğusunun, vətəndaşlıq hissinin yüksək olmasını tələb edirdi. ”Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm ,bu gün də fəxr edirəm ki,mən azərbaycanlıyam.Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı- Azərbaycan dilini,mədəniyyətini,milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”-deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə,mənəvi birliyinə nail olmuşdur.

XX əsr Azərbaycan mədəniyyətinin bütün sahələrinin sürətli inkişafı və böyük nailiyyətləri Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərinin nəticəsi idi. Ümummilli Lider Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoydu. Mədəniyyətimiz, incəsənətimiz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanındı. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən Ulu Öndər rəhbərlik fəaliyyətinin bütün dövrlərində bu sahənin inkişafını diqqət mərkəzində

saxlamışdır. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, onun qayğısından bəhrələnməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, elm və təhsilimiz də,heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bu günkü inkişafında Ümummilli Liderin dəyərli ideyalarından bəhrələnib. ”Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi,mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib,”- deyən müdrik rəhbər öz gücünün ünvanını çox dəqiq nişan verirdi.Ulu Öndərin elm və sənət sahələrinə, o cümlədən çoxəsrlik ədəbiyyatımıza, mədəniyyət və incəsənətimizə aid nəzəri-estetik görüşləri elmi-tədqiqat əsərləri üçün zəngin material verir. Heydər Əliyev peşəkar teatrşünas idi, peşəkar kinoşünas idi, peşəkar rəssam idi, peşəkar musiqiçi idi, peşəkar dilçi-natiq idi, peşəkar tənqidçi idi. O, mədəniyyət və incəsənətimizin ayrı-ayrı sahələrindən bəhs edərkən bütün bunlara dövlətçilik nöqteyi-nəzərindən,azərbaycançılıq fəlsəfi kontekstindən yanaşmışdır. Ədəbiyyat və sənətlə, teatr və kino ilə, folklor və yazılı abidələrlə, rəssamlıq və heykəltəraşlıqla, musiqi və ifaçılıqla bağlı qənaətlərində Heydər Əliyev bir tamaşaçı, seyrçi təsəvvürü yaratmırdı, o incəsənətin daxili qanuna -uyğunluqlarına və inkişaf perspektivlərinə yüksək professionallıqla yanaşan bir sənət nəzəriyyəçisi kimi çıxış edirdi. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən Ulu Öndər bu zənginlikdən qədərincə yararlanmağın zəruriliyini qeyd edirdi.” Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi,ən böyüyü mədəniyyətdir,”- deyən dahi rəhbər mədəni-mənəvi dəyərlərin qorunmasına və təbliğinə xüsusi dəyər verirdi. Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə mədəniyyət sahəsinin qanunvericilik bazasının formalaşdırılması istiqamətində mühüm işlər görüldü.Ulu Öndərin rəhbərliyi altında mədəniyyət sahəsində 10-dan çox qanun qəbul edildi.”Mədəniyyət haqqında (1996),”Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”(1998),”Kinematoqrafiya haqqında”(1998),”Memarlıq fəaliyyəti haqqında”(1998),”Kitabxana işi haqqında”(1998),”Milli Arxiv Fondu haqqında”(1999),”Muzeylər haqqında”(2000),”Nəşriyyat işi haqqın da”(2000) və s. qanunlar bu sahənin kompleks inkişafı üçün böyük rol oynadı.

Ümummilli Liderin zəngin nəzəri irsində təhsil məsələləri də xüsusi yer tutur. Ulu Öndər ölkənin və xalqın taleyində,hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər qeyd edirdi ki, ,,Hər bir dövlət əgər istəyirsə ki,öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsin, o mütləq hər şeydən çox, təhsilə fikir verməlidir. Təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır” İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə Ümummilli Lider daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmiş,vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir.,, Təhsil sahəsi xalqımızın bu günü ,millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”,- deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür. Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə geden tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğu önə çəkirdi.

Ulu Öndər tədris ocaqlarında, o cümlədən orta ümumtəhsil məktəblərində şagirdlərin bütün müvafiq elmlər üzrə zəruri biliklərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilmiş , bunlarla yanaşı , istisnasız olaraq hər bir şagirdin mükəmməl bilməsi son dərəcə vacib olan fənləri də ayrıca vurgulamışdır. ,, Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər. Amma orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər.,, Təhsilin məzmunca milli müstəqillliyimizin pirinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini də dahi rəhbər çox vacib şərt saymışdır. Çünki gələcəyin qurucuları olan yeni nəsillərin milli ideologiyaya yiyələnməsi məktəbdən başlayır və bu işin düzgün təşkili olkə üçün həyatı əhəmiyyətə malikdir.Ona görə də Ulu Öndər tövsiyə edirdi:"Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini,öz tarixi keçmişini gərək yaxşı bilsinlər." "Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır", – deyən dahi rəhbərin müdrik tövsiyəsi belədir ki , əsl pedaqoq olmaq, şagird və tələbələrə mükəmməl, hərtərəfli bilik vermək,onları nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün məktəblərdə müvafiq şərait,lazımi mühit yaradılmalı, müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, yetirmələrinə nümunə olmalıdır.Respublikamızda ümumi orta,texniki peşə,orta ixtisas və ali təhsilin əsaslı yüksəlişi məhz Ümummilli Liderin adı ilə bağlıdır.Onun təşəbbüsü və rəhbərliyi ilə qəbul olunaraq həyata keçirilən bir sıra mühüm qərarlar, o cümlədən"Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" (1972)" Kənd ümumtəhsil məktəbinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqında"(1973) "Ümumtəhsil məktəbi şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında "(1978) qəbul olunan qərarlar Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövrünün mühüm nailiyyətləri sırasındadır. Ali və orta ixtisas təhsil məsələləri də onun daim diqqət mərkəzində olmuşdur.Müdrik rəhbər respublikanın ehtiyacı olan ixtisaslar üzrə Azərbaycandan kənarda ali təhsilə də xüsusi önəm vermişdir.1970-80 –ci illərdə dahi rəhbərin təşəbbüsü və qayğısı ilə SSRİ-nin 170 –dən çox ən məşhur ali məktəbində Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu 250-dən çox ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Ümummilli Liderin böyük uzaqgörənliklə atdığı addımlardan biri də hələ ötən əsrin yetmişinci illərində azərbaycanlı gənclərin hərbi təhsilə yiyələnməsi sahəsində sistemli tədbirlər həyata keçirməsidir.

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da Heydər Əliyev dühası sayəsində gerçəkləşmişdir. Ümummilli Lider müstəqil Azərbaycanın Prezidenti kimi milli təhsil konsepsiyasının tətbiqində ənənə və müasirliyin üzvi vəhdətinə,respublikamızda illər boyu toplanmış dəyərli təcürbəni də nəzərə almaqla islahatlar aparmağı vacib şərt saymış, bu qiymətli prinsipi rəhbər tutmağı lazım bilmişdi. Təhsilimizin böyük hamisi təhsil işçilərinə xitabən deyirdi ki, "Biz təhsil sahəsində yeniləşmənin

tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyi sizdən tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən, qurarkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız.

Yeni təhsil müəssisələrinin yaradılması məktəblərin müasir tədris vasitələri ilə təmin edilməsi şagirdlərin dövlət hesabına pulsuz dərsliklərlə təmin olunması, müəllim əməyinin yüksək qiymətləndirilməsi, onların maddi vəziyyətinin əsaslı şəkildə yaxşılaşdırılması, istedadlı gənclərə böyük dövlət qayğısının göstərilməsi, onların xaricdə təhsilə göndərilməsi və.s. sahələrdə də ümumilli liderin misilsiz xidmətləri müstəqil Azərbaycan da təhsil siyasətinin geniş üfüqlərindən soraq verir.

Ümummilli Liderin ədəbiyyat konsepsiyası onun ümumdövlət siyasətinin əsas inkişaf istiqamətlərindən biri olmuşdur. Ədəbiyyatın cəmiyyət həyatında oynadığı müstəsna rolu yüksək qiymətləndirən Ülu Öndər yazırdı:" Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür. Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycan ədəbiyyatıdır" [1, s.420]. Ülu Öndər qeyd edirdi ki, mədəniyyətin, milli sərvətlərin, demək olar,əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir.Mütəfəkkir dövlət xadimi ədəbiyyatın ədəbi -estetik zövqün və mədəniyyətin formalaşmasındakı rolundan bəhs edərək yazmışdır: "Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə - sevə oxumuşdum,onları bu gün də unutmamışam.Bəlkə də bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə -o uşaqlıq, gənclik illərində onlar mənə o qədər təsir edib ki,mən onları unutmamışam.Bu " oxumuşam, unutmamışam"sozləri sadəcə bir fikir deyil. Yəni,onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm,mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam."[1, s.147]. Dünya şöhrətli siyasətçi ölkəyə rəhbərlik etdiyi dövrlərdə müasiri olan sənətkaralarla görüşür,onları müstəqil dövlətimizin orden və medalları ilə təltif edir,yubileyləri münasibəti ilə keçirdiyi tədbirlərdə onların ədəbiyyat tarixindəki mövqeyini və xidmətlərini bir ədəbiyyatşünas,ədəbiyyat tarixçisi peşəkarlığı ilə dəyərləndirirdi. Ulu Öndər Azərbaycan ədəbiyyatına bir fəlsəfi məxəz kimi yanaşaraq yazırdı. "Miilli özünüdərk, milli oyanış dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan gəlir."Ümummilli Lider üçün ədəbiyyat özündə milli- mənəvi dəyərləri hifz edən zəngin xəzinə,xalq həyatının və xalq taleyinin ensiklopediyası idi. Sovet dönəmində məhz onun nüfuzu, səyi və təşəbbüsü sayəsində bir qrup yazıçıya keçmiş SSRİ –nin ən böyük mükafatı Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. S.Rüstəm, R.Rza, S.Rəhimov, M.İbrahimov bu adin sahibi olan görkəmli yazıçılar idi. "Kitabi – Dədə Qorqud" dastanının 1300 illiyi, dahi N.Gəncəvinin 840,M.F.Axundzadənin 170, böyük filosof şair H.Cavidin 100 illik ,böyük Azərbaycan şairi M.Fuzulinin 500 illiyi,İ.Nəsiminin 600 illik yubileylərinin keçirilməsi də dahi siyasətçinin adı ilə baglıdır.Bu tədbirlər ölkəmizin beynəlxalq imicinin yüksəlməsinə qüvvətli bir təkan oldu. Görkəmli söz ustalarının Məmməd Arazın 60,İlyas Əfəndiyevin 80,Hüseyin İbrahimovun 75, İsmayıl Şıxlının 75, Nəbi Xəzrinin 70, Hüseyn

Abbaszadənin 75,Mirvarid Dilbazinin 85,Yusif Səmədoglunun,Elçinin,Anarın 60 illik yubiuileyləri dövlət səviyyəsində qeyd edildi.Milli ədəbiyyatımıza xidmətlərinə görə bu sənətkarlar Ulu Öndərin sərəncamları ilə yüksək dövlət təltiflərinə - "İstiqlal"və "Şərəf"ordenlərinə layiq görüldülər. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə Bakıda C.Cabbarlı,İ.Nəsimi, H.Cavid,N.Nərimanov kimi ədəbi şəxsiyyətlərə monumental heykəllər ucaldıldı.Ümummilli Lider 15 aprel 1995-ci il tarixli fərmanı ilə Azərbaycanın görkəmli xalq şairlərindən –B.Vahabzadəni,M.Arazı və X.R.Ulutürkü "İstiqlal"ordeni ilə təltif etmişdir.Bu sənətkarların yaradıcılığına yüksək dəyər verən Ulu Öndər demişdir. "Milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan proses deyildir. Çox vaxt tələb eləyən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər. Ona görə mən düşündüm: Biz müstəqillik qazanmışıq, respublikamız müstəqil dövlətdir. Xalqımız milli azadlığını əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində,şübhəsiz ki, xalqımızın hamısının- hərənin öz yeri, öz payı,hərənin öz xidməti var. Ancaq elə şəxsiyyətlər var ki, onlar bu işin, bu prosesin yaranmasında, formalaşmasında, inkişaf etməsində xüsusi xidmətlər göstəriblər.B.Vahabzadə, M.Araz,X.R.Ulutürk ədəbiyyatımızın məhz bu cür çox görkəmli simalarıdırlar [1, s.274-275].

7 yanvar 1997-ci ildə xalq şairi Qabilin yubiley gecəsində Ulu Öndər demişdir: "Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət naminə gəlməmişəm.Buraya həm də incəsənətimizlə,ədəbiyyatımızla,şeirimizlə görüşmək üçün gəlmişəm. O vaxt mən Qabilə dedim ki,sən əsl kişisən. Bu elə belə söz deyil. Bu mənim əvvəlki dövrdə, qurultaylarda, müxtəlif tədbirlərdə yazıçılarla görüşlərimdə müşahidələrimin nəticəsi idi və beynimdə Qabil haqqında toplanmış bir fikir idi [1, s.355].

Ümummilli Lider 1997-ci il sentyabrın 20-də türk dünyasının böyük alimi İhsan Doğramacı ilə birlikdə xalq yazıçısı İlyas Əfəndiyevin " Hökmdar və qızı"tamaşasına baxmış və tamaşadan sonra çıxış etmişdir."İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir,böyük xidmətlər göstəribdir,çox dəyərli əsərlər yaradıbdır.İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı,bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir.Ona görə də ,mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını,onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram.Hesab edirəm ki,o, xalqımız qarşısında öz borcunu,daha doğrusu,öz missiyasını şərəflə yerinə yetirmişdir,xalqımıza,mədəniyyətimizə,teatrımıza,ədəbiyyatımıza çox böyük irs,böyük sərvətlər qoyub getmişdir.Güman edirəm ki,bunu xalqımız heç vaxt unutmayacaqdır" [1, s.369].

Böyük sənətkarlarımız Aşıq Ələsgərin 150,Aşıq Alının 180 illik yubileylərinin keçirilməsi,onların əsərlərinin çap olunub xalqa çatdırılması Ulu Öndərin aşıq sənətimizə, folklor irsinə olan qayğısının misilsiz təzahürü idi.Ümummilli Lider Azərbaycan Yazıçılar Birliyi və onun

ədəbi orqanları-"Azərbaycan," "Qobustan," "Ulduz," "Literaturnı Azərbaycan"jurnallarının, "Ədəbiyyat qəzeti"nin dövlət büdcəsindən maliyyələşdirilməsinə də böyük köməklik göstərdi.

Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilmiş 6-ci qurultayının gündəliyinə Cənubi Azərbaycandakı ədəbi proses haqqında məsələ salınmış və bu barədə geniş məruzə dinlənilmişdir. Yazıçılar İttifaqında Cənubi Azərbaycan Ədəbiyyatı problemləri üzrə xüsusi katib ştatı təsis edilmişdir. Xalq yazıçısı Mirzə İbrahimovun başçılığı ilə Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi yaradılmışdır. Şöbə əməkdaşlarının fəaliyyəti nəticəsində 4 cilddə Cənubi Azərbaycan Ədəbiyyatı Antologiyası kitabı işıq üzü görmüşdür.Akademik Bəkir Nəbiyev Ulu Öndərin ədəbiyyat konsepsiyası haqqında demişdir: "Ulu Öndər ağır müharibə şəraitində yaşayan ,erməni işğalçılarına qarşı mübarizə aparan Azərbaycanın ən çətin məqamlarında da ölkəmizin xilas yollarını yalnız hərbi qüdrətimizin artırılmasında deyil,həm də xalqımızın mənəvi dəyərlər baxımından çox güclü olan potensialında,Azərbaycanın zəngin və orijinal mədəniyyət yurdu olmasında görür ,klassiklərimizin bənzərsiz irsini ən müxtəlif vasitələrdən istifadə edərək dönə-dönə dünya miqyasına çıxarmaqla doğma yurdumuzu qabaqcıl bəşəriyyətə olduğu kimi tanıtmağa çalışırdı.Bu isə öz növbəsində gecə -gündüz Azərbaycana,onun tarixinə,mədəniyyətinə,ədəbiyyatına qarşı böhtanlar püskürən erməni təxribatını tərksilah etmək,ona çox böyük zərbə vurmaq demək idi" [2.s.39].

Ümummilli Lider ədəbiyyat və mədəniyyəti xalqımızın milli sərvəti və intellektual mülkiyyəti adlandırmışdı.Ümumiyyətlə, "Ədəbiyyatın yüksək borcu və amalı"(1999) kitabına daxil edilmiş məqalələr və klassiklər haqqında dəyərli nitqləri dahi rəhbərin qüvvətli nəzəriyyəçi-ədəbiyyatşünas olduğunu təsdiq edir.

Böyük siyasi lider Heydər Əliyevin nəzəri görüşlərində ədəbi dil problemi də əsas yer tutur.Ulu Öndər deyirdi ki, "Dil xalqın böyük sərvətidir.Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir" [1, s.146]. Rus dilinin SSRİ-nin yeganə ünsiyyət dili elan olunduğu bir dövrdə Heydər Əliyev Azərbaycan dilini Azərbaycan SSR-nin dövlət dili kimi Konstitutsiyaya daxil etməyə nail oldu.Sonralar o,bu tarixi məqamla ilgili yazırdı: "Yadımdadır,1978 –ci ildə biz Azərbaycanın Konstitutsiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə ,Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi.Ancaq biz bu təzyiqlərə dözdük .Hələ 1978-ci ildə qəbul olunmuş Konstitutsiyada ,bir çox başqa respublikalardan fərqli olaraq,Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycan dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik" [3, s.216]. 1995-ci ildə qəbul edilmiş Əsas Qanunumuzda Azərbaycan dili dövlət dili kimi yenidən təsdiqləndi.2001-ci il iyunun 18-də Ulu Öndər "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. 2001 –ci il iyulun 4-də isə ana dilinin tətbiqi məsələlərinin həyata keçirilməsinin təmin olunması məqsədi ilə Dövlət Dil K omissiyası yaradıldı. 2001-cı ildə Heydər Əliyev tərəfindən"Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" təsis edilib. Dövlət dilinin tətbiqi işinin əməli şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə 30 sentyabr 2001 –ci ildə respublika Prezidentinin təsdiq etdiyi Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

1970 –cı ildə Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən təntənəli iclası Heydər Əliyev Azərbaycan dilində açdı.Bu hadisə o zaman respublikanın hər yerində böyük əks-səda yaratdı. Ümummili Lider bu hadisəni 25 il sonra artıq müstəqil Azərbaycanın Prezidentiykən həmin universitetin 75 illiyinə həsr olunmuş təntənəli yubiley iclasında yada saldı: “Xatirəmdədir,universitetin 50 illik yubileyində çıxış edərkən ,şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edır və bu dildə heç də pis danişmır.

Bəziləri məni bu hadisə münasibətilə təbrik etdilər,minnətdarlıqlarını bildirdilər.Dilini sevən ,milli ruhla yaşayan insanlar,doğrudan da,bunu böyük hadisə kimi qəbul etdilər” [4, s.87]. Dahi rəhbərin fikrincə hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan,inkişaf etdirən onun dilidir.Ana dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş,onun taleyini yaşamışdır.Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb,bayraq kimi müqəddəsdir.O,Dünya Azərbaycanlılarının I qurultayındakı tarixi nitqində demişdir:”Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir.Həmişə fəxr etmişəm,bu gün də fəxr edirəm ki,mən azərbaycanlıyam [3, s.162]. Göründüyü kimi,Azərbaycan dilinin inkişafı və onun dövlət səviyyəsində işlədilməsi məhz Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı cənab İlham Əliyein adı ilə bağlıdır.Görkəmli dilçi,akademik Ağamusa Axundov yazır:”Mübaliğəsiz deyə bilərik ki,yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı,onun təkcə sözdə deyil,gündəlik təcrübədə də ümumişlək dilə,dövlət dilinə çevrilməsi,beynəlxalq münasibətlər sistemınə-diplomatiya aləminə yol açması,zənginləşə-zənginləşə nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi görkəmli dövlət başçısı Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və yürütdüyü müdrik ,uzaqgörən dil siyasəti ilə bağlıdır” [5, s.5].

“İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır”-deyən dahi rəhbər teatr sənətinə də xüsusi önəm verərdi.Ulu Öndər tamaşaların premyeralarına gələr,tamaşa bitdikdən sonra səhnə arxasına keçər,dramaturqla,rejissorla,rəssamla ayrı-ayrı aktyorlarla söhbət edər,fikirlərini bildirərdi.Professor Məryəm Əlizadə yazır:”Heydər Əliyev teatr sənətinin məna və mahiyyətini ,onun insanların qəlbinə,hissinə,əqidəsinə dərin təsirini,tərbiyəvi əhəmiyyətini,ideya-estetik keyfiyyətini dərindən duyurdu,bu sənətin təcrübi və nəzəri əsaslarına yaxşı bələd idi.Heydər Əliyevin sənət adamlarına hörməti hər zaman hədsiz olub.Onun tamaşalara gəlişi,fikir söyləməsi teatr kollektivlərini yeni-yeni yaradıcılığa səslədi.Teatrların repertuarları yeniləşdi,zənginləşdi,klassik əsərlərin yozumuna müasir baxış qüvvətləndi” [6, s.4].

Xalq yazıçısı İlyas Əfəndiyevin “Mahnı dağlarda qaldı” tamaşasının Dövlət mükafatı alması şəxsən Ulu Öndərin təşəbbüsü ilə baş tutmuşdu. Dövlət mükafatı üzrə komissiya üzvləri o vaxt tamaşaya baxa bilməyiblərmiş. Dövlət Komissiyasının yekun iclasından sonra ona təqdim olunan siyahıda “Mahnı dağlarda qaldı”tamaşasının adını görməyən Ulu Öndər soruşur:”Niyə bu əsərin adı siyahıda yoxdur?Mən bu əsərə baxmışam və bəyənmişəm”-deyir. 1974-cü ildə Azərbaycan teatrının 100illiyinə həsr olunmuş yubileydə dahi rəhbər teatrımızın taxiri, keçdiyi çətin və şərəfli yaradıcılıq yolu və gələcəyi haqqında dərin məzmunlu,proqram xarakterli məruzə ilə çıxış etdi. 1997-ci il

iyunun 7-də Akademik Milli Dram Teatrında xalq şairi Səməd Vurğunun “Fərhad və Şirin “pyesinin tamaşasına baxdıqdan sonra aktyorlarla görüşdə Heydər Əliyev dedi: ”Tamaşaya hissiz-həyəcansız baxmaq mümkün deyil.Səməd Vurğunun bu əsərindəki psixoloji məqamlara,fəlsəfi fikirlərə,onun yüksək şeiriyyətinə,ədəbi qiymətinə bir daha qayıdıram. Bütün bu məziyyətlər hədsiz dərəcədə təsiredicidir.Əsəri kitabdan oxuyan hər kəs bu təsirin altinda olacaqdır.Amma siz-rejissorlar, tərtibatçılar,aktyorlar,tamaşanı hazırlayan bütün kollektiv isə onu dərk etmək üçün, anlamaq üçün, məzmunu başa düşmək üçün çox böyük məharət, sənətkarlıq nümunəsi göstərmisiniz. Ona görə də mən və eləcə də,salonda əyləşənlərin hamısı bu əsəri başdan-ayağa yaşadıq” [7, s.44].

1981-ci ildə xalq yazıçısı İlyas Əfəndiyevin”Xurşidbanu Natəvan”pyesinin tamaşasına Azərbaycan KPMK-nın büro üzvləri ilə birlikdə baxan Ulu Öndər əsərin orijinal təhlilini verərək demişdir:”Siz ilk növbədə Natəvan- bu şairə haqqındakı şaiələrə son qoydunuz. Natəvanı gözəl Azərbaycan qadını kimi bizə təqdim elədiniz,bununla yanaşı,gözəl xan qızının timsalında siyasi baxımdan və onu xan qızına layiq hərəkətləri ilə bizim şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə sizə sağ ol deyirəm. Mən son monoloqunuza görə sağ ol deyirəm. ”Sovet hakimiyyətinin və ideologiyasının tüğyan etdiyi bir zamanda Azərbaycanın azadlığı və müstəqilliyi məsələsinə xüsusi önəm verən müdrik sənətkar uzaqgörənliklə əsərin baş qəhrəmanı Natəvanın dili ilə deyirdi: Bu uçurumlu yolların sonunda bizi öz milli birliyini,azadlığını tapmış azad Azərbaycan gözləyir! “Oradakı bir cümlə ilə görkəmli dramaturq İlyas Əfəndiyev müstəqilliyimizə gedən yola işarə edirdi.

1998-cil il aprelin 12-də Akademik Milli Dram Teatrında xalq şairi Bəxtiyar Vahabzadənin “Özümüzü kəsən qılınc “ pyesinin tamaşasına baxandan sonra dahi rəhbər yaradıcı kollektivi təbrik edərək demişdi; “Tariximizi araşdırıb bu gün üçün əhəmiyyətli, dəyərli olan səhifələrini indiki və gələcək nəsillərə çatdırmağın özü xalq,millət və gələcək nəsillər qarşısında böyük xidmətdir.Bu xidmətə görə mən Bəxtiyar Vhabzadəyə xüsusi təşəkkür edirəm və hesab edirəm ki,millətimiz,xalqımız,cəmiyyətimiz də bu təşəkkür sözlərimə qoşulacaqlar və daim ona minnətdar olacaqlar” [8] .

Ümummilli Lider haqqında çəkilən filmlər yaradılan musiqi əsərləri, ədəbi əsər də xalqımızın milli- mənəvi sərvətidir.” Əsl məhəbbət haqqında “( rejissor V. Mustafayev) filimi Ulu Öndərin yüksək insani keyfiyyətləri haqqında həqiqətləri tamaşaçılara çatdırır. Bu film dahi rəhbərə həsr olunan on filmdən biridir.”General ,” “Birinci,” “Moskva”, “Kreml,” “”Lider”, Tale”, “Bir həsədin tarixi,” “ Professional,” “ Patriot,” Xüsusi təyinat kimi digər filmlər də bu böyük şəxsiyyətin həyat və fəaliyyətinin çox uğurlu ekran təcəssümüdür.

Ümummilli Lider “Uzaq sahillərdə” filminin yaranması ilə əlaqədər yazırdı. ”Uzaq Sahillərdə” filmi Azərbaycan xalqına nə qədər şöhrət gətirdi. Mən bunu bir dəfə demişəm, ancaq fürsətdən istifadə edib bir də demək istəyirəm ki, ümumiyyətlə, Mehdi Hüseynzadənin kəşf olunmasında mənim şəxsi xidmətim var... Xatirimdədir ,təxminən 1956-1957-ci illər idi ,bunları qəbul etmək istəmirdilər. Yenə deyirəm, istiqamət ondan ibarət idi ki, düşmənləri tapaq-kim gedib legionda faşistlərə qulluq edib. Orada kim qəhrəmanlıq göstərib-onları axtaran yox idi. Özü də düşmən arxasındakı qəhrəmanlar sonralar meydana çıxdı.Həmin o “Baharın on yeddi anı”və başqa

filmlər nə vaxt çəkildi? Amma "Uzaq sahillərdə"ni biz nə vaxt çəkdik? Görürsünüz, o vaxt biz bu materialları qaldırdıq, verdik. Olan olub, keçən keçib. Bu materiallar meydana çıxanda bizim özümüzdə fikir doğdu ki,bu barədə bir oçerk yaradaq. Materialları iki-üç işçimizə verdik ki, onlar yazsınlar. Onlar bunu yazmağa başladılar,ancaq peşəkar deyildilər və bir şey alınmadı.Ona görə müraciət etdik Kommunist Partiyasının Mərkəzi Komitəsinə,Mehdi Hüseynzadə haqqında böyük bir material verdik.Müraciət etdik ki,bizə kömək etsinlər,bunu biz bir əsər kimi yaradaq "[9, s.7]. Sonradan İmran Qasımov və Həsən Seyidbəyli Mehdi Hüseynzadənin qəhrəmanlığından bəhs edən "Uzaq sahillərdə"povestini yazdılar. Ümummilli Lider Heydər Əliyev bu povest əsasında film yaradılması barədə məsələ qaldırdı.Beləliklə,rejissor T.Tağızadə İ.Qasımov və H.Seyidbəylinin eyniadlı povesti əsasında qəhrəmanlıq- macəra filmini yaratdı."Uzaq sahillərdə"filmi ekranlara buraxılandan sonra Sovet İttifaqında geniş rezonans yaratdı [10, s.40].

Kinorejissor Rasim Ocaqovun quruluş verdiyi "İstintaq" bədii filminin çəkilməsi ideyasını da Ümummilli Lider vermiş və filmin ekranlara çıxarılana qədər qarşısına çıxan bütün maneələri o özü dəf etmişdir. Ulu Öndər həmin hadisəni belə xatırlayır: "Mən filmin yaranmasına nəinki kömək,həm də himayədarlıq etdim.Çünki o,1969 –cu ildən respublikanın rəhbəri kimi,siyasi xadim kimi apardığım siyasi işin,xəttin kinoda əksi idi.Ona görə də filmin yaranmasına kömək etmək istəyirdim,ancaq buna nə qədər mane olanlar vardı. Moskva da buraxmırdı. Çünki o vaxtlar Moskvada Daxili İşlər Nazirliyinin başında,-indi açıq danışmaq lazımdır, -rüşvətxorlar, Şolokov və başqaları oturmuşdular.Onlar deyirdilər ki, "belə şey olmaz, siz bununla göstərirsiniz ki, bəli, bizim inzibati orqanlarda, hüquq- mühafizə orqanlarında rüşvətxorlar var.Bu,ola bilməz,doğru deyildir, belə filmi buraxmaq olmaz. "Mən nə qədər mübarizə apardım.Ancaq o film göstəriləndən sonra həm Moskvadan,həm də başqa respublikalardan mənə xeyli telefon zəngləri oldu ki,siz nə qədər böyük işlər görürsünüz. O işləri biz başqa vasitələrlə göstərə bilmirdik. Bu film ilə o işləri bütün dünyaya yaydıq. Nə qədər cəsarətli adamsınız ki,siz öz içərinizdə olan mənfi halları,çürüklüyü və sairəni göstərirsiniz. Dedim ki,biz nəinki göstəririk,həm də bununla mübarizə aparırıq "[9.s.26]. "Bizim tarixi mövzulara aid olan filmlər çox dəyərlidir.Əhəmiyyətli cəhət ondan ibarətdir ki ,biz bunu salnaməyə salmşıq,kino sənətinə salmşıq"-deyən Ulu Öndər tariximizi əks etdirən " Nəsimi ," Babək ", "Dədə Qorqud","Nizami" kimi uğurlu filmlərə yüksək qiymət verirdi.

16 dekabr 1995 –ci ildə Respublika Kinematoqrafçılar İttifaqının qurultayına seçilmiş yeni idarə heyəti üzvülərini qəbul edərkən kinonun əhəmiyyətindən söz açan Ulu Öndər demişdir: "Bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir və bunu qorumalıyıq...Azərbaycan kinosunun 80 illik tarixi xalqımızın salnaməsidir. Çünki biz tariximizlə həmişə fəxr etmişik və eyni zamanda tariximizi qorumalıyıq. Əgər Azərbaycan xalqı –Şərqdə yaşayan və keçmişdə bu sahədə Qərb ölkələrindən geridə qalmış bir xalq, millət 80 il bundan öncə kino sənətini bu müddətdə yaşadıb inkişaf etdiribsə ,bu xalqın mədəniyyətinin nə qədər zəngin olduğunu göstərir. Biz bununla fəxr etməliyik və buna əsasımız var.80 il müddətində Azərbaycan kinosu çox dəyərli əsərlər yaradıbdır və bunu heç vaxt unutmaq olmaz. Azərbaycan xalqının bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edibdir,mədəniyyətə

qovuşubdur" [9, s.5]. Milli kino tariximizin ən parlaq səhifələrinin çoxu Ümummilli Liderimizin adı ilə bağlıdır. Azərbaycan kinosunun inkişafında onun xidmətləri misilsizdir. Xalq artisti Rasim Balayev yazır: "Heydər Əliyev nəinki kino işçilərinin, ümumiyyətlə mədəniyyətin , incəsənətin böyük dostu idi. O, aktyorları ,rəssamları, heykəltəraş və ədəbiyyatçıları çox sevirdi, onlara həmişə qayğı göstərirdi. Mən sənətə 1969 –cu ildən, "Nəsimi"filmndə baş rolun ifasına dəvət alandan, o böyük insanın qayğısını hiss etmişəm. Sənətə 70 ci illərdə gələnlərin, ucdantutma hamısı, elə ondan da əvvəlkilər onun qayğısını görüblər. O, əgər belə demək olarsa, bütün istedadlı adamların qəyyumu idi." [10, s.109]. Kinoşünas Aydın Kazımzadə Ulu Öndərin Azərbaycan kino tarixindəki fəaliyyəti barədə yazır: "Ümummilli Liderimizin həm Azərbaycan, həm də sovet kinematoqrafiyasının inkişafında böyük xidmətləri olmuş, xüsusilə o, milli kinomuzun dünya miqyasında tanınması üçün var qüvvəsini əsirgəməmiş,kino işçilərimizə daim arxa və dayaq olmuşdur [10, s 7].

Bütün həyatını Azərbaycanın yüksəlişinə və çiçəklənməsinə sərf etmiş Ümummilli Lider milli rəssamlıq sənətinin imkişafına da hər zaman diqqət və qayğı ilə yanaşmışdır. Ulu Öndər rəssamların yaradıcılıq şəraitinin yaxşılaşdırılması üçün lazımi şərait yaradılmasına nail oldu. Əhmədli yaşayış massivində, dördüncü mikrorayonda emalatxanalar üçün xüsusi bina inşa olunub rəssamların ixtiyarına verildi. Müstəqillik illərində isə Prezident Heydər Əliyev həmin emalatxanaların pulsuz olaraq rəssamların mülkiyyətinə verilməsi üçün sərəncam imzaladı. Bakıda Rəssamlıq Kolleci və Mədəniyyət və İncəsənət Universiteti mövcud olsa da, o, yeni təhsil ocağının-Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yaradılmasına nail oldu.Ümummilli Lider milli rəssamlıq məktəbinin görkəmli nümayəndələrinin yaradıcılığı haqqında dəyərli fikirlər söyləmiş,onlarla görüşüb ünsiyyət saxlamışdır. Tahir Salahov, Toğrul Nərimanbəyov,Elmira Şahtaxtinskaya, Oktay Sadıqzadə, Maral Rəhmanzadə və başqa rəssamlar onun sənətkar kimi yüksək dəyərləndirdiyi şəxsiyyətlər idi. Ayrı –ayrı rəssamların fərdi yaradıcılıq xüsusiyyətlərini rəssamlıq sənətinə dərindən bələd olan mütəxəssis kimi özünəməxsus ustalıqla təhlil edirdi.O,görkəmli rəssam Səttar Bəhlulzadənin yaradıcılığına yüksək qiymət verərək demişdir: "XX əsr Azərbaycan xalqının mədəni həyatında böyük hadisələr dövrü olubdur. XX əsrdə mədəniyyətimiz bütün sahələrdə sürətlə inkişaf edib,dünya mədəniyyətinə böyük simalar bəxş edib.Onların arasında rəssamlıq sahəsində Səttar Bəhlulzadənin xüsusi yeri var.O,nəinki Azərbaycan,həm də, bütün dünya mədəniyyəti üçün,dünya rəssamlıq sənəti üçün görkəmli bir rəssamdır və böyük mədəni irs qoymuşdur. Azərbaycan xalqı belə bir şəxsiyyəti ilə, belə bir insanla fəxr edir və bundan sonra da fəxr edəcəkdir. O, qeyri-adi bir insan idi. Qeyri-adiliyini öz əsərləri ilə hamıya nümayiş etdiribdir. Rəssamı tanımayan adamlar da onun orijinallığını,novatorluğunu öz gözləri ilə görmüşlər... O, bir insan kimi də əzmkar və fədakar, sənətini çox sevən və bütün həyatını öz sənətinə həsr edən adam idi. Bu insan heç vaxt şan-şöhrət, ad, mükafat dalınca getməmişdir. Belə şeylər onu heç vaxt maraqlandırmayıbdır. Buna görə, onun həyatı da çox sadə olmuşdur. Bəlkə də onun şəxsi həyatı,yaşayışı çox çətin keçmişdir,-mən bunları da bilirəm.Ancaq bununla bərabər,onun daxili aləmi,mənəviyyatı,yaratdığı əsərlər o qədər böyükdür ki, bunlar Səttar Bəhlulzadəni bizə böyük bir sima kimi tanıdıbdır və gələcəkdə də tanıdacaqdır" [7, s.172-173]. Ulu Öndərin şəxsi təşəbbüsü ilə 1973-cü ildə Səttar Bəhlulzadəyə

Dövlət mükafatı verildi. Dünya şöhrətli rəssam Tahir Salahov da Heydər Əliyevin yüksək dəyərləndirdiyi qüdrətli sənətkarlardan idi.Ulu Öndərin portretini yaratmış"bütün dünyada böyük rəngkarlıq, təsviri sənət ustası kimi məşhur"olan sənətkarın həm şəxsiyyətinə,həm də sənətinə böyük dəyər verərək demişdir:"Bizim səninlə münasibətlərimizin böyük,on illərlə tarixi var və çox vacibdir ki,bu münasibətlər heç bir şəraitdə kəsilməmişdir.Biz səninlə tanış olduğumuz vaxtdan bəri mən sənə,sənin yaradıcılığına həmişə böyük hörmətlə yanaşmışam,səni burada da, Moskvada da dəstəkləmişəm,ona görə ki,sən mədəniyyət və incəsənət,o cümlədən də Azərbaycan mədəniyyəti və incəsənəti üçün çox işlər görürsən" [7, .s.442].

Ümummilli Lider tez-tez rəssamlarla görüşər,sərgilərdə iştirak edər və onların yubileylərini keçirərdi. 1978-ci il mayın 12-də rəssam və müğənni Toğrul Nərimanbəyovun yaradıcılıq gecəsində iştirak edən Heydər Əliyev onu milli rəssamlıq sənətinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirmiş və rəssama yaradıcılıq uğurları arzulamışdır.Toğrul Nərimanbəyovun rəssamlıq sahəsindəki uğurları ilə bərabər,musiqi istedadına da xüsusi önəm vermışdir.

Ulu Öndər görkəmli Azərbaycan rəssamları Elmira Şahtaxtinskayanı və Oqtay Sadıqzadəni də qəbul etmiş və onların sənətinə yüksək qiymət vermişdir.

1997-ci il aprelin 15-də xalq rəssamı Ömər Eldarovun görkəmli oftalmoloq alim,akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr etdiyi" Elegiya"əsərinin təqdimat mərasimi keçirildi.Ulu Öndər görkəmli heykəltəraşın yaratdığı"Elegiya"abidəsinə yüksək qiymət vermiş və onu muzeydə qorunub saxlanılmasına qərar vermişdir.Zərifə xanım Əliyevanın qəbri üzərində isə həmin heykəlin əsasında tuncdan hazırlanmış heykəli qoyuldu.

Ümummilli Lider həyat yoldaşı, akademik Zərifə xanım Əliyevanın portreti ilə bağlı rus rəssamı Nikas Safronovla söhbətində demişdir:"Bəri başdan deyim ki,Siz yaxşı portret çəkmisiniz.Ona görə yaxşı deyirəm ki,şübhəsiz,insan yaşa dolduqca dəyişir.Zərifə xanım da dünyasını dəyişməzdən bir neçə il əvvəl təxminən belə görünürdü.Bir sözlə,siz bu məqamı həssaslıqla tutmusunuz.Lakin ən başlıcası budur ki,siz onun xarakterini canlandırmağa müvəffəq olmusunuz.Tam oxşarlıq var,özü də məsələ təkcə oxşarlıqda deyil,obrazdadır.Siz onun obrazını çox yaxşı təsvir etmisiniz" [7, s.467].

1998-ci ildə Ümummilli Liderin göstərişi ilə milli azadlığımızın və ərazi bütövlüyümüzün uğrunda canlarını qurban vermiş qəhrəmanlarımızın şərəfinə şəhidlər xiyabanında abidə kompleksi ucaldıldı. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş əbədi məşəl abidəsi də Ulu Öndərin xüsusi qərarı və diqqəti sayəsində inşa olunmuşdur. Ulu Öndər xalçaçılıq sənətinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirir,xalçaçı rəssamların yaradıcılığına yüksək dəyər verirdi.Onun xalq rəssamı Kamil Əliyevlə də sıx əlaqələri olmuşdur.Onu da qeyd edək ki, Kamil Əliyev Ümummilli Liderin bir neçə xalça portretini yaratmışdır. Ulu Öndər Azərbaycan rəssamlıq sənətinin dünyada təbliğ olunmasına da xüsusi önəm verirdi.

Azərbaycan musiqisinin böyük bir inkişaf dövrü də Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.Onun siyasi məktəbi zəngin bir xəzinədir.Bu siyasət Azərbaycanı dünya miqyasında tanıdır. Respublikaya rəhbərliyi dövründə Ulu Öndər musiqi, balet, teatr, kino sahəsində uğur

qazanan istedadların ölkədən kənarda tanınması üçün məqsədyönlü tədbirlər həyata keçirmişdir. Hələ Sove İttifaqı dövründə Azərbaycan professional musiqi sənətinin baniləri Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin,SSRİ xalq artisti,professional vokal sənətinin banisi Bülbülün, SSRİ xalq artistləri Qara Qarayevin, Niyazinin, Fikrət Əmirovun və başqa sənətkarların ayrı-ayrı yubiley tarixlərinin təkcə Bakıda deyil,başqa şəhərlərdə də təntənə ilə keçirilməsinə nail olmuşdur.Ümummilli Liderin fərmanlarına əsasən dahi şair M.Fuzulinin 500 illik yubileyinin İran, Türkiyə. Fransa və Rusiyada, dünya şöhrətli müğənnimiz Bülbülün 100 illik yubileyinin Moskvada, Tiflisdə və Ankarada, böyük bəstəkarımız Qara Qarayevin 80 illik yubileyinin Moskvada və Parisdə, Rəşid Behbudovun 80 illik yubileyinin Moskvada,"Kitabi- Dədə Qorqud" dastanının 1300 illik yubileyinin Fransada yüksək səviyyədə qeyd olunması Azərbaycanı bir daha yenidən dünyaya tanıtmışdır. Bakıda qeyd olunan görkəmli sənət adamlarının tarixi yubileyləri- Şövkət Ələkbərovanın, Qəmər Almaszadənin, Leyla Vəkilovanın, Nəsibə Zeynalovanın, Tofiq Quliyevin və başqalarının yaradıcılığına həsr olunmuş təntənəli gecələr də milli mədəniyyətimizin tarixinə yazılan uğurlu hadisələrdir. Bu tədbirlərin hər birində Ulu Öndərin şəxsən iştirak etməsi ölkə rəhbəri tərəfindən həm sənətə, həm də sənətkara verilən yüksək dəyərdir.Musiqi sənətimizin inkişafı tarixində Heydər Əliyev dövrü bütövlükdə yüksəliş və tərəqqi dövrüdür desək,səhv etmərik.Azərbaycana rəhbərlik etdiyi böyük bir tarixi dövrdə Heydər Əliyev Azərbaycan milli musiqi mədəniyyətinin dünənini,bugününü,gələcəyini,inkişaf imkanlarını ümummədəni kontekstdə qiymətləndirmişdir ki,bu da onun həyata keçirdiyi dövlət mədəniyyət siyasətinin əsas prinsipləri ilə bağlı idi [11, s.4].

"Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını,elmini,mədəniyyətini,mənəviyyatını dünyaya nümayiş etdirirlər"-deyən Ulu Öndər hər bir çıxışlarında sənətkarlara xüsusi önəm verirdi. Dahi bəstəkar Üzeyir Hacibəylinin yaradıcılığına yüksək qiymət verən Ulu Öndər yazırdı: "Üzeyir bəyin yazdığı hər bir əsər, hər bir not vərəqi, onun ictimai -siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə ,mədəniyyətinin inkişaf etməsinə,xalqımızın özünü tanımasına xidmət etmişdir.Bu xidmətlər heç vaxt unudula bilməz.Bu xidmətlər əvəzsizdir."Ulu Öndərin tövsiyəsi ilə Ü.Hacıbəylinin doğum günü 18 sentyabr hər il musiqi bayramı kimi qeyd olunur.

Musiqi sənətimizdə xüsusi rolu olan böyük bəstəkarımız Tofiq Quliyevin sənətinə yüksək qiymət verən Ulu Öndər qeyd edirdi ki," Hamımız bu dünyadan gedəcəyik.Ancaq Tofiq Quliyevin mahnıları,musiqisi daim yaşayacaqdır."

Görkəmli bəstəkar Qara Qarayevin musiqi mədəniyyətimizin tarixindəki roluna böyük qiymət verən Ümummilli Lider yazırdı:"Qara Qarayev bizə özünün bədii dəyərinə görə valehedici irs qoyub getmişdir. Qara Qarayevin adı mütəffəkkir alim,görkəmli publisist kimi Azərbaycan elminin tarixinə yazılmışdır. Bəstəkar,pedaqoq,alim,rəhbər,ictimai xadim olan Qara Qarayev həmişə və hər işdə alovlu-musiqiçi tribundur.Qara Qarayevin adı,onun musiqisi ölməzdir.İllər,on illər keçəcək, bizim kimi yeni-yeni nəsillər də gözəlliyi Qara Qarayevin əsərləri vasitəsilə dərk edəcəklər"[12.s.3]. Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan Ulu Öndərin sərəncamı ilə 24 bəstəkar və musiqişünasa Prezident təqaüdü verildi.Onların bir çoxu "Şöhrət" ordeninə layiq görüldülər.Arif Məlikov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Habil Əliyev, Arif Babayev

kimi musiqi xadimləri ”İstiqlal “ordeni ilə təltif olundular. O, öz çıxışlarında Bəstəkarlar İttifaqı qarşısında ciddi tələblər qoyurdu.Milli musiqimizin zənginləşməsində və dünyada uğurla təbliğ olunmasında böyük xidmətləri olan görkəmli sənətkarlara daim diqqət və qayğı göstərmişdir.Ulu Öndərin şəxsi dəvəti ilə Mstislav Rostropoviçin Bakida 70 illik yubileyinin təntənə ilə qeyd edilməsi musiqi tariximizdə əlamətdar hadisə oldu.Heydər Əliyev onun yaradıcılığı haqqında demişdir:”Mstislav Rostropoviçin yaradıcılığı dünya,ümumbəşər mədəniyyətinin ən parlaq tərkib hissəsinə çevrilmişdir.Fəxr edirik ki,belə görkəmli incəsənət,mədəniyyət xadimi, XX əsrin görkəmli vətəndaşı bizim həmyerlimizdir,bakılıdır” [7, s.213].

Ulu Öndəri təkcə Azərbaycan xalqı yox,bütün türk və müsəlman dünyası,digər dünya xalqlarına məxsus olan milyonlarla mütərəqqi düşüncəli insanlar sevir və onunla fəxr edirlər. Təsadüfi deyil ki,amerkalı siyasətçi Riçard Armitac Ulu Öndər haqqında demişdir:”Heydər Əliyevin ölümündən sonra dünya bir qədər balacalaşmışdır” [13]. Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl Ümummilli Liderimiz Heydər Əliyevi “Azərbaycan xalqının nicatı üçün bir şans,canını vətəni və xalqı yolunda sipərə çevirən qeyrətli oğul”adlandırıb [14, s.35]. Türk dünyasının tanınmış xadimi Oljas Süleymanov demişdir:”Həyatım boyu mən çox məşhur adamlarla görüşmüşəm.Lakin bu sırada Heydər Əliyev şəxsiyyəti xüsusilə seçilir.Digər xalqlardan sayca az olan bir xalq belə nəhəng insanı yetişdirdiyinə görə,əlbəttə ki,fəxr edə bilər.Hətta sayca böyük xalqlar belə bəşəriyyətə heç də həmişə Heydər Əliyev kimi dünyamiqyaslı şəxsiyyət bəxş etmir.Məhz buna görə Azərbaycan belə bir insanla fəxr edə bilər və fəxr etməlidir.Fəxr etməlidir ki,belə bir şəxsiyyət yetişdirib və bu şəxsiyyət onun tarixində iştirak edib və edir[14, s.222].

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir: ”Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş,azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş,milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir.Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır,yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı-Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti,onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. ”Bəşəri düşüncəyə malik,dünya miqyaslı siyasətçilər sırasında ön cərgədə yer tutmuş Ümummilli Liderin adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır.Bütün ömrünü Azərbaycan Xalqının tərəqqisinə həsr etmiş Ulu Öndərin həyat salnaməsi hər birimiz üçün örnək,nümunə olmuş və olacaqdır.

**Açar sözlər:** Ümummilli lider, mədəniyyət, ədəbiyyat, teatr, kino,rəssamlıq, təhsil, musiqi sənəti.

**Ədəbiyyat**


1. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. B.,"Ozan," 2000 s.420.
2. Nəbiyev B.Heydər Əliyev haqqında etüdlər .Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Şərq- Qərb "2009, s.39.
3. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi.B., Azərbaycan Universiteti nəş., 2002, s.216
4. Əliyev V. Heydər Əliyevin dil siyasəti. B., "Nurlan", 2003, s.87.
5. Axundov A. Bir neçə söz.Xudiyev N.Heydər Əliyev və Azərbaycan dili.B.,"Təhsil"1997, s.5.
6. Əlizadə M. Heydər Əliyev və Azərbaycan teatrı. "525-ci qəzet", 2013, 9may, s.4.
7. Heydər Əliyev. Mədəni irsin keşiyində.11kitab, B., 2001, s.44.
8. Milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər. "Xalq qəzeti", 14 aprel 1998, N;96.
9. Sinematoqraf nəşri,2002, s.7.-10-26
10. Kazımzadə A. Heydər Əliyev və kinematoqraf.B., "Apostroff" MMC. 2011 s.
11. Köçərli İ. Musiqi dolu sətirlər B.,"Səda", 2010, s.4.
12. Qurbanov B. Qara Qarayev yaradıcılığının bədii-estetik xüsusiyyətləri. B., 2019. s.3.
13. "Palitra"qəzeti, 5 oktyabr 2004-cü il.
14. Yaqubova E. "Şərəfli tarixi qayıdış" B., 2011 s.35, 222.



**Cultural policy of Hayder Aliyev**

The rapid development and great achievements of all spheres of Azerbaijani culture in the 20th century were the result of the exceptional services of national leader Heydar Aliyev. The great leader's theoretical and aesthetic views on the fields of science and art, including our centuries-old literature, culture, and art, provide rich material for scientific research works.


## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİNDƏ AZƏRBAYCAN MUZEYLƏRİNİN İNKİŞAF PRİORİTETLƏRİ


**Rəhimə Yaqubəli**

AMEA, Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyatı Muzeyi, Bakı, Azərbaycan

e-mail: rhim.rhimova.92@mail.ru


Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi ehtiramla xatırlanır. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ulu Öndər Heydər Əliyevin mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən zamana nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin şahidi oluruq. Onun dövlətçilik təcrübəsi və qətiyyətinin nəticəsində SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycan siyasi, iqtisadi, mədəni aləmdə dünyanın ən qabaqcıl ölkələri sırasına daxil oldu. Ulu Öndərin fəaliyyəti ilə Azərbaycanda həyat ritmi büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı, iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı

sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, qoruqlar, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi.

Heydər Əliyev milli ruh, azərbaycançılıq məfkurəçiliyinin yüksəldilməsinə böyük əhəmiyyət verir, tarixi maddi və mənəvi sərvətlərin qorunması istiqamətində dövlət qayğısı göstərirdi. Muzeylər, kitabxanalar, arxivlər, teatrların fəaliyyətinin 1993-cü ildə Azərbaycan Respublikasının iştirakı ilə qeyri-siyasi təşkilat– Türkdilli ölkələrin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı üzrə TÜRKSOY Beynəlxalq Təşkilatı yaradıldı, Respublikamız müstəqil dövlət olaraq 1993-cü ildə YUNESKO-nun Haaqa Konvensiyasını, 1997-ci ildə isə Paris Konvensiyasını imzaladı.[2, s.7]

Heydər Əliyev Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimiz üçün qayğısını əsirgəməmişdir. Dahi siyasi xadim mədəniyyət siyasətində muzeylərə, tarixi abidələrə böyük yer ayırırdı. Respublika muzey işçilərinin 1982-ci ildə keçirilmiş müşavirəsində Heydər Əliyev muzey işinin, muzeyşünaslığın daha da inkişaf etdirilməsini, tarix-diyarşünaslıq muzeylərinin əhəmiyyətini qeyd edərək demişdir: "Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzinə çevrilmişdir. Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, kəndinin tarixinə bələd olması üçün də vacibdir".[4] O, həmçinin abidələrin bərpası, qurulması üzrə fərmanlar verməklə yanaşı, həm də onların açılışında iştirak edirdi. Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində bir-birinin ardınca, əvvəlcə Xalq şairi S.Vurğun, daha sonra dahi bəstəkar Ü.Hacıbəyli, görkəmli müğənni Bülbül, tanınmış ədiblər M.S.Ordubadi, H.Cavid, A.Şaiq və başqalarının ev-muzeylərinin yaradılması haqqında SSR Mədəniyyət Nazirliyinin qərarlar verməsinə vəsilə olmuşdu.[5] O, Naxçıvanda olarkən isə Cəlil Məmmədquluzadənin Ev-Muzeyində, Bəhruz Kəngərli Muzeyində və başqa muzeylərdə olmuş, ekspozisiyalarını ziyarət etmiş bu mədəniyyət müəssisələrinin fəaliyyətini gücləndirmək üçün tövsiyələrini vermişdir. 1975-ci il noyabr ayının 20-də dahi liderin təşəbbüsü və iştirakı ilə görkəmli Azərbaycan bəstəkarı, musiqişünas, alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir bəy Hacıbəylinin 1915-1942-ci illər ərzində yaşadığı evdə muzey təşkil edildi və təntənəli açılışı oldu. Ulu Öndər Cəfər Cabbarlının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi barədə 1999-cu ildə xüsusi sərəncam imzalamışdı və bu fərmanın muzeyin həyatında böyük rolu olmuşdur.Yubiley tədbirləri çərçivəsində Cəfər Cabbarlının Ev Muzeyi bir sıra maraqlı layihələri həyata keçirmişdir [1, s.23]. Bərpaya çox ehtiyacı olan tarixi abidə Şirvanşahlar sarayının binası 1983-cü ilin mart ayında təmirə bağlanmış, lakin maliyyə çatışmazlığı səbəbindən dayandırılmışdı. Ulu Öndər müstəqilliyimizin ilk illərində ölkənin müharibə şəraitində olduğuna baxmayaraq "çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik" deyərək onun tamamlanmasına vəsilə oldu və 1998-ci ildə, Novruz bayramı günlərində Şirvanşahlar Sarayına onun gəlişi bu gün də xoş xatirə kimi yada salınır [3]. Hüseyn Cavidin nəşinin Sibirdən gətirilməsi və doğulduğu torpaqda

dəfn olunaraq 1996-cı ildə məqbərəsinin açılışı, Bakıda və Naxçıvanda ev muzeyinin təşkil edilməsi uzaqgörən, müdrik şəxsiyyət Heydər Əliyevin vətənimizə, xalqımıza əvəzolunmaz xidmətidir [6].

Ümummilli Liderimiz Heydər Əliyevin kursunu ləyaqətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətində də mədəni irsimizə diqqət və qayğı mühüm yer tutur. Ölkə başçısının imzaladığı sərəncamlar bu qayğının bariz ifadəsidir. Möhtərəm Prezidentimizin imzaladığı «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal abidəsinin uçaldılması haqqında», «Müasir İncəsənət Muzeyinin yaradılması haqqında», «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında», «Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» sərəncamlarının icrası milli mədəniyyətimizin inkişafına böyük təkan vermişdir. Ulu Öndərin örnək həyat yolunu və zəngin dövlətçilik irsinin yeni nəsillərə çatdırılması məqsədilə yaradılmış Heydər Əliyev mərkəzlərində nümayiş etdirilən eksponatlar, materiallar, fotolar isə ziyarətçilər tərəfindən maraqla qarşılanır. Bu mərkəzlər mənsub olduğu xalqa bağışlanmış bir dahi insan ömrünün səhifələrini canlandıran məbədlərə çevrilmişdir [2, s.8]. Tariximizə qızıl hərflərlə həkk olunmuş zəfərdən sonra Qarabağa qayıdış və orada tarixi, mədəni abidələrimizin bərpası isə mədəniyyətimizin inkişafında uğurla təməli qoyulmuş yeni mərhələdir ki, neçə-neçə layihələrə, elmi işlərə cığır açır.

**Açar sözlər**: beynəlxalq təşkilatlar, Heydər Əliyev, mədəniyyət siyasəti, muzey, tarixi abidə.

## Ədəbiyyat

1. Bayramov A. Heydər Əliyev və muzeylərimiz. Bakı: Şur, 1999, 90 səh.
2. “Sənət, sənət məbədləri, sənət fədailəri «Vətənoğlu» NPŞ MMC, Bakı, 2015, 336 səh.
3. Əliyeva S. Heydər Əliyev və İçərişəhər. Azərbaycan qəzeti 15 iyun 2019 -cu il.
4. https://www.medeniyyet.az/page/news/66386/Heyder-Eliyev-muzey-quruculugunu-hemise-diqqetde-saxlayib.html
5. https://nizamimuseum.az/index.php?mod=news&id=2140&lang=az
6. https://www.huseyncavid.az/news2020.php?go=xeber25

## The development priorities of Azerbaijan museums in the cultural policy of the Great Leader Hayder Aliyev

Heydar Aliyev, a wise personality who played an irreplaceable role in the history of the Azerbaijani people, paid great attention to our national values and culture. The state has always taken care of cultural and artistic figures in its activities. The Great Leader also signed decrees on the creation and restoration of museums, historical monuments, memorial complexes, gave instructions and participated in their opening. The article provides information about the position of national culture in his meaningful, deep life path.

# THE CONCEPT OF SAVIOR LEADERSHIP IN POLITICAL COMMUNICATION: A QUALITATIVE RESEARCH ON HAYDAR ALIYEV'S PERCEPTION OF THE TURKIC WORLD

**Baha Ahmet Yilmaz**
Institute of Social Sciences, Department of Communication
Research & PhD. Dublin University & BZT Academy
e-mail: bahayilmaz@bztacademy.com

*"Liberty and Independence are the National Wealth of Every Nation"*
*-Haydar ALIYEV*

**Introduction:** Individuals who make up the building block of society can take on different roles in the structure they are in. Although it has a controversial and comprehensive terminology, one of the most prominent roles is leadership. The concept of leadership, which has been accompanied by concepts such as authoritarian, participatory and charismatic, has been frequently used in the periods when societies gained independence, especially since the 1970s. In this context, although there are many names for the leadership of Heydar Aliyev, one of the founding leaders of the Azerbaijan Republic, which gained its independence on October 18, 1991 after the end of the Cold War, the definitions made are insufficient considering the relevant conjuncture. Despite being under the rule of the Soviet Union for a long time, the most effective leadership label that can be used for the founder of this young republic, which started to build its own identity compared to other countries in the region that gained independence at the same time, is undoubtedly the savior leadership.

**Purpose:** In this direction, in the related study, the meaning categories related to the concept of rescuing leadership for Haydar Aliyev will be determined and its relationship with this concept at the level of discourse will be questioned. In this context, the summit statements published regularly every year by the Turkic Council or the Cooperation Council of Turkic Speaking States (Turkic Council), which was established in 1991, constitute the sample of this study.

**Method:** In this study, it has been tried to analyze the relationship with the savior leadership in the context of Haydar Aliyev's discourse and policies in the declarations of the council, which was established in order to integrate the Turkic Republics in Central Asia and the Caucasus, which have just gained independence under the leadership of Turkey, to each other and to the international system. In addition, qualitative data-based content analysis was conducted to determine which research model they reflect in terms of their content and to what extent they meet the dialogic principles, while qualitative content analysis based on thematic coding was carried out to describe

the subjects they included in the papers. The MAXQDA 20 package program was used for the analysis.

**Results:** In the seven summit reports held between 1992-2002; regional and international integration, cultural integration, political integration and dialogue thematic coding and content analysis were made. As a result of the analysis, "One nation, two states" used by Heydar Aliyev for Turkey and Azerbaijan at the relevant summits stands out as the most frequently used and used discourse under the theme of cultural integration. On the other hand, the Turkish World discourse, which the Republic of Azerbaijan sees in parallel with its own identity construction, is another prominent concept in regional and international integration. Under the theme of political integration, he underlined the need for Azerbaijan to develop friendly relations with both the region and other countries, and maintained its pro-peace stance until the last moment, even in the Nagorno-Karabakh conflict, which started with Armenia's occupation of Azerbaijan's lands in the early 1990s. This situation also shows us the importance Aliyev gives to dialogue. As a result, as seen in the content analysis of the summit statements, Haydar Aliyev displayed a common attitude with Turkish President Süleyman Demirel in the integration process of the Turkic World with a policy prioritizing the full independence of Azerbaijan. The economic crisis that started with the year 1994 in the Turkic republics caused the targeted integration to remain in another period. In this process, it can be said that Heydar Aliyev gave priority to cultural integration towards the Turkish world.

**Keywords:** Heydar Aliyev, Savior Leadership.

## References

1. Al-Falah A. A. (2007). Heydar Aliyev and National-spiritual Values. Baku: Gismet.
2. Azerbaycan'da Yargı Gücünün Reformunda, HAYDAR & Aliyev, İ. Cilt: 1 Sayı: Haydar Aliyev Özel Sayısı Mayıs 2013/Volume: 1 Issue: Haydar Aliyev Special Issue May 2013. Asia Minor Studies, 73.
3. Beşikçi, A.G.S.Ö. (2016). Bağımsızlık Sonrası Dönemde Azerbaycan Dış Politikasındaki Stratejik Değişimler ve Yönelimler. Türk Dünyası İncelemeleri Dergisi, 16(2).
4. Dikkaya M., Demirci O. (2013). Azerbaycan'ın Küresel Ekonomiye Eklemlenmesinde Haydar Aliyev'in Rolü.
5. Erarslan F., Özdemir, F.N. (2021). Azerbaycan-Türkiye İlişkilerinde Önemli Bir Kavşak: İkinci Karabağ Savaşı. Türk Dünyası Araştırmaları, 129(255), 315-334.
6. Karimov B. (2007). Haydar Aliyev Döneminde Azerbaycan Cumhuriyetinin Dış Politikası (1993-2003). İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Anabilim Dalı, Yayımlanmamış Yüksek Lisans Tezi, İstanbul.
7. Kerimova G. (2015). Azerbaycanın Bağımsızlık Sonrası Kafkasya Politikası: Haydar Aliyev Dönemi (1993-2003) (Master's thesis, Sosyal Bilimler Enstitüsü).
8. Schneiker A. (2020). Populist leadership: The superhero Donald Trump as savior in times of crisis. Political Studies, 68(4), 857-874.

# AZƏRBAYCANDA MÜASİR TURİZMİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Qəhrəman Yusupov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: yu.gahraman@au.edu.az

Özünü doğrultmayan sosializm ictimai quruluşunun dağılması ilə müstəqilliyimizi əldə etdikdən sonra bazar iqtisadi münasibətlərin tətbiqi zərurəti yarandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi getdi.

İqtisadi inkişaf yolunun düzgün seçilməsi ilə Heydər Əliyevin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə artmasına səbəb olmuş və turizm sahəsində uğurlu islahatların aparılmasına imkan yaradılmışdır.

Xarici ölkələrə sərbəst çıxışın olması ilə getmə turizm forması sürətlə inkişaf etməyə başlamışdır. Daha çox şop-turizm növü inkişaf etmişdir. İşsizlik, yerli valyutanın kursunun aşağı düşməsi səbəbindən ölkə əhalisi əlində olan maliyyə imkanlarını xarici ölkələrdən istehlak və ərzaq mallarının alınmasına sərf edir.

1994-cü ildə neft hasilatı məqsədi ilə 7 ölkədən 11 transmilli korporasiya "Əsrin müaviləsi"nin bağlanması Heydər Əliyev siyasətinin ölkə iqtisadiyyatının qaldırılması, əhalinin yoxsulluqdan çıxarılması naminə düzgün seçimi idi [4, s.163].

Ölkəmizə işləmək üçün gələn mütəxəssislərlə yanaşı ölkəmizin təbii, antropogen, etnoqrafik resurslarını görmək istəyən əcnəbi turistlərin sayı artmağa başladı. Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizə beynəlxalq hotel şəbəkə şirkətləri dəvət olundu. 1995-ci ildə Bakıda dünyanın ən böyük hotel şəbəkələrindən olan beşulduzlu "Hyatt Regency" hoteli açıldı [1].

Ardıcıl olaraq 1997-ci ildə "Grand Hotel Europe", 1998-ci ildə "Radisson SAS Plaza Hotel", 1999-cu ildə "Park Hyatt Hotel" beynəlxalq şəbəkə hotelləri fəaliyyət göstərməyə başladılar. Beynəlxalq şəbəkə hotellərinin fəaliyyəti yerli yerləşmə vasitələrində xidmət keyfiyyətinin yüksəldilməsində önəmli rol oynamışdır. Bu isə öz növbəsində xarici ölkə vətəndaşlarının ölkəmizə gələrək münasib xidmətlə qarşılaşacağına əminlik yaradır. Bunun davamı olaraq françayzinq şərtləri daxilində Ramada, Excelsior Hotel, Sheraton, JW Marriott, Pullman və digər beynəlxalq şəbəkə hotellərinin Azərbaycana gəlməsinə yol açılmışdır. Eyni zamanda yerli hotel şəbəkələri də yaranmışdır.

Hər hansı fəaliyyət qanunvericiliklə nizamlanmalıdır. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" Qanun qəbul edilmiş [2], 2001-ci ildə Ümumdünya Turizm Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turizm təşkilatına üzv qəbul olunmuşdur [1].

Hazırda turizmin inkişafı Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə

çevrilməklə iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi nəzərdən keçirilir. Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilir. Ölkənin ümumi daxili məhsulunda turizm sahəsinin təqribən 3% payı vardır [5].

Ölkəmizdə 2003-cü ildə ilk milli parklar yaradılması həmin ərazilərin mühafizəsi ilə yanaşı turistlərin rahat istirahəti məqsədi ilə münasib infrastrukturun yaradılmasını nəzərdə tutur. Milli parkların sayı 10-a çatmışdır [6], əcnəbi turistlərin ölkəmizə gəlməsinin asanlaşdırılması məqsədilə ASAN viza sistemi tətbiq edilib, bir sıra ölkələrlə viza rejimi sadələşdirilib, regionlarda yeni istirahət mərkəzləri açılır. Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inkişafın nəticəsidir ki, ölkəmizdə yerləşmə obyektlərinin, istirahət və əyləncə mərkəzlərinin sayı idən-ilə artır.

Ölkənin idman yarışları hesabına, idmançılar hesabına tanınması, ölkəmiz barədə xarici vətəndaşların maraqlanmasına və buraya turist səfərləri etməyə həvəs yaradır. 1993-2003-cü illərdə Olimpiya, Dünya, Avropa və müxtəlif səviyyəli digər beynəlxalq yarışlarda Azərbaycan idmançıları 1400-ə yaxın qızıl, gümüş, bürünc medallara sahib olmuşlar [3]. Həmin dövr ərzində ölkəmizdə onlarla beynəlxalq səviyyəli yarışlar keçirilmişdir. Kiçik idman qurğuları, stadionları və idman kompleksləri ilə yanaşı 2000-ci ildən bağlayaraq ölkəmizin müxtəlif regionlarında olimpiya idman kompleksləri tikilməyə başlanmışdır və 2022-ci ildə ölkə üzrə bu cür komplekslərin sayı 75-ə çatmışdır [5].

"Xalq bir çox xüsusiyyətlərilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Bu sözləri xalqımızın lideri Heydər Əliyev demişdir. Multikulturalizmin qorunması, ölkəmizdə yaşayan bütün xalqların özəlliklərinin geniş beynəlxalq ictimaiyyətə tanıdılması dövlət siyasətinə çevrilmişdir. 1977-ci ildə Bakının İçərişəhəri, Şuşanın və Şəkinin memarlıq abidələri, Ordubadın tarixi hissəsi memarlıq qoruğu statusu aldı. “Lahıc” Dövlət Tarix-Mədəniyyət qoruğu 1980-ci ildə yaradılıb. Müxtəlif regionlarda yerli xüsusiyyətlərə uyğun olaraq alma, nar, subtropik bitkilər, kulinariya bayramları keçirilir [7].

Ölkəmizdə 6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. Bunların 65-i dünya, 2034-ü ölkə, qalanı isə yerli əhəmiyyətlidir. UNESCO-nun Dünya İrs Siyahısına İçərişəhər Şirvanşahlar sarayı və Qız qalası, Şəki Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi daxildir [8].

Turizm sahəsi ilə əlaqəli qanunverici aktların verilməsi ilə yanaşı, mədəniyyət barədə, tarix və mədəniyyət abidələrin qorunması, xüsusi mühafizə olunan təbiət əraziləri, muzeylərin fəaliyyəti barədə qanunlar və qanunverici aktlar qəbul edilmişdir. Bu sahələrə dövlətin xüsusi diqqəti olmuşdur.

2002-ci ildən başlayaraq Bakıda hər il Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi keçirilir ki, burada ölkəmizin turizm potensialı bir çox xarici ölkə iştirakçılarına təqdim olunur, turoperatorlarımız xarici turizm şirkətləri ilə əməkdaşlıq imkanlarına malik olurlar.

Azərbaycanın turizm cəlbediciliyinin tanınması, onun iqtisadi və mədəni qüdrətinin tərənnüm etdirilməsinin təməli məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

**Açar sözlər:** müasir turizm, beynəlxalq şəbəkə hotelləri, idman kompleksləri, multikulturalizm.

**Ədəbiyyat**


1. Mürvətov Ə. Azərbaycan qəzeti, 2009, 7 may, s.3.
2. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu, 1999 il.
3. Heydər Əliyev və Azərbaycan idmanı, sənədli publisistika, Bakı, Turan evi – 2004, 160 s.
4. Osman Nuri Aras, Süleymanov E., Azərbaycan İqtisadiyyatı, Bakı-2010, "Şərq-Qərb" mətbəəsi, 314 s.
5. https://www.stat.gov.az/source/system_nat_accounts/;
6. http://eco.gov.az/az/tebii-servetlerimiz/milli-parklar;
7. https://culture.gov.az/az/medeniyyet-tesisatlari-muessiseleri;
8. http://irs.gov.az/.


**Hayder Aliyev's role in the development of modern tourism in Azerbaijan**


Under the leadership of the national leader Heydar Aliyev, the development of tourism in Azerbaijan is under special attention. Opening of new hotels, including international chain hotels. The holding of sports events and the creation of national parks created the basis for the rapid development of tourism.


## НАДГРОБНЫЙ ПАМЯТНИК ГЕЙДАРУ АЛИЕВУ В КОНТЕКСТЕ ИДЕЙНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ И ХУДОЖЕСТВЕННОГО АНАЛИЗА


**Хазар Зейналов**

Институт архитектуры и искусств НАН Азербайджана, Баку, Азкрбаджан

e-mail: khazar.zeynalov@yandex.com


Общенациональному лидеру азербайджанского народа Гейдару Алиеву было установлено много памятников. Эти монументальные памятники воздвигнуты не только в республике, но и далеко за ее пределами.

Одним из важных, значимых памятников Гейдару Алиеву, является надгробный памятник, находящийся на Аллее почетного захоронения в Баку (2004; скульптор Омар Эльдаров). Памятник имеет большое значение в идейно-художественном, смысловом и духовно-нравственном плане.

Памятник являет собой целый мемориальный комплекс. Он включает довольно обширный участок, облицованный гранитом светло-коричневого и темно-коричневого цвета. В центре ансамбля находится могила; постамент, на котором стоит памятник, органически соединен с ней. Позади памятника, как бы загораживая ансамбль, высится широкая массивная стена, на которой высечена огромная каменная карта Азербайджанской Республики. Передняя часть комплекса решена в более простой конструктивной форме и

представляет собой невысокую плоскость, завершающейся массивной лестницей с двумя ступенями. Здесь же расположены плоская тумба для возложения венков и декоративная железная цепь, загораживающая комплекс. Участок имеет симметрическое строение. На центральной оси находятся могила, памятник и каменная карта Азербайджана.

Бронзовый памятник стоит на постаменте, облицованном светло-коричневыми, чуть красноватыми гранитными плитами. Постамент является четырехугольным в плане и отличается довольно низким уровнем. Памятник в целом выглядит статически; на первый взгляд в нем нет сколько-нибудь заметной пластики. Гейдар Алиев стоит неподвижно, гордо, с высоко поднятой головой, руки опущены вниз. Ясные и уверенные взгляды образа обращены чуть влево. При внимательном разглядывании нетрудно заметить, что левая нога расположена чуть впереди правой, которая несколько отходит от центра тяжести памятника. Эти перечисленные особенности вносят дополнительную динамику в статическую конструкцию, делая ее более оживленной и пластичной. «Автор, отражая образ в стоящем виде, гордым и серьезным, придал памятнику хорошо замечаемую торжественность. Общенациональный лидер словно слушает гимн Азербайджана. И хотя в образе наблюдается некоторая статичность, в нем чувствуется и скрытая, можно сказать, внутренняя динамика, которая не сразу бросается в глаза. Кроме этих серьезных особенностей, образ наделен и еле заметной улыбкой» [3, 17]. Эти особенности придают памятнику, отличающемуся статической внешностью, некоторую динамичность, которая словно оживляет его. Выразительные черты лица еще больше усиливают эту особенность.

Одним из основных художественных элементов комплекса является задняя стена. Как было отмечено, эта массивная стена завершает художественную композицию сзади [1, с.163]. Вокруг тумбы размещены рельефные выступы, отличающиеся своим, можно сказать, абстрактным содержанием. На фоне каменной карты Азербайджана фигура Гейдара Алиева выглядит более торжественно. Бронзовый памятник, отличающийся более темными цветовыми оттенками, хорошо просматривается на фоне заднего панно, цвет которого является более светлым. В идейную канву ансамбля заложена мысль – «Гейдар Алиев - строитель современного Азербайджана». Заднее панно и памятник непосредственно не связаны между собой. Между ними имеется некоторое расстояние. Однако между ними есть тесная идейно-эстетическая связь. Обе части композиции (памятник и карта) вместе смотрятся более могущественно и целостно. Это придает комплексу идейно-художественную завершенность [2, с.68]. Общирные зеленные массивы, окружающие комплекс, придают ему величественый, эстетически завершенный вид.

Надгробный памятник Гейдару Алиеву имеет большое значение не только в художественном, но и идейно-нравственном и политическом отношении. Государственные деятели и члены правительства, зарубежные гости, представители неправительственных организаций, студенты и школьники, наконец, простые люди все время приходят сюда почтить память общенационального лидера Гейдара Алиева и Зарифы ханум Алиевой.

**Ключевые слова:** памятник Гейдару Алиеву, изобразительное искусство Азербайджана, монументальная скульптура, мемориальный комплекс, аллея почетного захоронения.

**Литература**

1. Əliyev Z.A. XX ə. Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri. Bakı, “Elm və təhsil”, 2016, 191 s.
2. Əsgərova N. Heydər Əliyev obrazı heykəltəraş Ömər Eldarovun yaradıcılığında // Heydər Əliyev və Azərbaycan incəsənəti (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları). Bakı, “Orxan” NPŞ MMC, 2016, s. 65-71.
3. Seyidəhmədli G.T. Azərbaycan memaorial heykəltəraşlığının bədii xüsusiyyətləri (Fəxri Xiyabanın abidələri əsasında) // Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, AMEA-nın mətbəəsi, 2017, 26 s.

**Heydar Aliyev's funeral monument in the context of ideal and moral values and artistic analysis**

The article talks about the graveside monument of the great leader Heydar Aliyev, located in Fakhri Khiyaban (alley of honorable burial), Baku. Analyzing the monument at the level of art studies, the author notes that this magnificent memorial complex has an interesting compositional solution and gives an original effect. The article justifies the artistic-aesthetic value of the monument. It is emphasized that this monument, which has a rich artistic content, is also of great importance from an ideological and psychological point of view.